Doktor Casim Musəvi

# Şübhaların KƏŞFİ

İHSAN İLAHİ ZAHİRİN "ŞİƏ VƏ ƏHLİ-BEYT" KİTABINA RƏDDİYƏ

1

313news

**Doktor Seyyid Casim Musəvi**

# ŞÜBHƏLƏRİN KƏŞFİ

***İhsan İlahi Zahirin***
***"Şiə və Əhli-Beyt" kitabındakı iddialara***
***böyük rəddiyyə***

**I**
**CİLD**

| | |
|---|---|
| Layihə rəhbəri: | 313news.net |
| Tərcüməçi: | Hilal Ağamoğlanov |
| Redaktor: | Peyman Məmmədov |
| Korrektor: | Peyman Məmmədov |
| Texniki redaktor: | Tural Ordubadi |


**Bu kitabı tərcümə etməkdə məqsədimiz insanlara sələfilərin (vəhhabilərin) ən tərifli münazirə və rəddiyyə ustadlarından birinin yalan və böhtanlarını insanlara göstərmək və bu əqidə daşıyıcılarından mümkün qədər ehtiyatlı olmalarını təbliğ etməkdir. Bu kimi şəxslər müsəlmanları azdırıb öz sıralarına daxil etməkdən ötrü hər cür yalan danışmağa və manipulyasiya etməyə hazırdırlar.**

**İhsan İlahi Zahir öz yalanları ilə təəssüf ki, minlərlə şiə və müxtəlif məzhəb nümayəndələrini sələfiliyə dəvət edə bilir. Əlinizdəki kitabda onun saysız-hesabsız yalanları ilə, təhrifləri ilə tanış olacaqsınız.**

**1987-ci ilin 23 Mart tarixində Lahor şəhərində xütbə zamanı bomba hücumu nəticəsində ağır yaralanır. Səudiyyə Kralı Fəhd ibn Əbdüləzizin göstərişi ilə Riyad şəhərindəki Feysəl Hərbi Hospitalına köçürülsə də, həyatını xilas edə bilmirlər. Cənazə namazını Şeyx ibn Baz qılmış və Bəqi qəbirstanlığında dəfn edilmişdir.**

**İhsan İlahi Zahir Mədinədə bir çox məşhur sələfi şeyxindən dərs almışdı. Onların arasında "əsrin mühəddisi" ləqəbli Hafiz Muhəmməd Qondəlvi, Şeyx Əlbani, Şeyx Əbdüləziz ibn Bazı saymaq olar.**

**İhsan İlahi Zahirin İbn Bazla xüsusi münasibətləri var idi. Xütbə zamanı İbn Baz onu öz yanında otuzdurardı. O, Mədinədə oxuyanda Şeyx İbn Baz Mədinə Universitetinin rektoru idi. İlahi Zahir son kursda ikən ona mühazirə deməyə icazə verilmişdi. Həmin vaxt o, "Qadiyanilik" əqidəsinə qarşı kitab yazır və Pakistanda nəşr etdirmək istəyir. Kitabda "Mədinə Universitetinin məzunu" sözlərini yazmaq istəsə də, faktiki olaraq Universiteti bitirmədiyi üçün rəhbərliyin icazəsi lazım olur. İbn Baz ona bu xüsusi icazəni verir. İlahi Zahir sual verir ki: "Birdən mən məzun ola bilməsəm necə?" İbn Baz cavab verir: "Əgər sən məzun ola bilməsən, mən bu Universitetin qapılarını bağlayaram!"**

**Onun "Şiə və əhli-beyt", "Şiə və şiəlik", "Şiə və Quran", "Şiə və sünnə" kimi yalan və təhrif dolu kitabları var. Bu kitalar bir çox başqa dillərə də tərcümə edilib. Əlinizdəki kitab onun "Şiə və əhli-beyt" kitabına rəddiyyə olaraq yazılmışdır, hansı ki, vaxtilə Pakistanda ilk 9 ay ərzində 5 dəfə təkrar-təkrar nəşr edilmişdi.**

# MÜNDƏRİCAT


Müqəddimə ... 8
İnsanlar arasında fikir ayrılığı və fərqlilik ... 9
Peyğəmbər (s) ümmətinin ixtilafı ... 9
İxtilafın dərinləşməsi ... 14
Vahabilik ... 16
İhsan İlahi Zahir ... 18
İxtilaflı məsələlərdə bəhs üslubu ... 19
İhsan Zahirin elmi bəhs qaydalarını pozması ... 21
Birinci: Saxtakarlıq ... 22
A. Lüğət alimlərinin sözlərində oynamalar ... 22
B. Şiə alimlərinin sözlərində oynamalar ... 23
C. Şiə rəvayətləri ilə oynamalar ... 26
İkinci: İmamiyyə şiələri ilə başqa firqələrin rəylərini səhv salması ... 29
Üçüncü: Yazılarında qarşı tərəfə söyüş, təhqir, nalayiq sözlər işlətməsi və təkfir etməsi 33
Dördüncü: Şiələrin sözlərini araşdırarkən ixtilaflı mənbələrə əsaslanması ... 34
İhsan Zahirin "Şiə və Əhli-Beyt" kitabına irad üslubumuz ... 44
Birinci bab: Əhli-Beyt (ə) və səhabələr ... 48
Birinci fəsil: Əhli-Beyt kəlməsinin lüğətdə, Quranda və sünnədəki mənaları ... 50
Birinci bəhs: "Əhli-Beyt" kəlməsi lüğətdə ... 51
Birinci: "Qamus"un müəllifi (vəfatı: h.q. 817, m. 1415) ... 51
İkinci: Zübeydi (vəfatı: h.q. 1205, m. 1791) ... 52
Üçüncü: İbn Mənzur (vəfatı: h.q. 711, m. 1311) ... 53
Dördüncü: Cövhəri (vəfatı: h.q. 393, m. 1002) ... 54
Beşinci: Zəməxşəri (vəfatı: h.q. 538, m. 1143) ... 55
Altıncı: Xəlil ibn Əhməd Fərahidi (vəfatı: h.q. 170, m. 786) ... 55
Yeddinci: Rağıb İsfahani (vəfatı: h.q. 502, m. 1108) ... 56
İkinci bəhs: "Əhli-Beyt" Qurani-Kərimdə ... 60
Birinci məsələ: Quranda "Əhli-Beyt" kəlməsinin yalnız zövcələr barədə istifadə edildiyi iddiası ... 60
İkinci məsələ: Ayənin məxsusi olaraq Peyğəmbər (s) zövcələri barədə nazil olmasına ayənin ardıcıllığını dəlil göstərmək ... 73
Üçüncü məsələ: Ayənin Peyğəmbər (s) qadınlarına məxsus olması kimlərə nisbət verilir ... 77
Üçüncü bəhs: Rəvayətlərdə Əhli-Beyt ... 87
Birinci mövzu: Əhli-Beytin "Kisa" əhli ilə məhdudlaşdığına dair rəvayətlər ... 87
İkinci mövzu: İhsan Zahirin Buxarinin "Səhih"indəki rəvayəti dəlil göstərməsi .. 101

Üçüncü mövzu: “Təthir” ayəsinin Peyğəmbər (s) zövcələri barədə nazil olduğu iddiası ... 107
Dördüncü mövzu: Ayənin Bəni-Haşimə şamil olması ... 113
İkinci fəsil: Qurani-Kərimin ümumi səhabələrə münasibəti ... 123
Birinci bəhs: Qurani-Kərimin bütün səhabələrdən razılıq ifadə etdiyi iddiası ... 125
Birinci ayə: Səcdə 16 ... 125
İkinci ayə: Ali-İmran 191 ... 127
Üçüncü ayə: Fəth 29 ... 130
Dördüncü ayə: Tövbə 117 ... 134
Beşinci ayə: Fəth 18-19 ... 137
Altıncı ayə: Ali-İmran 195 ... 141
Yeddinci ayə: Ənfal 47 ... 142
Səkkizinci ayə: Tövbə 100 ... 143
İkinci bəhs: Qurani-Kərimin səhabələrə həqiqi münasibətinin bəyanı ... 146
Üçüncü fəsil: Peyğəmbərin (s) səhabələrə münasibəti ... 152
Birinci bəhs: Peyğəmbərə (s) nisbət verilən hədislər və onların müzakirəsi ... 153
Birinci hədis: İlahi, ənsarı, ənsarın övladlarını və övladlarının övladlarını da bağışla! ... 153
İkinci hədis: Ənsar mənim yaxınlarım və gözümdür. ... 156
Üçüncü hədis: İmam Baqirdən (ə) Peyğəmbər (s) səhabələrinin münafiqliyini inkar edən rəvayət ... 158
Dördüncü hədis: Peyğəmbər (s) öz səhabələrinə səadət və Cənnətlə müjdə verir. 161
İkinci bəhs: Peyğəmbərin (s) ümumən səhabəyə həqiqi münasibətinin bəyanı ... 165
Birinci hissə: Bir dəstə səhabənin Cəhənnəmə daxil olacağını bildirən rəvayətlər 165
İkinci hissə: Bəzi səhabələrin ümumi olaraq məzəmmət edildiyinə dəlalət edən rəvayətlər ... 172
Üçüncü hissə: Peyğəmbərin (s) bəzi səhabələri məzəmmət etdiyinə dair rəvayətlər ... 197
Dördüncü hissə: Nakisin, mariqin və qasitinlərlə savaşmağı əmr edən rəvayətlər 208
Dördüncü fəsil: Əhli-Beytin (ə) ümumən səhabəyə münasibəti ... 212
Birinci bəhs: Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiasının dəlillərinin müzakirəsi ... 214
Birinci dəlil: Onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər ... 214
İkinci dəlil: Bu rəftarınıza görə qan sağacaqsınız və ondan sonra peşman olacaqsınız ... 217
Üçüncü dəlil: Onlar qardaşlarım idilər ki, getdilər. ... 219
Beşinci dəlil: İslamı ilk qəbul edənlər öndə olduqları üçün qalib gəlmişdilər ... 222
Altıncı dəlil: Mühacirlərdə bizim bildiyimiz çoxlu xeyirlər var ... 227
Yeddinci dəlil: Onlar İslamı var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə bəsləyərək yetişdirdilər ... 227

Səkkizinci dəlil: Əli ibn Əbu Talib öz səhabələrini Peyğəmbər (s) ənsarı ilə müqayisə edir ........ 229
Onuncu dəlil: Əli (ə) Ənsar və mühaciri birlikdə qeyd edərək tərifləyir ........ 233
On birinci dəlil: Onları məğfirət və razılığınla yad et. İlahi, xüsusilə də Muhəmmədin səhabələrini! ........ 237
On ikinci dəlil: Hz. Muhəmmədin (s) səhabələri digər peyğəmbərlərin (ə) səhabələrindən üstündür ........ 239
On üçüncü dəlil: Səhabələrə qarşı çıxana əzab verilər ........ 240
On dördüncü dəlil: Səhabələrim göydəki ulduzlar kimidir ........ 241
İkinci bəhs: İmam Əlinin (ə) səhabələrə həqiqi münasibətinin bəyanı ........ 246
Birinci məqam: Əbu Bəkrin xəlifəliyini inkar etməsi ........ 246
İkinci məqam: İmam Əli (ə) Əbu Bəkr və Öməri yalançılıq, günahkarlıq, namərdlik və xainliklə vəsf edir ........ 251
Üçüncü məqam: İmam Əlinin (ə) Osmana qarşı ittihamları və ondan narazılığı .. 252
Dördüncü məqam: Osmana beyət edən Əbdürrəhman ibn Ovfu və bəzi səhabələri danlaması ........ 256
Beşinci məqam: İmam Əlinin (ə) ona beyət və yardım etməyən səhabələrdən narazılığı ........ 258
Altıncı məqam: İmam Əlinin (ə) Zübeyri və oğlunu danlaması ........ 260
Yeddinci məqam: Əbu Musa Əşərini danlaması ........ 265
Səkkizinci məqam: Müaviyəni və səhabədən olan tərəfdarlarını danlayıb, onları lənətləməsi ........ 266
Doqquzuncu məqam: Əbu Süfyanı və oğlunu pisləməsi ........ 269
Onuncu məqam: Bəni-Üməyyəni danlaması ........ 269
On birinci məqam: Qədir-Xum hədisini gizləyən səhabələri danlaması ........ 270
İkinci bab: Əhli-Beyt (ə) və Əbu Bəkr ibn Əbu Qühafə ........ 273
Birinci fəsil: Əhli-Beytin (ə) Əbu Bəkrə münasibəti ........ 275
Birinci: Peyğəmbərin (s) Əbu Bəkrdən razı olduğu iddiası ........ 275
İkinci: İmam Əlinin (ə) Əbu Bəkrdən razı olduğu iddiası ........ 277
Üçüncü: İmam Həsənin (ə) Əbu Bəkrdən razı olduğu iddiası ........ 307
Dördüncü: İmam Zeynəlabidinin (ə) Əbu Bəkrdən razı olduğu iddiası ........ 310
Beşinci: İmam Baqirin (ə) Əbu Bəkrdən razı olduğu iddiası ........ 315
Altıncı: İmam Sadiqin (ə) Əbu Bəkrdən razı olduğu iddiası ........ 320
Yeddinci: İmam Həsən Əskəriyə (ə) nisbət verdiyi rəvayət ........ 328
Səkkizinci: İbn Abbasdan nəql etdiyi rəvayət ........ 329
Doqquzuncu: Salman Farisiyə nisbət verilən rəvayət ........ 331
İkinci fəsil: Əbu Bəkrin xəlifəliyindən Əhli-Beytin (ə) razı olduğu iddiası ........ 334
Birinci rəvayət: Allah və Rəsuluna ən səmimi olanı xəlifə Siddiq, sonra isə onun xələfi xəlifə Faruq idi ........ 334
İkinci rəvayət: Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar ........ 341

Üçüncü rəvayət: Camaatın seçimi beyətdən əvvəldir, beyətdən sonra isə seçim haqları yoxdur ... 345
Dördüncü rəvayət: Siz Osmana beyət etdiniz, mən də beyət etdim ... 347
Beşinci rəvayət: İmamın beyət barədə Üsamənin sualına müsbət cavab verməsi. 350
Altıncı rəvayət: Əgər siz beyət etmisinizsə mən də razılığımı bildirib beyət edəcəyəm... 353
İhsan Zahirin Kaşiful-ğitaya nisbət verdiklərinin müzakirəsi ... 357
Üçüncü fəsil: Möminlərin əmiri Əlinin (ə) Əbu Bəkrin arxasında namaz qıldığı və hədiyyələrini qəbul etdiyi iddiası... 361
Birinci nöqtə: Əqidə və Əhli-Beytin (ə) nəzərində camaatla birgəyaşayış... 361
İkinci nöqtə: Əbu Bəkrin Möminlərin əmirinə (ə) hədiyyələri... 364
Üçüncü nöqtə: Şiənin nəzərində İmamın (ə) Əbu Bəkrin arxasında namaz qıldığı isbat olmayıb... 374
Dördüncü nöqtə: İmam ümmətin ən düzgün qəzavət edəni və ən elmlisidir... 376
Dördüncü fəsil: Evlilik vasitəsilə qohumluğun və adqoymanın Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı əlaqənin möhkəmliyinə dəlil göstərilməsi... 378
Birinci: Qohumluğu dəlil göstərməyin tənqidi ... 378
Birinci nümunə: Peyğəmbərin (s) Əbu Bəkrin qızı Aişə ilə evlənməsi... 384
İkinci nümunə: Möminlərin əmiri Əlinin (ə) Əsma bint Ümeyslə evlənməsi ... 391
Üçüncü nümunə: İmam Baqirin (ə) Əbu Bəkrin nəvəsi ilə evlənməsi ... 392
Dördüncü nümunə: Muhəmməd ibn Əbu Bəkrin oğlu Qasim İmam Səccadın (ə) xalası oğlu idi ... 393
İkinci: Adqoymanı dəlil göstərməyin tənqidi ... 393
Birinci: Adqoyma... 393
İkinci: Əbu Bəkr adının qoyulmadığı sübuta yetmiş faktdır ... 395

## Müqəddimə

Rəhman və Rəhim Allahın adı ilə! Həmd aləmlərin Rəbbinə məxsusdur. Ağamız Muhəmmədə, onun pak və məsum ailəsinə salam və salavat olsun!

Təəssüf ki, İslam aləminin və ümmətin keçdiyi qaranlıq dövrlərdə müsəlmanlar arasında fitnə və təfriqəyə çağırış edən bəzi kitablar ortaya çıxıb. Təbii ki, belə kitablar məntiqə, dinə və düzgün dünyəvi dəlillərə istinad olunmayıb. Bunlar yalnız mənfur və kor təəssübünün nəticəsidir. Belə “müəlliflər” müxtəlif qəbuledilməz üsullarla qarşı tərəfi ləkələyərək hədəflərinə çatmağı qarşılarına məqsəd qoyublar. Bu mənfur niyyətləri üçün heç bir dəlil və sübuta istinad etmədən cürbəcür yalan və böhtanlara əl atmaqdan çəkinməmişlər.

Məqsədimiz bu “müəlliflərin” müsəlman ümmətinin fərdləri arasında ixtilaflar yaratmağa, fitnə və nifrət alovlarını qızışdırmağa vadar edən səbəbləri araşdırmaq deyil. Şübhəsiz ki, qapanıq mühitli, dar düşüncəli və qarşısındakının rəyini qəbul etməyən yanlış təfəkkür bu cür halların meydana çıxmasına daim münasib şərait yaratmışdır.

Ümmət arasında ixtilafların dərinləşməsi, vəhdətin bölünməsi, təfriqələrin yaranması və düşmənlər qarşısında güclərinin zəiflədilməsi istiqamətində atılan addımların əksinə olaraq, İslamın öz haqq nəzərini açıqlamaq və müxaliflərinə cavab vermək üçün tövsiyə etdiyi gözəl və düzgün üsluba tabe olmayan heç bir müsəlmanın üzrü yoxdur. Həmçinin, dinimizdə müsəlmanların fikir və düşüncələrinin uzlaşdırılması üçün səy göstərməyi qadağan edən maneələr də mövcud deyil. Bəs, təfriqə və ixtilafları qızışdırmağa səy göstərənlər bununla nə əldə etmək istəyirlər?!

## İnsanlar arasında fikir ayrılığı və fərqlilik

İnsanlar arasında fikir ayrılığının, ixtilaf və fərqliliklərin olduğu bir həqiqətdir, bunu inkar etmək və ya bundan qurtulmaq mümkün deyil. Yer üzündə insan cəmiyyətləri qurulduğu andan bəri bu xüsusiyyət cəmiyyətlərdə mövcud olub. Nəbi və rəsulların (ə) göndərilməsi, kitab və səhifələrin endirilməsi də ümmətlər arasındakı bu ixtilafları aradan qaldırmaq, ixtilaf etdikləri məsələlərin həqiqətini bəyan etmək məqsədi güdmüşdü. ***"İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi".[1]***

Lakin buna baxmayaraq, səmavi din və kitab sahibləri də özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin və həsəd üzündən yenə də ixtilafa düşmüş, dinlərini təhrif etmiş, hökmlərini dəyişmiş, bir-birindən ayrılmış və firqələrə bölünmüşlər. ***"Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin üzündən (dində) ixtilafa düşənlər kitab əhlindən başqası deyil".[2]***

## Peyğəmbər (s) ümmətinin ixtilafı

İslam ümməti də bu tarixi "qanundan" kənarda qalmadı. *"Sizdən əvvəlki ümmətlərin adətlərini qarış-qarış, addım-addım izləyəcək, hətta girdikləri kərtənkələ yuvalarına da girəcəksiniz".[3]* Zaman-zaman İslam ardıcılları arasında da fikir ayrılıqları yarandı. Hətta bu fikir ayrılıqları Peyğəmbərinin (s) hüzurunda və gözünün önündə də baş verirdi. Buxari

---

[1] Bəqərə, 213
[2] Bəqərə, 213
[3] Səhih Müslim, c. 8, s. 57

öz "Səhih"ində Əbu Müleykəyə istinadən nəql edir: *"Az qalmışdı ki, iki xeyirli səhabə həlak olsunlar. Peyğəmbərin (s) hüzuruna Bəni-Təmimdən qonaqlar gəldikləri vaxt onun yanında səslərini qaldırdılar. Biri (Ömər) Bəni-Məcaşidən olan Əqrə ibn Habisi, digəri isə (Əbu Bəkr) adını unutduğum başqa bir nəfəri vali təyin etməyi Peyğəmbərə (s) işarə elədi. Əbu Bəkir Ömərə dedi: "Mənim fikrimin əksinə getməkdən başqa məqsədin yoxdur".*

*Ömər cavabında dedi: "Sənin fikrinə qarşı çıxmaq istəmədim".*

*Bununla da səslərini qaldıraraq mübahisə etdilər".*[4]

Həmçinin həmin kitabda Cabir ibn Abdullaha istinadla nəql edilir: *"Savaş üçün yola çıxmışdıq... Bir mühacir ənsardan olan şəxsə arxadan təpiklə vurdu. Bundan qəzəblənən ənsar: "Ey Ənsarlar, yardıma gəlin!", mühacirlərdən olan adam da "Ey mühacirlər, yardıma gəlin!" – deyə səsləndilər. Bunu eşidən Peyğəmbər (s) buyurdu: "Bu cahiliyyə çağırışı nədir?!"*

*Dedilər: "Ey Peyğəmbər, mühacirlərdən bir nəfər ənsardan olan şəxsə arxadan təpiklə vurdu".*

*Peyğəmbər (s) buyurdu: "Belə şeyləri tərk edin!"*[5]

Səhabələr arasında da pis, şiddətli və faciəvi ixtilaflar baş vermişdi. Belə ixtilaflar Peyğəmbərin (s) ömrünün sonlarında, ölüm yatağında ikən onun gözü önündə də səngimədi. Səhabələrə kağız və qələm gətirmələrini buyuraraq onların özündən sonra yanlışlıq və azğınlıqdan amanda qalmaları üçün bir şeylər yazmaq istədi. Lakin bu vaxt həmin fikri dəstəkləyənlərlə ona etiraz edənlər arasında mübahisə yarandı və səs-küy qalxdı. Peyğəmbərin (s) ehtiramı qorunmadı, onun ağır vəziyyətini nəzərə alınmadı. Bu sonda Peyğəmbərin (s) onları məclisindən qovması ilə nəticələndi. Buxari İbn Abbasa yetişən sənədlə rəvayət edir: *"Peyğəmbərin (son xəstəliyində) ağrısı şiddətlənincə: "Yazı yazacaq şey gətirin, sizə elə bir*

---

[4] Səhih Buxari, c. 4, s. 1833

[5] Səhih Buxari, c. 4, s. 1861

*şey yazım ki, ondan sonra əsla zəlalətə düşməyəsiniz" – buyurdu. Ömər dedi: "Peyğəmbərin xəstəliyi ağırlaşıb. Bizim əlimizdə Allahın Kitabı var. O bizə kifayət edər".*

*Bu sözdən sonra oradakı səhabələr arasında ixtilaf düşdü, səsləri bir-birinə qarışdı. Peyğəmbər (s) buyurdu: "Buradan çıxın, mənim yanımda mübahisə etmək olmaz".*

*İbn Abbas otaqdan çıxıb dedi: "Peyğəmbərin (s) yazmasına mane olmaq nə böyük bədbəxtlikdir".*[6]

Aralarındakı ixtilaf bununla bitmir. Onlar Peyğəmbərə (s) etiraz edir, üzünə qayıdır, bir çox yerdə əmrlərinə itaət etmirdilər. Halbuki Peyğəmbərin (s) mübarək ömrünün son anları olduğu üçün İslam artıq onların qəlbində yer tapmalı, Peyğəmbərin (s) şəxsiyyətinin, sözlərinin və əmrlərinin məqamı onlar üçün aydınlaşmalı idi. Müslim öz "Səhih"ində Cabir ibn Abdullah Ənsariyə istinadla nəql edir: *"Peyğəmbər fəth ilinin Ramazan ayında oruc tutub Məkkəyə tərəf yola çıxdı. Kiraul-ğamimə yetişdilər. Camaat oruc tuturdu. Peyğəmbər (s) bir stəkan su istədi. Camaatın görə biləcəyi həddə stəkanı əlində qaldırdı və ardınca suyu içdi. Ona dedilər: "Bəziləri oruc tutublar (onların qabağında içmə)". Peyğəmbər (s) buyurdu: "Onlar üsyankardırlar, onlar üsyankardırlar!"*[7]

Həmçinin Müslim "Səhih"də Aişənin belə dediyini nəql edir: *"Zil-hiccədən dörd və ya beş gün keçmişdi. Peyğəmbər (s) mənim yanıma gəldi. Olduqca qəzəbli idi. Dedim: "Ey Peyğəmbər, səni qəzəbləndirəni Allah Cəhənnəmə salar!" Buyurdu: "Nə baş verir?! Mən camaata əmr edirəm, onlar isə icrasında tərəddüd edirlər".*[8]

Əbu Yəla özünün "Müsnəd" kitabında Bəraya istinad etdiyi rəvayətdə yazır: *"Səhabələr Peyğəmbərlə (s) bərabər Həcc üçün ehram bağladılar.*

---

[6] Səhih Buxari, c. 1, s. 54
[7] Səhih Müslim, c. 3, s. 785
[8] Səhih Müslim, c. 2, s. 78

*Məkkəyə yetişdikdə Peyğəmbər (s) buyurdu: "Həccinizin niyyətini Ümrəyə dəyişin". Səhabələr dedilər: "Ey Peyğəmbər, biz Həcc üçün ehram bağlamışıq, onu niyə Ümrəyə dəyişək?!"*

*Buyurdu: "Sizə əmr etdiyimi dinləyib, yerinə yetirin".*

*Onlar Peyğəmbərə (s) cavab qaytarmağa başladılar və o, qəzəblənib getdi. Sonra Aişənin evinə daxil oldu. Aişə onun üzündəki qəzəbi görüb dedi: "Səni qəzəbləndirənə Allah qəzəblənsin!"*

*Peyğəmbər (s) buyurdu: "Niyə də qəzəblənməyim, mən onlara əmr edirəm, onlar isə tabe olmurlar".*[9]

Heysəmi "Məcməuz-zəvaid"də bunu nəql edərək deyir: *"Bunu Əbu Yəla rəvayət edib, rəvayətin sənədindəki ravilər "Səhih"in raviləridir".*[10]

Bu və onlarla digər qəti dəlillər ümmət arasındakı ixtilaf və fikir ayrılığının Peyğəmbərin (s) həyatda olduğu dövrlərdə belə baş verdiyini isbatlayır. Lakin bu ixtilaflar inkişaf edib daha da böyümək üçün münasib şərait axtarırdı. Həmin şərait isə Peyğəmbərin (s) vəfatı ilə yarandı. Halbuki Peyğəmbər (s) həyatda ikən onun ali şəxsiyyəti və məqamı bu ixtilafları beşiyində boğur, genişlənərək təhlükəli səviyyəyə çatmasının qarşısını alırdı. Onun vəfatından sonra ümmət məhz bu xüsusiyyətini itirdi. Rəbbinin dərgahına qovuşduğu andan İslam ümməti üzərində fitnə və ixtilaf küləkləri əsməyə başladı, düşüncə və əqidə sahəsində, ictimai və siyasi mövzularda vəziyyət dəyişdi. Halbuki Peyğəmbər öz ciddi səyi, cihadı, ailəsindən və səhabələrindən verdiyi qurbanların hesabına vəhdətin təməllərini atmış və onun üzərində İslamı ucaltmışdı. Peyğəmbərin (s) ölümü ümmət arasında ilk ixtilaf mövzusu oldu. Bəziləri bu aşkar və heç bir dəlilə ehtiyacı olmayan həqiqəti inkar etdilər. Bağdadi "əl-Fərqu beynəl-firəq" kitabında deyir: *"Onların arasında yaranan ilk ixtilaf Peyğəmbərin (s) ölümü ilə bağlı idi. Bir dəstə güman edirdi ki, o,*

---

[9] Səhih Müslim, c. 3, s. 233

[10] Məcməuz-zəvaid, Heysəmi, c. 3, s. 525

*ölməyib. Uca Allah İsa Məsihi (ə) səmaya qaldırdığı kimi onu da səmaya qaldırıb. Bundan sonrakı ixtilaf isə onun dəfn ediləcəyi yerlə bağlı ortaya çıxdı... Sonra da imamət barədə fikir ayrılığına düşdülər".*[11]

İxtilaflar İslam ümməti arasında yayılmağa başladı. Zaman keçdikcə İslam dövlətinin ərazisi genişləndi, bu ixtilaflar əvvəlki səviyyəsində qalmayıb gah dinin əsas və təməl, gah da ona bağlı cüzi məsələlərdə özünü göstərdi. Müsəlmanların vəhdətinə ən çox zərbə vuran amil isə əqidə məsələlərindəki ixtilaflar oldu. Belə fikir ayrılıqları İslam tarixinin lap əvvəllərində özünü büruzə verdi. Nəticədə əsas və təməl mövzularda fikir və rəy fərqliliyi yarandı, bu da zamanla İslam cəmiyyətinin şəklinin dəyişməsinə səbəb oldu. Peyğəmbər (s) dövründəki vahid və güclü İslam ümməti düşüncə və istiqamətlərdə bir çox dəstə və camaatlara bölündü, firqə, təriqət və əqidə məzhəblərinin yaranması üçün toxumlar səpildi. Hicrətin IV ilinin alimlərindən olan Muhəmməd ibn Cərir Təbəri ümmətin vəhdətini parçalayan fikir və düşüncələri ümumi şəkildə belə təqdim edir: *"Peyğəmbərin (s) vəfatından sonrakı əsrlərdə bir çox hadisələr baş verdi... Peyğəmbərdən (s) sonra ümmətin ixtilaf etdiyi ilk məsələ aralarında ən fəzilətlinin, imamətə daha çox haqq sahibinin və xəlifəliyə daha layiqli olanın kimliyi barədə idi. Ardınca bəndələrin əməlləri, itaət və üsyanları mövzusunda, bunların Allahın qəza və qədəri, yaxud özlərinə həvalə olunmuş ixtiyari məsələlər olduğunda ixtilaf etdilər. Həmçinin iman barədə də fikir ayrılığına düşdülər. Bunun əməl və ya əməlsiz söz olduğunda, artıb azaldığında, yaxud sabit qaldığı barədəki fikirlərində ortaq nöqtəyə gələ bilmədilər. Eləcə də Quranın məxluq olub-olmaması, möminlərin Qiyamət günü öz Rəblərini görüb-görməyəcəkləri barədə ziddiyyətli fikirlər yürütdülər..."*[12]

---

[11] əl-Fərqu beynəl-firəq, Əbdülqahir ibn Tahir ibn Muhəmməd Bağdadi, s. 13

[12] Sarihus-sünnə, Təbəri, s.17

## İxtilafın dərinləşməsi

Getdikcə bu ixtilaflı fikir və əqidələr bəzi insanlar tərəfindən qəbul edildi. Bütün bunlar isə müsəlmanlar arasında ziddiyyətlərin dərinləşməsindən, məzhəblər və firqələr arasında münaqişələrin qızışdırılmasından başqa heç bir fayda gətirmədi.

İxtilaf alovunu açıq-aydın qızışdıran kəslərdən biri İbn Teymiyyə kimi tanınan Şeyx Hərrani idi. O, özünəməxsus fikirlər yürütməklə müsəlman alimlərinin icmasında boşluqlar yaradır, fətvalarında qiblə əhlinin böyük əksəriyyətini küfr və müşriklikdə ittiham edirdi.[13]

İmam Hafiz Təqiyyəddin Əli ibn Əbdülkafi Sübki "əd-Durrətul-muziyyətu fi raddi əla İbn Teymiyyə" adlı kitabının girişində deyir: *"İbn Teymiyyə Kitab və sünnə ardıcılı, haqq carçısı və cənnətə hidayət edən şəxs iddiası ilə əqidə əsaslarını dəyişmiş, İslam əqidəsinin sütunlarını dağıtmış, bir bidətçiyə çevrilmişdi. Alimlərin icmasına müxalif olmaqla müsəlman camaatından ayrılmışdı. Allahın zatının cisim və hissələrdən formalaşdığını, üzvlərə möhtac olduğunu, Müqəddəs zatında dəyişiklərin baş verdiyini və Allahın danışmasından sonra Quranın yarandığını iddia etmişdi. Həmçinin Allahın danışdığını, susduğunu, məxluqlar kimi iradə və istəyə sahib olduğunu söyləmiş, aləmin qədim olduğu, məxluqatın əvvəlinin olmamasına*

---

[13] İbn Teymiyyə deyir: *"Şeytan bir çox insanlar üçün əməllərini bəzəyib, onları Rəblərinə qarşı xalis dindən azdıraraq şirkə mübtəla etmişdir. Allahdan başqasının razılığı və rəğbətilə səfərlərə çıxır, ziyarətlərə gedir, Peyğəmbərin, səhabələrin, saleh insanların və ya peyğəmbər zənn etdiklərinin qəbirlərini ziyarət edirlər..."* (İqtizaus-sirat, s. 457)

İbn Teymiyyənin fikrinə görə, hətta Allahın razılığı qəsd edilsə belə, Peyğəmbərin (s) qəbrini ziyarət etmək Şeytanın azdırması və bir şirk növüdür. Deyir: *"Onun qəbrinin ziyarətilə bağlı rəvayət olunan "Kim bir ilin ərzində məni və atam İbrahim Xəlilullahı ziyarət etsə, onun üçün Cənnətə zaminəm"; "Məni ölümümdən sonra ziyarət edən sanki həyatda ikən ziyarət etmişdir"; "Həccə gəlib məni ziyarət etməyən şəxs mənə cəfa vermişdir" kimi hədislərin hamısı yalan və uydurmadır".* (İqtizaus-sirat, s. 401)

Peyğəmbərin (s) qəbrini ziyarət etmək şirk, onun qəbrinin yanında namaz qılmaq bidət, ziyarəti barədə hədislər isə yalan və uydurmadır?!

*və bununla da onların qədimliyinə hökm etmişdi. Belə fikirləri heç kəs və heç bir dini maarif iddia etməyib. Ümmətin bölündüyü yetmiş üç firqədən heç birinə daxil olmamışdı. Bütün bunlar onun dinin fürusunda uydurduğu iyrənc küfrlərin az bir hissəsidir".*[14]

Bu səbəbdən də ilk vaxtlarda həmin fətvaların elmi dairələrdə heç bir əhəmiyyətinin olmadığını görürük. Düzgün təməllərdən uzaqlaşdığına və müsəlman cəmiyyətinin vəhdətinə yaradacağı təhlükələrə görə, onun rəy və fikirləri ciddi şəkildə inkar edildi. Bunun nəticəsində İbn Teymiyyə həbsə atıldı, orada öldü və ölümü ilə birlikdə düşüncələri də bir müddət yaddaşlardan silindi.

Hisni Dəməşqi Şafei (vəfatı: h. 829) deyir: *"Mən, qəlbində mərəz olan, Kitab və sünnətdən fitnə məqsədilə mütəşabehlərə uyan bu xəbis kəsin sözlərinə nəzər yetirdim. Ona tabe olan kəslər avam camaat və Uca Allahın həlak etmək istədiyi insanlardır. Onun sözlərində dilimə gətirə bilmədiyim fikirlərlə rastlaşdım. Yazdığı sətirlərə barmağımı belə toxundurmaq istəmirəm. Onun sözlərində Uca Allahın Öz kitabında münəzzəhliyi barədə buyurduğu kəlmələrin təkzibini, seçilmiş pak şəxslərə, raşidi xəlifələrə və onların tabeinlərinə qarşı təhqir və istehzaları gördüm. Bunlardan uzaqlaşıb təqvalı imamların barəsində həmfikir olduqları rəyləri qeyd etdim, həmin kəsin bidətləri və bəzi fikirləri ilə dindən çıxdığı barədəki sözlərə yer verdim, yazılmış kitablara, ali fərmanlara, əsrinin alimlərinin mühüm hökmlərdəki icmalara, cəhalət əhlinin çirkablarından təmizlənmiş fətvalara, üzərində ixtilaf olmayan və cəmiyyət başçılarımızın şəhadət verdikləri geniş yayılmış, məşhur rəylərə əsaslandım".*[15]

Camaatın əlində onun məhv edilməmiş bəzi kitabları qaldı. Lakin imperialist qüvvələr İslam aləmi ilə mübarizə aparmaq üçün orada arzuladıqları şeyləri tapdılar və onun yenidən zahir olması üçün münasib

---

[14] əd-Durrətul-muziyyətu, Sübki, s. 3-5

[15] Dəful-şubhə ənir-rasul, s .83, Misir çapı

zəmin hazırladırlar. Çünki orada müsəlmanları bir-birinə vurmaq, aralarındakı ixtilaf və ziddiyyətləri dərinləşdirmək, sıralarını parçalamaq hədəfi üçün çox əlverişli fikirlər vardı.

## Vahabilik

XIX əsrin əvvəllərində Böyük Britaniya Ərəb yarımadasında hakimiyyəti ələ keçirmişdi. Bu da Muhəmməd ibn Əbdülvahabın (1143 h.q.) Nəcd bölgəsində aşkar təbliğatına cəsarət verdi. O, İbn Teymiyyənin fikirlərinin təbliğində və yenidən camaat arasında yayılmasında xüsusi fəallıq göstərir, onunla həmfikir olmayanlara hücum edirdi. Bütün bunlar Böyük Britaniyanın imperialist qüvvələrinin gözləri önündə baş verirdi. 1745-ci ildə (h.q. 1157) isə güc və siyasi hakimiyyət əldə etmək və təbliğini bütün Ərəbistana yaymaq üçün o, Muhəmməd ibn Səudla müqavilə bağladı. Bu ittifaq Ərəb yarımadasının bir çox bölgəsində təcavüz, işğal, qətliamlarla İbn Teymiyyənin fikirlərinin yayılmasına şərait yaratdı. Bütün bu vəhşiliklər onların şəxsi gümanlarına əsasən formalaşdırdıqları tövhid və məntəqənin şirkdən təmizlənməsi şüarı altında həyata keçirilirdi. Zaman keçdikcə bu cərəyan “Vahabilik” adı ilə tanındı.

Yeni yaranmış firqənin bəzi İslam məntəqələrində kök salmasına bəzi amillər səbəb olmuşdu. Qısaca demək olar ki, bir çox məntəqənin dünya sivilizasiyasından uzaq düşməsi həmin cahil fikirlərin qəbulunu asanlaşdırmışdı. Həmçinin Britaniya imperialistləri həmin məntəqələri Osmanlı xilafətindən qopararaq öz hakimiyyətlərinə daxil etmək üçün vahabilikdən siyasi məqsədləri üçün istifadə edir və öz hegemonluğunu bölgədə artırırdı. Xüsusilə də həmin məntəqədə böyük neft yataqlarının kəşf edilməsindən sonra ingilislər bu yeni fikirlərin yayılması üçün böyük pullar xərcləyirdilər.

Bu hərəkat zorakılıq, terror, qarşı tərəfin dəlillərini anlamamaq və qəbul etməməklə seçilirdi. Öz fikirlərini qarşı tərəfə qəbul etdirmək üçün daim şiddətə və zorakılığa əl atırdılar. Bunu milyonlarla hacı bu gün də Məkkədə Həcc əməllərini yerinə yetirərkən müşahidə edirlər. Belə ki, hacılar öz alimlərinin ictihadlarına uyğun şəkildə ibadətlərini yerinə yetirməkdə çətinlik çəkirlər. Vahabi şeyxləri sanki İslam Peyğəmbərinin (s) varisləri kimi öz ictihadlarını onlara zorla icra etdirir.

Həmçinin bu firqə təkfir, bidət, fisq, söyüş, lənət və əxlaqsızlıqlarla da tanınır. Onlara tabe olan kəslərdən başqa heç bir müsəlman bu cür rəftarlarından amanda deyil.

Vahabilərin İmamiyyə şiələrinə qarşı hücumları daha şiddətlidir. Belə ki, Şiə məzhəbi təfəkkürdə və elmi müstəvidə bir çox nailiyyətlər əldə etmişdir. Zamanın ortaya çıxardığı aktual məsələləri həll etmək və tələb olunan cavabları vermək qüdrətinə sahibdir. Eləcə də qəlb və ağıl heç bir məcburiyyət olmadan, rahatlıqla bu yolu qəbul edir. Şiə məzhəbi öz düşüncə və nəzərlərində Peyğəmbərlə (s) bərabər onun pak itrəti olan Əhli-Beytinə (ə) istinad edir, sağlam insan fitrətinə uyğun olan hənif İslam dininin təlimlərində onlara tabe olur. Həmçinin Əhli-Beyt (ə) ardıcıllarının uca məqamı, parlaq dəlilləri və təqvaları da məşhurdur. Onlar hər bir zamanda müsəlman aləmində üstün təfəkkürləri ilə seçilmişlər. Bütün bu səbəblər şiəni vahabilərin hədəfinə çevirmişdi. Əhli-Beyt (ə) ardıcıllarının dəlil və sübutlarının qarşısında onlar duruş gətirə bilməmiş, İslam ruhu ilə uyuşmayan iddialarla çıxış etməyə cəhd göstərmişlər. Lakin həqiqi İslam dəlil, sübut, dialoq, müzakirə, xoş rəftar və ən gözəl tərzdə mübahisə dinidir. Bütün bunlarla ayaqlaşa bilmədikləri üçün hər cür xütbə, mühazirə, kitab və jurnal, KİV, internet və s. informasiya vasitələri ilə şiələrə qarşı insanların qəlblərinə nifrət və ədavət toxumları səpməyə var güclərini sərf etmişlər. Bununla kifayətlənməyib, dərs proqramlarına müxalif mövzuları ehtiva edən əqaid dərslikləri salmış, azğın və təcavüzkar

düşüncəyə sahib insanlar yetişdirmək, tərbiyə etmək üçün institut və universitetlər açmışlar. Onlardan məzun olan bir çox yazarlar qarşı tərəfin haqqına riayət etməmiş və ehtiramını qorumamışdır. Nümunə olaraq İhsan İlahi Zahirin, İbrahim Cəbhanın, Nasir ibn Abdullah ibn Əli Qaffarinin və digər nasibilərin adlarını çəkmək olar.

## İhsan İlahi Zahir

İhsan İlahi Zahir Vahabi müəssisələrinin yetişdirdiyi pakistanlı yazıçıdır. Vahabi əqidəsində özünün azğın və təəssübkeş fikirləri ilə məşhurdur. Hicri 1945-ci ildə Pakistanın Sialkot şəhərində, hədis əhlinə mənsub fikirləri daşıyan ailədə anadan olub.

İbtidai məktəbi Pakistanda bitirib, sonra Səudiyyə Ərəbistanına səfər edərək orada universitetə daxil olub və 1961-ci ildə Mədinə İslam Universitetini şəriət üzrə bakalavr dərəcəsində başa vurub. Ardınca Pakistana qayıtmış, İslam Bəhsləri Cəmiyyətinin rəhbəri və Lahordakı "Hədis əhli" cəmiyyətinin "Tərcumane-hədis" jurnalının baş redaktoru işləmişdir.

Ölkəsinə beyni azğın fikirlərlə doldurulmuş və təfriqə üzrə mütəxxəsis libası geyindirilmiş halda qayıtdı. İxtilaflı məsələləri qabartmaqda mütəxəssis oldu. Özünü fitnə yaradacaq bəhslərə həsr elədi. Çıxışlarında müsəlmanlara hücum edir, düşünmədən onlara qarşı ittihamlar səsləndirir, diqqətləri şiələrə yönəldir, xütbələrində, çıxışlarında və yazdığı kitablarda onları küfrdə, azğınlıqda ittiham edir, bu zaman elmi bəhslərin bütün əxlaq və ədəb normalarını aşırdı.

Məzhəb və millət baxımından zəngin olan, mehribanlıq və vəhdətə daha çox ehtiyac duyulan həmin məntəqədə uzun müddət aranı qızışdıracaq yol tutur. Bu fitnələrin nəticəsi sonda İhsan İlahi Zahirin özünə də toxunur və öz əli ilə əkdiyini biçməyə başlayır. Lahorda "Hədis əhli" cəmiyyətindəki

çıxışı zamanı bomba partlaması zamanı ciddi yaralanır. Həmin vaxt bu terror aktında yeddi nəfər həlak olur.

Vahabi dini müəssisələri ciddi-cəhdlə onu xilas etməyə çalışırlar. Əbdüləziz ibn Baz Səud kralı Fəhd ibn Əbdüləzizin qarşısında onun müalicə üçün Səudiyyəyə gətirilməsi barədə məsələ qaldırır, kralın əmri və şəxsi vəsaiti ilə o, xüsusi təyyarə ilə Riyad şəhərinə gətirilir və hərbi hospitalda yerləşdirilir. Lakin İhsan Zahirin aldığı yaralar ölümcül idi. Orada vəfat edərək Bəqi qəbiristanlığında dəfn olunur.

Onun əsasən şiələrə rəddiyyə mövzusunda yazdığı bir çox kitabı var. Bunlardan: "Şiə və sünnə", "Şiə və Əhli-Beyt", "Şiə və şiələşmə", Şiə və Quran", "İsmailiyyə", "Babiyyə", "Qadiyaniyyə", "Bəhaiyyə", "Batiniyyə", "Təsəvvüf" və s.

Onun qələmə aldığı kitablar ümumi olaraq qeyri-obyektivlik, şiddət və digərlərinə qarşı hücumlar üzərində formalaşıb. Hətta sünni mühəqqiqlər də ona qarşı mübarizə aparmış, insanları onun düşüncələrindən çəkindirmiş və kitablarına rəddiyyələr yazmışlar.[16] Bunun səbəbi isə onun qələmə aldığı kitablarda obyektivliyi, tərəfsizliyi və insafı tərk etməsi, ixtilaflı məsələlərdə bəhs qaydalarından uzaqlaşmasıdır.

## İxtilaflı məsələlərdə bəhs üslubu

Etiqadi məsələlərdə araşdırma aparan şəxs üçün vacib tələblərdən biri də nəql, qeyd və bəyan etdiyi mənbələrdə elmi əmanəti qorumaq, təqvalı olmaq, haqqı bəyan edərək ona tabe olmaqdır. Uca Allah buyurur: ***"O kəslərə ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar***

[16] Məsələn, Bəhnisavinin "Sünnə – ona atılmış iftiralar", doktor Əli Əbdülvahidin "Şiə və əhli-sünnə arasında" və s. bu kimi kitablar. Sonuncuya İhsan Zahir "Doktor Əli Əbdülvahidin geniş yanlışlarına yetərli rəddiyyə" adlı kitab yazmışdı.

***Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"***[17]

Həmfikir olduğumuz məsələlərə xüsusi əhəmiyyət verilməlidir. Belə ki, müsəlmanlar arasında üsul və füruda müştərək və müttəfiq nöqtələr ixtilaflı və ziddiyyətli məsələlərdən olduqca çoxdur. Bu müştərək məsələlər İslam dininin öyrənilməsində hər bir fərd üçün sabit qayda rolunu oynayır. Bu, Qurani-Kərimin bəyan etdiyi prinsiplərdəndir: ***"De: "Ey kitab əhli, sizinlə bizim aramızda (mənası) eyni olan bir kəlməyə tərəf gəlin – "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq".***[18]

Həmçinin bu müzakirələr zamanı İslam məzhəb imamları arasındakı ixtilaflı məsələlərə nəzər salarkən ədalətli və insaflı olmaq lazımdır. Belə ixtilaf və ziddiyyətlərin olması labüddür. Bu, düşüncə axtarışlarının fərqliliyidir. Hətta belə fərqliliklərə həm etiqadi və həm də fiqhi sahədə eyni məzhəb alimləri arasında da rast gəlinir. Necə ki, bunu sünni məzhəb imamları arasında da görürük. Bu səbəbdən də qarşı tərəfə etiraz edərkən ikinci dərəcəli məsələlərdəki ixtilaflara və mənbələrə əsaslanmaq yolverilməzdir. Əksinə, qarşı tərəfin nəzərində əsas mənbə sayılan dəlillərə müraciət edilməli və onların izahlarına uyğun bəhs aparılmalıdır. İbn Həzm deyir: *"Onlara öz rəvayətlərimizi dəlil göstərməyin mənası yoxdur. Çünki onlar bizim rəvayətləri təsdiqləmirlər. Həmçinin onların da bizə qarşı öz kitablarının dəlillərini sübut kimi göstərmələri yolverilməzdir. Çünki biz də onları təsdiq etmirik. Rəqiblər bir-birlərinə qarşı özlərində dəlil sayılan və təsdiqlənən dəlilləri təqdim etməlidir. İstər dəlili təqdim edən şəxs özü onu təsdiq etsin, istər etməsin. Belə ki, bir şeyi təsdiqləyən şəxs ona tabe olmalı və*

[17] Zumər, 18
[18] Ali-İmran, 64

*ya zəruri elmin verdiyi nəticəni təsdiqləməlidir. Bununla da rəqib etimad etdiyi dəlillərlə susdurulmuş olur..."*[19]

Bir elmi məsələni araşdırarkən müsəlman təhqiqatçının məqsədi haqq və həqiqəti üzə çıxarmaq olmalıdır. Müzakirəçi bəhsə özünə məqbul olan hökm və qənaətlərlə daxil olmamalı, hər zaman yanlışlıqlardan əlini çəkməyi bacarmalıdır. ***"...Elə isə doğru yolda olan, yaxud (haqq yoldan) açıq-aydın azan bizik, yoxsa siz?"***[20]

Alimlər hər bir ümmətin xeyir və səadət mənbələridir. Müsəlman alimi ümmətin xeyrinə və məsləhətinə olan işlərdə səy etməlidir. Azad və obyektiv elmi bəhs aparmadan, söhbətdə təəssübdən kənar durmadan və İslam əxlaqı ilə ədəblənmədən bunu əldə etmək mümkün deyil.

## İhsan Zahirin elmi bəhs qaydalarını pozması

İhsan İlahi Zahir dinin keşikçi olan alim xüsusiyyətlərindən çox uzaq bir kəs idi. Bu, onun kitablarında da aydın görünür. Xüsusilə də qələmə aldığı "Şiə və Əhli-Beyt" kitabında. Bu kitabda onun təhqiqat əhlinin xüsusiyyətlərindən nə qədər uzaq olduğu, Muhəmməd ibn Əbdülvahabın fikir və düşüncələrinə tərəfkeşliyi və təəssübü, şiəyə qarşı düşmənçiliyi, doğru yoldan azdığı və ixtilaflı məsələlərdə bəhs qaydalarına riayət etmədiyi bütün aydınlığı ilə görünür. Azsaylı, bəsit düşüncəli və sadəlövh insanlara etdiyi təsir nəzərə alınmasa, bu kitab əslində heç bir elmi dəyərə malik deyil. Həmin kitabda müəllif bir çox elmi, üsuli və əxlaqi dəyərləri pozub. Bu yanlışlıqlardan bəzilərinə nəzər salaq:

[19] əl-Faslu fil-miləl vəl-əhva vən-nihəl, İbn Həzm, c. 4, s. 78. "Xanici" dəftərxanası, Qahirə

[20] Səba, 24

**Birinci: Saxtakarlıq**

İhsan İlahi Zahir məntiq sərhədlərini aşan, dolaşdırıcı və batil sözlərlə həqiqəti gizlətmək, şiəliyinin həqiqətlərinə zidd surət formalaşdırmaq üçün müxtəlif saxtakarlıqdan istifadə etmiş və bununla da insanlarda şiələrin düşüncə və etiqadlarına nifrət aşılamağa çalışmışdır. Aşağıda onun saxtakarlıqlarından bir neçəsini nümunə göstəririk:

**A. Lüğət alimlərinin sözlərində oynamalar**

İhsan Zahir öz fikrini isbatlamaq üçün lüğət alimlərinin sözləri ilə oynamışdır. Buna misal olaraq Zübeydinin kəlamından *"...məcaz olaraq"* sözlərini çıxartmasını göstərmək olar. Belə ki, deyir: **"Zübeydi ("əhl" kəlməsi barədə) deyir: "Məzhəb əhli: ona etiqad bəsləyən və onu din olaraq yaşayan şəxs; Kişinin əhli: zövcəsi. Buraya övladları da daxil edilir. Bu məna ilə Uca Allahın *"...Musa ailəsi ilə birlikdə yola çıxdığı..."*[21] sözü də təfsir edilir. Yəni zövcəsi və övladları ilə birgə yola çıxdı".**[22]

Halbuki Zübeydinin "Tacul-urus" kitabındakı sözləri belədir: *"Məzhəb əhli: ona etiqad bəsləyən və onu din olaraq yaşayan şəxs; Məcaz olaraq isə "Kişinin əhli": zövcəsi. Buraya övladları da daxil edilir. Bu məna ilə Uca Allahın* ***"...Musa ailəsi ilə birlikdə yola çıxdığı..."***[23] *sözü də təfsir edilir. Yəni zövcəsi və övladları ilə birgə yola çıxdı".*[24] O, bu saxtakarlığı ilə oxucularda "əhl" kəlməsinin lüğət alimləri tərəfindən zövcə üçün həqiqi mənada istifadə edildiyi təsəvvürünü yaratmağa çalışır. Halbuki kəlmənin məcaz olaraq bu mənasında istifadə edildiyi Zübeydinin və qarşıda təqdim edəcəyimiz digərlər alimlərin də sözlərində tam aydın ifadə edilir.

---

[21] Qəsəs, 29

[22] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 10

[23] Qəsəs, 29

[24] Tacul-urus, Zübeydi, c. 13, s. 36

**B. Şiə alimlərinin sözlərində oynamalar**

İhsan Zahirin "Şiə və Əhli-Beyt" kitabını mütaliə edərkən şiə alimlərinə nisbət verdiyi sözlərlə də oynadığı açıq-aşkar görünür. Onun Şeyx Tusiyə nisbət verdiyi və sanki Şeyxin İmam Əlinin (ə) Əbu Bəkrə iqtida edərək namaz qıldığını[25] təsdiqləyici sözləri buna misaldır. O, Şeyx Tusiyə qarşı aşkar iftira atmışdır. Belə ki, Şeyxin sözlərində məqbul sayılan nüans İmamın (ə) Əbu Bəkrin arxasında ona iqtida niyyəti ilə deyil, zahirən namaz qılmasıdır. Sözünün nəticəsi budur ki, pişnamaza iqtida bəzən həqiqi, bəzən də zahirən olur. Pişnamazdan razılığı bildirən iqtida zahiri deyil, məhz həqiqi iqtidadır. Halbuki həqiqi iqtida niyyətdə gizlidir və isbatı üçün dəlilə ehtiyac duyulur. Ancaq zahiri iqtidanı əyani olaraq (yəni bir nəfər namaz qılarkən başqa bir şəxsin də onun arxasında namaz qıldığını gördüyümüzü) qəbul etsək də, buna yalnız zahirən hökm vermək olar. Lakin bu, həmin şəxsin qarşıdakı pişnamazdan razılığını bizim üçün bəyan etməyəcək. Zahirən iqtida etmək bəzən canı qorumaq və s. kimi səbəblərdən də baş verə bilər. Şeyx Tusi deyir: *"Əgər Möminlərin əmirinin (ə) namazında Əbu Bəkrə iqtidaya niyyət etdiyi iddia olunsa, buna dəlil göstərilməlidir. Biz isə bunu qəbul etmirik, qəbul etdiyimiz yalnız zahirdir ki, bunda ixtilaf yoxdur. Əgər namazda zahirən iqtida edilməsi iddia edilsə, bunu qəbul edirik. Lakin bu onların qəsd etdikləri mənaya heç bir fayda vermir və bizim İmam (ə) barəsindəki rəyimizə də zidd dəlil ola bilməz".*[26]

Bu söz hara, iqtidanı qəbul etdiyi iddiası hara?!

İhsan Zahir başqa bir orijinal üsulla da saxtakarlığa cəhd edir. Şiə alimlərinin qarşı tərəfə rəddiyə yazarkən müxaliflərdən nəql etdikləri sitat və rəvayətləri onların öz sözləri kimi təqdim edir. Bununla da həmin kəlmlərin şiə alimlərinin fikirləri olduğu təəssüratını oxucuda

---

[25] "İhsan İlahi Zahir deyir: **"Tusi Əbu Bəkrin arxasında namaz qılmaq barədə deyir: "Bu doğrudur, belə ki, zahirdən də bu görünür".** (Şiə və Əhli-Beyt, s. 71)

[26] Təlxisuş-şafi, Şeyx Tusi, s. 158

formalaşdırmağa çalışır. Bu metoddan müxtəlif yerlərdə dəfələrlə istifadə etmişdir. Məsələn, Seyyid Mürtəzanın “əş-Şafi fil-imamət”[27] kitabına istinadən müəllifin əhli-sünnə alimi Qazi Əbdülcəbbar Mötəzilidən gətirdiyi sitatları sanki Seyyid Mürtəza tərəfindən söyləndiyi təəssüratını yaratmağa səy göstərir. Həqiqətdə isə nəql etdiyi sözlər Qazi Əbdülcəbbar Mötəzilinin “əl-Muğni” kitabından nəql olunur. Seyyid onları qeyd edir, ardınca özünün əks dəlilləri yazır.

Seyyid Mürtəza Qazi Əbdülcəbbar Mötəzilinin sözlərini nəql edərək deyir: “Kitabın müəllifi deyir: *“Onların digər dəlilləri: Çox vaxt onlar bu mövzuda iddia etdikləri hədislərlə əlaqələndirirlər. O hədislərin bəzisi xəbəri vahidlər, bəziləri xəbəri vahidin şərtlərinə əsasən belə isbatlanması mümkün olmayan rəvayətlərdir. Məsələn, iddia edirlər ki, Peyğəmbər (s) səhabələrə Əliyə “Möminlərin əmiri” və bu kimi sözlərlə salam verməyi buyurur...”* Sonra deyir: *“Şeyximiz Əbu Əli bu hədislərin heç bir cəhətdən isbat olunmadığını, qəti dəlillərin isbatlanmasında onlara əsaslanmağın doğru olmadığını bildirib... Qeyd etdi ki, əgər onlar özləri üçün bir şeyin isbatında belə hədislərə əsaslanmağa razıdırlarsa, o zaman Peyğəmbərin (s) özündən sonra xəlifə təyin etmədiyinə dəlalət edən hədislər bundan daha üstündür. Belə ki, Əbu Vail və Həkəm Əli ibn Əbu Talibdən (ə) “Özündən sonrakı xəlifəni vəsiyyət etməyəcəksən?” sualına cavabda belə dediyini nəql edirlər: “Peyğəmbər (s) vəsiyyət etdi ki, mən də vəsiyyət edim?! Lakin, Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı...”*[28]

Lakin İhsan Zahir Seyyid Mürtəzanın öz kitabında Qazi Əbdülcəbbardan nəql etdiyi hissəni götürmüş və Seyyidin özünə nisbət verərək həmin sözlərin sahibinin məhz Seyyid Mürtəza olduğu təsəvvürünü yaratmağa

---

[27] Seyyid Mürtəzanın “əş-Şafi fil-imaməti” kitabı Qazi Əbdülcabbar Mötəzilinin “əl-Muğni” kitabının 20-ci cildinə yazılmış rəddiyyədir.

[28] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 89-91; əl-Muğni, Qazi Əbdülcabbar Mötəzili, c. 20, s. 187-188

çalışmışdı. İhsan Zahir deyir: **“Bu rəvayəti şiələrin hidayət bayrağı (Ələmul-hudası) özünün “Şafi” kitabında Möminlərin əmirindən (ə) nəql edir: “Ondan soruşuldu: “Özündən sonra bir kəsi vəsiyyət etməyəcəksən?” Buyurdu: “Peyğəmbər (s) vəsiyyət etmədi, mənmi vəsiyyət edim!..”** Başqa bir yerdə isə deyir: **“Seyyid Mürtəza Ələmul-huda öz kitabında deyir: “Cəfər ibn Muhəmmməd atasından nəql edir ki, Qüreyşdən bir kişi Möminlərin əmirinin (ə) yanına gəlib dedi: “Xütbədə belə dediyini eşitdim: “İlahi, iki raşidi xəlifəni islah etdiyin kimi bizi də islah elə”. O iki nəfər kimdir?” Buyurdu: “Mənim iki həbibim...”**[29]

Göründüyü kimi, Seyyid Mürtəza Qazi Əbdülcəbbarın sözlərini rədd etmək üçün sitatlar nəql edir, lakin İhsan Zahir həmin hissəni götürərək Seyyidin öz sözləri kimi təqdim edir. Həmçinin o, Şeyx Kaşiful-Ğitaya da iftira ataraq bu sözləri ona nisbət verir: *“Muhəmməd Hüseyn Ali Kaşiful-Ğita yazır: “Bu ad (yəni: şiə) Əlinin və oğlunun tərəfdar və dostları üçün əksər hallarda istifadə edilib və sonradan onlara xas bir ada çevrilib”.*[30]

Bu Şeyx Kaşiful-Ğitaya aşkar bir iftiradır. O, bu sözləri öz kitabında lüğət alimlərindən nəql edir. Kitabında yazır: *“Məsələ belədir, heç də az sayılmayacaq sayda adam Peyğəmbərin (s) yaşadığı dövrdə Əlinin tərəfdarına çevrilmiş və ona bağlanmış, Peyğəmbərin (s) təbliğatçısı, elminin təfsirçisi, hikmət və hökmlərinin şərhçisi kimi onu özlərinə imam qərar vermişdilər. Beləliklə (həmin dövrlərdə) Əlinin tərəfdarları (şiələri) kimi tanınmışlar. Lüğət əhlinin də qeyd etdiyi kimi, “Şiə” sözü Əlinin tərəfdarları barədə xüsusi məna kəsb etmişdir. “Nihayə”, “Lisanul-ərəb” və başqa kitablara müraciət edin. Görəcəksiniz ki, bu ad (yəni: şiə) Əlinin və oğlunun tərəfdarı, dostları üçün əksər hallarda istifadə edilərək sonradan onlara*

[29] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 51 və 52
[30] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

*məxsus bir ada çevrilib”.*[31]

Muhəmməd Cavad Muğniyəyə də iftira ataraq aşağıdakı sözləri ona nisbət verir: *“Muğniyə deyir: “Şiə – Əlini sevən və ona tabe olan, yaxud onu sevib dost tutan şəxsdir”.*[32]

Bu Muğniyəyə atılmış bir böhtandır. O, bu sözləri əhli-sünnədən nəql edir. Deyir: *“Şiələrin əhli-sünnə kitablarına və sözlərinə əsasən isbat etdikləri kimi, şiəlik əqidəsi Peyğəmbər (s) tərəfindən açıqlanmış və ona dəvət olunmuşdur. Həmçinin sünni mənbələrinə əsasən isbat olunur ki, Əlini sevən və ona tabe olanlar üçün şiə adını məhz Peyğəmbər (s) özü istifadə etmişdir...”*[33] Başqa bir yerdə deyir: *“Şiələr buna aydın və qəti cavab verir, əhli-sünnə alimlərindən və səhih kitablarından dəlillərlə isbatlayırlar ki, şiə əqidəsinin banisi və təşəbbüsçüsü, Əlini sevməyə və vəli bilməyə çağıran məhz Peyğəmbərin (s) özüdür. O, həmçinin Əli tərəfdarları və müridləri üçün şiə kəlməsini ilk dəfə işlədən şəxsdir”.*[34]

Şiə alim və mütəfəkkirlərinə atdığı digər iftira və böhtanları qarşıda yenə qeyd edəcəyik. Təəccüblüdür ki, bütün bunlara rəğmən, İhsan Zahir dəlillərini yalnız şiələrin kitablarından nəql etməsi ilə öyünür!

### C. Şiə rəvayətləri ilə oynamalar

İhsan Zahir bir çox şiə rəvayətlərini kəsərək bir hissəsini götürüb, digər hissəsini ataraq həqiqi mənanı təhrif etmiş, bununla insanlarda yanlış təsəvvürlər oyatmağa çalışmışdır. Misal üçün, Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı mehriban əlaqəyə dəlil olaraq Süleym ibn Qeysin kitabından nəql etdiyi hədisə nəzər salaq. Sanki Əbu Bəkr Əlidən (ə) daim Fatimeyi-Zəhranın (ə) halını soruşur və onunla maraqlanırdı. İhsan Zahir deyir: **“Onların gümanlarının əksinə olaraq Siddiq daim Əlidən Peyğəmbər**

---

[31] Əsluş-şiəti və usuliha, s. 186-187

[32] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

[33] əş-Şiətu fil-Mizan, s. 19

[34] əş-Şiətu fil-Mizan, s. 17

**qızının halını soruşur və vəziyyəti ilə maraqlanırdı. "Əli (ə) məsciddə vacib namazını qılırdı. Hər dəfə namaz qılarkən Əbu Bəkr və Ömər ona deyirdilər: "Peyğəmbərin qızı necədir?"** Bunun ardınca Süleymin kitabının digər parçasını hadisənin davamı kimi nəql edir: **"Fatimə o gün vəfat etdi. Mədinə şəhərini kişi və qadınların ağlama səsləri bürüdü. Camaat Peyğəmbərin (s) vəfatında olduğu kimi çaşqın vəziyyətdə idilər. Əbu Bəkr və Ömər gəlib Əliyə təsəlli verdilər və dedilər: "Ey Əbülhəsən! Peyğəmbərin qızına namaz qılmaqda bizi qabaqlama".**[35]

Lakin rəvayətdən kəsilib çıxarılmış hissə yerinə qaytarıldıqda rəvayətin tam fərqli olduğunu görürük. Həmin hissəsini tam mətnlə təqdim edirik ki, məsələnin həqiqətini oxucu özü də aydın müşahidə etsin: *"Əli (ə) məsciddə vacib namazını qılırdı. Hər dəfə namaz qılarkən Əbu Bəkr və Ömər ona deyirdilər: "Peyğəmbərin qızı necədir?"*

*Xəstəliyi ağırlaşana qədər bu davam etdi. Sonra bir gün soruşub dedilər: "Bizimlə onun arasında olanları bilirsən. Mümkündürsə ondan bizim üçün izin istə ki, günahlarımıza görə üzr istəyək". Əli (ə) dedi: "Bu sizin boynunuzdadır!"*

*Gəlib evin qapısının qarşısında oturdular. Əli (ə) Fatimənin (ə) yanına gedib dedi: "Ey azad qadın! Filan və filan kəslər qapıda gözləyirlər. Sənə salam vermək istəyirlər. Fikrin nədir?" Fatimə (ə) dedi: "Ev sənindir və azad qadın da zövcəndir! Necə münasib bilsən, elə et". Əli (ə) dedi: "Üstünü ört". Fatimə (ə) üstünü örtdü və üzünü divara çevirdi.*

*Əbu Bəkr və Ömər içəri girib salam verdilər və dedilər: "Bizdən razı ol, Allah da səndən razı olsun". Fatimə (ə) dedi: "Sizi buna nə məcbur etdi?" Dedilər: "Pis əməlimizi etiraf edir və bizi bağışlamağını diləyir, bizə qarşı hiss etdiyin nifrəti qəlbindən çıxarmağını istəyirik". Fatimə (ə) dedi: "Əgər doğru deyirsinizsə, sualıma cavab verin. Mənim və sizin bildiyiniz şeyi soruşacağam. Əgər doğru söyləsəniz, niyyətinizin həqiqi olduğunuzu biləcəyəm". Dedilər:*

---

[35] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 76

*"Hər nə istəyirsən, soruş". Fatimə (ə) dedi: "Sizə Allahı şahid tuturam! Peyğəmbərin (s) "Fatimə mənim bir parçamdır. Ona əziyyət edən mənə əziyyət etmişdir" dediyini eşitmisiniz?" Dedilər: "Bəli, eşitmişik". Fatimə (ə) əllərini səmaya tərəf qaldırıb dedi: "İlahi, bu ikisi mənə əziyyət etdilər. Mən bunları sənə və peyğəmbərinə şikayət edirəm. Allaha and olsun, xeyr! Atam Peyğəmbərlə görüşüb etdiklərinizi ona xəbər verənə qədər sizdən razı olmayacağam. O sizin barənizdə hökm verəcək".*

*İbn Abbas deyir: "Bunu eşidən Əbu Bəkr ah-nalə çəkib səsini qaldırdı və şiddətli narahatlıq keçirdi". Ömər dedi: "Bir qadının sözünə görə narahat olursan, ey Peyğəmbər xəlifəsi?!"*

*İbn Abbas deyir: "Fatimə (ə) atası Peyğəmbərin (s) vəfatından sonra cəmi qırx gecə yaşadı. Xəstəliyi ağırlaşdıqda Əlini (ə) çağırıb dedi: "Ey əmim oğlu! Mənim halımı görürsən. Sənə bacım Zeynəbin qızı ilə evlənməyini tövsiyə edirəm. Uşaqlarıma qarşı mənim kimi olacaq. Mənim üçün bir tabut hazırla. Mələklərin onu mənim üçün vəsf etdiklərini gördüm. Allah düşmənlərindən heç biri cənazəmə, dəfnimə və cənazə namazıma şahid olmasınlar".*

*İbn Abbas deyir: "Bu, Möminlərin əmirinin (ə) sözüdür: "Bəzi şeylər var ki, onları tərk edə bilmərəm. Çünki Quran onunla Peyğəmbərin (s) qəlbinə nazil edilib: dostum Peyğəmbərin (s) Nakisin, Qasitin və Mariqinlərlə döyüşmək barədə məndən aldığı əhd və Fatimənin (ə) Əmamə binti Zeynəblə evlənməyi vəsiyyət etməsi".*

*İbn Abbas deyir: "Fatimə o gün vəfat etdi. Mədinə şəhərini kişi və qadınların ağlama səsləri bürüdü. Camaat Peyğəmbərin (s) vəfatında olduğu kimi çaşqın vəziyyətdə idilər. Əbu Bəkr və Ömər gəlib Əliyə təsəlli verdilər və dedilər: "Ey Əbülhəsən! Peyğəmbərin qızına namaz qılmaqda bizi qabaqlama".*

*Gecə olarkən Əli (ə) Abbası, Fəzli, Miqdadı, Salmanı, Əbu Zərri və Əmmarı çağırdı. Abbas önə keçib cənazə namazı qıldı və sonra onu dəfn etdilər.*

***Ömərin Zəhranın (ə) qəbrini qazdırmaq istəməsi və Əlinin (ə) bunun qarşısını alması***

*Səhər ertədən Əbu Bəkr, Ömər və bir dəstə adam gəldilər. Fatiməyə (ə) cənazə namazı qılmaq istəyirdilər. Miqdad dedi: "Dünən gecə Fatiməni dəfn etdik". Ömər üzünü Əbu Bəkrə tutub dedi: "Onların bunu edəcəklərini sənə demədimmi?" Abbas dedi: "Fatimə siz ikinizin ona cənazə namazı qılmamanızı vəsiyyət etdi".*

*Ömər dedi: "Ey Bəni-Haşim! Siz bizə olan köhnə həsədinizi əsla tərk etməyəcəksiniz. Bu sizin qəlbinizdə olan nifrətdir ki, heç vaxt aradan getməyəcək. Allaha and olsun, məzarını qazıyıb ona cənazə namazı qılmağı qərara aldım".*

*Əli (ə) dedi: "Ey Səhhakın oğlu! Əgər buna cəhd etsən səni sağ böyürün üstə çevirərəm. Allaha and olsun, əgər qılıncımı çəksəm sənin canını almadan qınına qoymaram. İstədiyini etməyə cəhd et görüm!" Ömərin cürəti bir anda yoxa çıxdı və susdu. Çünki Əlinin (ə) anda sadiq olduğunu bilirdi..."*[36]

Bu və bir çox digər yerlərdə İhsan Zahirin utanmadan saxtakarlıq, təhrif, yalan və iftiralara əl ataraq həqiqəti gizlətmək cəhdlərinin şahidi oluruq.

## İkinci: İmamiyyə şiələri ilə başqa firqlələrin rəylərini səhv salması

Bəzi yerlərdə İhsan Zahir bir çox İslam məzhəbinin iman bəslədiyi etiqad məcmuələrini qeyd edir. Ardınca həmin etiqadı şiə alimlərinə nisbət verərək onları qınamağa başlayır. Bütün bunlar onun ya İslam firqələrinin rəyləri və əqidələri barədə məlumatının olmamasından, ya da çatmaq istədiyi hədəf üçün çirkin niyyət və məqsədindən xəbər verir. Şübhəsiz ki, təhqiqat və kitab müəllifliyindəki bu (elmi qeyd və əsaslara, məntiq

[36] Kitabu Suleym ibn Qeys (Ali-Muhəmmədin sirləri), s. 391

qaydalarına əsaslanmayan) üslub elmə aşkar xəyanətdir. Bəzi məsələlərdə başqa islami firqələr kimi İmamiyyə şiələri də eyni etiqada sahibdirlər. Məsələn, şəfaət mövzusunda. Müxtəlif məzhəblərdən olan müsəlmanlar Peyğəmbərin (s), nəbi və rəsulların, mələklərin və möminlərin Qiyamət günü şəfaət edəcəkləri barədə həmfikirdirlər. Bunun üzərində geniş dayanmaq istəmirik. Yalnız Buxarinin "Səhih"indən həmin mövzuda olan hədisləri nəql etməklə kifayətlənirik. Cabir ibn Abdullah Peyğəmbərdən (s) nəql edir: *"Kim çağırışı (azanı) eşidərkən: "İlahi, ey bu kamil dəvətin və namazın Rəbbi! Muhəmmədə vəsilə və fəzilət bəxş et, onu özü üçün hazırladığın tariflənən məqama yüksəlt!" – desə, Qiyamət günü şəfaətim ona şamil olar".*[37]

Həmçinin "Səhih"də Əbu Səid Xudridən nəql edilən uzun bir rəvayətdə də buna rast gəlirik. Həmin rəvayətdən mövzu ilə bağlı hissəni qeyd edək: *"Peyğəmbərlər, mələklər və möminlər şəfaət edəcəklər. Cəbbar olan Allah buyuracaq: "Mənim şəfaətim isə qaldı". Oradan cəhənnəmin odunda yanmış bir dəstə insanı çıxaracaq..."*[38]

Eləcə də "Səhih"də Ənəsə istinadən Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: *"Qiyamət günü möminlərdən bir dəstəsi həbs olunacaq. Onlar deyəcəklər: "Əgər Rəbbimizdən şəfaət istəsək, bizim yerimizi rahatlayar... Mənim yanıma gələcəklər və mən də Rəbbimdən evində onlara şəfaət etməyim üçün izn istəyəcəyəm. Onu görüb səcdəyə qapanacaq və bir müddət səcdədə qalacağam. Buyuracaq: "Qalx, Muhəmməd, söylə eşidim, şəfaət et qəbul edim, dilə verim!" Peyğəmbər (s) buyurdu: "Başımı səcdədən qaldırıb, mənə öyrətdiyi kimi Rəbbimə həmd və səna edəcəyəm. Sonra şəfaət istəyəcəyəm və mənə izn veriləcək. Həmin möminləri çıxarıb Cənnətə daxil edəcəyəm".*

---

[37] Səhih, Buxari, c. 1, s. 152, "Azan vaxtı edilən dua" babı

[38] Səhih, Buxari, c. 1, s. 181-183, "Azan vaxtı edilən dua" babı

*Qətadə deyir: "Onun həmçinin belə dediyini eşitdim: "Mən qalxıb onları oddan çıxaracaq və Cənnətə daxil edəcəyəm. Sonra qayıdacaq, Rəbbimdən izn istəyəcək və Rəbbim də mənə onlar üçün izn verəcək..."*

Bu hədisi qeyd etməkdə məqsədimiz yalnız şəfaətin isbatını göstərməkdir. Yoxsa, həmin rəvayətdə qəbul etmədiyimiz bir neçə mətləb mövcuddur. Məsələn: "...*və mən də Rəbbimdən evində onlara şəfaət etməyim üçün izn istəyəcəyəm. Onu görüb səcdəyə qapanacaq..."*

Həmçinin peyğəmbər və övliyaların qəbirlərinin ziyarəti də barəsində bu cür həmfikir olduğumuz məsələlərdəndir. Müsəlmanlar bunun bəyənilən əməl olduğunda ittifaq etmişlər. Həmin mövzuya geniş toxunmadan, bir neçə rəvayətə işarə etməklə sözümüzə dəlil göstərəcəyik. Müslim öz "Səhih"ində Əbu Hüreyrəyə istinadən yazır: *"Peyğəmbər (s) qəbiristanlığa gedir və deyirdi: "Ey möminlər yurdu, salam olsun sizə! İnşallah, biz də sizə qovuşacağıq".*[39]

Yenə orada Aişədən nəql olunur: *"Peyğəmbər (s) onun yanında qaldığı günlərdə gecənin sonuna yaxın Bəqiyə tərəf çıxır və deyirdi: "Salam olsun sizə ey möminlər diyarı! Sizə vəd edilmiş əcəl gəlib çatdı! Biz də, inşallah, sizə qovuşacağıq! İlahi, Bəqi əhlini bağışla!"*[40]

ən-Nəvəvi hədisin şərhində deyir: *"Bu hədisdən qəbirlərin ziyarətinin və qəbiristanlıq əhlinə salam verməyin, onlar üçün dua etməyin və mərhəmət diləməyin bəyənilən (müstəhəbb) əməl olduğu anlaşılır"*.[41]

Həmçinin "Səhih"də Büreydə atasından nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, artıq onları ziyarət edə bilərsiniz..."*[42]

---

[39] Səhih, Müslim, c. 1, s. 150-151
[40] Səhih, Müslim, c. 3, s. 63
[41] Şərhu Müslim", c. 7, s. 41
[42] Səhih, Müslim, c. 3, s. 65

İbn Macə isə özünün "Sünən" kitabında Peyğəmbərin (s) qəbir ziyarətinə izn verməsi barədə hədislər üçün xüsusi bir fəsil ayırıb.[43]

Müsəlmanların həmfikir olduqları digər bir məsələ isə axır zamanda Mehdinin gəlişidir. Mehdi ilə bağlı rəvayətlər yalnız bir məzhəbə aid deyil. Bu barədə hafizlər, hədisşünaslar, sünni və şiə imamları hədislər nəql etmişlər. Burada sələfi alimi Mübarəkpurinin "Tuhfətul-əhvəzi" kitabından bir hissəni nəql etməklə kifayətlənirik. Deyir: *"Mehdi barədə hədislər fəsli: Əsrlərdən bəri bütün müsəlmanlar arasında Əhli-Beytdən olan bir şəxsin axır zamanda zahir olacağı, dinə dəstək verəcəyi, ədaləti bərqərar edəcəyi, müsəlmanların onun ardınca gedəcəyi, müsəlman ölkələrinə rəhbərlik edəcəyi, adının isə Mehdi olacağı məşhur rəydir. Dəccal çıxacaq və ardınca "Səhih"də qeyd olunan əlamətlər baş verəcək. İsa (ə) nazil olacaq, Dəccal qətlə yetiriləcək, həmin vaxt gəlib İsa (ə) onun qətlə yetirilməsinə yardım edəcək, Mehdinin imamlığı ilə namaz qılacaq. Əbu Davud, Tirmizi, İbn Macə, Bəzzar, Hakim, Təbərani, Əbu Yəla Mosuli kimi bir çox hədis imamları səhabələrdən Əliyə, İbn Abbasa, Abdullah ibn Ömərə, Təlhəyə, Abdullah ibn Məsuda, Əbu Hüreyrəyə, Ənəsə, Əbu Səid Xudriyə, Ümmü Həbibəyə, Ümmü Sələməyə, Sovbana, Qürrə ibn İyasa, Əli Hilaliyə, Abdullah ibn Haris ibn Cuzəyə (Allah onlardan razı olsun!) istinadla hədislər nəql etmişlər. Onların bu hədislərinin arasında səhih, həsən və zəif hədislər var".*[44]

Eləcə də müsəlmanların həmfikir olduqları bir çox başqa etiqadi məsələlər də mövcuddur. Ancaq bütün bunlara baxmayaraq İhsan Zahir, bu məsələləri qərəzli şəkildə təhrif edərək yalnız İmamiyyə şiələrinin etiqadı kimi təqdim etmişdir. Sanki şiələr digər müsəlman məzhəblərindən fərqli olaraq təkbaşına bu əqidəyə sahibdirlər.

---

[43] Sünən, İbn Macə, c. 1, s. 500, "Qəbirlərin ziyarəti haqda hədislər".

[44] Tuhfətul-əhvəzi, Mübarəkpuri, c. 6, s. 401-402

## Üçüncü: Yazılarında qarşı tərəfə söyüş, təhqir, nalayiq sözlər işlətməsi və təkfir etməsi

İhsan Zahirin kitabını fərqləndirən cəhətlərdən biri də şiələrə qarşı insanı dəhşətə gətirəcək və utandıracaq dərəcədə söyüş, təhqir, nalayiq ara sözlərindən istifadə etməsidir. Burada onlardan bir neçəsini qeyd edirik: **"Məcusilərin və yəhudilərin, məhv və həlak olmuşların övladları"[45], "günahkar yəhudilərin övladları",[46] "Üsyankar yəhudilərin övladları".[47]** Bəzi şiə alimlərini təhqir edərək deyir: **"Yalan söyləyirsən, ey Allah düşməni, ey məcusi və yəhudi övladı!"[48]** Bununla kifayətlənmir, sonrakı səhifədə də təhqirə davam edərək **"quduz it"[49]** deyərək vəsf edir. Və kitabının səhifələrini "bəzədiyi" və özünün daha çox layiq olduğu digər təhqir, söyüş və nalayiq sözlər...

Hansı təhqiqatçı və din aliminə belə sözlər yaraşar?!

Hər iki firqənin hədis imam və alimləri səhih Peyğəmbər (s) hədislərində söyüş və təhqirin qadağan edildiyini bildiriblər. Buxari və digər sünni hədisçilər söyüş və təhqirin qadağan edilməsi barədə Peyğəmbər (s) hədisləri üçün öz kitablarında xüsusi fəsillər ayırmışlar. Buxari öz "Səhih"ində Abdullahdan nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mömini söymək fasiqlik, onunla savaşmaq isə küfrdür".[50]* Həmçinin "Səhih"də Əbu Zərrin Peyğəmbərdən (s) belə eşitdiyi nəql edilir: *"Heç kim kimsəni fasiqlikdə və ya küfrdə ittiham etməsin. Əgər ittiham olunan şəxs elə (fasiq və ya kafir) olmasa, dedikləri özünə qayıdacaq".[51]* "Səhih"də Ənəsdən

---

[45] Şiə və Əhli-Beyt, s. 44

[46] Şiə və Əhli-Beyt, s. 44. Həmin səhifədəki haşiyədə. Bütün bu təhqir, söyüş və danlaqlardan sonra deyir: **"Biz onları və rəhbərlərini əsla söymürük".**

[47] Şiə və Əhli-Beyt, s. 61

[48] Şiə və Əhli-Beyt, s. 196

[49] Şiə və Əhli-Beyt, s. 197

[50] Səhih, Buxari, c. 7, s. 84

[51] Səhih, Buxari, c. 7, s. 84

rəvayət edilir: *"Peyğəmbər söyüş söyən, nalayiq sözlər danışan və lənət edən şəxs deyildi. Danlayarkən deyərdi: "Alnı torpaq olana nə olub?"*[52]

Bu barədə bir çox səhih hədis nəql edilmişdir. Söhbəti uzatmadan bu qədəri ilə kifayətlənərək İhsan Zahirin İmamiyyə şiələrinə qarşı belə kəlmələr işlətməkdə heç bir üzrünün olmadığını bildirmək istəyirik. Yanlışı göstərmək üçün söyüş və təhqir əvəzinə din alimlərinin malik olduğu elmi və məntiqi ortaya qoyması kifayətdir.

## Dördüncü: Şiələrin sözlərini araşdırarkən ixtilaflı mənbələrə əsaslanması

Şiə və şiəlik mənaları barədə əhli-sünnə alimləri ixtilaf etmişlər. Bu ixtilaf onların müəyyən bir qrupu ilə məhdudlaşır. Əksinə, həm fəqihlər, həm kəlam alimləri, həm də keçmiş və müasir hədisçilər arasında şiəlik məfhumu barədə ixtilaf mövcud olmuşdur. Aşağıda onların şiə və şiəlik barədə qeyd etdikləri bəzi fikirlərə nəzər salaq:

**1** – (Şiələr) Əlini fəzilətdə yalnız Osmandan üstün tutan, ilk iki xəlifənin fəzilətini və rəhbərliyini inkar etməyənlərdir. İbn Həcər deyir: *"Qədim alimlərin nəzərində şiəlik Əlinin Osmandan üstünlüyünə, savaşda haqlı tərəf olmasına, onun müxaliflərinin xəta etdiklərinə, Əlini ilk iki xəlifədən və onların fəzilətlərindən önə keçirməməyə etiqad bəsləməkdir".*[53] İbn Əbdu Rəbbih Əndəlusi deyir: *"Şiələr... Əlini Osmandan üstün bilənlər, Əbu Bəkr və Ömərin rəhbərliyini qəbul edənlərdir".*[54] Zəhəbi Osmanın Əbu Bəkr və Ömərdən sonra, fəzilətdə Əlidən (ə) üstünlüyü barədə danışdıqdan sonra deyir: *"Kim buna qarşı çıxsa, o qəti olaraq şiədir".*[55]

---

[52] Səhih, Buxari, c. 7, s. 84
[53] Təhzibut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 81
[54] əl-İqdul-fərid, İbn Əbdu Rəbbih, c. 2, s. 245
[55] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 16, s. 458

**2** – (Şiəlik) Əlini (ə) sevmək və onu bütün səhabələrdən üstün tutmaqdır; Əbülhəsən Əşəri deyir: *“Onlara şiə deyilməsinin səbəbi Əlinin (Allah ondan razı olsun!) tərəfdarları olmaları və Əlini (ə) Peyğəmbərin (s) bütün səhabələrindən üstün bilmələridir”*.[56] İbn Həcər “Hədyus-sari”də deyir: *“Şiəlik – Əliyə sevgi və onu bütün səhabələrdən üstün bilməkdir. Şiəlikdə ğüluvv edənlər və rafizilər də bu növə daxildirlər”.*[57]

**3** – (Şiələr) Əli ilə savaşdıqları üçün Osmana, Təlhəyə və Zübeyrə qarşı çıxanlar; onları küfrdə ittiham edənlər və ilk iki xəlifədən uzaq olduqlarını bildirənlər. Zəhəbi deyir: *“Həddi aşan (ğali) şiələr – keçmiş dövrlərdə və onların nəzərində Osmana, Zübeyrə, Təlhəyə, Müaviyəyə və Əli ilə (Allah ondan razı olsun!) savaşanlara qarşı çıxış edənlər, onları söyənlərdir. Bizim zamanımızda və nəzərimizdə isə bu ağalara küfr edənlər və iki xəlifədən uzaqlıqlarını bildirənlərdir”*.[58]

**4** – (Şiələr) Əlinin Peyğəmbər (s) tərəfindən təyin edilən imam və digər imamların onun övladlarından olduğuna etiqad bəsləyənlərdir; Şəhristani deyir: *“Şiələr – xüsusi olaraq Əlinin (Allah ondan razı olsun!) tərəfdarları, qəti dəlil və vəsiyyətlə imamlığı və xəlifəliyinə etiqad bəsləyənlərdir”.*[59] İbn Xəldun “şiə” sözünün mənasının izahında deyir: *“Keçmiş və müasir fəqih və kəlam alimlərinin nəzərində bu ad Əlinin və iki övladının (Allah onlardan razı olsun!) ardıcıllarına deyilir. Məzhəblərindəki ümumi fikrə əsasən, imamət ümmətin ixtiyarına həvalə ediləcək ümumi termin deyil və camaatın təyinatı ilə müəyyən olunmaz. Əksinə, imamət dinin rüknü və İslamın əsaslarındandır. Bir peyğəmbərin bundan qafil olması və seçimi ümmətə həvalə etməsi mümkün deyil. Öz ümməti üçün imam təyin etmək peyğəmbərə vacibdir. Həmin imam da böyük və kiçik günahlardan qorunmuş (məsum) olmalıdır. Onlar Peyğəmbərin (s) Əlini (Allah ondan razı olsun!) açıq*

---

[56] Məqalatul-islamiyyin, Əbülhəsən Əşəri, s. 5
[57] Hədyus-sari (“Fəthul-Bari”nin müqəddiməsilə), İbn Həcər Əsqəlani, s. 460
[58] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 6
[59] əl-Miləlu vən-nihəl, Şəhristani, c. 1, s. 145

*dəlillərlə imam təyin etdiyini nəql edir və həmin xəbərləri öz məzhəblərinin görüşünə görə yozurlar".*[60]

Şiəlik barədə bu dörd izah bir-birlərindən tam fərqli mənalar deyil. Onların bir-biri ilə müəyyən əlaqələri var. Məsələn, Osman, Təlhə, Zübeyr haqqında və Əli (ə) ilə savaşanlar barədə tənqidi sözlər danışanlar da Əlinin (ə) imamətinin təyinat və açıq dəlillərlə isbatlandığına iman bəsləyirlər.

Lakin İhsar Zahir "şiə" sözünün izahında olduğu kimi, sünni alimlərin terminlərindən xəbərsiz olduğuna, ya zəif təhqiqatçılığına görə, yaxud da adəti üzrə saxtakarlığa əl atdığı üçün məsələləri dolaşığa salmış, şiələrin rəylərinin araşdırma və təftişində qeyri-şiələrin kitab və mənbələrinə istinad etmişdir. Hətta göründüyü kimi, bəzi sünni mənbələri ilə bağlı da yanlışlığa yol verir. Deyir: **"Burada onların (şiələrin) kitablarından əvvəlki iki rəvayəti dəstəkləyəcək daha üç rəvayət nəql edirik. Birinci: Həsən ibn Əli ibn Əbu Talib (Allah onların ikisindən də razı olsun!) dedi: "Əlinin Ömərə qarşı çıxdığını görməmişəm..." ("ər-Riyazun-nəzirə", Təbəri, c. 2, s. 85)**

**İkinci rəvayət: "Nəcran əhli Əlinin yanına gəlib Ömərin onlara qarşı rəftarından şikayət etdilər..." Beyhəqi, c. 10, s. 130; "əl-Kamil", İbn Əsir, c. 2, s. 201, Misir çapı; "ət-Tarixul-Kəbir" İmam Buxari, c. 4, s. 145, Hindistan çapı; "Kitabul-xərac", İbn Adəm, s. 23, Misir çapı; "Kitabul-əmval", s. 98. "Futuhul-buldan", s. 74)**

**Üçüncü rəvayət: "Əli Kufəyə gəldikdə dedi: "Ömərin bağladığı heç bir düyünü açan deyiləm" ("Kitabul-xərac", İbn Adəm, s. 23; "Futuhul-buldan", Bəlazuri, s. 74, Misir çapı)".**[61]

---

[60] Tarix", İbn Xəldun, c. 1, s. 197

[61] Şiə və Əhli-Beyt, s. 99

Halbuki qeyd olunan mənbələrin hamısı sünni kitablarıdır. Onların arasında bir dənə də olsun şiə mənbəyi yoxdur. Lakin buna baxmayaraq o, **"Burada onların (şiələrin) kitablarından... nəql edirik"** deyir!

Həmçinin kitabının bir çox yerində sünni tarix alimlərini şiə kimi qələmə verir. Deyir: **"Şiə İbn Əbülhədid"[62], "şiə Əbülfərəc İsfahani"[63], "Abbasi katiblərindən şiə Əhməd ibn Əbu Yaqub ibn Cəfər"[64], "şiə Əbülmüəyyəd Müvəffəq ibn Əhməd Xəvarəzmi"[65], "məşhur şiə tarixçisi Məsudi"[66], "şiə İbn Nədim"[67]** və s.

Bu iddiaların yanlışlığının sübutu üçün deyirik:

Dinəvəri ilə bağlı Zirikli deyir: *"Əhməd ibn Davud ibn Dinəvəri Əbu Hənifə: mühəndis, tarixçi, botanik, riyaziyyatçı. Əbu Həyyan Tövhidi deyir: "Hikmət, fəlsəfə və ərəb ədəbiyyatını bir yerdə cəm etmişdi, yazdığı faydalı əsərləri var, onlardan "Əxbarut-tival"... tarixçilər onu və əsərlərini tərifləmişlər".*[68]

İbn Əbülvəfa Qureyşi "Təbəqatul-hənəfiyyə" kitabında onun adını zikr edərək deyir: *"Əhməd ibn Davud Əbu Hənifə Dinəvəri, "ən-Nəbat" kitabının müəllifidir, dilçilikdə məşhur alimlərdəndir, Əbülqasim Məsləmə ibn Qasim Əndəlusi tarix mövzusunda yazdığı "Kəbir" kitabının müəllifi olaraq onu hədisçilər arasında qeyd edir və deyir: "Hənəfi məzhəbinin fiqh alimidir, bir çox əsərləri var, onlardan: "Kitabul-fəsahə", "Kitabul-ənvar"... 895-ci ildə (h.q.282-ci il) vəfat edib".*[69]

---

[62] Şiə və Əhli-Beyt, s. 49, haşiyə 3

[63] Şiə və Əhli-Beyt, s. 58; s. 79, haşiyə 4

[64] Şiə və Əhli-Beyt, s. 68, haşiyə 2

[65] Şiə və Əhli-Beyt, s. 74

[66] Şiə və Əhli-Beyt, s. 80

[67] Şiə və Əhli-Beyt, s. 180

[68] əl-Ələm, c. 1, s. 123

[69] əl-Cəvahirul-muziyyətu fi təbəqatil-hənəfiyyə, Əbdülqadir ibn Əbülvəfa Qirşi, c. 1, s. 67

Müvəffəq Xəvarəzmiyə gəldikdə isə, o, Hənəfi fəqihlərindəndir. Zirkili onun barəsində deyir: *"Muhəmməd ibn Mahmud ibn Muhəmməd ibn Həsən Əbülmüəyyəd Xəvarəzmi: Hənəfi fəqihi, "Xətib" adı ilə vəsf edilib, Xəvarəzmdə doğulub və orada yaşayıb, Həccə getmiş, bir müddət orada qalmış, Misir və Dəməşq yolu ilə qayıdarkən Bağdadda yerləşmiş, dərs demiş və orada da vəfat etmişdi. "Camiu məsanidil-imam Əbu Hənifə" kitabının müəllifidir".*[70]

"Təbəqatul-hənəfiyyə"də deyilir: *"Muhəmməd ibn Mahmud ibn Muhəmməd ibn Həsən, imam Əbülmüəyyəd Xəvarəzmi Xətib, 1197-ci (hicri 593-cü) ildə doğulmuşdur, imam Nəcməddin Tahir ibn Muhəmməd Həfsidən fiqh dərsi almış, Xəvarizmdə tanınmış, Həccə gedərkən Bağdada gəlmiş, Həcdən sonra bir müddət orada qalmış, Misir tərəfdən qayıtmış, yolda Dəməşqdə qonaq olmuş, orada hədis söyləmiş, sonra yenidən Bağdada qayıdaraq dərs demiş və 1257-ci ildə (h.q. 655-ci il) vəfat etmişdi".*[71]

Məsudi isə şafei məzhəbli Mötəzilidir. Zirkili deyir: *"Əli ibn Hüseyn ibn Əli Əbülhəsən Məsudi, Abdullah ibn Məsudun nəslindəndir. Tarixçi, səyyah, araşdırmaçı olub, bağdadlı idi. Misirdə məskunlaşmış və orada vəfat etmişdi. Zəhəbi deyir: "Bağdad əhlindən hesab edilir, bir müddət Misirdə yaşamışdır. Mötəzili idi".*[72] Şafei fəqihi və müftisi olub. Sübki özünün "ət-Təbəqat" kitabında onu qeyd etmiş və demişdi: *"Əli ibn Hüseyn ibn Əli Məsudi – "Murucuz-zəhəb fi əxbarid-dunya" adlı tarix kitabının, eləcə də "Zəxairul-ulum" və s. kitabların müəllifidir... Əslən Bağdaddandır, az bir müddət orada yaşamış, ömrünün çox hissəsini isə Misirdə məskunlaşmışdı. Hədisçi, müfti və əllamə idi... Əqidədə Mötəzili olduğu deyilib. 956-ci ildə (h.q. 345 və ya 346-cı il) vəfat edib".*[73]

Bəli, əgər "əl-Vəsiyyət" kitabının ona məxsus olduğu isbatlansa, o zaman ömrünün sonlarında şiəliyi qəbul etdiyi anlaşılar. Lakin, digər

---

[70] əl-Əlam, c. 7, s. 87

[71] Təbəqatul-hənəfiyyə, Əbdülqadir ibn Əbülvəfa Qirşi, c. 2, s. 132

[72] əl-Əlam, c. 4, s. 277

[73] Təbəqatuş-şafiiyyə, Səbki, c. 3, s. 456

kitabları Şafei və ya Mötəzili məzhəbinə mənsub olaraq qalacaq. Çünki bu kitabları "əl-Vəsiyyət" kitabından əvvəl yazmışdır.

İbn Nədim Mosuliyə gəldikdə, o, Abbasi xəlifələrinin məşhur yaxın adamı, Əhli-Beytin və şiələrinin düşməni idi. Zirkili deyir: *"İshaq ibn İbrahim ibn Məymun Təmimi Mosuli, Əbu Muhəmməd ibn Nədim – xəlifələrin məşhur yaxın adamı, müğənni, lüğət, musiqi, tarix, din və kəlam elmi üzrə alim olub. Şeir söyləyən və hədis hafizi idi. Bir neçə kitabın müəllifidir. Ədəb, zəka və elm cəhətdən zamanının öndə gedən adamlarından olub. Əslən farsdır, Bağdadda doğulub və orada da vəfat edib. Ölümündən iki il əvvəl kor olub, Harun Rəşidin, Məmunun və Vasiqin yaxın adamı olub. Ölüm xəbəri Mütəvəkkilə yetişdikdə deyib: "Xilafətin əzəmətli başçısı, yaraşığı və zinəti getdi".*[74]

Əbülfərəc İsfahani isə Mərvani-Əməvi nəslindəndir, İmamiyyə deyil, Zeydi şiəsi olub. Zirkili deyir: *"Əli ibn Hüseyn ibn Muhəmməd ibn Əhməd ibn Heysəm Mərvani Əməvi Qüreyşi, Əbülfərəc İsfahani – ədəbiyyatçı, tarix, nəsəb, seyr, lüğət və müharibə məlumatlarının bilicisi idi. İsfahanda doğulmuş, orada yaşamış və Bağdadda vəfat etmişdi... Özünün müəllifi olduğu kitabları gizli yolla dostu Əndəlus Əməviyə göndərir və ondan ənam alırdı".*[75]

Xətib Bağdadi deyir: *"Onun Əməvi nəslindən olduğu halda şiə olması təəccüblüdür".*[76] Deyir: *"Ölümündən əvvəl ağlını itirmiş, Əməvi olduğu halda şiəliyi qəbul etmişdi. Doğru rəy də budur".*[77]

Zəhəbini təəccübə salan cəhət Əbülfərəcin əslən Əməvi ailəsinə mənsub bir şəxs olmasına baxmayaraq, necə şiəliyi qəbul etməsidir?! Halbuki tarixdə Əməvilərlə Ələvilər arasındakı uzun müddət alovlanan düşmənçiliklər, siyasi, dini rəqabətlər hər kəsə məlumdur.

---

[74] əl-Əlam, c. 1, s. 292
[75] əl-Əlam, c. 4, s. 278
[76] Tarixu Bağdad, Xətib Bağdadi, c. 11, s. 399
[77] Tarixu Bağdad, Xətib Bağdadi, c. 11, s. 399

Şiə alimləri də onun on iki imam şiəsi deyil, məhz Zeydi məzhəbinə mənsub olduğunu qeyd ediblər. Şeyx Tusi deyir: *"Əbülfərəc İsfahani – Zeydi məzhəbli idi, "Kitabul-əğanil-kəbir", "Kitabu məqatilit-talibin" və s. kitabların müəllifidir".*[78]

İbn Şəhr Aşub deyir: *"Əbülfərəc Əli ibn Hüseyn İsfahani – zeydi məzhəbli, "əl-Əğanil-kəbir", "Məqatilut-talibin" kitabları var".*[79]

Əllamə Hilli "Xülasətul-əqval" kitabında deyir: *"Əbülfərəc İsfahani – zeydi məzhəbinə mənsub idi".*[80]

Təfrişi "Nəqdur-rical" kitabında deyir: *"Əbülfərəc İsfahani – Zeydi məzhəbli olub, kitab müəllifidir, Əhməd ibn Əbdun bütün hədislərini rəvayət edib, həmçinin Dövri "əl-Fehrist"də ondan rəvayət nəql edib".*[81]

Yaqubiyə gəldikdə, o, Əhməd ibn İshaq ibn Cəfər ibn Vəhəb ibn Vazeh Yaqubidir. Zirkili onun tərcümeyi-halında deyir: *"Əhməd ibn İshaq (Əbu-Yaqub) ibn Cəfər ibn Vəhəb ibn Vazeh Yaqubi – coğrafiyaçı tarix alimi və səyyahdır, bağdadlıdır, babası Abbasi xəlifəsi Mənsurun yaxın adamlarından olub".*[82] O, Möminlərin əmiri Əlinin (ə) deyil, Bəni-Abbasın şiələrindən olub.

Amma İbn Əbülhədid isə Hənəfi və Mötəzilidir. Mahuzi deyir: *"Əbdülhəmid ibn Əbil-Hədid Hənəfi Mötəzili "Nəhcul-Bəlağə"nin şərhində deyir..."*[83]

Ola bilsin ki, İbn Əbülhədidin şiə hesab edilməsinin səbəbi (qarşıda da deyiləcəyi kimi) əhli-sünnənin Əlini Osmandan üstün tutan hər kəsi şiə bilməsindədir. Əlini Əbu Bəkrdən üstün bilənlər isə onların nəzərində həddi aşmış (ğali) şiələrdən hesab olunur. Bağdadın qədim Mötəzili

---

78 əl-Fehrist, Şeyx Tusi, s. 28

79 Məalimul-uləma, İbn Şəhr Aşub, s. 175

80 Xülasətul-əqval, Əllamə Hilli, s. 421

81 Nəqdur-rical, Təfrişi, c. 5, s. 206

82 əl-Əlam, c. 1, s. 95

83 Kitabul-ərbəin, s. 193

alimlərinin rəyi Əlinin (ə) Əbu Bəkrə beyət etməsinə baxmayaraq fəzilətdə ondan üstün olması idi. Onlar iddia edirdilər ki, Əli Əbu Bəkrin xəlifə olmasına razı idi. İbn Əbülhədid İbn Deyzilin Zeyd ibn Ərqəmə istinadla nəql etdiyi rəvayəti ilə bağlı deyir: *"Peyğəmbər (s) buyurur: "Sizə elə bir şəxsi göstərimmi ki, ona olan əhdinizə vəfa etsəniz əsla həlak olmayasınız? Sizin haminiz Allah, imamınız Əli ibn Əbu Talibdir. Onunla olun və onu təsdiq edin. Bunu mənə Cəbrail xəbər verib".*

*Əgər desən ki, bu, Əli ibn Əbu Talibin imamətinə açıq-aydın dəlildir, o zaman Mötəzilənin etiqad bəslədiyi nədir?! Deyərsən: "Mümkündür ki, məqsəd xilafət deyil, onun şəri fətva və hökm məsələlərində imam olduğudur. Biz Bağdaddakı şeyxlərimizin sözlərini şərh edərkən də qeyd etmişdik ki, imamət Əliyə (ə) məxsus idi, lakin o, öz razılığı və istəyi ilə ondan imtina etdi. Əgər o, sükut edib və başqası üçün imaməti təsdiq etmişsə, biz həmin şəxsi qəbul edir və xəlifəliyinin doğruluğunu təsdiqləyirik. Möminlərin əmiri (ə) özündən əvvəlki üç xəlifəyə qarşı çıxmamış, qılınc qaldırmamış və camaatdan onların əleyhinə yardım istəməmişdi. Bu da onların xilafətinin təsdiqidir. Həmin səbəbdən biz də onların imamətini qəbul edir, paklıqlarını, xeyirli və məsləhətli olduqlarını söyləyirik. Əgər Əli onlarla savaşsaydı, qılınc qaldırsaydı və ərəbləri onlarla savaşa səsləsəydi, o zaman belə rəftara yol verənlərə (Siffin, Nəhrivan və s.) qarşı söylədiyimiz kimi onların da fasiqliyinə və zəlalətə düçar olduqlarına hökm edərdik".*[84]

Başqa bir yerdə isə deyir: *"Bundan sonra əlimə şeyximiz Əbu Cəfər İskafinin kitabı düşdü. Orada Şeyx qeyd edirdi: "Bişr ibn Mötəmərin, Əbu Musanın, Cəfər ibn Mubəşşirin və digər qədim Bağdad alimlərinin rəyi budur ki, müsəlmanların ən əfzəli Əli ibn Əbu Talib, sonra oğlu Həsən ibn Əli, ondan sonra digər oğlu Hüseyn ibn Əli, ardınca Həmzə ibn Əbdülmüttəlib, Cəfər ibn Əbu Talib, ondan sonra Əbu Bəkr ibn Əbu Qühafə, Ömər ibn Xəttab və Osman*

[84] Şərhu Nəhcil-bəlağə, İbn Əbülhədid, c. 3, s. 98

*ibn Əffandır". (İskafi) deyir: "Əfzəl deməkdə məqsəd – Allah yanında ən hörmətli, ən çox savaba malik və Cənnətdəki dərəcəsi ən üstün olmasıdır".*

*Bundan sonra şeyximiz Əbu Abdullah Bəsrinin kitabına rastladım, o da bu sözləri təkrar edir və onu Bağdad alimlərinə nisbət verir, Şeyx Əbülqasim Bəlxinin bu sözləri dediyini qeyd edirdi. Son zamanların Bağdad alimlərindən olan Şeyx Əbülhəsən Xəyyatda bunları eynilə söyləmişdi. Onların hamısı eyni fikrə sahib idilər. Bu rəy məni təəccübləndirir və bir çox şeyxlərimizin həmin fikrə gəlmələri məni sevindirir. Sözlərimi Mötəzili əqidəsini nəzmə çəkdiyim qəsidəmdə şərh etmişəm".*[85]

Kitabın digər bölməsində isə deyir: *"Əliyə (ə) gəldikdə, o, bizim nəzərimizdə sözünün doğruluğuna, felinin höccət olmasına və itaətinin vacibliyinə görə Peyğəmbərin (s) nisbətindədir. Əgər onun bir kəsdən uzaq durduğu isbat olunsa, kimliyindən asılı olmayaraq biz də o kəsdən uzaq duracağıq. Lakin Əlidən (ə) nəql olunan rəvayətlərin doğruluğuna gəldikdə, həqiqətən onun adından söylənən yalanlar olduqca çoxdur, təəssübkeşlər əsli olmayan bəzi hədislər uydurublar. Ancaq o həzrətin (ə) Müğeyrədən, Əmr ibn Asdan və Müaviyədən uzaqlığı bizə məlum bir həqiqətdir, mütəvatir xəbərlər dərəcəsindədir. Bu səbəbdən də dostlarımız onlara sevgi bəsləmir, tərifləmirlər. Mötəzilə etiqadında həmin kəslər bəyənilmirlər. Halbuki Əlini (ə) qədim şeyxlərimiz yalnız gözəl sözlərlə yad etmişlər. Həmçinin Həsəni də dindəki rəhbərliyinə görə müsbət keyfiyyətlərlə, aləmlərin Rəbbinə olan müxlis itaəti ilə xatırlayırlar. Onun barəsində güman edilənlərə zahirdə zidd görünən rəvayətlərə nəzər salmaq istəyənlər bu kitaba (yəni "Şərhu Nəhcil-bəlağə"yə) müraciət etsinlər. Biz burada məzhəbimizin xilafına olduğu güman edilən heç bir məsələni nəzərdən qaçırmamış, onların hamısına izah vermiş və haqqa uyğun şəkildə təfsir etmişik".*[86]

---

[85] Şərhu Nəhcil-bəlağə, İbn Əbülhədid, c. 11, s. 119-120

[86] Şərhu Nəhcil-bəlağə, İbn Əbülhədid, c. 20, s. 35

Başqa bir fəsildə isə deyir: *"Ona görə də camaatımız bu məsələdə nicat, qurtuluş və uğur əshabıdır. Çünki onlar ən mötədil yolla getmiş və demişlər: "O (yəni Möminlərin əmiri), axirətdə məxluqların ən əfzəli, Cənnətdə ən üstün dərəcəlisi, həmçinin dünyada da məxluqların ən fəzilətlisi, ən çox yaxşı xüsusiyyət, məziyyət və əmələ sahib olan şəxsdir. Onunla düşmənçilik edən, savaşan və ona qarşı çıxan hər kəs Pak və Münəzzəh Allahın düşmənidir, kafir və münafiqlərlə birgə odda əbədi qalacaq. Yalnız tövbə edən, onun məhəbbəti və vilayəti üzərində dünyadan köçdükləri isbat olan şəxslər istisnadır. Ondan əvvəl imamət kürsüsünə əyləşmiş mühacir və ənsarın ən fəzilətlilərinə gəldikdə, əgər Əli (ə) onların imamətini inkar etsəydi, onlara qəzəblənsəydi, əməllərindən narazı olsaydı, bundan əlavə, onlara qılınc qaldırsaydı və ya insanları özünə tərəf çağırsaydı, o zaman həmin insanların üzərinə sanki Peyğəmbərin (s) qəzəbləndiyini söyləyəcək, həlaka düçar olduqlarını deyəcəydik. Həqiqətən də Peyğəmbərin (s) onun barəsində belə buyurduğu sübuta yetmişdir: "Sənin savaşın mənim savaşım, sülhün isə mənim sülhümdür". Həmçinin buyurub: "İlahi, onun dostu ilə dost, düşməni ilə düşmən ol". Eləcə də: "Səni yalnız mömin sevər, sənə yalnız münafiq qarşı çıxar". Lakin (Əlinin) onların imamətinə razı olduğunu, beyət etdiyini, arxalarında namaz qıldığını, qohumluq yaratdığını və qənimətlərindən götürdüyünü görürük. Biz onun bu hərəkətlərinin müqabilində ilk xəlifələrə qarşı həddi aşa bilmərik. Görürsünüz ki, Əli (ə), Müaviyəyə qarşı çıxdıqda biz də ona qarşı çıxırıq, onu lənətlədikdə biz də lənətləyirik, Şam əhlinin və onların tərəfdarları Əmr ibn As, eləcə də onun oğlu kimi digər səhabələrin azdığına hökm etdikdə biz də onların azdığına hökm edirik".*[87]

Kitabın 20-ci cildində yazır: *"Amma tabeinlər arasında onun bütün insanlardan fəzilətli olduğunu deyənlər olduqca çoxdur. Bunlardan Üveys Qərani, Zeyd ibn Sövhan, qardaşı Sasaə, Cündəb Xeyr, Übeydə Salmani və adlarını saya bilmədiyimiz bir çoxları. Həmin əsrdə şiə kəlməsi onu hamıdan*

---

[87] Şərhu Nəhcil-bəlağə, İbn Əbülhədid, c. 20, s. 220-221

*üstün tutanlara şamil edilirdi. İmamiyyə şiələrinin və onlar kimi əvvəlkilərin xəlifəliyi barədə tənəli danışanların sözləri indi olduğu qədər o dövrdə məşhur deyildi. Əksinə, yalnız onun üstünlüyünü iqrar edənlər şiələr kimi tanınırdılar. Şiələrin üstünlükləri və Cənnətlə müjdələndikləri barədəki hədislər də məhz həmin şəxslərə aid edilir. Bu cəhətdən Mötəzili yoldaşlarımız öz kitab və yazılarında deyirlər: "Həqiqi şiələr bizik". Bu söz ifrat və təfrit əhlinin sözləri ilə müqayisədə ən düzgün və haqqa ən yaxın olanıdır, inşallah".*[88]

Bununla, İlahi İhsan Zahirin sözlərindəki qeyri-dəqiqlik və anlaşılmazlığın İslam məzhəbləri və şiəlik haqqında dolğun məlumata sahib olmadığından irəli gəldiyi məlum olur. Təhqiqatçı şəxslər bilirlər ki, bu cür mənbələr (hətta etimad edilməsi vacib olmayan ikinci dərəcəli mənbələr olmasına rəğmən) terminlərinə və ya oradakı ixtilaflarına əsasən, şiə mənbələri sayılmırlar.

## İhsan Zahirin "Şiə və Əhli-Beyt" kitabına irad üslubumuz

İhsan Zahirin "Şiə və Əhli-Beyt" kitabındakı iddialarına yazdığımız bu rəddiyyədə ixtilaflı məsələlərdə bəhs üslubunun tələblərindən irəli gələn qaydalara riayət etməyi özümüzə borc bilmişik. Kitaba nəzər yetirən hər bir şəxs aydın şəkildə aşağıdakı qaydalara riayət olunduğunu görəcək:

**1** – İrad söylənib dəlil təqdim edilərkən yalnız əhil-sünnə kitablarında qeyd olunan, onların özlərinin rəylərinə əsasən ravilərin ədalət və nöqsanları nəzərə alınaraq, mötəbər sayılacaq səhih rəvayətlərə əsaslanacağıq. Bu zaman iki "Səhih"in, dörd "Sünən"in və üç "Müsnəd"in rəvayətlərini onların digər hədis kitablarından öndə tutacağıq.

[88] Şərhu Nəhcil-bəlağə, İbn Əbülhədid, c. 20, s. 226

Şiə kitablarından yalnız İhsan Zahirin öz kitabında dəlil göstərdiyi rəvayətləri təqdim edəcəyik. Bunda məqsədimiz isə həmin rəvayətin həqiqətini, sənəd, dəlalət və məzmun cəhətdən səlahiyyətini əsaslandırmaq olacaq.

Qeydlərimizin səbəbi budur ki, şiə əqidəsinin bir çox əsas və güclü dəlilləri elə sünni mənbələrində də mövcuddur, necə ki, bu kitab çərçivəsində də həmin dəlillər bir daha təqdim ediləcək. Bununla da İhsan Zahirin müqəddimədə şiə camaatına xitabən yazdığı **"əgər vəhdəti və əhli-sünnəyə yaxınlaşmağı istəyirlərsə, öz alimlərinin kitablarını yandırsınlar"**[89] kimi batil nəsihətinin puçluğu aydın olacaq.

Məgər bu cahil bilmir ki, şiələr sünnilərlə bəhsdə əsla öz kitablarından dəlil gətirmirlər?! Şiələr yalnız əhli-sünnə kitablarında səhih və onların tələblərinə uyğun hədislərdən istifadə edirlər!

O zaman Əhli-Beyt (ə) davamçılarının məzhəbinin haqlılığına dəlalət edən rəvayətləri özündə ehtiva edən bütün sünni kitablarını yandırmalı, yaxud oradakı hədisləri pozmalıdırlar ki, İhsan Zahirin xəyal etdiyi şiə və sünnilər arasında vəhdət və yaxınlaşma baş versin?!

**2** – Uca Allahın ***"İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mücadilə et. Həqiqətən, sənin Rəbbin yolundan azanları (ən yaxşı) bilən, doğru***

---

[89] "İhsan Zahir deyir: **"Məkkədə Həcdə olarkən şiələrin böyük alimləri mənimlə görüşüb kitabım haqqında söhbət etdilər... Onlara dedim: "Bəli, haqqınız var. Ancaq mənə deyin, kitabımda yazılanlar eynilə sizin kitablarınızda yazılmayıbmı?" Dedilər: "Bəli, oradakıların hamısı bizim kitablarımızda var..." Dedim: "Bəs, o zaman siz nə istəyirsiniz?" Dedilər: (həmin vaxt onları dinlədiyim üçün sevincədən sanki qadanlanırdılar)..." Dedim: "Razıyam, amma bir şərtlə". Onlar sevincək sözümü kəsib şərtləri qəbul edəcəklərini bildirdilər... Dedim: "Bu kitabların hamısını müsadirə edin... yandırın ki, bir də onlardan heç kəs nəql etməsin... Onlar bir az düşünüb dedilər: "Sən bu kitabların geniş yayıldığını, müxtəlif kitablar və məqalələrdə istinad edildiyini bilirsən..."** (Şiə və Əhli-Beyt, müqəddimə, s. 7)

***yolda olanları da (ən yaxşı) tanıyandır!”***[90] ayəsinin tələbinə uyğun olaraq söyüş, təhqir, aldadıcı sözlərdən istifadə edilməməsi;

Yalnız əlindəki dəlil və sübutların, eləcə də ədəb və əxlaqının azlığı səbəbindən bir kəs belə sözlərdən istifadəyə əl atar. Lakin Allahın lütfüylə, əlimizdə olan möhkəm dəlil və sübutlar zəiflik, köləlik və məğlubiyyət əlaməti olan, dəlil və sübut baxımından naqislərin izlədiyi bu cür mənfur üslublara əl atmağa bizi möhtac etmir.

**3** – Dəlalət və ya məna dəyişikliyinə, müəllifin qəsd etmədiyi mənalara səbəb olacaq rəvayətlər parçalarından istifadə etməmək; əminik ki, bu əməl azdırma və yayındırma üsullarındandır, ürf və şəriət tərəfindən də qəbuledilməzdir. Çünki belə bir üslub yalnız dəlil çatışmazlığı ilə üzləşən və qarşı tərəfi hansı yolla olursa-olsun inandırmağa can atan kəslərin naqis əməlidir.

Bəli, lakin bəzən mətni uzatmamaq məqsədilə mənbədə olan, əsli mənasına xələl yetirmədən sözümüzə şahid olan hissəni qeyd etməklə kifayətlənmək olar.

**4** – Rəddiyyə yazarkən İhsan Zahirin kitabındakı mövzu ardıcıllığını qoruyuruq; Yalnız bəzi yerlərdə bəhsin məntiqi ardıcıllığına riayət etmək üçün bunu tərk etmək məcburiyyətində qalmışıq.

**5** – İhsan Zahir tərəfindən ortaya atılan şübhələri rədd edərkən məqamı gəldikdə uzun və təfsilatlı izahlardan, eləcə də bəzən ixtisarlardan istifadə edilməsi;

**6** – Rəddiyyənin bab, fəsil və bəhslərə bölünməsi; Belə ki, öncə ümumidən başlanılmış, sonra xüsusi və daha xüsusi olan təqdim edilmişdir. Bununla da əvvəldəki təməl, digərləri isə onun üzərində qurulmuş bəhslərdir. Bəzi məsələləri isə əhəmiyyət və zərurətinə görə xüsusi bablarda qeyd etmişik. Bunlar aşağıdakılardan ibarətdir:

*Birinci: Əhli-Beyt (ə) və səhabələr*

---

[90] Nəhl, 125

*İkinci: Əhli-Beyt (ə) və Əbu Bəkr ibn Əbu Qühafə*

*Üçüncü: Fədək*

*Dördüncü: Fatimənin (ə) qəzəbi*

*Beşinci: Əhli-Beyt (ə) və Ömər ibn Xəttab*

*Altıncı: Şiəlik və dini dəlillər*

*Yeddinci: Əhli-Beyt (ə) və Osman ibn Əffan.*

Sonda, aləmlərin Rəbbinə həmd edir, ağamız, peyğəmbərimiz, qəlbimizin məhbubu Muhəmmədə və Allahın bütün pislikləri uzaqlaşdıraraq pak-pakizə qərar verdiyi ailəsinə Onun salavatını diləyirik.

## Birinci bab: Əhli-Beyt (ə) və səhabələr

Burada bir neçə fəsil var:

**Birinci fəsil:** Əhli-Beyt kəlməsinin lüğətdə, Quranda və sünnədəki mənaları

**İkinci fəsil:** Qurani-Kərimin ümumən səhabələrə münasibəti

**Üçüncü fəsil:** Peyğəmbərin (s) səhabələrə münasibəti

**Dördüncü fəsil:** Əhli-Beytin (ə) səhabələrə münasibəti

## Giriş

İhsan Zahir bəzi anlayışlarda, xüsusilə Əhli-Beyt və səhabə məfhumlarındakı məqsədi aydın şəkildə bəyan etməmişdir. Bunda məqsədi isə şiələrin Peyğəmbərin Əhli-Beyti (ə) və səhabələri haqqındakı rəylərində çaşqınlıq yaratmaq olmuşdur. Əhli-Beyt məfhumu və ondakı məqsəddə çaşqınlıq yaratdıqdan sonra birbaşa və bilərəkdən onların ümumən səhabələrə, həmçinin müəyyən şəxslərə olan nisbəti mövzusuna daxil olmuşdur. Halbuki, məzhəblərdən məlumatlı olan hər bir kəsə aydındır ki, İmamiyyə şiələri bu məsələdə Əhli-Beyt (ə) məfhumunu istilah və termin olaraq yalnız beş nəfər "Kisa" əhlinə – Peyğəmbərə (s), Möminlərin əmirinə (ə), Fatiməyə (ə), Həsən və Hüseynə (ə) aid edirlər. Həmçinin onların ümumən səhabəyə münasibətində də fərqlilik mövcuddur. Məsələnin daha aydın olması üçün bunları bir-birindən ayıracaq və bu babda onlardan yalnız birincisinin üzərində dayanacağıq. Bu da özündə iki fəsli ehtiva edəcək. Ancaq müəyyən səhabələrlə münasibətləri barədə qarşıdakı bablarda bəhs edəcəyik. Qeyd etdiyimiz iki fəsil bunlardır:

1. Əhli-Beyt kəlməsinin lüğətdə, Quranda və sünnədəki mənaları;
2. Əhli-Beytin (ə) ümumən səhabələrə nisbəti.

## Birinci fəsil: Əhli-Beyt kəlməsinin lüğətdə, Quranda və sünnədəki mənaları

Burada üç bəhs var:

**Birinci bəhs:** Əhli-Beyt kəlməsi lüğətdə

**İkinci bəhs:** Əhli-Beyt kəlməsi Qurani-Kərimdə

**Üçüncü bəhs:** Əhli-Beyt kəlməsi rəvayətlərdə

### Birinci bəhs: “Əhli-Beyt” kəlməsi lüğətdə

İhsan Zahir lüğət alimlərinin sözlərini uzun-uzadı təqdim etdikdən sonra deyir: **“Bütün bunlardan aydın olur ki, “Əhlul-beyt” kəlməsi əslində xüsusi olaraq zövcələr, məcaz olaraq isə övladlar və yaxın qohumlar barədə istifadə edilir”.**[91]

**Müzakirə**

İhsan Zahir bu iddiasına bir çox lüğət alimlərinin sözlərini dəlil göstərir. Lakin bu sözlərinin heç biri onun iddiaları ilə uzlaşmır. Onun qeyd etdiklərini kitabındakı ardıcıllıqla təqdim edəcəyik. Düzgün elmi üslub da məhz belə bir ardıcıllığın riayət olunmasını tələb edir. Siz İhsan Zahirin lüğət alimlərindən nəql etdiklərinin heç də “Əhlul-Beyt (Ev əhli)” kəlməsi üçün deyil, “Əhlur-racul (kişinin əhli)” kəlməsi üçün izah olduğunu görəcəksiniz.

Halbuki onun iddiasına görə, bu lüğətlərdən nəql etdiyi izahlar “əhlul-beyt” kəlməsinin bəyanıdır! Bu olduqca qəribədir! Sizə lüğət alimlərinin sözlərini təqdim edirik:

**Birinci: “Qamus”un müəllifi (vəfatı: h.q. 817, m. 1415)**

Firuz Abadi deyir: *“Kişinin əhli: ailəsi, yaxınları. Cəmdə “Əhlunə və əhal...; iş əhli: onun mükəlləfləri; ev əhli: onun sakinləri; məzhəb əhli: o dinin daşıyıcıları; kişinin əhli: zövcəsi; Peyğəmbərin (s) əhli: zövcələri, qızları, kürəkəni Əli (Allah ondan razı olsun!), yaxud qadınları və ailəsindən olan kişilər; hər bir peyğəmbərin əhli: onun ümməti”.*[92]

---

[91] Şiə və Əhli-Beyt, s. 18

[92] əl-Qamusul-muhit, Firuz Abadi, c. 1, s. 1245

**“Qamus”un müəllifinin sözlərindən məlum olur:**

**1** – “Əhl” kəlməsinin mənası təyini söz birləşməsi ilə fərqli mənalar verir. Təyin etdiyi sözdən asılı olaraq ailəyə, yaxın qohumlara, iş mükəlləflərinə, evə birləşdikdə isə sakinlərə və s. mənalara şamil olur.

**2** – “Qamus” kitabının müəllifi “Əhlul-Beyt” kəlməsinin zövcələr mənasını daşıdığını qeyd etməmişdir, əksinə demişdir: *“ev əhli: onun sakinləri”.* Ancaq *“kişinin əhli”* dedikdə məqsədin onun zövcəsi olduğunu bildirir. Həmçinin, *“kişinin əhli”* kəlməsinin izahında *“onun ailəsi və yaxın qohumları”*nı qeyd edir. Görəsən, İhsan Zahirin “Qamus”un müəllifinə və digər lüğət alimlərinə nisbət verdiyi, həqiqətdə *“ev əhli”* kəlməsinin zövcələrə, məcaz olaraq isə başqalarına aid edildiyi sözlər haradadır?!

**3** – “Qamus”un müəllifi *“Peyğəmbərin (s) əhli”* kəlməsində məqsədin onun zövcələri, qızları, kürəkəni Əli (ə), yaxud qadınları və ailəsindən olan kişilər olduğunu bəyan edir. Lakin bu da İhsan Zahirin “əhli-beyt” kəlməsinin həqiqi mənasının zövcələr olduğu iddiası ilə uyğun gəlmir.

Bəs İhsan Zahirin “Qamus”un müəllifinə istinadən iddia etdiyi, “əhli-beyt” kəlməsinin xüsusi olaraq qadınlar, məcaz olaraq yaxınlar barədəki sözləri haradadır?!

**İkinci: Zübeydi (vəfatı: h.q. 1205, m. 1791)**

Zübeydinin “Tacul-urus” kitabında “Qamus”un sözlərinin təqibində verdiyi izahları təqdim edirik: *“Əhl – (məzhəb üçün: həmin dini daşıyanlar), ona etiqad bəsləyənlər; məcaz olaraq (kişinin əhli: zövcəsi). Buraya övladları da daxil edilir. Bu məna ilə Uca Allahın* ***“... Musa ailəsi ilə birlikdə yola çıxdığı...”***[93] *sözü də təfsir edilir. Yəni zövcəsi və övladları ilə birgə yola çıxdı. (Peyğəmbərin (s) əhli: zövcələri, qızları, kürəkəni Əli (Allah ondan razı olsun!), yaxud qadınları); deyilib ki, Peyğəmbərin (s) əhli – onun (ailəsindən olan kişilər); Buraya nəvələri və nəsli də daxildir. Buradan: Uca Allah*

---

[93] Qəsəs, 29

*buyurur:* ***"Əhlinə namaz qılmağı əmr et, özün də ona səbirlə davam et"***[94]*, həmçinin:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[95]*, eləcə də:* ***"Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun. Allah təriflənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqdir!";***[96] *(hər bir peyğəmbərin əhli: onun ümməti) və millətinin üzvləri. Buradan da Uca Allahın sözü anlaşılır:* ***"O, öz ümmətinə namaz qılmağı, zəkat verməyi əmr edirdi"***[97]***".***[98]

**Zübeydinin sözlərindən məlum olur:**

1 – "Əhl" kəlməsinin məcaz olaraq zövcə mənasında olduğunu aydın şəkildə bəyan etdi. Bu isə İhsan Zahirin iddiasının tam əksidir. O deyirdi: **"Xüsusi olaraq zövcələr, məcaz olaraq isə övladlar və yaxın qohumlar barədə istifadə edilir".** Beləliklə, İhsan Zahirin Zübeydinin sözlərindən "məcaz" kəlməsini pozduğunu görürük. O, belə deyirdi: **"Məzhəb əhli: o dinin daşıyıcısı və ona etiqad bəsləyənlər; kişinin əhli: zövcəsi, oraya övladlar da daxil edilir".**[99]

**2** – Zübeydi də digər lüğət alimləri kimi "əhl" kəlməsinin təyini söz birləşməsi ilə fərqli mənalar kəsb etdiyini deyir. Buna əvvəldə də işarə etdik.

**Üçüncü: İbn Mənzur (vəfatı: h.q. 711, m. 1311)**

Deyir: *"Ev əhli: onun sakinləri; kişinin əhli: ona ən çox aid olan şəxslər; Peyğəmbərin (s) əhli-beyti: zövcələri, qızları, kürəkəni Əli (ə). Deyilib ki,*

---

[94] Taha, 132
[95] Əhzab, 33
[96] Hud, 73
[97] Məryəm, 55
[98] Tacul-urus, Zübeydi, c. 14, s. 32, "ƏHL" hərfləri
[99] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 15

*Peyğəmbərin (s) qadınları və ailəsindən olan kişilər".*[100]

**İbn Mənzurun sözlərindən məlum olur:**

1 – Müəllif "Kişinin əhli" ilə "ev əhli" kəlmələri arasında fərq qoydu. Dedi: *"Ev əhli: onun sakinləri; kişinin əhli: ona ən çox aid olan şəxslər".* Bu isə İhsan Zahirin "əhli-beyt" kəlməsinin zövcələr barədə həqiqi, digərləri barədə isə məcazi məna daşıdığı barədəki iddiasına ziddir.

**2** – İbn Mənzurun sözlərindən göründüyü kimi, "əhl" kəlməsi özünə təyinedici sözün birləşməsi ilə məna dəyişikliyi göstərir. Əgər "məzhəb" kəlməsinə birləşsə, iş, ev və ya kişi sözlərinə birləşərəkən verdiyi mənadan fərqli məna kəsb edir. Bu isə "ev əhli" kəlməsinin zövcələr barədə həqiqi, digərləri barədə isə məcazi məna verdiyinə əsla dəlalət etməz. Əksinə, kəlmələrə izafə olunması ilə fərqli mənalar verir.

**Dördüncü: Cövhəri (vəfatı: h.q. 393, m. 1002)**

Deyir: *"Əhələ" feli, "əhələ" (keçmiş zamanda)", "yəhulu" (indiki zamanda), (məsdəri:) "uhulən", yəni evləndi. "Təəhhələ" feli də belədir. Kəsai deyir: "Əhhəltu bir-raculi" – onunla həmsöhbət olub, birgə vaxt keçirdim. "Mərhəbən və əhlən" sözü isə: "ətəytə səətən" – xoş gəldin, "ətəytə əhlən" – rahat ünsiyyət qur, özünü yad hiss edib çəkinmə". Əbu Zeyd: "Ahələkə Allahu fil-cənnəti" – (məsdəri:) "ihalən", yəni Allah səni Cənnətə daxil edib orada evləndirsin. "Əhhələkə Allahu lilxeyri" – Allah səni xeyrə əhl eləsin; (məsdəri:) təhilən".*[101]

**Cövhərinin sözlərindən məlum olur:**

**1** – Cövhəri, söhbətimizin mövzusu olan "əhlul-beyt – ev əhli" kəlməsinə ümumiyyətlə toxunmadı.

---

[100] Lisanul-ərəb, İbn Mənzur, c. 11, s. 28

[101] əs-Sihah, Cövhəri, c. 4, s. 167

**2** – Həmçinin, əhl kəlməsinin zövcələr barədə həqiqi, digərləri barədə isə məcazi məna daşıdığını bildirmədi. Bu isə yenə də İhsan Zahirin iddiasına ziddir.

**Beşinci: Zəməxşəri (vəfatı: h.q. 538, m. 1143)**

Deyir: *"Öz əhlinin yanına qayıtdılar, filankəs filan şeyin əhlidir, "Və qad istəhələ lizəlik" – ona layiq oldu. Fail – "mustəhil ləhu", (ona layiq olan). Hicaz əhlinin bu kəlməni daha geniş mənalarda istifadə etdiyini eşitmişəm: məkan, sakin, məskunlaşmış. "(Fel olaraq) "əhələ" fulanun, (məsdəri:) "uhulən", eləcə də "təəhhələ" – yəni evləndi. "Raculun ahilun" – evlənmiş kişi. Hədisdə deyilir: "Subaya bir, evliyə iki pay verilir". "Ahələkə Allahu fil-cənnəti" – (məsdəri:) "ihalən", yəni Allah səni Cənnətdə evləndirsin".*

**Zəməxşərinin sözündən məlum olur:**

**1** – Göründüyü kimi o, yalnız "əhələ" felinin mənalarını izah etdi, söhbətimizin mövzusu olan "əhl və əhlul-beyt" kəlmələri üçün heç bir məna bildirmədi. İhsan Zahir isə iddia edirdi ki, bu kəlmə (Zəməxşərinin sözlərinə görə,) həqiqi mənada zövcələr barədə istifadə edilir. Mətndə isə İhsan Zahirin sözlərinin heç bir sübutu yoxdur.

**Altıncı: Xəlil ibn Əhməd Fərahidi (vəfatı: h.q. 170, m. 786)**

Deyir: *"Kişinin əhli: zövcəsi və ona ən çox aid olan şəxslər...; ev əhli: onun sakinləri".*[102]

**Fərahidinin sözlərindən məlum olur:**

İhsan Zahir "əl-Eyn" kitabından birbaşa nəql etməmiş, İbn Farisin "Məqayisul-luğət" kitabından iqtibas etmişdir. Buna baxmayaraq deyirik:

---

[102] əl-Eyn, Fərahidi, c. 4, s. 89

Fərahidi İhsan Zahirin iddia etdiklərindən heç birini qeyd etmir. O, izahında kişinin əhlinin zövcəsi və ona ən çox aid olan şəxslər olduğunu bildirmiş, kişinin əhlinin xüsusi olaraq zövcələrindən təşkil olunduğunu söyləməmişdir. Halbuki İhsan Zahir lüğət alimlərinin "əhlul-beyt – ev əhli" kəlməsinin dəlalət etdiyi mənada zövcələrə aid edildiyini iddia edirdi. Bununla bərabər Fərahidi əlavə edir: "Ev əhli: onun sakinləri..." Bu kəlmə İhsan Zahirin iddiası ilə ziddiyyət təşkil edir. Bəs iddiasına zidd olduğu halda onu necə dəlil göstərə bilir?!

**Yeddinci: Rağıb İsfahani (vəfatı: h.q. 502, m. 1108)**

Deyir: *"Kişinin əhli: onu və fərdləri bir yerə toplayan nəsəb, din, sənət, ev və şəhər kimi məfhumlar. Kişinin əhli əslində onu və fərdlərini bir yerin cəmlədiyi şəxslərdir. Məcazi olaraq "kişinin ev əhli": onu və fərdləri cəm edən nəsəb (qohumluq). Mütləq olaraq Əhli-Beyt dedikdə, Peyğəmbərin (s) ailəsi barədə istifadə edilir:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[103] *"Kişinin əhli" dedikdə onun qadını, "İslam əhli" dedikdə isə onları cəmləyən din. Şəriət bir çox yerdə kafirlə müsəlman arasındakı qohumluq hökmlərini aradan qaldırır. Uca Allah buyurur:* ***"(Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyil. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür".***[104] *Uca Allah yenə buyurur:* ***"...əvvəlcədən hökm verilmiş şəxslər istisna olmaqla, qalan ailə üzvlərini (əhlini) və iman gətirənləri gəmiyə mindir!"***[105] *(Fel olaraq deyilir:) "əhələ" (keçmiş zamanda) racul, yəhulu (indiki zamanda), "uhulən" (məsdərdir). Deyilir: "Məkanun məhulun" – məskunlaşmış yer. "Əhilə bihi" – əgər camaat və əhl sahibinə çevrilsə. əhliləşmiş heyvanların yerinə "əhil, əhliy" deyilir. "Təəhhələ" feli – yəni*

---

[103] Əhzab, 33
[104] Hud, 46
[105] Hud, 40

*evləndi. Buradan da deyilir: "Ahələkə Allahu fil-cənnəti" – yəni Allah səni cənnətdə evləndirsin, sənin üçün orada bir yerdə olacağın əhl qərar versin".*[106]

**Rağib İsfahaninin sözlərindən məlum olur:**

Müəllif açıq və aydın şəkildə deyir: Kişinin əhli – əslində onu və fərdlərini bir yerin cəmlədiyi şəxslərdir. Sonra da başqaları haqda məcaz olaraq işlədilir. Aydın məsələdir ki, kişinin və əhlinin eyni məkanda cəmləşməsini ifadə etdikdə, bu, zövcələrdən daha ümumi bir məna kəsb edəcək. Buraya övladlar, ata, ana və həmin yerdə yaşayan hər bir şəxs daxil olacaq.

Hətta, əgər zövcə vəfat etmiş və ya boşanmış olsa, bu zaman ona ümumiyyətlə şamil edilməyəcək, yalnız kişi ilə birgə yaşayan qız və oğlanlarına "kişinin əhli" deyiləcək. Rağib İsfahaninin sözlərindən anlaşılan budur.

Sizcə, İsfahaninin söylədikləri İhsan Zahirin iddialarının, yoxsa onun sözlərinin ziddinin dəlilidir?! Bəs, o, necə bu sözləri nəql edərək iddiasına dəlil göstərir?!

**Nəticə**

İhsan Zahirin lüğət alimlərinin sözlərindən gətirdiyi dəlillərdən aşağıdakılar anlaşılır:

**Birinci:** Lüğət alimlərinin sözləri "kişinin əhli" kəlməsinin izahıdır. Halbuki söhbət mövzusu "ev əhli"dir.

**İkinci:** Buna baxmayaraq, heç bir lüğət alimi "kişinin əhli" kəlməsini zövcələr barədə həqiqi, övlad və qohumlar barədə isə məcazi mənada istifadə edildiyini söyləmədi. Bəziləri isə bundan tamamilə zidd fikirlər irəli sürür. Zübeydi bildirdi ki, "əhl" kəlməsinin zövcələrə şamil olması

---

[106] əl-Müfrədatu fi ğaribil-Quran, Rağib İsfahani, s. 29

məcazi məna daşıyır. İsfahani isə "ev əhli" kəlməsinin həqiqətinin eyni məkanın bir yerə cəmlədiyi şəxslər olduğunu qeyd etdi, digərləri barədə isə məcazi mənada istifadə etdi.

**Üçüncü:** "Ev əhli" kəlməsini qeyd edənlər bunlarda məqsədin həmin evin sakinləri və bir yerin cəmlədiyi şəxslər olduğunu bildirdilər.

**Xülasə**

Aydın olur ki, İhsan Zahirin qeyd etdiklərinin "əhli-beyt – ev əhli" kəlməsinin mənaları ətrafında aparılan bəhslə heç bir əlaqəsi yoxdur. "Ev əhli" kəlməsinin doğru mənasını burada ifadə etmək istəyirik:

"Ev əhli" kəlməsi iki sözdən təşkil olunub. Bunlar "ev" və "əhl" kəlmələridir. Bunlardan hər birinin özünəməxsus müəyyən məfhumu var. "Əhl" kəlməsini müxtəlif yerlərdə istifadə etməklə fərqli mənalar almaq olar. Məsələn: iş əhli, kitab əhli, ev əhli, elm əhli, zikr əhli, din və məzhəb əhli və s.

Bu müxtəlif istifadələrə diqqət yetirsək görərik ki, fərqli yerlərdə işlədilməsinə baxmayaraq onun bir mənası var. Bu da birləşdiyi təyinedici kəlmə ilə sıx və güclü əlaqəni ifadə etməkdir.

Bunu əvvəldə lüğət alimlərindən nəql etdiyimiz cümlələr də dəstəkləyir. Məsələn İbn Mənzur "ev əhli"ni onun sakinləri, "kişinin əhli" isə ona ən çox aid şəxslər olduğunu qeyd etdi.

Həmçinin Xəlil də "kişinin əhli" üçün zövcələri və ona ən çox aid edilən şəxslər ifadəsini, "ev əhli" üçün isə onun sakinləri kəlməsini işlətdi.[107] "Qamus"un müəllifi dedi: "*İş əhli – onun mükəlləfləri, ev əhli – onun sakinləri, məzhəb əhli – o dinin daşıyıcıları".*[108] Və sözlərini qeyd etdiyimiz digər lüğət alimləri...

---

[107] əl-Eyn, c. 4, s. 89

[108] əl-Qamusul-muhit, c. 1, s. 1245

Ən yaxşı söz isə Fəyyuminin sözüdür. Deyir: *"Əhl – zövcə barədə istifadə edilir, "ev əhli" kəlməsinin əsli isə yaxınlardır. Bəzən ardıcıllar barədə də istifadə edilir. "Ölkə (şəhər) əhli": onun vətəndaşları, elm əhli – elmlə vəsf olunan şəxslər".*[109]

Bu sözlərdə "ev əhli" kəlməsinin əsil mənada yaxınlar barədə istifadə edildiyi bildirilir. "Əhl" kəlməsinin zövcə barədə istifadəsi isə onun yaxınlardan sayılmasına görədir.

"Ev" kəlməsinə gəldikdə, bununla məskən və məkan[110], insan sığınacağı ifadə olunur. Ona "beyt (ev)" deyilməsinin səbəbi isə insanın orada gecələdiyinə görədir.[111] Cövhəri deyir: *"Bu, belə də məlumdur".*[112] Xəlil isə deyir: *"Ev (beyt) – insanların gecələdiyi yerdir".*[113] Bu sözünü isə onun məşhurluğu ilə əsaslandırır.

Təqdim edilənlərdən aydın olur ki, "əhli-beyt – ev əhli" kəlməsi heç də İhsan Zahirin iddia etdiyi kimi məxsusi olaraq həqiqi mənada zövcələrə, məcaz olaraq isə övlad və qohumlara şamil edilmir. Lüğət alimlərindən nəql etdiklərimiz də "ev əhli" kəlməsinin ev sahibi ilə sıx bağlılığı olan şəxsləri ehtiva etdiyinə dəlildir.

Belə olduqda, həmin kəlmənin lüğət cəhətdən zövcələrə də şamil olmasında heç bir maneə yoxdur. Lakin onun yalnız zövcələr barədə xüsusi olaraq həqiqi, digərləri barədə isə məcazi məna daşıdığı iddiası qəbuledilməzdir. Doğru olan budur ki, həmin kəlmə özündə evə aid və onunla sıx əlaqələri olan şəxsləri ümumən ehtiva edir.

Qeyd edək ki, bura qədər bütün sözlərimiz "əhli-beyt" kəlməsinin yalnız lüğət mənası barədə idi. Onun terminoloji mənalarına isə qarşıdakı bəhsdə toxunacağıq.

---

[109] əl-Misbahul-munir, s. 28, "ƏHL" hərfləri
[110] əl-Misbahul-munir, s. 68
[111] ət-Tarazul-əvvəl, c. 3, s. 190
[112] əs-Sihah, c. 1, s. 244
[113] əl-Eyn, c. 8, s. 138

## İkinci bəhs: "Əhli-Beyt" Qurani-Kərimdə

### Birinci məsələ: Quranda "Əhli-Beyt" kəlməsinin yalnız zövcələr barədə istifadə edildiyi iddiası

İhsan Zahir iddia edir ki, Qurani-Kərim "əhli-beyt" kəlməsini həqiqi mənada zövcələr barədə istifadə etmişdir. Deyir: **"Bunu[114] Quran da təsdiqləyir. Həmin kəlmə İbrahim Xəlilullahın (ə) yanına Allahın elçilərinin müjdə ilə gəlməsi hekayəsində qeyd edilib".[115]**

Ardınca İhsan Zahir üç ayəni sadalayır.

**Birinci ayə:**

Uca Allah buyurur: ***"(İbrahimin arvadı) dedi: "Vay halıma! Mən qoca bir qarı, bu ərim də ixtiyar bir kişi olduğu halda, mən necə doğa bilərəm?! Bu, çox təəccüblü bir şeydir!" (Mələklər ona) dedilər: "Allahın əmrinə (əmr etdiyi bir işə) təəccübmü edirsən? Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun. Allah təriflənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqdir!"[116]***

**Müzakirə**

Ayənin dəlalət etdiyi məna barədə deyilə biləcək ən uzaq nəzər budur: Ayədəki "əhli-beyt" kəlməsi xüsusi olaraq İbrahimin (ə) zövcəsi olan Sara haqqında istifadə edilməyib. Əksinə, ümumi şəxslər barədə qeyd edilib. Təkcə zövcəsinə deyil, İbrahimin (ə) özünə də şamildir. Bunun dəlili isə xitabın tək şəxsdən cəm şəxsə keçməsidir. Uca Allah mələklərin dilindən

---

[114] Onun əvvəlki sözlərinə işarədir. "Bütün bunlardan məlum olur ki, əhli-beyt kəlməsi xüsusi və həqiqi mənada zövcələr, məcaz olaraq isə övlad və qohumlar barədə istifadə edilir. Bunu Quran da təsdiqləyir".

[115] Şiə və Əhli-Beyt, s. 18

[116] Hud, 72-23

buyurur: ***“(Mələklər ona) dedilər: “Allahın əmrinə (əmr etdiyi bir işə) təəccübmü <u>edirsən</u>?”*** Ardınca xitab dəyişərək deyilir: ***“Allahın bərəkəti və mərhəməti <u>üstünüzdə</u> olsun”.*** Xitabın tək şəxsdən cəmə dəyişməsi də müxatibin yalnız Sara deyil, həmçinin İbrahim (ə) olduğunu göstərir. Yoxsa tək əvəzlikdən cəm əvəzliyinə keçməyə heç bir lüzum olmazdı. Əgər deyilsə ki, Saranın əzəmət və hörmətini bildirmək üçün cəm əvəzliyi istifadə edilir, cavab budur ki, orada İbrahimin (ə) varlığı həmin təzim və hörməti qüvvədən salır. Belə ki, əksinə, Sara həmin vaxt Allahın əmrinə təəccüb etməkdədir. Bu isə, ona əzəmət verəcək hal deyil.

Əksinə, ayədə “əhli-beyt” kəlməsinin İbrahim və ailəsi olan İsmayıl, İshaq və o ikisinin övladları barədə istifadə edildiyini demək olar. Buna dəlil olaraq Peyğəmbərin (s) öz ümmətinə necə salavat söyləməyi əmr etdiyini göstərmək mümkündür. Buxarinin İbn Əbu Leylaya istinad etdiyi rəvayətdə deyilir: *“... Dedi: “Kəb ibn Ücrə ilə görüşdüm. Mənə dedi: “Sənə Peyğəmbərdən (s) eşitdiyim bir sözü hədiyyə edim?” Dedim: “Bəli, mənə onu hədiyyə et”. Dedi: “Peyğəmbərdən (s) soruşduq: “Ey Allahın elçisi, Allah bizə siz Əhli-Beytə necə salam verməyi öyrədib, bəs sizə salavatı necə deyək?” Buyurdu: “Deyin: “İlahi, İbrahim və İbrahim ailəsinə salavat göndərdiyin kimi Muhəmmədə və Muhəmmədin ailəsinə də salavat göndər. Həqiqətən də sən tariflənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqsən! İlahi, İbrahimi və İbrahimin ailəsini bərəkətli etdiyin kimi Muhəmmədi və Muhəmmədin ailəsini də bərəkətli et. Həqiqətən də sən tariflənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqsən!”*[117]

Allah tərəfindən göndərilən salavat rəhmətdir. Duada İbrahimə və ailəsinə Allahın məxsus etdiyi rəhmət və bərəkətin tələbi var. Bu cəhətdən də ayədəki ***“Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun***” sözündə məqsəd Allahın rəhmət və bərəkətini əta etdiyi İbrahim, eləcə də peyğəmbər və imamların yetişdiyi İbrahim ailəsi olur.

---

[117] Səhih, Buxari, c. 4, s. 118-119

Bunu bir çox müsəlman təhqiqatçı və təfsirçilərin rəyində də görmək olur. Onların da gəldiyi qənaət budur ki, ayədəki həmin cümlə xəbərdir və İbrahimin (ə) zövcəsi Saranın təəccübünün inkarı məqsədilə söylənən yeni cümlədir. Əbu Həyyan Əndəlusi "əl-Bəhrul-muhit" təfsirində deyir: *"Uca Allahın* ***"Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun"*** *sözü təəccübün inkarı məqsədilə yeni başlamış cümlədir. Sanki deyilir: "Təəccüb etmə. Sizin ailəyə Allah tərəfindən geniş rəhmət və bərəkət var".*[118]

İbn Həcər deyir: *"Allahın* ***"Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun"*** *sözü təəccübün inkarı üçün yeni başlamış cümlədir. Sanki deyir: "Təəccüb etmə. Sizin ailəyə Allah tərəfindən geniş rəhmət və bərəkət var".*[119]

Alusi isə deyir: *"Bu cümlə təəccübün inkarı məqsədilə yeni başlamış xəbər cümləsidir. Bu rəyi bütün təhqiqatçılar qəbul etmişlər. Deyilib: "Duadır". Lakin bu, belə deyil"*.[120]

Ayə İbrahimin (ə) Əhli-Beytinə Allahın əta etdiyi xüsusi rəhmət və bərəkətdən verilən xəbərdir. Bunu Peyğəmbər (s) özü və ailəsi üçün də istəməyi ümmətinə əmr etmişdi. Bu halda, yalnız İbrahimin (ə) zövcəsinə necə aid edilə bilər?!

**İkinci ayə**

***"Musa müddətini başa vurub ailəsi ilə birlikdə (Misirə tərəf) yola çıxdığı zaman Tur dağı tərəfdə bir od gördü. O, ailəsinə (əhlinə) dedi: "Siz (mən qayıdanadək burada) durun. Mən bir od gördüm. Bəlkə, gedib ondan sizə bir xəbər, yaxud bir köz gətirim ki, qızınasınız!"***[121]

---

[118] əl-Bəhrul-muhit, Əbu Həyyan Əndəlusi, c. 5, s. 245

[119] əl-Kafuş-şaf fi təxrici əhadisil-Kəşşaf, İbn Həcər Əsqəlani, Zəməxşərinin "əl-Kəşşaf"ına yazılmış haşiyə, c. 2, 281

[120] Təfsirul-Alusi, c. 12, s. 101

[121] Qəsəs, 29

**Müzakirə**

Həqiqətdə bu ayənin bizim bəhsimizin mövzusu ilə əlaqəsi yoxdur. Mövzumuz Qurani-Kərimdə "əhli-beyt" kəlməsinin xüsusi olaraq zövcələr barədə istifadə edilməsidir. Halbuki ayədə "əhli-beyt" kəlməsindən ümumiyyətlə söz açılmır. Əksinə, ayədəki "əhl" kəlməsi özünə birləşən "onun" şəxs əvəzliyi ilə ("biəhlihi" kəlməsi şəklində) Musaya (ə) qayıdır.

Bu səbəbdən də ayədəki "əhl" kəlməsinin həqiqi mənada zövcələr barədə istifadə edildiyini isbat etmək mümkün deyil. Əvvəldə də deyildiyi kimi, "əhl" kəlməsi təyinedici sözə birləşməklə, həmin təyinedici sözlə sıx və möhkəm əlaqəni bildirir. Bu təyinedici kəlmənin "iş", "ev", "din" və s. olması ilə kəlmənin ifadə etdiyi məna da dəyişir. "Kişinin əhli" – təkcə zövcə və övladları deyil, kişi ilə əlaqəsi və rabitəsi olan bütün insanları əhatə edir. Onun Quranda istifadə edilməsi isə əsla həqiqi mənada istifadə edildiyinə dəlalət etmir. Aydın məsələdir ki, lüğət əhlinin nəzərində bir kəlmə yalnız həqiqi mənada istifadə edilmir, özündə həm həqiqi və həm də məcazi mənaları cəmləyir. Əks təqdirdə məcaz fəsli lüğətlərdən çıxarılmalıdır.

**Təbərsi və Kaşaniyə nisbət verdiklərinin yanlışlığı**

İhsan Zahir öz kitabında Təbərsiyə və Molla Fəthullah Kaşaniyə onların söyləmədiyi sözləri nisbət vermişdir. Onun iddiasına görə, Təbərsi və Kaşani ayədəki "əhli-beyt" kəlməsini yalnız İbrahimin (ə) zövcəsinə nisbət veriblər. İhsan Zahir deyir: **"Uca Allah bu kəlməni mələklərinin dili ilə başqasının deyil, yalnız İbrahimin (ə) zövcəsi barədə istifadə etmişdir. Bunu şiə alimləri və müfəssirləri də təsdiq etmişlər. Onlardan Təbərsinin "Məcməul-bəyan", Kaşaninin isə "Minhacus-sadiqin" təfsirini göstərmək olar".**[122]

---

[122] Şiə və Əhli-Beyt, s. 18-19

Onlara verdiyi bu nisbət yanlışdır. Təbərsiyə gəldikdə, o, aşkar şəkildə bunun əksini bəyan edir. Onun sözlərini təqdim edirik: *"Əhli-beyt" dedikdə İbrahimin (ə) əhli-beyti nəzərdə tutulur. Sara İbrahimin (ə) əmisinin qızı olduğu üçün onun əhli-beytindən sayılıb. Cəbainin – "kişinin zövcəsi onun əhli-beytindən sayılır" – iddiasına ayədə heç bir dəlil yoxdur. Rəvayət olunur ki, Möminlərin əmiri (ə) bir gün bir dəstə insanın yanından keçirdi. Onlara salam verdi, onlar isə cavabında dedilər: "Sənə də salam olsun, ey Əhli-Beyt! Allahın rəhməti, bərəkəti, məğfirət və rizvanı üstünüzdə olsun!" Möminlərin əmiri (ə) onlara dedi: "Bizim haqqımızda mələklərin atamız İbrahim (ə) haqqında söylədiklərindən artığını deməyin:* ***"Ey Əhli-Beyt! Allahın rəhməti və bərəkəti üstünüzdə olsun!"***[123]

Təbərsinin sözlərinə nəzər saldıqda İhsan Zahirin ona nisbət verdiyi cümlələrdə yenə də aşkar təhrifə əl atdığı məlum olur. Təbərsinin öz kitabında yazdıqları İhsan Zahirin iddialarının tam əksidir. Belə ki, Təbərsi deyir: *"Sara İbrahimin (ə) əmisinin qızı olduğu üçün onun əhli-beytindən sayılıb".*

Molla Fəthullah Kaşaniyə gəldikdə isə, İhsan Zahirin ona nisbət verdikləri də yanlışdır. Çünki Kaşaninin öz kitabında qeyd etdikləri, Təbərsidən yuxarıdakı sözlərinin ərəbcədən farscaya tərcüməsidir.[124]

**Üçüncü ayə:**

***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[125]

**Müzakirə**

Bu ayədə "əhli-beyt" mənası barədə iki cəhətdən bəhs var:

---

[123] Məcməul-bəyan təfsiri, Təbərsi, c. 5, s. 309

[124] Minhacus-sadiqin, Molla Fəthullah Kaşani, c. 4

[125] Əhzab, 33

**Birinci cəhət:** Ayənin Əhli-Beyt (ə) mənasına dəlaləti;

**İkinci cəhət:** Rəvayətlərdə Əhli-Beyt (ə) mənasına dəlalət.

Birinci cəhət üzrə bəhs ayədəki əhli-beyt kəlməsinin mənasının bəyanıdır ki, burada da Peyğəmbərin (s) qadınları ayənin ifadə etdiyi mənadan kənarda qalır, əsla birbaşa və yalnız onlara məxsus deyil. Burada da iki cəhət var:

**Birinci cəhət: Ayədəki "çirkinlik" və Allahın istəyi (iradəsi)**

Bunun açıqlaması üçün üç müqəddiməyə ehtiyac duyulur:

**Birinci müqəddimə:** Çirkinlik ("rics") mənasının izahı;

**İkinci müqəddimə:** Allahın istəyi (iradəsi) təkvini və təşrii iradəyə bölünür;

**Üçüncü müqəddimə:** Ayədəki iradə (istək) təkvini, ya təşriidir?

**Birinci müqəddimə: Çirkinlik ("rics") mənasının izahı**

"Rics (çirkinlik)" dedikdə ümumi maddi və mənəvi kirlər nəzərdə tutulur. Bu da bütün günah və üsyanları özündə cəm edir. Bu, lüğət və təfsir alimlərinin həmin kəlmə barədə üzərində həmfikir olduqları mənadır.

Xəlil Fərahidi deyir: *"Kirləndirən hər bir şey ricsdir (çirkdir)".*[126]

İbn Mənzur deyir: *"Rics: kir. Deyilib: kirli şey. Hər bir çirk (rics) kirdir. Bəzən onunla haramı, qəbihi, əzabı, lənəti və küfrü də ifadə edirlər. Şeytanın ricsi: onun vəsvəsəsidir... İbn Kəlbi deyir: "Rics – günahlardır... Zəccac deyir: "Lüğətdə rics – hər bir kirli əmələ qoyulan addır. Allah-taala ricslə bu şeyləri bəyan edir: "şərab, qumar, bütlər və fal oxları" və onları rics adlandırır".*[127]

Təbəri deyir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***

---

[126] əl-Eyn, Xəlil Fərahidi, c. 6, s. 52

[127] Lisanul-ərəb, İbn Mənzur, c. 6, s. 96-95

*Yəni, ey Muhəmmədin Əhli-Beyti, Allah pisliyi və çirkinliyi sizdən uzaq tutmaq, günah əhlində olan ləkələrdən sizi pak-pakizə etməyi iradə etmişdir... Qətadədən nəql olunur: **"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"** onlar, Allahın hər bir pislikdən pakladığı və Öz rəhmətinə məxsus etdiyi Əhli-Beytdir".*[128]

Razi deyir: *"...**sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq...**" yəni sizi günahlardan uzaq tutmaq".*[129]

Alusi deyir: *"Rics (çirk) əsl mənada: kirli şeydir. Çoxlarının nəzərincə, burada məcazi olaraq günahlar nəzərdə tutulub. Sədiy deyir: "Bu, günahdır". Zəccac deyir: "Fisq (fasiq əməllər) iradə olunmuşdur". İbn Yəzid deyir: "Məqsəd Şeytandır". Həsən deyir: "Bu, şirkdir". Deyilib ki, bu, şəkk, paxıllıq və ya tamahdır. Həmçinin bunun həvayi-nəfs və bidətlər olduğu da söylənib. Deyilib: rics – günahlara, əzaba, nəcasətə və nöqsanlara aiddir. Ayədəki məqsəd isə bütün bunları əhatə edir".*[130]

Bəğəvi deyir: *"Rics sözündə məqsəd günahlardır".*[131]

Şövkani isə deyir: *"Günah və Allaha üsyan iki ləkədir ki, Allahın əmrlərini tərk etmək və qadağalarından çəkinməməklə hasil olur. Buraya Allahın razılığının olmadığı hər bir şey daxildir".*[132]

Süyuti deyir: *"Rics – günahdır".*[133]

Bütün bu təqdim edilənlərdən hasil olur ki, ayədəki "rics" (çirk) günahlardır. "Rics"dən uzaq tutmağın mənası isə bütün böyük və kiçik günahlardan Əhli-Beyti uzaq tutmaqdır.

---

[128] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 22, s. 908

[129] Təfsirur-Razi, c. 25, s. 209

[130] Məalimut-tənzil, Hüseyn ibn Məsud Fərra Bəğəvi Əbu Muhəmməd, c. 1, s. 349

[131] Təfsirul-Bəğəvi, c. 3, s. 528

[132] Fəthul-qədir, Şövkani, c. 4, s. 278

[133] Təfsirul-Cəlaleyn, Süyuti, c. 4, s. 287

**İkinci müqəddimə: Allahın istəyi (iradəsi) təkvini və təşrii iradəyə bölünür**

Allahın iradəsi təkvini və təşrii olmaq surəti ilə iki növə bölünür. Onların arasındakı fərq bundan ibarətdir: təkvini iradədə məqsəd bir şeyin yaradılış etibarilə formalaşmasıdır. Bu cür iradədə barəsində hökm edilən şeyin iradəyə zidd forma alması mümkün deyil. Uca Allah bu növ iradəni bir çox ayələrdə istifadə edib. Onlardan:

***"Bir şeyi (yaratmaq) iradə etdiyi zaman (Allahın) buyruğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar".***[134]

***"...Allahın fitnəyə (azğınlığa) düşməsini iradə etdiyi kimsə üçün Allaha qarşı sənin əlindən heç bir şey gəlməz. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük (dəhşətli) bir əzab gözləyir!"***[135]

***"Biz isə iradə edirik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları imamlar və varislər edək".***[136]

***"Allah isə Öz sözləri (bu barədə nazil etdiyi ayə) ilə haqqı (islamı) bərqərar etmək və kafirlərin kökünü kəsməyi iradə edir".***[137]

Bu və buna bənzər ayələrdəki iradə məhz təkvini iradədir. Bu, qəti iradə də adlanır. Burada iradədən kənar heç nə baş verə bilməz. Onun qarşılığı isə "təşrii iradə"dir. Belə iradə hökm və şəriət qanunları ilə əlaqəlidir. Mükəlləfin həmin hökmlərin tələblərini yerinə yetirməsi təklifdəki məqsəddir. Belə bir məqsədin hasil olması mümkündür. Amma istək həyata keçməyə də bilər. Bu ziddiyyət Allahın iradəsinə heç bir xələl gətirmir. Çünki Allahın iradəsi məhz göndərdiyi şəriətlə bağlıdır. Mükəlləf

---

[134] Yasin, 82

[135] Maidə, 41

[136] Qəsəs, 5

[137] Ənfal, 7

isə qanunlara tabe olmaq seçiminin özünə aid olduğu üçün ya itaət edir, ya da asi olur.

### Üçüncü müqəddimə: Ayədəki iradə (istək) təkvini, ya təşriidir?

İki səbəb görə ayədəki iradə təkvini iradədir:

**Birinci səbəb:** Ayə Allaha şərik qoşmaqdan təmizliyi yalnız Əhli-Beytlə məhdudlaşdırıb. Buna ayənin əvvəlindəki "innəmə (həqiqətən də yalnız)" kəlməsi dəlalət edir. Həmin kəlmə isə sifətin vəsf olunmuşla məhdudlaşdırılmasıdır.[138] Məsələn deyirsən: "Həqiqətən də, möhtərəm yalnız Hatəmdir" (İnnəməl-kərimu Hatəm). Mənası isə budur ki, kəramət yalnız Hatəmdədir. Məlumdur ki, belə məhdudlaşdırma iki tərəfi – həm müsbət, həm də mənfi mənaları da əhatə edir. Müsbət tərəf kəramətin Hatəmlə məhdudlaşdırılmasıdır. Mənfi isə kərəmətin ondan başqalarında mövcudluğunun inkarıdır. Bizim barəsində söhbət açdığımız ayədəki məna da belədir. Ayə, çirkinliyin uzaqlaşdırılmasını Əhli-Beyt üçün isbat, onlardan qeyriləri üçün isə inkar edir. Bu məhdudlaşdırma "ənkum" önqoşmasının "rics" kəlməsinin önünə keçməsi ilə də dəstəklənir. Halbuki cümlənin axışına əsasən, "liyuzhibər-ricsə ənkum" deyilməliydi. Lakin ayədə bunun əksini gördüyümüz üçün pisliklərin ələlxüsus və yalnız Əhli-Beytdən uzaqlaşdırıldığına təkidlə dəlalət edir. Eləcə də ayədə "Əhli-Beyt" isminin də önqoşmadan sonra gəlməsi ona bir daha təkid verir.

Ayədəki bu məhdudlaşdırma iradənin təşrii deyil, məhz təkvini iradə olduğunu sübut edir. Belə ki, əgər iradə təşrii olsaydı, o bir neçə nəfərlə məhdudlaşmazdı. Ayə isə yalnız Əhli-Beytə xitab edir.

Başqa sözlə, bu ayədəki iradə Uca Allahın aşağıdakı ayələrdə qeyd etdiyi iradəyə bənzəmir: ***"...Allah sizi çətinliyə salmaq istəməz (iradə etməz), lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq***

---

[138] əl-İzah fi ulumil-bəlağə, Xətib Qəzvini, s. 125

***(artırmaq) istər (iradə edər) ki, şükür edəsiniz!"***[139] Bu ayədəki iradə təşriidir. Əksinə, "Təthir"[140] ayəsi bu ayədəki iradəyə bənzəyir: ***"...Allahın fitnəyə (azğınlığa) düşməsini iradə etdiyi kimsə üçün Allaha qarşı sənin əlindən heç bir şey gəlməz. Onlar elə kəslərdir ki, Allah onların ürəklərini təmizləmək istəməmişdir. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük (dəhşətli) bir əzab gözləyir!"***[141]

Və digər şərif ayələr... Bütün bunlar təkvini iradələrdir. Heç bir iddiaçı bu kimi ayələrdə məqsədin təşrii iradə olduğunu xəyal belə edə bilməz.

**İkinci səbəb:** Ayə Əhli-Beyti tərif, mədh və səna etməkdə, onların fəzilətlərini isbatlamaqdadır. Bu barədə demək olar ki, müsəlmanlar arasında ixtilaf yoxdur. Mədh və tərif isə ayədəki iradənin təkvini olmasına hökm verir. Çünki təşrii iradə özü ilə mədh və tərif gətirmir. Məsələn, Allahın bu ***"lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər (iradə edər) ki,..."*** sözü yalnız Allahın bəndələr üzərindəki ilahi minnət və ehsanına dəlalət edir, Allahın təşrii iradə ilə paklamaq istədiyi şəxsləri mədh və tərif etmir. Bu isə Allahın aşağıdakı ayəsinə ziddir: ***"Biz isə iradə edirik ki, o yerdə zəif düşüb əzilənlərə mərhəmət göstərək, onları imamlar və varislər edək".***[142] Çünki bu ayədə onları imamlıq və varisliklə mədh edir. "Təthir" ayəsində də vəziyyət bu cürdür. Ayə Əhli-Beytin fəzilətini isbatlayır ki, bu fəzilət isə pisliklərin onlardan uzaqlaşdırılmasında Allahın mövcud olan iradəsidir.

**Nəticə**

Ayədəki iradə məhdudlaşdırma ilə qeyd edilir, özündə mədh və tərifi ifadə edir. Bu iradə təkvini iradədir, təşrii deyil. Bunu Təbərinin sözləri də təsdiqləyir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi***

---

[139] Maidə, 6
[140] Əhzab, 33
[141] Maidə, 41
[142] Qəsəs, 5

***(pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!”***[143] *Onlar Allahın hər bir pislikdən pakladığı və Öz rəhmətinə məxsus etdiyi Əhli-Beytdir”.*[144]

Ayənin Əhli-Beytin paklığı barədə xəbər verdiyi anlaşılır və digər insanlar istisna olmaqla yalnız onlara məxsus edilir. Bu isə ilahi iradənin təkvini olaraq onlardan bütün pislikləri uzaqlaşdırmasından başqa mənaya gəlmir.

“Rics (çirk, pislik)” kəlməsinin mütləq şəkildə günahlar olduğunun və ilahi təkvini iradənin Əhli-Beytdən pisliklərin uzaqlaşdırılması ilə bağlılığının isbatından sonra müəyyən olur ki, ayədə qeyd edilən Əhli-Beyt xüsusi bir dəstə insanlardır ki, digər insanlar istisna olmaqla, Uca Allah yalnız onlardan pislikləri uzaqlaşdıraraq məsum qərar vermişdir. Belə olduqda, həmin kəlmənin nəinki zövcələr barədə xüsusiliyi, heç onlara şamil olmasını da iddia etmək olmur. Çünki onların məsum olmadıqları barədə müsəlmanlar həmfikirdirlər.

## İkinci cəhət: Cəmdə “evlər” deyil, tək halda “ev” kəlməsindən istifadə edilməsi

Bu cəhət ayədə “beyt (ev)” kəlməsindəki məqsədin maddi, daş və torpaqdan düzəldilmiş həqiqi ev olduğuna etimad edilir. Burada isə üç müqəddimə var:

### Birinci müqəddimə: Peyğəmbərin (s) bir evi deyil, bir neçə evi olduğunda fikir yekdilliyi var

Peyğəmbərin (s) bir deyil, bir neçə evinin olduğu barədə müsəlmanlar həmfikirdirlər. Bunu Qurani-Kərim və rəvayətlər də aydın ifadə edir. Uca

---

[143] Əhzab, 33

[144] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 22, s. 908

Allah buyurur: ***"Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən (yeməyə dəvət olunmadan) girib onun bişməsini gözləməyin..."***[145] Həmçinin digər ayə: ***"Evlərinizdə qərar tutun".***[146]

Buxarinin öz kitabında nəql etdiyi rəvayət də bunu qeyd edir. Səd ibn Übeydə deyir: *"Bir kişi İbn Ömərin yanına gəlib ondan Osman barədə soruşdu. İbn Ömər Osmanın gözəl əməllərini qeyd etdi. Sonra dedi: "Sanki bu sənin xoşuna gəlmədi". Kişi dedi: "Bəli". İbn Ömər dedi: "Allah sənin burnunu yerə sürtüb zəlil eləsin!"*

*Sonra həmin adam Əli barədə soruşdu və İbn Ömər onun da gözəl əməlləri barədə danışdı. Ardınca dedi: "Bu onun evidir, Peyğəmbərin (s)* ***evlərinin*** *tam ortasında". Sonra soruşdu: "Sanki bu söylədiklərim də sənin xoşuna gəlmədi". Kişi dedi: "Bəli". İbn Ömər dedi: "Allah sənin burnunu yerə sürtüb zəlil eləsin! Get, (bunlar həqiqətdir,) nəyə gücün çatırsa elə!"*[147]

**İkinci müqəddimə: Ayədəki Əhli-Beyt müəyyən bir ev əhlidir**

Uca Allah ayədə ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[148] deyə xitab etməklə müəyyən bir ev əhlinə xitab etmiş olur. Belə ki, ayədə tək halda olan "ev" kəlməsindən istifadə edir və buyurur: ***"Ey əhli-beyt (ev əhli)!",*** "Ey əhli-buyut (evlərin əhli)!" demir. Buradan da anlaşılır ki, xitab həmin evlə sıx və möhkəm əlaqəsi olan, digər insanlardan istisna edilmiş xüsusi və müəyyən bir dəstə insanadır.

**Üçüncü müqəddimə: Ayədəki ev Əli və Fatimənin evidir**

Həmin əhlin ayənin işarəsi ilə də müəyyən şəxslər olduğu isbatlandıqdan sonra bunun hansı ev olduğunu təyin etməliyik. Burada isə

---

[145] Əhzab, 53
[146] Əhzab, 33
[147] Səhih, Buxari, c. 4, s. 208, "Mühacirlərin üstün keyfiyyətləri və fəzilətləri" babı
[148] Əhzab, 33

yalnız üç ehtimal mövcuddur:

**Birinci ehtimal:** Peyğəmbər (s) zövcələrindən birinin evidir. Bununla da məqsəd Peyğəmbərin (s) zövcələrindən yalnız biri olacaq.

**İkinci ehtimal:** Əli, Fatimə, Həsən və Hüseynin (onlara Allahın salamı olsun!) evidir.

**Üçüncü ehtimal:** Zövcələrin, Əli və Fatimənin evindən başqa bir evdir.[149]

Birinci ehtimal qəti olaraq batildir. Belə ki, heç bir müsəlman ayənin Peyğəmbər (s) zövcələrindən biri barədə ələlxüsus nazil olduğunu iddia etməmişdir.

Üçüncü ehtimalın da mümkün olmadığını əminliklə deyə bilərik. Belə ki, bu evin Peyğəmbərin qadınlarının, Əli və Fatimənin evlərindən başqa bir ev olmadığı barədə müsəlmanlar həmfikirdirlər.

Bununla da yalnız ikinci ehtimal qalır. Bu da ayədəki ev kəlməsində məqsədin Peyğəmbərin (s) Əhli-Beyti olan Əli, Fatimə, Həsən və Hüseynin (onlara salam olsun!) evinin olmasıdır.

Bunu Əhmət ibn Hənbəlin və digərlərinin kamil bir sənədlə Ənəs ibn Malikdən nəql etdikləri rəvayət də təsdiqləyir: *"Peyğəmbər (s) altı ay boyunca sübh namazına çıxarkən Fatimənin evinin qarşısından keçəndə belə deyirdi: "Namaz, namaz!* ***Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[150]

Buna bəhsin rəvayət hissəsində də işarə ediləcək.

---

149 Dördüncü "Bu ev həm zövcələrin, həm də Əli və Fatimənin evləridir" ehtimalı güman edilsə, bu, başlanğıcdan batil bir iddia olacaq. Çünki bundan əvvəl ayədə bir neçə evdən deyil, yalnız bir evdən söhbət getdiyi isbatlandı (tərc.)

150 Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 259

**İkinci cəhətdən hasil olur**

Ayə "ev" kəlməsi ilə xitab edərək ümumi olaraq Peyğəmbərin (s) zövcələrinin yaşadığı evlərə şamil olmur. Bununla da həmin ayənin onlara məxsusluğu iddiası batil olur. Nəinki, hətta İhsan Zahir kimi ayənin məxsusi olaraq Peyğəmbərin (s) zövcələr haqqında nazil olduğunu iddia edənlərin də iddiası puç çıxır.

**İkinci məsələ: Ayənin məxsusi olaraq Peyğəmbər (s) zövcələri barədə nazil olmasına ayənin ardıcıllığını dəlil göstərmək**

İhsan Zahir deyir: **"Bu ayəni oxuyan hər bir kəsin fikrində birbaşa yaranacaq ilk təəssürat ayənin məxsusi olaraq Peyğəmbər (s) zövcələri barədə nazil olmasıdır. Çünki ayənin əvvəlində və ondan əvvəlki ayələrdə də xitab birbaşa və xüsusilə olaraq Peyğəmbər (s) zövcələrinədir. Bizim oxuduğumuz ayədə onlardan başqasına xitab edilməyib".**

İhsan Zahir bu sözləri ilə 33-cü ayənin əvvəlindən etibarən yalnız Peyğəmbər (s) zövcələri barədə olduğunu dəlil kimi təqdim etmək istəyir.

**Müzakirə**

Bu iddiaya üç cavabımız var. Rəvayətlərlə verəcəyimiz cavabı isə qarşıda söhbətin rəvayətlər çərçivəsindəki bəhsində toxunacağıq. Ayədəki amillərə gəldikdə, deyirik:

**Birinci cavab**

Həmin cümlənin məhz "əl-Əhzab" surəsinin 33-cü ayəsinin bir hissəsi olması və bu ardıcıllıqda nazil edildiyi qətiyyən isbat olunmayıb. Onun Quranda başqa bir yerinin olması mümkündür. Osmanın dövründə Quran cəm edildikdən sonra bəzi səhabələr ayələrin tərtiblərinə etirazlar etdilər.

Bunun ən yaxşı dəlili isə bir çox böyük əhli-sünnə təfsir alimlərinin də nəzərində isbatlandığı kimi, "İkmal"[151] ayəsinin ətlərlə bağlı hökmlərin qeyd edildiyi ayənin bir hissə olmamasıdır. Onlardan:

Süyuti öz təfsirində deyir: *"İbn Cərir Sədiydən* ***"Bu gün dininizi sizin üçün kamil etdim..."***[152]*ayəsi barədə nəql edir: "Bu ayə Ərəfə günündə nazil oldu və ondan sonra heç bir haram və halal barədə bir şey enmədi. Peyğəmbər (s) oradan qayıtdıqdan sonra vəfat etdi".*[153]

Şövkani isə Beyhəqidən nəql edir: *"Ərəfatda vüquf edərkən Cəbrail onun (s) yanına endi. O, əllərini qaldırmış, müsəlmanlar da dua edirdilər.* ***"Bu gün dininizi sizin üçün kamil etdim",*** *yəni halalları və haramları. Bundan sonra heç bir halal və haram barədə bir şey nazil olmadı.* ***"Sizə olan nemətimi tamamladım",*** *sizinlə bərabər heç bir müşrikin Həcc etməməsi lütfünü;* ***"razı oldum"*** *yəni bəyənib seçdim;* ***"və sizin üçün din olaraq İslamı bəyənib seçdim (razı oldum)".*** *Bu ayə nazil olduqdan sonra Peyğəmbər (s) 81 gün yaşadı və sonra Allahın dərgahına qovuşdu".*[154]

"əl-Maidə" surəsinin 3-cü "İkmal" ayəsindən əvvəl müəyyən ətlərin haram olması ilə bağlı ayəni oxuyan şəxsə bu ayənin surədəki yeri qəribə gəlir. Hədisşünaslar da bu ayənin tam və kamil bir ayə olduğuna, ətlərin haramlığı ayəsinin bir hissəsi olmadığını təsdiqləyirlər. "İkmal" ayəsi Vida həccində nazil olub. Bu iki təfsirdən gətirdiyimiz dəlillər də aydın surətdə göstərir ki, həmin ayə haram ətlər ayəsinin tərkibinə Osmanın vaxtında Quranı toplayan bəzi səhabələrin "ictihadı" nəticəsində salınıb. Ayədən bu cümlə çıxarıldıqda mənasına heç bir xələlin gəlməməsi də bu fikri təsdiqləyir. "Təthir" ayəsi barədə dediyimiz söz də bu qəbildəndir.

Buna əsasən, həmin ayənin Qurandakı dəqiq yeri məchul olaraq qalır! Beləliklə də, İhsan Zahirin ayədəki ardıcıllığı dəlil gətirərək nə isə iddia

---

[151] Maidə, 3

[152] Maidə, 3

[153] əd-Durrul-mənsur, Cəlaləddin Süyuti, c. 2, s. 259

[154] Fəthul-qədir, c. 2, s. 12

etməsi mümkün deyil. Çünki həmin cümlənin nazil olma mövqeyinə əsasən burada olub-olmadığı şəkk mövzusudur.

**İkinci cavab**

Ayədəki ardıcıllığı o zaman dəlil göstərmək olar ki, onun ziddinə heç bir dəlil olmasın. Halbuki burada iddia olunan mənanın ziddinə qəti dəlillər mövcuddur. Bunları mövzunun rəvayət bəhsində və həmin əhli-beytin "Kisa"[155] əhlindən başqası olmadığını isbatlayarkən təqdim edəcəyik. Ayənin Peyğəmbər (s) zövcələrindən bəhs etdiyi ayələrin ardı olaraq nazil edildiyi fərz edilsə, bu, onların heç bir nəsibin olmadığı isbatlayacaq. Çünki Peyğəmbər (s) onlardan heç birinə həmin əbanın altına daxil olmağa izin vermədi. Sonra isə buyurdu: *"İlahi, bunlar mənim Əhli-Beytimdir".* Bunun geniş bəyanı mövzunun rəvayətlər bəhsində qeyd ediləcək.

**Üçüncü cavab:** Ayənin xüsusi olaraq Peyğəmbər (s) zövcələri barədə nazil olduğu iddiasının isbatı üçün mövzunun zövcələrdən bəhs edən ayədə qeyd edilməsini dəlil göstərmək yanlışdır. Belə ki, aşağıdakı amillər buna ziddir:

**Birinci amil: Şəxs əvəzliklərinin fərqliliyi**

İhsan Zahirin iddialarını batil edən dəlillərdən biri də müraciətlərdəki şəxs əvəzliklərinin fərqli olmasıdır. Görürük ki, Uca Allah Peyğəmbər (s) zövcələrinə etdiyi bütün xitablarında cəm qadınlara dəlalət edən "tunnə", "nə" və "kunnə" birləşən şəxs əvəzliklərindən istifadə edib:ləstunnə (deyilsiniz), ittəqaytunnə (təqvalı olsanız), fəla təxdanə (naz-qəmzə, yumşaqlıq etməyin), qulnə (deyin, danışın), qarnə (qərar tutun), buyutikunnə (evlərinizdə), və la təbərracnə (çıxmayın), əqimnə (namaz qılın), atinə (verin), ətanə (itaət edin), vəzkurnə (xatırlayın)... və s. Lakin

[155] Ərəblərin çiyinlərinə atdıqları örtük.

“Təthir” ayəsində belə deyil. Həmin ayədə “kum” birləşən şəxs əvəzliyi cəm kişilərə xitab edir: ən<u>kum</u> (sizdən), yutahhira<u>kum</u> (sizi paklasın).

Əgər əhli-beytdə məqsəd İhsan Zahirin güman etdiyi kimi Peyğəmbərin (s) zövcələri olsaydı, xitab növü dəyişmədən cəm qadın əvəzliyində qalardı və belə deyilərdi: “liyuzhibə ən<u>kunnə</u>r-ricsə və yutahhira<u>kunnə</u>... (siz qadınlardan çirkinliyi uzaq tutmaq və siz qadınları paklamağı...)”.

**İkinci amil: Hər iki xitabda ünvanların fərqliliyi**

Uca Allah Peyğəmbərinin (s) zövcələrinə ünvanla (ey Peyğəmbər qadınları və ya zövcələri!) xitab edir. Bu ayədə isə ***“Siz, ey Peyğəmbərin zövcələri!”*** xitabından sonra ünvanı dəyişərək Əhli-Beytə xitab edir. Ünvanların dəyişməsi müxatiblərin dəyişdiyinə dəlildir. Əgər “Təthir” ayəsindəki məqsəd yalnız Peyğəmbər (s) zövcələri olaraq qalsaydı, o zaman xitabın ünvanı dəyişməzdi.

Bununla da ayənin yalnız Peyğəmbər (s) zövcələrinə şamil edildiyi iddiası batil olur.

**Üçüncü amil: Üslub və xitab formasının fərqliliyi**

Qurani-Kərim Peyğəmbərin (s) zövcələrindən (“Təthir” ayəsindən əvvəlki ayədən başlayaraq) icra etməli olduqları işləri yeddi dəfə əmr formasında qeyd edir. Misal olaraq: ***“Evlərinizdə qərar tutun... Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin”.***[156] Və s.

Onlara qadağan etdiyi məsələlərdə isə iki dəfə inkar formasında əmrdən istifadə edir: ***“Buna görə də (yad kişilərlə) yumşaq danışmayın... ilkin Cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın”.***

Açıq-aşkar bir günah iş görəcəkləri təqdirdə isə əzabla təhdiddən istifadə edir: ***“Ey Peyğəmbərin zövcələri! Sizdən hansı biriniz açıq-aşkar***

---

[156] Əhzab, 32

***bir çirkin (günah) iş görsə, onun əzabı ikiqat olar. Bu, Allah üçün asandır!"***[157]

Bir dəfə isə yerinə yetirmələrini istədiyi hərəkətə təşviq var. Uca Allah buyurur: ***"Sizdən hər kim Allaha və Rəsuluna itaət edib yaxşı işlər görsə, onun mükafatını ikiqat verərik. Biz onun üçün (Cənnətdə) tükənməz (gözəl, minnətsiz) ruzi hazırlamışıq".***[158]

Lakin Əhli-Beytə xitab edərkən Qurani-Kərimin izlədiyi üslubun mədh, tərif və təzim olduğunu görürük. Bu da iki xitabın bir-birindən fərqləndiyinin növbəti əlamətidir. Əgər onların hər ikisində eyni cür xitab olsaydı, o zaman xitab üslubu və forması dəyişməzdi.

**Üçüncü məsələ: Ayənin Peyğəmbər (s) qadınlarına məxsus olması kimlərə nisbət verilir**

İhsan Zahir deyir: **"Şövkani öz təfsirində deyir: "İbn Abbas, İkrimə, Əta, Kəlbi, Müqatil və Səid ibn Cübeyr deyir: "Ayədə qeyd edilən əhli-beyt məxsusi olaraq Peyğəmbərin (s) zövcələridir. Deyirlər: "Evdən məqsəd Peyğəmbərin (s) evi və zövcələrinin yaşadıqları yerdir. Dəlil isə Uca Allahın bu sözüdür: *"Allahın evlərinizdə oxunan ayələrini (Quranı) və hikməti (Peyğəmbərin qoyduğu qayda-qanunu) xatırlayın".*[159] Həmçinin zövcələr barədəki ardıcıllıq: *"Ey Peyğəmbər! Zövcələrinə belə de..."*[160] ta ki *"Allahın evlərinizdə oxunan ayələrini (Quranı) və hikməti (Peyğəmbərin qoyduğu qayda-qanunu) xatırlayın"*[161] ayəsinədək".**[162]

---

[157] Əhzab, 30
[158] Əhzab, 31
[159] Əhzab, 34
[160] Əhzab, 28
[161] Əhzab, 34
[162] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 20

İhsan Zahirin Şövkanidən nəql etdiyi bu sözlərlə ayənin xüsusilə Peyğəmbərin (s) zövcələrinə şamil olduğu iddiasının İbn Abbas, İkrimə, Əta, Kəlbi, Müqatil və Səid ibn Cübeyrə nisbət verdiyi məlum olur.

### 1. İbn Abbasa verilən nisbətin müzakirəsi

**Birinci:** Ayənin Peyğəmbər (s) zövcələri haqqında nazil olması barədə İbn Abbasa verilən nisbətin isbatı bu iki ehtimaldan ibarət olacaq: ya bu İbn Abbasın özünün şəxsi rəyidir; ya da bunu Peyğəmbərdən (s) nəql edir. Öz rəyi olsa, bu zaman qəti şəri dəlil (nəss) qarşısında ictihad etmiş olur. Belə ki, bir çox səhabədən, eləcə də İbn Abbasın özündən edilən nəql edilən səhih rəvayətlərə əsasən, bu ayə "Kisa" əhli barədə nazil olub. Ona görə həmin rəyin heç bir dəyəri olmayacaq. Bu da hər kəsin nəzərində dəlili batil edəcək.

Yaxud da bu rəvayəti İbn Abbas Peyğəmbərdən (s) nəql edir. Lakin bu, həqiqətdə baş verməyib. Əlimizdə bunu isbat edəcək səhih rəvayətlər də yoxdur. Əvvəldə də qeyd etdiyimiz kimi, həm İbn Abbasdan, həm də digər səhabələrdən bunun əksini isbat edən rəvayətlər nəql olunub.

**İkinci:** Səhabələrin sözü dəlil hesab edildiyinə əsasən, əgər İbn Abbasın bu ayənin Peyğəmbər (s) zövcələri barədə nazil olduğu rəyi dəlil kimi ehtimal edilsə, bu da heç nə isbatlamayacaq. Səbəb isə İbn Abbasa istinad edilən rəvayətin sənədinin zəif olmasıdır. Qarşıda İbn Abbasın bu iki rəvayətinin sənədini təfsilatı ilə müzakirə edəcəyik. Həmin bəhsdə hər iki rəvayətin sənədinin zəif olduğu isbatlanacaq. Ravilərin arasında Saleh ibn Musa və İkrimənin olması rəvayətin kənara atılması üçün yetərli səbəbdir. Belə ki, rical əhli onların zəifliyinə hökm edirlər.

### 2. İkriməyə verilən nisbətin müzakirəsi

İkrimə hədis uyduran kəslərdən olub. İbn Abbasın köləsi idi. Öz ağasının adına yalan hədislər istinad edirdi. Onun adından uydurduğu çoxlu hədislərə görə cəza olaraq iplə çəpərə də bağlanmışdı. Belə olduqda

nəinki onun şəxsi ictihadı olan rəyinin, hətta açıq şəri dəlillərin ziddinə olan söylədiyi rəvayətlərinin də heç bir etibarı yoxdur.

Bəzi rical əhlinin onun barəsindəki sözlərini təqdim edirik:

**1** – Əhməd ibn Hənbəl Səid ibn Müseyyibə istinadən öz köləsinə belə dediyini yazır: *"İkrimə İbn Abbasın adından yalan danışdığı kimi, sən də mənim adımdan yalan danışma".*[163]

**2** – Təbəri sənədli şəkildə Səid ibn Müseyyibdən nəql edir: *"Sirar ibn Muhəmməd ibn İsmayıl mənə İsmayıldan, o da İbrahim ibn Səddən, o da atasından rəvayət edir: "Səid ibn Müseyyib köləsi Bürdə deyirdi: "Ey Bürd, İkrimə ağası İbn Abbasın adından yalan danışdığı kimi, sən də mənim adımdan yalan danışma". Onun mənim adımdan (arada başqa şəxslər olmadan) birbaşa sizə söylədiyi və sizin də inkar etdiyiniz hədislər yalandır".*[164]

Həmçinin Yezid ibn Əbu Ziyaddan fərqli bir sənədlə nəql olunur: *"İbn Hümeyd Cərirdən, o da Yezid ibn Əbu Ziyaddan rəvayət edir: "İbn Abbasın oğlu Əlinin yanına gəldim, İkrimə ot tayalarının saxlandığı yerin qapısına bağlanmışdı. Dedim: "Niyə bu haldadır?" Dedi: "O, atamın adından yalan danışır".*[165]

**3** – İbn Qüteybə "Məarif"də deyir: *"Abdullah ibn Harisdən nəql olunur: "İbn Abbasın oğlu Əlinin yanına gəldim, İkrimə iplə çəpərə bağlanmışdı. Dedim: "Siz kölələrinizlə belə rəftar edirsiniz?!" Dedi: "Bu, atamın adından yalan danışır".*[166] *İbn Makula da "İkmalul-ikmal"da İbn Ömərin Nafiə belə dediyini nəql edir: "İkrimə İbn Abbasın adından yalan danışdığı kimi, sən də mənim adımdan yalan danışma".*[167]

---

163 əl-İləl və mərifətur-rical, Əhməd ibn Hənbəl, c. 2, s. 71

164 əl-Muntəxəb min zeylil-muzil, Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri, s. 122

165 əl-Muntəxəb min zeylil-muzil, Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri, s. 122

166 əl-Məarif, İbn Quteybə, s. 456

167 İkmalul-ikmal, İbn Məkulə, c. 1, s. 257

**4** – İbn Xallikan Abdullah ibn Harisə istinad edilən rəvayəti nəql edir: *"Dedi: "Əli ibn Abdullah ibn Abbasın yanına gəldim, İkrimə çəpərin qapısına bağlanmışdı. Dedim: "Siz kölələrinizlə belə rəftar edirsiniz?!" Dedi: "O, atamın adından yalan danışır"*.[168]

**5** – İbn Sirinin İkrimə barədə söylədiyi *"O kəzzabdır (çox yalançıdır)"* sözü məşhurdur. Necə ki, bu, İbn Həcərdən və başqalarından da nəql edilib: *"Onun Cənnətə gedə biləcəyi məni narahat eləmir. Lakin o, kəzzabdır (çox yalançıdır)".*[169]

**6** – O, öz yalanlarında həddi aşmış və buna uzun müddət davam etmişdir. Hətta Peyğəmbərin (s) də adından yalan uydurmuşdu. Bunu İbn Həcər Səid ibn Müseyyibdən nəql edir. Əta Xorasani ondan soruşur: *"İkrimə güman edir ki, Peyğəmbər (s) xanımı Məymunə ilə ehramda olarkən evlənib". Dedi: "O xəbis yalan deyir".*[170]

**7** – Mizzi "Təhzibul-kəmal"da deyir: *"Əmr ibn Xalid Hərrani İbn Ləhiədən, o da Əbüləsvəddən nəql edir: "İkriməni Afrikaya getməyə həvəsləndirənlərin birincisi mənəm. Ona dedim: "Mən orada bir dəstə adam tanıyıram. Bəlkə onların yanına gedəsən".*

*Sonra onun qonşusu ilə rastlaşdım. O dedi: "İkrimə Afrikaya getməyə hazırlaşır". Əbüləsvəd deyir: "O həmin adamların yanına getdikdə onlar İkrimədən uzaqlaşdılar". Deyir: "Onun ağlı az idi, bəzi adamlardan hədis eşidər, ondan həmin hədisi soruşduqda isə tam başqa şəxsin adından nəql edər, növbəti dəfə soruşulduqda isə tam fərqli adamlara istinad edərdi. Deyərdilər: "Bu nə qədər yalançıdır?!"*

*Ondan İsmayıl ibn Übeyd Ənsariyə şikayət etdilər. O, fəzilətli və təqvalı şəxs idi. Demişdi: "Ona fikir verməyin, sizi ondan uzaq durmağa çağırıram".*

---

[168] Vəfayatul-əyan və ənbəuz-zəman, İbn Xallikan, c. 3, s. 266

[169] "Fəthul-bari"nin müqəddiməsi, İbn Həcər, s. 425; əl-Kamilu fit-tarix, İbn Ədiy, c. 1, s. 53; Təhzibul-kəmal, Mizzi, c. 1, s. 282; Siyəru əlamin-nubəla, Zəhəbi, c. 5, s. 25; Mizanul-etidal, c. 3, s. 94; Tarixul-İslam, c. 7, s. 179

[170] "Fəthul-bari"nin müqəddiməsi, İbn Həcər, s. 425

*Onun yanına adam göndərmiş və demişdi: "İbn Abbasın filan-filan sözləri necə dediyini eşitmisən?" İkirimə də "Filan, filan şəkildə" – deyə cavab göndərmişdi. İsmayıl dedi: "Doğru deyirsən, mən də İbn Abbasdan soruşmuşdum, o da belə söyləmişdi". İbn Ləhiə deyir: "İkirimə (xəvaric firqəsindən olan) Nəcdə Hərurinin rəyinə əsasən danışır. Onun yanına getmiş və altı ay orada qalmışdı. Sonra İbn Abbasın yanına gələrək salam vermiş, İbn Abbas isə demişdi: "Bu xəbis yenə gəldi".*

*Səid ibn Əbu Məryəm İbn Ləhiədən, o da Əbüləsvəddən nəql edir: "İkrimənin Məğribə getməsinin səbəbkarlarından birincisi mənəm. Mən Misirdən Mədinəyə gəlirdim, İkrimə ilə rastlaşdım. Məndən Məğrib əhli barədə soruşdu. Onların qafil insanlar olduğunu bildirdim. O da onların yanına getdi. Misirlilərin arasında Sufriyyə rəyini yayan ilk adam oldu".*[171]

**8** – Zəhəbinin sözləri: *"Əhməd ibn Hənbəl deyir: "Malikin İkriməyə yalnız bir hədisini bilirəm. O da bir nəfərin ziyarətə gedərkən öz qadını ilə yaxınlıq etməsi barədə söylədiyi hədisdir. Onu Sövridən, o da İkrimədən Əhməd ibn Əbu Xeysəmədən rəvayət edib: "Əli ibn Mədininin kitabında belə yazıldığını gördüm: Yəhya ibn Səidin belə dediyini eşitmişəm: "Mənə Əyyubdan nəql ediblər ki, ona İkrimənin düzgün namaz qıla bilmədiyi deyilib. Əyyub deyir: "O, namaz qılırdı?!"*

*Fəzl Sinani bir kişidən nəql edir: "İkrimənin nərd oynadığını görmüşəm".*

*Yəzid ibn Harun deyir: "İkrimə Bəsrəyə gəlmişdi. Əyyub, Yunus və Süleyman Teymi onun yanına getdilər. Onun ğinaya qulaq asdığını gördülər. İkrimə dedi: "Susun, Allah onu öldürsün, nə gözəl oxuyur". Yunus və Süleyman bir daha onun yanına getmədilər. Əmr ibn Xalid deyir: "Xəllad ibn Süleyman Həzrəmi Xalid ibn Əbu İmrandan nəql edir: "Məğribdə idik, İkrimə də yanımızdaydı və mövsüm vaxtı idi. O dedi: "Əlimdə nizə olmasını istərdim". Sağdan və soldan bunu izləyən adamlar ona etiraz etdilər". İbn Mədini Yaqub Həzrəmidən, o da babasından nəql edir: "İkrimə məscidin qapısının*

[171] Təhzibul-kəmal, Mizzi, c. 20, s. 277

*qarşısında dayanmışdı. Dedi: "Burada kafirdən başqası yoxdur (və ya buradakılar kafirdirlər)". Deyir: "(Xəvaric) Əbaziyyə firqəsinin rəyinə əsasən fikir bildirirdi". Yəhya ibn Bükeyr deyir: "İkrimə Misirə gəldi, Məğribə getmək istəyirdi. Məğribdəki xəvariclər əqidələrini ondan götürdülər. İbn Mədini deyir: "O, (xəvaric) Nəcdə Həruri rəyi ilə fikir bildirirdi". İbn Abbası xəvaric rəyi ilə fikir bildirməkdə ittiham edirdi".*

*Xalid ibn Nizar deyir: "Ömər ibn Qeys Əta ibn Əbu Ribahdan nəql edir: "İkrimə (xəvaric) Əbaziyyə firqəsindən idi".*[172]

**Nəticə**

İkrimə gah yalançılığı, gah Sufriyyə və ya Əbaziyyə xəvaric firqələrənə mənsubluğu, gah ğina dinləməsi və gah da nərd oynaması ilə məşhurdur. Onun söylədiyi rəvayətlərə, xüsusilə də düşmənçilik bəslədiyi insanlar barədə sözlərinə necə etimad etmək olar?! O, xəvaric Sufriyyə əqidəsinə bağlı idi.[173] Həmin firqə isə İmam Əliyə (ə) və Əhli-Beytinə qarşı olan mənfi münasibətləri ilə tanınır, İmam Əlinin (ə) kafir olduğuna etiqad bəsləyirdilər.

Belə bir əqidəyə sahib olan şəxsin öz əqidəsinin ziddinə olaraq "Təthir" ayəsinin Əli, Fatimə, Həsən və Hüseyn (onlara Allahın salamı olsun!) barəsində nazil olduğunu söyləyəcəyini necə düşünmək olar?!

### 3. Kəlbiyə verilən nisbətin müzakirəsi

Təfsir alimləri arasında məşhur, onların və digərlərin nəzərində isbatlanmış faktdır ki, Kəlbi bu ayənin Peyğəmbər (s) zövcələri barədə deyil, "Kisa" əhli haqqında nazil olduğunu söyləyib. Onların sözlərindən bəzilərini təqdim edirik:

---

172 Mizanul-itidal, Zəhəbi, c. 3, s. 95-96

173 Bax: əl-Muntəxəb min zeylil-muzil, Əbu Cəfər Muhəmməd ibn Cərir Təbəri, s. 122

**1** – Sələfi alimi Mübarəkpuri: *"Əbu Səid Xudri, Mücahid, Qətadə və Kəlbidən rəvayət olunub ki, ayədə qeyd olunan Əhli-Beyt məxsusi olaraq Əli, Fatimə, Həsən və Hüseyndir".*[174]

**2** – Sələbi: *"Səmhudi deyir: "Bir dəstə adam, həmçinin Kəlbi təqdim olunan hədisdəki şəxslərin xüsusilə Əli, Fatimə, Həsən və Hüseyn olduğunu deyirlər".*[175]

**3** – Qurtubi: *"Bir dəstə adam, həmçinin Kəlbi onların məxsusi olaraq Əli, Fatimə, Həsən və Hüseyn olduğunu deyirlər".*[176]

**4** – Şövkani: *"Əbu Səid Xudri, Mücahid, Qətadə və Kəlbidən rəvayət olunub ki, ayədə qeyd olunan Əhli-Beyt məxsusi olaraq Əli, Fatimə, Həsən və Hüseyndir".*[177]

Şövkani bununla ziddiyyət təşkil edən fikri nəql etsə də, Kəlbinin bu ayənin "Kisa" əhli barədə nazil olduğunu söylədiyini də bildirir. Bu isə Kəlbinin ayə barəsindəki rəyi ilə uyğundur. Bizim buradakı məqsədimiz məhz ayənin zövcələr barədə nazil olduğu iddiasının Kəlbiyə nisbət verilməsinin yanlışlığını isbat etməkdir.

Lakin İhsan Zahir öz adəti üzrə həqiqətləri saxtalaşdırmağa, başqalarının sözlərini təhrif edərək öz məqsədlərinə uyğunlaşdırmağa çalışmışdır. Bu isə açıq-aydın fırıldaqçılıqdır. Bununla o, oxucuda Kəlbinin həmin ayənin Peyğəmbər (s) zövcələri barədə endiyini söyləyənlərdən olduğu təəssüratını yaratmaq istəyib. Halbuki bu, həqiqətlə daban-dabana ziddir.

### 4. Əta İbn Əbu Rəbaha verilən nisbətin müzakirəsi

Ətaya nisbət verdiklərinə isə bir neçə cavab vermək olar:

[174] Tuhfətul-əhvəzi, Mübarəkpuri, c. 9, s. 48
[175] Təfsurus-Sələbi, c. 8, s. 36
[176] Təfsirul-Qurtubi, c. 14, s. 182
[177] Fəthul-qadir, Şövkani, c. 4, s. 179

**Birinci cavab: Ona verilən nisbətin sübuta yetməməsi**

Ətanın bunu söylədiyi isbat olunmayıb. Əksinə, onun özü də Peyğəmbərin (s) *"İlahi, bunlar mənim Əhli-Beytim və mənə aid şəxslərdir. Onlardan pislikləri uzaqlaşdır və onları pakla!"*[178] sözlərini ehtiva edən "Kisa" hədisini Ümmü Sələmədən nəql edənlərdən biridir. Lakin Şövkaninin Ətadan nəql etdiyi rəvayət isbatlanmayıb. Belə ki, orada nə mənbə və nə də hədisin sənədi qeyd edilmir.[179]

**İkinci cavab: Əta ibn Əbu Rəbahın sözü höccət deyil**

Əgər Ətanın bunu söylədiyi isbatlansa belə, onun sözü nə ayə, nə də hədisdir ki, bunu İhsan Zahir dəlil və höccət olaraq göstərsin. Əksinə, onun sözü Peyğəmbərdən (s) nəql olunan səhih hədislər qarşısında ictihad sayılır. Belə bir ictihadı səhabə də etsə, höccət sayılmaz. Halbuki əhli-sünnənin icmasına əsasən, Əta səhabə də deyil, tabeindir. Razi deyir: *"Bizə dəlil olan nəss (ayə və ya hədis), icma və qiyasdır. Nəssə gəldikdə, Uca Allah buyurur:* ***"Ey bəsirət sahibləri, ibrət alın!"*** *Ayə ibrət almağı əmr edir. Bu isə nəss qarşısında təqlidi inkar edir. İcma: Səhabələr bir-birinə zidd çıxmağı özlərinə caiz biliblər. Əbu Bəkr və Ömər onlara qarşı çıxanları inkar etməmiş, ixtilafda olan səhabələr də biri digərini rədd etməmişlər. Qiyasa gəldikdə..."*[180]

Bu barədə Ğəzzalinin və digərlərinin rəylərini də özünüz mütaliə edin.[181]

---

[178] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 292; Sünən, Tirmizi, c. 5, s. 31

[179] Bax: Fəthul-qədir, Şövkani, c. 4, s. 279

[180] əl-Məhsul, Razi, c. 6, s. 129

[181] Ğəzzali "əl-Müstəsfa" kitabında deyir: "Bir kəsdən səhv və yanlış hərəkətin zahir olması mümkündürsə və məsumluğu isbat olunmayıbsa, onun sözünün heç bir səlahiyyəti yoxdur. Səhv etmələri mümkün olduğu halda sözlərini necə dəlil qəbul etmək olar?! Həmçinin mütəvatir dəlil olmadan onların məsumluğunu necə iddia etmək mümkündür?! Aralarında ixtilaf olan iki şəxsin məsumluğunu necə təsəvvür etmək olar?! İki məsum şəxs ixtilafa düşərmi? Halbuki səhabələr bir-birilərinə qarşı müxalif olmağı özlərinə caiz biliblər..." s. 168

Bu ictihad isə səhabənin deyil, bir tabeinindir. Həmin tabein Əta ibn Əbu Rəbahdır. Onun sözünün açıq nəss qarşısında dəlil ola bilməyəcəyi isə çox aydın məsələdir.

**5. Müqatil ibn Süleymana verilən nisbətin müzakirəsi**

Müqatilinin nəinki rəvayət etdiyi hədislərə, hətta rəyinə etimadın olmadığının sübutu hamının onun yalançı sayması, rəvayət və rəylərinin bir-birinə ziddiyyət təşkil etdiyində həmfikir olmasıdır. Rical əhlinin onun barəsində söylədiklərinə nəzər salaq:

**1** – Mizzi: *"Cüzcani deyir: "Ötkəm bir yalançı idi. Əbu-Yəmanın belə dediyini eşitmişəm: "Buraya gəlib kürəyini qibləyə söykədi və dedi: "Ərşdən aşağı bilmək istədiyiniz hər şeyi məndən soruşun". Eyni sözləri Məkkədə də söylədiyini mənə danışıblar. Həmin vaxt bir kişi ayağa qalxaraq deyib: "Mənə qarışqanın bağırsaqlarından danış, qarışqanın harasında yerləşir?" Müqatil isə susmuşdu. Abbas ibn Vəlid ibn Məzid atasından nəql edir: "Müqatil ibn Süleymandan bəzi məsələlər haqqında soruşdum. Mənə hamısı bir-birinə zidd olan hədislər danışdı. Dedim: "Bunlardan hansını dəlil olaraq götürüm?" Dedi: "Hansını istəyirsən".*

*Əhməd ibn Hənbəlin oğlu Saleh deyir: "Atam deyib: "Ondan hədis rəvayət edilməsi məni təəccübləndirir". Abbas Duri və Ğulabi Yəhya ibn Muinə istinadən deyirlər: "Onun hədisləri heç bir şeyə dəyməz". Ğulabi başqa bir yerdə Yəhyadan nəql edir: "İnanılan şəxs deyil". Muhəmməd ibn Səd deyir: "Hədis əhli onun hədislərindən çəkinir və inkar edirlər". Əbdürrəhman ibn Həkəm ibn Bəşir ibn Salman deyir: "Ravi idi, camaat onun hədislərini tərk etdi". İbn Əmmar Mosuli deyir: "Heç bir şeyə dəyməz". Əmr ibn Əli və Əbu Hatəm deyir: "Hədisləri tərk edilib". Əmr əlavə edir: "Yalançıdır (kəzzabdır)". Buxari deyir: "Hədisləri inkar edilir, barəsində sükut etmişlər". Başqa bir yerdə isə deyir: "Əlbəttə ki, (hədisləri) heçdir". Əbu Davud deyir: "Hədislərini tərk etmişlər". Nisai başqa yerdə deyir: "Peyğəmbər (s) adından hədis*

*uyduranlar tanınmış kəzzablar (yalançılar) dörd nəfərdir: Mədinə şəhərində İbrahim ibn Əbu Yəhya, Bağdadda Vaqidi, Xorasanda Müqatil ibn Süleyman, Şamda çarmıxa çəkilmiş Muhəmməd ibn Səid". Əbu Hatəm ibn Hibban deyir: "Quran təfsiri elmini yəhudi və xristianlardan almışdı. Belə ki, onun Allahın sifətləri haqqındakı nəzərləri eyniliklə yəhudilərin inancına bənzəməkdədir. O, Allahın məxluqat kimi olduğuna inanır. Bununla bərabər hədis nəql etməkdə də yalançıdır".*[182]

**2** – Zəhəbi: *"Əbu Hənifə deyir: "Cəhm Allahı bənzətməyin (təşbihin) rəddi barədə ifrata varmış və demişdir: Allah heç bir şey deyil. Müqatil isə bunun əksinə, Allahı məxluqata bənzədəcək qədər həddini aşmışdır".*

*Vəki deyir: "Kəzzab (yalançı) idi". Buxari deyir: "Süfyan ibn Üyeynə deyir: "Müqatilin belə dediyini eşitdim: "150-ci ildə Dəccal zühur etməsə, bilin ki, mən kəzzabam (yalançıyam)". Abbas ibn Musəb "Mərv tarixi" kitabında deyir: "Müqatil istinadını qeyd etməzdi. Mərvdəki Cümə məscidində hədis danışırdı. Cəhm gəlib onun yanında oturdu. Bir-birlərinə qarşı qəzəbləri alovlandı. Hər biri digərinin əleyhinə kitab (və ya məktub) yazırdılar". Nisai deyir: "Müqatil yalançı idi". İbn Üyeynə deyir: "Müqatilə dedim: "Camaat güman edir ki, sən Zəhhakla görüşməmisən". Dedi: "Sübhanallah! Onun yanına atamla getmişdim. Mənimlə onun arasında bir bağlı qapı vardı". Buxari deyir: "Onun barəsində sükut ediblər". Abbas Yəhyadan rəvayət edir: "Onun hədisləri heç bir əhəmiyyət daşımır".*[183]

**Müqatilə verilən nisbət barədə yekun söz**

Halı və hamının nəzərində zəif sayıldığı məlum olandan sonra İhsan Zahirin Müqatil ibn Süleymandan nəql etdiyi fikrin heç bir etibarı yoxdur.

---

[182] Təhzibul-kəmal, Mizzi, c. 28

[183] Mizanul-itidal, Zəhəbi, c. 4, s. 173

## Üçüncü bəhs: Rəvayətlərdə Əhli-Beyt

Burada bir neçə mövzu var:

### Birinci mövzu: Əhli-Beytin "Kisa" əhli ilə məhdudlaşdığına dair rəvayətlər

Burada da iki cəhət var:

#### Birinci cəhət: Xüsusi şəxslərə aid olmasına dəlalət edən rəvayətlər

Əhli-Beytin məxsusi olaraq "Kisa" əhli ilə məhdudlaşdığını bildirən rəvayətlər az qala mütəvatir həddinə çataraq geniş yayılmış və səhih mötəbər yollarla nəql edilmişdir. Bu hədisi İmam Həsən (ə), Cəfər ibn Əbu Talib, İbn Abbas, Səd ibn Əbu Vəqqas, Əbu Səid Xudri, Ənəs ibn Malik, Vasilə ibn Əsqə, Zeyd ibn Ərqəm, Ömər ibn Əbu Sələmə, Əbu Həmra, Bəra ibn Azib, Ümmü Sələmə və Aişə kimi dövrün böyük səhabələri nəql etmiş, eləcə də böyük hədis alimlərindən Müslim öz "Səhih"ində, Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Əbu Şeybə "Müsənnəf"də, Bəzzar "Müsnəd"ində, İbn Əbu Asim "Sünnə"də, Tirmizi və Nisai "Sünən"lərindən, Təbəri "Təfsir"ində, Təbərani "əl-Möcəm"lərdə, Hakim "Müstədrək"ində, Əbu Nəim İsbəhani, Beyhəqi, Xətib Bağdadi və digərləri kitablarında bu hədisi bir çox səhabədən və fərqli sənədlərlə qeyd etmişlər. Nümunə olaraq həmin rəvayətləri səhabələrdən nəql edirik:

**1. Aişənin rəvayəti**

Müslim "Səhih"də deyir: *"Səfiyyə bint Şeybə Aişədən nəql edir: "Bir gün Peyğəmbər (s) səhər tezdən qara tüklərdən toxunmuş əba ilə çölə çıxdı. Həsən ibn Əli yanına gəldi. Peyğəmbər (s) onu əbası ilə örtdü. Ardınca Hüseyn, sonra*

*Fatimə, sonra da Əli gəldi. Onları da əbasının altına aldı və buyurdu:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[184]

Beyhəqi "Sünən"ində[185], Hakim "Müstədrək"ində[186] və digər kitablarda bunu nəql ediblər.

Bu səhih rəvayətdən anlaşılır ki, Peyğəmbər (s) "Təthir" ayəsini oxumazdan əvvəl Əli, Fatimə, Həsən və Hüseynə (onlara Allahın salamı olsun!) qarşı bu hərəkəti ilə ayənin digər insanlar istisna olmaqla, yalnız bu şəxslərə aid olduğunu əyani şəkildə göstərmək istəmişdir.

**2. Ümmü Sələmənin rəvayəti**

Əhməd ibn Hənbəl "Müsnəd"ində Əta ibn Əbu Rəbaha istinadən nəql edir: "Ümmü Sələmədən bunu eşidən şəxs mənə nəql edib: *"Peyğəmbər (s) onun evindəydi. Xanım Fatimə içində ət şorbası olan daşdan bir qabla gəldi. Peyğəmbər (s) ona dedi: "Ərini və uşaqlarını da çağır". Hamısı Peyğəmbərin (s)yanına gəlib əyləşdilər və onunla birgə yeməyə başladılar. Səkinin üzərində oturmuş və Xeybər əbasını da altına sərmişdi. Mən isə otağımda namaz qılırdım. Bu zaman Uca Allah* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsini endirdi. Peyğəmbər (s) cübbənin kənarlarını götürərək onların üstünə örtdü və əllərini göyə doğru açaraq buyurdu: "İlahi! Bunlar mənim Əhli-Beytim və mənə aid şəxslərdir. Onlardan pisliyi uzaqlaşdır və onları pak-pakizə qərar ver".*

*Mən başımı qapıdan həmin otağa uzatdım və "Ey Peyğəmbər! Mən də sizinləyəm?" – deyə soruşdum. Peyğəmbər (s) buyurdu: "Sən xeyrə doğrusan, sən xeyrə doğrusan".*

---

[184] Səhih, Müslim, c. 7, s. 130

[185] əs-Sünənul-kubra, Beyhəqi, c. 2, s. 149. "Darul-fikr" nəşriyyatı

[186] əl-Müstədrək, Hakim Nişapuri, c. 2, s. 147

*Deyir: "Əbdülməlik deyir: "Əbu Leyla mənə Ətanın söylədiyi hədisi eynilə Ümmü Sələmədən nəql edib". Əbdülməlik deyib: "Davud ibn Əbu Ovf Cuhaf Huşəbdən, o da Ümmü Sələmədən mənə eyni hədisi nəql edib".*[187]

Əhməd ibn Hənbəlin və Əbu Yəla Mosulinin[188] "Müsnəd"lərindəki, Dulabinin "əz-Zurriyyətut-tahirə"[189], Təbəraninin "əl-Möcəmul-kəbir"[190] və s. kitablarda nəql edilən digər rəvayətdə deyilir (Əhməd ibn Hənbəlin kitabından nəql edirik): *"Peyğəmbər (s) Fatiməyə ərini və uşaqlarını götürüb yanına gəlməsini buyurdu. Onlar Peyğəmbərin (s) yanına gəldikdə, (Peyğəmbər) çiynindəki Xeybər əbasını onların üzərinə örtüb buyurdu: "İlahi, bunlar Muhəmmədin ailəsidir. Salavat və bərəkətini İbrahim ailəsi üzərində qərar verdiyin kimi Ali Muhəmməd üzərində də bərqərar et. Həqiqətən də Sən həmdə layiq və şərəfi yüksəksən!" Ümmü Sələmə dedi: "Əbanı qaldırıb onlarla birlikdə dayanmaq istədim, Peyğəmbər (s) onu əlimdən özünə tərəf çəkib buyurdu: "Sən xeyir üzrəsən!"*[191]

Tahavi "Muşkilul-asar" kitabında deyir: *"Ümrə Həmadaniyyə Ümmü Sələmənin yanına gedib ona salam verdi. Ümmü Sələmə onun kim olduğunu*

---

[187] Müsnəd, Əhməd ibn Hənbəl, hədis 25300, c. 6, s, 292

Doktor Şüeyb Arnavut bu hədisin haşiyəsində rəvayətin sənədinin səhih olduğunu deyir: "Bunun üç sənədi var. Birinci istinadla olan hədis zəifdir. Çünki Ümmü Sələmədən nəql edən ravi məlum deyil. İkinci hədisin istinadı isə səhihdir. Üçüncünün sənədinə gəldikdə, o da sənəddə ravi Şəhr ibn Huşəbin olmasına görə zəifdir. Bu hədisin nəql yollarından biri səhih olduğuna görə, rəvayətin səhihliyinə hökm etmək üçün kifayətdir.

"Müsnəd" kitabının təhqiqatçılarından biri Həmzə Əhməd Zeyn deyir: "Ümmü Sələmədən rəvayət edən şəxsin məchul olmasına baxmayaraq hədis səhihdir. Çünki o sonuncu şəxs olaraq qeyd edilir. Tirmizinin nəzərində rəvayət "həsən"dir. (c. 5, s. 690, hədis 3871)

"əl-Mənaqib"də deyilir: "Bu hədis həmin fəsildə ən gözəl hədisdir". (Müsnəd, Əhməd ibn Hənbəl. Əhməd ibn Muhəmməd Şakir və Həmzə Əhməd Zeynin təhqiqilə. c. 18, s. 233)

[188] Müsnəd, Əbu Yəla Mosuli, c. 12, s. 344, I çap. İbn Həcər Heysəmi "Məcməuz-zəvaid"də deyir: "Bunu Əbu Yəla rəvayət edib. Sənədi yaxşıdır (ceyyid)". c. 9, s. 167

[189] əz-Zurriyyətut-tahirətun-nəbəviyyə, Muhəmməd ibn Əhməd Dulabi, s. 150

[190] əl-Möcəmul-kəbir, Təbərani, c. 3, s. 53; c. 23, s. 336

[191] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 323

*soruşduqda adının Ümrə olduğunu söylədi. Sonra dedi: "Ey möminlərin anası, gözümüzün qarşısında qətlə yetirilən o şəxs barədə mənə məlumat ver. O, sevilən və ya nifrət edilən biri idi?" Bu sözündə məqsəd Əli ibn Əbu Talib idi. Ümmü Sələmə dedi: "Sən onu sevirdin, ya nifrət edirdin?" Dedi: "Nə sevir, nə də nifrət edirdim". Ümmü Sələmə dedi: "Uca Allah* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq..."*** *ayəsini nazil etdikdə evdə yalnız Cəbrail, Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn (onlara Allahın salamı olsun!) vardı. Mən demişdim: "Ey Peyğəmbər, mən də Əhli-Beytdənəm?" O buyurdu: "Sənin üçün Allah yanında çoxlu xeyirlər var". Amma mən onun "Bəli" deməsini istərdim. Bu, mənim üçün üzərinə günəşin doğub-batdığı hər bir şeydən üstün olardı".*[192]

Ümmü Sələmədə bitən rəvayətləri qeyd etdikdən sonra deyir: *"Burada qeyd etdiklərimiz göstərir ki, Ümmü Sələmə əbanın altına girmək və ayənin əhatə etdiyi şəxslərdən olmaq istəsə də, Peyğəmbər (s) ona izn verməmişdir. Ayənin əhatə etdiyi şəxslər isə digər insanlar istisna olmaqla, yalnız Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn (Onlara Allahın salamı olsun!) olmuşlar".*[193]

### 3. İbn Abbasın rəvayəti

Əhməd ibn Hənbəl "Müsnəd"də[194], Hakim "Müstədrək"də[195] Əlinin (ə) fəzilətlərinə dair İbn Abbasa istinadən uzun hədisi qeyd edirlər (burada "Müsnəd"dən nəql edirik): *"...Peyğəmbər libasının kənarından tutub onu Əlinin, Fatimənin, Həsən və Hüseynin üzərinə örtdü və buyurdu:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!..***"

[192] Muşkilul-asar, Tahavi, c. 2, s. 244, rəqəm 772
[193] Muşkilul-asar, Tahavi, c. 2, s. 244, rəqəm 772
[194] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330-331
[195] əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 133

*Heysəmi deyir: "Əbu Bəlc Fəzaridən savayı Əhmədin nəql etdiyi bu rəvayətdəki ravilərin hamısı "Səhih"in raviləridir. O isə inanılan şəxsdir (siqədir)".*[196]

əl-Mizzi Fəzarinin tərcümeyi-halında deyir: *"İshaq ibn Mənsur Yəhya ibn Muindən nəql edir: "O, inanılan şəxsdir (siqədir). Muhəmməd ibn Səd, Nisai və Darəqutni də eyni fikri bildirmişlər".*[197]

Nisainin "əs-Sünənul-kubra" və İbn Əbu Asimin "Sünnə" kitablarında nəql olunur: *"İbn Abbasdan... "Peyğəmbər (s) Həsəni, Hüseyni, Əlini və Fatiməni çağırdı. Sonra əynindəki libasla onların da üzərini örtüb buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytim və mənə aid şəxslərdir. Onlardan pislikləri uzaqlaşdır və onları pak-pakizə qərar ver!.."*[198]

#### 4. Ənəs ibn Malikin rəvayəti

Əhməd ibn Hənbəl Ənəs ibn Malikdən nəql edir: *"Peyğəmbər (s) altı ay boyunca sübh namazına çıxarkən Fatimənin evinin qarşısından keçəndə belə deyirdi: "Namaz, namaz! **Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[199] İbn Əbu Şeybə bu rəvayəti özünün "əl-Müsənnəf" kitabında[200], Tirmizi isə "Sünən"[201] kitabında qeyd edərək "həsən" hədis demiş, İbn Əbu Asim də "əl-Ahad vəl-məsani"[202] kitabında nəql etmişdir.

#### 5. Vasilə ibn Əsqənin rəvayəti

Əhməd ibn Hənbəl "Müsnəd"ində Şəddad Əbu Əmmardan nəql edir: *"Vasilə ibn Əsqənin yanına gəldim. Orada bir dəstə adam vardı. Əlini yad*

---

[196] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 120
[197] Təhzibul-kəmal, Mizzi, c. 23, s. 162
[198] əs-Sünənul-kubra, Nisai, c. 5, s. 113; Sünnə, İbn Əbu Asim, s. 589
[199] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 259
[200] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 527
[201] Sünən, Tirmizi, c. 5, s. 31
[202] əl-Ahad vəl-məsani, İbn Əbu Asim, c. 5, s. 360

*edirdilər. Onlar ayağa qalxdıqda mənə dedi: "Peyğəmbərdən (s) eşitdiyimi sənə xəbər verimmi?" Dedim: "Bəli". Dedi: "Fatimənin (Allah ondan razı olsun!) yanına gedib Əlini soruşdum". Peyğəmbərin (s) yanına getdiyini söylədi. Oturub onu gözlədim. Bir az sonra Peyğəmbər (s) yanında Əli, Həsən və Hüseynlə (Allah onlardan razı olsun!) birlikdə gəldilər. Həsən və Hüseyn Peyğəmbərin (s) əlindən tutmuşdular. İçəri girib Əli ilə Fatiməni gətirib qarşısında, Həsənlə Hüseyni isə dizində oturtdu. Sonra çiynindəki paltarını və ya əbasını onların üzərinə örtərək bu ayəni oxudu:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *Sonra buyurdu: "İlahi, bunlar mənim həqiqi Əhli-Beytimdirlər!"*[203]

Bu hədisi həmçinin İbn Əbu Şeybə "əl-Müsənnəf"də qeyd edib. Orada əlavə olaraq bəzi kəlmələr də var ki, Əhməd onu qeyd etməmişdir. Bəlkə də bunu orada Əliyə qarşı olan təhqirlərə görə göstərdiyi həssaslıqla əlaqələndirmək olar. "əl-Müsənnəf"də yazır: *"Vasilənin yanına gəldim. Orada bir dəstə adam da vardı. Onlar onu (Əlini) söyür, o da onlarla birgə söyürdü..."*[204]

Hakim bunu öz "Müstədrək"ində qeyd edir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən də səhihdir, lakin "Səhih"lərində qeyd etməyiblər".*[205]

Şüeyb Arnavut Tahavinin "Muşkilil-asar" kitabına yazdığı haşiyədə deyir: *"İstinadı səhih olan hədisdir".*[206]

### 6. Səd ibn Əbu Vəqqasın rəvayəti

Bir çox böyük hədis alimi səhih istinadla Səddən nəql edirlər ki, Peyğəmbər (s) Əhli-Beyti yalnız Əli, Fatimə, Həsən və Hüseynlə (onlara

---

[203] Müsnəd, Əhməd ibn Hənbəl, c. 34, s. 350, hədis 16374. Kitabı təhqiq edən Şüeyb Arnavut deyir: "Səhih hədisdir".

[204] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 501

[205] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 147

[206] Muşkilul-asar, Tahavi, c. 2, s. 245, rəqəm 761

Allahın salamı olsun!) məhdudlaşdırmışdır. Nisai "əl-Xəsais" kitabında Amir ibn Səd ibn Əbu Vəqqasdan, o da atasından belə nəql edir: *"Müaviyə Səddən Əbu Turabı (İmam Əlini) niyə söymədiyini soruşdu. O dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyi xatırlatdım. Əgər onlardan biri mənə aid olsaydı bu, mənim üçün qırmızı tüklü dəvələrə sahib olmağımdan daha xeyirli olardı.*

***..."Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi nazil olduqda Peyğəmbər Əlini, Fatiməni, Həsən və Hüseyni çağırıb: "İlahi! Bunlar mənim Əhli-Beytimdir" dedi".*[207] "Xəsais" kitabının təhqiqatçılarından olan Şeyx Əbu İshaq Hüveyni bu hədis barədə deyir: *"Hədisin sənədi səhihdir".*[208]

Bu hədisi həmçinin Tahavi "Muşkilul-asar" kitabında da qeyd edir və hədislə əlaqədar bunları yazır: *"Bu hədis ayədəki məqsədin Peyğəmbər (s), Əli, Fatimə, Həsən və Hüseyn olduğunu göstərir".*[209]

Şeyb Arnavut ona yazdığı haşiyədə deyir: *"Hədisin istinadı səhihdir".*[210]

Bu hədisi eləcə də Əhməd ibn Hənbəl, Müslim, Hakim, Tirmizi və digərləri də kitablarında qeyd etmişlər. Lakin onlar mətndə "Təthir" ayəsinin əvəzinə "Mübahələ" ayəsini yazmışlar. Deyirlər: ***"Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq!..."***[211] *ayəsi nazil olduqda Peyğəmbər (s) Əlini, Fatiməni, Həsən və Hüseyni çağıraraq buyurdu: "İlahi, mənim əhlim bunlardır".*[212]

---

[207] Xəsaisu İmam Əli, Nisai, s. 48

[208] Xəsaisu İmam Əli, Nisai, s. 48

[209] Muşkilul-asar, Tahavi, c. 2, s. 235, rəqəm 773

[210] Muşkilul-asar, Tahavi, c. 2, s. 235, rəqəm 773

[211] Ali-İmran, 61

[212] Səhih, Müslim, c. 7, s. 120; Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 185; Sünən, Tirmizi, c. 4, s. 293; əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 150

Nisai “əs-Sünənul-kubra”[213] kitabında, həmçinin Təbəri[214] və Hakim[215] də bu hədisi başqa ravilər vasitəsilə nəql edib. Lakin orada heç bir ayə qeyd edilmir (nəql etdiyimiz hədis Təbəridəndir): *“Peyğəmbərə (s) vəhy nazil olduqda Əlini, Fatiməni və onun iki oğlunu öz libası altına alaraq buyurdu: “Ey Rəbbim, bunlar mənim əhlim və Əhli-Beytimdir”.*[216]

Bu, Səd ibn Əbu Vəqqasdan nəql edilən rəvayətlərdir. Onların bəzisində müəyyən kəlmə fərqlilikləri, bəzisində “Təthir” ayəsi, bəzisində “Mübahələ” ayəsi və bəzisində isə ümumiyyətlə ayənin qeyd edilmədiyinə baxmayaraq bunun heç bir zərəri yoxdur. Çünki bu rəvayətlər Peyğəmbərin (s) həmin sözləri yalnız Əli, Fatimə, Həsən və Hüseyn (onlara Allahın salamı olsun!) barəsində söylədiyini və onlarla məhdudlaşdırdığını bildirir. Bu isə şiənin iddia, İhsan Zahirin isə inkar etdiyi məsələdir.

Nisainin və Tahavinin ilk rəvayətlərində olduğu kimi Peyğəmbərin (s): *“İlahi, bunlar mənim Əhli-Beytimdir”*, yaxud Nisainin ikinci rəvayətində *“İlahi, mənim əhlim bunlardır”,* ya da Təbəri və Hakimin rəvayətlərindəki *“Ey Rəbbim, bunlar mənim əhlim və Əhli-Beytimdir”* sözləri vahid bir mənaya dəlalət edir ki, bu da Əhli-Beytin “Kisa” əhli olan beş pak şəxslə (ə) məhdudlaşmasıdır.

### 7. Cəfər ibn Əbu Talibin rəvayəti

Hakim Nişapuri “Müstədrək”də İsmayılın atası Abdullah ibn Cəfər ibn Əbu Talibdən belə nəql etdiyini yazır: *“Peyğəmbər (s) yerə enən rəhməti gördükdə buyurdu: “Çağırın, çağırın!” Səfiyyə dedi: “Ey Peyğəmbər, kimi?” Peyğəmbər (s) buyurdu: “Əhli-Beytimi – Əlini, Fatiməni, Həsəni və Hüseyni”. Onları Peyğəmbərin yanına gətirdikdə çiynindəki əbanı (kisanı) üzərilərinə örtdü və əllərini səmaya tutub buyurdu: “İlahi, bunlar mənim ailəmdir.*

---

[213] əs-Sünənul-kubra, Nisai, c. 5, s. 122, hədis 8439
[214] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 22, s. 12, rəqəm 21737
[215] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 108
[216] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 22, s. 12

*Muhəmmədə və Muhəmməd ailəsinə salavat göndər". Uca Allah da bu ayəni endirdi:* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"[217]***

**8. Əbu Səid Xudrinin rəvayəti**

İbn Cərir Təbəri öz "Təfsir"ində Əbu Səiddən rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Bu ayə beş nəfər barəsində nazil olub: mənim, Əlinin, Həsənin, Hüseynin və Fatimənin.* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"[218]***

Təbərani isə "əl-Möcəmul-övsat"da Əbu Səid Xudridən nəql edir: *"Peyğəmbər (s) qırx gün boyunca sübh namazına çıxarkən Əlinin evinin qapısına gələr, Fatimənin yanına daxil olar və buyurardı: "Allahın salamı, rəhməti və bərəkəti sizə olsun, ey Əhli-Beyt!* ***"...Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"[219]***

İbn Əsakir "Tarixu Diməşq" kitabında İmran ibn Əbu Müslimdən rəvayət edir: *"Ətiyyədən* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi barədə soruşdum. Dedi: Sənə bu haqda məlumat verəcəyəm. Mənə Əbu Səid xəbər vermişdi ki, həmin ayə Peyğəmbərin evi, Əli, Fatimə, Həsən və Hüseyn barəsində nazil olub. Peyğəmbər onların üzərini əbası ilə örtmüşdü. Ümmü Sələmə də həmin vaxt evin qapısında dayanmışdı. Onun "Bəs mən, ey*

---

[217] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 148. Kitabın təhqiqatçılarından olan Mustafa Əbdülqadir Əta deyir: "Bu, istinadı səhih olan hədisdir. Lakin Buxari və Müslim bunu qeyd etməmişlər. Halbuki bu, onların ikisinin də rical şərtlərinə əsasən də səhihdir. "Bu hədisdə Əhli-Beyti üçün salavatı öyrətdiyi kimi ailəsi üçün də salavatı öyrədir".

[218] Camiul-bəyan, Muhəmməd ibn Cərir Təbəri, c. 22, s. 9

[219] əl-Möcəmul-övsat, Təbərani, c. 8, s. 112

*Peyğəmbər?" sözünə Peyğəmbər (s): "Sən xeyir üzərindəsən və aqibətin də xeyirlidir" – deyə cavab vermişdi".*[220]

**9. Bəra ibn Azibin rəvayəti**

İbn Ədiy "əl-Kamil" kitabında və İbn Əsakir "Tarixu Diməşq"də İshaq ibn Zeyddən, o da Bəra ibn Azibdən rəvayət edir: *"Əli, Fatimə, Həsən və Hüseyn Peyğəmbərin (s) yanına gəldilər. Peyğəmbər (s) onları qarşılayıb əbasını üzərilərinə ataraq buyurdu: "İlahi, bunlar mənim itrətimdir".*[221]

**10. Ömər ibn Əbu Sələmənin rəvayəti**

Tirmizi Əta ibn Əbu Rəbahdan, o da Ömər ibn Əbu Sələmədən nəql edir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür)çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi Ümmü Sələmənin evində Peyğəmbərə (s) nazil olduqda Fatiməni, Həsəni və Hüseyni çağırdı. Əli onun arxasında dayanmışdı. Onların hamısının üzərini öz əbası ilə örtüb buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytimdir. Onlardan hər cür pisliyi uzaqlaşdır və onları pak-pakizə qərar ver". Bu vaxt Ümmü Sələmə dedi: "Ey Peyğəmbər, mən də onlarlayam?" Buyurdu: "Sən durduğun yerdə dayan. Sən xeyir üzərindəsən".*[222]

Albani deyir: *"Hədisin sənədi səhihdir".*[223]

**11. Əbu Həmranın rəvayəti**

Təbəri özünün "Təfsir"ində Əbu Həmranın rəvayətini qeyd edir: *"Dedi: "Peyğəmbər (s) zamanında yeddi ay Mədinədə qaldım. Sübh vaxtı Peyğəmbərin (s) Əli ilə Fatimənin qapısına yaxınlaşaraq "Namaz, namaz!* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi,***

---

[220] Tarixu Diməşq, c. 14, s. 147
[221] əl-Kamil, Abdullah ibn Ədiy, c. 6, s. 212; Tarixu Diməşq, c. 42, s. 368
[222] Sünən, Tirmizi, c. 5, s. 30
[223] Bax: "Sünən", Tirmizi, c. 5, s. 351

***günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *dediyini gördüm".*[224]

Həmçinin İbn Əsakir Əbu Həmradan rəvayət edir: *"Doqquz ay boyunca Peyğəmbərə (s) yoldaşlıq etdim. Sübh vaxtları Əlinin və Fatimənin qapısına gələrək deyirdi: "Allah sizə mərhəmət göstərsin!* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[225]

Bu rəvayətdən də göründüyü kimi, Peyğəmbər Əhli-Beytinin üzvlərinin kimliyini bəyan etmək, onlar barəsində hər hansı bir şəkk və yanlış düşüncənin qarşısını almaq məqsədilə səhabələri üçün bunu əyani icra etmiş və onların məxsusi olaraq Əli, Fatimə, Həsən və Hüseyn olduğunu bu əməli ilə göstərmişdir.

### 12. Həsən ibn Əlinin (ə) rəvayəti

İbn Əbu Hatəm və İbn Əsakir Əbu Cəmilədən nəql edirlər: "*Əli (Allah ondan razı olsun!) qətlə yetirildikdən sonra Həsən ibn Əli xəlifə seçildi. O, namaz qılarkən bir nəfər üzərinə atılaraq onu xəncərlə yaraladı. Həsin deyir ki, ona çatan xəbərə görə, həmin adam Bəni-Əsəd qəbiləsindən idi. Vurulan vaxt Həsən səcdə edirdi. Onun budundan yaralandığını da güman edirdilər.*

*Bir neçə ay xəstə yatdı. Sağaldıqdan sonra minbərə çıxıb buyurdu: "Ey İraq əhli, bizim barəmizdə Allahdan qorxun! Biz sizin əmirləriniz və qonaqlarınızıq. Biz Uca Allahın barələrində buyurduğu* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsindəki həmin Əhli-Beytik".*

*Deyir: "O, bunları söyləyərkən məsciddə kövrəlib ağlamayan kəs qalmadı".*[226]

---

[224] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 20, s. 264

[225] Tarixu Diməşq, İbn Əsakir, c. 142, s. 137

[226] Tarixu Diməşq, İbn Əsakir, c. 33, s. 268. Həmçinin bunu İbn Kəsir öz "Təfsir"ində İbn Əbu Hatəmdən nəql edir. c. 6, s. 416

### 13. Əli ibn Hüseynin (ə) rəvayəti

İbn Kəsir "Təfsir"ində deyir: *"əs-Suddi Əbu Deyləmdən nəql edir: "Əli ibn Hüseyn şamlı bir kişiyə dedi: "Quranda "əl-Əhzab" surəsində* ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsini oxumusanmı?" Kişi dedi: "Bəli, oxumuşam. Yoxsa... siz həmin şəxslərsiniz?" Əli ibn Hüseyn "Bəli" – deyə cavab verdi".*[227]

### İkinci cəhət: Əhli-Beytin "Kisa" əhli ilə məhdudlaşması

Təqdim olunan rəvayətlərdə qeyd edildiyi kimi, Əhli-Beytin "Təthir" ayəsindəki şəxslərlə məhdudlaşdığını bir neçə məsələ ilə də anlamaq mümkündür:

### Birinci: Ayənin "Kisa" əhlinə həsr olunması

Qeyd edilən rəvayətlər aşkar və birbaşa şəkildə Əhli-Beytin məxsusi olaraq Peyğəmbəri (s), Əlini, Fatiməni, Həsəni və Hüseyni (Onlara Allahın salamı olsun!) ehtiva etməsinə dəlalət edir. Bunlar "Kisa" əhli kimi məşhurdur. Peyğəmbərimiz (s) bu vahid mənaya müxtəlif kəlmələrlə işarə etmişdir. Gah *"İlahi, mənim əhlim bunlardır"*, gah "*Ey Rəbbim, bunlar mənim əhlim və Əhli-Beytimdir"* kimi kəlmələrlə eyni mənaya təkid etmişdir.

Bir neçə nöqtəyə toxunmaqla bunlara nəzər salmaq olar:

**Birinci:** Ayənin məxsusi olaraq "Kisa" əhlinə şamil olmasına dəlalət edən kəlmə və cümlələrdən istifadə edilməsi.

**İkinci:** Onları əbasının (kisanın) altına toplaması. Bununla da ayədəki Əhli-Beyt məfhumuna onlardan başqa heç kəsin daxil olmadığını göstərmiş və yalnız onlarla məhdudlaşdırmışdır.

**Üçüncü:** Ayənin məhz onlara şamil olduğunu göstərən hərəkətlər: rəvayətlərdəki fərqliliyə görə altı və ya yeddi ay boyunca Fatimə ilə Əlinin

---

[227] Təfsirul-Quranil-əzim, İbn Kəsir, c. 6, s. 416

qapısının qarşısına gəlmək; orada dayanmaq; "əhli-beyt" kəlməsindən istifadə etməklə bir çox səhih rəvayətlərdə oxuduğumuz kimi, onlara *"Salam olsun sizə, ey Əhli-Beyt!"* deyərək salam vermək; bu yolla ümmətə Əhli-Beytinin paklaşdırılmış şəxslərini təbliğ etmək. Xüsusilə, burada ilahi iradənin də növü bəyan edilmiş olur.

**İkinci: Ayənin Peyğəmbər (s) zövcələrinə şamil olmaması**

Rəvayətlər açıq şəkildə Peyğəmbərin (s) zövcələrinin bu ayənin əhatəsinə daxil olmadığını göstərir. Belə ki:

**Birinci:** Peyğəmbər (s) onlardan heç birinin əbasının altına girməsinə izn vermədi. Halbuki onlar bunu istəyirdilər. Ümmü Sələmə içəri daxil olmaq istərkən Peyğəmbər (s) ona izn verməmiş və yerində qalmasını işarə edərək *"Sən xeyir üzərindəsən"* – buyurmuşdu.

**İkinci:** Əgər Peyğəmbər (s) Əhli-Beyt kəlməsinin həmçinin onun zövcələrinə və qohumlarına da şamil olduğunu bildirmək istəsəydi *"İlahi, bunlar mənim Əhli-Beytimdəndirlər"* – deməliydi. Halbuki bunu söyləməmişdir. Əksinə, sözü yalnız onlara aid edərək *"İlahi, mənim Əhli-Beytim bunlardır"* – deyə buyurmuşdu.

Əhli-Beyt kəlməsinin Peyğəmbər (s) zövcələrinə şamil olmayacağına iki nüans da dəlalət edər:

**Birinci nüans: Zövcələrindən heç biri belə bir iddia irəli sürməmişdir**

Qarşı tərəfdən belə bir fikir səsləndirildiyi halda, Peyğəmbər (s) zövcələrinin özləri həmin ayənin onlar barədə nazil olduğunu iddia etməmişlər. Xüsusilə də, onlardan bəzisi iştirak etdiyi hərbi və ya siyasi zaman çərçivəsində insanların rəyini özlərinə tərəf cəzb etmək və düşmənlərinə qalib gəlmək üçün belə bir əzəmətli məqama sahib olduqlarını bəyan edə bilərdilər. Lakin, əksinə, bəzilərindən bu ayənin

xüsusi olaraq məhz "Kisa" əhli barədə nazil olduğu nəql edilir. Necə ki, əvvəldə bunu Ümmü Sələmə və Aişədən nəql etdiyimiz rəvayətlərdə gördük. Bunlardan əlavə, Aişə özü etiraf etmişdir ki, onun barəsində Quranda "üzr"[228] ayəsindən başqa bir ayə nazil olmamışdır.

Buxari öz "Səhih"ində Yusif ibn Mahikə istinadən yazır: *"Mərvan Müaviyə tərəfindən vali olaraq Mədinəyə təyin edilmişdi. Bir gün Müaviyənin tapşırığına əsasən xütbə söyləməyə başladı. Söylədiyi xütbədə Yezid ibn Müaviyəni qeyd edir və atasından sonrakı xəlifə olaraq onun üçün beyət almağa çalışırdı. Əbdürrəhman ibn Əbu Bəkr ona qarşı bəzi şeylər söylədi. Mərvan "Onu yaxalayın!" deyərək göstəriş verdi. Əbdürrəhman (bacısı) Aişənin evinə girdi. Lakin məmurlar içəri daxil ola bilmədilər. Bunu görən Mərvan dedi: "Həqiqətən də bu, barəsində* ***"Ata-anasına: "Tfu sizə! Məndən əvvəl neçə-neçə nəsillər gəlib-getdiyi (öləndən sonra dirilmədiyi) halda, siz mənə (qiyamət günü dirildilib qəbirdən) çıxarılacağımımı vəd edirsiniz?!" -deyən kimsəyə, (valideynləri) Allahdan mədəd diləyərək: "Vay halına! (Ay yazıq) inan, Allahın vədi haqdır!" -deyərlər. O isə: "Bu (dedikləriniz) qədimlərin əfsanələrindən (yalan sözlərdən) başqa bir şey deyil!" -deyə cavab verər"***[229] *ayəsi nazil olmuş kəsdir.*

*Bunu eşidən Aişə pərdə arxasından səsləndi: "Həqiqətən, Allah bizim barəmizdə "böhtan" ayəsindən savayı heç nə nazil etməmişdir".*[230]

Belə olduğu halda, "Təthir" ayəsinin "Kisa" əhlindən başqasına şamil olduğunu iddia etmək təəccüb doğurur. Ayənin zövcələr barədə nazil olması sübuta yetməyib. Bunu onların özləri də aşkar surətdə inkar edirlər. Əgər azacıq da olsa zövcələrə aidiyyatı olsaydı, bu zaman onlar rahatlıqla iddia irəli sürərdilər (Məkkə əhli öz camaatını yaxşı tanıyır).

---

[228] Nur, 11-13
[229] Əhqaf, 17
[230] Səhih, Buxari, c. 6, s. 42

**İkinci nüans: Rəvayətlər "Təthir" ayəsinin müstəqilliyinə dəlalət edir**

Rəvayətlərin bu ayəni məxsusi olaraq "Kisa" əhlinə aid etməsi həmin cümlənin Peyğəmbər (s) zövcələri barədə nazil olmuş əvvəlki və sonrakı ayələrdən, həm də 33-cü ayədən asılı olmadan müstəqil məna daşıdığına dəlildir.

Əlavə olaraq, bu hissə digər ayələrdən həm zaman, həm məkan və həm də kəlmə cəhətdən fərqlə nazil olub. Belə ki, həmin kəlmələrdə Əhli-Beytə mədh, tərif və təzim, dua, həmçinin pisliklərdən uzaqlaşdırıldıqları barədə xəbər var. Halbuki Peyğəmbər (s) zövcələri ilə bağlı olan əvvəlki və sonrakı ayələrdə xitablar müxtəlifdir. Bir yerdə xəbərdarlıq, digər yerdə Allahın və Elçisinin əmrlərinə qarşı çıxdıqları halda təhdid var. Bu isə "Təthir" ayəsinin nazil olma şəninin digər ayələrdən fərqli olduğuna dəlildir. Buna əsasən, eyni ayə ardıcıllığını və nüzul şənini dəlil gətirən şəxs qeyd etdiyimiz rəvayətlərdəki məsələlərdən qafildir.

**İkinci mövzu: İhsan Zahirin Buxarinin "Səhih"indəki rəvayəti dəlil göstərməsi**

İhsan İlahi Zahir deyir: **"Hədisdə deyilir: "Peyğəmbər (s) Aişənin (r) otağına daxil olub dedi: "Allahın salamı və rəhməti olsun sizə, ey əhli-beyt!" Aişə dedi: "Sənə də Allahın salamı və rəhmət olsun!"**[231]

İhsan Zahirin qeyd etdiyi bu rəvayət Buxarinin "Səhih"ində nəql olunub. *"Ənəsdən rəvayət edilir ki, Peyğəmbər (s) Zeynəb bint Cəhşlə evləndiyi gün çörək və ətlə ziyafət verdi. Məni də camaatı dəvət etmək üçün göndərdi. Bir dəstə qonaq gəlir, yemək yeyib və gedirdilər. Sonra başqa bir dəstə gəlir, onlar da yeyir və gedirdilər. Mən çağıracaq bir kəs tapa bilməyənə qədər*

[231] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 21

*camaatı ziyafətə dəvət etdim. Dedim: "Ey Peyğəmbər, artıq dəvət ediləcək bir kəs qalmadı".*

*Peyğəmbər (s) buyurdu: "Yeməkləri süfrədən toplayın". Bu vaxt üç dəstə adam yeməkdən sonra hələ də evdə oturmuş və söhbət edirdilər. Peyğəmbər (s) çölə çıxıb Aişənin otağına getdi, içəri girib: "Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun ey əhli-beyt!" – dedi.*

*Aişə: "Sənə də Allahın salamı və rəhmət olsun! Əhlini necə görürsən? Allah Sənə mübarək eləsin!" – dedi.*

*Peyğəmbər (s) bundan sonra bir-bir zövcələrinin evini gəzir və onlara Aişəyə söylədiyi sözlərin bənzərini deyir, onlar da Peyğəmbərə (s) Aişənin verdiyi cavab kimi cavablar verirdilər..."*[232]

**Müzakirə**

**Birinci: Rəqibə qarşı onun hədis mənbəyində olmayan rəvayəti dəlil göstərmək olmaz**

Bu rəvayəti şiələrə dəlil göstərmək düzgün deyil. Hədis Buxarinin "Səhih"indən dəlil olaraq göstərilir. "Səhih" isə əhli-sünnənin hədis mənbəyidir. Göstərdiyi bu dəlil İhsan Zahirin yalnız şiə mənbələrinin mötəbər hədislərinə istinad etdiyi iddiasına ziddir. Halbuki öz alimlərinin də iqrarına əsasən, qarşı tərəfə yalnız öz kitablarından dəlil göstərmək olar. Necə ki, bunu İbn Həzm özünün "əl-Faslu fil-miləl vəl-əhva" kitabında da qeyd edir: *"Onlara öz rəvayətlərimizi dəlil göstərməyin mənası yoxdur. Çünki onlar bizim rəvayətləri təsdiqləmirlər. Həmçinin onların da bizə qarşı öz kitablarının dəlillərini sübut kimi göstərmələri yolverilməzdir. Çünki biz də onları təsdiq etmirik. Rəqiblər bir-birlərinə qarşı özlərində dəlil sayılan və təsdiqlənən dəlilləri təqdim etməlidir. İstər dəlili təqdim edən şəxs özü onu*

---

[232] Səhih, Buxari, c. 4, s. 1873, hədis 2408

*təsdiq etsin, istər etməsin. Belə ki, bir şeyi təsdiqləyən şəxs ona tabe olmalı və ya zəruri elmin verdiyi nəticəni təsdiqləməlidir. Bununla da rəqib etimad etdiyi dəlillərlə susdurulmuş olacaq..."*[233]

**İkinci: Bu rəvayətdəki əlavə "Səhih"dəki digər rəvayətlərdə yoxdur**

Peyğəmbərin (s) Zeynəblə evlilik günündə baş verən bu hadisəni Buxari Ənəs ibn Malikdən başqa sənədlə də rəvayət etmişdir. Lakin həmin rəvayətdə *"Allahın salamı, rəhməti və bərəkəti üzərinizə olsun, ey əhli-beyt!"* cümləsi yoxdur. Həmin rəvayətlərdən birinə nəzər salaq:

*"Ənəsdən nəql olunur: "Peyğəmbər (s) Zeynəb bint Cəhşlə evləndiyi zaman camaata çörək və et ziyafəti verdi. Sonra hər evlilik səhəri etdiyi kimi, möminlərin analarının (zövcələrinin) evlərini gəzib onlara salam verdi və dua etdi, zövcələri də ona salam verib dua etdilər. Peyğəmbər (s) evinə qayıtdığı zaman qonaqlardan iki nəfərin hələ də getmədiyini gördü. O iki nəfər söhbətə dalmışdılar. Peyğəmbər onları bu halda görüb evindən çölə çıxdı. Bu vaxt həmin adamlar Peyğəmbərin (s) çıxdığını görüb tez yerlərindən qalxdılar. O iki nəfərin otaqdan çıxdıqlarını Peyğəmbərə (s) mən xəbər verdim, yoxsa başqası, bunu bilmirəm. Peyğəmbər (s) bundan sonra evinə qayıtdı, içəri girib mənimlə özü arasına qapının pərdəsini çəkdi. Bu vaxt "Hicab" ayəsi nazil edildi".*[234]

Ənəs ibn Malik bu rəvayətində digər rəvayətdə söylədiyi cümlələri demədi. Bu isə həmin əlavənin Peyğəmbər (s) tərəfindən olub-olmadığına şəkk yaradır. Həmin əlavə barədə şəkki artıran digər amil isə Buxarinin bir çox rəvayətləri məna və kəlmə fərqliliyi ilə nəql etməsinin məşhur olmasıdır.

---

[233] əl-Faslu fil-miləl vəl-əhva, İbn Həzm Əndəlusi Zahiri, c. 4, s. 78

[234] Səhih, Buxari, c. 6, s. 26

Zəhəbi özünün "Siyəru əlamin-nübəla" kitabında deyir: *"Buxaranın valisi Üheyd ibn Əbu Cəfər deyir ki, bir gün Muhəmməd ibn İsmayıl (Buxari) dedi: "Bir çox hədis var ki, Bəsrədə eşitmiş, Şamda isə kitabıma yazmışam, həmçinin nə qədər hədis də var ki, Şamda eşitmiş, amma Bəsrədə yazmışam". Ona dedim: "Ey Əbu Abdullah, tam kamil vəziyyətdə yazmısan?" Muhəmməd ibn İsmayıl susdu".*[235]

Şüeyb Arnavut bunun haşiyəsində yazır: *"Məna budur ki, Müslimdən fərqli olaraq, Buxari hədisin yalnız mənasını nəql etməyi, kəlmələrini heç bir qeyd bildirmədən azaltmağı icazəli bilirdi. Səbəb isə Buxarinin öz kitabını səfəri boyunca yazmasıdır. Buna görə də bəzi hədisləri öz yaddaşında saxlamaqla sonradan kitaba yazır, bu zaman kəlmələrinin tamlığını qorumurdu. Əksinə, hədisə öz sözləri ilə məna verirdi.*

*Ancaq Müslim öz kitabını həmin şəhərdə, şeyxlərinin hüzurunda, qeyd edilən ardıcıllığı və kəlmələri qorumaqla yazırdı. Buxari isə hədislərdən fiqhi dəlilləri çıxarır, müxtəlif hökmlərə aid olan hədisləri kəsərək müvafiq fəsillərdə toplayırdı.*

*Müslim belə bir üslubdan istifadə etmədi. Hədisləri həmin fəsildə bütövlükdə, eyni mövzu ətrafında cəmlədi".*[236]

Bunu Bağdadi "Tarixu Bağdad"[237] kitabında, İbn Həcər Əsqəlani "Fəthul-bari"[238] kitabının müqəddiməsində, həmçinin İbn Əsakir də "Tarixu mədinəti Diməşq"[239] və Mizzi "Təhzibul-kəmal"[240] kitabında da qeyd edirlər.

Qeyd edək ki, hadisəni Müslim və digərləri həmin cümləsiz öz kitablarında qeyd ediblər. Əksinə, həmin rəvayətlərdən də anlaşıldığına

---

[235] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 12, s. 412

[236] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 12, s. 412. Haşiyə, rəqəm 5

[237] Tarixu Bağdad, Bağdadi, c. 2, s. 11

[238] Müqəddimətu fəthil-bari, İbn Həcər, s. 488

[239] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 52, s. 65

[240] Təhzibul-kəmal, Mizzi, c. 24, s. 446

görə, Ənəs bu hadisədə heç də Peyğəmbərin (s) sözlərini nəql etməyib, hətta hadisənin nəqlində də tərəddüdə yol verib. Hədisdə deyilir: *"Peyğəmbər otaqdan çıxdı, mən də onun ardınca getdim. Peyğəmbər (s) zövcələrinin evlərini gəzir, onları salamlayır, onlar isə deyirdilər: "Ey Peyğəmbər, əhlini necə görürsən?" Ənəs deyir: "Bilmədim mən Peyğəmbərə (s) evdəki qonaqların artıq çıxdıqlarını xəbər verdim, yoxsa mənə xəbər verdilər..."*[241]

Ənəsin bu sözünə diqqət yetirin: *"Bilmədim mən Peyğəmbərə (s) evdəki qonaqların artıq çıxdıqlarını xəbər verdim, yoxsa mənə xəbər verdilər..."* Bu cümlə Ənəsin oradakı sözləri bütünlüklə xatırlamadığına dəlildir. Bundan əlavə, Buxari də kəlmələri deyil, mənanı nəql edir. Eləcə də həmin kitabdakı fərqli fəsillərdə eyni hədisin kəlmələrində fərqliliklər də mövcuddur. Bəs belə bir fərqliliklərin Peyğəmbərin (s) sözlərində hasil olduğuna necə inam yarana bilər?! Bütün bunlara rəğmən həmin rəvayəti ayənin Peyğəmbər (s) zövcələrinə şamil edilməsinə dəlil göstərmək olarmı?!

**Üçüncü: Rəvayətlərdə "əhli-beyt" kəlməsinin lüğət mənasında istifadə edilməsi**

Doğruluğu fərz edilsə, Buxarinin əvvəldə qeyd etdiyimiz rəvayətindəki əhli-beytdə məqsəd kəlmənin lüğəti mənasıdır. Necə ki, bunu bəhsin başlanğıcında lüğət alimlərinin sözlərini nəql edərkən vurğuladıq: *"əhli-beyt – yəni onun sakinləri"*[242]. Peyğəmbər (s) "Kisa" hədisi ilə xüsusiləşdirdiyi "Əhli-Beyt" termininin əhatəsini göstərib. Belə ki, orada *"İlahi, bunlar mənim Əhli-Beytimdir"* deyərək terminoloji mənanın sərhədini bəyan etmişdi. Lakin Buxarinin hədisində məqsəd onun lüğəti

---

[241] Səhih, Buxari, c. 6, s. 26; "Səhih", Müslim, c. 4, s. 149

[242] əl-Eyn, Əhməd ibn Xəlil Fərahidi, c. 4, s. 89; Möcəmu məqayisil-lüğəti, Əbülhüseyn Əhməd ibn Faris Zəkəriyyə, c. 1, s. 150

mənasıdır ki, bu da ümumi məna kəsb edir və xüsusi olaraq müəyyən şəxsə şamil edilmir. Yəni ev sakinlərinə və orada olanlara xitab edir. Bunlar Peyğəmbərin (s) həmin sözü söylədiyinin sübuta yetməsi fərz edildikdə deyilə bilər.

### Dördüncü: Əhli-Beytdə məqsədin "Kisa" əhli olduğu isbatlanıb

Sonda demək olar ki, bu iki xəbər (zövcələrə salam verilərkən Əhli-Beytin lüğəti mənada istifadəsi və səhihliyində müsəlmanların[243] həmfikir olduqları, Əhli-Beyt kəlməsinin yanız "Kisa" əhli ilə məhdudlaşması) arasında dəlalət və məna baxımından ziddiyyət var. Üsul elminin qaydalarına əsasən, dəlalət və səlahiyyət baxımından ən güclü olan əsas götürülməlidir.

Biz burada iki məsələ arasında qalırıq. Ya sənədi səhih və dəlaləti qəti olan "Kisa" hədislərini kənara atmalı və onunla zidiyyət təşkil edən sənədi və dəlaləti qəti olmayan hədisi götürməliyik; səbəb isə bunu lüğəti mənaya şamil etməyin mümkünlüyüdür. Ya da sənədi və dəlaləti qəti olmayan rəvayəti kənara ataraq "Kisa" hədislərini əsas götürməliyik. Bu birincisi, ikincisi isə hər ikisini də kənara atmalıyıq. Lakin ziddiyyət babının qaydalarına əsasən, biz sənəd və dəlalət baxımından daha güclü olduğu üçün "Kisa" hədislərini əsas götürməliyik.

---

[243] Hətta Əhli-Beytə (ə) qarşı inad və qərəzilə məşhur olan İbn Teymiyyə deyir: ""Kisa" hədisi səhihdir. Əhməd ibn Hənbəl və Tirmizi onu Ümmü Sələmədən nəql ediblər. Həmçinin Müslim "Səhih"də Aişədən nəql edir: "Bir gün Peyğəmbər (s) səhər tezdən qara tüklərdən toxunmuş əba ilə çölə çıxdı. Həsən ibn Əli yanına gəldi. Peyğəmbər (s) onu əbası ilə örtdü. Ardınca Hüseyn, sonra Fatimə, sonra da Əli gəldi. Onları da əbasının altına aldı və buyurdu: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"[243]*** (İbn Teymiyyə, Minhacus-sünnə, c. 5, s. 13)

İbn Həcər deyir: "Səhihdir ki, Peyğəmbər onların üzərinə əbasını örtmüş və "İlahi, bunlar mənim Əhli-Beytim və mənə aid olanlardır. Onlardan bütün pislikləri uzaqlaşdır və pak-pakiz qərar ver" buyurmuşdu. Ümmü Sələmə bu zaman "Mən də onlardanammı?" deyə soruşduqda Peyğəmbər (s) "Sən xeyir üzərindəsən" deyə cavab vermişdi". (İbn Həcər Əsqəlani (bu, Heytəmidir),əs-səvaiqul-muhriqə, s. 85)

Bu əməliyyata əsasən, Əhli-Beytdəki məqsədin xüsusi olaraq "Kisa" əhli olduğu isbatlanır. Buxarinin nəql etdiyi hədis nə sənəd, nə də dəlalət baxımından bu hədislərlə müqayisəyə gələ bilmir.

**Üçüncü mövzu: "Təthir" ayəsinin Peyğəmbər (s) zövcələri barədə nazil olduğu iddiası**

İhsan İlahi Zahir deyir: **"İbn Əbu Hatəm və İbn Əsakir İkrimənin rəvayətinə, İbn Mərduveyh Səid ibn Cübeyrin İbn Abbasdan nəql etdiyi rəvayətə əsasən deyirlər: "Bu ayə yalnız Peyğəmbər (s) zövcələri barədə nazil olub".**[244]

**Müzakirə**

Bu iki rəvayətin dəlalətinə iradlarımız:

**Birinci: Şiəyə rəddiyə üslubuna zidd olması**

Belə ki, yalnız şiə hədislərindən dəlil göstərəcəyini desə də, bu iki rəvayət (İbn Əsakir və İbn Mərduveyhin rəvayətləri) əhli-sünnə kitablarından nəql olunur.

**İkinci: Bu rəvaytlərin "Kisa" hədisi ilə ziddiyyət təşkil etməsi**

Bu iki rəvayət müsəlman alimlərinin də etirafına əsasən, səhihliyi isbat olunmuş "Kisa" hədisi ilə ziddiyyət təşkil edir. Bu barədə əvvəldə geniş bəhs etdik.

---

[244] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 20

**Üçüncü: Rəvayətlərin Peyğəmbərə (s) istinadının sübuta yetməməsi**

Bu iki rəvayətin hər ikisi İbn Abbasa istinad edilir. Lakin İbn Abbas bunun Peyğəmbərin (s) buyurduğunu demir. Belə olduqda, hər iki rəvayət İbn Abbasın şəxsi rəyi olur. Bu isə açıq və qəti dəlil qarşısında ictihad deməkdir. İbn Abbasın özündən səhih sənədlə ayənin "Kisa" əhli barədə nazil olduğu rəvayət olunur. Bu zaman həmin "ictihad" etibardan düşür. Eləcə də, İbn Abbasın belə bir rəyi ilə Peyğəmbərdən (s) nəql etdiyi açıq və qəti dəlalətli hədisə müxalif çıxacağı ağlabatan deyil. Həmin rəyin İbn Abbasa istinad edilməsi məntiqdən kənar görünür.

**Dördüncü: Peyğəmbər (s) zövcələrindən heç birinin bu ayənin onların barəsində nazil olduğunu iddia etməməsi**

Peyğəmbər (s) zövcələrindən heç biri bu ayənin xüsusi olaraq onlar barədə nazil olduğunu və ya onlara da şamil ola biləcəyini iddia etməmiş, heç birindən bu barədə rəvayət nəql olunmamışdır. Xanım Aişənin Peyğəmbər (s) zövcələrinin fəzilət və üstün keyfiyyətlərini bəyan etmək məsələsində necə həssas olduğu məlumdur. Ancaq bunun əksini görürük. O və xanım Ümmü Sələmə sünni alimlərinin nəzərində də səhih və mötəbər sayılan hədislərlə bu ayənin yalnız "Kisa" əhlinə şamil olduğunu bəyan etmişlər. Necə ki, bunu əvvəldə geniş izah etdik. Eləcə də Aişənin Qurani-Kərimdə onlar barədə "böhtan"[245] ayəsindən savayı heç bir ayənin nazil olmadığını açıq şəkildə bəyan etdiyini Buxarinin rəvayət etdiyi hədisdə oxuduq.[246]

Əgər "Təthir" ayəsi onların barəsində nazil olsaydı, bu zaman o, "mənim barəmdə "Təthir" və "Böhtan" ayəsindən savayı Quranda heç bir ayə nazil olmamışdır" deyərdi. Lakin o, bir ayəni qeyd etməklə digərlərini inkar

[245] Nur, 11-13

[246] Səhih, Buxari, c. 6, s. 42

etmiş oldu. Məgər İhsan Zahir Aişədən daha məlumatlı və daha anlayışlıdır?!

**Beşinci: Sənədlərdəki zəiflik**

Hər iki rəvayətin sənədində qüsurlar var. Xüsusilə də Səidin İbn Abbasdan nəql etdiyi hədisdə. Bu, aşağıdakılardan aydın olur:

**Birinci rəvayət: Səid ibn Cübeyrin İbn Abbasdan nəql etdiyi rəvayət**

İhsan Zahir bu rəvayəti urdu dilində yazılmış İslam ensiklopediyasında şərqşünas A.S.Srittonun məqaləsinə əsasən İbn Mərduveyhə nisbət verir. Oxucu diqqət yetirməlidir ki, qarşı tərəfin mötəbər mənbələrindən dəlil gətirmək əvəzinə İhsan Zahir bu və bu kimi mənbələrə müraciət etməklə özünün elmi bəhs səviyyəsinin nə qədər aşağı olduğunu bir daha büruzə vermiş olur. Həqiqətləri təhrif edən bu cür "şərqşünas" İslam düşmənlərinin mənbələrinə müraciət edərək İslamda olmayan fikirləri dinimizə nisbət verməkdən çəkinmir, fitnələrin alovlanmasına və vahid İslam ümməti arasında təfriqə ruhunun yayılmasına çalışır.

Əgər Süyutinin öz "Təfsir"ində İbn Mərduveyhə, onun da Səid ibn Cübeyrə[247] istinad etdiyi rəvayəti nəzərdə tutubsa, həmin rəvayət mürsəldir. Səid ibn Cübeyrə qədər olan şəxslərin adları qeyd edilməyib. Çünki ondan nəql edənlərin kimliyi naməlumdur, Süyuti və digərləri onların adlarını qeyd etməmişlər.

Əgər Vahidinin "Əsbabun-nuzul" kitabında qeyd etdiyi rəvayət nəzərdə tutularsa, onun sənədi belədir: "Əbulqasim Əbdürrəhman ibn Muhəmməd Sərrac Muhəmməd ibn Yaqubdan, o da Həsən ibn Əli ibn Əffandan, o da

[247] Bax: əd-Durrul-mənsur, Süyuti, c. 5, s. 198. Orada deyilir: "İbn Mərduveyh Səid ibn Cübeyr yolu ilə İbn Abbasdan nəql edir: "Ayə Peyğəmbərin (s) zövcələri barədə nazil olub".

Əbu Yəhya Həmanidən, o da Saleh ibn Musa Qüreyşidən, o da Xasifdən, o da Səid ibn Cübeyrdən, o da İbn Abbasdan belə dediyini nəql edir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi Peyğəmbərin (s) zövcələri barədə nazil olub".*[248]

Bu rəvayətin sənədi zəifdir. Belə ki, onların arasında ricala əsasən zəif və qüsurlu ravilər var. Bunlar:

**1. Saleh ibn Musa Qüreyşi**

O, Təlhidir, İbn Muin onun barəsində deyir: *"Onun hədisləri əhəmiyyətsizdir".*[249] İsfahani deyir: *"Saleh ibn Musa Təlhi Kufədəndir. Əbdülməlik ibn Ümeyrdən və başqalarından yalan hədislər rəvayət edir. Hədisləri tərk edilir".*[250] Buxari "əz-Zuəfaus-sağir" kitabında deyir: *"Hədisləri inkar edilir".*[251] Nisai deyir: *"Saleh ibn Musa Təlhinin hədisləri tərk olunur".*[252] İbn Həcər Əsqəlani bəzi rəvayətlərin zəifliyini qeyd edərkən deyir: *"Saleh ibn Musa Təlhi, zəifdir".*[253] İbn Həcər Heysəmi deyir: *"Saleh ibn Musa Təlhinin hədisləri inkar olunur".*[254] Həmçinin deyir: *"Saleh ibn Musa Təlhi, zəifdir".*[255] İbn Hibban deyir: *"Onunla dəlil gətirmək caiz (icazəli) deyil".*[256] Mizzi deyir: *"Saleh ibn Musa və İshaq ibn Musa əhəmiyyətsizdirlər və hədisləri qeyd edilmir".*[257] İbn Həcər deyir: *"Musanın oğulları Saleh və İshaq əhəmiyyətsizdirlər və hədisləri qeyd edilmir. Haşim ibn Mursəd İbn*

---

[248] Əsbabun-nuzul, Vahidi, s. 239

[249] Tarixu İbn Muin, Duri, c. 1, s. 166

[250] Kitabuz-zuəfa, Əbu Nəim İsfahani, s. 93

[251] əz-Zuəfaus-sağir, Buxari, s. 62; "ət-Tarixul-kəbir"də də bunu qeyd edir. c. 4, s. 291. Həmçinin "ət-Tarixus-sağir"də. c. 2, s. 182

[252] Kitabuz-zuəfa vəl-mətrukin, Nisai, s. 194

[253] əd-Dirayətu fi təxrici əhadisil-hidayə", İbn Həcər Əsqəlani, c. 1, s. 273

[254] Məcməuz-zəvaid, c. 1, s. 291

[255] Məcməuz-zəvaid, Heysəmi, c. 2, s. 280

[256] Kitabul-məcruhin, İbn Hibban, c. 1, s. 369

[257] Təhzibul-kəmal, Mizzi, c. 13, s. 96

*Muindən nəql edir: "Siqə (inanılan şəxs) deyillər. Cüzcani deyir: "Hədisləri zəifdir. İbn Əbu Hatəm atasından nəql edir: "Hədisləri zəifdi və şiddətlə inkar olunur".*[258] Zəhəbi deyir: *"Höccət (dəlil) deyillər".*[259] Həmçinin deyir: *"Əhəmiyyətsizdir".*[260]

## 2. Xasif ibn Əbdürrəhman

O (Xasif ibn Əbdürrəhman Cəzri), Osman ibn Əffanın köləsi olub. Müaviyə ibn Əbu Süfyanın köləsi olduğu da deyilib. Əhməd ibn Hənbəl onun barəsində deyir: *"Xasifin hədisləri güclü deyil".*[261] İbn Həcər Əsqəlani onun barəsində deyir: *"Əbu Talib Əhməddən nəql edir: "Hədisləri zəifdir". Onun barəsində Hənbəl deyir: "Höccət (dəlil) deyil və hədisdə güclü ravi deyil". Abdullah ibn Əhməd atasından nəql edir: "Hədisdə güclü deyil". Atam deyir: "Xasif çox qarışıq kəsdir".*[262] İbn Əbu Hatəm Razi deyir: *"Əbdürrəhman Saleh ibn Əhməddən, o da Əlidən (İbn Mədinidən) bizə nəql edir: "Yəhya ibn Səidin belə dediyini eşitdim: "Həmin vaxtlarda Xasifin hədislərindən çəkinirdik. Küfədə olarkən ondan heç bir hədis yazmadım. Onun hədislərini son zamanlar yazıram. Yəhya Xasifi zəif bilir. Əbdürrəhman Muhəmməd ibn Həməveyh ibn Həsəndən Əbu Talibin belə dediyini nəql edir: Əbu Abdullah (yəni Əhməd ibn Hənbəl) deyir: "Xasif Cəzrinin hədisləri zəifdir".*[263] Mübarəkpuri bəzi rəvayətlərin zəifliyini qeyd edərkən deyir: *"Sənədində Xasif ibn Əbdürrəhman Hərani var. O, zəifdir".*[264] Əzim Abadi deyir: *"Əhməd onu zəif bilmişdir".*[265] Həmçinin bəzi rəvayətlərin zəifliyini qeyd edərkən

---

[258] Təhzibut-təhzib, İbn Həcər, c. 4, s. 354
[259] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 8, s. 180
[260] əl-Kaşif, Zəhəbi, c. 1, s. 499
[261] əl-İləl, Əhməd ibn Hənbəl, c. 2, s. 484
[262] Təhzibut-təhzib, İbn Həcər, c. 3, s. 124
[263] əl-Cərh vət-tədil, Razi, c. 3, s. 403
[264] Tuhfətul-əhvəzi, Mübarəkpuri, c. 3, s. 464
[265] Ovnul-məbud, Əzim Abadi, c. 3, s. 238

deyir: *"Sənədində Xasif var. O, Əbu Ovn Xasif ibn Əbdürrəhman Həranidir. İmamlardan bir çoxu onu zəif saymışdır".*[266]

**Nəticə**

Bu rəvayətlərin sənədi, xüsusilə zəifliyi barəsində hamının həmfikir olduğu Saleh ibn Musa Qüreyşi zəifdir.

**İkinci rəvayət: İkrimənin hədisi**

Bu rəvayəti İbn Kəsir İbn Əbu Hatəmdən İkrimə və İbn Abbasa istinadla nəql etmişdir. Həmçinin İbn Əsakir də bunu İkrimədə bitən sənədlə kitabında qeyd edib. Onun nəql etdiyi rəvayət barədə insanda şəkk yaradacaq fikirlər bildirilib. Buna "Təthir" ayəsinin ələlxüsus Peyğəmbər (s) zövcələrinə aid olduğu iddia edilən rəvayətlərə nəzər salarkən toxunduq.

Əlavə olaraq qeyd edək ki, mötəbər "Səhih" və "Müsnəd" hədis kitablarında, xüsusilə də "Kutubus-sittə"də onun nəql etdiyi hədislərdən çəkinərək yer verilməmişdir. Bu da onun rəvayətlərində nöqsan olduğuna işarə edir. Yoxsa, Peyğəmbər (s) zövcələrinin fəziləti barədə səhih və heç bir nöqsanı olmayan hədislər mövcud olduğu halda böyük hədis alimlərinin öz kitablarında onları qeyd etməməsini necə düşünmək olar?! Bu, olduqca qəribə sayılar.

**Bu iki rəvayət barədə son fikir**

İhsan Zahirin bu iki rəvayətə əsaslanması öz batil iddiasının isbatında mötəbər dəlil göstərmək cəhdinin iflasıdır. Bu metod hörümçək evindən daha zəifdir.

---

[266] Ovnul-məbud, Əzim Abadi, c. 4, s. 211

**Dördüncü mövzu: Ayənin Bəni-Haşimə şamil olması**

İhsan Zahir deyir: **"Bəzi rəvayətlərdə[267] isə Peyğəmbərin (s) Əhli-Beytinə bütün Bəni-Haşimin daxil olduğu qeyd edilir".[268]**

**Müzakirə**

Bu, olduqca əhəmiyyətsiz bir iddiadır. Ona bir neçə cəhətdən irad bildirmək mümkündür:

---

[267] Məqsəd Müslimin "Səhih"ində Zeyd ibn Ərqəmdən nəql olunan hədisdir. *"Yəzid ibn Həyyan deyir: "Mən, Həsin ibn Səbrə və Ömər ibn Müslim Zeyd ibn Ərqəmin yanına getdik. Onunla birlikdə əyləşdikdə Həsin ona dedi: "Ey Zeyd, sən bir çox xeyirlərə şahid olmusan, Peyğəmbəri görmüsən, hədislərini eşitmisən, onunla birgə savaşlarda iştirak etmisən, arxasında namaz qılmısan... Peyğəmbərdən (s) eşitdiklərindən bizə də danış".*

*Zeyd dedi: "Ey qardaşımın oğlu! Allaha and olsun, qocalmışam, yaşım ötüb, Peyğəmbərdən eşidib yadda saxladıqlarımın çoxunu unutmuşam. Sizə söyləyəcəyimi qəbul edin, danışmayacaqlarımı isə tələb etməyin. Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinə arasında Xum deyilən bir quyunun yanında bizim üçün xütbə söylədi. Allaha həmd və səna söylədikdən sonra moizəyə başladı, ardınca buyurdu: "Ey camaat, mən də bir bəşərəm, Rəbbimin elçisinin (ölüm mələyinin) gələcəyi və mənim də ona müsbət cavab verəcəyim gün ola bilsin ki, yaxındır. Sizin aranızda iki ağır əmanət qoyuram: Onlardan birincisi Allahın kitabıdır ki, onda hidayət və nur var. Allahın kitabını götürün və ondan bərk-bərk yapışın".*

Sonra bəzi sözlərlə insanları Allahın kitabına rəğbətləndirdi. Sonra buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram!"

Həsin dedi: "Ey Zeyd, Əhli-Beyti kimlərdir? Qadınları onun Əhli-Beyti deyilmi?" Zeyd dedi: "Bəli, qadınları evinin əhlindəndir. Lakin Əhli-Beyti özündən sonra sədəqənin haram buyurulduğu şəxslərdir". Həsin onların kim olduğunu soruşduqda Zeyd dedi: "Bunlar Əlinin ailəsi, Əqilin, Cəfərin və Abbasın ailələridir". Həsin dedi: "bütün bu şəxslərə sədəqə haramdır?" Zeyd "Bəli" – deyə cavab verdi". (Səhih, Müslim, c. 7, s. 123)

Yəzid ibn Həyyanın Zeyd ibn Ərqəmdən bu hadisəni nəql etdiyi başqa bir hədisdə isə deyilir: "...Bilin ki, mən sizin aranızda iki ağır əmanət qoyuram: Onlardan biri Allahın kitabıdır. O Allahın ipidir. Onu izləyənlər hidayətdə, tərk edənlər isə zəlalətdə olarlar... "Əhli-Beyti kimlərdir, qadınlarımı?" soruşduqda dedi: "Xeyr, Allaha and içirəm ki, qadın kişi ilə yalnız bir müddət olur. Sonra ondan ayrıldıqda atasının və qohumlarının evinə qayıdır. Onun Əhli-Beyti özündən sonra sədəqənin haram buyurulduğu kökü və nəslidir". (Səhih, Müslim, c. 7, s. 123)

[268] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 21

**Birinci cəhət: Bu hədis "Təthir" ayəsi ilə bağlı rəvayətləri təsdiqləyir**

Müslimin və başqalarının Zeyd ibn Ərqəmdən nəql etdikləri bu rəvayət aydın şəkildə zövcələrin Peyğəmbərin (s) Əhli-Beytindən sayılmadıqlarını isbatlayır. Bu, ayəni və ayənin təfsiri ilə bağlı qeyd edilən hədisləri bir daha gücləndirir. Belə ki, həmin hədislərdə Ümmü Sələmə Peyğəmbərdən (s) ayənin ona da şamil olub-olmadığını soruşur: *"Əbasının kənarlarından tutub onların üzərinə örtdü. Sonra əllərini səmaya tərəf tutub buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytim və mənə aid olan şəxslərdir. Onlardan pisliyi uzaqlaşdırıb, onları pak-pakizə qərar ver!" Ümmü Sələmə deyir ki, mən başımı qapıdan içəri salıb soruşdum: "Mən də sizinləyəmmi, ey Peyğəmbər?" Peyğəmbər (s) buyurdu: "Sən xeyirləsən, sən xeyirləsən".*[269] Digər bir rəvayətdə isə Peyğəmbər (s) ona buyurur: *"Dayan, Əhli-Beytimdən kənarda dur".*[270]

**İkinci cəhət: Rəvayətdə Zeydin öz rəyinin də olması**

Əhli-Beytin Bəni-Haşimi də ehtiva etdiyi Zeyd ibn Ərqəmin Peyğəmbərə (s) istinad etmədən söylədiyi şəxsi fikridir. Buradan da həmin sözlərin onun şəxsi ictihadı və rəyi olduğu anlaşılır. Bəzi əhli-sünnənin rəyinə əsasən, Kitab, sünnə və səhabələrin sözləri ilə ziddiyyət təşkil etmədiyi təqdirdə səhabə sözü höccət sayılır. Zeydin fikrinin dəlil olduğu fərz edilsə, bu zaman həmin fikir Əhli-Beytin "Kisa" əhli olduğu barədə Peyğəmbərdən (s) nəql edilən isbatlanmış hədislərlə ziddiyyət təşkil etdiyi üçün qüvvədən düşür.

Belə olduqda deyirik: "Bunlar İhsan Zahirə naməlum idi?! Yoxsa cahillik və müxaliflik səbəbindən bu qaydaları və icmanı görməzdən gəlib?!

---

[269] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 292; Təfsir, İbn Kəsir, c. 3, s. 492
[270] Təfsir, İbn Kəsir, c. 3, s. 493

### Üçüncü cəhət: İhsan Zahirin bəhs qaydalarına riayət etməməsi

Qəbul edilmiş bəhs qaydalarına əsasən, rəqibin qarşısına yalnız onun qəbul etdiyi dəlillər qoyulmalıdır. Bu hədislə bağlı məsələdə, biz yalnız Zeydin and içərək qəbul etdiyi rəvayəti dəlil hesab edirik. Həmin rəvayətdə isə Zeyd zövcələrin Peyğəmbər (s) Əhli-Beytindən olmadığına və Əhli-Beytdən möhkəm yapışmağın vacibliyinə and içir. Bundan artığını, yəni bütün Bəni-Haşimə şamil olduğunu isə qəbul etmirik. Çünki bu bizim üçün höccət deyil. Bununla bərabər, İhsan Zahir şiələrə yalnız öz kitablarından və hədislərindən, təsdiqlədikləri şeylərdən dəlil gətirməyi öz qarşısına şərt qoymuşdu.[271] Lakin vəziyyət bunun əksini göstərir. Bunu kitabımızın girişində **"İhsan Zahirin bəhs qaydalarına qarşı çıxması"** başlığı altında geniş izah etmişik. Oraya müraciət edin.

### Dördüncü cəhət: Zeydin rəvayətinin İhsan Zahirin iddiası ilə ziddiyyət təşkil etməsi

İhsan Zahirin bu rəvayətləri nəql edərək Əhli-Beytin bütün Bəni-Haşimi ehtiva etdiyini söyləməsi, bir az əvvəl Əhli-Beytin Peyğəmbər (s) zövcələrinə şamil olduğu iddiası ilə daban-dabana ziddir.[272] Çünki bu rəvayət zövcələrin kişinin əhli-beytindən olmadığını bildirir. Belə ki deyir: *"..."Əhli-Beyti kimlərdir, qadınlarımı?" soruşduqda dedi: "Xeyr, Allaha and içirəm ki, qadın kişi ilə yalnız bir müddət olur. Sonra ondan ayrıldıqda atasının və qohumlarının evinə qayıdır. Onun Əhli-Beyti özündən sonra*

---

[271] "Şiə və Əhli-Beyt" kitabının müqəddiməsində (s. 11) deyir: **"Necə ki, bütün bunları onların bir çox mötəbər kitablarından nəql etdik, isbatladıq, hətta hərflərin nöqtələrini belə onların kitablarına müvafiq qoyduq... Allaha şükürlər olsun ki, haqqı isbat və batili puç etmək, həqiqətin üzərindən örtüyü qaldırmaq üçün onların kitablarından başqa bir dənə də olsun fərqli kitaba, hədisə və ya tarixi qeydə əsaslanmadıq".**

[272] Bax: Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 21. **"Peyğəmbər (s) Əhli-Beyti dedikd əsl və həqiqi məqsəd onun zövcələridir. Buraya onun övladları, əmiləri, əmilərinin övladları da məcaz olaraq daxildir".**

*sədəqənin haram buyurulduğu kökü və nəslidir".*[273] Bu, Zeydin üzərinə and içərək söylədiyi sözlərdir.

Rəvayət şiənin deyil, əksinə İhsan Zahirin əleyhinə dəlildir, şiələrin Peyğəmbər (s) zövcələrinin həqiqətdə Əhli-Beytə daxil olmadığı iddiasına uyğundur.

**Beşinci cəhət: Zeydinin rəvayətinin "Səqaleyn" hədisi ilə ziddiyyəti**

Müslimin "Səhih"ində nəql etdiyi "Səqaleyn" hədisində deyilir: *"Sizin aranızda iki ağır əmanət qoyuram: Onlardan birincisi Allahın kitabıdır ki, onda hidayət və nur var. Allahın kitabını götürün və ondan bərk-bərk yapışın.*

*Və Əhli-Beytim. Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram!"*[274]

Bu rəvayət həmin hökmün bütün Bəni-Haşimə şamil ola bilməyəcəyini göstərir. Çünki burada Əhli-Beytdən yapışmaq və onların ardınca getmək var. Onlar zəlalətə düşməkdən amandadırlar və Kitabın bir parçasıdırlar. Lakin biz Bəni-Haşimdən itaəti edilməsi mümkün olmayan şəxsləri də görürük. Onlar əsla Quranın bir parçası hesab edilməzlər. Həmçinin zəlalətə düşməkdən də qorunmamışlar. Xüsusilə də qeyd edək ki, Zeyd ibn Ərqəmin rəvayətində məqsəd Əhli-Beytin təfsiri və ondan möhkəm yapışmaqdır. Bəni-Haşimin arasında müsəlmanların da icmasına əsasən, heç bir vəchlə nümunə götürülməyəcək şəxslər olduğu halda bütün Bəni-Haşimdən necə möhkəm yapışmaq olar?!!

**"Şiə" məfhumu barədə iddialar**

İhsan Zahirin həqiqi mənada Peyğəmbər (s) zövcələrinə, məcaz olaraq digərlərinə ciddi-cəhdlə tətbiq etməyə çalışdığı "Əhli-Beyt" kəlməsinin

---

[273] Səhih, Müslim, c. 7, s. 123

[274] Səhih, Müslim, c. 4, s. 1873, hədis 2408

lüğəti və terminoloji mənaları barədə söhbətimizi başa vurduqdan sonra onun "şiə" məfhumu və mənası ilə bağlı fikirlərinə nəzər yetirək. Öz məqsədini bəyan etmək üçün bir neçə rəy nəql etmiş, bu zaman isə lüğət, şiə və sünni alimlərinin fikirlərində xətalara yol vermişdir. Ardınca şiələrin "şiə" kəlməsinin məfhumu barədə nəzərlərində ziddiyyətlərin olduğunu iddia etmişdir. **"Bəziləri onların Əli və övladlarının ardıcılları olduğunu iddia etmişlər. Məsələn, Seyyid Əmir Kazım Qəzvininin "əş-Şiətu fi əqaidihim və əhkamihim" kitabında dediyi kimi: "Şiə – lüğət mənasında bir kəsin ardıcılı və yardımçısıdır. Bu ad ən çox Əli və əhli-beytini rəhbər bilənlər üçün istifadə edilmişdir".[275] Həmçinin Şeyx Muhəmməd Cavad Müğniyənin "əş-Şiətu fil-mizan" kitabında dediyi kimi: "Şiə – Əlini sevən və onun ardınca gedənlərdir, yaxud onu sevən və yardım edənlərdir".[276]**

**Şeyx Muhəmməd Hüseyn Ali Kaşiful-Ğita kimi bəziləri də buna zidd tərif vermişlər: "Bu ad (yəni şiə) əksər hallarda Əlinin və övladlarının ardıcılları, onları sevənlər barədə işlədilib ki, nəticədə onlar barəsində xüsusi bir ada çevrilib".[277] Həmçinin məşhur şiə Seyyid Muhsin Əmin deyir: "Şiə – Peyğəmbərin (s) itrətini sevən və onlara bağlı şəxslərdir".[278]**

Bu tərifləri təqdim etdikdən sonra səhifənin haşiyəsində deyir: **"Şiə kəlməsinin mənaları barədə özlərinin kitablarında bu qədər**

---

[275] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

[276] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24. Buradakı cümlə aşkar təhrifdir. Belə ki, nəql etdiyi kitabdan bəzi sözləri silmiş, bundan sonra Şeyx Cavad Müğniyəyə nisbət vermişdir. Ancaq həqiqətdə həmin cümlə Müğniyəyə deyil, əhli-sünnəyə məxsusdur. Bununla bərabər, təqdim edilən cümlə kitabın iki müxtəlif yerindən götürülmüş və vahid fikir kimi təqdim edilmişdir. Müğniyənin kitabında qeyd etdiyi hissəni olduğu kimi sizə təqdim edəcəyik.

[277] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

[278] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

**ziddiyyətin olması olduqca qəribədir. Müəlliflərin heç biri şiəlik kəlməsinin mənasını aydın şəkildə izah etməmişlər".**[279]

Həmçinin 1 saylı haşiyədə deyir: **"Bundan (Seyyid Əmir Muhəmməd Kazım Qəzvininin tərifini nəzərdə tutur) və təqdim edilənlərdən məlum olur ki, şiələr Peyğəmbər (s) Əhli-Beytinin ardıcılları deyillər. Onlar yalnız Əlinin ailəsinin dostlarıdırlar. Bunların arasındakı fərq isə gün kimi aydındır..."**[280]

Bu və əvvəldəki iddialarına cavab olaraq iki mülahizə ilə başlamaq istəyirik:

**Birinci mülahizə: Gəldiyi nəticələrin kitabın mətnində deyil, haşiyəsində qeyd etməsi**

İhsan Zahir təqdim etdiyi fikirlərin nəticəsində gəldiyi qənaəti kitabın mətnində deyil, haşiyəsində verir. Bu isə elmi və metodik qaydalara ziddir. Həmin nəticə İmamiyyə şiələrinin və lüğət alimlərinin sözlərindən gəldiyi qənaətin məğzini formalaşdırır. Bu qənaətlər şiə alimlərinin sözlərinin və təriflərinin ardınca mətndə təqdim edilməli idi. Lakin nəql etdiyi kəlmələrin düzgünlüyünə özündə də əminlik olmadığına görə, onların elmi həqiqətlərlə zidd olduğunu bildiyi üçün fikirlərini kitabın haşiyəsində qeyd edir.

**İkinci mülahizə: Alimlərin fikirlərini nəql edərkən zaman baxımından qədim və müasir rəylərin ardıcıllığını qorumayıb**

Fikirləri nəql edərkən elmi və məntiqi əsaslara riayət etməyib. Təriflərin təqdimatında zaman etibarilə ardıcıllıq qorunmamış, Şeyx Müfid, Seyyid Mürtəza, Şeyx Tusi, Əllamə Hilli və s. kimi qədim və böyük

---

[279] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24. Bu sözləri səhifədəki 3 rəqəmilə qeyd edilən haşiyədə deyib.

[280] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24. Haşiyə 1

alimlərin rəyləri nəzərə alınmadan Növbəxti istisna olmaqla, yalnız müasir alimlərin sözlərinin nəqli ilə kifayətlənib. Növbəxtinin "əl-Firaq" kitabı isə şiə firqələri və onların məşhur əqidələri barədədir, kitabda şiənin terminoloji tərifi qeyd edilməyib.

**Ziddiyyət iddiasına cavab**

Şiə kəlməsinin tərifində ziddiyyətlərin olduğu iddiasına iki nəzərlə cavab vermək olar:

**Birinci: Təriflər İmamiyyə alimlərinə məxsus deyil**

Şiə alimlərinin kitablarından nəql etdiyi təriflərə sadəcə nəzər salmaq insanı dəhşətə gətirir və təəccübə qərq edir. Qeyd edilən təriflər ya şiə alimlərinin lüğət kitablarından və ya əhli-sünnə alimlərindən nəql etdikləri kəlmələrdir. Bunu Seyyid Muhsin Əminə nisbət verdiyi tərifdə də görürük. Həmin fikirlər ona məxsus deyil. Onlar Seyyidin lüğət alimi Əzhəridən nəql etdiyi cümlələrdir. Əzhəri deyir: *"Şiə – Peyğəmbərin (s) itrətini sevən və onlara bağlı şəxslərdir".* Bunu İhsan İlahi Zahir də kitabında belə qeyd edir: **Həmçinin məşhur şiə Seyyid Muhsin Əmin deyir: "Şiə – Peyğəmbərin (s) itrətini sevən və onlara bağlı şəxslərdir".**[281]

Şeyx Muhəmməd Cavad Müğniyənin verdiyi tərifə gəldikdə, bu, ümumiyyətlə şiəyə məxsus deyil, əksinə, Şeyx Cavadın əhli-sünnədən nəql etdiyi fikirdir. Müğniyə deyir: *"Şiələr buna aydın və qəti cavab verir, əhli-sünnə alimlərindən və səhih kitablarından dəlillərlə isbatlayırlar ki, şiə əqidəsinin banisi və təşəbbüsçüsü, Əlini sevməyə və yaxın bilməyə çağıran şəxs məhz Peyğəmbərin (s) özüdür. O, həmçinin Əli tərəfdarları və müridləri üçün şiə kəlməsini ilk dəfə işlədən şəxsdir".*[282] Başqa yerdə deyir: *"Şiələrin əhli-sünnə kitablarına və sözlərinə əsasən isbat etdikləri kimi, şiəlik əqidəsi*

281 Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 23
282 əş-Şiətu fil-Mizan, Muhəmməd Cavad Müğniyə, s. 17

*Peyğəmbər (s) tərəfindən açıqlanmış və ona dəvət olunmuşdur. Həmçinin sünni mənbələrinə əsasən isbat olunur ki, Əlini sevən və onu izləyənlər üçün şiə adını məhz Peyğəmbər (s) özü istifadə etmişdir..."*[283]

Əhli-sünnəyə məxsus olan bu sözlərin Şeyx Müğniyəyə heç bir aidiyyatı yoxdur. Əgər burada bir ziddiyyət iddia olunsa, o zaman həmin ziddiyyət məhz əhli-sünnənin şiənin tərifi barədə söylədiyi fikirlərdədir.

Bundan əlavə, İhsan Zahir Şeyx Müğniyədən nəql etdiyi sözlərlə də oynamış, kitabın iki fərqli yerindən götürdüyü kəlmələri birləşdirmiş, özündən kəlmələr əlavə etmişdir. Ardınca da saxtalaşdırdığı bu cümləni Şeyx Müğniyəyə nisbət vermişdir. Bu isə aşkar saxtakarlıq və elmi əmanətə xəyanət, aydın yalan, iftira və böhtandır. Deyir: **"Şiə – Əlini sevən və onun ardınca gedənlərdir, yaxud onu sevən və yardım edənlərdir".**[284] Cümlənin birinci hissəsi Şeyx Müğniyənin "əş-Şiətu fil-mizan" kitabının 19-cu səhifəsindən götürülüb: *"Həmçinin sünni mənbələrinə əsasən isbat olunur ki, Əlini sevən və onu izləyənlər üçün şiə adını məhz Peyğəmbər (s) özü istifadə etmişdir...";* ikinci "yaxud onu sevən və yaxın bilənlərdir" hissəsi isə həmin kitabın 17-ci səhifəsindən iqtibas edilib. Orada isə Şeyx Müğniyə deyir: *"Əlini sevməyə və yaxın bilməyə çağıran məhz Peyğəmbərin (s) özüdür".* Bu da həmin kitabda əhli-sünnə alimlərinin kitablarından nəql edilən sözdür.

Bundan əlavə, Şeyx Müğniyə həmin fəsildə şiələri digər etiqadlardan fərqləndirən cəhətləri bəyan edir. Bu cəhətlər Əliyə sevgi, itaət və onun ardınca getməkdir. Bütün bunları isə əhli-sünnə mənbələrində Peyğəmbərdən (s) nəql edilən rəvayətlərlə isbatlayır. Onun məqsədi heç də şiə məfhumuna tərif vermək deyil.

Eyni sözü Şeyx Muhəmməd Hüseyn Ali Kaşiful-Ğitadan nəql etdiyi tərif barədə də demək mümkündür. Şeyx Muhəmməd kitabında əhli-sünnə

[283] əş-Şiətu fil-Mizan, s. 19

[284] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 24

mənbəyinə istinad edərək deyir: *"Nihayə", "Lisanul-ərəb" və digər kitablara müraciət etsən görəcəksən ki, onlar bu ad (yəni şiə adı) əksər hallarda Əlinin və övladlarının ardıcılları, onları sevənlər barədə işlədilib ki, nəticədə onlar barəsində xüsusi bir ada çevrilib".*[285]

Müəllifin şiə alimlərinin sözlərini "nəql edərkən" yalan, saxtakarlıq və fırıldaqlarına baxın! Məgər bu, elmi əmanətə xəyanət deyilmi?! Bununla insanları ittiham etmək doğrudurmu?!

**İkinci: Peyğəmbərin (s) ailəsi ilə Əlinin (ə) ailəsini fərqləndirmək**

Onun iddialarından biri də Əlinin (ə) ailəsinin heç də Peyğəmbər (s) ailəsi sayılmamasıdır. Bu, batil və yanlış iddiadır. Əvvəlki bəhslərdən də məlum olduğu kimi, Peyğəmbərin (s) ailəsi ilə Əlinin (ə) ailəsi arasında heç bir fərq yoxdur. Bunu "Təthir" ayəsinin və onunla bağlı rəvayətlərin, xüsusilə "Kisa" hədisinin təfsirində də gördük. Orada Ümmü Sələmədən nəql edilirdi: *"İlahi, bunlar mənim Əhli-Beytimdir".*[286] Həmçinin başqa bir kəlmə ilə: *"İlahi, bunlar Muhəmmədin ailəsidir".*[287] Hətta Əhli-Beytə Peyğəmbər (s) zövcələrini daxil edənlər də Əlini, Fatiməni, Həsən və Hüseyni (onlara Allahın salamı olsun!) həmin ailədən ayırmamışlar. Halbuki onlar Əlinin (ə) ailəsinin üzvləridir.

Bəli, bu yalnız İhsan Zahirin sözünün bütün müsəlmanlara dəlil olduğunu təsəvvür etdikdə mümkün olar. Rəy sahibi Fatiməni (ə), Həsən (ə) və Hüseyni (ə) Əlinin ailəsindən saymır. Bunu hansısa bir müsəlman aliminin qəbul edəcəyini düşünmürəm.

Şair deyir:

---

[285] Əsluş-şiəti və usuluha, Muhəmməd Hüseyn Kaşiful-Ğita, s. 187

[286] "Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 292, hədis 25300; Şüeyb Arnavut "Müsnəd"in təhqiq və şərhində deyir: "Bu, səhih hədisdir". Bu hədisi Tirmizi də nəql edərək "həsən hədis" demişdir (Sünən, Tirmizi, c. 5, s. 690, hədis 3878)

[287] əl-Möcəmul-kəbir, Təbərani, c. 23, s. 336; Müsnəd, Əbu Yəla, c. 12, s. 344; Heysəmi "Məcməuz-zəvaid"də (c. 19, s. 167) bu hədis barəsində deyir: "İstinadı yaxşıdır".

*Peyğəmbərin ailəsi Əlinin ailəsidir*
*Başqası iddia etsə, sözləri rədd olunar.*

**Nəticə**

Peyğəmbərin (s) ailəsi məhz Əlinin (ə) ailəsidir. Bununla da onların arasında fərq olduğu iddiası batil olur. Şiə məfhumunun mənasını bəyan edən təriflərdə onların gah Peyğəmbər (s) Əhli-Beytinin, gah da Əlinin və ailəsinin aşiqləri olmasında heç bir ziddiyyət ola bilməz. Yeddinci babda şiəlik barədə bəhslərdə buna müfəssəl toxunacağıq.

## İkinci fəsil: Qurani-Kərimin ümumi səhabələrə münasibəti

Burada bir neçə bəhs var:

**Birinci bəhs:** Qurani-Kərimin bütün səhabələrdən razılıq ifadə etdiyi iddiası barədə müzakirə

**İkinci bəhs:** Qurani-Kərimin səhabələrə həqiqi münasibətinin bəyanı

## Giriş

İhsan Zahirin Qurani-Kərimin səhabələrə münasibəti mövzusunda seçdiyi üslub oxucunu aldatmaq üçün dəfələrlə istifadə etdiyi saxtakarlıq və fırıldaq növündəndir. Öz xəyalında formalaşdırdığı yalan və uydurmalarla, kəsib-doğradığı dəlillərlə həqiqət əsla ölməyəcək. Bununla şiələrin səhabəyə münasibətinin Əhli-Beytin onlara münasibətilə üst-üstə düşmədiyini sübut etməyə çalışıb. İhsan Zahir deyir: **"Bu fəsildə şiələrin nə Peyğəmbərin (s), nə də Əlinin (r) əhli-beytinin davamçıları olmadıqlarını isbat etməyə çalışacağıq. Şiələr Əhli-Beytin fikirlərinə itaət etmir, rəftarlarından nümunə götürmür və tutduqları yolu izləmir, sözlərinə və düşüncələrinə tabe olmur, əmr və göstərişlərinə boyun əymirlər. Bunun əksinə, onlara qarşı çıxır, aşkar surətdə söz və əməldə onlara zidd rəftar edirlər. Xüsusilə Peyğəmbərin (ə) raşidi xəlifələri, pak xanımları və xeyirxah səhabələri barədə Əhli-Beytin fikirlərinə (şiələr) müxalifdirlər".**[288]

Ardınca bir neçə ayəni sadalayaraq bunlarda səhabələrin mədh olunduğunu iddia edir. Bu fəsildə qeyd etdiyi ayələrə və onların dəlalət etdiyi mənalar barədə iddialarına toxunacağıq. Bunu aşağıdakı iki mətləb çərçivəsində təqdim edəcəyik:

**Birinci bəhs: Qurani-Kərimin bütün səhabələrdən razılıq ifadə etdiyi iddiası barədə müzakirə;**

**İkinci bəhs: Qurani-Kərimin səhabələrə həqiqi münasibətinin bəyanı.**

[288] Şiə və Əhli-Beyt, s. 30

## Birinci bəhs: Qurani-Kərimin bütün səhabələrdən razılıq ifadə etdiyi iddiası

İhsan Zahir bütün səhabələrin halını bəyan etmək üçün deyir: **"Uca Allah onları *"Nə öncə, nə də sonra batil ona yol tapa bilməz. O, hikmət sahibi, şükrə (tərifə) layiq olan (bütün işləri bəyanilən Allah) tərəfindən nazil..."*[289] *olunan kitabında belə vəsf edir..."*[290]**

Sonra isə bir çox ayələri qeyd edərək bunu isbat etməyə çalışır və şiələrin səhabə barədə sözlərinin bu ayəyə açıq şəkildə zidd olduğunu hesab edir. Burada səkkiz ayəni qeyd edir ki, biz də onları müzakirə edəcək və hər biri barədə ardıcıl olaraq müzakirə aparacağıq.

### Birinci ayə: Səcdə 16

***"Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən (ehtiyacı olanlara) sərf edərlər".***

### Ayənin müzakirəsi

Bu ayəni Uca Allahın bütün səhabələrdən razı olduğuna dəlil göstərmək mümkün deyil. Çünki Quranda bir çox ayə var ki, bir dəstə səhabənin çirkin əməllərindən və böyük günahlarından söhbət açır. Məsələn, xəyanətdən: ***"Əgər sənə xəyanət etmək istəsələr, (bilsinlər ki) bundan (Bədr müharibəsindən) əvvəl Allaha xəyanət etmişdilər";***[291] böhtandan: ***"İsmətli qadınlara zina isnad edib, sonra (dediklərini təsdiqləyəcək) dörd şahid gətirə bilməyən şəxslərə səksən çubuq vurun və onların***

---

[289] Fussilət, 42

[290] Şiə və Əhli-Beyt, s. 30

[291] Ənfal, 71

***şəhadətini heç vaxt qəbul etməyin. Onlar sözsüz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir";***[292]döyüşdən qaçmaq: ***"... gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi), sonra dönüb qaçdınız";***[293] zinadan: ***"Zinakar kişiyə və zinakar qadına yüz şallaq (qırmanc) vurun. Allaha və axirət gününə inanırsınızsa, Allahın dini barəsində (bu işin icrasında) ürəyiniz onlara yumşalmasın və möminlərdən bir dəstə də onların əzabına şahid olsun"***[294] və s.

Bu məqamda sual verib soruşuruq: Peyğəmbərin (s) zina, oğurluq və böhtan səbəbindən cəzalandırdığı kəslərdən Allahın razı olması insafdandırmı?!

İhsan Zahirin gətirdiyi dəlildə də Allahın onların hamısından razı olduğuna heç bir işarə yoxdur. Xüsusilə də əhli-sünnə təfsir alimlərindən heç biri sözügedən ayənin bu sifətlərlə vəsf olunan müəyyən səhabələr barədə endiyini qeyd etməmişlər. Əksinə, sünni və şiə kitablarında bu ayənin nazil olma səbəbi İhsan Zahirin iddia etdiyindən fərqlidir. Şövkani Ənəs ibn Malikdən bu ayə barədə soruşulduğunu və onun da belə cavab verdiyini nəql edir: *"Səhabələrdən bir dəstə adam vardı ki, məğrib namazından ta işanın sonuna qədər namaz qılardılar. Uca Allah onların barəsində bu ayəni endirdi:* ***"Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində..."***[295]

Əhməd ibn Hənbəl Muaz ibn Cəbəlin Peyğəmbərdən (s) belə nəql etdiyini yazır: ***"Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində..."*** *bəndənin gecə namaza qalxmasıdır.*[296] Bu, əhli-sünnə kitablarındakı izahlardır.

---

[292] Nur, 4

[293] Tövbə, 25

[294] Nur, 2

[295] Neylul-əvtar, Şövkani, c. 3, s. 65

[296] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 227

Şiə mənbələrindəki Əhli-Beyt (ə) rəvayətlərinə müraciət etdikdə də bu ayənin gecə namazına qalxmağın fəzilətini[297] bəyan etdiyini, yaxud məxsusi olaraq Əli (ə) və şiələri barəsində, onların gecənin əvvəlində yataraq sonlarında namaz üçün oyandıqları haqda nazil olduğu qeyd edildiyini görürük.[298]

Sonda deyə bilərik ki, bu ayə bütün səhabələrin deyil, onlardan bir dəstəsinin mədhidir, onların hamısı barədə deyil. Həmin mədhə hədəf olmaq üçün də onların öz əməllərinə davam etmələri şərtdir. Bu, aydın məsələdir.

**Nəticə**

Bəhs edilən ayədə bütün səhabələrin dürüstlüyü və Uca Allahın onların hamısından razı olması iddiası ilə heç bir əlaqə yoxdur. Əksinə, onlardan bir dəstəsinin xüsusiyyətlərindən söhbət açılır. Bir dəstə səhabəyə aid olan vəsfin bütün səhabələrə də aid olması zəruri deyil.

İmamiyyə şiələri bunu inkar etmirlər. Onların etiqadına görə, bir dəstə səhabə imanın, Allaha və Peyğəmbərin (s) itaətin ali dərəcəsindədirlər.

Beləliklə də ayədəki mətləbin isbatı mümkün olmadığı üçün onu dəlil göstərmək də yanlışdır.

**İkinci ayə: Ali-İmran 191**

***"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən paksan, müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!"***

---

[297] əl-Məhasin, Bərqi, c. 1, s. 286, hədis 434, 453

[298] İləluş-şəraye, Səduq, c. 2, hədis 4, bab 86; Mən la yəhzuruhul-fəqih, c. 1, s. 1391

**Ayənin müzakirəsi**

Bu ayənin bütün səhabələrin mədh və tərifinə dəlil göstərmək olduqca qəribədir. Çünki ayə İhsan Zahirin iddiasına əsla uyğun deyil. Bu, məsələnin bir tərəfi. Digər tərəfdən isə ayədə onların günahsızlığına və ömürlərinin sonunadək belə halda qalacaqlarına dəlalət edən heç bir eyham yoxdur.

Əlavə olaraq qeyd edək ki, şiələr Peyğəmbər (s) səhabələri arasında Qurandakı bu vəsflərə uyğun şəxslərin olmadığını iddia etmir. İhsan Zahir saxtakarlıq və Quranın mənalarını təhrif üslubu ilə həqiqətləri gizlətmək və sadə insanları aldatmaq istəyir. Belə ki, həmin ayə zaman və şəxs məhdudiyyətləri olmadan hər bir halda – ayaq üstə, oturarkən və uzanarkən Allahın ayələri barədə düşünən insanları mədh edir.

Sünni və şiə təfsirçilərindən heç kim ayənin xüsusi və ya ümumi olaraq bütün səhabələr barədə nazil olduğunu qeyd etməyib. Halbuki bu iddianın əksinə olan ayə və rəvayətlər mövcuddur. Məsələn: ***"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi puça çıxartmayın!"***[299]

Təbəri öz təfsirində Muqatil ibn Həyyandan, o da Nafidən, o da İbn Ömərdən nəql edir: *"Biz səhabələr belə düşünüb və deyirdik: "Bizim elə bir yaxşı əməlimiz yoxdur ki, qəbul olunmasın". Bu sözümüzə görə* ***"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi puça çıxartmayın!"*** *ayəsi nazil oldu. Ayə nazil olduqdan sonra dedik: "Bizim əməllərimizi nələr puç edər?" Dedik: "Böyük günahlar və aşkar pis əməllər". Ravi deyir: "Bəzilərinin bu günahlara mürtəkib olduğunu görürdük".*[300]

Qətadədən nəql edilir: *"Kim saleh əməlini pis əməli ilə puça çıxarmamağı bacarırsa, bunu eləsin. Allahdan başqa güc və qüdrət yoxdur! Yaxşı əməllər*

---

[299] Muhəmməd, 33

[300] Camiul-bəyan, c. 24, s. 22

*pislikləri, pis əməllər isə yaxşılıqları puç edir. Əməllər yalnız sonuna görə ölçülür".*[301]

İbn Əbu Hatəm Razi öz təfsirində Əbu Aliyədən nəql edir: *"Səhabələr şirklə bərabər heç bir əməlin fayda vermədiyi kimi "La ilahə illəllah"la da heç bir günahın insana zərər verməyəcəyini düşünürdülər. Bu ayə nazil oldu:* ***"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) əməllərinizi puça çıxartmayın!"*** *Bundan sonra günahın əməllərini puç etməsindən qorxdular".*[302]

Buxari Səhl ibn Səd Saidinin belə söylədiyini yazır: *"Peyğəmbər (s) müşriklərlə savaşan və müsəlmanlar arasından onlara qarşı ən şiddətlə vuruşan bir nəfərə baxıb buyurdu: "Kim cəhənnəm əhlinə tamaşa etmək istəyirsə bu şəxsə baxsın".*

*Bir kişi onu izləməyə yollandı. Nəhayət həmin adam yaralandı. O, ölümünü tezləşdirmək üçün qılıncını yerə dikəldərək ucunu sinəsinə qoydu, özünü qılınca doğru itələdi və qılınc onun sinəsindən girib belindən çıxdı.*

*Peyğəmbər (s) buyurdu: "Həqiqətən, bir şəxs insanların gözündə cənnət əhlinin əməlini edər, əslində isə cəhənnəm əhlindən olar. Habelə bir adam insanların gözündə cəhənnəm əhlinin əməlini edər, əslində isə cənnət əhlindən olar. Əməllər yalnız sonuna görə ölçülür".*[303]

**Nəticə**

Ayəni bütün səhabələrin düzgün yolda olduqlarına dəlil göstərmək olduqca qəribədir. Bu İhsan Zahirin müxalif rəylərlə mübarizədə hansı saxtakarlıq və məna təhriflərinə əl atdığını bir daha sübut edir!

---

[301] Camiul-bəyan, c. 26, s. 81

[302] Təfsir, İbn Əbu Hatəm, c. 10, s. 32299; həmçinin bax: Təfsir, Səmərqəndi, c. 3, s. 290; Təfsir, Səmani, c. 5, s. 184

[303] Səhih, Buxari, c. 7, s. 188

**Üçüncü ayə: Fəth 29**

***“Muhəmməd (s) Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların nişanəsi üzlərində olan səcdə yeridir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbihi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!”***

**Ayənin müzakirəsi**

Dəlil göstərilən bu ayədən aşağıdakılar anlaşılır:

**Birinci: Ayədəki *“birlikdə olanlar”*da məqsəd qəlbi və ruhi birgəlikdir**

Ayədəki ***“birlikdə olanlar”***da məqsəd heç də məkan və zaman baxımından Peyğəmbərlə (s) birgəlik deyil. Əksinə, buradakı birgəlik qəlbi və ruhidir. Belə ki, bir çox İslam və iman iddiasında olan şəxslər bu vəsf olmayıb. Səhabələrdən bəziləri Quran ayələrinin məzəmmət və danlağının hədəfi idilər. Uca Allah Qurani-Kərimdən buyurur: ***“Peyğəmbəri incidib: “O (hamını dinləyən, hər sözü eşidib inanan) bir qulaqdır”, – deyənlər də var. De: “O qulaq sizin üçün bir nemətdir. Allaha da inanır, möminlərə də. O sizdən iman gətirənlər üçün rəhmətdir. Allahın Rəsuluna əziyyət verənləri isə şiddətli bir əzab gözləyir!”***[304]; ***“Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü***

---

[304] Tövbə, 61

***özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər var. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar"[305]; "...İçinizdə onlara qulaq asanlar da var. Allah zalımları tanıyandır!"[306]; "Onlar İslamı qəbul etdiklərinə görə sənə minnət qoyurlar. De: "Müsəlman olduğunuzla mənə minnət qoymayın! Xeyr, əgər (iman gətirdiyinizi) doğru deyirsinizsə, (bilin ki) sizi imana yönəltməklə (müvəffəq etməklə), əslində Allah sizin boynunuza minnət qoymuş olur!"[307]*** və digər ayələr.

**İkinci: Ayədəki mədhin bütün səhabələrə şamil olmaması**

Əgər ayədəki birgəliyin məkan və zamana görə olduğunu fərz etsək belə, bütün səhabələrin və ya onların böyük bir hissəsinin ədalətinə dəlaləti olmayacaq. Çünki Uca Allahın ***"onunla birlikdə olanlar"*** sözü ya bütünlüklə ümumi səhabəyə, yəni Peyğəmbərlə (s) birlikdə olan hər bir fərdə aiddir, yaxud da onlardan bir dəstəsinə. Birinci nəzərə gəldikdə, burada həm ayədaxili, həm də Kitabdakı digər ayələrdə məqsədin ümumən səhabələr olmadığına aşkar dəlillər mövcuddur. Kitabdakı həmin ayələrə əvvəldə qeyd etdiyimiz Peyğəmbərlə (s) birgə olanların məzəmmət edildiyi ayələrini misal çəkmək olar. Belə ki, onlar İslamda olduqlarını iddia etsələr də, bəzilər münafiqlikdə, bəzilər qorxaqlıqda və s. ittiham olunurdular. Bunlara əsasən bütün səhabələrin iradə edilməsi mümkün deyil.

Ayədaxili dəlilə gəldikdə, bu ayənin sonundakı cümlədir: ***"...Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!"*** Bu cümlə

---

[305] Tövbə, 101
[306] Tövbə, 47
[307] Hucurat", 17

ayədəki məqsədin ümumi səhabələr olmadığını bir daha təsdiq edir. Çünki cümlədəki ***"Onlardan"*** (مِنْهُم) sözündə "(مِنْ) -dan" şəkilçisi növü bəyan etmir, əksinə "təbiz (bəzisi)" mənasını verir. Yəni ***"Onlardan bəzisinə..."*** Çünki növü bəyan edən şəkilçi bitişən (هُمْ – "onlar" kimi) şəxs əvəzlikləri ilə istifadə olunmaz, yalnız zahirən tələffüz olunan və bütöv mənalı kəlməyə birləşər. Necə ki, bunu "əl-Həcc" surəsinin 30-cu ayəsində də görürük: ***"Belə olduğu təqdirdə, murdar (başdan-ayağa murdarlıq olan) <u>bütlərdən</u>*** (مِنَ الأوثان) ***...çəkinin"*** Yəni büt növündən olan murdardan çəkinin. Bu ayədəki "(مِنَ الأوثان) bütlərdən" sözündəki "(مِنْ) -dən" şəkilçisi növü bəyan edir və "الأوثان -bütlər" zahir isminə birləşmişdir. **(Bəlkə burda qrammatik bəhsi ərəbcə aparıb haşiyədə izahlarını verək?)**

Həmçinin ayədaxili dəlillərdən biri də ayənin əvvəlindəki ***"...kafirlərə qarşı sərt..."*** kəlməsidir. Belə ki, tarix kitablarında da qeyd edilənlərə əsasən, həmin vəsf müharibələrdən qaçmış bir çox səhabəyə şamil ola bilməz. Misal olaraq, səhabələrin Ühüd, Əhzab, Xeybər, Hüneyn və s. savaşlarda döyüş meydanından qaçmalarını göstərmək olar. Onlar kafirlərə qarşı sərtliklə vəsf olunmayıblar. Çünki sərtlik döyüşlərdə özünü təkrar-təkrar büruzə verər. Necə ki, bu vəsf Əli ibn Əbu Talib (ə) barədə qeyd edilib, onun "Kərrar ğeyru fərrar" (əsla döyüşdən qaçmayan, təkrar-təkrar həmlə edən) olduğu dəfələrlə vurğulanıb. Bunu Buxaridə nəql edilən hədis də təsdiq edir: *"Səhl ibn Səd Peyğəmbərin (s) Xeybər döyüşü günü belə buyurduğunu eşitdi: "Bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəthi bizə nəsib edəcək".*[308]

Bütün bu dediklərimiz ***"Onunla birlikdə olanlar"*** kəlməsinin ümumi məna daşıdığı iddia olunduqda deyilər. Əgər məqsəd onlardan bir dəstəsi olsa, bu zaman ayənin bütün sahəbələrə şamil olmadığı bir daha təsdiqlənəcək. Belə ki, ayə Uca Allahın ***"Yadınıza salın ki, siz o zaman bir***

[308] Səhih, Buxari, c. 4, s. 5; Müsnəd, Əhməd ibn Hənbəl, c. 1. s. 99; Səhih, Müslim, c. 5, s. 195; Sünən, İbn Macə, c. 1, s. 45

***nəfəri öldürüb, onun (qatili) barəsində mübahisə edirdiniz"***[309] ayəsindəki xitaba bənzəyəcək. Aydın məsələdir ki, həmin şəxsi öldürənlər bütün yəhudilər deyil, onlardan bir neçə nəfəri idi. Lakin Uca Allah bunu onların hamısına nisbət verərək ***"siz... öldürüb, ...mübahisə edirdiniz"*** buyurur. Burada cəm şəkilçisi yalnız qətli törədənlərə xitabən istifadə edilib və bütün yəhudiləri əhatə etmir.

Qurani-Kərimdə buna bənzər digər ayə də var: ***"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?"***[310] Bu, bütün iman gətirən şəxslərin etməyəcəkləri bir şeyi dediklərinə dəlalət etməz. Bunu heç kəs də iddia etməmişdir.

**Üçüncü: Ümumi cəm xitabla bəzi şəxslərə müraciət etmək üslubu geniş istifadə olunur**

El dilinə müraciət etdikdə görürük ki, onlar "Misirlilər piramidalar ucaltdılar" dedikdə, heç də bunu bütünlükdə misirlilərə nisbət vermirlər. Həmçinin onların "Bədr savaşında müsəlmanlar yetmiş müşriki öldürmüş və yetmişini də əsir almışdılar. Ühüd savaşında isə müşriklər müsəlmanlardan yetmiş nəfərini qətlə yetirdilər" sözlərindən savaşda bütün müsəlmanların və bütün müşriklərin iştirak etdiyi başa düşülmür.

Buna əsasən, İhsan Zahirin ayədə məqsədin bütün səhabələr olduğu iddiası yalnız bu mənada ümum ola bilər.

**Dördüncü: Mədhin bütün zaman və məkanlara şamil olmaması**

Əgər ayənin yenə bütün səhabələri mədh etdiyini fərz etsək, bu mədh yalnız ayə nazil olarkən həmin vəsfə sahib olduqları zaman çərçivəsini əhatə edəcək, səhabələrin ömürlərinin sonunadək bu sifətə sahib olacaqlarına dəlil olmayacaq. Həqiqi mədh isə yalnız bir anla deyil, bu

---

[309] Bəqərə, 72

[310] Saff, 2

sifətə daim sahib olan şəxslər barəsində öz həqiqətini tapar. Anın mədhi yalnız həmin ana şamil ola bilər. Bu isə bütün səhabələrin ədalətinə dəlalət etmir. Bu sifətlər heç bir dəlil və bürhana ehtiyac duymayan əqli nəzərlə də qeyd edilə bilər.

**Nəticə**

Ayədə bütün sahəbələrin hər bir zaman və məkanlarda mədhinə dəlalət yoxdur. Hətta bəzi səhabələrin bir çox günahlara mürtəkib olması, aralarında Cəməl və Siffin savaşlarında olduğu kimi münaqişələrin yaşanması buna bariz nümunədir. Həmin savaşlarda iştirak edənlərin arasında böyük səhabələr də vardı.

**Dördüncü ayə: Tövbə 117**

***"Allah (müsəlmanlardan) bir qisminin ürəyi (şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan) dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasınca gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu (onları bağışladı). Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhmlidir".***

**Ayənin müzakirəsi:**

**Birinci: Müsəlman olan hər kəsin nicat tapacağına ayədə dəlalət yoxdur**

Ayədə Peyğəmbərlə (s) eyni zamanda yaşayan, müsəlman olub iman gətirən hər bir kəsin xeyir üzərində olduğuna və Qiyamət günün nicat tapacağına heç bir dəlalət yoxdur. Çünki ayə Təbuk döyüşü ərəfəsində səhabələrin Peyğəmbərə (s) qarşı çıxdıqları zaman nazil olmuşdur.

**İkinci: Peyğəmbərin (s) yanında münafiqlərin və imanı az kəslərin olması**

Ayədən Peyğəmbərin (s) yanında münafiq və imanı az kəslərin olduğu anlaşılır. Bunu Təbəri də nəql edir. Asim ibn Ömər ibn Qətadədən Muhəmməd ibn İshaq rəvayət edir: *"Mahmud ibn Lübeydə dedim: "Camaat aralarındakı münafiqləri tanıyırdı?" Dedi: "Bəli, Allaha and olsun ki, hər bir şəxs onları qardaşından, atasında, əmisindən və ailəsindən yaxşı tanıyırdı. Ancaq sonra camaat bir-birinə qarışdı".*

*Ardınca dedi: "Qəbiləmdən bir nəfər münafiqlikdə məşhur olan şəxsin Peyğəmbərlə (s) birlikdə Təbuk savaşına getdiyini mənə xəbər verdi. Yolda susayıb su tapmadıqda Peyğəmbər (s) dua etdi və həmin an yağış yağaraq quyuları doldurdu. Camaat içib sirab oldular. Biz həmin kəsə (münafiqə) dedik: "Vay olsun sənə! Bundan sonra nə gözləyirsən?!"*

*Həmin (münafiq) kəs dedi: "Bu bir bulud idi, keçdi".*

*Peyğəmbər (s) yoluna davam etdi. Yolda həmin adam dəvəsini itirdi. Səhabələr onu axtarmağa getdilər. Peyğəmbərin (s) yanında Bədrdə iştirak etmiş Ümarə ibn Həzm adlı bir səhabə vardı. O, Əmr ibn Həzmin övladlarının əmisi idi. Onun miniyində Zeyd ibn Luseyb Qeynqai də vardı. Həmin şəxs münafiq idi. Ümarə hələ də Peyğəmbərin (s) yanında ikən Zeyd ibn Luseyb dedi: Muhəmməd peyğəmbər olduğunu, səmadan xəbər aldığını iddia etmirmi? Halbuki dəvənin harada olduğunu bilmir?! Peyğəmbər (s) yanındakı Ümarəyə buyurdu: "Bu kəs mənim Peyğəmbər olduğum, səmadan vəhy aldığım halda dəvənin harada olduğunu bilmədiyimi deyir. Allaha and olsun ki, mən Allahın mənə bildirdiklərindən başqasını bilmirəm. Uca Allah mənə onun harada olduğunu xəbər verib. Onun dəvəsi filan-filan qəbilənin ovalığındadır. Yüyəni ağaca ilişib. Gedib onu gətirin". Səhabələr gedib onu orada tapıb gətirdilər".*[311]

---

[311] Tarix, Təbəri, c. 2, s. 372

Buradan da aydın olur ki, Allahın tövbələrini qəbul etdiyi kəslər səhabələr idi. Çətinlik və imtahan zamanı bütün sahəbələrə belə insani zəifliklər üz vermir ki, nəticədə Allahın qəzəbinə düçar olsun və tövbəyə möhtac qalsınlar. Bütün bunlar səhabələrin günah etmələrinin mümkünlüyünə, hətta günah etdiklərinə dəlalət edir.

**Üçüncü: Bəzi səhabələrin dindən çıxacaqlarını Peyğəmbərin (s) xəbər verməsi**

İnsanın bir dəfə günah etməsi növbəti dəfə günaha batacağına zəmin yaradır. Xüsusilə də Peyğəmbərin (s) vəfatından sonrakı dövrlərdə. Bunu Peyğəmbər (s) hələ sağlığında xəbər vermişdi. Buxari və başqaları İbn Abbasdan nəql edirlər: *"Peyğəmbər (s) xütbə söyləyib buyurdu: "Ey camaat, siz Allahın hüzuruna ayaqyalın, lüt və sünnətsiz həşr olunacaqsınız. Uca Allah buyurur:* ***"(O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salırıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik".***[312]

*Sonra buyurdu: "Bilin və agah olun ki, insanlar arasından libas geyəcək ilk şəxs İbrahimdir. Bilin ki, ümmətimdən bir dəstə adam gətirilib Cəhənnəmə doğru aparılacaq. Mən "Ey Rəbbim, səhabələrim, səhabələrim!" deyəcəyəm. Mənə deyiləcək: "Onların səndən sonra nələr etdiklərini bilmirsən!" Mən saleh bəndə İsanın dediyi kimi deyəcəyəm:* ***"Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni öldürdükdən sonra onlara nəzarətçi Özün oldun. Mənə deyiləcək: Sən onların arasından ayrıldıqdan sonra onlar mürtəd olub öz əvvəlki hallarına qayıtdılar".***[313]

Həmçinin Səhl ibn Səd Peyğəmbərdən (s) belə rəvayət edir: *"(Mən) Sizdən öncə hovuzun başında olacağam. Yanıma gələnlərə o hovuzun suyundan içirəcəyəm. Ondan bir dəfə içən şəxs bir daha heç vaxt*

---

[312] Ənbiya, 104

[313] Səhih, Buxari, c. 5, s. 193

*susamayacaq. Yanıma mənim tanıdığım və məni tanıyan bir dəstə insan da gələcək, lakin bu zaman görüşümüzə maneə yaradılacaq".*

*Əbu Hazim deyir: "Məni Numan ibn Əbu Əyyaş da dinləyirdi. Səhldən məhz belə eşitdiyimi təəccüblə soruşdu. Mən Səhldən bunları şəxsən eşitdiyimi dedim. Dedi: "Bunu Əbu Səid Xudridən eşitdiyimə şahidlik edirəm. O, Peyğəmbərdən (s) bu sözləri də əlavə etmişdi: "Deyəcəyəm: "Onlar məndəndirlər". Mənə deyiləcək: "Səndən sonra nələr etdiklərini bilmirsən". Deyəcəyəm: "Məndən sonra dəyişiklik edənlər uzaq olsunlar, uzaq olsunlar!"*[314]

**Beşinci ayə: Fəth 18-19**

***"And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. (Allah) onların ürəklərində olanı (sənə sadiq qalacaqlarını, əhdə vəfa edəcəklərini) bildi, onlara (öz dərgahından) arxayınlıq (rahatlıq, səbir, səbat, mənəvi qüvvə) göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə (Xeybərin fəthi) ilə mükafatlandırdı.***

***"Həm də (Xeybərdə) ələ keçirəcəkləri çoxlu qənimətlərə (nail etdi). Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***

**Ayənin müzakirəsi**

Bu iki ayə bütün səhabələrin mədhinə dəlalət etmir. Səbəbi aşağıdakılardır:

**Birinci: Ayə beyət edən hər kəsin mömin olduğunu bildirmir**

Ayə ağac altında beyət edənlərin hamısının mömin olduğuna dəlalət etmir. Əksinə, beyət edən möminlərdən Uca Allahın razılığını ifadə edir. Ağac altında beyət edənlərin hamısının mömin olduğu sübuta yetməyib.

---

[314] Səhih, Buxari, c. 7, s. 208

Çünki həmin beyətdə Abdullah ibn Übeyy, Mötəb ibn Qüşeyr və digərləri kimi Mədinə münafiqlərinin başçıları da vardı. Bəli, biz həmin beyətdə iştirak edənlərin əksəriyyətinin mömin olduğunu inkar etmirik. Ayə də məhz onlara şamildir və mübahisə mövzusu da deyil. Şiələrin bütün səhabələrin imansız olduğuna etiqad bəslədiklərini iddia etmək yalan və böhtandır. Şiələr onların çoxunun imanlı olduğu inancındadırlar.

**İkinci: İlahi razılığın beyəti pozmamaqla şərtlənməsi**

Həmin ağac altında Allaha və Peyğəmbərinə (s) etdikləri beyətlərinə bəzilərinin sadiq qalmadığına dair Quranda və tarix kitablarında bir çox dəlil var. Onlardan bir neçəsini qeyd edək:

**1. Uca Allahın bəzilərinin bu beyətə sadiq qalmayacaqlarını bilməsi**

Əgər ağac altında beyət edənlərin hamısının mömin olduğu fərz etsək də, Uca Allahın onların hamısından razı olduğunu qəbul etmirik. Çünki Uca Allah yalnız orada etdikləri beyətə sadiq qalan və sonradan beyətini pozmayanlardan razılığını ifadə edir. Necə ki, Qurani-Kərimdə buyurur: ***"Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın (qüdrət) əli onların əllərinin üstündədir. Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar (bunun zərəri yalnız onun özünə dəyər). Kim Allahla etdiyi əhdi yerinə yetirsə, (Allah) ona böyük mükafat verər!"***[315]

Əgər Uca Allah onlardan heç birinin gələcəkdə beyətlərini pozmayacağını bilirsə, o zaman ayədəki bu cümləyə ehtiyac qalmaz: ***"Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar..."*** Bu beyətə görə savab və əzabın vəd edilməsi fonunda onların beyətlərini pozmalarının mümkünsüzlüyünü necə iddia etmək olar?

[315] Fəth, 10

## 2. Bəzi səhabələrin Şəcərə beyətinin şərtlərinə sadiq qalmaması

Bu beyətin şərtlərindən olan müşriklərlə heç bir savaşdan qaçmamaq şərtindən yalnız Cədd ibn Qeys kənarda qaldı.[316] Lakin sonradan baş verənlərə və tarix kitablarında qeyd edilənlərə əsasən demək olar ki, oradakıların bir hissəsi qəbul etdikləri bu şərtə sadiq qalmadılar. Ağac altında beyət edən bir dəstə insan beyətini pozdu.

Bunu Məkkənin fəthindən əvvəl, Şəcərə beyətindən sonra baş verən Xeybər savaşında da görürük. Bu, Təbəraninin və digərlərinin rəvayətlərində qeyd edilib. Sələmə ibn Əkvə deyir: *"Peyğəmbər (s) bayrağı Əbu Bəkr siddiqə verdi və Xeybər qalalarına tərəf hücuma göndərdi. O, döyüşüb geri qayıtdı. Səylərinə baxmayaraq fəth olmadı. Peyğəmbər (s) buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və rəsulunu sevir. Allah onun əli ilə fəthi nəsib edəcək. O, əsla döyüşdən qaçan deyil". (Səhəri gün) Əli ibn Əbu Talibi (r) çağırdı. Onun gözləri ağrıyırdı. Peyğəmbər (s) ağız suyunu onun gözlərinə sürtdü və buyurdu: "Bu bayrağı götür, Allah sənə fəthi nəsib edənədək döyüş".*

*Sələmə deyir: "Allaha and olsun ki, (Əli) sürətlə hərəkət edirdi. Mən də onun ardınca gedirdim. O, bayrağı qayaya sancdı. Qalanın başından bir yəhudi bunu görüb dedi: "Sən kimsən?" Dedi: "Mən Əli ibn Əbu Talibəm". Yəhudi dedi: "Siz Musaya nazil olana da qalib gəldiniz". Əli Allah ona fəthi nəsib edənədək döyüşdü və geri qayıtdı".*[317]

---

[316] əl-Möcamul-kəbir, Təbərani, c. 7, s. 35. Həmçinin bax: Fəthul-bari, İbn Həcər, c. 7, s. 365

[317] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 396. Orada ibn Zübeyrin sözləri də qeyd edilir: *"Cabirdən soruşdum: "Bəs siz Peyğəmbərlə (s) ölümədək beyət etmişdiniz?!" Dedi: "Xeyr, biz qaçmayacağımıza beyət etmişdik". Dedim: "Şəcərə beyətində orda idin?" Dedi: "Bəli, Ömər ibn Xəttabla əlbəəl verib Peyğəmbərə (s) beyət etdik". Dedim: "Neçə nəfər idiniz?" Dedi: "Min dörd yüz nəfər idik. Cədd ibn Qeysdən savayı hamı beyət etdi. O, həmin vaxt dəvənin qarının altında gizlənmişdi. Həmin gün yetmiş kök dəvə kəsdik. Hər yeddi nəfər üçün bir dəvə".*

Peyğəmbərin (s) *"Allah onun əli ilə fəthi nəsib edəcək. O, əsla döyüşdən qaçan deyil"* sözü döyüşdən qaçan fərarilərə vurulan eyham və etiraz cümləsidir ki, həmin şəxslər fəthə nail olmadan geri qayıtmışdılar.

Həmçinin onlardan bir çoxu Hüneyn savaşında fərarilik etməklə beyətlərini pozmuşlar. Buna Uca Allahın sözü də şahidlik edir: ***"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (savaşı) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu, sonra dönüb qaçdınız".***[318]

Bunlara əsasən anlaşılır ki, Allahın razılığı mütləq şəkildə onların hamısına şamil olmayıb. Onlardan bəzilərinin beyətini pozduğunu qeyd etmək lazımdır. Halbuki onların çoxu həmin gün bağladıqları beyəti sonradan pozmuşdular.

**Üçüncü: Onlardan bəziləri Osmanın qətlində iştirak etdilər**

Ağac altındakı Rizvan beyətində iştirak edən bəzi səhabələr Osman ibn Əffanın qətlində iştirak etmişlər. Bu, Əbdür-Rəhman ibn Üdeys Bəlvidir. İbn Əbdülbərr "əl-İstiab"da yazır: *"Əbdür-Rəhman ibn Üdeys Peyğəmbərlə (s) ağac altında beyət edən səhabələrdən idi". Əbu Ömər deyir: "O, Misirdən Mədinəyə gələn, Osmanın evini mühasirəyə alıb onu qətlə yetirən qoşunun başçısı idi".*[319]

İbn Səd "ət-Təbəqat"da yazır: *"Əbdür-Rəhman ibn Üdeys Bəlvi Peyğəmbər (s) səhabəsi olmuş, ondan hədis eşitmişdir. Osmanı mühasirəyə alıb qətlə yetirənlərlə birgə Mədinəyə gəlmişdi. O, gələnlərin başçısı idi".*[320]

İbn Əsakir deyir: *"Əbdür-Rəhman ibn Üdeys... səhabədir. Ağac altında beyət edənlərdəndir... Misirdə məskunlaşmış, Osmanın qətlinə yardım etmişdi".*[321]

---

[318] Tövbə, 25
[319] İstiab, c. 2, s. 840
[320] ət-Təbəqatul-Kubra, c. 7, s. 509
[321] Tarixu mədinəti Diməşq, c. 35, s. 107

Həmin kitabın başqa yerində deyilir: *“Misirdən gəlib Osmanı qətlə yetirənlərin sayı altı yüz nəfər idi. Onların başçıları Əbdür-Rəhman ibn Üdeys Bəlvidir. O, ağac altında Peyğəmbərə (s) beyət edən səhabələrdən olub”.*[322]

Burada İhsan Zahirdən soruşuruq: O, Osmanın qatillərinin ədalətli şəxslər olduğuna etiqad bəsləyir?! Rizvan beyətini bütün səhabələrin ədalətli olduğuna dəlil göstərməyə çalışır. Xüsusilə, məgər o, Əbdür-Rəhman ibn Üdeys Bəlvinin Osmanı mühasirəyə alan və tarix kitablarının da şahidlik etdiyi kimi, onun qanının axıdılmasında iştirak edən qoşunun başçısı olduğunu bilmirmi?!

**Altıncı ayə: Ali-İmran 195**

***“Hicrət edənlərin (Məkkədən Mədinəyə öz dinini qorumaq məqsədilə köçənlərin), öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları (ağacları) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!”***

**Ayənin müzakirəsi:**

Ayədə hər hicrət edənin, yurdundan çıxarılanın və əziyyətə məruz qalanın aqibətinin Cənnət olduğuna dəlalət edən heç bir sübut yoxdur. Bu, aşağıdakı səbəblərə görədir:

**Birinci: Hicrət və məcburən yurdundan çıxarılmağın qeydlə bildirilməsi**

Ayədə hicrət, yurdundan çıxarılma və əziyyət “Allah yolunda” qeydi ilə vurğulanıb. Lakin hər hicrət edənin, yurdundan çıxarılanın və ya əziyyət edilənin bütün bunlarla Allah yolunda üz-üzə qaldığı sübut olunmayıb.

---

[322] Tarixu mədinəti Diməşq, c. 4, s. 1155

Bəzilərinin hicrəti şəxsi məsləhətinə əsasən baş verib. Ayədəki bu qeyd bəzilərinin Allah yolunda hicrət etmədiklərini müəyyən edir. Yoxsa həmin qeyd mənasız təfsir olardı. Bu, zahirə də xilafdır. Çünki qeyd – öz-özlüyündə buna bənzəyən və ya ümumi məna verən düşüncəsini kənarlaşdırır. Əksi fərz olunsa, həmin məna aradan getmiş olacaq.

**İkinci: Cənnətə daxil olmağın şərti iman üzərində sabitqədəm olmaqdır**

Əgər Peyğəmbərlə (s) birgə Məkkədən hicrət edən və yurdlarından çıxarılan hər kəsin Allah yolunda bunlarla üzləşdiyini fərz etsək, bu ayəyə əsasən onların Cənnətə daxil olması iman üzərində qalmaqla, şəkk və tərəddüdə düşməməklə, iman və ədalətə zidd əməllər etməməklə, tövbə və saleh əməllər kimi amillərlə şərtlənir. Uca Allah bu şərtlərə uyğun olan hər kəsi Cənnətə daxil edəcəyinə vəd verib. Lakin heç bir yerdə deyilməyib ki, yalnız hicrət edib, yurdundan çıxarılıb və əziyyətə məruz qaldığına görə əməlləri nə olursa olsun, həmin şəxslər mütləq Cənnətə gedəcəklər. Məsələn, Uca Allah Qurani-Kərimdə buyurur: ***“Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar (Cəhənnəmdəki) Ğəyy dərəsinə düşəcəklər (onlar da öz əməllərinin cəzasını alacaqlar). Tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Onlar heç bir zülm (haqsızlıq) görmədən Cənnətə daxil olacaqlar”.***[323] Uca Allah tövbə edib, iman gətirən, saleh əməl görən şəxslərə Cənnəti vəd edir. Məgər ən sadə düşüncəli şəxs belə, bir kəsin Allahı qəzəbləndirəcək əməllərə davam etdiyi halda mücərrəd tövbə ilə Cənnətə gedəcəyini zənn edərmi?!

**Yeddinci ayə: Ənfal 47**

***“İman gətirib (Məkkədən Mədinəyə) köçənlər, Allah yolunda cihad edənlər (mühacirlər) və (Peyğəmbərlərlə mühacirlərə) sığınacaq verib***

---

[323] Məryəm, 59-60

***kömək edənlər (ənsar) məhz onlar həqiqi möminlərdir. Onları (axirətdə) bağışlanma və tükənməz (gözəl, minnətsiz) ruzi gözləyir!"***

**Ayənin müzakirəsi:**

Ötən ayə barədə söylədiklərimiz bu ayəyə də şamildir.

**Səkkizinci ayə: Tövbə 100**

***"(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən (əs-sabiqunəl-əvvəlun) mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. (Allah) onlar üçün əbədi qalacaqları, (ağacları) altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur (uğurdur)!"***

**Ayənin müzakirəsi:**

Bu ayənin də müəllifin qeyd etmək istədiyi mənaya heç bir dəlaləti yoxdur. Onun istəyi isə irəli düşən bütün mühacirlər və ənsarı mədh etməkdədir. Dəlalətin olmadığına aşağıdakı səbəbləri göstərmək olar:

**Birinci: "İlk irəli düşənlər"** ***(əs-sabiqunəl-əvvəlun)*** **məfhumu barədə ixtilafın olması**

İslam alimləri gah ilk irəli düşən (əs-sabiqunəl-əvvəlun) məfhumu, gah da onların şəxsiyyəti barədə ixtilaf etmişlər. Belə ki, ayədə ilk irəli düşənlərə böyük uğur və Cənnət nisbət verilir. İxtilaf ilk xəlifənin ilk irəli düşənlərdən olub-olmaması ilə başlayır. Təbəri öz "Tarix" əsərində yazır: *"Digərləri deyirlər: "Əbu Bəkrdən əvvəl bir dəstə insan İslamı qəbul etmişdi. Bunu söyləyənlərdən: İbn Hümeyd Kənanə ibn Cəblədən, o da İbrahim ibn Tahmandan, o da Həccac ibn Həccacdan, o da Qətadədən, o da Salim ibn Əbu Căddən Muhəmməd ibn Sədin atasına belə dediyini nəql edir: "Əbu Bəkr*

*aranızda İslamı ilk qəbul edən şəxs idi?" Dedi: "Xeyr, ondan əvvəl əllidən çox adam müsəlman olmuşdu".*[324]

Bunu İbn Macənin səhih istinadla "Sünən" kitabında nəql etdiyi rəvayət də dəstəkləyir. Həmçinin "Zəvaid"də, Hakimin "Müstədrək"ində qeyd edilib. Orada bu rəvayətin Müslim və Buxarinin şərtlərinə əsasən də səhih olduğu bildirilir. Əlidən (ə) nəql edilir: *"Mən Allah bəndəsi, Peyğəmbərin (s) qardaşı, ən böyük Siddiqəm. Bunu məndən sonra yalnız yalançı iddia edər. Camaatdan yeddi il əvvəl namaz qılmağa başlamışam".*[325]

**İkinci: Bu ayəyə başqa bir ayə ilə etiraz etmək mümkündür**

Mübahisə mövzusu olan səhabələrin bu sifətlə vəsfi onların zahirən deyil, batinən İslam həqiqəti üzərində olduqlarını isbat etdikdə mümkündür. Halbuki Uca Allah Quranda onların Peyğəmbərə (s) zahirdə iman gətirdiklərinə baxmayaraq həqiqətdə mömin olmadıqlarını xəbər verir. ***"Bədəvi ərəblər: "Biz iman gətirdik!" – dedilər. (Ey Peyğəmbər! Onlara) de: "Siz (qəlbən) iman gətirmədiniz!"***[326]

**Üçüncü: İlk irəli düşənlərdən bəzisinin mürtəd olması**

Əgər bütün səhabələrin bu ayənin məfhumuna daxil olduğunu fərz etsək, onlar barədə ilahi vədin həyata keçəcəyini güman etməliyik. Lakin biz onların Cənnətə daxil olmasını imanlarına görə qazandıqları savabla və ilk irəlidə olmaları (əs-sabiqunəl-əvvəlun) ilə şərtləndiyini görürük. Burada İhsan Zahirin iddiasının qarşısına bəzi müşküllər çıxır. Belə ki, ayənin əhatə etdiyi şəxslərdən biri – Übeydullah ibn Cəhş sonralar İslamdan üz döndərmişdir. Halbuki o da (əs-sabiqunəl-əvvəlundur) ilk irəlidə olanlardandır. Həbəşistana hicrət etdikdə orada xristianlığı qəbul

[324] Tarix, Təbəri, c. 2, s. 60
[325] Sünən, İbn Macə, c. 1, s. 44; Müstədrək, Hakim Nişapuri, c. 3, s. 112
[326] Hücurat, 14

etmiş və orada da xristian olaraq ölmüşdü. İhsan Zahir onun da Cənnətə daxil olacağını iddia etmiş olmurmu?!

Hakim Nişapuri yazır: *“Əbülabbas Muhəmməd ibn Yaqub Abdullah ibn Üsamə Hələbidən, o da Həccac ibn Əbu Mənidən, o da babasından, o da Zühirdən nəql edir: “Peyğəmbər (s) Əbu Süfyanın qızı Ümmü Həbibə ilə evləndi. Əvvəllər o, Übeydullah ibn Cəhş Əsədi Əsəd Xüzeymə ilə evli idi. Onunla evli olduğu vaxt əri Həbəşistanda vəfat etdi. Ümmü Həbibə onunla birlikdə Məkkədən Həbəşistana hicrət etmişdi. Sonra təşviq olunaraq xristianlığı qəbul etdi və xristian olaraq da dünyadan köçdü. Uca Allah Ümmü Həbibəyə İslam və hicrət bəxş edib sabitqədəm saxladı. Əri isə xristianlığı seçdi, xristian olaraq da öldü. Ümmü Həbibə bint Əbu Süfyan xristianlığı qəbul etməkdən imtina elədi, Uca Allahın inayəti ilə İslam və hicrətini qoruyub Mədinəyə qayıtdı. Peyğəmbər (s) ona elçi düşdü, Osman ibn Əffan onu evləndirdi”. Zühri deyir: “Güman edirlər ki, Peyğəmbər (s) Həbəş kralına məktub yazaraq onunla evləndiyini bildirmiş və Ümmü Həbibəni ondan geri almışdı”.*[327]

### Xülasə

Bu və əvvəlki ayələrin izahından İhsan Zahirin qeyd etdiyi, həmçinin İmamiyyə şiələrilə digərləri arasında səhabələrin ədaləti və düzgünlüyü barədə ixtilaf mövzusu olan başqa ayələrin də halı aydın olur. İmamiyyə şiələri Peyğəmbərin (s) bütün səhabələrinin azmış və haqq yoldan üz döndərmiş kəslər olduqlarını iddia etmirlər. Belə bir iddianı onlara nisbət vermək açıq-aydın yalan və iftiradır. Bəzilərinin iddiasına zidd olaraq, səhabələrdən fasiqlik, mürtədlik, üsyan və nifaq kimi sifətlərə sahib olanları ədalət və dürüstlük kimi sifətlərlə vəsf etmək əsla doğru sayılmaz. Bu mövzuya dair qarşıdakı bəhslərdə də dəlillər təqdim ediləcək.

---

[327] Müstədrək, c. 4, s. 20. Bax: Sünənul-kubra, Beyhəqi, c. 7, s. 71; Fəthul-Bari, İbn Həcər, c. 13, s. 9; əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 877

### İkinci bəhs: Qurani-Kərimin səhabələrə həqiqi münasibətinin bəyanı

Qurani-Kərimin səhabələrə həqiqi münasibətini (İhsan Zahirin müəllifi olduğu uydurma kitabındakı deyil) bilmək istəyən şəxs ayrı-ayrılıqda ayələrə deyil, bütünlükdə bir ayəsi digərini təfsir edən Qurana nəzər salmalıdır. Məgər Quran Allahın bütün səhabələrdən razı olduğuna və onları Cənnətə daxil edəcəyinə zəmanət verirmi?!

Ən böyük əmanət olan Qurani-Kərim bizə səhabələrin digər insanlar kimi olduğunu, böyük və kiçik günahlar etdiklərini bildirir. Məsələn, döyüşlərdən qaçdıqlarını, xəyanət etdiklərini, dindən döndüklərini və s. günahları haqqında söhbət açır. Bir kəsin müəyyən şəxslə yoldaşlığı (səhabə olması) onu azğınlıqdan, küfr və mürtədlikdən qoruyacaq əsas amil sayılmaz. Bu yoldaşlıq onun Cənnətə daxil olacağına da zəmanət verməz. Peyğəmbər (s) işıq saçan bir günəş kimidir. Ətrafındakılar isə bir güzgüdürlər. Onlardan pak olanlar nuru tam əks etdirə bilirlər. Hər biri öz saflığı miqdarda nur əks etdirə biləcək. Kirli və bulanıq olan güzgüdə günəşin nuru isə yalnız onun kirini aşkar edəcək.

İndi isə sizə Peyğəmbər (s) səhabələrindən bəhs edən ayələri təqdim edirik:

***"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? (Dininizdən dönəcək və ya döyüşdən qaçacaqsınız?) Halbuki geri dönən kəs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər".[328]*** Məgər bu ayədə xitab mühacir və ənsardan ibarət Peyğəmbər (s) səhabələrinə deyilmi?! Bəs onların səhabə, mühacir və ənsar olması dindən üz döndərmələrinə maneə yaratmalı deyilmi? Bu küfr və ya böyük günah da sayılmazmı?

---

[328] Ali-İmran, 144

Bəli, bu ayəni oxuyan şəxs onların səhabə, mühacir və ənsar olmalarının həm Peyğəmbər (s) həyatda ikən, həm də onun vəfatından sonra günahlarının, hətta fasiqliyə mürtəkib olduqlarının qarşısını almadığını görər. Bəs nə üçün hansısa bir səhabə haqqında mənfi fikir söylədikdə aləm bir-birinə dəyir? Sanki səhabələr heç bir günah və ya xətaya yol verməmişlər. Bu, Allahın dində qadağan etdiyi ğüluvv (həddi aşmaq) deyilmi? Buyurur: ***"De: "Ey kitab əhli! Dininizdə haqsız yerə ifrata varmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış bir tayfanın nəfsinin istəklərinə uymayın!"***[329]

Səhabələrdən söhbət açan digər bir ayə budur: ***"İki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri Şeytan, məhz etdikləri bəzi əməllərlə (Peyğəmbərin əmrinə asi olmaqla) yoldan çıxmağa (büdrəməyə) məcbur etdi. (Tövbə etdikdən sonra) Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir!"***[330] Bu ayədə mühacir və ənsardan bir dəstəsinin savaşdan qaçdıqları xəbər verilir. Məlum olduğu kimi fərarilik ən böyük günahlardan və cəzalandırılması gərəkən əməllərdəndir. Xüsusilə də bu, peyğəmbərlərin sonuncusunun (s) gözünün qarşısında baş verirsə...

Digər ayə: ***"O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən (vadinin üst və alt tərəfindən) hücum etmiş və (qorxudan) gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. (Möminlər Allahın Öz vədinə doğru olduğuna inanır, münafiqlər və etiqadı zəif olanlar isə Muhəmmədin (s) bu bəladan xilas ola bilməyəcəyini güman edirdilər).***

***Məhz onda (Xəndək vuruşunda) möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar.***

---

[329] Maidə, 77

[330] Ali-İmran, 155

***O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun peyğəmbəri bizə yalan vəd etmişdir. (Biz zəfər çala bilməyəcəyik)" – deyirdilər.***

***O zaman onlardan bir tayfa: "Ey Yəsrib (Mədinə) əhli. (Burada) sizin üçün duracaq bir yer yoxdur, (evinizə) qayıdın!" – demişdi. Başqa bir dəstə isə: "Evlərimiz açıqdır (kimsəsizdir, oğru girməsindən qorxuruq)"-deyə (geri qayıtmaq üçün) Peyğəmbərdən izin istəyirdi. Həqiqətdə evləri açıq (kimsəsiz) deyildi. Onlar ancaq (döyüşdən) qaçmaq istəyirdilər.***

***Əgər (Mədinənin) hər tərəfindən üstlərinə yüyürülüb (cumulub) onlardan fitnə törətmək (imandan dönmək, yenidən müşrikliyə qayıtmaq) istənilsəydi, sözsüz ki, dərhal onu edər və bunda (bu işdə) azacıq da olsa yubanmazdılar.***

***Halbuki bundan əvvəl (Ühüd savaşından sonra) bir daha (düşməndən) üz çevirib qaçmayacaqları barədə Allaha söz vermişdilər. Allaha verilən əhd barəsində (qiyamət günü) mütləq sorğu-sual olunacaqdır!***

***(Ey Peyğəmbər! Bu münafiqlərə) de: "Əgər ölməkdən, yaxud öldürülməkdən (qorxub) qaçarsınızsa, qaçmaq sizə heç bir fayda verməz. (Qaçsanız belə, dünyada) ancaq az bir müddət dolanıb-keçinərsiniz.***

***De: "Əgər Allah sizə bir pislik, yaxud bir yaxşılıq (mərhəmət) diləsə, Allahın sizin haqqınızda görəcəyi bu işə kim mane ola bilər?! Onlar (münafiqlər) özləri üçün Allahdan başqa nə bir hami, nə də bir mədədkar tapa bilərlər".***[331]

Bu ayələr bir dəstə səhabənin zahirdə müsəlmanlıq və möminlik iddia etdiklərinə, Peyğəmbərlə (s) birlikdə müharibələrdə döyüşdüklərinə dəlalət etsə də, eyni zamanda aralarında qəlblərində xəstəlik olan

---

[331] Əhzab, 10-17

münafiqlərin olduğunu da gün üzünə çıxarır. Onlardan yalnız nifaqlarını üzə vuranlar səhabələr arasında münafiq kimi tanınıb. Məsələn: Ühüddə iştirak etmiş Ovs ibn Qeyz, Peyğəmbərdən (s) döyüşə qatılmamaq üçün "***Evlərimiz açıqdır (kimsəsizdir, oğru girməsindən qorxuruq)"*** deyib izn istəyənlər.[332] Bütün bunlar səhabələrin eyni səviyyədə olmadığının sübutudur. Onların birinə şamil olan hökmü hamısına tətbiq etmək də doğru deyil.

Başqa bir ayə: ***"Həqiqətən, (Aişə barəsində) yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir. Onu (o xəbəri) pis bir şey zənn etməyin. O, bəlkə də, sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası var. Onlardan günahın böyüyünü öz üstünə götürəni (Abdullah ibn Übeyyi) isə (qiyamət günü) çox böyük (şiddətli) bir əzab gözləyir!"***[333]

Məgər bu yalan xəbəri gətirənlər səhabə deyildi?! Onların arasında ilk mühacirlərdən olan Əbu Bəkrin oğlunun xalası oğlu Müstəh ibn Əsasə də var. O, Bədr savaşında iştirak etmişdi. Peyğəmbər də bu böhtanına görə ona hədd cəzası tətbiq etdirmədimi?!

Ey səhabəliyi mühacir və ənsarı günahdan çəkindirən amil bilənlər! Məgər bu amil ərli qadına böhtan atmaqdan onları çəkindirməli deyildi?! Məgər yalnız tövbə onları həm Peyğəmbərin (s) zamanında, həm də ondan sonrakı dövrdə bu əməldən çəkindirməyə kifayət edirmi?!

Mühacir və ənsarın vəziyyəti və böyük-kiçik günahlara mürtəkib olduqları isbatlandıqda, bəs onlardan məqamca aşağı olan tüləqaların və bədəvilərin halı necə olacaq?!

Uca Allah buyurur: ***"Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər***

---

[332] Bax: əl-İsabə, İbn Həcər, c. 1, s. 305; əl-Bidayə vən-nihayə, İbn Kəsir, c. 4, s. 119 və s.

[333] Nur, 11

***var. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar."***[334]

Bu ayədə səhabələrin arasına qarışmış bədəvi ərəblərdən və Mədinə əhlindən olan münafiqlərdən söhbət açılır, onların nifaqının gizli olduğu, Allahdan başqasının onları tanımadığı bildirilir.

Həmçinin buyurur: ***"İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr (yəhudilər və xaçpərəstlər) kimi olmasınlar. Onların (peyğəmbərləri ilə birlikdə olduqları dövrün) üstündən uzun bir müddət keçmiş və (öyüd-nəsihəti unutduqları üçün) qəlbləri sərtləşmişdir. Onların çoxu (Allaha asi olan) fasiqlərdir!"***[335]

Bu ayə bizə bəyan edir ki, bir dəstə səhabənin qəlbi Allahın zikri və haqdan nazil olan Quran üçün itaətə açıq deyildi. Onlar bu ayədə qəlbləri sərtləşmiş şəxs kimi vəsf edilirlər. Heç şübhə yoxdur ki, belə bir sifət məzəmmətə layiqdir. Bu sifət onların iman və əqidələrinin zəifliyinə dəlalət edir. Uca Allah digər ayədə isə möminlərin həqiqi vəziyyətini ürəklərinin qorxudan titrəməsi ilə vəsf edir. Buyurur: ***"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən), Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər".***[336]

Müslim "Səhih"də (nəql olunan hədis də ondandır), həmçinin Nisai, Əbu Yəla və digərləri qələmə aldıqları əsərlərdə İbn Məsuddan nəql edirlər: *"Bizim müsəlman olmağımızla Uca Allahın* ***"İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib***

[334] Tövbə, 101
[335] Hədid, 16
[336] Ənfal, 2

***çatmadımı?!”*** [337] *ayəsi ilə bizi danlamasının arasında dörd il müddət vardı”.*[338]

Bu isə ayədəki xitabın məhz ilk səhabələrə aid olduğunu göstərir. Bütün bunlardan sonra səhabələrin imanın ali dərəcələrində olduğunu necə iddia etmək olar?!

Həmin mənalara dəlalət edən başqa ayələr də mövcuddur.

**Xülasə və nəticə**

Ayələrdən alınan nəticə budur ki, Quran səhabələrə böyük günahların, küfr və mürtədliyin baş verə biləcəyi adi bəşər övladı kimi yanaşır. Peyğəmbərdən (s) və Uca Allahın bütün pislikləri uzaqlaşdırıb pak qərar verdiyi ailəsindən başqa heç kəsin günahdan qorunduğunu və məsum olduğunu söyləmək mümkün deyil. Peyğəmbər (s) ailəsinin məsumluğu Əhli-Beyt (ə) barədəki bəhsimizdə bəyan edilmişdi. Bunlar Əli, Fatimə, Həsən, Hüseyn və Hüseynin doqquz övladıdır (Allahın salamı onlara olsun!). Onların sonuncusu yer üzü zülm və özbaşınalıqla dolduğu bir vaxtda onu ədalətlə dolduracaq olan İmam Mehdidir (ə).

Deməк, şiələrin bəzi səhabələrin Allaha, Peyğəmbərə (s) və Əhli-Beytə (ə) qarşı çıxdıqları barədə fikirləri heç də Qurana zidd iddia deyil. Əksinə, onlardan böyük günahların zahir olduğunu elə Quranın özü təsdiqləyir. Həqiqətən də bəzi səhabələrdən (tüləqaları[339] nəzərə almasaq) – elə mühacir və ənsarın özlərindən məzəmmət və danlağa səbəb olacaq əməllər zahir olurdu. Onlar tövbə etdikləri təqdirdə isə yenidən həmin əməlləri qayıtmayacaqlarına Quran zəmanət vermir.

Məgər İhsan Zahir səhabənin halını və vəziyyətini Allahdan və Peyğəmbərindən (s) daha yaxşı bilir?!

---

[337] Hədid, 16

[338] Səhih, Müslim, c. 8, s. 243. əs-Sünənul-kubra, Nisai, c. 6, s. 481

[339] Tüləqa – Məkkənin fəthindən sonra əsir düşüb iman gətirənlər.

## Üçüncü fəsil: Peyğəmbərin (s) səhabələrə münasibəti

Burada iki bəhs var:

**Birinci bəhs:** Peyğəmbərə (s) nisbət verilən hədislər və onların müzakirəsi

**İkinci bəhs:** Peyğəmbərin (s) səhabələrə həqiqi münasibətinin bəyanı

## Birinci bəhs: Peyğəmbərə (s) nisbət verilən hədislər və onların müzakirəsi

İhsan Zahir səhabələrin mədh edildiyi bir neçə Peyğəmbər (s) hədisini sadaladıqdan sonra bunların bütün sahəbələrə aid olduğunu iddia edir. Bunlar aşağıdakılardır:

**Birinci hədis: İlahi, ənsarı, ənsarın övladlarını və övladlarının övladlarını da bağışla!**

İhsan Zahir deyir: **"Şiələrin özlərinin sözlərinə əsasən, peyğəmbərlər Ağası (s) səhabələri tərifləyərək deyir: "İlahi, ənsarı, ənsarın övladlarını və övladlarının övladlarını da bağışla! Ey ənsar, məgər camaatın payına keçi, davar düşdüyü halda sizin payınıza Allahın Rəsulunun düşməsinə razı deyilsiniz?!"[340]**

**Müzakirə**

**Birinci:** Əgər Peyğəmbərin (s) bağışlanma dilədiyi şəxslər bütün ənsardırsa, o zaman Peyğəmbərin (s) onların hamısı üçün bağışlanma diləməsi mümkün olmayacaq. Belə ki, ənsarın arasında Abdullah ibn Übey ibn Səlul kimi münafiq başçıları da var. Bunu Qurani-Kərim bəyan edir: ***"Ətrafınızdakı bədəvilər və Mədinə əhalisi (ənsar) içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər var. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar".[341]*** Həmçinin: ***"Əgər münafiqlər, qəlblərində mərəz***

---

[340] Şiə və Əhli-Beyt, s. 37. "Nəhcul-Bəlağə"dən nəql edilərək. s. 557. Təhqiqatçı: Sübhi Saleh (İhsan Zahirin kitabında isə "Minhəcus-sadiqin", c. 4, s. 240; "Kəşful-ğummə", c. 1, s. 224)

[341] Tövbə, 101

***(zinakarlıq, pozğunluq mərəzi) olanlar və Mədinədə qəsdən yalan şayiələr yayanlar (bu pis əməllərinə) son qoymasalar, şübhəsiz ki, səni onların üstünə qaldırarıq. Sonra onlar səninlə ancaq az bir müddət orada qonşu ola bilərlər".***[342]

Uca Allaha Peyğəmbərə (s) münafiqlər üçün dua etməyi və namaz qılmağı qadağan etmişdir: ***"Onlardan (münafiqlərdən) ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun Peyğəmbərini dandılar və fasiq olaraq öldülər".***[343]

Həmçinin: ***"(Ey Peyğəmbərim!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də, yenə Allah onları bağışlamayacaq. Bu onların Allahı və Onun Peyğəmbərini inkar etmələrinə görədir. Allah fasiq tayfanı doğru yola yönəltməz!"***[344]

Bunlara rəğmən, Peyğəmbərin (s) bağışlanma duası bütün Mədinə əhlinə şamil ola bilərmi?[345]

---

[342] Əhzab, 60

[343] Tövbə, 84

[344] Tövbə, 80

[345] Burada qeyd etmək istərdik ki, əhli-sünnə kitablarında nəql olunan rəvayətə görə, Peyğəmbər (s) bir münafiq üçün cənazə namazı qılmış və dua etmişdi. Bu zaman Ömər ibn Xəttab ona etiraz edərək münafiq üçün dua etməsinin Allah tərəfindən qadağan edildiyini bildirmişdi. Bu hadisənin ardınca da Ömərin sözünü təsdiqləyən ayə nazil olmuşdu. Buxari "Səhih"də yazır: *"İbn Ömər rəvayət edir: "Abdullah (ibn Übey ibn Səlul) öldükdə oğlu Abdullah ibn Abdullah Peyğəmbərin (s) yanına gələrək köynəyini ona verməsini istədi ki, atasını bu köynəkdə kəfənləsin. Peyğəmbər (s) köynəyi verdi. Sonra o Peyğəmbərdən (s) onun atası üçün cənazə namazı qılmasını xahiş etdi. Peyğəmbər (s) namaz qılmaq üçün yerindən durdu. Bu zaman Ömər qalxıb Peyğəmbərin (s) paltarından yapışdı və dedi: "Ey Peyğəmbər, Rəbbin sənə ona namaz qılmağı qadağan etdiyi halda sən ona namaz qılırsan?!" Peyğəmbər (s) buyurdu: "Allah məni iki seçim qarşısında qoymuşdur:* ***"Onlar (münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsən də..."*** (Tövbə, 80). *Mən yetmiş dəfədən daha artıq sayda (istiğfar) diləyəcəyəm". Ömər dedi: "O, münafiqdir".*

*Ravi deyir: Peyğəmbər (s) ona namaz qıldı. Bu zaman Allah bu ayəni nazil etdi:* ***"Onlardan (münafiqlərdən) ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma..."*** (Tövbə, 84) "Səhih", Buxari, c. 2, s. 76. "Köynəklə kəfənləmə" babı.

---

*Həmçinin Ömər ibn Xəttabdan rəvayət olunur: "Abdullah ibn Übey ibn Səlul öldükdə Peyğəmbərdən (s) ona namaz qılması istənildi. Peyğəmbər (s) (namaz qılmaq üçün) ayağa qalxdıqda mən özümü onun qabağına atıb dedim: "Ey Peyğəmbər, Übeyin oğluna namaz qılırsan? O ki, filan gündə filan-filan sözləri demişdi". Onun sözlərini Peyğəmbər üçün təkrar etdim. Peyğəmbər (s) təbəssüm edib dedi: "Uzaq dur məndən, ey Ömər!" Elə ki, mən çox israr etdim, dedi: "Mənə seçim imkanı verilib, mənə də seçmişəm. Əgər bilsəm ki, yetmiş dəfədən artıq bağışlanma diləsəm o bağışlanacaq, bunu edəcəyəm".*

*Ömər deyir: Peyğəmbər (s) ona namaz qıldı və getdi. Az keçmişdi ki, "Bəraət* (Tövbə)*" surəsinin iki ayəsi nazil oldu:* ***"Onlardan (münafiqlərdən) ölən heç bir kəsə heç vaxt namaz qılma, qəbrinin başında durma... və fasiq olaraq öldülər".*** (Tövbə, 84) *Sonralar mən Peyğəmbərə qarşı etdiyim bu cürətdən heyrətə düşdüm. Allah və Onun Rəsulu daha yaxşı bilir".* (Səhih, Buxari, c. 2, s. 100. "Köynəklə kəfənləmə" babı)

İbn Həcər Ömərin bu hərəkətinə və Peyğəmbərə (s) qarşı pis rəftarına bəraət qazandırmaq üçün deyir: *"Ola bilsin ki, Ömər bu ayədəki* ***"istər bağışlanma dilə, istər diləmə;.."*** *kəlmələrindən bağışlanma diləməklə diləməməyin heç bir fərqinin olmadığını başa düşüb. Belə ki, bu cür təbir ərəb dilində geniş istifadə olunur. Həmçinin Ömər* ***"yetmiş dəfə"*** *kəlməsinin də mübaliğə üçün qeyd olunduğunu zənn edib, bundakı məqsədin məhz müəyyən bir sayın olduğunu düşünməyib. Bütün bunların bağışlanma diləməyi qadağan etdiyini güman edərək həmin hərəkətləri edib. Eləcə də meyit üçün Peyğəmbərin (s) bu namazının həmin kəs üçün rəhmət və şəfaət olduğunu düşünüb. Ona görə də Peyğəmbəri (s) bu işdən çəkindirməyə çalışıb.* (Fəthul-Bari, c. 8, s. 252)

İbn Həcərin sözündən başa düşülən budur ki, Ömərin ayədən anladığı məna ərəb dilinin qaydalarına müvafiq olub. Lakin Peyğəmbər (s) bunu qaydalara uyğun anlamayıb. Ona görə də Uca Allah növbəti ayəni nazil edərək Ömərin ayədən anladığı mənanı təsdiqləyib.

Əhli-sünnə kitablarında bu hadisə müxtəlif yollarla nəql edilmiş və bu mövzuda bir çox izahlar gətirilmişdir. Burada mövzumuza münasib olmadığı üçün onları qeyd etmirik. Sadəcə pak Əhli-Beytdən (ə) bu barədə nəql edilən rəvayəti qeyd etməklə kifayətlənirik ki, İslama və Peyğəmbərə (s) qarşı hansı cinayətin işləndiyi məlum olsun.

Kuleyni "əl-Kafi"də İmam Sadiqdən (ə) nəql edir: "Peyğəmbər (s) bir meyitə namaz qılarkən təkbir deyər, şəhadət söyləyərdi. Sonra təkbir deyib, peyğəmbərlərə (ə) salavat və dua edərdi. Ardınca təkbir deyib möminlər üçün dua edərdi. Dördüncü təkbirdə meyit üçün dua edərdi. Bundan sonra bir təkbir deyib bitirərdi. Uca Allah onu münafiqlərin meyitinə namaz qılmağı qadağan etdikdən **(sonra,)** onların cənazələrinə həmin namazı eynilə qılıb sonuncu təkbirdən sonra meyit üçün dua etmədən namazı bitirərdi". (əl-Kafi, c. 3, s. 180)

Buradan aydın olur ki, Uca Allahın qadağa etdiyi "salat (tərcümədə dua və ya namaz)" kəlmənin lüğəti mənasında olan duadır. Peyğəmbər (s) namazda onlar üçün dua etməzdi. Bunu ayənin Təbuk savaşından sonra, hicrətin 8-ci ilində nazil olması da təsdiqləyir. Belə ki, Abdullah ibn Ubey ibn Səlul hicrətin 9-cu ilində vəfat etmişdir və ayə nazil olarkən hələ həyatda idi. Bu isə Buxarinin Ömər ibn Xəttaba istinadən nəql olunan rəvayətinin yalan olduğuna dəlalət edir. Bunu qeyd etməkdə məqsədimiz müzakirədə söylədiyimiz irada bu rəvayətin əks dəlil olaraq göstərilə bilməyəcəyidir.

**İkinci:** Əgər məqsəd ənsardan müəyyən şəxslərdirsə, bunlar sadiq möminlərdirlər. Lakin onlardan bəzən günahlar da zahir olur. Həmin günahda israr etməsələr tövbələri məqbuldur. Bütün bunlar onların iman həqiqətini inkar etmir. Peyğəmbərin (s) duasının onlara şamil olmasına heç bir maneə yoxdur! O, rəhmət peyğəmbəri və Qiyamət günü şəfaətçidir. Peyğəmbər (s) ənsarın Allahı və özünü qəzəbləndirən əməllərini gördükdən sonra onlarda tövbənin əlamətlərini görür. Buna şiənin heç bir iradı yoxdur. Bütün bunların əksini isə şiəyə yalnız cahil nisbət verə bilər.

**Üçüncü:** Peyğəmbərin (s) ənsar üçün etdiyi dua onların bir daha günah etməyəcəklərinə dəlalət etmir. Peyğəmbər (s) onların qəti tövbə edənləri üçün bağışlanma diləyir. Lakin onlardan böyük günahlara davam edənlərə və ya gələcəkdə belə günahları işləyənlərə həmin dua şamil olmayacaq. Əlbəttə ki, əgər onlar bu günahlarında israrlı olmayıb tövbə etsələr dua onlar üçün də keçərlidir. Uca Allah buyurur: ***"Biz hər bir peyğəmbəri, ancaq ona Allahın izni ilə itaət olunsun deyə, göndərdik. Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər".*** [346]

Bu aydın məsələdir. Bəs ayəni bütün ənsarın tərifləndiyinə və onlardan razılığa necə dəlil göstərmək olar? Halbuki onların bəziləri ənsar (yardımçı), Peyğəmbər (s) ardıcılı və itaətkar anlayışına zidd olan əməllərə sahib idilər.

**İkinci hədis: Ənsar mənim yaxınlarım və gözümdür.**

İhsan Zahir deyir: **"Həmçinin Peyğəmbər (s) buyurur: "Ənsar mənim yaxınlarım və gözümdür. Əgər bütün camaat bir vadiyə, ənsar**

---

[346] Nisa, 64.

**isə başqa tərəfə üz tutsa, mən ənsarla olacağam".**[347]

**Müzakirə**

**Birinci:** Əvvəlki hədisə söylədiyimiz iradı burada da deyə bilərik. Həmçinin ümumən səhabələrin mədhinə dəlil göstərdiyi ayələri müzakirə edərkən söylədiklərimiz də bu məqamda qeyd edilə bilər. Orada həmin sözlərin bütün səhabələrə şamil ola bilməyəcəyini demişdik. Burada onları təkrar etməyə lüzum görmürük.

**İkinci:** "əl-Ğarat" kitabından Peyğəmbərə (s) istinad edilən bu hədisin dəlil olaraq göstərilməsi doğru deyil. Həmin kitabın müəllifinin İbrahim ibn Muhəmməd ibn Səid Səqəfi olması qətidir. Bunu Nəcaşi[348] və Şeyx Tusi[349] də qeyd ediblər. Lakin kitab əlimizə mötəbər yollarla yetişməyib. "əl-Ğarat" kitabı bizə yeddi yolla çatıb ki, bunlardan dördü Nəcaşi, biri Şeyx Tusi və ikisi Şeyx Səduq vasitəsilədir. Lakin bu yolların hamısı nöqsanlıdır.

Birinci, yəni Nəcaşiyə aid nüsxələrdə Abbas ibn Sindi[350] var. O, halı məchul şəxsdir.

İkincidə isə Muhəmməd ibn Zeyd Rital (və ya Ritab)[351] var ki, onun da həmçinin halı məchuldur.[352]

Üçüncü nüsxədə Əhməd ibn Ələviyyə[353] halı məchul şəxsdir.

Dördüncüdə Əbdürrəhman ibn İbrahim Müstəmli[354] də məchuldur.

---

[347] Şiə və Əhli-Beyt, s. 37. (İhsan Zahirin kitabında "Minhəcus-sadiqin", c. 4, s. 240; "Kəşful-ğummə", c. 1, s. 224) O kitablarda isə "əl-Ğarat" kitabından nəql edilir. c. 2, s. 479-480

[348] Ricalun-Nəcaşi, Nəcaşi, s. 18. V çap, 1416-cı h.q. ili, "İslam nəşrləri" mətbəəsi, Qum

[349] Ricalut-Tusi, Şeyx Tusi, Cavad Qəyyumi İsfahani, I çap, Ramazan 1415 h.q., "İslam nəşrləri" müəssisəsi, Qum

[350] Ricalun-Nəcaşi, Nəcaşi, s. 18

[351] Ricalun-Nəcaşi, Nəcaşi, s. 19

[352] Müstədrəkatu ilmi ricalil-hədis, Şeyx Əli Namazi Şahrudi, c. 7. I çap. Məhərrəm, 1415. "İbnul-müəllif" nəşriyyatı

[353] Ricalun-Nəcaşi, Nəcaşi, s. 19

[354] Müstədrəkatu ilmi ricalil-hədis, Şeyx Əli Namazi Şahrudi, c. 4, s. 380, rəqəm 7586

Şeyx Tusinin nüsxəsində isə yenə də Əbdürrəhman ibn İbrahim Müstəmli[355], Şeyx Səduqun hər iki nüsxəsində Əhməd ibn Ələviyyə var. Bu iki şəxsin məchul olduğunu yuxarıda qeyd etdik.

**Nəticə**

Bu kitab bizə mötəbər yollarla çatmadığına görə etibardan düşmüşdür. Mötəbər olmayan bir kitabı şiəyə qarşı dəlil gətirmək doğru deyil.

**Üçüncü hədis: İmam Baqirdən (ə) Peyğəmbər (s) səhabələrinin münafiqliyini inkar edən rəvayət**

İhsan Zahir deyir: **"Zeynəlabidin Əlinin oğlu Muhəmməd Baqirdən Peyğəmbər (s) səhabələrindən münafiqliyi inkar edən rəvayət nəql edilir. Rəvayət onların imanını və Allaha olan məhəbbətlərini isbatlayır. Əyyaşi və Bəhrani öz təfsirlərində *"Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!"*[356] ayəsinin şərhində bunu qeyd etmişlər.**

**Səlam deyir: "Əbu Cəfərin yanında idim. Həmran ibn Əyan yanına gəldi. Ondan bəzi şeylər barədə soruşdu. Həmran getmək üçün ayağa qalxarkən Əbu Cəfərə (ə) dedi: "Sizə bir şey söyləyim. Sizin yanınıza gəlib görüşdükdən sonra buradan qəlbimiz aram, nəfsimiz dünyadan çəkinmiş, camaatın əlindəki dünya malına rəğbətsiz halda çıxırıq. Gedib camaata qarışdıqda, ticarətə başladıqda yenidən dünyaya meyl edirik... Niyə belə olur?"**

**Əbu Cəfər (ə) buyurdu: "Bu, qəlbin halıdır. İşlər bəzən ona çətin, bəzən asan gəlir". Sonra buyurdu: "Peyğəmbərin (s) səhabələri ona**

---

[355] əl-Fehrist, Şeyx Tusi, Şeyx Cavad Qəyyuminin təhqiqilə. I çap, Şəban, 1417. "Füqahə" nəşriyyatı

[356] Bəqərə, 222

**demişdilər: "Öz barəmizdə münafiqlikdən qorxuruq". Peyğəmbər (s) soruşmuşdu: "Niyə qorxursunuz?"**

**Demişdilər: "Sənin yanında olarkən bizə moizə edib qorxutduqda qorxur, dünyanı unudur və ona qarşı etinasız oluruq. Sənin yanında olarkən sanki Axirəti, Cənnəti və Cəhənnəmi görürük... Buradan ayrıldıqda, evlərimizə daxil olduqda, övladlarımızın ətrini aldıqda, əhli-əyalımızı və malımızı gördükdə isə halımız dəyişir, sanki sənin yanında heç bir şey hiss etməmiş kimi oluruq. Bunun nifaq olmasından qorxuruq".**

**Peyğəmbər (s) onlara buyurmuşdu: "Xeyr, bu, Şeytanın addımlarıdır, sizi dünyaya rəğbətləndirir. Allaha and olsun ki, əgər mənim yanımda olduğunuz zaman özünüzdə vəsf etdiyiniz hal davam etsə mələklərlə əl verib görüşər, suyun üzərində gəzərsiniz. Əgər siz günah etməsəydiniz və buna görə Allahdan bağışlanma diləməsəydiniz, o zaman Allah başqa bir qövm yaradardı ki, onlar günah etsinlər, ardınca əfv diləsinlər və Allah da onları bağışlasın. Həqiqətən də mömin şəxs bəzən nəfsinə uyur, sonra peşman olaraq tövbə edir. Məgər Uca Allahın bu sözünü eşitməmisiniz? *"Allah tövbə edənləri sevər!"* və *"Rəbbinizdən bağışlanma diləyib Ona tövbə edin"*.[357]**

**Müzakirə**

**Birinci:** Bu rəvayətdə özlərindəki hal haqqında soruşanlar bütün səhabələr deyillər. Bir dəstə səhabənin Peyğəmbərin (s) yanına gələrək bunu soruşması kifayətdir ki, İmamın (ə) **"Peyğəmbərin (s) səhabələri ona demişdilər:.."** sözü öz təsdiqini tapsın. Peyğəmbərin (s) barələrində nifaqı inkar etdiyi şəxslər də bir dəstə səhabədir. İmam (ə) isə rəvayətdə

[357] Şiə və Əhli-Beyt, s. 41-42. "Təfsirul-Əyyaşi"dən nəql edilərək. c. 1, s. 109. Təfsirul-burhan, c. 1, s. 215

səhabələrin sayını bəyan etmir. Mövzu bağışlanma diləməyin və tövbə etməyin əhəmiyyəti, Allahın tövbəkarları sevməsidir. Bunlar isə İhsan Zahirin rəvayəti bütünlükdə Peyğəmbər (s) səhabələrindən nifaqın inkarı mövzusuna yönəltmək cəhdi ilə uyuşmur. Şiələr bütün səhabələri münafiqlikdə ittiham etmirlər ki, bu rəvayət də onların etiqadına zidd dəlil hesab edilsin.

**İkinci:** Rəvayət şiələrin səhabə haqqındakı etiqadını bir daha isbatlayır, səhabələrin digər bəşər övladları kimi haldan-hala düşdüklərini və günah etdiklərini bildirir. Lakin bütün günahlardan qorunmuş pak Əhli-Beyt (ə) belə deyillər. Onlar daim Allahın xəlq etdiyi hal üzərindədirlər. Səhabələr isə dünya ilə məşğul olarkən ona tərəf meyl edir, bu yolda günaha mürtəkib olur, döyüşdən qaçır, nəticədə tövbə edənlərini Uca Allah bağışlayır, günahda israr edənlərini isə oda daxil edir. Şiə əqidəsi onlar Allahdan bağışlanma dilədikləri zaman Allahın onları bağışlamadığını demir. Məsələ onların tövbə edib etməməsidir. Belə ki, onlardan bir dəstəsi günah etmiş, Allaha və Rəsuluna qarşı çıxmış, lakin tövbə etdiklərinə dair heç bir dəlil yoxdur. Peyğəmbərin (s): **"Əgər siz günah etməsəydiniz..."** sözü də söylədiyimizin dəlilidir. Bu isə səhabələrin ictihad edərək xəta etdiklərini söyləyənlərin iddialarına ziddir. İctihad sahibinin ictihadına günah deyilməz ki, sonradan da tövbəyə ehtiyac duysun. Əksinə, o, bu xətasına görə "mükafata" layiqdir.

**Üçüncü:** Qarşıda əhli-sünnə kitablarına istinadən Peyğəmbərin (s) səhabələrə olan münasibətinə müfəssəl şəkildə toxunacaq, Peyğəmbərin (s) bəzi səhabələrini münafiqliklə vəsf etdiyini görəcəyik. Müslimin "Səhih"ində qeyd edildiyi kimi: *"Səhabələrim arasında on iki nəfər münafiq var. Onlardan səkkiz nəfəri dəvə iynə deşiyindən keçmədikcə əsla Cənnətə daxil olmayacaq".*[358]

---

[358] Səhih, Müslim, c. 8, "Münafiqlərin vəsfləri" kitabı, s. 122

**Nəticə**

İhsan Zahirin nəql etdiyi bu rəvayətdə şiələrin Əhli-Beyt (ə) rəvayətlərində mövcud olan tələblərə xilaf çıxdıqları iddiasını isbat edəcək heç bir dəlil yoxdur.

**Dördüncü hədis: Peyğəmbər (s) öz səhabələrinə səadət və Cənnətlə müjdə verir.**

İhsan Zahir deyir: **“Əli ibn Musa Rza Peyğəmbərdən (s) belə buyurduğunu nəql edir: “Kim məni sağlığımda və ya vəfatımdan sonra ziyarət etsə, Allahı ziyarət etmiş olar”.[359] Doğru danışan, əmin və məxluqların ağası olan Peyğəmbər (s) öz səhabələrinə səadət və Cənnətlə müjdə verir. Belə ki, bu rəvayətə bənzər digər bir rəvayəti Qummi Cəfər ibn Baqirdən, o da atasından nəql edir. Peyğəmbər (s) buyurur: “Kim məni sağlığımda və ya vəfatımdan sonra ziyarət etsə Qiyamət günü onun şəfaətçisi olaram”.[360]**

**Müzakirə**

**Birinci: Əməllər niyyətə bağlıdır**

İnsandan zahir olan saleh əməllərlə bərabər xoş niyyətin də olması labüddür. Hər bir xeyirxah görünən əməl özü ilə savabı gətirmir. Savaba layiq əməldə Allaha yaxınlaşmaq niyyəti olmalıdır. Buxari Ömər ibn Xəttabdan Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *“Həqiqətən də əməllər niyyətlədir. Hər bir şəxsə etdiyi niyyət qalar. Kim dünya əldə etmək*

---

[359] Şiə və Əhli-Beyt, s. 43. İbn Babuveyh Qumminin “Uyunu əxbarir-Rza” kitabından nəql edilərək. c. 1, s. 115

[360] Şiə və Əhli-Beyt, s. 43. Himyərinin “Qurbul-isnad” kitabından nəql edilərək. s. 31, Tehran çapı

*və ya bir qadınla evlənmək üçün hicrət etmişsə, savabı da kimə görə hicrət etdiyindən gözləsin”.*[361]

Hicrət özlüyündə gözəl və savaba layiq bir əməl olsa da öz həqiqətini tapması üçün ondakı niyyət də əsas şərtdir. Burada niyyət isə Allaha yaxınlaşmaq olmalıdır.

Bu iki rəvayətdə məqsədin mütləq mənada Peyğəmbəri (s) həm həyatda ikən və həm də vəfatından sonra ziyarət edən hər bir kəs olması mümkün deyil. Deyə bilmərik ki, həmin rəvayətlər niyyəti Allaha yaxınlaşmaq olmadan Peyğəmbəri (s) ziyarət edən hər kəsə də şamildir və Peyğəmbəri (s) onun üçün şəfaətçi olacaq. Belə bir şeyin mümkünsüzlüyü qətidir. Çünki bu ziyarət əməlin təməli sayılan xoş və düzgün niyyətə əsaslanmalıdır.

**İkinci: Əməllər yalnız sonuna görə ölçülür**

Peyğəmbəri (s) həyatda ikən və ya vəfatından sonra ziyarət etmək rəvayətlərdə qeyd edildiyi kimi müəyyən təsirlərə malikdir. Lakin şərt budur ki, sonradan ziyarət edən şəxs müxalif əməllərə və böyük günahlara mürtəkib olmasın. Yoxsa bu əməllər onun ziyarətdən əldə etdiyi savabları puç edəcək. Əhli-sünnə kitablarında nəql olunan bir çox rəvayətlər əməllərin yalnız sonuna görə ölçüldüyünü qeyd edir. Onlardan bir neçəsini qeyd edək:

**1** – Heysəmi “Məcməuz-zəvaid” kitabında Ənəsdən nəql edir: *“Peyğəmbər (s) buyurdu: “Bir kəsin əməlinin sonu (aqibəti) sizi təəccübləndirməsin. İnsan ömrünün bir hissəsini saleh işlər görür. Əgər bu halda ölsə Cənnətə daxil olar. Lakin sonradan pis əməl sahibinə çevrilir.*

*Həmçinin pis əməl sahibi də belədir. Pis əməl üzərində ikən ölsə Cəhənnəmə daxil olacaq. Lakin sonra dəyişir və saleh işlərə meyl edir.*

---

[361] Səhih, Buxari, c. 1, s. 2, “Vəhyin başlanma necəliyi” babı, hədis 1

*Əgər Uca Allah bir bəndəsi üçün xeyir diləsə, onu ölümündən əvvəl hazırlayar".*

*Dedilər: "Ey Peyğəmbər, onu necə hazırlayar?"*

*Buyurdu: "Onu saleh əməllərə yönləndirər, sonra canını alar".*

Bunu Əhməd ibn Hənbəl, Əbu Yəla, Bəzzar, Təbərani "əl-Övsat"da nəql ediblər. Ricalındakı ravilərin hamısı "Səhih"in raviləridir".[362]

2 – Buxarinin "Səhih"ində Əbu Hüreyrədən nəql edilən rəvayətində deyilir: *"Peyğəmbər (s) buyurdu: "...Bir şəxs cəhənnəm əhlinin əməllərini edir. Cəhənnəmlə arasında cəmi bir addım məsafə qalır. Əcəli yetişməzdən öncə cənnət əhlinin əməllərini etməyə başlayır və nəticədə Cənnətə daxil olur.*

*Bir şəxs də Cənnət əhlinin əməllərini edir. Cənnətlə arasında cəmi bir addım məsafə qalır. Əcəli yetişməzdən öncə Cəhənnəm əhlinin əməllərini etməyə başlayır və nəticədə oda daxil olur".*[363]

3 – Həmçinin Buxari Səhldən nəql edir: *"Peyğəmbərlə (s) müşriklər savaşlardan birində üz-üzə gəldilər. Döyüş əsnasında hər iki tərəf öz ordusuna tərəf çəkildi. Lakin müsəlmanlardan bir nəfər müşriklərə aman verməyib onların ardınca gedir, qılıncı ilə onlara zərbə endirirdi. Dedilər: "Ey Peyğəmbər, heç kim filan şəxs kimi savaba malik olmaz". Buyurdu: "O, Cəhənnəm əhlidir". Dedilər: "Əgər bu cəhənnəm əhlidirsə, o zaman biz necə Cənnət əhli ola bilərik?!"*

*Onlardan biri həmin şəxsi izləməyə başladı. Sürətlənəndə onunla birlikdə sürətlənir, yavaşladıqda da onunla birgə yavaşlayırdı. Nəhayət yaralandı və yaraların ağrısından ölümünü tezləşdirmək istədi. Qılıncının dəstəyini yerə qoyub iti ucunu sinəsinə dayadı. Sonra sinəsini onun üzərinə basaraq özünü öldürdü. Onu izləyən şəxs Peyğəmbərin (s) yanına gəlib dedi: "Mən şəhadət verirəm ki, sən həqiqətən də Allahın elçisisən!" Peyğəmbər (s) nə baş verdiyini soruşduqda o, gördüklərini ona danışdı. Peyğəmbər (s) buyurdu:*

---

[362] əl-Möcamul-övsat, Təbərani, c. 3, s. 53

[363] Səhih, Buxari, c. 4, s. 104. "Məxluqatın yaranması" kitabı

*"Mümkündür ki, bir kəs insanların gözündə cənnət əhlinin əməllərini edir. Lakin o özü cəhənnəm əhlidir. Həmçinin bir şəxs camaat qarşısında cəhənnəm əhlinin əməllərini etdiyi halda nəticədə cənnət əhlindən ola bilər".*[364]

Bu və digər bu cür rəvayətlər aydın şəkildə əməllərin yalnız sonuna görə ölçüldüyünə dəlalət edir. Bəzən insan saleh əməllər etdiyi halda ömrünün sonunda əvvəlki əməllərini puç edəcək işlərə mürtəkib olur. Buna əməllərin puç olması barədə ayə də dəlalət edir: ***"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar".***[365] Həmçinin: ***"Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"***[366]

Təqdim edilənlərdən hasil olur ki, Peyğəmbərin (s) ziyarətinin saleh əməl olduğunu qəbul etsək də, bu, insanın gələcəkdə günah və xətalardan qorunduğu mənasını vermir. Bu onun aqibətinin yaxşı bitməsindən birbaşa asılıdır. Ziyarət də digər əməllər kimidir, onun da Axirətdə müsbət təsirləri var. Lakin bu müsbət təsirləri əldə etmək üçün aqibətinin xeyirli olması və sonradan öz əməllərini puç etməməsi şərtdir. Belə olduqda, bu hədisi mütləq mənada bütün hallara, xüsusən də aqibəti pis olan şəxslərə şamil etmək mümkün deyil.

---

[364] Səhih, Buxari, c. 5, s. 76. "Xeybər döyüşü" babı
[365] Hucurat, 2
[366] Bəqərə, 217

## İkinci bəhs: Peyğəmbərin (s) ümumən səhabəyə həqiqi münasibətinin bəyanı

Bu bəhsdə Peyğəmbərin (s) ümumən səhabəyə qarşı olan həqiqi münasibətini bəyan etmək istəyirik. Peyğəmbər (s) onların hamısından razı idi, ya yox?

Bu suala cavab vermək üçün şiə mənbələrinə ehtiyac duymadan yalnız əhli-sünnə mənbələrinə müraciət edəcəyik.

Əvvəlki rəvayətlərin müzakirəsindən də aydın oldu ki, Peyğəmbər (s) heç də bütün səhabələrindən razı deyildi. Bu, İmamiyyə şiələrinin rəyinə tam müvafiqdir. Onların fikrinə görə, səhabələrin hamısı Allahın və Peyğəmbərinin (s) rızasının hədəfi deyildilər, yalnız bəzi səhabələr bu razılığı qazanmışdılar. Lakin İhsan Zahir bu həqiqəti ümumiləşdirməyə çalışmış, şiələrin istisnasız bütün səhabələri məzəmmət etdiyi təsəvvürünü yaratmağa səy göstərmişdi. Bu isə həqiqətə və dəlillərə tam zidd bir iddiadır. Şiələrin tənqidi ancaq bir dəstə səhabəyə yönəlib ki, onları Allah və Rəsulu da (s) məzəmmət etmişdir. Səbəb isə onların ilahi şəriətə uyğun olmayan hərəkətləridir.

Onların bu rəftarlarını Quran və Peyğəmbər də (s) məzəmmət edir. Bu barədə dəlillər çoxdur. Onları beş fəsil çərçivəsində təqdim edəcəyik. Hər bir babda müvafiq mövzuları ehtiva edəcək və mövzuya uyğun rəvayətlər təqdim ediləcək. Bunlar aşağıdakılardan ibarətdir:

### Birinci hissə: Bir dəstə səhabənin Cəhənnəmə daxil olacağını bildirən rəvayətlər

Burada bir çox rəvayət var. Onları qisimlərə böləcəyik:

**Birinci qisim**

Səhabələrin ömürlərinin pis sonluqla başa çatacağını bildirən Peyğəmbər (s) rəvayətləri:

**1** – Buxari İbn Abbasa yetişən sənədlə nəql edir: *"Peyğəmbər (s) xütbə söyləyib buyurdu: "Ey camaat, siz Allahın hüzuruna ayaqyalın, lüt və sünnətsiz həşr olunacaqsınız. Uca Allah buyurur:* ***"(O gün insanları) ilk dəfə (yoxdan) yaratdığımız kimi qaytarıb (dirildib) əvvəlki halına salırıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik".***[367]

*Sonra buyurdu: "Bilin və agah olun ki, insanlardan libas geyəcək ilk şəxs İbrahimdir. Bilin ki, ümmətimdən bir dəstə adam gətirilib Cəhənnəmə doğru aparılacaq. Mən "Ey Rəbbim, səhabələrim, səhabələrim!" deyəcəyəm. Mənə deyiləcək: "Onların səndən sonra nələr etdiklərini bilmirsən!" Mən saleh bəndə İsanın dediyi kimi deyəcəyəm:* ***"Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni öldürdükdən sonra onlara nəzarətçi Özün oldun".*** *Mənə deyiləcək: Sən onların arasından ayrıldıqdan sonra dindən dönüb öz əvvəlki hallarına qayıtdılar".*[368]

**2** – Buxari Əbu Hüreyrəyə istinadən yazır: *"Peyğəmbər buyurdu: "Mən hovuzun başında dayanacağam. Bir dəstə tanıdığım adamı gətirəcəklər. Sonra mələk mənimlə onların arasına keçib onlara: "Gəlin gedək" deyəcək. Mən deyəcəyəm: "Hara?" O deyəcək: "Allaha and olsun ki, Cəhənnəmə". Mən onların nə etdiklərini soruşduqda, "Onlar səndən sonra dindən üz döndərib əvvəlki əməllərinə qayıtdılar" – deyə cavab verəcək.*

*Sonra bir dəstə tanıdığım adam gələcək. Yenə də bir mələk aramıza keçib onlara "gedək" – deyəcək. Onları hara apardıqlarını soruşacağam. Mənə "Allaha and olsun ki, Cəhənnəmə" – deyə cavab verəcək. Mən onların nə etdiklərini barədə soruşduqda isə deyiləcək: "Onlar səndən sonra dindən üz döndərib əvvəlki əməllərinə qayıtdılar".*

---

[367] Ənbiya, 104

[368] Səhih, Buxari, c. 5, s. 192

*Onlardan yalnız sürüsündən ayrı düşmüş dəvə miqdarında adamın (az hissəsinin) xilas olduğunu gördüm".*[369]

**3** – Əhməd ibn Hənbəl, Buxari, Müslim və digərləri Səhl ibn Sədin Peyğəmbərdən (s) belə rəvayət etdiyini yazırlar: *"Sizdən öncə hovuzun başında olacağam. Yanıma gələnlərə onun suyundan içirəcəyəm. Ondan içən şəxs bir daha heç vaxt susamayacaq. Yanıma tanıdığım və məni tanıyan bir dəstə insan da gələcək, lakin bu zaman mənimlə onların görüşməsinə maneə yaradılacaq". Əbu Hazim deyir: "Məni Numan ibn Əbu Əyyaş da dinləyirdi. Bu sözləri Səhldən eşitdiyimi təəccüblə soruşdu. Mən Səhldən bunları şəxsən eşitdiyimi dedim. Dedi: "Bunu Əbu Səid Xudridən eşitdiyimə şahidlik edirəm. O, Peyğəmbərdən (s) bu sözləri də əlavə etmişdi: "Deyəcəyəm: "Onlar məndəndirlər". Mənə deyiləcək: "Səndən sonra nələr etdiklərini bilmirsən". Deyəcəyəm: "Məndən sonra dəyişiklik edənlər uzaq olsunlar, uzaq olsunlar!"*[370]

Əgər bu rəvayətdəki *"səhabələrim"*, "*tanıdığım və məni tanıyan"* və ya *"Onlardan yalnız sürüsündən ayrı düşmüş dəvə qədərinin xilas olduğunu gördüm"* kimi sözlər bir dəstə səhabənin Cəhənnəmə aparıldığını bəyan edir. Məlumdur ki, sürüsündən ayrılıb yolunu azmış dəvənin sayı az olur. Bunu "Nihayə" əsərində İbn Əsir, "Fəthul-bari" kitabında İbn Həcər və digər hədis şərhçiləri də qeyd edirlər.

İbn Əsir deyir: *"Hovuz" hədisində "sürüsündən ayrı düşmüş" kəlməsində məqsəd azmış dəvələrdir. Yəni, onlardan nicat tapanların sayı azmış dəvələrin sayı qədər azdır".*[371]

---

369 Səhih, Buxari, c. 7, s. 207

370 Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 329; Səhih, Buxari, c. 7, s. 207 və c. 8, s. 87; Səhih, Müslim, c. 7, s. 66

371 Nihayə, c. 5, s. 273, Beyrut, "əl-Məktəbətul-elmiyyə" nəşriyyatı, h.q. 1399, m. 1979. Tahir Əhməd Zavinin və Mahmud Muhəmməd Tənahinin təhqiqi ilə

İbn Həcər Əsqəlani "Fəthul-bari"də yazır: *"Məna budur ki, onlardan yalnız az sayda adam geri qayıdır. Çünki azmış dəvə sürüdəki dəvələrə nisbətdə həmişə az olur".*[372]

Bütün səhabələrə şamil olacaq hansı ədaləti isbat etmək istəyirlər?! Halbuki dəstə-dəstə Cəhənnəmə aparılan səhabələrdən yalnız az hissəsi oddan xilas olur.

**İkinci qisim**

Burada müəyyən səhabələrin Cəhənnəm oduna daxil olacaqları barədə Peyğəmbərin (s) verdiyi xəbərləri qeyd edəcəyik.

**1** – Müslimin "Səhih"ində Qeysin Əmmara belə dediyi nəql olunur: *"Əliyə qarşı necə rəftar etdiyinizi gördünüz?! Öz rəyiniz idi, yoxsa Peyğəmbərdən (s) belə əhd almışdınız? Əmmar dedi: "Peyğəmbər bizə etdiyi əhdləri bütün camaata da edib. Hüzeyfə mənə Peyğəmbərin (s) belə buyurduğunu söyləyib: "Səhabələrimin arasında on iki nəfər münafiq var ki, onlardan səkkizi dəvə iynə deşiyindən keçmədikcə əsla Cənnətə girməyəcəklər. Onlardan səkkizi daxillərində bir xəstəliyə düçar olacaqlar. Yerdə qalan dördü haqqında Şöbənin nə dediyi yadımda qalmayıb".*[373]

**2** – Əhməd ibn Hənbəl "Müsnəd"də yazır: *"Əbu Ğadiyə deyir: "Əmmar ibn Yasir öldürüldü. Bunu Əmr ibn Asa xəbər verdilər. O dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişdim: "Onun qatili və onu qarət edən kəslər Cəhənnəmlikdirlər". Əmrə dedilər: "Bəs, sən də onunla vuruşursan!" O dedi: "Peyğəmbər "onun qatili və qarət edən kəslər" dedi".*[374]

---

372 Fəthul-bari fi şərhi "Səhihil-Buxari, İbn Həcər, c. 11, s. 414. II çap, "Darul-mərifət" nəşriyyatı, Beyrut, Livan

373 Səhih, Müslim, c. 8, "Münafiqlərin vəsfləri" kitabı, s. 122, hədis 2779

374 Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 198. Heysəmi də bunu nəql edir və ravilərin hamısının siqə (inanılan şəxslər) olduğunu deyir. (Məcməuz-zəvaid, c. 7, s. 244)

**3** – Təbərani Əbu Ğadiyədən nəql edir: *"Əmmar ibn Yasirin Osman ibn Əffan–haqqında pis sözlər danışdığını görüb dedim: "Bu işdən əl çək". Siffin savaşında əlində silahla savaşa girib çıxırdı. Mən onun böyrü ilə baldırı arasının müdaiəsiz olduğunu gördüm. Hücum edib dizindən vurdum. Yaralanıb yerə yıxıldıqda onu öldürdüm. Əmr ibn As dedi: "Peyğəmbərdən (s) belə buyurduğunu eşitmişdim: "Onun qatili və onu qarət edən kəslər Cəhənnəmlikdirlər".*[375]

Əbu Ğadiyənin səhabə olduğu məlumdur. Bunu Buxari, Yəhya ibn Muin, İbn Əbu Hatəm Razi və digərləri də qeyd etmişlər. İbn Həcər deyir: *"...Duri İbn Muindən belə nəql edir: Əbülğadiyə Cəhni Əmmarın qatilidir. O, səhabə olub. Onunla Əbülğadiyə Muzni arasında fərq qoyaraq deyir: Muzni barədə deyilib: Ondan Abdullah ibn Ümeyr hədis nəql edib. (Bəğəvi) deyir: Əbu Ğadiyə Cəhninin adı Yəsardır, Şamda yaşayıb. Buxari deyir: Cəhni səhabə olub. Əlavə olaraq deyir: Peyğəmbərdən hədis eşitmişdir. Əbu Hatəm deyir: "Külsüm ibn Cəbr ondan hədis nəql edib..."*[376]

Anlamaq olmur ki, ümumən səhabənin hamısının ədalətli olduğunu necə söyləmək olar?! Halbuki Peyğəmbər (s) heç bir yozum yeri olmayan bir hədislə onlardan birinin Cəhənnəmə gedəcəyini bildirir.

**3** – Buxari "Tarixus-sağir" kitabında, Yaqub ibn Süfyan özünün "Tarix" əsərində, Beyhəqi "Dəlailun-nübuvvə" kitabında Əbu Hüreyrədən nəql edirlər: *"Peyğəmbər (s) səhabələrindən on nəfərinə baxıb dedi: "Sizdən sonuncu ölən kəs oddadır". Onların arasında Səmurə ibn Cündəb də vardı. Əbu Nəzrə deyir: "Onlardan sonuncu ölən Səmurə ibn Cündəb idi".*[377]

---

[375] əl-Möcamul-övsat, Təbərani, c. 9, s. 103

[376] əl-İsabə, İbn Həcər, c. 7, s. 26

[377] əl-Mərifət vət-tarix, Yaqub ibn Süfyan Fəsəvi, c. 3, s. 353; ət-Tarixus-sağir, Buxari, c. 1, s. 133, Mahmud İbrahim Zayidin təhqiqi ilə, I çap, 1406 h.q., "Darul-mərifət" nəşriyyatı, Beyrut; Dəlailun-nübuvvə, Beyhəqi, c. 6, s. 458. Orada müəllif deyir: *"Raviləri inanılan şəxslərdir".*

Beyhəqi bu hədisi başqa yolla da nəql edir: *"Ənəs ibn Hükeym Zabyi deyir: "Mədinədən keçirdim, Əbu Hüreyrə ilə rastlaşdım. Sözə başlar-başlamaz məndən Səmurə barədə soruşdu. Onun sağ və salamat olduğunu xəbər verdikdə sevindi. Dedi: "Biz on nəfər bir evdə yığışmışdıq. Peyğəmbər aramızda dayanıb üzümüzə baxdı, qapının çərçivəsindən tutduğu halda buyurdu: "Sizdən sonuncu ölən kəs oddadır"."*[378]

Bu aydın mənalı hədisi yozmaq üçün nə qədər "zəhmət" çəkdiklərini gördüm. Lakin səyləri elm əhlinin nəzərində faydasızdır. Onların sözlərinin xülasəsi budur: Peyğəmbər (s) onun axirətdə Cəhənnəm odunda olacağını demir, bu yolla Səmurə ibn Cündəbin yanaraq dünyadan köçəcəyini xəbər verir.

Bu yozum cəhdləri yanlışdır. Çünki hədisdən anlaşılır ki:

**Birinci: Bu yozum hədisin zahirinə müxalifdir**

Hədisi eşidən şəxs Peyğəmbərin (s) Səmurənin Axirətdəki aqibəti barədə xəbər verdiyini anlayır. "Filan şəxs oddadır" sözündən o şəxsin yanaraq öləcəyini heç kəs başa düşməz. Əksinə, hamı bu sözdən həmin şəxsin Cəhənnəm oduna daxil olacağını anlayır. Necə ki, başqa bir hədisdə deyilir: *"Öldürən də, ölən də oddadır".*

**İkinci: Xitab olunan şəxslərin anladığı məfhuma müxalif olması**

Peyğəmbərin (s) xitab etdiyi həmin on nəfər bu sözdən Cəhənnəmə daxil olmağı anlamışdır. Necə ki, onlardan səkkiz nəfəri öldükdən sonra Əbu Hüreyrə narahat halda Səmurə ibn Cündəbin həyatda olub-olmadığını soruşur. O, Səmurədən əvvəl ölməyi diləyir. Belə ki, həmin on nəfərdən yalnız bu ikisi sağdırlar. O, sonuncu ölmək istəmirdi ki, Peyğəmbərin (s) sözü də barəsində təsdiqlənsin.

---

[378] Dəlailun-nubuvvə, Beyhəqi, c. 6, s. 458

Bu da onu göstərir ki, onlar Peyğəmbərin (s) sözündən sonuncu ölən şəxsin Cəhənnəm oduna girəcəyini anlayıblar. Bundan əlavə, Peyğəmbərin (s) sözündən sonra onlar hədisin mənasını soruşmurlar. Bu isə onların hamısının nəzərində sözün aydın olduğuna dəlalət edir.

**Üçüncü: Hədisin Səmurənin həyatına uyğunluğu**

Peyğəmbər (s) dövründə və onun vəfatından sonra Səmurənin yaşadığı həyat bu hədisin məzmunu ilə uyğundur. Peyğəmbər (s) həyatda ikən Səmurə ona xurma ağacı qarşılığında vəd edilən Axirət savabını rədd etmişdi. İbn Əbu Davudun "Sünən"ində yazdığı məşhur hədisdə bunun şahidi oluruq: *"Süleyman ibn Davud Ətki Muhəmməd ibn Əlidən Səmurə ibn Cündəb barədə nəql etdiyi hədisdə deyir: "Səmurə ənsardan olan bir nəfərə torpağından bir hissə satdı. Amma şərt kəsdi ki, həyətin ortasındakı bir xurma ağacını özünə saxlayır. Ənsardan olan müsəlman razılaşıb sahəni aldı, ev tikib ailəsi ilə birlikdə ora köçdü. Amma Səmurə hər gün sahəyə icazəsiz gəlir, evin qabağından keçib öz ağacının yanına gedir, onu sulayır, meyvəsini dərirdi. Ev sahibi bir neçə dəfə Səmurədən xahiş etdi ki, ailəni narahat etməmək üçün həyətə girəndə icazə istəsin. Amma Səmurə: "Öz ağacımın yanına gəlmək üçün niyə icazə almalıyam?" deyə cavab verdi. Axırda bağ sahibi Səmurənin yola gəlmədiyini görüb Peyğəmbərin yanına getdi, hadisəni o həzrətə danışıb məsləhət istədi.*

*Peyğəmbər (s) Səmurəni çağırtdırıb həmin ağacı ona satmasını və ya başqa yerə köçürməsini təklif etdi. Lakin Səmurə bunlardan imtina elədi. Peyğəmbər ona əvəzində filan-filan şeyləri hədiyyə edəcəyini söylədi. Səmurə isə fikrindən dönmədi. Peyğəmbər buyurdu: "Sən o ağacı bağ sahibinə bağışlasan ya satsan, mən zamin duraram ki, bunun əvəzində Allah sənə cənnətdə bir xurma ağacı bağışlayar". Lakin Səmurə yenə razı olmadı.*

*Belə olduqda Peyğəmbər (s) bağ sahibinə Səmurənin ağacını qoparıb özünə verməsini tapşırdı".*

*Beyhəqi bu hədisi "əs-Sünənul-kubra"da İmam Sadiqə (ə) yetişən başqa bir sənədlə də nəql edib.*[379]

Peyğəmbərin (s) vəfatından sonra isə Səmurə yalnız zalım və fasiq kəsin mürtəkib ola biləcəyi əməllərə giriftar oldu. Müslim öz "Səhih"ində yazır: *"İbn Abbasdan nəql edilir: "Ömərə Səmurənin şərab satdığı xəbəri yetişdikdə dedi: "Allah Səmurəni öldürsdün! Məgər o bilmir ki, Peyğəmbər belə buyurub: "Allah yəhudilərə lənət elədi. Onlara piy haram edildiyi halda onlar onu satmağa başlamışdılar".*[380]

Zəhəbinin "Tarixul-islam" və "Siyəru əlamin-nübəla" əsərlərində Beyhəqinin "Dəlailun-nubuvvə" kitabından nəql etdiyinə əsasən, Amir ibn Əbu Amir deyir: *"Xəzz qəbiləsində Yunus ibn Übeydin məclisində idik. Dedilər: "Bu torpağın (xilafətin ərazisini nəzərdə tutur) qan iyi qoxuduğu kimi başqa yerin belə iy verdiyini düşünmürəm. Burada yetmiş min insan qətlə yetirilib".*

*Yunus gəldikdə ona dedim: "Ey Əba Əbdillah, camaat filan-filan sözləri danışır!" Dedi: "Bəli, elədir". Ondan bunları kimin etdiyini soruşdular. Dedi: "Ziyad, İbn Ziyad və Səmurə". Nə üçün bunu etdiyini soruşduqda dedi: "Vallahi, qədərdir, bundan qaçmaq mümkün deyildi".*[381]

## İkinci hissə: Bəzi səhabələrin ümumi olaraq məzəmmət edildiyinə dəlalət edən rəvayətlər

Burada bəzi səhabələrin ümumi olaraq məzəmmət edildiyinə dəlalət edən rəvayətlərə nəzər salacağıq. Onlardan bəzisinin bu əməlləri etdikləri də isbatlanıb. Həmin səhabələrin Peyğəmbərin (s) birbaşa məzəmmətinə hədəf olduqları gün kimi aydındır. Biz bunların bir qismini təqdim edəcək və hansı səhabələrə şamil olduğunu vurğulayacağıq:

---

[379] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 157

[380] Səhih, Müslim, c. 5, s. 41

[381] Dəlailun-nubuvvə, Beyhəqi, c. 6, s. 460; Tarixul-islam, Zəhəbi, c. 4, s. 233; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 185

**Birinci qisim: İmam Əliyə (ə) qarşı məhəbbət və nifrət mövzusunda rəvayətlər**

Bir çox rəvayət var ki, Əliyə (ə) nifrət bəsləyən kəsin münafiq olduğunu, bu nifrəti ilə Allaha və Peyğəmbərinə (s) də nifrət bəslədiyini, belə kəsin aqibətinin Cəhənnəm odu olacağını bildirir. Eyni zamanda Peyğəmbərin (s) yaşadığı və vəfatından sonrakı dövrlərdə bəzi səhabələrin ona bəslədiyi nifrəti qeyd edən bir sıra rəvayətlər də mövcuddur.

**Birinci: Əliyə (ə) sevgi və nifrətin iman və nifaqın meyarı olduğunu bildirən rəvayətlər**

**1** – Müslim, İbn Əbu Şeybə, İbn Macə, Bəzzar, Əbu Yəla, Nisai, İbn Hibban və digərləri Zərr ibn Hübeyşdən İmam Əlinin (ə) belə buyurduğunu nəql edirlər: *"Toxumu yaran və nəfəsi yaradana and olsun ki, ümmi Peyğəmbər (s) mənə dönə-dönə tapşırmışdır ki, məni mömindən başqası sevməyəcək və münafiqdən başqası da nifrət etməyəcək".*[382]

**2** – Təbərani "əl-Möcamul-övsat"da, Hakim "Müstədrək"də İbn Abbasdan nəql edirlər: *"Peyğəmbər (s) Əliyə baxıb buyurdu: "Səni mömindən başqası sevməz, münafiqdən başqası isə nifrət bəsləməz. Səni sevən məni sevmişdir, nifrət bəsləyən isə mənə nifrət bəsləmişdir. Mənim sevmiş Allahı sevmiş, nifrət bəsləyən isə Allaha nifrət bəsləmişdir. Məndən sonra sənə nifrət bəsləyənin vay halına (və ya ölüm olsun ona)!"*[383]

**3** – Təbərani Əbu Tüfeylin Ümmü Sələmədən belə eşitdiyini nəql edir: *"Peyğəmbərdən (s) belə eşitdiyimə şəhadət verirəm: "Əlini sevən məni, məni*

---

[382] Səhih, Müslim, c. 1, s. "Əlini sevmək imandandır" babı, "İman" kitabı; Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 365. Sünən, İbn Macə, c. 1, s. 42; Müsnəd, Bəzzar, c. 2, s. 182; Müsnəd, Əbu Yəla, c. 1, s. 347; Sünənun-Kubra, c. 5, s. 135; Səhih, İbn Hibban, c. 15, s. 367

[383] əl-Möcamul-övsat, Təbərani, c. 5, s. 87; əl-Müstədrək ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 138. Hakim Nişapuri deyir: *"Bu hədis Müslim və Buxarinin şərtlərinə əsasən səhihdir. Onların icmasına əsasən Əbüləzhər siqədir (inanılan şəxsdir)".*

*sevən isə Allahı sevmişdir. Əliyə nifrət bəsləyən mənə, mənə nifrət bəsləyən də Allaha nifrət bəsləmişdir".*[384]

**4** – Hakim Nişapuri Ovf ibn Əbu Osmandan nəql edir: *"Bir nəfər Salmana dedi: "Əlini nə çox sevirsən?!" Salman cavabında dedi: "Peyğəmbərdən (s) belə buyurduğunu eşitmişəm: "Əlini sevən məni sevmiş, ona nifrət bəsləyən isə mənə nifrət bəsləmişdir".*[385]

**Rəvayətlərdən əldə olunan nəticə**

Bu hədislərdən aydın olur ki, insanların, eləcə də səhabələrin iman dərəcələri Əliyə (ə) olan sevgilərinə görə fərqlənir. İnsanın Əliyə (ə) qarşı sevgisi artdıqca imanı da artır. Bunun əksini iddia etmək də düzgündür.

**İkinci: Bəzi səhabələrin Əliyə (ə) nifrət etdiyi barədə rəvayətlər**

**1** – Əhməd ibn Hənbəl "Müsnəd"də, İbn Səd "ət-Təbəqat"da mətnindəki kiçik fərqlilik və səhih sənədlə nəql edirlər (nəql etdiyimiz rəvayət Əhməd ibn Hənbəlin "Müsnəd"indəndir): *"Müəmmər Zuhridən, o da Übeydullah ibn Abdullah ibn Ütbədən Aişənin ona belə söylədiyini deyir: "Peyğəmbərin ilk şikayəti Məymunənin evində oldu. Xəstəlik səbəbilə Meymunənin evində qalması üçün zövcələrindən icazə istədi, onlar da izn verdilər.*

*Bir müddət sonra Peyğəmbərin (s) bir əli Fəzl ibn Abbasın, digər əli başqa bir nəfərin çiynində və ayaqlarını yerlə sürüyən halda evdən çıxdığını gördüm".*

*Übeydullah deyir: "Bunu İbn Abbasa danışdım, Aişənin adını söyləmədiyi ikinci şəxsin kim olduğunu soruşdum. İbn Abbas onun Əli olduğunu bildirdi.*

---

[384] əl-Möcamul-kəbir, Təbərani, c. 23, s. 380; Heysəmi "Məcməuz-zəvaid"də deyir: *"Hədisin istinadı həsəndir".* c. 9, s. 133

[385] əl-Müstədrək ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 141, rəqəm 4648. Hakim Nişapuri deyir: *"Bu hədis Müslim və Buxarinin şərtlərinə əsasən səhihdir, lakin öz kitablarında qeyd etməyiblər".*

*Çünki Aişənin ondan xoşu gəlmirdi".*[386]

İbn Sədin kitabındakı rəvayətdə isə deyilir: *"İbn Abbas dedi: "Bu Əli idi, lakin Aişənin ondan xoşu gəlmir".*[387]

**2** – Həmçinin Əhməd öz "Müsnəd"ində, İbn Əbu Şeybə "Müsənnəf"də, Hakim "Müstədrək"də və digər hədisçilər Yəsardan nəql edirlər: *"Bir nəfər gəlib Aişənin yanında Əli və Əmmar barədə pis sözlər danışdı". Aişə dedi: "Əli barəsində sənə bir şey söyləməyəcəyəm. Amma Əmmar barədə Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm ki, o iki seçim qarşısında qalanda ən doğrusunu seçər".*[388]

Sevgi və iman, nifrət və nifaq arasındakı bu möhkəm əlaqədə Salman, Miqdad, Əbu Zərr və Əmmar kimi xas Əli (ə) şiələrinin sirri Cənnətə olan şövqləridir. Əhməd ibn Hənbəlin qeyd etdiyi səhih hədisdə deyilir: *"İbn Büreydə atasından Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: "Uca Allah səhabələrimdən dördünü sevir və Özünün də onları sevdiyini mənə xəbər verərək onları sevməyi tapşırır". Səhabələr onların kim olduğunu soruşduqda buyurdu: "Əli onlardan biridir, Əbu Zərr, Salman Farisi və Miqdad ibn Əsvəd Kindi".*[389]

Bu hədisi Tirmizi də kitabında qeyd edərək "həsən" hədis olduğunu bildirmişdi.[390]

Digər bir rəvayəti Təbərani İmran ibn Taidən nəql edir: *"Ənəs ibn Malikin belə dediyini eşitdim: "Peyğəmbər (s) buyurur: "Cənnət dörd nəfərə müştaqdır: Əli ibn Əbu Talibə, Əmmar ibn Yasirə, Salman Farisiyə və Miqdad ibn Əsvədə (r)".*[391]

---

[386] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 228. Buxari, Müslim və digərləri də bu hədisi nəql etmişlər. Lakin oradakı *"Çünki Aişənin ondan xoşu gəlmirdi"* sözünü yazmamışlar. Səhih, Buxari, c. 1, s. 236, Səhih, Müslim, c. 1, s. 312.

[387] ət-Təbəqatul-kubra, İbn Səd, c. 2, s. 232

[388] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 113

[389] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 351

[390] Sünən, Tirmizi, c. 5, s. 299

[391] əl-Möcamul-kəbir, Təbərani, c. 6, s. 215, rəqəm 6045

Xülasə, Peyğəmbər (s) bu hədislər vasitəsilə Əliyə (ə) olan sevgini səhabələr üçün iman tərəzisi qərar verib. Bu sevgi ilə mömin münafiqdən fərqlənir. Əliyə (ə) olan sevgisi isbatlanmayan hər hansı bir səhabə barədə mömin hökmü vermək olmaz.

Müsəlmanlara yalnız Əlini (ə) sevmək əmr olunmayıb. Əksinə onu öz canlarından çox sevmələri vacib buyurulub. Çünki Əli (ə) onlara canlarından daha çox ixtiyar sahibidir. Necə ki, buna mütəvatir olan Qədir Xum hədisi də şahidlik edir. Həmin rəvayətdə deyilir: *"Ey camaat, sizə canınızdan övla (üstün, ixtiyar sahibi) kimdir?" Dedilər: "Allah və rəsulu daha yaxşı bilər". Buyurdu: "Məgər mən sizə canınızdan övla deyiləmmi?" Dedilər: "Bəli". Peyğəmbər (s) buyurdu: "Mən kimə canından övlayamsa, bu Əli ona övladır" (Və ya: Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır).*[392]

Həmçinin "Quş" hədisi də Əlinin (ə) Allah və Peyğəmbər (s) yanında məxluqlardan ən sevimli bəndə olduğuna dəlildir. Bunu bir çox hədis əhli öz kitablarında qeyd etmişlər. Onlardan Hakim Nişapurinin Ənəs ibn Malikdən nəql etdiyi rəvayətini təqdim edirik: *"Peyğəmbərin (s) xidmətində idim. Onuun (s) üçün qızardılmış quş gətirildi. Quşu qəbul edən Peyğəmbər (s) buyurdu: "İlahi, bu quşu yemək üçün məxluqlarından ən sevimlisini yanıma göndər". Mən dedim: "İlahi, o, ənsardan bir nəfər olsun!" Bu zaman Əli (r) gəldi. Mən ona Peyğəmbərin (s) məşğul olduğunu söylədim. Sonra yenidən gəldi. Peyğəmbər (s) onun üçün qapını açmağımı istədi. İçəri girdikdə Peyğəmbər ondan niyə gecikdiyini soruşdu. Əli dedi: "Bununla üçüncü dəfədir ki, qapıya gəlirəm və Ənəs sənin məşğul olduğunu güman edərək məni geri qaytarır". Peyğəmbər (s) məndən bunun səbəbini soruşduqda dedim: "Ey Peyğəmbər (s), sənin duanı eşitdim, həmin şəxsin öz qövmümüzdən olmasını dilədim". Peyğəmbər (s) buyurdu: "Bu kişini öz*

[392] Əvvəlki səhifələrdə bu hədisə toxunmuşduq. Mənbə üçün onlara müraciət edə bilərsiniz.

*qövmü sevir”.*[393]

Peyğəmbər (s) zamanında səhabələrin bəzi rəftarları onların Əliyə (ə) nifrət bəslədiyini, onu kənarlaşdırmağa və fəzilətlərini inkar etməyə cəhd göstərdiklərini göstərir.

Əbu Zərr, Cabir ibn Abdullah Ənsari və İbn Məsud kimi Əli (ə) aşiqlərindən əhli-sünnənin mötəbər kitablarında səhih sənədlərlə nəql olunan rəvayətlərə diqqət yetirin. Onlar deyirlər: *“Peyğəmbər (s) zamanında biz münafiqləri Əliyə (ə) qarşı nifrətlərindən tanıyardıq”*.[394] Bu sözlər Peyğəmbər (s) zamanında Əliyə (ə) nifrət bəsləyən bir dəstə səhabənin varlığından xəbər verir.

Həmçinin mövzuya dəlalət edən başqa hədislər də var ki, inşallah, onları qarşıda sizə təqdim edəcəyik.

**Üçüncü: Peyğəmbərin (s) vəfatından sonra bəzi səhabələrin İmam Əliyə (ə) qarşı nifrətinin üzə çıxması**

Peyğəmbərin (s) vəfatından sonra baş verənlər İslam üçün böyük bəla oldu. Bir dəstə insanın üzü döndü, xüsusilə də xanım Fatimənin (ə)

---

[393] Müstədrək, Hakim, c. 3, s. 141. Müəllif deyir: Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin onu kitablarında qeyd etməyiblər. Bu hədisi Ənəsdən 30-dan artıq insan rəvayət edib. Həmçinin bu rəvayət Əlidən, Əbu Səid Xudridən və Səfinədən də nəql edilib. Sabit Bənaninin Ənəsdən nəql etdiyi rəvayətdə isə bəzi əlavələr də var.

Bu hədisi eləcə də Əhməd ibn Hənbəl, Bəzzar, Əbu Yəla Mosuli, Tirmizi, Nisai, İbn Əbu Hatəm Razi, Beyhəqi, Təbərani, Xətib Bağdadi, Dar Qutni, Əbu Nəim İsfahani, Təbəri, İbn Kəsir və başqa hədis əhli də qeyd etmişdir.

Bu, Ənəs ibn Malikin Əli ilə üz-üzə gəldiyi yeganə məqam deyil. Qarşıda digər məqamlara da toxunacağıq.

[394] Hakim Nişapuri Əbu Zərdən rəvayət edir: “Peyğəmbər (s) zamanında münafiqləri Allahı, Peyğəmbəri inkar etmələri, namazdan qaçmaları və Əli ibn Əbu Talibə (r) olan nifrətlərindən tanıyırdıq”. Hakim deyir: Hədis Buxari və Müslimin şərtinə əsasən səhihdir, lakin onu kitablarında qeyd etməyiblər”. (Müstədrək, c. 3, s. 129)

Təbərani kitabında Cabirdən nəql edir: “Peyğəmbər (s) zamanında biz münafiqləri yalnız Əliyə (ə) qarşı nifrətlərindən tanıyırdıq”. (əl-Möcamul-övsət, c. 2, s. 28)

şəhadətindən sonra Əli (ə) onların arasında qərib şəxsə çevrildi. Səhabələr Əlinin (ə) məqamı, özünə yaxınlığı və fəzilətləri barədə Peyğəmbərin (s) söylədiklərini unutdular, gizli saxladıqları nifrətlərini büruzə verdilər. Əbu Yəla Mosulinin Hakim və İbn Hibbanın səhih olduğunu söylədikləri sənədlə qeyd etdiyi hədisdə deyildiyi kimi, Peyğəmbər (s) bunu Əliyə (ə) əvvəlcədən xəbər vermişdi. "*Əli ibn Əbu Talib deyir: "Peyğəmbərlə birgə Mədinənin küçələri ilə gedirdik. Bir bağın yanından keçdik. Dedim: "Ey Allahın elçisi, nə gözəl bağdır!" Dedi: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan bundan daha gözəldir".*

*Sonra başqa bir bağın yanından keçdik. Dedim: "Ey Allahın elçisi, nə gözəl bağdır!" Dedi: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan bundan daha gözəldir".*

*Beləliklə yeddi bağın yanından keçdik, hər birinin də yanından keçərkən "Ey Allahın elçisi, nə gözəl bağdır!" dedim, o isə: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan bundan daha gözəldir" cavabını verdi.*

*Yolun sonuna çatdıqda məni qucaqladı. Gözləri yaşla dolmuş və hər an hönkür-hönkür ağlayacaq halda olduğunu görüb dedim: "Ey Allahın elçisi! Niyə ağlayırsan?" Buyurdu: "Bir dəstə insanın qəlbindəki sənə qarşı olan nifrəti yalnız mənim ölümümdən sonra aşkar olacaq".*

*Dedim: "(Həmin vaxt) dinim salamatda olacaq?" Dedi: "Bəli, dinin salamatda olacaq".*[395]

Bunu həmçinin Bəzzar, Nisai, Hakim, Xətib və başqaları da öz kitablarında qeyd ediblər.[396]

---

[395] Müsnəd, Əbu Yəla Mosuli, c. 1, s. 426. Heysəmi "Məcməuz-zəvaid"də deyir (c. 9, s. 118): *"Bunu Əbu Yəla və Bəzzar da rəvayət etmişlər. Həmin rəvayətin sənədində Fəzl ibn Ümeyrə də var ki, İbn Hibban onun siqə olduğunu deyib".* (əs-Siqat, c. 9, s. 5; Müstədrək, c. 3, s. 139) Orada bu hədisin sənədinin Müslim və Buxarinin şərtinə əsasən səhih olduğunu deyir, lakin öz kitablarında bunu qeyd etmədiklərini bildirir.

[396] Müsnəd, Bəzzar, c. 2, s. 293, hədis 716. Müstədrək, Hakim Nişapuri, c. 3, s. 139; Tarixu Bağdad, Xətib, c. 12, s. 394.

Hakim Nişapuri İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) Əliyə buyurdu: "Məndən sonra özünə qarşı şiddət görəcəksən". Dedi: "Dinim salamat olacaq?" Buyurdu: "Bəli, dinin salamatda olacaq".*[397]

Həmçinin Əlidən (ə) nəql olunur: *"Peyğəmbərin (s) mənə xəbər verdiyi işlərdən biri də onun vəfatından sonra ümmətin mənə qarşı qalxacağıdır".*[398]

Peyğəmbərin (s) *"Bir dəstə insanın qəlbindəki sənə qarşı olan nifrəti..."* sözü böyük bir dəstə səhabənin (onların çoxluğuna hədisdəki "ümmət" kəlməsi də dəlalət edir) qəlblərində Əliyə (ə) qarşı nifrətlərini gizlətdiklərinə, Peyğəmbərin (s) vəfatından sonra büruzə verib ona qarşı çıxacaqlarına aydın və aşkar sübutdur.

Əliyə (ə) qarşı nifrət və ona qarşı çıxmaq iman və razılıqla bir yerə sığa bilərmi?!

Yaxud Səqifə əhlinin əməlləri Əliyə (ə) məhəbbətin təzahürüdürmü?! Əlinin (ə) müsəlmanlar üzərindəki xəlifəliyinə açıq dəlillər olduğu halda onunla bir an belə məsləhət etmədikləri üsyanın təzahürü deyilmi?

Əli ilə məsləhətləşmək bir yana qalsın, hakimiyyət və rəhbərlik sevgisi gözləri elə kor etmişdi ki, peyğəmbərlərin əşrəfinin (s) cənazəsinin qüslü, kəfənlənməsi və dəfni belə onların yadından çıxmışdı.

Sonra Əbu Bəkr Əli (ə) ilə məsləhətləşmədən, hesablaşmadan və sanki mövcud deyilmiş kimi, sevgi və ehtiramını nəzərə almadan xilafəti Ömərə verir?!

Məgər Şura əhlinin də rəftarı bu nifrət və üsyanın təzahürü deyilmi?!

Eləcə də Cəməl, Siffin və Nəhrivan əhlinin əməlləri bu nifrəti büruzə vermirmi?!

Necə ola bilər ki, Uca Allah ***"(Ey Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və***

---

397 Müstədrək, Hakim Nişapuri, c. 3, s. 140. Sonra yazır: *"Buxari və Müslimin şərtinə əsasən hədis səhihdir, lakin kitablarında qeyd etməyiblər".*

398 Müstədrək, Hakim Nişapuri, c. 3, s. 140. Deyir: *"Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim bunu kitablarında qeyd etməyiblər".*

***günahlarınızı bağışlasın. Allah bağışlayandır, rəhmlidir!”***[399] buyurduğu halda onlar belə bir iddiada olsunlar?!

**İkinci qisim: Əliyə (ə) əziyyət edən Peyğəmbərə (s) əziyyət etmişdir**

Burada bir neçə rəvayət var:

**1** – İstinadlı olaraq Tirmizi Bərradan rəvayət edir: *“Peyğəmbər (s) savaş üçün iki qoşun göndərdi. Birinə Əli ibn Əbu Talibi, digərinə isə Xalid ibn Vəlidi başçı qoydu və buyurdu: Əgər döyüş başlasa başçınız Əlidir.*

*Əli qalanı fəth etdi, oradan özünə bir cariyə götürdü. Vəlid Peyğəmbərə (s) məktub yazıb mənimlə göndərdi. Peyğəmbər (s) məktubu oxuduqda rəngi dəyişdi. Sonra buyurdu: “Allahı və Rəsulunu sevən, Allahın və Rəsulunun da sevdiyi bir şəxsdən nə istəyirsiniz?!”*

*Mən: “Allahın və Peyğəmbərinin qəzəbindən Allaha sığınıram! Mən yalnız məktubu gətirən bir qasidəm” deyib susdum”.*[400]

**2** – Əbu Yəla Mosuli Sad ibn Əbu Vəqqasdan rəvayət edir: *“Məsciddə oturmuşdum. Yanımdakı iki nəfər Əli barədə təhqiramiz sözlər danışırdılar. Peyğəmbər (s) üzündən qəzəbli olduğu hiss edildiyi halda yaxınlaşdı. Onun qəzəbindən Allaha sığınıram. Buyurdu: “Sizə nə olub?! Kim Əliyə əziyyət etsə, mənə əziyyət etmişdir”.*[401]

Heysəmi deyir: *“Əbu Yəlanın hədisindəki şəxslər “Səhih”in raviləridir. Mahmud ibn Xəddaş və Qinandan savayı, onlar siqədirlər”.*[402]

**3** – Əhməd ibn Hənbəl İmran ibn Həsindən rəvayət edir: *“Peyğəmbər (s) qoşun dəstəsini döyüşə göndərdi, orduya başçılığı isə Əli ibn Əbu Talibə həvalə etdi. Əli səfərdə bəzi işlər gördü. Oradakı dörd səhabə bunları Peyğəmbərə (s) söyləyəcəklərini bir-birlərinə vəd verdilər.*

---

[399] Ali-İmran, 31

[400] Sünən, Tirmizi, c. 4, s. 330. Deyir: *“Bu, həsən hədisdir”.*

[401] Müsnəd, Əbu Yəla, c. 2, s. 109

[402] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 129

*İmran deyir: Səfərdən qayıdan kimi Peyğəmbərin (s) yanına gəldik, onu salamladıq. Aralarından biri dedi: "Ey Peyğəmbər, Əli filan-filan şeylə elədi". Peyğəmbər (s) ondan üzünü çevirib kənarlaşdı. Sonra ikincisi ayağa qalxıb Əlinin səfərdə filan-filan şeyləri etdiyini söylədi. Peyğəmbər (s) ondan da üzünü çevirdi. Ardınca üçüncü və dördüncü kəs də eyni sözləri dedikdə Peyğəmbər (s) onlardan da kənarlaşdı. Sonra onların yanına qayıdıb buyurdu: "Əlidən əl çəkin! Əlidən əl çəkin! Əli məndən, mən də ondanam. O, məndən sonra hər bir möminin mövlasıdır!"*[403]

Bu hədisi İbn Əbu Şeybə[404], Əbu Davud Təyalisi[405], Tirmizi, İbn Əbu Asim[406], Nisai[407], Əbu Yəla Mosuli, İbn Hibban öz "Səhih"ində[408], Təbərani "əl-Möcamul-kəbir"də[409] və Hakim Nişapuri "Müstədrək"də[410] qeyd etmişlər.

**4** – Hakim Əmr ibn Şas Əsləmidən (Hüdeybiyyədə iştirak edən səhabələrdəndir) nəql edir: *"Əli ilə (r) birlikdə Yəmənə tərəf yola çıxdıq. Yolda mənə qarşı sərt davrandı və mən bundan narahat oldum. Səfərdən qayıtdıqda bu hərəkətini məsciddə olanlara danışdım. Barəsində söylədiklərim Peyğəmbərə (s) çatdı.*

*Bir gün səhər məscidə gəldim, Peyğəmbər (s) səhabələri ilə birgə dayanmışdı. Məni gördükdə yerimə oturanadək nəzərlərini sərtləşdirdi. Sonra buyurdu: "Ey Əmr, Allaha and olsun ki, mənə əziyyət etmisən". Dedim: "Sənə əziyyət etməkdən Allaha sığınıram, ey Peyğəmbər!" Buyurdu: "Bəli,*

---

403 Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 438

404 Müsənnəf, İbn Əbu Şeybə Kufi, s. 504. Təhqiq və şərh Səid Ləhamındır. I çap, Cəmadiul-axir h.q.1409 (m.1989), "Darul-fikr" nəşriyyatı, Beyrut, Livan.

405 Müsnəd, Əbu Davud Təyalisi, s. 111

406 əl-Ahad vəl-Məsani, İbn Əbu Asim, c. 4, s. 279

407 Sünənul-Kubra, c. 5, s. 132; "Xəsaisu Əmiril-muminin", s. 64

408 Səhih", İbn Hibban, c. 15, s. 374

409 əl-Möcəmul-kəbir, Təbərani, c. 12, s. 78; c. 18, s. 129

410 Müstədrək, Hakim, Deyir: Bu hədis Buxari və Müslimin şərtinə əsasən səhihdir, lakin onu qeyd etməmişlər.

*Əliyə əziyyət edən mənə əziyyət etmişdir".*[411]

Diqqət yetirirsinizsə, onların sözlərinə görə, Peyğəmbər (s) Əlini (ə) əsla danlamır və etiraz etmir, əksinə Əsləmini şiddətlə qınayır və *"Mənə əziyyət etmisən"* deyir. Əsləmi Rizvan beyətində iştirak edən səhabədir. Bu isə həmin beyətdə iştirak edən bütün səhabələrin Əliyə (ə) münasibətlərinə görə danlanmasının mümkün olduğunu göstərir. Mənası isə budur ki, ey səhabələr, əgər Əlinin (ə) sizdən razılığı yoxdursa əməlləriniz, cihadda iştirakınız və səhabə olduğunuz sizi qürurlandırıb aldatmasın. Allah peyğəmbərini qəzəbləndirən və əziyyət edən əməl necə də pisdir! Vay olsun Peyğəmbərə (s) əziyyət edən və onu qəzəbləndirən şəxsə Allahın əzabından və Cəhənnəm odundan!

**Üçüncü qisim: Əlini söyən şəxsin Allahı və Peyğəmbəri (s) söydüyünə dəlalət edən rəvayətlər**

Əhməd ibn Hənbəl "Müsnəd"də, Hakim "Müstədrək"də (rəvayət ondan nəql olunur) Abdullah Cədəlidən nəql edirlər: *"Ümmü Sələmənin yanına getmişdim. Mənə dedi: "Aranızda Peyğəmbəri (s) söyən varmı?" Mən "Allaha sığınıram!", "Sübhanallah!" və ya bu mənada söz dedim. Dedi: "Peyğəmbərdən (s) belə buyurduğunu eşitmişəm: "Əlini söyən məni söymüşdür".*[412]

Bu hədisi Hakim Nişapuri bəzi əlavələrlə Əbu İshaq Təmimidən də nəql edib: *"Əbu Abdullah Cədəlinin belə dediyini eşitdim: "Cavan yaşlarımda Həccə getmişdim, Mədinəyə gəldikdə camaatın dəstə şəklində hərəkət*

---

[411] Müstədrək, Hakim, c. 3, s. 131. Deyir: Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməmişlər.

[412] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 323; Müstədrək, Hakim Nişapuri, c. 3, s. 130. Orada Hakim deyir: "Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməmişlər". Heysəmi hədisin sənədi barədə deyir: "Ricalı "Səhih"in ricalıdır, onlardan yalnız Abdullah Cədəli siqədir". (Məcməuz-zəvaid, c. 9, s. 130)

*etdiyini gördüm. Onların ardınca getdim. Peyğəmbərin (s) zövcəsi Ümmü Sələmənin yanına gəldilər. Onun belə dediyini eşitdim: "Ey Şəbib ibn Rəbi!" Tərbiyəsiz və kobud görünüşlü bir adam səsləndi: "Buyur, anacan!" Ümmü Sələmə dedi: "Sizin məclislərinizdə Peyğəmbəri (s) söyürlərmi?" Həmin adam dedi: "Bu nə sözdür?" Ümmü Sələmə dedi: "Bəs Əli ibn Əbu Talibi?" Kişi dedi: "Biz dünyamızı qazanmaq üçün bəzən belə sözlər danışırıq". Dedi: "Mən Peyğəmbərdən (s) belə buyurduğunu eşitmişəm: "Əlini söyən məni, məni söyən isə Allahı söymüşdür".*[413]

Məlum və şübhəsizdir ki, Osmanın qətlindən sonra Müaviyə və tərəfdarları arasında Əlinin (ə) söyülməsi və lənətlənməsi adi hal idi. Buna İbn Əbu Şeybənin, İbn Macənin və başqalarının səhih sənədlə Səd ibn Əbu Vəqqasdan nəql etdiyi rəvayət də şahidlik edir: *"Müaviyə Həcc ziyarətinə gəlmişdi. Səd onun yanına getdi. Oradakılar Əlinin (ə) barəsində danışır və təhqir edirdilər. Bunu görə Səd qəzəblənib dedi: "Bu kişi nə danışır?! Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır", həmçinin: "Sənin mənə nisbətin Harunun Musaya olan nisbətidir. Yalnız məndən sonra peyğəmbər yoxdur". Eləcə də: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir".*[414]

Albani bu hədisin sənədi barəsində *"səhihdir"* deyir.[415]

## Dördüncü qisim: Fatiməni (ə) qəzəbləndirən Allahı və Rəsulunu (s) qəzəbləndirmişdir

Hakimin "Müstədrək"ində qeyd edilir: *"Əli (r) Peyğəmbərin (s) Fatiməyə (ə) belə buyurduğunu dedi: "Həqiqətən də Allah, sənin razılığınla razı olur,*

---

[413] Müstədrək, Hakim Nişapuri, c. 3, s. 130
[414] Musənnəf, İbn Əbu Şeybə,c. 6, s. 366; Sünən, İbn Macə, c. 1, s. 45
[415] Səhihu Sünəni İbn Macə", Albani, c. 1, s. 26

*qəzəbinlə qəzəblənir".*[416]

Əhli-sünnənin İbn Əbu Asim[417], Dulabi[418], Təbərani[419], İbn Ədiyy[420], İbn Nəccar Bağdadi kimi əksər hədis imamları bu hədisi öz kitablarında qeyd etmişlər.

**1** – Əhməd ibn Hənbəl "Müsnəd"də Abdullah ibn Zübeyrdən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Fatimə mənim bir parçamdır, ona əziyyət edən şey mənə də əziyyət edər, onu kədərləndirən məni də kədərləndirər".*[421]

Tirmizi də bu hədisə kitabında yer verərək deyir: *"Bu həsən səhih hədisdir".*[422]

Həmçinin Hakim "Müstədrək"də bu hədisi qeyd edir və deyir: *"Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim qeyd etməmişlər".*

**2** – Buxari Misvar ibn Məxrəməyə istinadla nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Fatimə mənim bir parçamdır. Onu qəzəbləndirən məni qəzəbləndirmişdir".*[423]

**3** – Müslim də Misvar ibn Məxrəməyə istinadla kitabında Peyğəmbərin (s) belə buyurduğunu yazır: *"Fatimə mənim bir parçamdır, ona əziyyət edən şeylər mənə də əziyyət edər".*[424]

Peyğəmbərə (s) əziyyət edənlərin hökmünü isə Uca Allah kitabında bəyan edir: ***"Allahın Rəsuluna əziyyət verənləri isə şiddətli bir əzab***

---

[416] Müstədrək", Hakim Nişapuri, c. 3, s. 154. Deyir: Bu, istinadı səhih hədisdir. Lakin Buxari və Müslim onu qeyd etməmişlər.

[417] əl-Ahad vəl-məsani, c. 5, s. 363, Basim Feysəl Əhməd Cəvabirənin təhqiqilə. I çap, 1411 (1991)-ci il. "Darud-dirayə" nəşriyyatı

[418] əl-Möcamul-kəbir, Təbərani, c. 1, s. 108; c. 22, s. 401. İbn Həcər onun sənədi barədə "istinadı səhihdir" deyir. Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 203

[419] əl-Kamil, Abdullah ibn Ədiyy, c. 2, s. 351. Hüseyn ibn Zeyd ibn Əlinin tərcüməsi. III çap, Məhərrəm 1409 h.q

[420] Zeylu tarixi Bağdad, İbn Nəccar Bağdadi, c. 1

[421] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 5

[422] Sünən, Tirmizi, c. 5, s. 36, hədis 3961

[423] Səhih, Buxari, c. 4, s. 210. "Mühacirlərin üstün əməlləri və fəzilətləri" babı.

[424] Səhih, Müslim, c. 7, s. 141. "Fatimənin fəzilətləri" babı

***gözləyir!”***[425]

“Səhih”lərdə və digər kitablarda bəzi səhabələrin Xanım Fatiməyə (ə) əziyyət etdikləri rəvayət olunub. Xanım onlara qarşı şiddətli qəzəblənmiş, dünyadan köçənədək əlaqəsini kəsmiş və cənazəsinə namaz qılmağa izin verməmişdi. Bu hədislərdən:

Buxari öz “Səhih”ində İbn Şihabdan rəvayət edir: *“Ürvə ibn Zübeyr mənə möminlərin anası Aişənin (r) belə söylədiyini xəbər verdi: “Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr siddiqdən Peyğəmbərə (s) məxsus mirasdan payının ayrılmasını istədi. Əbu Bəkr dedi: “Peyğəmbər belə buyurub: “Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq. Geridə qoyduqlarımız sədəqədir”. Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı”.*[426]

Həmçinin Buxari və Müslim kitablarında Ürvənin Aişədən rəvayət etdiyi hadisəni nəql edirlər: *“Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib Peyğəmbərin (s) mirasını, Allahın Mədinədən ona məxsus etdiklərini (feyini), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi... Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Dəfnində Əbu Bəkrin iştirakına izn vermədi...”*[427]

Buradan aydın olur ki, bəzi səhabələrin Xanım Fatiməyə (ə) etdikləri pisliyi heç bir əsasla ictihad olaraq dəyərləndirmək mümkün deyil. Peyğəmbər (s) həyatda ikən səhabələrinə onun məqamını açıq-aydın tanıtmış, Allahın onlardan razılığının meyarını Fatimənin (ə) razılığında

---

[425] Tövbə, 61

[426] Səhih, Buxari, c. 4, səh, 42, “Xümsün fərz olması” babı. Bunu Əhməd ibn Hənbəl “Müsnəd”də də qeyd edib, c. 1, s. 6. Həmçinin Beyhəqi “əs-Sünənul-kubra”da: c. 6, s. 300

[427] Səhih, Buxari, c. 5, s. 83, “Xeybər savşı” babı; Səhih, Müslim, c. 5, s. 154

qərar vermişdi. Bir kəsin Allahın və Peyğəmbərinin (s) qəzəbinə səbəb ola biləcək məsələdə ictihad etməsində xeyir ola bilməz.

**Beşinci qisim: Əhli-Beytlə (ə) savaşın Peyğəmbərlə (s) savaş olduğuna dair dəlillər**

**1** – İbn Əbu Şeybə "Müsənnəf"də, həmçinin İbn Macə (rəvayət onun kitabındandır) və Tirmizi "Sünən"də, İbn Hibban "Səhih"də, Təbərani "Kəbir", "Övsat" və "Sağir" möcəmlərdə, Hakim "Müstədrək"də və s. mənbələrdə Zeyd ibn Ərqəmdən nəql edirlər: *"Peyğəmbər (s) Əliyə, Fatiməyə, Həsənə və Hüseynə buyurdu: "Mən sizin sülhdə olduğunuzla sülhdə, savaşdığınızla savaşdayam".*[428]

**2** – Hakim və digərlərinin qeyd etdiyi hədis: *"Əbdürrəhman ibn Osman Cabir ibn Abdullahdan nəql edir: "Peyğəmbər (s) Əlinin (r) əlindən tutaraq belə buyurdu: "Bu, xeyirxahların (möminlərin) əmiri, günahkarların qatilidir. Ona yardım edənlər qalib, onu tərk edənlər isə zəlildir". Bunu uca səslə buyurdu".*

Hakim bu hədislə bağlı deyir: *"Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməmişlər"*.[429]

**3** – Mütəvatir "Qədir-Xum" hədisi: Əmr ibn Zi Mərdən, Səid ibn Vəhəbdən və Zeyd ibn Yəsidən belə dedikləri nəql olunur: *"Əlinin belə dediyini eşitdik: "Sizi Allaha and verirəm! Kim Peyğəmbərin (s) Qədir-Xumda söylədiklərini eşitdiyinə şahidlik edər? On üç nəfər yerindən qalxaraq Peyğəmbərin (s) belə buyurduğuna şahidlik etdilər: "Məgər mən möminlərə canlarından övla (üstün, ixtiyar sahibi) deyiləmmi?" Camaat: "Bəli, ey Peyğəmbər!" deyə cavab verdilər. Peyğəmbər (s) Əlinin əlindən tutub*

---

[428] Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 378; Sünən, İbn Macə, c. 1, s. 52; Sünən, Tirmizi, c. 5, s. 699; Səhih, İbn Hibban, c. 15, s. 434; Təbərani, əl-Möcamul-kəbir, c. 3, s. 40. əl-Möcamul-övsat, c. 3, s. 179; əl-Möcamus-sağir, c. 2, s. 53; əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 161

[429] əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 140

*buyurdu: "Mən kimin mövlasıyamsa (ixtiyar sahibiyəmsə) bu Əli (ə) də onun mövlasıdır. İlahi, onun dostuna dost, düşməninə düşmən ol, onu sevəni sev, ona qarşı çıxana qarşı çıx, ona kömək edənə yardım et, tərk edəni tək burax!"*[430]

Bu rəvayətdən alınan nəticəyə əsasən, Peyğəmbər (s) Əhli-Beytə (ə) qarşı savaşan, savaşa təşviq edən və ya susub onlara yardım etməyən hər kəsin Peyğəmbərlə (s) savaşdığına hökm edir. Bundan böyük günah?! Peyğəmbərlə (s) savaşan kəslərə necə ədalət və doğru yol əhli deyək?! Muhəmmədin (s) Əhli-Beyti (ə) ilə savaşan kəsləri ittiham etmək üçün bundan aydın kəlmələr varmı?!

**Altıncı qisim: Əmmar ibn Yasirə nifrət bəsləyənin Allaha nifrət bəslədiyinə dair dəlillər**

Əhməd ibn Hənbəl, İbn Əbu Şeybə, Nisai, İbn Hibban, Təbərani və Hakim səhih istinadla Xalid ibn Vəliddən nəql edirlər: *"Əmmar ibn Yasirlə aramızda mübahisə baş vermişdi. Əmmar Peyğəmbərin (s) yanına gedib bundan şikayət etdi. Xalid isə orada da kobudluğuna davam edir, Peyğəmbər (s) isə susurdu.*

*Əmmar ağlayaraq dedi: "Ey Peyğəmbər, onu eşidirsiniz?" Peyğəmbər (s) başını mənə tərəf qaldırıb buyurdu: "Əmmarla düşmənçilik edənlə Allah düşmənçilik edər, ona nifrət bəsləyənə isə Allah nifrət bəsləyər".*

*Mən oradan ayrıldım. Bundan sonra mənim üçün Əmmarın razılığından daha sevimli bir şey yox idi. Onunla görüşüb razılığını aldım"*.[431]

---

[430] Məcməuz-zəvaid, c. 9, s. 104. Orada deyir: *"Bəzzar da bu hədisi rəvayət edib. Fitr ibn Xəlifədən savayı, ricalındakı bütün şəxslər "Səhih"in raviləridir. Fitr ibn Xəlifə siqədir"*.

Bu hədisi Əhməd ibn Hənbəl "Müsnəd"də nəql edib, c. 1, s. 118, 119. Buna yaxın kəlmələrlə isə IV cildin 281 və 368-ci səhifələrində də həmin hədis mövcuddur.

[431] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 89; əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 523; əs-Sünənul-kubra, Nisai, c. 5, s. 73; Səhih, İbn Hibban, c. 15, s. 556, rəqəm 7081; əl-Möcamul-kəbir, Təbərani, c. 4, s. 114; əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 390. Deyir: *"Əvvam ibn Huşəbin hədisi Buxari və Müslimin şərtlərinə əsasən istinadı səhihdir. Onlar*

**2** – Nisainin, Təbəraninin, Hakimin və digərlərinin qeyd etdiyi hədis: Əştərdən belə dediyi nəql edilir: *"Xalid ibn Vəlid əsr namazından sonra (qürub zamanı) camaata namaz qılmağı qadağan edirdi". Əştər Xalidin belə dediyini söyləyir: "Peyğəmbər (s) məni savaşa göndərmişdi. Biz orada tövhid əhli olan bir ailəyə rast gəldik. Əmmar dedi: "Onlar tövhidlərini izhar etməklə bizə sığınırlar". Mən Əmmarın sözünə əhəmiyyət vermədim. Əmmar dedi: "Bunu Peyğəmbərə (s) söyləyəcəyəm".*

*Qayıtdıqda məndən Peyğəmbərə (s) şikayət etdi. Peyğəmbərin (s) məndən intiqam almadığını gördükdə gözləri yaşlı halda üzünü çevirib getdi. Peyğəmbər (s) onu geri qaytarıb buyurdu: "Ey Xalid, Əmmarı əsla təhqir etmə! Həqiqətən də Əmmarı təhqir edəni Allah alçaldar, Əmmara dəyər verməyənə Allah dəyər verməz, Əmmarı səfeh sayanı Allah səfeh hala salar". Xalid deyir: "Öz günahlarımın arasında Əmmarı səfeh bildiyimə görə qorxduğum qədər heç birindən qorxmadım".*[432]

Göründüyü kimi, Peyğəmbər (s) Əmmara əhəmiyyət vermədiyi üçün Xalid ibn Vəlidi şiddətlə danlayır. Hətta Xalid ibn Vəlid Əmmara etdiklərindən heç bir günahdan qorxmadığı kimi qorxduğunu deyir. İbn Əsakirin rəvayətində deyilir: *"Biz heç bir şey soruşmadığımız halda Xalid ibn Vəlid özü sözə başlayıb dedi: "Əmmar barədə etdiklərim qədər məni oda salacaq başqa bir əməlimdən qorxmuram".*[433]

Lakin Peyğəmbərin (s) vəfatından sonra bəzi səhabələr tərəfindən Əmmarın şiddətli təhqir, söyülmə və döyülməklə üzləşdiyini görürük. Bütün bunlar isə həmin səhabələri yuxarıdakı rəvayətlərdə qeyd edilən danlaq və məzəmmətlərə, Allahın və Rəsulunun qəzəbinə hədəf edir.

---

*Əvvam ibn Huşəbin və Əlqəmənin barəsində ittifaq etmişlər..."* Heysəmi bu hədisin sənədi barədə deyir: "Raviləri "Səhih"in raviləridir". (Məcməuz-zəvaid, c. 9, s. 293)

[432] əs-Sünənul-kubra, Nisai, c. 5, s. 74, rəqəm 8271; əl-Möcamul-kəbir, Təbərani, c. 4, s. 112; Müstədərək, Hakim, c. 3, s. 441

[433] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 43, s. 400

Məsələnin həqiqətinin aydın olması üçün Əmmarla bağlı həmin səhabələrin bəzi əməllərini təqdim edirik:

**1 – Osman ibn Əffanın Əmmara münasibəti**

İbn Əbu Şeybə "Müsənnəf"də Salim ibn Əbülcəddən nəql edir: *"Muhəmmədin (s) səhabələri Osmanın nöqsanları haqqında məktub yazdılar və onu kimin aparacağını soruşdular. Əmmar "mən apararam" dedi. Osman məktubu oxuduqda dedi: "Allah burnunu yerə sürtsün! (Səni zəlil eləsin!)" Əmmar cavabında "Əbu Bəkrin və Ömərin burnunu..." dedi. Osman ayağa qalxıb onu yerə yıxdı və tapdadı. Sonra onu Zübeyr və Təlhənin yanına göndərdi. Onlar Əmmara dedilər: "Bu üçündən birini seç: ya üzr istəməyi, ya sürgün ediləcəyin bir yeri, ya da cəzalanmağını".*

*Əmmar dedi: "Allahla görüşənədək bunlardan heç birini seçməyəcəyəm".*

Əbu Bəkir[434] deyir ki, Yəhya ibn Adəmin belə dediyini eşitdim: *"Bu hədisi Həsən ibn Salehə söylədim, dedi: "Osmanın bu etdikləri çox böyük (pis) əməldir".*[435]

**2** – Təbərani "əl-Möcamul-kəbir" kitabında yazır: *"Muhəmməd ibn Əmr atasından, o da babası Əlqəmə ibn Vəqqasdan nəql edir: "Osmanın qətlindən sonra beyət məsələsini müzakirə etmək üçün Məxrəmənin evində toplaşmışdıq. Əbu Cəhm ibn Hüzeyfə dedi: Sizdən kim bizlərdən birinə beyət etsə, biz qisas alınmasına mane olmayacağıq. Əmmar ibn Yasir dedi: "Osmanın qanın qisasından savayı..." Əbu Cəhm: "Ey Süməyyənin oğlu! Allaha and olsun ki, sənə vurduğu qamçılarla görə qisasını istəmirsən?!" – deyə cavab verdi. Həmin gün beyətdə qərarlaşmadan oradan ayrıldılar".*[436]

---

[434] Bu, xəlifə Əbu Bəkr deyil, hədis alimidir.

[435] Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 198, rəqəm 30639. Hədisin sənədi: Yəhya ibn Adəm Qütbə ibn Əbdüləzizdən, o da Əmaşdan, o da Əmr ibn Murrədən, o da Salim ibn Əbu Cəddən. Bunlar Buxari və Müslimin raviləridir.

[436] əl-Möcamul-kəbir, Təbərani, c. 1, s. 82

Heysəmi deyir: *"Ravilərin siqə olduğuna hökm verilib".*[437]

Rəvayətdə mövzumuza dəlil Əbu Cəhmin Əmmara söylədiyi *"sənə vurduğu qamçılarla görə"* sözləridir. Bunda məqsəd Əmmarın Osman ibn Əffan tərəfindən dəfələrlə qamçılanmasını bildirməkdir.

**3** – Təbəri, İbn Əsir, İbn Xəldun və digər tarixçilər İmam Həsənlə Əmmarın Kufəyə doğru hərəkət edərkən baş verən hadisəni qeyd edirlər: *"...Onların yanına ilk gələn şəxs Məsruq ibn Əcdə oldu. Yanlarına gəlib salam verdi, sonra üzünü Əmmara tutub dedi: "Ey Əbülyəqzan, Osmanı da qətlə yetirdiniz? Dedi: "Şərəfimizi təhqir etdiyinə və camaatımızı vurduğuna görə". Dedi: "Allaha and olsun ki, sizin kimi heç kəs cəzalanmayıb. Əgər buna səbr etsəydiniz, daha yaxşı olardı..."*[438]

Bu rəvayətlərdən anlaşılır ki, Osman Əmmar ibn Yasiri söymüş, təhqir etmiş, hətta onu döymüş, alçaldıcı şəkildə qamçılatmışdır. Bütün bunların nəticəsində Peyğəmbərin (s) Əmmarı söyən və alçaldanlar barədə hökmü ona da şamil olur.

## 2 – Əbu Musa Əşərinin Əmmara münasibəti

Təbəri, İbn Əsir və İbn Xəldun sonuncu təqdim etdiyimiz rəvayətin ardını belə davam edirlər:

*"Əbu Musa Həsənlə qarşılaşdı və onu qucaqladı. Sonra üzünü Əmmara tutub dedi: "Ey Əbülyəqzan! Möminlərin əmiri Osmanla düşmənçilik edənlərə birgə düşmənçilik etdin, özünü o günahkarlarla bir tutdun?!" Əmmar dedi: "Bunu etməmişəm və ancaq bunda pis bir şey də görmürəm..."*[439]

---

[437] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 98

[438] Tarix, Təbəri, c. 3, s. 497; əl-Kamil fit-tarix, c. 3, s. 119; Tarix, İbn Xəldun, c. 2, s. 613

[439] Tarix, Təbəri, c. 3, s. 497; əl-Kamil fit-tarix, c. 3, s. 119; Tarix, İbn Xəldun, c. 2, s. 613

Burada Əbu Musa Əşəri Əmmarı alçaldaraq onu Osmanın qətlində ittiham edir, onu günahkarlardan sayır. Məqsəd isə Əmmara danlaq vurmaqdır.

Bununla da aydın olur ki, Əbu Musa Əşəri də Peyğəmbərin (s) Əmmarla bağlı söylədiyi hökmə daxildir.

**3 – Səd ibn Əbu Vəqqasın Əmmara münasibəti**

İbn Qüteybə "əl-Məarif"də, İbn Əbdü Rabbih "əl-Əqdul-fərid" əsərində yazırlar: *"Səd Əmmara dedi: "Biz səni Muhəmmədin (s) ən fəzilətli səhabələrindən sayırdıq. Ömrünün sonlarına bir şey qalmayıb, amma artıq İslam kəməndini boynundan çıxarmısan". Sonra əlavə etdi: "Sənin üçün hansı daha sevimlidir: beyninin təmizlənməsi, yoxsa xoşluqla əlaqəmizi kəsmək?" Əmmar dedi: "Xoşluqla əlaqəmizi kəsmək". Səd dedi: "Səninlə bir daha əsla kəlmə kəsməyəcəyəm!"*[440]

Burada Səd ibn Əbu Vəqqasın Əmmara qarşı pis rəftarı, küfr və İslamdan çıxmaqda ittihamı, bir daha əsla onunla danışmayacağını bəyan etməsi aşkar görünür. Bundan böyük danlaq və təhqir ola bilərmi?! Bütün bunlardan sonra Peyğəmbərin (s): "*...Həqiqətən də Əmmarı təhqir edəni Allah alçaldar, Əmmara dəyər verməyənə Allah dəyər verməz, Əmmarı səfeh sayanı Allah səfeh hala salar"* sözü ona necə şamil olmasın?

**Yeddinci qisim: Peyğəmbərin (s) adından yalan danışan Cəhənnəm odundadır**

Buxari öz "Səhih"ində bu mövzuda bir neçə rəvayəti qeyd edir:

**1** – Əli ibn Cəd Şöbədən, o da Mənsurdan nəql edir: *"Rəbi ibn Hərraşın Əlinin belə dediyini söylədiyini eşitdim: Peyğəmbər (s) buyurur: "Mənim*

[440] əl-Məarif, İbn Qüteybə, s. 550. "Darul-məarif" nəşriyyatı; əl-İqdul-fərid, İbn Əbdü Rəbbih, c. 2, s. 188

*adımdan yalan danışmayın. Mənim adımdan yalan danışan kəsin yeri Cəhənnəmdir".*

*Əbu Vəlid Əlinin (ə) belə dediyini eşitdiyini söyləyir: "Peyğəmbər (s) buyurur: "Mənim adımdan yalan danışmayın. Mənim adımdan yalan danışan kəsin yeri Cəhənnəmdir".*

**2** – Amir ibn Abdullah ibn Zübeyr atasından nəql edir: *"Zübeyrə dedim: "Mən filan-filan kəslərdən etdiyi kimi sənin də Peyğəmbərdən (s) hədis rəvayət etdiyini eşitmirəm". Dedi: "Mən bunu tərk etməmişəm, ancaq Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Mənim adımdan yalan danışan kəs Cəhənnəmdəki yerini hazır bilsin".*

**3** – Əbu Müəmmər Əbdülvarisdən, o da Əbdüləzizdən Ənəsin belə dediyini nəql edir: *"Məni Peyğəmbər adından sizə çoxlu hədis rəvayət etməkdən çəkindirən şey onun (s) belə buyurmasıdır: "Kim mənə yalanı nisbət versə Cəhənnəmdəki yerini hazır bilsin".*[441]

Bu rəvayətlərdəki xitab səhabələrə və digər insanlaradır ki, onları Peyğəmbər (s) adından yalan danışmağın pis aqibətindən çəkindirir. Belə ki, bəzi səhabələrin onun (s) adından yalan uydurduqları məşhurdur. Onların başında Əbu Hüreyrə Dusi gəlir ki, nəql etdiyi hədislərinin çoxluğundan sanki mağaza lövhəsi kimi istifadə edirdi. O, yalançılıqda məşhur idi. Əbu Hüreyrə Kəbul-Əhbardan eşitdiyi yəhudi rəvayətlərini Peyğəmbərimizə (s) nisbət verirdi. Bunun bəzi dəlillərini təqdim edirik:

Əhməd ibn Hənbəl "Müsnəd"də Zuhridən, o da Qasim ibn Muhəmməddən rəvayət edir: *"Əbu Hüreyrə və Kəb bir yerdə oturur, Əbu Hüreyrə ona Peyğəmbərimizdən (s), Kəb də ona yəhudilərin rəvayətlərindən xəbər verirdi".*[442]

Aydındır ki, Əbu Hüreyrə Kəbdən çoxlu yəhudi rəvayətləri dinləyib. Bu səbəbdən də Peyğəmbərin (s) hədisləri ilə Kəbin rəvayətlərini qarışıq

---

[441] Səhih, Buxari, c. 1, s. 36

[442] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 275

salırmış. Peyğəmbərə (s) yalan nisbət verənlərin aqibətini bildiyinə baxmayaraq Kəbdən eşitdiklərini Peyğəmbərə (s) nisbət verməkdən çəkinmirdi. Onu İbn Kəsir kimi bəzi böyük əhli-sünnə alimləri də bu cür vəsf ediblər. Qarşıda buna toxunacağıq.

Məsələnin həqiqətini bilmək üçün İbn Əsakirin nəql etdiyi rəvayətə nəzər salaq: *"Əbülqasim ibn Səmərqəndi Əbülqasim ibn Musədədən, o da Həmzə ibn Yusifdən, o da Əbu Əhməddən, o da Həsən ibn Osman Tustəridən, o da Sələmə ibn Həbibdən Yezid ibn Harunun Şöbədən belə söylədiyini eşitdiyi nəql edir: "Əbu Hüreyrə saxtakarlıq edirdi".*[443]

İbn Kəsir deyir: *"Yəni Kəbdən eşitdiyini Peyğəmbərdən (s) eşitmiş kimi təqdim edir, onları bir-birindən ayıra bilmirdi. Şöbə Əbu Hüreyrənin söylədiyi hədisi buna dəlil göstərir: "Səhərə cünub halda çıxan şəxsin boynunda oruc yoxdur". Bu sözünü isə əsaslandırmayaraq "bir kəs mənə xəbər verib" deyir. Bunu Peyğəmbərdən (s) eşitməyib".*[444]

İbn Kəsir başqa bir rəvayəti nəql edir: *"Abdullah ibn Əbdürrəhman Darəmi Mərvan Dəməşqidən, o da Leys ibn Səddən, o da Bukeyr ibn Əşəcdən Bəşər ibn Səidin belə dediyini söyləyir: "Allahdan qorxun, hədisləri qoruyun! Allaha and olsun ki, Əbu Hüreyrə ilə birgə oturduğumuz vaxt Peyğəmbərdən (s) və Kəbdən rəvayətlər söylədiyini gördüm. Bizə Peyğəmbərdən (s) söylədiyi bəzi hədislər Kəbdən eşitdikləri, Kəbdən söylədikləri isə Peyğəmbərin (s) hədisləridir".*

Başqa bir rəvayətdə isə: *"Kəbin söylədiklərini Peyğəmbər (s) adından, Peyğəmbərin (s) söylədiklərini isə Kəbin adından söyləyir. Allahdan qorxun, hədisləri qoruyun!"*[445]

Həmçinin Əbu Hüreyrənin Peyğəmbərə (s) nisbət verdiyi, sonra bunların həqiqətdə Kəbul-Əhbarın rəvayətləri olduğunun aydınlaşdığı

---

[443] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 68, s. 359
[444] əl-Bidayə vən-nihayə, İbn Kəsir, c. 8, s. 117
[445] əl-Bidayə vən-nihayə, İbn Kəsir, c. 8, s. 117

barədə İbn Teymiyyənin sözlərinə diqqət yetirin. Hədisi qeyd edərək deyir: *“Allahın məxluqları şənbə günü torpaq şəklində, yeddinci gün ərzində isə məxluq formasında yaratması barədə rəvayəti... Bunun Yəhya ibn Muin, Əbdürrəhman ibn Mehdi, Buxari və digər hədis imamları yalan olduğunu qeyd ediblər. Bu Peyğəmbərin (s) sözü deyil, Buxari hədisin Kəbul-Əhbardan olduğunu açıq bəyan edib.*

*Quran da bunun yanlış olduğuna işarə edir və məxluqatın altı gündə yaradıldığını bildirir. Məxluqların sonuncu mərhələsinin cümə günündə olduğu “Səhih”dəki hədislərlə də isbatlanıb. Bununla da ilk yaradılış bazar günündən başlayır”.*[446]

İbn Teymiyyənin işarə etdiyi bu rəvayəti Müslim, Beyhəqi, Nisai, Əbu Yəla Mosuli, İbn Xüzeymə, İbn Hibban və digərləri də qeyd ediblər. Əbu Hüreyrədən nəql olunur: *“Peyğəmbər (s) əlimdən tutdu və buyurdu: “Allah məxluqları şənbə günü torpaq şəklində yaratdı. Bazar günü dağları, bazar ertəsi ağacları, bəyənilməyən şeyləri çərşənbə axşamı, nuru çərşənbə günü xəlq etdi. Məxluqları cümə axşamı günü yer üzündə yaydı. Adəmi (ə) isə cümə günü əsr vaxtından sonra yaratdı. Digər məxluqları isə cümə gününün əsrlə axşam vaxtı arasında son saatlarda xəlq etdi”.*[447]

Təəccüb doğuran budur ki, bütün bunlarla yanaşı Buxari öz kitabında Əbu Hüreyrədən çoxlu hədislər nəql edir!

Məsələn ondan nəql etdiyi başqa bir hədisdə deyilir: “Əbu Hüreyrədən: *“Ölüm mələyi (Əzrail) Musanın (ə) yanına gəldi. Gəldikdə Musa onu vurub gözünü çıxardı və o, Rəbbinin yanına qayıdıb dedi: “Ey Rəbbim, məni ölmək istəməyən bəndənin yanına göndərdin”. Uca Allah mələyin gözünü özünə qaytarıb buyurdu: “Yenidən bəndəmin yanına get və de ki, dünya həyatını*

---

[446] Dəqaiqut-təfsir, İbn Teymiyyə, c. 2, s. 58. Muhəmməd Seyyid Cəlindin təhqiqi ilə, I çap, h.q.1404. “Ulumul-Quran” müəssisəsinin nəşri

[447] Səhih, Müslim, c. 8, s. 127; əs-Sünənul-kubra, Beyhəqi, c. 9, s. 3; Müsnəd, Əbu Yəla, c. 10, s. 513; Səhih, İbn Xüzeymə, c. 3, s. 117; Səhih, İbn Hibban, c. 14, s. 30

*istəyirsən?! Bu halda əlini öküzün belinə qoy, əlinə nə qədər tük çıxarsa onun sayı qədər yaşayacaqsan".*[448]

Həmçinin ondan rəvayət edir: *"Peyğəmbər (s) buyurdu: "Musa həyalı bir şəxs idi. Həyasına görə onun bədənin bir hissəsini belə heç kəs görməmişdi. Bəni-İsrail ona əziyyət verib dedilər: O, cismindəki eybini gizlətmək üçün belə örtünür. Ya onun bədənində xora, ya dəbəlik və ya da başqa bir xəstəlik var.*

*Allah onun Bəni-İsrailin sözlərindən uzaq olduğunu bəyan etmək istədi. Bir gün Musa təkbaşına çimirdi və paltarlarını soyunub daşın üzərinə qoymuşdu. Çimib qurtardıqdan sonra paltarlarını geyinmək üçün daşın yanına gəldi. Lakin daş paltarları götürüb qaçdı. Musa əsasını götürüb daşın ardınca qaçıb deyirdi: "Ey daş, paltarım! Ey daş, paltarım! Ta ki, bir dəstə Bəni-İsrailli şəxsin yanına çatdılar. Onu Allahın ən gözəl biçimdə yaratdığını gördülər və əvvəlki fikirlərindən döndülər. Daş paltarı Musaya qaytardı. Musa paltarını geyinib daşa əsası ilə bir zərbə vurdu. Allaha and olsun ki, daş bu zərbədən üç, dörd və ya beş dəfə zarıldadı. Bu da Allahın Qurandakı sözüdür:* ***"Ey iman gətirənlər! Musaya əziyyət verən kəslər kimi olmayın. Allah (Musanı) onların dediklərindən (böhtanlarından) təmizə çıxartdı. O, Allah yanında çox hörmətli (qədir-qiymətli) idi".***[449]

Əgər Əbu Hüreyrənin Quranın və sağlam fitrətin açıq bəyanlarına zidd rəvayətlərini (hansı ki, bəzi rəvayətləri Peyğəmbərin (s) şəxsiyyətinə toxunur və dində danlağa hədəf olur) qeyd etmək istəsək bunların olduqca çox olduğunu görərik.

Belə rəvayətləri o həddə çatmışdı ki, ona qırmanc cəzası kəsilmiş və rəvayət nəql etmək qadağan edilmişdi. Ömər ibn Xəttab ona Peyğəmbər (s) adından rəvayət danışmağı qadağan etmişdi. Zəhəbinin "Siyəru əlamin-nübəla" kitabındakı rəvayət buna dəlalət edir: *"Səid ibn Əbdüləziz İsmayıl ibn Übeydullahdan, o da Saib ibn Yeziddən nəql edir: "Ömərin Əbu Hüreyrəyə*

---

[448] Səhih, Buxari, c. 2, s. 92, "Müqəddəs torpaqda dəfn edilmək istəyən şəxs" babı
[449] Əhzab, 69

*belə dediyini eşitdim: "Peyğəmbərin (s) hədislərindən əl çək! Yoxsa səni öz Dus torpağınıza göndərərəm!" Kəbə isə dedi: "Sən də hədis söyləməyi tərk et, yoxsa səni də Qirdə torpağına göndərərəm".*[450]

Amma Ömərin vəfatından sonra Peyğəmbərdən (s) eşitdiyi və eşitmədiyi hədisləri söyləməyə davam elədi. Elə qəribə bir hal yaratmışdı ki, sanki Peyğəmbəri (s) bundan başqa heç kim görməmiş və ya ondan başqası bir şey eşitməmişdi.

Hətta Aişə də onun rəvayətlərinə etiraz edir, Peyğəmbərdən (s) belə hədisləri əsla eşitmədiyni bildirirdi. Əbu Hüreyrə isə cavabında onun Peyğəmbərdən (s) hədis dinlədiyi vaxtlarda Aişənin sürmə çəkməklə məşğul olduğunu söyləyirdi. Halbuki Peyğəmbərin (s) yanında cəmi üç il olmasına baxmayaraq Əbu Hüreyrə bütün səhabələrin ümumilikdə söylədikləri hədislərdən artıq hədis rəvayət etmişdi.[451]

**Səkkizinci qisim: Üzərində beyət olmayan şəxslərin zəlalətdə olduqları barədə rəvayətlər**

**1** – Müslim "Səhih"də Zeyd ibn Muhəmməddən, o da Nafidən nəql edir ki, Abdullah ibn Ömər Yezid ibn Müaviyənin xilafəti dövründə Hərrədə vali olan Abdullah ibn Mütinin yanına gəldi. İbn Müti onun üçün mütəkkə gətirmələrini söylədi. Abdullah ibn Ömər dedi: *"Mən sənin yanına əyləşmək üçün gəlməmişəm, Peyğəmbərin (s) buyurduğu hədisi söyləmək üçün burdayam. Buyurur: "Kim itaətdən boyun qaçırsa Qiyamət günü Allahla heç*

---

[450] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 2, s. 600. Kitabın təhqiqatçısı Şüeyb Arnavut yazdığı haşiyədə deyir: *"Əbu Zərə Diməşqi öz "Tarix"ində Muhəmməd ibn Zərə Rueynidən, o da Mərvan ibn Muhəmməddən, o da Səid ibn Əbdüləzizdən, o da İsmail ibn Übeydullahdan, o da Saib ibn Yeizddən Əmər ibn Xəttabın Əbu Hüreyryə belə dediyini eşitdiyini rəvayət edir: "Peyğəmbərin (s) hədislərindən əl çək! Yoxsa səni öz Dus torpağınıza göndərərəm!"*

[451] ət-Təbəqatul-kubra, İbn Səd, c. 2, s. 364; Müstədrək, Hakim, c. 3, s. 582; Fəthul-Bari, İbn Həcər, c. 7, s. 76

*bir dəlili olmadığı halda görüşər. Kim də boynunda beyət olmadan ölərsə cahiliyyə ölümü ilə ölmüşdür".*[452]

**2** – İbn Ədiy "əl-Kamil" kitabında Abdulllah ibn Amir ibn Rəbiədən, o da atasından Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Kim itaətdə olmadan ölərsə cahiliyyə ölümü ilə ölmüşdür. Kim də beyət etdikdən sonra pozarsa, Allahla heç bir dəlili olmadığı halda görüşər. Eləcə də heç bir kişi qadınla təklikdə qalmasın. Belə olduqda, onların üçüncüsü Şeytandır. Yalnız məhrəmlər istisnadır. Yaxşılıqlar kimi sevindirir, pisliklər isə kədərləndirirsə, o, mömin şəxsdir".*[453]

Şübhəsiz və məlum məsələdir ki, aralarında Təlhə və Zübeyr kimi bir çox səhabələr hidayət imamı Əli ibn Əbu Talibə (ə) olan beyətlərini pozmuş, onunla savaşmış, Səd, İbn Zübeyr, Muhəmməd ibn Məsləmə kimi bəziləri də ümumiyyətlə beyət etməyərək İmamın (ə) xilafət müddətində beyətsiz yaşamışlar. Onların bəziləri elə həmin xilafət dövründə cahiliyyə ölümü ilə ölmüş, Allahla heç bir dəlilləri olmadıqları halda görüşmüşlər.

**Üçüncü hissə: Peyğəmbərin (s) bəzi səhabələri məzəmmət etdiyinə dair rəvayətlər**

Bir çox rəvayət var ki, orada bəzi səhabələr Peyğəmbərin (s) əmrlərinə tərəddüd etdiklərinə görə onun danlağına hədəf olurlar. Bunları da bir neçə qisimdə təqdim edirik:

**Birinci qisim: Peyğəmbərin (s) özünə qarşı çıxan və əmrindən boyun qaçıran kəsləri sərt danlaması barədə rəvayətlər**

Buxari, Müslim və digərləri Abdullah ibn Ömərdən nəql edirlər: *"Peyğəmbər (s) bir dəstəni savaşa göndərdi və Üsamə ibn Zeydi həmin dəstəyə başçı təyin etdi. Bəziləri onun rəhbərliyindən boyun qaçırdılar.*

---

[452] Səhih, Müslim, c. 6, s. 22

[453] əl-Kamil, Abdullah ibn Ədiy, c. 5, s. 227

*Peyğəmbər (s) buyurdu: "Onu başçılığına qarşı çıxanlar əvvəllər atasının da başçılığına qarşı çıxırdılar. Allaha and içirəm ki, halbuki o başçılığa daha layiqdir".*[454]

Bu rəvayət bəzi səhabələrin Peyğəmbərin (s) Üsaməni qoşunun başçısı təyin etməsinə etiraz elədiklərini və ona itaətdən boyun qaçırdıqlarını aşkar şəkildə göstərir. Hadisə Peyğəmbərin (s) mübarək ömrünün son vaxtlarında baş vermişdi. Diqqət yetirin ki, Peyğəmbər (s) onlara qəzəbini təkcə bu məsələ ilə bağlı bildirmir, həmin səhabələrin bunu özlərinə adətə çevirdiklərini qeyd edir. Və bu onların ilk etirazları da deyildi. Sanki onlar Allahın sözünü heç eşitməmişlər: ***"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!";***[455] eləcə də: ***"Amma xeyr! (Ey Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar".***[456]

**2** – Buxari və Müslim (rəvayət ondandır) İbn Abbasdan nəql edirlər: *"Peyğəmbərin (s) ölümü ilə nəticələnən xəstəliyi zamanı aralarında Ömər ibn Xəttabın da olduğu bir dəstə adam evində toplaşmışdılar. Peyğəmbər (s) onlara dedi: "Gətirin, sizin üçün bir şey yazım ki, ondan sonra azmayasınız". Ömər dedi: "Peyğəmbərin ağrıları artıq ona üstün gəlməkdədir. (Ey səhabələr,) sizin əlinizdə Quran var. Allahın kitabı bizə yetərlidir".*

---

[454] Səhih, Buxari, c. 5, s. 145; c. 7, s. 217; Səhih, Müslim, c. 7, s. 131
[455] Əhzab, 36
[456] Nisa, 65

*Evdəki camaat mübahisə etməyə başladılar. Onlardan bəzisi Peyğəmbərin (s) yazmasını, bəzisi isə Öməri müdafiə etdilər. Peyğəmbərin (s) qarşısında səs-küy və mübahisə qalxdı. Onlardan evini tərk etmələrini istədi.*

*Übeydullah daha sonra İbn Abbasın belə dediyini söyləyir: "Ən böyük rüsvayçılıq həmin gün Peyğəmbərin yanında baş verənlər, onlar üçün yazmaq istədikdə yaranan səs-küy və mübahisə idi".*[457]

Həmçinin Müslimin nəql etdiyi digər rəvayətdə *"Dedilər: "Həqiqətən, Peyğəmbər (s) sayıqlayır"*[458] – deyə qeyd edilir.

Fikir verin ki, Peyğəmbər (s) ölüm yatağında ikən ona əziyyət edən səhabələri çıxardıqları səs-küylərinə, mübahisələrinə və möhtərəm məqamına qarşı əsla layiq olmayan sözlərinə görə yanından necə qovur. Bundan daha böyüyü isə, onların heç vaxt azmamaları üçün bir şey yazmasına mane olmalarıdır. Məgər İbn Abbasın da vəsf etdiyi kimi, bu rüsvayçılıq ən böyük müsibət deyilmi?! Bundan sonra necə iddia edilə bilər ki, Peyğəmbər (s) onların hamısından razı halda dünyadan köçüb?! Halbuki Peyğəmbər (s) ömrünün son saatlarında İslam üçün həyati əhəmiyyət daşıyan məsələyə onların qarşı çıxmasından qəzəblənir və yanından qovur.

**İkinci qisim: Peyğəmbərin (s) bir dəstə səhabəni üsyankarlıqla vəsf etməsi**

Müslim "Səhih"də yazır: *"Cabir ibn Abdullah deyir: "Peyğəmbər fəth ilinin Ramazan ayında oruc tutub Məkkəyə tərəf yola çıxdı. Kiraul-ğamimə yetişdilər. Camaat oruc tuturdu. Peyğəmbər (s) bir stəkan su istədi. Stəkanı camaatın görə biləcəyi həddə əlində qaldırdı və suyu içdi. Ona dedilər:*

---

[457] Səhih, Müslim, c. 5, s. 76; Səhih, Buxari, c. 5, s. 138; c. 7, s. 9
[458] Səhih, Müslim, c. 5, s. 76

*"Bəziləri oruc tutublar (onların qabağında içmə)". Peyğəmbər (s) buyurdu: "Onlar üsyankardırlar, onlar üsyankardırlar!"*[459]

**Üçüncü qisim: Peyğəmbərin (s) Xalid ibn Vəlidə qəzəbi və əməllərin uzaq olduğunu bildirməsi**

**1** – Buxari və digərləri Zuhridən, o da Salimdən, o da atasından nəql edirlər: *"Peyğəmbər (s) Xalid ibn Vəlidi Bəni-Xüzeymə qəbiləsinə göndərib onları İslama dəvət etdi. Onlar "müsəlman olmağı inkar etdik", – dedilər. Xalid ibn Vəlid isə onları öldürməyə və əsir almağa başladı. Hər birimizə də bir əsir verdi. Bir gün də Xalid bizə əsirlərimizi öldürməyi əmr elədi. Mən dedim: "Allaha and olsun ki, əsirimi öldürməyəcəyəm və yoldaşlarımdan da heç biri öz əsirinə qarış bunu etməyəcək". Ardınca Peyğəmbərin (s) hüzuruna gəlib hadisəni ona danışdıq. Peyğəmbər (s) əllərini qaldırıb buyurdu: "İlahi, Xalidin elədiklərindən uzaq olduğumu bildirir və Sənə sığınıram!" Bunu iki dəfə təkrarladı".*[460]

**2** – Nisai, Təbərani, Hakim və digərləri Əştərdən nəql edirlər: *"Xalid ibn Vəlid əsr namazından sonra (qürub zamanı) camaata namaz qılmağı qadağan edirdi". Əştər Xalidin belə dediyini söyləyir: "Peyğəmbər (s) məni savaşa göndərmişdi. Biz orada tövhid əhli olan bir ailəyə rast gəldik. Əmmar dedi: "Onlar tövhidlərini izhar etməklə bizə sığınırlar". Mən Əmmarın sözünə əhəmiyyət vermədim. Əmmar dedi: "Bunu Peyğəmbərə (s) söyləyəcəyəm".*

*Qayıtdıqda məndən Peyğəmbərə (s) şikayət etdi. Peyğəmbərin (s) məndən intiqam almadığını gördükdə gözləri yaşlı halda üzünü çevirib getdi. Peyğəmbər (s) onu geri qaytarıb buyurdu: "Ey Xalid, Əmmarı əsla təhqir etmə! Həqiqətən də Əmmarı təhqir edəni Allah alçaldar, Əmmara dəyər verməyənə Allah dəyər verməz, Əmmarı səfeh sayanı Allah səfeh hala salar".*

---

[459] Səhih Müslim, c. 3, s. 141; Sünən, Tirmizi, c. 2, s. 107; Sünən, Nisai, c. 4, s. 177

[460] Səhih, Buxari, c. 4, s. 1588. Bu, həmin səhabənin sonuncu əməli deyildi. O, Əbu Bəkrin xilafəti dövründə zəkat verməkdən imtina edən Malik ibn Nüveyrəni qətlə yetirmiş və həyat yoldaşına təcavüz etmişdi. (Tarixul-İslam, Zəhəbi, c. 3, s. 32)

*Xalid deyir: "Öz günahlarımın arasında Əmmarı səfeh bildiyimə görə qorxduğum qədər heç birindən qorxmadım".*[461]

**Dördüncü qisim: Peyğəmbərin (s) müəyyən səhabələri danlaması**

Peyğəmbərin (s) bu tənqid və danlaqları müəyyən səhabələrə şamil olur. Buna dair çoxlu rəvayətlər mövcuddur. Onlardan bəzilərini qeyd edək:

**1** – Buxari İkrimədən rəvayət edir: *"İbn Abbas ona və Əli ibn Abdullaha dedi: Əbu Səidin yanına gedin və onun hədisini dinləyin". Biz onun yanına getdik. O, qardaşı ilə birgə həyəti sulayırdı. Bizi görüb yanımıza gəldi, dizlərini qarnına birləşdirmiş və dirsəyini onların üstünə qoymuş vəziyyətdə oturdu, sonra dedi: "Məscid tikilərkən bir-bir kərpic daşıyırdıq. Əmmar isə kərpicləri iki-iki aparırdı. Peyğəmbər (s) onun yanına gəldi, başındakı tozu silib buyurdu: "Vay olsun Əmmarı qətlə yetirəcək zalım (qəddar) dəstəyə! (Həmin vaxt) Əmmar onları Allaha, onlar isə Əmmarı Cəhənnəmə dəvət edəcəklər".*[462]

Əmmarı (r) qətlə yetirən dəstənin Müaviyənin ordusu olduğunda bütün müsəlmanlar həmfikirdirlər. Bunu Hakim Nişapurinin Əmr ibn Həzmdən, onun da atasından nəql etdiyi rəvayət də təsdiqləyir: *"Əmmar ibn Yasir qətlə yetirildikdə Əmr ibn Həzm Əmr ibn Asın yanına gəlib dedi: "Əmmar öldürüldü. Peyğəmbər (s) buyurmuşdu ki, onu zalım dəstə öldürəcək". Əmr ibn As həmin anda yerindən qalxıb Müaviyənin yanına getdi. Müaviyə onu görüb nə baş verdiyini soruşdu. Əmr ibn As Əmmarın öldürüldüyünü xəbər verdi. Müaviyə dedi: "Nə olsun ki?"*

*Əmr dedi: "Peyğəmbərdən (s) eşitmişəm ki, onu zalım (qəddar) dəstə öldürəcək. Müaviyə dedi: "Öz nəcisinə bulaşmışsan! Onu məgər biz*

---

[461] əs-Sünənul-kubra, Nisai, c. 5, s. 74, rəqəm 8271; əl-Möcamul-kəbir, Təbərani, c. 4, s. 112; Müstədərək, Hakim, c. 3, s. 441

[462] Səhih, Buxari, c. 3, s. 207; Səhih, Müslim, c. 8, s. 186; Sünən, Tirmizi, c. 5, s. 333; Fəzailus-səhabə, s. 51

*öldürmüşük? Onu Əli və əshabı öldürüb. Onu buraya gətirib oxlarımızın (və ya qılınclarımızın dedi) qarşısına atıb".*[463]

Diqqət yetirin ki, Peyğəmbər (s) öz səhabələrindən olan Müaviyəni, onun dəstəsindəki Əmr ibn Ası, Zəhhak ibn Qeysi,[464] Həbib ibn Məsləməni,[465] Əbu Əvar Sələməni,[466] İbn Əbu Sərhi, İbn Əbu Muiti və onlarla birgə olan silahdaşlarını necə zalımlıq və qəddarlıqla vəsf edir, onların Cəhənnəm oduna dəvət edən kəslər olduğunu bildirir. Halbuki onlar Peyğəmbər (s) səhabələridirlər və onunla bərabər savaşlarda iştirak ediblər. Lakin görünən odur ki, İhsan İlahi Zahirin səhabələr barəsində Peyğəmbərin (s) nəzərindən fərqli nəzərləri var.

**2** – Əbu Səid Xudri deyir: *"Peyğəmbər (s) qənimətləri bölüşdürürdü. Elə bu vaxt Təmim qəbiləsindən olan Zül-Xüveysərə gəldi və dedi: "Ey Peyğəmbər, ədalətli ol! Peyğəmbər (s) buyurdu: "Vay olsun sənə, mən də ədalətli olmayım, kim ədalətli olsun?!"* Ömər Peyğəmbərdən (s) onu öldürmək üçün icazə istədi. Peyğəmbər (s) buyurdu: *"Onu burax, onun elə tərəfdarları var ki, sizdən hər biriniz onların namaz və orucları qarşısında öz namaz və oruclarınızı yüngül hesab edərsiniz. Ox yaydan çıxdığı kimi onlar da dindən çıxarlar. Oxunun lələklərinə baxar, orada bir şey görməz, qılıncının kəsən hissəsinə baxar, orada bir şey görməz, qılıncının gövdəsinə baxar, orada bir şey görməz, qılıncın dəmirinə baxar, orada da bir şey olmaz. Amma onlar bağırsaq və qanla ləkəlidir. Onların əlamətlərindən biri əllərindən (və ya döşlərindən) biri qadın döşünə və ya ciyər parçasına bənzəyən qara bir adamdır. Camaatdan ayrılıb qiyam edəcəklər. Bu ayə onların haqqında nazil*

---

[463] Müstədrək, Hakim Nişapuri, c. 2, s. 156. Deyir: *"Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin onu qeyd etməmişlər".*

[464] Müstədrək, Hakim, c. 3, s. 525

[465] əl-İsabə, İbn Həcər, c. 2, s. 22

[466] əl-İsabə, İbn Həcər, c. 4, s. 529

*olub:* ***"Onlardan sədəqələr (onların bölünməsi) barəsində sənə eyib tutanlar da var".***[467]

*Əbu Səid deyir: "Şəhadət verirəm ki, mən bu hədisi Peyğəmbərdən (s) eşitmişəm və şəhadət verirəm ki, Əli ibn Əbi Talib (ə) onlarla döyüşüb qətlə yetirdiyi zaman mən də onunla idim. Orada Peyğəmbərin (s) vəsf etdiyi həmin adamı tapıb gətirdilər".*[468]

Peyğəmbər (s) Zül-Xüveysərə və onunla birlikdə olan səhabələrin aqibəti barədə xəbər verir. Bu xəbər isə onun və onunla birgə olanların tənqidini, dindən çıxacaqlarını bildirir.

**3** – Yaqub ibn Süfyan Fəsəvi, Beyhəqi, İbn Əsakir Əbüləsvəddən rəvayət edirlər: *"Müaviyə Aişənin yanına gəldi. Aişə dedi: "Əzra əhlini, Hücrü və yoldaşlarını niyə öldürdün?" Müaviyə dedi: "Ey möminlərin anası, mən onların qətlini ümmət üçün məsləhət bildim. Onların qalması ümmət üçün fəsad olardı". Aişə dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişdim: "Əzra qəbiləsini Allahın və səma əhlinin qəzəbinə gəlmiş adamlar öldürəcək".*[469]

Hədisin sənədində heç bir şəkk yoxdur. Yalnız İbn Ləhiədən savayı. O da Müslim, Əhməd ibn Hənbəl, Tirmizi, İbn Macə, Darəmi və Nisai kimi hədis imamlarının hədis nəql etdiyi ravilərdəndir.

---

[467] Tövbə, 58

[468] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 56; Sünən, Nisai, c. 6, s. 365

[469] İbn Əsakir özünün "Tarix" əsərində Əbu Mişər və digərlərindən rəvayət edir: *"Hücr abid insan idi. Daim dəstəmazlı olardı. Hər dəfə dəstəmaz aldıqda mütləq namaz qılardı. Bir gün Ziyad xütbəsini namaz vaxtı daxil olanadək uzatdı. Hücr ona namaz vaxtının olduğunu xatırlatdı. Ziyad isə əhəmiyyət verməyib xütbəsinə davam etdi. Əlinə daşa vurub "Namaz!" deyə bir daha səsləndi. Camaat da bunu təkrar etdi. Ziyad aşağı enib namaz qılmağa başladı. Bu hadisədən sonra Ziyad Müaviyəyə məktub yazdı, o da Hücrü yanına çağırtırdı. Hücr gəlib "Salam olsun sənə, ey möminlərin əmiri!" deyərək Müaviyəni salamladıqda o, dedi: "Məgər möminlərin əmiri mənəm?" Müaviyə onun və onunla birlikdə olan, Əlidən təbərri etməyən yoldaşlarının hamısının qətlinə fərman verib öldürtdü. Əlidən təbərri edənlərini isə sərbəst buraxdı".* (Tarixu mədinəti Diməşq, c. 12, s. 226)

**Beşinci qisim: Bəzi səhabələrin Peyğəmbərə (s) qarşı sui-qəsd hazırlaması**

**1** – Beyhəqi "Dəlailun-nübuvvə" kitabında Hüzeyfə ibn Yəmanidən nəql edir: *"Mən Peyğəmbərin (s) dəvəsinin noxtasından tutub idarə edir, Əmmar ibn Yasir isə dəvəyə istiqamət verirdi. Yaxud da əksinə, mən istiqamət verir, Yasir isə noxtasından tutub idarə edirdi. Dağlıq yerdə uçuruma yetişdik, qarşıda on iki nəfər minikli adamın maneə yaratdığını gördüm və bunu Peyğəmbərə (s) bildirdim. Peyğəmbər (s) kömək çağırdıqda onlar arxalarını çevirib qaçdılar. Peyğəmbər (s) bizdən onları tanıyıb-tanımadığımı soruşduqda, üzləri örtülü olduqlarından onları tanıya bilmədiyimizi söylədik. Lakin onların miniklərini tanıdıq. Peyğəmbər (s) buyurdu: "Bunlar Qiyamət gününədək münafiq olaraq qalacaqlar. Onların nə etmək istədiklərini bilirsinizmi?" Biz "Xeyr" – deyə cavab verdikdə buyurdu: "Onlar Allahın elçisini sıxışdırıb uçurumdan atmaq istəyirdilər".*

*Dedik: "Niyə onların evlərinə adam göndərib başlarını hüzuruna gətirmələrini əmr etmirsən?" Buyurdu: "Xeyr, istəmirəm ki, ərəblər "Elə ki, Allah onu səhabələrinə üstün etdi, onları tutub öldürdü", "Muhəmməd səhabələrini öldürdü" desinlər". Sonra buyurdu: "İlahi, onları Dübeylə ilə vur!" Dübeylənin nə olduğunu soruşduqda buyurdu: "Cəhənnəm odunun bir alovudur ki, insanın qəlbinin aortasına düşür və məhv edir".*[470]

**2** – Təbərani "əl-Möcamul-kəbir"də Əbu Tüfeyldən nəql edir: *"Peyğəmbər (s) Təbuk döyüşü üçün yola çıxmışdı. Dağlıq uçurum yoluna yetişdik. Carçıya belə nida etməsini buyurdu: "Peyğəmbər (s) uçurumdan keçəcək, heç kəs oradan keçməsin". Peyğəmbərin (s) dəvəsinin noxtasından tutaraq Hüzeyfə çəkir, Əmmar isə sürürdü. Bu zaman dəvələrin üzərində olan və üzləri örtülü bir dəstə adam Peyğəmbərə (s) tərəf həmlə etdi. Əmmar*

---

[470] Dəlailun-nübuvvə, c. 5, s. 260-261. Zeyləi deyir: *"Bunu Bəzzar öz "Müsnəd"ində həmçinin Hüzeyfədən nəql edib. Sonra deyir: Bu hadis Hüzeyfədən başa ravilərdən də nəql edilib. Həmin rəvayət ravi zənciri cəhətdən daha yaxşı, sənəd baxımdan da daha səlahiyyətlidir".* (Təxricul-əhadis vəl-asar, Zeyləi, c. 2, s. 84)

*dönüb onların dəvələrinin üzlərinə vurmağa başladı. Peyğəmbər (s) Hüzeyfəyə "Sür, sür!" deyə əmr elədi. Bu zaman Əmmar da onlara çatdı. Peyğəmbər (s) ona "Dəvəni dart!" deyə buyurdu. Nəhayət oradan ötüb keçdilər. Peyğəmbər (s) Əmmardan onları tanıyıb-tanımadığını soruşdu. Əmmar dedi: "Xeyr, üzləri örtülü idi. Amma bütün dəvələri tanıdım". Peyğəmbər (s) buyurdu: "Bilirsənmi Peyğəmbərə nə etmək istəyirdilər?" Əmmar "Allah və Rəsulu daha yaxşı bilər" deyə cavab verdi. Peyğəmbər (s) buyurdu: "Allahın elçisinin dəvəsini ürküdüb dərədən aşağı salmaq istəyirdilər".*

*Bu hadisədən sonra Əmmar səhabələrdən olan bir nəfərə dedi: "Səni and verirəm Allaha, Əqəbədə (dağ uçurumu keçidində) Peyğəmbərə (s) hiylə hazırlayanlar neçə nəfər idilər?" O dedi: "On dörd nəfər". Əmmar dedi: "Sən də onlardan biri idinsə, o zaman on beş nəfər idilər".*[471]

**Altıncı qisim: Bəzi səhabələri danladığını qeyd edən rəvayətlər**

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Əbdürrəhman ibn Əbu Leyladan Əlinin (ə) ona belə dediyini nəql edir: *"Ey Əbu Leyla, Xeybər döyüşündə bizimlə birgə deyildinmi?" Dedim: "Bəli, Allaha and olsun ki, orada sizinlə birlikdə idim". Buyurdu: "Peyğəmbər (s) Əbu Bəkri hücuma göndərdi, məğlub olub geri qaçdılar. Sonra Öməri göndərdi. O da ordu ilə birlikdə geri qayıtdı. Ardınca Peyğəmbər (s) buyurdu: "Bayrağı elə bir şəxsə verəcəyim ki, Allahı və rəsulunu sevir, Allah və rəsulu da onu sevir. Allah onun əli ilə fəth nəsib edəcək. Və o, əsla fərari deyil".*

*Peyğəmbər (s) adam göndərib məni çağırtdı. Gəldim, amma gözümdəki xəstəlik səbəbindən heç nə görmürdüm. Bayrağı mənə verdikdə dedim: "Ey Peyğəmbər, necə döyüşüm, axı gözlərimdəki ağrı səbəbindən bir şey görmürəm?!" Tüpürcəyini gözlərimə sürdü və "İlahi, onu istidən və soyuqdan*

---

[471] əl-Möcamul-kəbir, Təbərani. Heysəmi "Məcməuz-zəvaid"də (c. 1, s. 1112) deyir: *"Hədisin raviləri siqədirlər".*

*qoru!" deyib dua etdi. Bundan sonra nə isti və nə də soyuq mənə heç vaxt əziyyət vermədi".*[472]

"Bayraq" hədisi mütəvatir rəvayətdir. Bunu "Səhih"lərdə Buxari, Müslim, "Sünən"lərdə Tirmizi, İbn Macə və s. böyük hədis imamları öz kitablarında nəql ediblər. Həmçinin "Kutubus-sittə" müəllifləri də qeyd ediblər. Lakin həmin kitablarda Buxari və Müslimin şeyxi olan İbn Əbu Şeybənin nəqlindəki mühüm bir nöqtə pozularaq zikr edilməmişdir.

Peyğəmbərimiz (s) bu rəvayətdə "*Və o, əsla fərari deyil*" sözü ilə bəzi səhabələrə etiraz edir. Fərarilik məzəmmət olunan bir sifətdir. Bu feili dəfələrlə təkrar edən şəxsə isə ərəbcə "fərrar" deyilir. Fərarilik sifəti imanla, Allaha və rəsuluna itaətlə bir araya sığmır. Səhabələr tərəfindən fərarilik yalnız Xeybər döyüşündə baş verməyib, Ühüddə, Hüneyndə və digər müharibələrdə də müşahidə edilib. Bəlkə bu səbəbdən də həmin kəlmə bəzi kitablardakı rəvayətlərdən pozulub.

Ühüd savaşında qaçanlar barəsində Uca Allah buyurur: ***"(Ühüd müharibəsində) iki ordu qarşılaşdığı gün sizdən üz döndərənləri Şeytan, məhz etdikləri bəzi əməllərlə (Peyğəmbərin əmrinə asi olmaqla) yoldan çıxmağa (büdrəməyə) məcbur etdi. (Tövbə etdikdən sonra) Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayandır, həlimdir!"***[473]

Fəxr Razi deyir: *"Döyüşdən qaçanlardan biri Ömər idi. O, ilk qaçanlardan deyildi və çox uzağa da getməmişdi. Əksinə, dağın başına qalxaraq Peyğəmbərin (s) gəlməsini gözləyib. Həmçinin Osman ənsardan olan Səd və Üqbə adlı iki nəfərlə birlikdə döyüşdən qaçmışdı. Onlar qaçaraq uzaq bir yerə*

---

[472] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 523; Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 100; Sünən, İbn Macə, c. 1, s. 44. Albani bu barədə deyir: "Həsən hədisdir"; əs-Sünənul-kubra, c. 5, s. 109; əl-Möcamul-kəbir, Təbərani, c. 7, s. 35

[473] Ali-İmran, 155

*getmiş, yalnız üç gündən sonra geri qayıtmışdılar. Bu səbəblə Peyğəmbər (s) onlara demişdi: "Nə çox uzağa getmişsiniz!"*[474]

Beyhəqi Əla ibn Ərrardan nəql edir: *"Peyğəmbər (s) məscidində İbn Ömərdən Əli və Osman barədə soruşdum. Dedi: "Əli barədə soruşmağa ehtiyac yoxdur. Peyğəmbər (s) məscidində onunla Peyğəmbərdən (s) savayı heç kəsin evə sahib deyil. Amma Osmana gəldikdə, o, Ühüd savaşında böyük günah işlədi, amma Allah onu əfv edib bağışladı. Sonra sizin qarşınızda günah elədi, siz isə onu öldürdünüz".*[475]

Hüneyn döyüşündən fərarilik edənlər barədə Quran buyurur: ***"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (savaşı) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi), sonra dönüb qaçdınız".***[476]

Buxari Əbu Qətadənin köləsi Əbu Muhəmməddən Əbu Qətadənin belə dediyini nəql edir: *"Hüneyn savaşında müşriklərlə vuruşan bir müsəlmanı gördüm. Bir başqa müşrik də onun arxasınca gizlənərək gəlir və onu öldürmək üçün fürsət axtarırdı. Cəld ona tərəf hücum çəkdim. Məni vurmaq istədikdə bir zərbə endirib qulunu kəsdim. Məni tutub möhkəm dartdı, qorxdum və geri çəkilməyə başladım. Bu zaman süstləşdi və məni buraxdı. Onu yerə tərəf itələyib öldürdüm. Ardınca müsəlmanların qaçdığını gördüm və mən də onlara qoşulub qaçdım. Qaçanların arasında Ömər ibn Xəttab da vardı. Ondan camaatın nə üçün qaçdığını soruşduğumda "Allah əmr edib", – deyə cavab verdi".*[477]

Bu rəvayət Hüneyn müharibəsində bir çox səhabə ilə birlikdə Ömərin də qaçdığını aydın ifadə edir.

---

[474] ət-Təfsirul-kəbir, Fəxr Razi, c. 9, s. 50

[475] əs-Sünənul-kubra, Nisai, c. 5, s. 137, rəqəm 8489

[476] Tövbə, 25

[477] Səhih, Buxari, c. 5, s. 101

Xülasə, müharibədən fərarilik bəzi səhabələr tərəfindən təkrar-təkrar baş verib. Peyğəmbər (s) bu kimi sözlərlə onlara eyham vuraraq etiraz edir.

**Dördüncü hissə: Nakisin, mariqin və qasitinlərlə savaşmağı əmr edən rəvayətlər**

Hafiz Xətib Bağdadi və İbn Əsakir Süleyman ibn Mehran Əmaşdan nəql edirlər: *"İbrahim Əlqəmə və Əsvəddən rəvayət edir: Siffindən qayıtmış Əbu Əyyub Ənsarinin yanına getdik və dedik: "Həqiqətən də Allah sənə Muhəmmədi göndərməklə ikram etmiş, dəvəsini aparmaqla və yalnız sənin evinin qapısında dayanması ilə fəzilət bəxş eləmişdir. Amma indi sən qılıncınla "La ilahə illəllah" əhlinin boynunu vurursan?!"*

*Əbu Əyyub dedi: "Ey kişi, rəhbər öz əhlinə yalan danışmaz. Peyğəmbər (s) bizə Əli ilə birgə olub beyətlərindən dönənlərə (nakisinlərə), ədalətsiz zalımlara (qasitinlərə) və dindən çıxanlara (mariqinlərə) qarşı vuruşmağı əmr etmişdir. Beyətdən üz döndərənlər Cəməl əhli olan Təlhə və Zübeyrdir ki, artıq onlara qarşı vuruşmuşuq. Qasitinlərlə (yəni Müaviyə və Əmr ibn Asla) savaşdan isə yenicə qayıtmışıq. Mariqinlər isə Nəhrivan əhlidir. Allaha and olsun ki, onların harada olduğunu bilmirəm, amma inşallah, mütləq onlarla da vuruşacağıq".*[478]

Nakisinlərin Cəməl müharibəsi əhli olduğu məlumdur. Onların arasında başçıları Təlhə və Zübeyr olan bir çox səhabə vardı. Peyğəmbərin (s) zövcəsi Aişə onlara rəhbərlik edirdi. Qasitinlər də Müaviyənin tərəfdarlarıdır. Belə səhabələrdən Peyğəmbərin (s) razı olduğunu və onların düz yolda olduqlarını necə iddia etmək mümkündür?! Halbuki Peyğəmbər (s) Əliyə (ə) onlarla savaşmağı əmr edir. Məgər bu Peyğəmbərin (s), sağlam vicdan və ağılın inkarı deyilmi?!

---

[478] Tarixu Bağdad, Xətib Bağdadi, c. 13, s. 188; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 42, s. 472

Əgər deyilsə ki, “onlar tövbə etdilər”, lakin biz onların etdikləri tövbə haqqında heç bir məlumata sahib deyilik. Əksinə onlardan bəziləri, məsələn Müaviyə öz zülm və qəddarlığını daha da artırdı, minlərlə müsəlmanın qətlinə bais oldu. Onların qətlə yetirdikləri şəxslər arasında fəzilətli səhabələr, Bədrdə iştirak edən Əmmar ibn Yasir, Ənəs ibn Malik və başqaları vardı. Zülm və ədavətlə tökülmüş bu qanların ehtiramı bəs hanı?!

**Beşinci hissə: Hidayət tapmış və azmış səhabələri fərqləndirən rəvayətlər**

Bir çox rəvayət mövcuddur ki, onların vasitəsilə aydın şəkildə hidayət üzərində olanla azmışı, fasiqlə ədalətlini bir-birindən fərqləndirmək mümkündür. Bu isə Əhli-Beytə (ə) itaət edib, onlardan möhkəm yapışıb və onların vasitəsilə hidayət tapmağın vacibliyinə dəlalət edən hədislərdir. Həmçinin onlara qarşı çıxan, müxaliflik edən səhabələrin də azdığı bununla məlum olur. Bu uzun səhabə siyahısına Zübeyr, Təlhə, Müaviyə və bir çox başqaları daxildirlər. Həmin rəvayətlərdən bəzilərini təqdim edirik:

**1** – Əhməd ibn Hənbəlin, eləcə də bir çox hədis əhlinin qeyd etdiyi mütəvatir hədis: Əbu Səid Xudri Peyğəmbərdən (s) belə buyurduğunu rəvayət edir: *“Allah tərəfindən dəvət olunmağıma (dünyadan köçəcəyimə) və mənim də müsbət cavab verməyimə az müddət qalıb. Sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və itrətim. Allahın kitabı səmadan yerə uzanmış bir ipdir, digəri isə itrətim olan Əhli-Beytimdir. Lətif və hər şeydən xəbərdar (olan Allah) mənə bildirib ki, bu ikisi Hovuzun başında mənə qovuşanadək bir-birindən əsla ayrılmayacaqlar. Onlar barəsində məndən sonra necə rəftar etdiyinizə diqqət edin”.*[479]

Müslimin “Səhih”ində isə Peyğəmbərin (s) belə buyurduğu qeyd edilir: *“Ey camaat, mən də bir insanam, Rəbbimin elçisinin (ölüm mələyinin) gələcəyi və mənim də ona müsbət cavab verəcəyim vaxt yaxındır. Sizin*

---

[479] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 17

*aranızda iki ağır əmanət qoyuram: birincisi Allahın kitabıdır, orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".*

*Sonra Allahın kitabını insanları təşviq edərək onları rəğbətləndirəcək sözlər söylədi. Ardınca buyurdu: "Və Əhli-Beytim. Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram, Əhli-Beytim barəsində sizi Allaha tapşırıram!"*[480]

**2** – Hakim Nişapuri və digərləri İbn Abbasdan rəvayət edirlər: *"Peyğəmbər (s) buyurdu: "Ulduzlar yer əhli üçün qərq olmaqdan, Əhli-Beytim isə ümmətim üçün ixtilafdan amandır (əmin-amanlıq yeridir). Əgər ərəblərdən bir qəbilə onlara qarşı çıxsa, bu səbəbdən İblisin dəstəsinə çevrilərlər".*[481]

**3** – Təbəraninin qeyd etdiyi rəvayət: *Hənəş ibn Mötəmər deyir: "Əbu Zərrin Kəbənin qapısının çərçivəsindən tutub belə dediyini eşitdim: "Məni tanıyan tanıyır, kim ki, tanımır, (bilsin ki,) mən Əbu Zərr Ğəffariyəm. Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Əhli-Beytimin sizin aranızdakı misalı Nuh qövmü arasında Nuhun gəmisi kimidir. Ona minən nicat tapar, ondan üz çevirən həlak olar. (Həmçinin) Bəni-İsrail arasındakı Hittə qapısı timsalındadır".*[482]

**4** – Əbu Yəla Əbu Səid Xudrinin belə dediyini nəql edir: *"Mühacir və ənsardan olan adamlarla Peyğəmbərin (s) evinin yanında idik. Buyurdu: "Sizə ən xeyirlilərininiz barədə xəbər verimmi?" Dedilər: "Bəli". Buyurdu: "Xeyirlərə yardım edən vəfalılarınız. Həqiqətən Allah xoşrəftar təqvalıları sevir". Bu zaman Əli ibn Əbu Talib oradan keçirdi. Peyğəmbər (s) buyurdu: "Haqq bununladır, haqq bununladır".*[483]

---

480 Səhih, Müslim, c. 7, s. 123

481 Müstədrək, Hakim Nişapuri, c. 3, s. 162. Orada deyir: *"Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim onu qeyd etməmişlər".*

482 əl-Möcamul-kəbir, c. 3, s. 45

483 Bunu Əbu Yəla rəvayət edib, raviləri siqədirlər. "Məcməuz-zəvaid, c. 7, s. 235)

**5** – Hakim və digərləri Zeyd ibn Ərqəmdən Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edirlər: *“Kim mənim kimi yaşamaq və mənim kimi ölmək, Rəbbimin mənə vəd etdiyi əbədi (Xüld) cənnətində məskunlaşmaq istəyirsə, Əli ibn Əbu Talibi özünə rəhbər qərar versin. O, sizi əsla hidayətdən yayındırmaz və zəlalətə salmaz”.*[484]

**6** – Hakim və digərləri Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edirlər: *“Allah Əliyə mərhəmət göstərsin! İlahi, o harada olsa haqqı onunla birgə dövr etdir!”*[485]

**7** – Həmçinin Hakim yazır: “Əbu Zərr Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *“Mənə itaət edən həqiqətdə Allaha itaət etmişdir, mənə qarşı çıxan da həqiqətdə Allaha qarşı çıxmışdır. Əliyə itaət edən şəxs mənə itaət etmiş, ona qarşı çıxan isə mənə qarşı çıxmışdır”.*[486]

Bu mövzuda məzmunu aydın və açıq olan bir çox səhih rəvayətlər mövcuddur.

Buradan Əhli-Beytə (ə) qarşı çıxan və onlarla hidayət tapmayan, onlara müraciət etməyən kəslərin – istər səhabə olsunlar, istər olmasınlar – fisq və zəlalətləri məlum olur. Bu açıq-aydın bir məsələdir. Lakin din nuru və Peyğəmbər (s) hidayəti ilə işıqlanmayan nəfslər bunu inkar etmiş, rəvayətləri yozaraq yaxından-uzaqdan əlaqəsi olmayan mənalar vermişlər.

---

[484] Müstədrək, Hakim, c. 3, s. 139. Deyir: *“Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim onu qeyd etməmişlər”.*

[485] Müstədrək, Hakim, c. 3, s. 134. Deyir: *“Bu, Müslimin şərtinə əsasən səhih hədisdir, lakin Buxari və Müslim onu qeyd etməmişlər”.*

[486] Müstədrək, Hakim, c. 3, s. 131. Deyir: *“Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim onu qeyd etməmişlər”.*

## Dördüncü fəsil: Əhli-Beytin (ə) ümumən səhabəyə münasibəti

Burada iki bəhs var:

**Birinci bəhs:** İlahi İhsan Zahirin Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiasının dəlillərinin müzakirəsi

**İkinci bəhs:** İmam Əlinin (ə) ümumən səhabəyə həqiqi münasibətinin bəyanı

## Giriş

Əvvəldə də qeyd etdiyimiz kimi, İhsan Zahir özünün "Şiə və Əhli-Beyt" kitabının ikinci fəslində Əhli-Beytin (ə) bütün səhabələrə qarşı müsbət münasibətinin olduğunu, onları yad etməkdən xoşhal olduqlarını, ehtiyac duyduqları məsələlərdə səhabələrə müraciət etdiklərini, fəzilətlərini söylədiklərini iddia edib. Bu iddiasının isbatı üçün şiə kitablarından dəlillər gətirməyə səy göstərib. Lakin saxtakarlıq, dəlilləri kəsik və yarımçıq təqdim etmək üslubuna etdiyi vərdiş özünü burada da büruzə verir. Bu bəhsdə onun iddiası üçün gətirdiyi dəlillərə nəzər salacaq, bundan sonra Əhli-Beytin səhabələrə olan həqiqi münasibətini bəyan edəcəyik. Bu məqsədlə fəsli iki əsas bəhs üzərində qururuq:

**Birinci bəhs:** Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiasının dəlillərinin müzakirəsi;

**İkinci bəhs:** İmam Əlinin (ə) ümumən səhabəyə həqiqi münasibətinin bəyanı.

**Birinci bəhs: Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiasının dəlillərinin müzakirəsi**

İhsan Zahir Əhli-Beytin bütün səhabələrdən razı olduğuna bir neçə dəlil göstərmişdir. Biz burada onları qeyd edərək iddiaya heç bir dəlalətinin olmadığını bəyan edəcəyik.

**Birinci dəlil: Onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər.**

İhsan Zahir deyir: **"Bu Əli ibn Əbu Talibdir (r) – bizim nəzdimizdə dördüncü raşidi xəlifəsi, onların nəzərində isə birinci məsum imam, əhli-beytin ağası ki, Peyğəmbərin (s) səhabələrini ümumən qeyd edərək onları bu sözlərlə tərifləyir və mədh edir:**

**"Mən Muhəmmədin (s) səhabələrini görmüşəm. Sizlərdən heç birinin onlar kimi olduğunu görmürəm. Onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər. Alınları ilə üzləri arasında növbə qoymuşdular. (Gah alınlarını, gah da üzlərini torpağa qoyardılar.) Qayıdışı (qiyaməti) xatırlayaraq köz kimi yanardılar (iztirablı və narahat idilər). Alınları səcdənin uzunluğundan keçilərin dizləri kimi (qabar bağlamış) idi. Uca Allah zikr ediləndə əzab və cəzanın qorxusundan, savab və mükafata ümiddən gözlərindən axan yaşlardan yaxaları islanar və şiddətli küləkli günlərdə ağacın titrədiyi kimi əsərdilər".**[487]

**Müzakirə**

İmam Əlinin (ə) bu xütbəsini bütün səhabələrin mədhinə dəlil göstərmək həqiqətən də saxtakarlıq və yalandır. Bunun nə də təsdiq etmək

---

[487] Şiə və Əhli-Beyt, s. 35, "Nəhcul-Bəlağə"nin 97-ci xütbəsindən nəql edilərək

mümkündür, nə də qarşısında susmaq.

İmamın (ə) bu xütbəsi Müaviyə ibn Əbu Süfyan və ardıcıllarının tənqidi çərçivəsində söylənmişdir, öz səhabələrini onlara qarşı mübarizəyə təşviq məqsədi daşıyır. Özlərinin haqq olduqları halda İmama (ə) yardımda süstlük göstərmələrinə, lakin Müaviyə ibn Əbu Süfyanın batil tərəf olmasına baxmayaraq tərəfdarlarının döyüş əzmindən təəccübünü ifadə edir. Buna xütbəsindəki sözləri də dəlalət edir: *"Sizin rəhbəriniz Allaha müti olduğu halda siz ona qarşı çıxırsınız, amma Şam əhlinin rəhbəri Allaha asi olmasına rağmən, camaatı ona qarşı itaətkardır".*[488]

Bu sözlər də həmin xütbədəndir, lakin İhsan Zahir bunları kəsib ataraq qeyd etmir. Çünki bu sözlərdə onun dəlilini batil edəcək həqiqətlər mövcuddur. Belə ki, Müaviyə də onun nəzərində həmin "ədalətli, pak və alicənab" səhabələrdən biridir!

İmam Əlinin (ə) Müaviyə və tərəfdarlarını danlamasına diqqət yetirin. Onların arasında həmçinin Ömər ibn Səd, Zəbərqan ibn Həkəm, Simak ibn Məxrəmə Əsədi və s. kimi səhabələr də var.

Xütbədə Müaviyə və onunla birgə olan bəzi səhabələrin məzəmmət edilməsi ilə yanaşı İmamın (ə) bütün səhabələri mədh və tərif etdiyi iddiasının heç bir əsası yoxdur. Nəticədə xütbədəki mədh və tərif bəzi səhabələrə aid olur ki, bunu da İmamiyyə şiələri inkar etmirlər.

Əgər "bu mədh və tariflər Müaviyə və onun qoşununda olan səhabələrə şamil olmasa da, lakin bütün digər səhabələrə şamil olur. Ancaq şiələr bunu da qəbul etmirlər" deyilsə, cavabında deyərik:

Həmin xütbənin kəlmələrində bəzi əlamətlər var ki, bu da İmamın (ə) *"Mən Muhəmmədin (s) səhabələrini görmüşəm"* sözü ilə məqsədinin bütün səhabələr olmadığına dəlalət edir.

**Birinci əlamət:** İmam (ə) xütbəsinin mövzusu bütün səhabələri vəsf etmək deyil. Əksinə, mövzu ona yardımda səhlənkarlıq edən əshabını

---

[488] Nəhcul-Bəlağə, 97-ci xütbə

danlamaqdır. Bu zaman isə sözün ümumi və mütləq mənada səhabələrə şamil olması iddiası doğru sayılmaz.

**İkinci əlamət:** İmam (ə) bəzi vəsfləri sayır ki, bunlar da bütün səhabələrdə mövcud deyil. Məsələn: *Onların səhərlər saçları dağınıq və tozlu olar, gecələri səcdə və qiyam halında oyaq keçirərdilər. Alınları ilə üzləri arasında növbə qoymuşdular. (Gah alınlarını, gah da üzlərini torpağa qoyardılar.) Qayıdışı (qiyaməti) xatırlayaraq köz kimi yanardılar (iztirablı və narahat idilər). Alınları səcdənin uzunluğundan keçilərin dizləri kimi (qabar bağlamış) idi".*

Bu sifətlər yalnız bir dəstə səhabəyə məxsusdur. Belə ki, səhabələr iman cəhətdən heç də bərabər səviyyədə deyildilər ki, İmamın (ə) qeyd etdiyi bu sifətlər onların hamısına şamil olsun.

**Üçüncü əlamət:** Quranın və Peyğəmbərin (s) sözlərində bir çox səhabənin məzəmmət hədəfinə çevrildiklərini qeyd etmişdik. Misal olaraq: ***"Həqiqətən, (Aişə barəsində) yalan xəbər gətirənlər öz içərinizdə olan bir zümrədir. Onu (o xəbəri) pis bir şey zənn etməyin. O, bəlkə də, sizin üçün xeyirlidir. O zümrədən olan hər bir şəxsin qazandığı günahın cəzası var. Onlardan günahın böyüyünü öz üstünə götürəni (Abdullah ibn Übeyyi) isə (qiyamət günü) çox böyük (şiddətli) bir əzab gözləyir!"***[489], **həmçinin:** ***"İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?!"***[490]

Həmçinin Peyğəmbər (s) bir dəstə səhabəyə işarə edərək buyurur: *"Onlar üsyankarlardır, onlar üsyankarlardır!"*[491]

Eləcə də əvvəldə qeyd etdiyimiz və etmədiyimiz onlarla rəvayət...

Bu qeyd edilən sifətlərin bütün səhabələrə şamil olması necə

[489] Nur, 11

[490] Hədid, 16

[491] Səhih, Müslim, c. 3, s. 141; Sünən, Tirmizi, c. 2, s. 107; Sünən, Nisai, c. 4, s. 177

mümkündür?!

**İkinci dəlil: Bu rəftarınıza görə qan sağacaqsınız və ondan sonra peşman olacaqsınız**

İhsan Zahir deyir: **“Bu, Əhli-Beytin ağasının sözləridir ki, Peyğəmbərin (s) bütün səhabələrini tərifləyir, savaşda onu yalnız buraxan, süstlük göstərən, düşmənlə üz-üzə gəlməkdən qorxan əshabına və şiələrinə onları nümunə göstərir. Onlarla Peyğəmbər (s) səhabələri arasında müqayisə apararaq deyir:**

**“Biz Allahın peyğəmbəri (s) ilə olduğumuz vaxt öz atalarımızı, övladlarımızı, qardaş və əmilərimizi (döyüşlərdə) öldürürdük. Belə rəftar iman və etiqadımızı çoxaldırdı, itaət yolunu tuturduq və doğru yolda dönməzliyimiz çoxalırdı. Ağrıların yanğısına dözümümüz və düşmənlə cihad yolunda səylərimiz daha da artırdı. Birimiz düşmənlərə hücum edirdi və onlardan biri başqasına ölüm camı ilə doydurana qədər iki erkək heyvan bir-birinin canına düşən kimi bir-birinin üstünə düşürdülər (bir-birini öldürmək qəsdində olurdular). Bəzən biz düşmənə zəfər çalır, bəzən də düşmən bizə qalib gəlirdi. Allah bizim doğruluğumuzu gördüyündən dəvənin istirahət vaxtı sinə və boynunu yerə qoyduğu tək, İslam möhkəmlənənə, öz yerlərində yayılana qədər düşmənlərimizi xar, qələbəni isə bizə nəsib etdi. Öz canıma and olsun, əgər rəftarımız sizin kimi olsaydı, dinin bünövrəsi qoyulmazdı və iman ağacının budağı göyərməzdi. And olsun Allaha! Bu rəftarınıza görə qan sağacaqsınız və ondan sonra peşman olacaqsınız”.**[492]

---

[492] Şiə və Əhli-Beyt, s. 35. “Nəhcul-Bəlağə”nin 54-cü xütbəsindən nəql edilərək

**Müzakirə**

Bu rəvayətdə onun iddiasına dəlil ola biləcək heç bir şey yoxdur. Şübhə yoxdur ki, Peyğəmbər (s) səhabələrinin bir dəstəsi ali iman dərəcəsində və Quranın qeyd etdiyi kimi ***"kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər"*** vəsfinə sahibdilər. Bu, şiələrlə digərləri arasında səhabələr barədə ixtilaf mövzusu deyil. Əksinə, ayənin məzmunu ilə də tam uyğundur. Məgər şiələr Əhli-Beytin (ə) Qurana zidd mövqeyinin olduğunu iddia edirlər? Bu necə ola bilər?! Əksinə, onlar Quran və Əhli-Beytə möhkəm sarılmağı əmr edən "Səqaleyn" hədisini öz müxaliflərinə qarşı dəlil göstərirlər.

Bununla bərabər, İmamın (ə) məqsədi bütün səhabələrin mədhi deyil, o, bu sözləri ilə ordusunu Şam əhli ilə müharibədə fəallığa səsləyir. Onlara bir dəstə səhabənin Peyğəmbərlə (s) birlikdə iştirak etdikləri savaşları xatırladır, Peyğəmbərə (s) olan itaətlərindən və kafirlərə qarşı sərtliklərindən bəhs edir. Yoxsa, Peyğəmbərlə (s) birlikdə müharibələrdə olan bir dəstə səhabə (döyüş meydanlarından qaçaraq) Quranın da tənqidinə hədəf olmuşdu. Həmin hadisələrlə bağlı Quran ayələrini və Peyğəmbərin (s) sözlərini sizə əvvəldə təqdim etdik.

Əlavə olaraq, nəzərdən qaçmamalıdır ki, İmam Əli (ə) öz ordusunu səhabə olan Müaviyəyə qarşı savaşa təşviq edir. Belə bir halda İmamın (ə) Peyğəmbərin (s) bütün səhabələrindən razılığını söylədiyini necə iddia etmək mümkündür?!

Bu və əvvəlki rəvayətlərdə İmam Əli (ə) cəmiyyətin dirçəldilməsinin qaydalarını qeyd edir. Cəmiyyət qurbanlar vermədikcə, bu yolda səbir və ciddi səy göstərmədikcə əsla inkişaf etməz və hədəfinə çatmaz. Bu, hər cəmiyyətə aiddir. Bunun doğruluğuna tarixdə baş vermiş bütün inqilablar və müasir sivilizasiyalar şahidlik edir. İmam (ə) bu cəhətə diqqətini yönəldib. Onun müxalifi isə səyinin səmərəsini əsla görməyəcək.

Qeyd etmək istərdik ki, İhsan Zahir izlədiyi bu üslubu kitabın bütün səhifələrində ciddi-cəhdlə tətbiq etməyə çalışıb. O, hər şeyi hər şeyə dəlil olaraq göstərir. Əvvəldə də öz iddiasının ziddinə olan dəlilləri iddiasının təsdiqi kimi göstərməyə çalışdığını bəyan etdik. Daha artığına qarşıdakı bəhslərdə rast gələcəyik.

**Üçüncü dəlil: Onlar qardaşlarım idilər ki, getdilər.**

İhsan Zahir deyir: **"Həmçinin münafiq və uğursuz şiələrinin qarşısında səhabələri yad edir, indi yanında olmadıqlarından təəssüfləndiyini bildirir:**

**"Hanı İslama çağırılanda onu qəbul edənlər, Quranı oxuyub onu möhkəmləndirənlər və cihada ruhlandıranlar. Sonra dəvələr balalarına aşiq olduqları kimi (döyüş meydanına getməyə) aşiq oldular. Qılınclarını qınlarından çıxararaq dəstə-dəstə, səf-səf yerin ətrafını (döyüş meydanını) bürüdülər. Bəziləri həlak oldu (öldürüldü), bəziləri isə sağ qaldı. Sağ qalmalarına sevinməzlər. Ölənlərə görə başsağlığı istəməzdilər. Gözləri (Allahın xofundan) ağlamaqdan ağardı. Qarınları oruc tutmaqdan arıqladı, dodaqları dua etməkdən qurudu. Rəngləri oyaq qalmaqdan saraldı, üzlərinə təvazökarlığın qubarı (izləri) əyləşdi. Onlar qardaşlarım idilər ki, getdilər. Layiq olanı budur ki, onların (onlarla görüşün) təşnəsi olub ayrılıqlarına və uzaqlıqlarına görə əllərimizi çeynəyək".**[493]

**Müzakirə**

Burada ikinci dəlilə verdiyimiz cavabın eynisini veririk. Əlavə olaraq bildirək ki, İmam Əlinin (ə) vəsf etdiyi sifətlər şübhəsiz, bütün səhabələrə

---

[493] Şiə və Əhli-Beyt, s. 35. "Nəhcul-Bəlağə"nin 121-ci xütbəsindən nəql edilərək

şamil olmur. Qəribə olan isə İhsan Zahirin bu dəlili təqdim etmədən əvvəl söylədiyi **"Həmçinin, münafiq və uğursuz şiələrinin qarşısında səhabələri yad edir..."** deməsidir. Onun bu sözləri İmam Əlinin (ə) Peyğəmbərin (s) bütün səhabələrini mədh və tərif etdiyi iddiası ilə birbaşa ziddir. Belə ki, İhsan Zahir səhabələrin tərifəlayiqliyini isbat etməyə çalışdığı halda, təqdim etdiyi dəlildə İmamın (ə) danladığı əshabı arasında səhabələr də var. İhsan Zahir isə onları münafiq və uğursuzlar adlandırır! Bu isə açıq-aydın rüsvayçılıqdır.

İmamın (ə) əshabı arasında həmçinin, Bədr savaşında vuruşan, mühacir və ənsardan olan, həmçinin Rizvan beyətində iştirak edən səhabələr də vardı. Belə şəxsləri necə münafiq adlandıra bilir?!

İmam Əlinin (ə) sözləri biri digərini təfsir edir. Onları qopuq hissələr kimi oxumaq mümkün deyil. İhsan Zahirin dəlil kimi təqdim etməyə çalışdığı bu xütbə şiələrə deyil, xəvariclərə ünvanlanmışdı. Belə ki, əshabından bir nəfər ayağa qalxaraq *"Bizi (iki hakimin) qəzavətinə razılaşmaqdan çəkindirib sonra ona əmr etdin. Başa düşmədik ki, bu iki əmrdən hansı doğru yola, hidayətə daha yaxındır?"* deməsindən sonra İmam (ə) həmin xütbəni söyləmişdi. Bu hadisə Hərir gecəsindən sonra baş verir. Yəni Əmmar ibn Yasirin, Xüzeymə ibn Sabitin, İbn Teyhanın, Haşim Mərqalın, İbn Bədil Xəzainin və digərlərinin şəhid edilməsindən sonra. İmamın (ə) vəsf etdiyi səhabələr də məhz onlar və onlara bənzər şəxslərdir.

Bunu təsdiqləyən dəlillərdən biri İmamın (ə) özünün şəhid edilməsindən bir neçə gün əvvəl söylədiyi (kitabdakı 182-ci) xütbəsidir. Orada buyurur:

*"Haradadırlar mənim haqq yolunu öz minikləri etmiş və (ömürlərini) düzlük və doğruluqla (sona çatdırıb) köçmüş qardaşlarım? Haradadır Əmmar? Haradadır ibn Teyhan? Haradadır Zuşşəhadəteyn? Haradadır*

*onların qardaşlarının onlar kimiləri ki, bir-birləri ilə ölüm barəsində əhd bağladılar və başları günahkarlara (Müaviyə və tərəfdarlarına) göndərildi?"*

*İmam (ə) bu sözdən sonra əlini mübarək saqqalına vuraraq çox ağladı və buyurdu: "Heyf və əfsus, o qardaşlarım (dindaşlarım) üçün ki, Quranı oxuyaraq onu möhkəm bildilər, vacib olan şeydə düşünərək onu bərqərar etdilər, sünnəni dirildərək bidəti məhv etdilər, cihada çağırılanda (onu) qəbul etdilər və başçıya inanaraq ona tabe oldular".*[494]

İmamın (ə) *"səhabələrim"* sözündən məqsədi məhz bunlar və bunlara bənzər şəxslərdir. Bunu İmam (ə) aydın ifadə edir. Onun sözlərini ümumən səhabəyə şamil etməyin yeri yoxdur. Belə ki, İmamın (ə) sözləri də Quranın və Peyğəmbərin (s) sözləri kimidir, biri digərini təfsir və izah edir.

**Dördüncü dəlil: Onların istəkləri rədd edilməyəcək və rahatlıq və asayiş bəhrələri azalmayacaq**

İhsan Zahir deyir: **"Səhabələri yad edir, onların əldə etdikləri dünya və axirət nemətlərini xatırlayır, Allah tərəfindən geniş əcr və mükafata nail olduqlarını bildirir: "Ey Allah bəndələri, bilin ki, təqvalılar keçici dünyanı və gələcək axirəti qazanıblar. Beləliklə, onlar dünya əhli ilə dünyalarında (onun xeyirlərində) şərik oldular. Dünya əhli isə onların axirətlərində (onun xeyrində) şərik olmadılar. Onlar dünyada ən yaxşı mənzildə məskunlaşdılar və yeməlilərin ən yaxşısını yedilər. Beləcə, dünyadan əylənənlər kimi bəhrələndilər və itaətsizlərin aldıqları ləzzəti aldılar. Dünyadan sonra onları (məqsədə) çatdıran azuqə və (səadət) mənfəəti olan sövdələşmə ilə (axirətə) getdilər. Dünyada öz zahidliklərinin ləzzət və şirinliyini daddılar. Sabah, axirətdə Allahın yaxınlığında olacaqlarını yəqin**

[494] Nəhcul-bəlağə, 182-ci xütbə

**etmişdilər. Onların istəkləri rədd edilməyəcək və rahatlıq və asayiş bəhrələri azalmayacaq".**[495]

**Müzakirə**

İhsan Zahirin İmam Əlinin (ə) sözlərindən nəql etdiyi bu hissə bütün səhabələrə deyil, yalnız bir dəstə təqvalı səhabəyə şamil olur. Bütün səhabələrin təqva əhli olmadığı barədə əvvəldə söhbətimiz oldu. Buna əsasən də dəlilinin bütün səhabələrlə yaxından və ya uzaqdan heç bir əlaqəsi yoxdur.

**Beşinci dəlil: İslamı ilk qəbul edənlər öndə olduqları üçün qalib gəlmişdilər**

İhsan Zahir deyir: **"Müaviyəyə cavabında mühacir səhabələri mədh edərək deyir: "Qabaqda gedənlər (İslamı ilk qəbul edənlər) öndə olduqları üçün qalib gəlmişdilər, ilkin mühacirlər fəzilət və böyüklüklərinə görə getmişdilər (və özlərinə şirk və küfrdən nicat vermişdilər)".**[496]

**Birinci müzakirə**

İhsan Zahir adəti üzrə məktubun bir hissəsini kəsərək həqiqi mənasından yayındırmışdır. Bu, İmamın (ə) Müaviyəyə cavab olaraq yazdığı məktubdandır və mətni aşağıdakı kimidir:

*"Məndən Şam vilayətini istəməyinə gəldikdə: dünən sənə verməyərək əsirgədiyim şeyi bu gün verəcək şəxs deyiləm. "Müharibə ərəbi yeyib (öldürərək məhv edib), qalan canları almayaq!" sözlərin barəsində bil və xəbərdar ol ki, haqqın yediyi (haqq yolunda şəhid olan) kimsə cənnətə*

---

[495] Nəhcul-bəlağə, 27-ci məktub

[496] Nəhcul-bəlağə, 17-ci məktub

*yollanıb, batil və nahağın yediyi kimsə (nəfsi istəkləri yolunda öldürülən) isə cəhənnəm yolunu gedir.*

*Bizim, müharibədə və (döyüşçü) kişilər baxımından bərabər olmağımız barəsində (dediklərin də düz deyil, çünki): Sənin şəkk və tərəddüd (bir neçə günlük dünya ağalığını əldə etmək) üçün olan səy və təlaşın mənim yəqinlik və inam (axirət səadəti və xoşbəxtliyi) üçün səyimdən artıq deyil; Şam əhalisinin dünyaya hərisliyi İraq əhalisinin axirət hərisliyindən çox deyil.*

*"Biz Əbdülmanaf övladlarıyıq" sözünə gəldikdə, biz də eləyik. Amma Üməyyə Haşim kimi, Hərb Əbdülmüttəlib kimi və Əbu-Süfyan da əsla Əbu Talib kimi deyil. Eləcə də Mühacirlər əsirlik zəncirindən azad olan Tüləqalar*[497] *kimi deyillər. Nəsəbi pak olan da (həmin pak nəsəbə) yapışdırılmış kimi deyil. Nə danışıq və işləri düz olan şəxs yalançı və pis əməlli kimidir, nə də mömin və dinə sığınan kəs münafiq və ikiüzlü kimi.*

*Cəhənnəm oduna düşən atasının (yaxud qohumlarının) yolunu davam etdirən övlad nə pis övladdır! Bütün bu fəzilət və böyüklüklərdən əlavə peyğəmbərlik fəziləti və şərəfi də bizim əlimizdədir. Biz onun vasitəsi ilə hörmətlini xar, xar olanı isə hörmətli etdik. Allah ərəbi dəstə-dəstə öz dininə daxil edəndə, bu ümmətdən (bir dəstə) meyl və rəğbətlə, (digər bir dəstə isə) naçarlıqdan təslim oldu (İslamı çıxılmaz vəziyyətdə qalıb qəbul etdilər). Siz (dünyaya) məhəbbət və ya (öldürülməkdən) qorxu səbəbindən dinə daxil olan kəslərdən idiniz. (Bu) o vaxt (baş verdi) ki, qabaqda gedənlər (İslama səmimiyyətlə) tabe olduqları üçün qalib gəlmişdilər və ilkin Mühacirlər fəzilət və böyüklüklərinə görə getmişdilər (və özlərinə şirk və küfrdən nicat vermişdilər). Bəs, Şeytanın səndən bəhrələnməsinə və (onun) sənə yol tapmasına imkan vermə".*[498]

---

[497] Məkkə fəth olunan zaman əsir düşüb İslamı qəbul etdikdən sonra azad edilənlər. Bu sözü ilə Müaviyənin tüləqalardan olduğuna işarə edir (tərc.)

[498] Nəhcul-bəlağə, 17-ci məktub

**İkinci müzakirə**

**Birinci: Bu məktub bir səhabə haqqındadır**

Bu dəlil bir səhabənin məzəmmət olunması barədədir. Həmin səhabə də Müaviyə ibn Əbu Süfyandır. Halbuki İhsan Zahirin məqsədi Əhli-Beytin (ə) bütün səhabələrdən razılığını isbat etməkdir. Bu dəlil isə onun iddiasına fayda yox, əksinə zərər verir. Məktubda Müaviyənin ümumən səhabələrdən kənarda tutulması isə bütün səhabələrdən razılıq iddiasına heç bir dəyər vermir.

**İkinci: Tərif və mədh bütün mühacirlərə şamil deyil**

Şübhə yoxdur ki, İmam Əlinin (ə) sözlərindəki məqsədi bütün mühacirləri tərifləmək deyil. Lakin İhsan Zahir onun sözlərini bu mənaya şamil etməyə cəhd göstərir. Bəs görəsən, həqiqətdə İmam (ə) bütün mühacirləri, yoxsa onlardan bir dəstəsini mədh etmək istəyir?

Əgər burada mədhin bütün mühacirlərə deyil, onların yalnız bir hissəsinə şamil olduğu deyilsə, o zaman bunu dəlil göstərməyin faydası olmayacaq. Çünki şiələr bunu inkar etmirlər. Əgər tərifin bütün mühacirlərə şamil olduğu iddia edilsə, cavabında bunun aşağıdakı səbəblərə görə mümkün olmadığını söyləməliyik:

**Birinci səbəb:** Hicrət öz mahiyyəti ilə həqiqətdə tərifəlayiq bir iş deyil. Mədhə və tərifəlayiq hicrət isə heç bir dünya hədəfi olmadan, yalnız Allah yolunda xalis niyyətlə edilən hicrətdir.

Buna əsasən, mühacirlərdən Allahın razılığının və bu hicrətin fəzilət olduğunun isbatı üçün yalnız hicrətin dəlil kimi göstərilməsi kifayət deyil. Buxari öz "Səhih"ində Ömər ibn Xəttabdan rəvayət edir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Həqiqətən də əməllər niyyətlədir. Hər bir şəxsə etdiyi niyyət qalar. Kim dünya əldə etmək və ya bir qadınla evlənmək üçün hicrət etmişsə, savabı da hicrət etdiyindən gözləsin".*[499]

---

[499] Səhih, Buxari, c. 1, s. 2, "Vəhyin başlanma necəliyi" babı, hədis 1

**İkinci səbəb:** Əgər bütün mühacirlərin xalis iman niyyətilə, heç bir dünyəvi məqsədləri olmadan hicrət etdiklərini qəbul etsək, bu zaman mədh onlardan iman və ixlasda davamiyyətli olanlara, dinlərini dəyişməyənlərə şamil olacaq. Uca Allah buyurur: ***“Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib-getmişlər. Əgər o, ölsə və ya öldürülsə, siz (dininizdən) gerimi dönəcəksiniz? Halbuki geri dönən kəs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükür edənlərə mükafat verər”.***[500]

**Üçüncü səbəb:** Əgər mədh bütün mühacirlərə şamil edilsə, o zaman Osmanın qətlində iştirak edən Əbdürrəhman ibn Üdeys Bəlvi kimi mühacirlərə də şamil edilməlidir. O, Bədr əhlindəndir və Osmanın qətli ilə başa çatan üsyanın rəhbərlərindəndir.

İlahi İhsan Zahirin bu əməli düzgündürmü? Onun nəql etdiyi bu parça məgər bütün mühacirlərə şamil ola bilərmi?

Əgər həmin mədh Əbdürrəhman ibn Üdeysə də şamil olacaqsa, bu, Osmanın qətlində iştirak edənlərin tərifə layiq olduqları anlamına gəlməyəcəkmi? İhsan Zahirin bunu qəbul edəcəyini düşünmürəm. Əgər ona şamil olmayacağını iddia etsə, bu zaman “bütün mühacirlər” iddiası və göstərdiyi dəlil batil olur.

**Dördüncü səbəb:** İmam Əli (ə) bütün mühacirləri deyil, ilk mühacirləri tərifləyir. Səhabələr və ilk mühacirlər mövzusu isə şiə ilə digər məzhəblər arasında ixtilaflı məsələdir.

**Beşinci səbəb:** Buradakı ümumi mənalı sözlər İmamın (ə) digər kəlamlarındakı ümumi mənalı sözləri kimi qeyd xarakteri daşıyır. Necə ki, İmam (ə) göndərdiyi məktubda buyurur: *“Şam əhalisinin dünyaya hərisliyi İraq əhalisinin axirət hərisliyindən çox deyil...”*[501]

---

[500] Ali-İmran, 144

[501] Bu sözlərdə bütün Şam əhlilə bütün İraq əhli anlaşılsa da, həqiqətdə üz-üzə gələn qoşundan söhbət açılır. Həmçinin bu ifadə bütün şamlılarla iraqlıların belə vəsfə sahib olduğu mənasını da gəlməz (tərc.)

Məgər bu sözlərdən İhsan Zahir bütün Şam əhalisinin dünyapərəst, iraqlıların isə axirət əhli olduqlarını anlayır?

Təqdim olunanlardan anlaşılır ki, mədh və tərif bütün mühacirlərə, eləcə də Allaha xalis niyyəti olmayan, sonradan imandan üz çevirən mühacirlərə şamil ola bilməz. Buradakı məqsəd sadiq və sabitqədəm olan mühacirlərdir. Bu barədə isə İmamiyyə şiələrinin heç bir ixtilafı yoxdur. Bunun əksini onlara yalnız cahil və böhtan atan kəslər nisbət verə bilərlər.

Bütün bunlar İmamın (ə) sözlərində ümumi mühacirlərin nəzərdə tutulduğu fərz olunsa söylənə bilər. Halbuki həqiqət belə deyil. İmamın (ə) məqsədi tamamilə fərqlidir. O, bu sözləri ilə Müaviyənin İslamı heç də ilk qəbul edən şəxslərdən və ya mühacirlərdən olmadığını bəyan edir, onun dünyəvi məqsədlərlə və ya qılınc qorxusundan dini qəbul etdiyini bildirir. Məlumdur ki, Müaviyə və atası İslamı Məkkənin fəthi zamanı qəbul etmişdilər. Belə bir şəxsin isə xilafətə heç bir haqqı ola bilməzdi. Çünki xilafət tüləqalara[502] və onların övladlarına haram idi. Bu baxımdan tüləqa əsla mühacirlə bərabər tutula bilməz. İmam Əli (ə) mühacir, zalım Müaviyə isə tüləqadır.

Deməli, qorxudan və ya dünyəvi məqsədlərlə dini qəbul etmiş Müaviyə, Əbu Süfyan və onların ətrafındakılar İmam Əli (ə) ilə müqayisə oluna bilməzlər. İmam (ə) İslamı ilk qəbul edən şəxs, dində uğur qazanmış və ən üstün fəzilətə sahib ilk mühacirlərdəndir. Onların müqayisəsi mümkün deyil. Bundan əlavə, İmam Əli (ə) məktubunda Müaviyəni özünə tabe olmağa, Şeytana imkan verməməyə çağırır.

Tüləqa olan Müaviyə ilə ilk mühacirlərdən olan İmam Əlinin (ə) müqayisəsindən məlum olur ki, Müaviyənin xilafət haqqı yox idi. Möminlərin əmirinin (ə) ilk mühacirlərdən olması şübhəsizdir. Məktuba İmamın (ə) sözləri zahirən ümumi mənada görünsə də, məqsədi mühacirlərdən bir dəstəni qeyd etməkdir. Bu, Uca Allahın Qurandakı

---

[502] Məkkə fəth olunarkən İslamı qəbul edərək sərbəst buraxılan şəxslər

cümləsi kimidir: ***"...O kəslər ki, namaz qılar və rüku halında zəkat verərlər".***[503] Ayənin zahiri ümumən namaz qılıb və zəkat verənlərə şamil olsa da, məqsəd yalnız Əlidir (ə). Bununla da İmamın (ə) sözlərinin İhsan Zahirinin iddiasından uzaq olduğu anlaşılır. Eləcə də bu sözlər açıq şəkildə İmam Əlinin (ə) vilayətinə və xilafət haqqına, Müaviyənin isə batil tərəf olduğuna dəlalət edir.

**Altıncı dəlil: Mühacirlərdə bizim bildiyimiz çoxlu xeyirlər var**

İhsan Zahirin "Nəhcul-bəlağə"yə istinad edərək İmama (ə) nisbət verdiyi sözləri: **"Mühacirlərdə bizim bildiyimiz çoxlu xeyirlər var. Allah onları ən yaxşı mükafatla mükafatlandırsın!"**

**Müzakirə**

Bu sözlər "Nəhcul-bəlağə"də mövcud deyil. Həmin cümlə Nəsr ibn Məzahimin (vəfatı: h.q. 212, m. 827) "Siffin müharibəsi" ("Vəqətu Siffin") kitabındandır. Həmin kitabda Müaviyənin məktubuna İmamın (ə) etiraz xarakterli cavabı bir az fərqli kəlmələrlə qeyd edilib. Orada yazılır: *"Mühacirlərdə bizim bildiyimiz çoxlu xeyirlər var. Allah onları ən yaxşı əməlləri müqabilində mükafatlandırsın!"*[504]

İhsan Zahirin iddialarına isə əvvəlki beş dəlilə verdiyimiz cavabı veririk.

**Yeddinci dəlil: Onlar İslamı var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə bəsləyərək yetişdirdilər**

İhsan Zahir deyir: **"Necə ki, Muhəmmədin (ə) səhabələrindən olan ənsarı da tərifləyir: "Allaha and olsun ki, onlar var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə İslamı süddən ayrılmış (və ya bir yaşı**

---

[503] Maidə, 55

[504] Vəqətu Siffin, İbn Məzahim Mənqəri, II çap, 1382-ci h.q. ili, Qahirə

**olan) at balası bəslənən kimi bəsləyərək yetişdirdilər".[505]**

**Müzakirə**

**Birinci:** Bu kəlmələrdəki tərif ümumən ənsarın hər birinə fərd-fərd şamil deyil. Əksinə onlarından müəyyən şəxslərə şamildir və bir dəstəni ehtiva edir. Bunun dəlili isə, Möminlərin əmirinin (ə) onları *"var-dövlətləri, səxavətli əlləri və iti dilləri ilə İslamı... bəsləyərək yetişdirdilər"* deyərək vəsf etməsidir.

Bu vəsflərin bütün ənsara, onların hər bir fərdinə nisbət verilməsi düzgün deyil. Bu "Qüreyş Peyğəmbərə (s) qarşı çıxdı" sözü kimidir. Burada "qarşı çıxmaq" hər bir qüreyşliyə şamil edilməz. Həmin cümlədə məqsəd Qüreyşin bir hissəsidir.

Belə olduqda, mədh və tərif bütün ənsara şamil olmur.

**İkinci:** Ənsardan olan Ənəs ibn Malik kimi bəzi şəxslər İmam Əlinin (ə) danlağına tuş gəlmişlər. Qədir-Xum hadisəsi ilə bağlı şahidliyini gizlətdiyinə görə Möminlərin əmiri (ə) ona bəddua etmişdi. Buna əhli-sünnə rəvayətləri də dəlalət edir. Həmin rəvayətə "İmam Əlinin (ə) bəzi səhabələrə münasibəti" bəhsində toxunacağıq.

Beləliklə də, qeyd edəcəyimiz rəvayət İmamın (ə) sözlərində məqsədin bütün ənsar olmadığına (cümlədən) kənar bir dəlil olur.

**Üçüncü:** Əgər tərifin bütün ənsara fərd-fərd şamil olduğu iddiasını qəbul etsək, Quranın bəzi ənsarı məzəmmət edən açıq bəyanlı ayələri qarşısında buna da etina edə bilməyəcəyik. ***"...Mədinə əhalisi içərisində ikiüzlülüyü özlərinə adət etmiş (bu işdə mahir) münafiqlər var. Sən onları tanımazsan, Biz isə onları tanıyırıq. Onlara iki dəfə (dünyada və qəbir evində) əzab verəcəyik. Sonra (axirətdə) isə ən böyük əzaba uğrayacaqlar".[506]*** Bu ayədə mədh olunanlar xalis imana sahib və

---

[505] Şiə və Əhli-Beyt, s. 36-37; Nəhcul-Bəlağə, 462-ci (457və ya 465) hikmət

[506] Tövbə, 101

imanlarına nifaq qarışdırmayan ənsardır.

Başqa bir sözlə: "Ənsar" ünvanı Mədinədə yaşayan və İslamı qəbul edən hər bir şəxsə şamil edilir. Qəlbində iman olmasa da zahirən dinə iman gətirib, Peyğəmbəri (s) təsdiq edən hər bir mədinəli ənsardır.

Bəzən də "Ənsar" kəlməsində məqsəd xüsusi, qəlbi ilə həqiqi iman gətirmiş, dində xalis olan, var-dövlətlərini və canlarını fəda etmiş şəxslər olur. Belə ənsarlar ömürlərinin sonunadək iman üzərində qalanlar İmamiyyə şiələrinin müzakirə mövzusu deyillər. Peyğəmbər (s) hədisində buyurulduğu kimi, əməllər yalnız sonuna görə ölçülür.

Buna əsasən də ömrünün sonlarında pis aqibətlə üzləşən ənsara rəğmən bütün ənsarın mədhi iddiası əsla düzgün sayılmaz.

Lakin, İhsan Zahirin dəlillərlə rəftarı zamanı daim düşdüyü xəta budur ki, o heç bir qeyd, izah və şərt qoşmadan dəlillərdən mütləq və ümumi mənalarında istifadə edir.

Halbuki elmi qaydaların tələblərinə əsasən, cümlədaxili və xarici qeydlər, amillər mülahizə edilməli, dəlilin ümumi və ya mütləq mənalara şamil olması müəyyən edilməlidir. Bütün bunlar məna və dəlalətə birbaşa təsir edən amillərdir.

## Səkkizinci dəlil: Əli ibn Əbu Talib öz səhabələrini Peyğəmbər (s) ənsarı ilə müqayisə edir

İhsan Zahir deyir: **"Aydın bir təriflə (Əli ibn Əbu Talib) öz səhabələrini Peyğəmbər (s) ənsarı ilə müqayisə edərək deyir: "Ey camaat! Allaha and olsun, sizin şəhərlərinizin əhalisi ərəbin ənsarından çoxdur. Peyğəmbər (s) mühacirlərlə birlikdə gəldikdə yalnız iki azsaylı qəbilə onlara risaləti təbliğ etməyə mane olmağa çalışdı. Onlar qədim ərəblərdən də deyildilər, sayları da az idi. (Mədinə əhli) Peyğəmbəri (s) və səhabələrini himayə edib, Allaha və**

**dininə yardım etdikdə ərəblər eyni yaydan onları oxlamağa başladılar. Yəhudilər də onlara qoşuldu. Yəhudilər və (ərəb) qəbilələr əlbir olub onlarla savaşdılar. Onlar isə ərəblərlə aralarındakı bağları kəsdilər, yəhudilərlə olan əhdlərini pozdular, bütünlükdə özlərini Allahın dininin yardımına həsr etdilər, Nəcd və Təhamə, Məkkə və Yəmamə, Həzn və Səhl əhlinə qarşı çıxdılar. Dinin cığırını açdılar, qızğın döyüşlərdə səbrlə mətanət göstərdilər. Ta ki, ərəblər Peyğəmbərə (s) tərəf yaxınlaşdılar. Allah dərgahına qovuşanadək Peyğəmbər (s) onları gözünün nuru kimi görürdü. Siz isə bu gün ərəblər arasında o dövrdəkilərdən qat-qat çoxsunuz".[507]**

**Müzakirə**

**Birinci:** Buna əvvəlki dəlilə verdiyimiz cavabı veririk.

**İkinci:** İmam (ə) bu kəlmələri öz əshabını Müaviyə ibn Əbu Süfyanla savaşa ruhlandırırkən söyləyib. Müaviyə Süfyan ibn Ovf Ğamidini altı min nəfər atlı ilə Ənbar üzərinə hücuma göndərmişdi. Onlar Hit və Ənbara soxulmuş, müsəlmanları qətlə yetirmiş, qadınları əsir götürmüş və insanları Möminlərin əmirindən (ə) üz döndərməyə məcbur etmişdilər.

Buna əsasən, təqdim edilən dəlilin bütün ənsara şamil olduğuna mətndə dəlalət yoxdur. Çünki İmamın (ə) sözlərinin mövzusu bütün ənsarı ümumən mədh etmək deyil.

**Üçüncü:** İhsan Zahirin iddiasına görə Müaviyə də Əhli-Beytin (ə) "razılıq və sevgisinin" məzhəri olan səhabələrdəndir. Lakin bu dəlil onun səhabələrə qarşı rəftarda ifrat əqidəsinin batilliyinə aşkar surətdə şahidlik edir. Belə ki, bunların arasında İmamın (ə) və Əhli-Beytin (ə) tənqid və məzəmmətinə hədəf olan Müaviyə və s. kimi səhabələr var.

---

[507] Şiə və Əhli-Beyt, s. 36-37, "əl-Ğarat"dan nəql edilərək, c. 2, s. 479-480

**Doqquzuncu dəlil: Sizə Peyğəmbərin (s) səhabələri haqqında vəsiyyət edirəm. Onları əsla söyməyin**

İhsan Zahir deyir: **"Məclisi Tusidən Əli ibn Əbu Talibin səhabələr haqqında söylədiyi inanılan rəvayəti nəql edir: "İmam (ə) öz əshabına buyurdu: "Sizə Peyğəmbərin (s) səhabələri haqqında vəsiyyət edirəm. Onları əsla söyməyin. Onlar Peyğəmbərinizin (s) səhabələridir, elə səhabələrdirlər ki, dində heç bir bidət çıxarmadılar və bidət sahibini dəstəkləmədilər. Bəli, Peyğəmbər (s) mənə bunlar barədə vəsiyyət etmişdi".**[508]

**Müzakirə**

**Birinci:** Rəvayət mürsəl olduğu üçün zəifdir, İhsan Zahirin güman etdiyi kimi, heç də inanılan deyil. Məclisi onu aşağıdakı sənədlə qeyd etmişdir: *"Tusinin "Amali"sində Məcaişiyə (kitabda da elədir) istinadla İmam Sadiqdən, o da babaları vasitəsilə İmam Əlidən (ə) nəql edir ki..."* Göründüyü kimi, rəvayətin ravilər zənciri İmam Sadiqə (ə) yetişmir, ondan mürsəl olaraq nəql edilir. Bu məqamda onu dəlil olaraq göstərmək düzgün deyil.

**İkinci:** İhsan Zahir rəvayəti Əllamə Məclisidən düzgün nəql etməmişdir. Belə ki, rəvayətin əsl mətnini təhrif etmişdir. "Biharul-ənvar" kitabının müəllifi Əllamə Məclisinin qeyd etdiyi rəvayət belədir: *"Sizə Peyğəmbərinizin səhabələrini vəsiyyət edirəm. Onlardan Peyğəmbərdən (s) sonra dində bidətlər yaratmayanları, yeniliklər gətirməyənləri söyməyin. Peyğəmbər (s) onlar barədə vəsiyyət etmişdi".*

Əsl mətni mülahizə etdikdən sonra İhsan Zahirin təhrif və saxtakarlığının miqdarı məlum olur. Belə ki, İmam Əli (ə) söyülmələrini qadağan etdiyi Peyğəmbər (s) səhabələrini "*dində bidətlər yaratmayanlar, yeniliklər gətirməyənlər*" vəsfi ilə qeyd edir. Əsl mətndəki məna tam

---

[508] Şiə və Əhli-Beyt, s. 37

aydındır. Beləliklə qadağa yalnız dində bidətlər yaratmayan, yeniliklər gətirməyən səhabələr barədədir, mütləq şəkildə bütün səhabələrin söyülməsi barədə deyil. Uca Allah buyurur: ***"Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər".***[509] Bu ayə aydın şəkildə bütün namaz qılanları deyil, yalnız namazından qafil olanları təhdid edir.[510]

**Üçüncü:** Rəvayət, hətta İhsan Zahirin təhrif etdiyi formada da səhabənin təhqir edilməsinin mütləq şəkildə qadağan olunduğuna dəlalət etmir. Baxmayaraq ki, İhsan Zahir buna cəhd göstərmişdi. Belə ki, "...*elə səhabələrdirlər ki, dində heç bir bidət çıxarmadılar və bidət sahibini dəstəkləmədilər*". Bu kəlmənin özü söyülməsi qadağan edilən səhabələr üçün bir zahiri qeyddir. Həmçinin bunu rəvayətdəki digər kəlmə də təsdiqləyir: "...*Bəli, Peyğəmbər (s) mənə bunlar barədə vəsiyyət etmişdi".* Əgər bu sözlərdəki məqsəd mütləq şəkildə bütün səhabələr olsaydı rəvayətdəki bir dəstəni bildirən *"bunlar barədə"* sözünə ehtiyac qalmazdı. "Bunlar" isə dində heç bir bidət çıxarmayan və bidət sahibini dəstəkləməyən səhabələrdir.

**Dördüncü:** Rəvayətdə bir dəstə səhabənin söyülməsinin qadağan edilməsi ilə digər dəstənin söyülməsinin caiz olduğuna sanki eyham mövcuddur. Belə ki, vəsf məfhuma dəlalət edir. Necə ki, deyilir: "Otarılan keçinin (qoçun) zəkatı var". Bu cümlədən başa düşülən odur ki, otarılmayan çöl keçisinin zəkatı yoxdur. Şafei vəsfin məfhumunun dəlil olduğu qənaətindədir. Belə olduqda, *"...elə səhabələrdirlər ki, dində heç bir bidət çıxarmadılar və bidət sahibini dəstəkləmədilər"* cümləsi tələffüz olunan, dində bidət çıxaran və bidət sahiblərini dəstəkləyənlərin söyülməsinin caiz olduğu isə başa düşülən mənadır (məfhumdur). Nə

---

[509] Maun, 4-5

[510] Bu ayə ilə İmamın (ə) buyurduğu cümlə ərəb dilində qrammatik quruluş baxımından eynidirlər. Bu səbəbdən müəllif həmin ayənin məna dəlalətini nümunə göstərir.

tələffüz olunan və nə də məfhum barədə (dəlil səlahiyyəti fərz olunsa belə) bizim heç bir söhbətimiz yoxdur.

**Onuncu dəlil: Əli (ə) Ənsar və mühaciri birlikdə qeyd edərək tərifləyir**

İhsan Zahir deyir: **"(Əli ibn Əbu Talib) Ənsar və mühaciri birlikdə qeyd edərək tərifləyir, imam seçmək və təyin etmək ixtiyarının onlarda olduğunu bildirir. Onlar ilk əsrlərdə müsəlmanlar arasında etibar və ixtiyar sahibləri idilər. Heç kim onları rədd edə, onlarsız qərar verə və sözlərinə etiraz eləyə bilməzdi. Çünki onlar müsəlmanların ən layiqliləri və təməli idilər. Necə ki, Şam hakimi Müaviyə ibn Əbu Süfyanın möminlərə əmirlik və müsəlmanlar üzərində hakimlik iddiasına etiraz olaraq yazdığı məktubunda buyurur: "İmamı yalnız Muhəmmədin səhabələri təyin edir, başqası deyil".**

**Bu həqiqəti Müaviyə ibn Əbu Süfyana xatrladan, özünün rəhbərliyə daha çox haqq sahibi olduğuna dəlil göstərən məhz Əli ibn Əbu Talibdir. Onun yazdığı məktubundakı digər sözlər belədir: "Məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə (xəlifədə) eyib və nöqsan tapması səbəbindən və ya bidət nəticəsində onların əmrlərindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yolla getdiyi üçün vuruşarlar. Allah (da) onu üz tutduğu şeyin öhdəsinə buraxar".**

**Görəsən Əli ibn Əbu Talibin söylədiyi bu sözlərın qarşılığında şiələrin nəzəri nədir? O, bu sözləri ilə aşağıdakıları bəyan edir:**

**1. Şiələrin nəzərinə zidd də olsa, Peyğəmbər (s) səhabələrindən mühacir və ənsar arasındakı məşvərətin (Şuranın) qərarı haqlıdır.**

**2. Onların bir şəxs barədə həmfikir olmaları Allahın bu seçimdən razı olduğuna səbəb və nişanədir.**

**3. Onların zamanında imamət onlarsız, onların seçimi və razılığı olmadan təyin edilə bilməzdi.**

**4. Onların sözlərini yalnız bidətçi, üsyankar və ya möminlərin yolundan azan kəs rədd edər.**

**5. Səhabəyə qarşı çıxanlarla savaşarlar və onların arasında qılınc hökm edər.**

**6. Bundan əlavə, Allah yanında da həmin şəxs Peyğəmbərin (s) dostuna və sevdiyi şəxslərə, onlardan mühacir və ənsara, eləcə də Əlinin övladlarına qarşı çıxdığı üçün cəzalandırılar".**[511]

**Müzakirə**

İhsan Zahirin şiəyə qarşı dəlil göstərdiyi bu sözlər İmam Əlinin (ə) Müaviyəyə yazdığı məktubdandır. Həmin məktubun tam mətni belədir: *"Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər (onları xilafətə təyin edənlər) həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar (işlərin idarəçiliyini mənə tapşırdılar). Odur ki, (xilafətin Allah və Peyğəmbər tərəfindən təyin edilməsi ilə deyil, ümmətin ümumi rəyi ilə bərqərar olmasına və xalqın ümumi rəyə gələrək Əbu Bəkr, Ömər və Osmanı xəlifə təyin etmələrinə əqidə bəsləyən sizlər bilməlisiniz ki, məni də xilafətə həmin şəxslər, yəni, xalq kütləsi təyin edib. Buna görə də) orada (beyətdə) olanların (Təlhə və Zübeyr kimilərin) ondan başqasını seçmək haqları yoxdur. Orda olmayanın da (sənin kimilərin də) onu qəbul etməmək haqqı yoxdur. (Sizin əqidənizə görə xilafət məsələsində) məşvərət aparmaq mühacirlərin və*

---

[511] Şiə və Əhli-Beyt, s. 38, "Nəhcul-bəlağə"dən nəql edilərək. c. 3, s. 7. 6-cı məktub, Sübhi Salehin təhqiqi ilə

*ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə (xəlifədə) eyib və nöqsan tapması səbəbindən (bəhanəsi ilə, məsələn, Müaviyənin Osmanın öldürülməsini ona nisbət verməsi kimi) və ya (dində rəva olmayan şeyi ona daxil etmək: Təlhə, Zübeyr və onların tərəfdarlarının əhd-peymanlarını pozmaları kimi) bidət nəticəsində onların əmrlərindən (onların gördükləri işlərdən) boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər (öyüd-nəsihət fayda verməsə və) onların göstərişlərini qəbul etməsə, (sizin əqidənizə görə) onunla möminlərin yolundan başqa bir yolla getdiyi üçün vuruşarlar. Allah (da) onu üz tutduğu şeyin öhdəsinə buraxar.*

*Ey Müaviyə, canıma and olsun, əgər ağlına müraciət etsən (fikrə dalıb düşünsən) və nəfsi istəklərinə göz yumsan, (yersiz danışmaz, Osmanın öldürülməsini mənimlə peyman bağlamamağına bəhanə gətirməzsən) görərsən ki, mən Osmanın qanında (öldürülməsində) ən təmiz adam olmuşam; bilərsən ki, mən ondan uzaqlaşaraq bir guşəyə çəkilmişdim. Amma sən (nəfsi istəklərə uyaraq) böhtan atıb onun öldürülməsini mənə nisbət verirsən və sənə məlum olan şeyi gizlədirsən. Salama layiq kimsəyə salam olsun!"*[512]

Məktubun tam mətnindən aydın olur ki, İmam Əli (ə) bu sözləri ilə Müaviyəyə dəlil və höccət gətirir. Bəzi mühacir və ənsarın beyət etməsi səbəbindən Müaviyənin də Əbu Bəkr, Ömər və Osmana beyət etdiyini xatırladır, buna əsasən özünün (ə) xəlifəliyini də qəbul etməli olduğunu bildirir. Çünki bu seçim mühacir və ənsarın seçimidir. Bunlar Müaviyənin anladığı dildə, (onun öz inancına müvafiq şəkildə) söylənmiş sözlərdir. Bütün ağıl sahibləri qarşısındakıların höccət bildiyi və qəbul etdiyi vasitələrlə dəlil təqdim edirlər.

**İkinci:** *"...Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar"* sözünə gəldikdə, bu sözlər mühacir və

[512] Nəhcul-bəlağə, c. 3, s. 7. 6-cı məktub. Sübhi Salehin təhqiqi ilə

ənsarın beyət etdiyi şəxsə qanunilik qazandırmaz. Belə ki, İmam Əlinin (ə) imamətinə dəlalət edən "Səqaleyn", "Qədir-Xum" və digər aydın mənalı, mütəvatir dəlillər müqabilində bu sözlərin səlahiyyəti yoxdur.

Bunun dəlil olduğunu fərz etsək, bu, istisnasız bütün mühacir və ənsarın bir şəxs barədə icma etdikləri zaman baş verə bilər. Belə hal isə heç bir xəlifənin – nə Əbu Bəkrin, nə Ömərin, nə Osmanın və nə də İmam Əlinin (ə) xilafəti zamanı baş verməyib. Mühacir və ənsardan bir nəfərin müxalifliyi bu icmanı pozar. Halbuki sadalanan şəxslərin xilafətinə bir çox mühacir və ənsar qarşı çıxmışdı.

Əgər deyilsə: Məqsəd ümumən fərd-fərd mühacir və ənsar deyil, onların böyük bir dəstəsinin icmasıdır.

Deyərik: Bunu qəbul etdiyimiz fərz olunsa, bu cür icma yalnız İmam Əlinin (ə) xilafəti zamanı baş verdi. Nə ondan əvvəl, nə də sonra belə bir icma olmamışdı. Əgər aralarında Əhli-Beytin (ə) və ya onlardan bir neçəsinin iştirakı ilə bu cür icma baş versə, bəli, onun höccət olmasına heç bir maneə olmayacaq.

**Üçüncü:** "Nəhcul-bəlağə"nin bəzi qədim nüsxələrində həmin hissə *"Bu, razılıq olar"* kimi qeyd edilib. Yəni, mühacir və ənsarın bir şəxs üzərində icması camaatın razılığı və seçimi sayılır. Başqa sözlə, bu razılıq Allah yanından ilahi hökm xarakteri daşımır, sadəcə camaat arasında feli-əməli hökm qismindəndir.

**Dördüncü:** Həqiqətən də mühacir və ənsarın icma etdikləri hər bir məsələ haqdır. Çünki Əhli-Beyt (ə) də mühacirlərdəndir, hətta heç bir ixtilaf olmadan, onların başçılarıdır. Buna əsasən, mühacir və ənsarın icmasını əsas götürmək "Səqaleyn" hədisində əmr edilən pak itrətə sarılmağın özüdür.

**Beşinci:** Bu dəlilin özü bütün mühacir və ənsarla məşvərət etməyin lazım olduğuna dəlalət edir. Şübhəsizdir ki, Əbu Bəkr və Ömərə beyət heç bir məşvərət aparılmadan gerçəkləşmişdi. Ömərin sözləri ilə desək – "ani

verilmiş qərardır ki, Allah bu qərarın şərindən qorudu”. Buxari İbn Abbasa istinadən yazır: *“Ömər dedi: “Mənə xəbər çatıb ki, filankəs deyib: “Allaha and olsun, əgər Ömər ölsə, filankəsə beyət edəcəyik. Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət həqiqətən də o cür olub. Amma, Allah onun şərindən qorudu. Sizlərdən heç kimin boynu Əbu Bəkrə əyildiyi kimi başqasına əyilmədi. Kim müsəlmanlarla məşvərət etmədən bir kəsə beyət etsə o da, beyət edilən də aldadılmışdır, Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər”.*[513]

**On birinci dəlil: Onları məğfirət və razılığınla yad et. İlahi, xüsusilə də Muhəmmədin səhabələrini!**

İlahi İhsan Zahir deyir: **“Bu isə Zeynəlabidin ləqəbli Əli ibn Hüseynin sözləridir. Onların nəzərində dördüncü məsum imam, zəmanəsində Əhli-Beytin başçısı. Muhəmmədin (s) səhabələrini yad edir, məxluqatın əşrəfinə yardım etdikləri, tövhidin və Allahın risalətinin insanlara çatdırılmasına kömək göstərdikləri üçün namazında onlara rəhmət və məğfirət diləyərək dualar edir. Deyir: “Onları məğfirət və razılığınla yad et. İlahi, xüsusilə də Muhəmmədin səhabələrini! O kəslər ki, Peyğəmbərə (s) ən gözəl yardımçılar oldular, mərdliklə savaşdılar, risalətlərinin dəlilləri onların qulaqlarına çatdırdıqda dəvətini qəbul etdilər, sözünün ucalması üçün əhli-əyallarından ayrıldılar, nübuvvətinin dirçəlməsi üçün öz ataları və övladları ilə vuruşdular, onun vücudunun bərəkətindən döyüşlərdə qalib gəldilər, qəlblərində sevgisini bəslədilər, onun**

---

[513] Səhih, Buxari, s. 25-26, “Küfr əhli və mürtədlərlə müharibə kitabı”.

**eşqində kasad olmayan bir ticarətə ümid etdilər, ona ürək bağlayanda qohumlarından ayrı düşdülər.**

**İlahi! Sənin yolunda Muhəmməd (s) səhabələrinin əldən verdiklərini lütf nəzərindən uzaq etmə, onları razı sal. İnsanları (Sənin) dininə dəvət edib dinin yolunda öz şəhər və diyarlarından uzaq düşmələrinə, rahatlıqdan çətinliyə düşmələrinə, dininin ucalması üçün zülm gördüklərinə görə onlara mükafat ver.**

**İlahi, iman, əxlaq və əməldə ona itaət edib: "İlahi, bizi və imanda bizdən irəli keçən qardaşlarımızı bağışla" deyənlərə, səhabələrin yolunu tutan və onların adətlərini tələb edənlərə, onların yolu ilə həyatlarına rövnəq verənlərə, əqidələrinə heç bir şəkk-şübhə qatmayanlara, onların yardımçılarına, dində onlarla müvafiq və həmfikir olanlara Özünün ən yaxşı mükafatını bəxş elə!"**[514]

**Müzakirə**

**Birinci:** İmam Zeynəlabidin (ə) bu duada – sözlərindən də anlaşıldığı kimi – mütləq şəkildə bütün səhabələr üçün deyil, əksinə, bir dəstə xüsusi səhabələr üçün dua edir: *"İlahi, xüsusilə də Muhəmmədin səhabələrini! O kəslər ki, ona (s) ən gözəl yardımçılar oldular, mərdliklə savaşdılar, risalətlərinin dəlilləri onların qulaqlarına çatdırdıqda dəvətini qəbul etdilər, sözünün ucalması üçün əhli-əyallarından ayrıldılar, nübuvvətinin dirçəlməsi üçün öz ataları və övladları ilə vuruşdular..."* Belə səhabələrin mövcudluğunu və tərifə layiq olduqlarını şiələr inkar etmirlər. Onlar səhabələrin iki sinfə bölündüyünü təsdiqləyir. Bir sinfi Allahın, Rəsulunun (s) və Əhli-Beytin (ə) razılığının qərar tapdığı şəxslər, digər bir dəstəsi isə hənif dinin yolunda möhkəm ola bilməyən, Allahın qəzəbini cəlb edən əməllərə mürtəkib olanlardır. Necə ki, sonuncu dəstə barədə əvvəlki bəhslərdə bir çox nümunələr göstərdik.

---

[514] Şiə və Əhli-Beyt, s. 39 ("Səhifeyi-Səccadiyyə"dən nəql edilərək; 4-cü dua)

**İkinci:** İmam Zeynəlabidindən (ə) varid olan və Əhli-Beyt (ə) tərəfdarlarının gecə-gündüz təkrarladıqları bu dua İhsan Zahirin şiələrin bütün səhabələrə mənfi münasibət bəslədiyi iddialarını puç edir. Həmçinin bu dua şiələrin Peyğəmbərə (s) ən gözəl şəkildə səhabəlik etmiş şəxslərə qarşı xoş və dost münasibətinin ən yaxşı dəlildir.

**On ikinci dəlil: Hz. Muhəmmədin (s) səhabələri digər peyğəmbərlərin (ə) səhabələrindən üstündür**

İhsan Zahir deyir: **"Həsən ibn Əlinin övladlarından biri, şiələr arasında on birinci imam kimi tanınan Həsən Əskəri öz təfsirində deyir: "Kəlimullah Musa Rəbbindən hansısa peyğəmbər səhabələrinin onun səhabələrindən daha çox hörmətə malik olub-olmadığını soruşdu. Uca Allah buyurdu: "Ey Musa! Bilmirsənmi, Muhəmmədin səhabələrinin bütün peyğəmbərlərin səhabələri üzərindəki fəziləti Muhəmmədin özünün digər peyğəmbərlər üzərindəki fəziləti kimidir".**[515]

**Müzakirə**

**Birinci:** Bu təfsirin İmam Həsən Əskəriyə (s) mənsub olması isbat edilməyib. Çünki bu kitab Şeyx Səduqa üç yolla yetişib. Bunlar: Əbülqasim Muhəmməd Əstərabadi, Əbülhəsən Əli ibn Muhəmməd ibn Səyyar və Əbu Yaqub Yusuf ibn Muhəmməd ibn Ziyaddır. Sonuncu iki şəxs barədə heç bir şiə rical kitablarında onlara inamı təsdiqləyəcək hər hansı bir söz varid olmayıb. Bu səbəbdən həmin kitabın əlimizə yetişmə yolu zəifdir.

[515] Şiə və Əhli-Beyt, s. 40

Seyyid Xoyi deyir: *"Bu kitaba nəzər salan şəxs onun uydurulmuş olduğuna şübhə etmir. Alimin məqamı belə bir kitab yazmaqdan uzaqdır, bəs İmama (ə) nisbəti necə mümkün olar?!"*[516]

**İkinci:** Bu rəvayətdəki ümumi məna heç də bütün səhabələri əhatə edəcək ümumilik deyil ki, Muhəmmədin (s) səhabələrinin bütün peyğəmbərlərin səhabələrindən üstünlüyünü bildirsin. Məlumdur ki, Peyğəmbərin (s) bəzi səhabələrini Qiyamət günü oda tərəf sürüyəcəklər. Bunu Buxaridəki və digər mənbələrdəki hədisdə də oxuyuruq: "*Bilin ki, ümmətimdən bir dəstə adam gətirilib Cəhənnəmə doğru aparılacaq. Mən "Ya Rəbbim, səhabələrim, səhabələrim!" deyəcəyəm. Mənə deyiləcək: "Onların səndən sonra nələr etdiklərini bilmirsən!" Mən saleh bəndə İsanın dediyi kimi deyəcəyəm: Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni öldürdükdən sonra onlara nəzarətçi Özün oldun. Mənə deyiləcək: Sən onların arasından ayrıldıqdan sonra onlar dindən üz döndərib əvvəlki hallarına qayıtdılar".*[517]

Belə olduqda, bu cür səhabələr necə bütün peyğəmbərlərin səhabələrindən, hətta cənnət əhlindən üstün ola bilərlər?! Məlum olur ki, məqsəd heç də ümumən bütün səhabələr deyil, yalnız onların müəyyən bir dəstəsidir. Yəni əgər Peyğəmbərin (s) müəyyən bir dəstə səhabələrini götürsək, onların digər peyğəmbərlərin bütün səhabələrindən fəzilətli olduğunu görərik. Buna heç bir irad və şübhə də yoxdur.

### On üçüncü dəlil: Səhabələrə qarşı çıxana əzab verilər

İhsan Zahir deyir: **"Bundan sonra Həsən Əskərinin təsfirində yazılıb: "Muhəmmədin ailəsinə, xeyirli səhabələrinə və ya onlardan**

---

[516] Möcəmu ricalil-hədis, Seyyid Xoyi, c. 13, s. 157

[517] Səhih, Buxari, c. 5, s. 192

**birinə qarşı çıxan kəsə elə əzab verər ki, əgər o əzab məxluqlar arasında bölünsəydi hamısı həlak olardılar”.**[518]

**Müzakirə**

**Birinci:** Əvvəlki dəlilin müzakirəsində qeyd etdiyimiz kimi, İmam Həsən Əskərinin (ə) təfsirindən gətirilən rəvayət kitab etibarsız olduğu üçün dəlil sayıla bilməz.

**İkinci:** Rəvayətdə səhabələr “xeyirli” sifəti ilə qeyd edilir. Belə olduqda, rəvayət Peyğəmbərin (s) əshabı arasında xeyirli olmayan səhabələrin mövcudluğunu isbat edir. Çünki hər bir qeyd müəyyən keyfiyyət və xüsusiyyətləri vurğulayır. Bunun isə bəyan və təkid olmadığı, əksinə etiraz xarakteri daşıdığı aydındır. Burada “xeyirli” sifəti “xeyirli olmayan” sifətindən etiraz və çəkindirmədir. Bu rəvayət xüsusi iqrari cəhətdən də olsa bəzi səhabələrin “xeyirli” sifətinə sahib olmadıqlarına dəlalət edir. Buna əsasən, rəvayət bütün səhabələrin mədh və tərifinə dəlalət etmir, yalnız onlardan xeyirlilərə şamil olur. Bu isə şəkk mövzusu deyil. Şiələr də bundan artığını iddia etmirlər. Onlar yalnız səhabələr barədə həddi aşmağı, Allahın, Rəsulunun (s) və Əhli-Beytin (ə) onların hamısından razı olduqlarını inkar edirlər. Çünki bu iddianı Quran, sünnə və səhabələrin tarixdəki həyat seyrləri də təkzib edir. Bunu əvvəldə də qeyd etmişdik.

**On dördüncü dəlil: Səhabələrim göydəki ulduzlar kimidir.**

İhsan Zahir deyir: **“Bu səbəbdən də onun babası, şiələrin nəzərində səkkizinci imam, “Rza” ləqəbli Əli ibn Musa ondan Peyğəmbərin (s) “Səhabələrim göydəki ulduzlar kimidir. Onlardan hansına itaət**

---

[518] Şiə və Əhli-Beyt, s. 40

**etsəniz hidayət taparsınız", "Səhabələrimi mənə buraxın" hədisi barədə soruşulduqda "Bəli, bu doğrudur" deyə cavab verir".**[519]

**Müzakirə**

**Birinci: Hədisin sənədi zəifdir**

Hədisin sənədi Şeyx Səduqun "Uyunu əxbarir-Rza"da qeyd etdiyi kimi belədir: *"Hakim Əbu Əli Hüseyn ibn Əhməd Beyhəqidən, o da Muhəmməd ibn Yəhya Sulidən, o da Muhəmməd ibn Musa ibn Nəsr Razidən, o da atasından nəql edir..."*

Bu sənəddə Muhəmməd ibn Yəhya Suli var. O, halı məchul şəxsdir. Heç bir rical kitabında ona inam yaradacaq söz yoxdur.

Həmçinin sənəddəki Muhəmməd ibn Musa ibn Nəsr-Razinin də halı məchuldur. Rical kitablarında ona da inam yaradacaq heç bir söz yoxdur.

Şeyx Əli Namazı Şahrudi "Müstədrəkatu ilmir-rical" kitabında yazır: *"Muhəmməd ibn Musa ibn Nəsr Razi Əbu Abdullah – onu qeyd etməmişlər. Yalnız Şeyx Səduq yolu ilə "Uyun"da adı qeyd edilib".*[520]

**İkinci: kəsilən hissə hədisə xələl gətirir**

İhsan Zahir bu dəfə də adəti üzrə hədisi kəsərək nəql edir. Bununla da hədisin mənasını dəyişərək fərqli məcraya yönəldib. Bu saxtakarlıqdakı məqsədi isə təbii ki, oxucunu aldatmaqdır. Buradakı mətnə müraciət edən şəxs zənn edəcək ki, məqsəd səhabənin məqamını və onların hidayət amili olduqlarını bəyan etməkdir. Lakin oxucu əsl mətnə nəzər saldıqda hədisin İhsan Zahirin iddiasının tam əksini bəyan etdiyini görür. Şeyx Səduqun "Uyunu əxbarir-Rza" kitabında yer verdiyi hədisin tam mətni belədir: *"Muhəmməd ibn Musa ibn Nəsr Razinin atasından belə rəvayət etdiyi nəql*

---

[519] Şiə və Əhli-Beyt, s. 40-41. Şeyx Səduqun "Uyunu əxbarir-Rza" kitabından nəql edilərək. c. 2, s. 87

[520] Müstədrəkatu ilmir-rical, c. 7, s. 344

*edilir: İmam Rzadan (ə) Peyğəmbərin (s) "Səhabələrim ulduzlara bənzəyir, hansına itaət etsəniz hidayət taparsınız" və "Səhabələrimi mənə buraxın" sözləri haqqında fikri soruşuldu. İmam (ə) buyurdu: "Bu, doğrudur. Lakin məqsəd Peyğəmbərdən sonra dəyişməyən və dində bir dəyişiklik etməyən kəslərdir".*

*Soruşan şəxs: "Onların üz döndərib, dində dəyişiklik etdikləri haradan bilinir?" dedikdə, İmam (ə) buyurdu: "Onların Peyğəmbərdən (s) bu hədisi rəvayət etmələrindən bilinir: "Qiyamət günü səhabələrimdən olan bir dəstə şəxs yad dəvənin sudan qovulduğu kimi, hovuzumdan (Kövsər hovuzundan) qovulacaqlar. O əsnada mən "Ey Rəbbim! Səhabələrim, səhabələrim!" deyəcəyəm. Bu zaman mənə belə deyiləcək: "Həqiqətən, bunların səndən sonra nələr etdiklərini bilmirsən". Daha sonra onlar Cəhənnəmə tərəfə aparılarlar. Bu əsnada mən deyəcəyəm: "Uzaq olsunlar, məhv olsunlar!"*

*İmam Rza (ə) daha sonra buyurdu: "Peyğəmbərin bu sözü ("Səhabələrim ulduzlar kimidir...") dində dəyişiklik etməyənlər barəsindədir".*[521]

Hədis aydın şəkildə bu sözün bütün səhabələrə şamil olmadığını göstərir. Mətndə aydın şəkildə dindən dönən və dinlərində dəyişiklik edən səhabələrin mövcudluğu vurğulanır. Buna dəlil olaraq isə İmam Rza (ə) bütün firqələrin nəql etdikləri Peyğəmbərin (s) "Hovuz və dindən dönənlər" hədisini göstərir.

---

[521] Zahirən İmamın (ə) "Səhabələrim ulduzlar kimidir..." hədisinə verdiyi cavab həmsöhbətinin qəbul etdiyi dəlillər əsasında onu razı salmaq üçündür. Əvvəlki iki hədis və Məmuna verilən cavab da bu cürdür.

Amma Rəsulullahın (s) Qiyamət günü "İlahi, səhabələrim, səhabələrim" deyə buyurduğu hədis bir çox fərqli yollarla geniş bir şəkildə əhli-sünnənin səhih kitablarında yer alır. Daha geniş məlumat üçün bu mənbələrə müraciət edə bilərsiniz: Səhih, Buxari, "Kitabur-riqab", "Babul-Hovz", 585-586-cı hədislər; Kitabul-fitən, c. 4, 7001-7005-ci hədislər; Səhih, Müslim, "Kitabut-taharə" c. 3, 247 və 249-cu hədislər; c. 15, 2302-ci hədis; Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 298, 300, 408, 454, 467; c. 5, s. 388, 393, 400; Kənzul-ummal, c. 14, s.17, 433; Möcəmul-Kəbir, Təbərani, c. 24, s. 94, 251-ci hədis

**On beşinci dəlil:**

İhsan Zahir deyir: **"Həmçinin Peyğəmbərin (s) və Əlinin (r) əmisi oğlu Abdullah ibn Abbasın – əhli-beytin fəqihinin, Əlinin təyin etdiyi məmurun səhabələr haqqında söylədiyi sözlər nəql edilir: "Şəni və tərifi Uca olan Allah (öz) peyğəmbəri Muhəmmədə (s) onu canlarından və mallarından üstün tutan, hər bir halda özlərini fəda etməyə hazır olan səhabələr bəxş etdi. Uca Allah onları Öz kitabında "bir-birlərinə qarşı mərhəmətli" deyərək vəsf edir. Onlar din təliminə başladılar, müsəlmanlar üçün səmimi səy göstərdilər, din üçün yol döşədilər, təməllərini möhkəmləndirdilər, (bununla da) Allahın nemətləri zahir oldu, din qərar tutdu, əlamətləri aydın bəyan oldu. Onların vasitəsilə müşriklik zəlil oldu, şirk başçıları aradan getdi, sütunları məhv edildi, Allahın sözü ən üstün, kafirlərinki isə ən alçaq sözə çevrildi. Allahın salavatı, rəhmət və bərəkəti o saf şəxslərə, uca pak ruhlara olsun! Onlar həyatda ikən Allahın dostları idilər, ölümdən sonra isə diri qaldırlar. Onlar Allah bəndələri üçün nəsihətçilər idilər. Axirətə qovuşmadan əvvəl ora rehlət etmiş, dünyada ikən dünyadan uzaqlaşmışdılar…"**[522]

**Müzakirə**

**Birinci:** Bu rəvayət Məsudinin "Murucuz-zəhəb" kitabından nəql edilir. Bu isə şiə deyil, sünni mənbəyidir və şiələrə dəlil sayıla bilməz.

**İkinci:** Rəvayət sənədə sahib deyil (mürsəldir). Məsudi onu heç bir sənəd qeyd etmədən nəql edir. Rəvayətin əvvəlində deyir: *"Abdullah ibn Abbas Müaviyənin yanına gəldi. Onun yanında Qüreyşin hörmətli şəxsləri*

---

[522] Şiə və Əhli-Beyt, s. 41. "Murucuz-zəhəb" kitabından nəql edilərək. c. 3, s. 52-53, "Darul-Əndəlus" nəşriyyatı, Beyrut

*vardı...”* Hətta sünni mənbəyi olduğuna göz yumsaq, sənədsiz olduğu üçün zəif və dəyərsiz rəvayət hesab edilir.

**Üçüncü:** Hədisin İbn Abbasa istinadının səhih olduğunu fərz etsək, rəvayətdəki “*Şəni və tərifi Uca olan Allah (öz) peyğəmbəri Muhəmmədə (s) onu canlarından və mallarından üstün tutan, hər bir halda özlərini fəda etməyə hazır olan səhabələr bəxş etdi*” sözü İbn Abbasın yalnız bu sifətə sahib olan səhabələri nəzərdə tutduğuna dəlalət edəcək. Buna mətndə səhabə kəlməsinə daxil olan “ba” hərfi də sübutdur. Belə ki, burada “ba” “bəzi, bir hissə” mənasındadır.

**Dördüncü:** Təriflənənlər şəhid olan səhabələrdir. Öz canlarını fəda etmişlər, Müaviyə və Əmr ibn As kimi iman gətirmək üçün son anı gözləməyiblər. Ona görə də İbn Abbas deyir: “*Allahın salavatı, rəhmət və bərəkəti o saf şəxslərə, uca pak ruhlara olsun!”* Bu isə onların şəhid olmalarına dəlildir. Hətta sözünü bu kəlmələrlə bir daha təsdiqləyir: “...*Axirətə qovuşmadan əvvəl ora rehlət etmiş, dünyada ikən dünyadan uzaqlaşmışdılar*”.

Bu sözləri Uca Allahın Quranda buyurduğuna işarədir: ***“Allah yolunda öldürülənləri ölü zənn etmə. Onlar diridirlər və Rəbləri yanında ruzi yeyirlər”.***

## İkinci bəhs: İmam Əlinin (ə) səhabələrə həqiqi münasibətinin bəyanı

Peyğəmbər (s) Əliyə (ə) ümmətin onun əleyhinə çıxacağını, bir dəstə insanın qəlbində ona qarşı nifrət, ədavət və ikrahın olduğunu, özünün vəfatından sonra bunu büruzə verəcəklərini bildirmişdi. Əli (ə) bunları xatırlayır və baş verəcəyinə zərrə qədər şübhə etmirdi. Bununla bərabər, ilahi məsləhətin hökmünə uyğun hərəkət edir, Peyğəmbərin (s) vəsiyyətinə qarşı çıxıb hakimiyyəti zəbt edənlərə, heç bir əqli və şəri icazələri olmadan onu əhlindən alanlara qəti dəlillər və höccətlər göstərirdi.

İmam Əlinin (ə) səhabələrlə münasibətini aydın təsvir edən bir çox hadisələr baş verib. Bu isə İmamın (ə) səhabələrlə münasibətinin əsla İhsan Zahirin düşüncələri ilə üst-üstə düşmədiyini, bütün səhabələrə müqəddəslik və toxunulmazlıq ünvanı vermək cəhdləri ilə uyğun olmadığını göstərir. İmam Əlinin (ə) bəzi səhabələrlə qarşı-qarşıya gəldiyi məqamlardan bir neçəsini qeyd edək:

### Birinci məqam: Əbu Bəkrin xəlifəliyini inkar etməsi

Bu hadisənin baş verdiyində bütün firqələr həmfikirdirlər. İxtilaf isə hadisədən sonra beyət edib-etməməsində, yaxud beyət baş verdisə bunun məcburən, yoxsa öz razılığı ilə etməsindədir. İmamın (ə) Əbu Bəkrin xilafətini inkar etdiyinə dair bəzi dəlillərə nəzər salaq.

Buxari öz "Səhih"ində yazır: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə qəzəbləndi və üz döndərib ölənədək onunla danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn elədi. Əbu Bəkrin buna icazəsi yox idi. Əli ona namaz qıldı. Fatimə həyatda ikən Əlinin camaatla münasibəti vardı. Lakin o vəfat etdikdən sonra camaat Əli ilə münasibətdən çəkindi. Əli Əbu*

*Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi. Əbu Bəkrin yanına adam göndərib təkbaşına onun görüşünə gəlməsini istədi. Bunda məqsədi Ömərin onunla birlikdə gəlməməsi idi. Ömər isə (Əbu Bəkrə) dedi: "Allaha and olsun ki, sən ora təkbaşına getməyəcəksən". Əbu Bəkr: "Mənə nə edəcəklər? Allaha and olsun ki, mən ora tək gedəcəyəm" – deyə cavab verdi.*

*Əbu Bəkr onun yanına gəldi. Əli şəhadət gətirib dedi: "Biz sənin fəzilətini, Allahın sənə əta etdiklərini bilirik və Allahın sənə bəxş etdiyi xeyrə də həsəd aparmırıq. Lakin sən hakimiyyəti zorla və özbaşına ələ keçirmisən. Biz isə Peyğəmbərə (s) olan yaxınlığımıza görə özümüzün buna daha çox haqq sahibi olduğunu düşünürük".*[523]

Bu rəvayəti həmçinin Müslim öz "Səhih"ində, İbn Hibban və bir çox başqaları da kitablarında qeyd ediblər.[524]

Buxarinin və digər böyük mühəddislərin qeyd etdiyi bu rəvayət özündə bir neçə həqiqəti ehtiva edir:

**Birinci həqiqət:** Fatimə (ə) Əbu Bəkrdən narazı halda vəfat etdi. Bu barədə onun səhabələrlə münasibətlərindən bəhs edərkən söhbət açacağıq.

**İkinci həqiqət:** Peyğəmbərin (s) bədəninin bir parçası olan Fatimə vəfat edənədək Əli (ə) Əbu Bəkrə beyət etməmişdi. Bunun səbəbi Əlinin (ə) müəyyən işlərə başının qarışması deyildi. Əksinə, o, Əbu Bəkrin hakimiyyəti zorla və özbaşına ələ keçirdiyini, Peyğəmbərə (s) ən yaxın adamların hakimiyyətə daha çox haqqının olduğunu düşünürdü. Belə bir şəxs isə Əli (ə) idi. Bunu Buxarinin nəql etdiyi rəvayət də bəyan edir. Əlinin (ə) özünü hakimiyyətə daha çox haqq sahibi bilməsi dünya tamahından və ya Əbu Bəkrə həsədindən deyildi. Onun (ə) barəsində bunların heç biri təsəvvür edilə bilməz. O, özünün haqq sahibi olmasında ilahi rəyə və malik

---

[523] Səhih, Buxari, c. 5, s. 82

[524] Səhih, Müslim, c. 5, s. 154; Müsnəduş-şamiyyin, Təbərani, c. 4, s. 199

olduğu dini biliklərə əsaslanırdı. Heç şübhəsiz ki, Əli (ə) Peyğəmbərdən (s) sonra ümmət arasında İslamı bilən ən elmli şəxs idi. Bu onun sözüdür: *"Nazil olan elə bir ayə yoxdur ki, harada, nə və kim barədə olduğunu bilməyim. Həqiqətən də Rəbbim mənə unutmayan (və ya düşünən) bir qəlb bəxş etmişdir".*[525]

İmam Əli (ə) kimin buna haqlı və kimin də haqsız olduğunu yəqin elmlə bilirdi. O, özünə aid olmayan haqqı tələb edib fitnə yaratmaqdan və müsəlmanlara qarşı çıxmaqdan çox-çox uzaq idi. Lakin bu məsələdə haqqın sahibinə məxsus olmadığını görürdü. Ona görə də şiddətlə buna qarşı çıxırdı. Bu üsyan dünya sevgisindən, vəzifə və ya mal-mülk həvəsindən deyildi. Allahın onun üçün hazırladığı, heç bir gözün görmədiyi, qulağın eşitmədiyi və heç bir bəşərin qəlbindən keçmədiyi mükafatlar qarşılığında o, bunlara möhtac deyildi.

**Üçüncü həqiqət:** Buxarinin rəvayətinin dəlalətinə əsasən, əgər İmamın (ə) Əbu Bəkrə beyət etdiyini qəbul etsək, bu hadisənin özü belə Əbu Bəkrin xilafətinə qanunilik qazandırmır. Çünki beyət Əlinin (ə) könül xoşluğu və razılığı ilə baş verməyib. Əksinə, rəvayətdə də deyildiyi kimi, Fatimə (ə) vəfat etdikdən sonra camaat Əlidən (ə) üz döndərmişdi. Onun əlindən başqa nə gələrdi ki?! Tərəfdarlarının az olduğu halda qılınca əl atmalıydı? Belə bir rəftarı isə İslamın aradan getməsinə, ümmət arasında fitnə çıxmasına şərait yaradacaqdı. Ömər düşünürdü ki, Əli (ə) öz haqqı barədə əsla susmayacaq, Əbu Bəkri xilafətdən imtina etməyə vadar edəcək. Bu səbəbdən Əbu Bəkrin təkbaşına onun evinə getməsinə icazə vermirdi. Əbu Bəkr Ömərin bu hədələrinə *"Mənə nə edəcəklər? Allaha and olsun ki, mən ora tək gedəcəyəm"* deməsi ilə əhəmiyyət vermir.

İmam Əlinin (ə) Əbu Bəkrdən onun yanına Ömərsiz gəlməsini tələb

---

[525] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 2, s. 338. "Sadir" nəşriyyatı, Beyrut; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 42, Əli Şirinin təhqiqilə. 1415-ci h.q. ili. "Darul-fikr" nəşriyyatı, Beyrut

etməsinin özü də Ömərin Əbu Bəkrin xilafətinin əleyhinə olanlara qarşı mənfi münasibətini bir daha təsdiq edir. Ömər onları öldürməklə, evlərini içindəki şəxslərlə birlikdə yandırmaqla təhdid edirdi ki, əlində heç bir qanuni əsas, şəri dəlil və icmanın rəyi olmadığı halda insanları bu beyətə məcbur etsin. Bu səbəbdən Ömər Əbu Bəkrə beyəti "...*qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət həqiqətən də o cür olub. Amma, Allah onun şərindən qorudu"*[526] deyərək vəsf edir. Hətta Əbu Bəkr özü xilafətinin qeyri-qanuni olduğunu bu sözləri ilə təsdiqləyir: *"Bilin ki, mən sizə aranızda ən yaxşınız olmadığım halda rəhbər oldum".*[527]

Əbu Bəkrin xilafətinə beyət almaq üçün istifadə olunan təhdidlər barədə İbn Əbu Şeybə səhih sənədlə belə yazır: *"Zeyd ibn Əsləmdən, o da atası Əsləmdən nəql edir: "Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkrə beyət edilərkən Əli və Zübeyr Peyğəmbərin (s) qızı Fatimənin evində toplaşdılar. Onunla məşvərət edir və bu məsələdə geri çəkildiklərini bildirirdilər. Bunu eşidən Ömər Fatimənin evinə yollandı və evə yetişəndə dedi: "Ey Peyğəmbərin qızı, and olsun Allaha, sənin atandan başqa heç kəs bizə əziz deyil və atandan sonra heç kəs bizə sənin qədər əziz deyil. Lakin Allaha and olsun ki, bu məhəbbət heç vaxt başına yığdığın adamlara görə evi yandırmaq əmrini verməkdə mənə mane ola bilməz".*

*Ömər getdikdən sonra onlar Xanımın yanına gəldilər. Fatimə (ə) dedi: "Bilirsiniz, Ömər bura gəlmişdi və Allaha and içib dedi ki, bir də bura yığışsanız evi sizinlə birgə yandıracağam. And olsun ki, onlar dediklərini edəcəklər".*

*Evə toplaşanlar oradan çıxdılar, Əbu Bəkrə beyət edənədək də bir daha ora qayıtmadılar".*[528]

---

[526] Səhih, Buxari, c. 8, s. 25-26, "Küfr əhli və mürtədlərlə müharibə kitabı".

[527] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 353; əs-Siqat, İbn Hibban, c. 2, s. 157; Tarix, Təbəri, c. 2, s. 450; əl-Bidayə vən-nihayə, İbn Kəsir, c. 5, s. 269

[528] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 572. Hədisin sənədi belədir: "Muhəmməd ibn Bişr Übeydullah ibn Ömərdən, o da Zeyd ibn Əsləmdən, o da atasından..." Muhəmməd

Təbəri isə yazır: *"Ziyad ibn Kuleyb deyir: "Təlhə, Zübeyr və mühacirlərdən bir qrupu Əlinin evinə toplaşmışdılar. Ömər ora gəlib dedi: "Ya çıxıb beyət edin, ya da Allaha and olsun ki, evi siz içəridə olduğunuz halda yandıracağam". Zübeyr qılıncını çəkərək onun qarşısına çıxdı. Lakin bu an ayağı sürüşərək qılıncı əlindən düşdü. (Bunu gördükdə) üzərinə atılıb onu yaxaladılar".*[529]

Ömər Fatimənin (ə) evinə toplaşmış Əbu Bəkrə beyət etməyən şəxsləri evlə birgə yandırmaqla hədələyir. Evdə isə həmin vaxt Fatimə, Əli, Həsən və Hüseyn də vardı. Bundan böyük terror?!

Bu səbəbdən də İmam Əli (ə) Əbu Bəkrə beyətdən boyun qaçırır, ona yardım edən və bu hadisəni eşidib razı olan səhabələri ittiham və tənqid edirdi. Belə ittihamlar təbii ki, həmin səhabələrin fasiqliyinə, azğınlığına, Ali-Muhəmmədin haqqına qarşı zülmlərinə, hakimiyyəti zorla və özbaşına qəsb etdiklərinə hökm edir. Özünü xilafətə haqlı bildiyi halda Əlinin (ə) Əbu Bəkrə beyət etməyə məcbur qalması, şübhə yoxdur ki, onların haqqına edilən böyük zülmü bir daha təsdiqləyir.[530]

---

ibn Bişr Əbdülqeys Kufinin kölələrindən və "Səhih"lərin ravilərindəndir. Həmçinin rəvayətin digər raviləri də bu cürdürlər. Bu hədis heç bir şübhə olmadan səhihdir.

[529] Tarix, Təbəri, c. 2, s. 443

[530] Əlinin (ə) xilafətə daha çox haqq sahibi olduğunu, haqqının qəsb edildiyini Müaviyə ibn Əbu Süfyan Muhəmməd ibn Əbu Bəkrə yazdığı məktubunda da etiraf edir. Bəlazuri və Məsudi yazırlar: *"Müaviyə ibn Səxrdən atasına qarşı çıxmış Muhəmməd ibn Əbu Bəkrə! Sənin məktubun mənə çatdı. Orada Allahı böyük ləyaqəti, qüdrəti və qüvvətilə yad etmişdin. Allahın elçisinin xüsusiyyətlərini düzüb qoşduğun çoxlu sözlərlə bəyan etmiş, öz atanı isə əsassız nəzərlərinlə qeyd etmisən.*

*Bu məktubda Əbu Talibin oğlunun üstünlüyünü, onun Allahın Peyğəmbəri ilə qohumluğunu, ona kömək etməsini, vəfalı olmasını, qorxu və vəhşətli halətlərdə onunla birgə olduğunu açıqlamışdın. Eləcə də mənə öz fəzilətlərini deyil, yalnız onun fəzilətlərini sübut etmişdin. Allaha həmd və şükür edirəm ki, bu fəzilətləri sənə deyil, başqasına əta etmişdir.*

*Mən və sənin atan Peyğəmbər həyatda ikən Əbu Talibin oğlunun haqqını bilir və onun bizə olan üstünlüyünü açıq-aşkar görürdük. Peyğəmbər Allahın vədəsini yerinə yetirib, dinini qalib və dəlillərini möhkəm etdikdən sonra Uca Allah onun canını alıb, Öz yanına apardı. Sənin atan və dostu Ömər onun haqqını mənimsəyən, ona qarşı çıxan və bu işdə bir-birləri ilə əlbir olan ilk şəxslər idilər. Sonra bu iki nəfər Əlini özlərinə beyətə dəvət*

**İkinci məqam: İmam Əli (ə) Əbu Bəkr və Öməri yalançılıq, günahkarlıq, namərdlik və xainliklə vəsf edir**

İmam Əli (ə) Əbu Bəkr və Öməri yalançı, günahkar, namərd və xain kimi görürdü. Buna Müslimin "Səhih"ində nəql etdiyi rəvayət də şahidlik edir: *"...Sonra digərlərindən soruşduğu kimi Abbasdan və Əlidən də soruşdu: "Siz bunu bilirsiniz?" Onlar: "Bəli" – deyə cavab verdilər.*

*Ömər sözünə davam edib dedi: "Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkr dedi: "Mən Peyğəmbərin (s) canişiniyəm". Siz ikiniz (Abbas və Əli) gəldiniz. Sən (Abbas) qardaşın oğlunun mirasını tələb edirdin. O da (İmam Əli) zövcəsinin atasından qalan mirasını istəyirdi. Əbu Bəkr dedi: "Peyğəmbər (s) buyurub: Biz miras buraxmırıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir". Siz onu yalançı, günahkar, namərd və xain kimi gördünüz. Halbuki, Allah bilir, o, düz danışan, dindar, düzgün inanclı və haqqa tabe olan idi. Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin canişini oldum. Siz ikiniz məni də yalançı, günahkar, namərd və*

---

*etdilər. O, bu işdən imtina etdikdə onu ağır müsibətlərə düçar etmək üçün planlar qurdular. Nəhayət onlarla beyət etdi. Sonra üçüncüsü, yəni Osman xilafət kürsüsündə əyləşib onların yolunu və üslubunu davam etdi. Sən və sənin dostların ona irad tutdunuz, hətta ən günahkar şəxslər belə ona qarşı çıxıb əleyhinə fitnələr yaratdılar. Axırda öz arzularına nail olub onu öldürdülər.*

*Ey Əbu Bəkrin oğlu! Sənə xəbərdarlıq edir və tutduğun işə görə tezliklə əzab-əziyyətlərə düçar olacağını bildirirəm. Bil və agah ol ki, səbri, dözümü dağlarla bərabər olan, kimsənin onu zorakılıqla məğlub etməyə qadir olmadığı şəxsin yolu ilə gedə bilməzsən. Səndən daha artıq səbrə malik olan şəxslər də onun kimi ola bilməzlər.*

*Lakin sənin atan zəmin yaradıb öz padşahlığının əsasını qurdu və onu yüksəkliklərə ucaltdı.*

*Əgər bizim gördüyümüz işlər düzgündürsə, bunun təməlini sənin atan qoymuşdur, yox, əgər əyri yol olub zülm sayılırsa, yenə də onun əsasını qoyan sənin atandır və biz də onunla şərikik. Əgər sənin atan bu işləri görməsəydi, biz Əli ibn Əbi Taliblə qarşı çıxmaz və ona təslim olardıq. Lakin sənin atanının belə işlər etdiyini gördükdə, biz də onun kimi hərəkət edib yolunu davam etdirdik. Əgər irad tutmaq istəyirsənsə, ya öz atana irad tut, ya da bu işdən əl çək. Azğınlığından üz döndərib tutduğu işlərdən tövbə edən və peşman olan şəxslərə salam olsun!"* (Murucuz-zəhəb, Məsudi, c. 3, s. 12)

*xəyanətkar bildiniz. Lakin, Allah mənim düz danışan, dindar, düzgün inanclı və haqqa tabe olan olduğumu bilir".*[531]

Bunu həmçinin Beyhəqi "əs-Sünənul-kubra"da nəql edib.[532]

**Üçüncü məqam: İmam Əlinin (ə) Osmana qarşı ittihamları və ondan narazılığı**

Bunlardan bəzisi aşağıdakılardır:

**Birinci: Onu Kitab və sünnəyə qarşı çıxmaqda ittiham etməsi**

İmam Əli (ə) Osmanı bir çox yerdə Kitaba və Peyğəmbər (s) sünnəsinə qarşı addım atdığına görə ittiham etmişdi. Halbuki Kitab və sünnənin aydın dəlilləri qarşısında ictihadın batil olduğu bütün qiblə əhlinin şəriətinə əsasən icazəli deyil. Bu hadisəyə aşağıdakı rəvayətlər şahidlik edir:

Əhməd ibn Hənbəl, Buxari, Müslim, Beyhəqi, Əbu Davud və digər mühəddislərin qeyd etdikləri rəvayət (Buxaridən nəql edirik): *"Səid ibn Müsəyyib dedi: "Əli və Osman Usfanda təməttö həcci barədə mübahisə etdilər. Əli buyurdu: "Sən Peyğəmbərin (s) yerinə yetirdiyi bir əməli qadağan etmək istəyirsən?!" Əli bu qadağanı gördükdə Ümrə və Həcci birlikdə yerinə yetirdi".*[533]

Həmçinin: *"Yəhya Malikdən, o da Cəfər ibn Muhəmmədən, o da atasından nəql edir: "Miqdad ibn Əsvəd Əli ibn Əbu Talibin yanına gəlib dedi: "Bu Osman ibn Əffan Həcc ilə Ümrənin birlikdə yerinə yetirilməsini qadağan edir".*

*Əli əlləri dirsəyə qədər una batmış halda çölə çıxdı və Osmanın yanına gəlib dedi: "Həcc ilə Ümrənin birlikdə yerinə yetirilməsini qadağan edirsən?!"*

---

[531] Səhih, Müslim, c. 5, s. 152
[532] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 698
[533] Səhih, Buxari, c. 2, s. 153

*Osman dedi: "Bu mənim fikrimdir". Əli qəzəbli halda oradan çıxdı. Çıxarkən belə deyirdi: "İlahi, ləbbeyk! İlahi, Ümrə və Həccə birlikdə ləbbeyk!"*[534]

## İkinci: Əbu Zərrə etdiklərinə görə Əlinin (ə) Osmanı danlaması

Məsudi "Murucuz-zəhəb"də yazır: *"Həmin gün Osmana Əbdürrəhman ibn Ovfun mirasından pul gətirmişdilər. Pul kisələrini Osmanla orada dayanmış bir kişinin qarşısına qoydular. Osman dedi: "Mən Əbdürrəhman ibn Ovfun aqibətinin xoş olduğunu düşünürəm. O, həqiqətən də sədəqə (zəkat) verib, qonaq qəbul edib və gördüyünüz mirası özündən sonra bizə buraxıb".*

*Kəbul-Əhbar dedi: "Doğru buyurdun, ey möminlərin əmiri!"*

*Əbu Zərr əlindəki əsasına söykənib ayağa qalxdı və onu Kəbin başına vurdu. Kəb ağrıdan özünə gəlməmiş Əbu Zərr dedi: "Ey yəhudi oğlu! Ölüb, bu pulu özündən sonra miras buraxmış kəs haqqında qəti şəkildə "Allah ona dünya və axirət xeyrini verib" deyirsən?! Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Ölüb özümdən sonra karatlarla ölçülən miras qoymaq məni sevindirməz".*

*Osman dedi: "(Uzaq ol!) Üzünü bir də görməyim!"*

---

[534] əl-Muvatta, İmam Malik, c. 1. Muhəmməd Fuad Əbdülbaqinin təhqiqilə. 1985-ci il. "Daru ihya ət-turasil-ərəb", Beyrut, Livan

Osmanın həyatına nəzər saldıqda onun bir çox hallarda Quran və sünnəyə zidd hökmlər verdiyini görmək olar. Qurana müxalif olan hökmlərindən biri cinsi əlaqədə olub məni gəlmədiyi zaman qüslün vacib olmamasıdır. Halbuki Quran buyurur: ***"...cunub olduğunuz zaman ... qüsl edənədək namaza yaxınlaşmayın. ...qadınlara toxunmuş (yaxınlıq etmiş) olduqda (qüsl və dəstəmaz üçün) su tapmadığınız zaman pak bir torpaqla təyəmmüm edin..."*** (Nisa, 43)

Həmçinin, ehramda ikən ovlanmış heyvan yemək... Qurani-Kərimdə isə bu, aydın şəkildə qadağan edilir: ***"Ehramda olduğunuz müddətdə isə quruda ov etmək sizə haram buyuruldu".*** (Maidə, 96)

Hədislərə gəldikdə, Minada səfərdə olarkən namazını bütöv qılmışdır. Buxari və Müslim Əbdürrəhman ibn Yeziddən nəql edirlər: *"Osman ibn Əffan bizimlə Minada olarkən namazı dörd rükət qıldı. Bunu Abdullah ibn Məsuda dedilər. O dedi: "İnna lillahi və inna iləyhi raciun! Mən Peyğəmbərlə (s) namazı Minada iki rükət qıldım. Əbu Bəkr və Ömərlə də Minada iki rükət qıldım. Kaş ki, dörd rükət yerinə qəbul olunmuş iki ikirükətli namazdan payım olaydı".* (Səhih, Buxari, c. 2, s. 35; Səhih, Müslim, c. 2, s. 146)

*Əbu Zərr Məkkəyə gedəcəyini söylədi.*

*Osman: Allaha and olsun, yox!*

*Əbu Zərr: Ömrümün sonunadək ibadət etmək üçün Rəbbimin Evinə getməyi mənə qadağan edirsən?*

*Osman: Vallahi, bəli.*

*Əbu Zərr: Bəs Şama?*

*Osman: Yox.*

*Əbu Zərr: Bəsrəyə?*

*Osman: Xeyr, bu iki şəhərdən başqasını seç.*

*Əbu Zərr: Allaha and olsun ki, qeyd etdiyim şəhərlərdən başqasını seçməyəcəyəm. Hicrət edəcəyim yerin seçimini mənə versən bunlardan başqasını istəmirəm. Yoxsa, istədiyin şəhərə göndər.*

*Osman: Mən səni Rəbəzəyə göndərəcəyəm.*

*Əbu Zərr: Allahu Əkbər! Peyğəmbər (s) düz buyurmuşdur! O, qarşılaşacağım şeyləri mənə öncədən bildirmişdi.*

*Osman: Sənə nə demişdi?*

*Əbu Zərr: Mənə bildirmişdi ki, Məkkə və Mədinə şəhərlərində qalmaq mənə qadağan olunacaq və mən Rəbəzə çölündə öləcəyəm. Məni İraqdan Hicaza gələn adamlar tapıb dəfn edəcəklər.*

*Əbu Zərr dəvəsinə zövcəsini və deyilənə görə qızını mindirib yola düşdü. Osman bu səfərdə heç kimin onu müşayiət etməməsinə göstəriş verdi. Mədinədən çıxdılar, Mərvan onun şəhərdən çıxmasına nəzarət edirdi. Bu zaman Əli ibn Əbu Talibin iki oğlu, qardaşı Əqil, Abdullah ibn Cəfər və Əmmar ibn Yasirlə birlikdə gəldiyini gördü. Mərvan onlara etiraz edib dedi: "Ya Əli, möminlərin əmiri Əbu Zərri yola salıb və müşayiət etməyi qadağan eləyib. Əgər bunu bilmirdinsə, artıq bilirsən".*

*Əli ibn Əbu Talib əlindəki qamçısının onun atının alnına doğru tutub dedi: "Çəkil yolumdan! Allah səni oda atsın!"*

*Əli Əbu Zərrə yaxınlaşıb onu bir müddət müşayiət etdi, sonra vidalaşıb geri qayıtdı. Bu zaman Əbu Zərr ağlayıb dedi: "Ey Əhli-Beyt! Allah sizə mərhəmət göstərsin! Səni və övladlarını gördüm, Peyğəmbər (s) yadıma düşdü".*

*Mərvan Əli ibn Əbu Talibin rəftarından Osmana şikayət elədi. Osman dedi: "Ey müsəlmanlar! Əlinin qarşısında kim məni haqlı sayır? İş tapşırdığım elçimi (məmurumu) geri qaytarıb, filan-filan hərəkətləri edib. Allaha and olsun ki, onun payını verəcəyəm!"*

*Əli qayıtdıqda camaat üzünü ona tutub dedi: "Əbu Zərri yola saldığın üçün Osman sənə qarşı yaman qəzəblidir".*

*Əli dedi: "At yüyəninə qarşı çıxır?"*

*Axşam Əli gəldikdə Osman dedi: "Mərvanla etdiyin bu rəftar nədir? Mənə qarşı cürətlənib elçimi və əmrimi saya almamısan?!"*

*Əli dedi: "Mərvana gəldikdə, qarşıma çıxaraq o mənim yolumu kəsib, mən onun deyil. Sənin əmrini isə rədd etməmişəm".*

*Osman dedi: "Məgər mənim Əbu Zərri yola salmağı və ya müşayiət etməyi qadağan etdiyimdən xəbərin yox idi?"*

*Əli dedi: "Sənin Allaha itaətə və haqqa xilaf olan hər bir əmrinə itaətmi etməliyik? Allaha and olsun ki, bunu etmərik".*

*Osman dedi: "Ey Mərvan, (qisas olaraq) onun atına vur və söy. Çünki o sənin atının alnına vurub və söyüb".*

*Əli dedi: "Əgər mənim vurduğum kimi vuracaqsa, qoy bunu etsin. Amma təhqirə gəldikdə, əgər məni söysə, eynilə səni söyəcəyəm! Mən əsla yalan danışmıram və haqdan başqa söz söyləmərəm!"*

*Osman dedi: "Sən onu söydüyün halda o səni niyə söyməsin?! Allaha and olsun ki, mənim nəzərimdə sən ondan üstün deyilsən".*

*Əli ibn Əbu Talib qəzəblənib dedi: "Bu sözləri mənəmi söyləyirsən?! Məni Mərvanla eyni tutursan? Allaha and olsun, mən səndən də üstünəm. Anam*

*anandan, atam atandan üstündür. Qılıncımı qınından çıxardım, sən də qılıncınla gəl!"*

*Osman qəzəbləndi və qəzəbindən rəngi qızardı. Ayağa qalxıb evinə getdi. Əli də oradan ayrıldı. Əhli-Beyt, mühacir və ənsar onun ətrafına toplaşdılar".*[535]

**Üçüncü: İmam Əli (ə) Osmanın qatilini pisləmir**

İbn Əbu Şəbbə "Tarixul-Mədinə" kitabında səhih sənədlə qeyd edir: *"Əbu Asim və Hibban ibn Hilal Cüveyriyə ibn Bəşirdən (və ya Büşeyrdən), o da Əbu Xəldədən Əlinin (ə) xütbəsində Osman İbn Əffanı xatırlayıb belə buyurduğunu eşitdiyini nəql edirlər: "Camaat Osmanı mənim öldürdüyümü güman edir. Özündən başqa ilah olmayana (Allaha) and olsun ki, onu mən öldürməmişəm, öldürülməsinə yardım da etməmişəm. Lakin, onun qətlinə görə pərişan deyiləm".*[536]

**Dördüncü məqam: Osmana beyət edən Əbdürrəhman ibn Ovfu və bəzi səhabələri danlaması**

İbn Əbu Şəbbə "Tarixul-Mədinə"də, Təbəri öz "Tarix"ində, İbn Əsir "əl-Kamil" kitabında Şurada baş verən hadisələri rəvayət edərkən yazırlar: *"...Əmmar dedi: "Əgər müsəlmanların ixtilafa düşməsini istəmirsənsə, Əliyə beyət et".*

*Miqdad ibn Əsvəd dedi: "Əmmar doğru söylədi. Əgər Əliyə beyət etsən biz də: "eşidib itaət etdik" deyərik".*

*İbn Əbu Sorh isə dedi: "Əgər qüreyşlilərin ixtilafa düşməsini istəmirsinizsə, o zaman Osmana beyət edin".*

*Abdullah ibn Əbu Rəbiə onun sözlərini təsdiqlədi və Osmana beyətin müqabilində "eşitdik və itaət etdik" deyəcəklərini bildirdi. Əmmar İbn Əbu*

---

[535] Murucuz-zəhəb, Məsudi, c. 2, s. 490
[536] Tarixul-Mədinə, c. 2, s. 276

*Sorha sərt sözlər söylədi və dedi: "Nə vaxtdan müsəlmanlara ürəyin yanır?!"*

*Bu zaman Bəni-Haşimlə Bəni-Üməyyə arasında mübahisə yarandı. Əmmar dedi: "Ey camaat, həqiqətən Uca Allah bizə öz peyğəmbərini ikram etmiş və dini ilə izzətləndirmişdir. Siz xilafəti Peyğəmbərin (s) Əhli-Beytindən (ə) niyə uzaqlaşdırırsınız?!"*

*Bəni-Məxzumdan bir nəfər ayağa qalxıb dedi: "Ey Süməyyənin oğlu, sən həddini aşdın, sən kimsən ki, Qüreyşin işlərinə müdaxilə edirsən?"*

*Bu zaman Səd ibn Əbu Vəqqas dedi: "Ey Əbdürrəhman, camaat fitnəyə düşməmiş bu işi bitir".*

*Əbdürrəhman: "Mən müzakirə və məşvərət etdim, heç biriniz digərinə bir yol qoymadı" -deyə cavab verdi. Sonra Əlini çağırıb dedi: "Allah qarşısında əhd verirsənmi ki, Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi və ondan sonrakı iki xəlifənin rəftarı ilə əməl edəcəksən?"*

*Əli: "Öz elmim və taqətim həcmində əməl edəcəyəm" -deyə cavab verdi...*

*Sonra Osmanı çağırdı və Əliyə söylədiyini ona da dedi. Osman "Bəli" deyə cavab verdikdə ona beyət etdi. Əli dedi: "Sən daima onun tərəfində olmusan. Bu sizin əlbir olub bizə qarşı çıxdığınız ilk gün deyil. **Mənə gözəl səbir gərəkdir. Sizin dediyiniz şey barəsində yalnız Allahdan yardım diləmək lazımdır**[537]. Allaha and olsun, sən Osmanı məhz ona görə xilafət başına gətirdin ki, (daha sonra) işi sənə qaytarsın (özündən sonra səni xəlifə qoysun). Ancaq Allah hər günə bir hökm verir!"*

*Əbdürrəhman dedi: "Ey Əli, elə iş görmə ki, sənin haqda pis tədbir tökək, mən insanlarla müzakirə və məşvərət etdim. Onlar heç kimi Osmanla bərabər tutmadılar".*

*Əli oradan "Təqdir necədirsə, elə də olacaq" deyib çıxdı".*[538]

---

[537] "Yusuf" surəsinin 18-ci ayəsinə işarədir

[538] Tarixul-Mədinə, İbn Şəbbə, c. 3, s. 931; Tarix, Təbəri, c. 3, s. 297; əl-Kamil fit-tarix, İbn Əsir, c. 3, s. 71

**Burada bir neçə məsələnin üzərində dayanırıq:**

**Birinci:** Qeyd edilən rəvayətdə qəribə nüanslar var. Bir tərəfdə İbn Əbu Sorh və Abdullah ibn Rəbiəni görürük. Peyğəmbər (s) Məkkənin fəthi zamanı onların qanını halal etmiş və qətllərinə fərman vermişdi. Bu şəxslər Osmanı müdafiə edir və Əlinin (ə) xilafətə yetişməsinə ciddi-cəhdlə qarşı çıxırlar. Onların müqabilində isə Cənnətin müştaq olduğu, Osmana beyətdən boyun qaçıran Əmmar və Miqdadın Əlini (ə) müdafiə etdiklərini görürük.

**İkinci:** İmam Əli (ə) Əbdürrəhman ibn Ovfun və onu dəstəkləyən səhabələrin ilk dəfə əlbir olub özünə qarşı çıxmadıqlarını bildirir. Bu hal əvvəllər də baş verib. Onların bu davranışları əvvəlki düşmənçilikləri üzərində inad və israrlarından doğur.

**Üçüncü:** İmam Əli (ə) Əbdürrəhman ibn Ovfun bu qərarının din və İslam naminə deyil, şəxsi məqsədlər üçün alındığını bildirir. Osman vəfat etdikdə xilafəti onlara qaytaracağına ümid edirlər. Şübhə yoxdur ki, belə bir ittiham Əbdürrəhman ibn Ovfun ədalətinə böyük bir zərbə sayılır. Bu isə Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduqları iddiası ilə heç cür uzlaşmır.

**Beşinci məqam: İmam Əlinin (ə) ona beyət və yardım etməyən səhabələrdən narazılığı**

Osmanın qətlindən sonra İmam Əliyə (ə) edilən beyət barədə İbn Hibban və digərləri yazırlar: *"... Sonra aşağı enib beytul-mala tərəf getdi. Orada olan malı müsəlmanlar arasında bölüşdürdü. Ardınca Səd ibn Əbu Vəqqası, Abdullah ibn Öməri, Muhəmməd ibn Məsləməni çağırtdırıb dedi: "Sizin barənizdə bəzi sözlər mənə çatıb".*

*Səd ibn Əbu Vəqqas dedi: "Düz deyirlər, sənə beyət etmirəm, sənin gedəcəyin yerə səninlə getməyəcəyəm, ta ki, mənə mömini kafirdən ayıran bir qılınc verəsən".*

*İbn Ömər isə dedi: "Allahı sənə şahid tuturam ki, məni bilmədiyim şeyə vadar etməyəsən. Allaha and olsun ki, müsəlmanlar ətrafında camaatı Allahın topladığı bir şəxsdə icma etmədikcə sənə beyət etməyəcəyəm".*

*Muhəmməd ibn Məsləmə dedi: "Peyğəmbər (s) mənə əmr edib ki, əgər bir iş barədə səhabələrin ixtilaf etdiklərini görsəm onların arasına girməyim, qılıncımı Ühüd qayalarına vurum. Bu işlər bitənədək evimdə oturum. Ta ki, ya bir günahkar əl, ya da ilahi hökm məni ölümə qovuşdursun".*

*Sonra Əli Üsamə ibn Zeydi çağırdı və ondan beyət etməsini istədi. Üsamə dedi: "Beyətə gəldikdə, mən sənə beyət edəcəyəm. Sən mənim üçün insanlardan ən sevimlisi və nəzərimdə onların ən üstünüsən. Döyüşə gəldikdə isə, səninlə getməyəcəyəm. Çünki Peyğəmbərə (s) əhd vermişəm ki, "La ilahə illəllah" şəhadətini söyləyən heç kəslə savaşmayacağam".*

*Əli onların qarşı olduqlarını görüb dedi: "Mənim üzərimdən bu beyəti götürün və istədiyiniz şəxsə beyət edin". Onlar susdular, ayağa qalxıb getdilər".*[539]

Bu səhabələr Əliyə (ə) beyət etməkdən boyun qaçırırlar. Halbuki o, haqq və hidayət imamıdır. İmam da onların qarşısında höccəti tamamlayır.

Həmçinin, beyətdən boyun qaçıran şəxsin hökmünü Peyğəmbərdən (s) nəql edən Abdullah ibn Zübeyr də İmam Əliyə (ə) beyətdən imtina edir. Təəccüblüsü isə budur ki, sonralar o, Müaviyəyə, eləcə də İmam Hüseynin (ə) qatili olan fasiq Yezidə (l) beyət edib, Həccacın arxasında namaz qılıb, Abdullah ibn Mərvana boyun əyib.[540] Bütün bunları isə öz üzərində şəri vəzifə kimi görüb. Lakin Əliyə (ə) beyət, ona yardım və arxasında namaz qılmaq heç də şəri vəzifəsi deyilmiş!

Bu barədə Buxari "Səhih"də Nafidən rəvayət edir: *"Mədinə əhli Yezid ibn Müaviyənin beyətindən imtina etdikdə İbn Ömər öz xidmətçilərini və övladlarını toplayıb dedi: "Mən Peyğəmbərin (s) belə buyurduğunu*

---

[539] əs-Siqat, İbn Hibban, c. 2, s. 271
[540] əs-Siqat, İbn Hibban, c. 2, s. 271

*eşitmişəm: “Beyətdən dönən hər kəs üçün Qiyamət günü bir bayraq qaldırılacaq”. Biz bu adama Allah və Rəsulunun hökmünə uyğun beyət etmişik. Allaha və Rəsulunun hökmünə uyğun beyət edib, sonra beyətindən dönərək həmin adamla savaşan kəsdən daha xəyanətkar birini tanımıram. Əgər nə vaxtsa mən öyrənsəm ki, aranızdan kimsə başqa birinə beyətə razılıq verib, onda həmin şəxslə mənim aramda ixtilaf olacaqdır”.*[541]

İbn Həcər “Fəthul-bari”də Nafidən nəql edir: *“Müaviyə Yezid üçün İbn Ömərdən beyət almaq istədi. O isə bundan imtina edib dedi: “İki əmirə (eyni vaxtda) beyət etməyəcəyəm”. Müaviyə ona yüz min dirhəm göndərdi, o da qəbul etdi. Sonra onun yanına adam göndərib beyət etməməsinin səbəbini soruşdu. İbn Ömər dedi: “Bu filan səbəbdəndir? (yəni göndərdiyi pul beyət etməyim üçündür?) Demək, mənim dinim onun nəzərində bu qədər ucuzdur?!” Müaviyə öldükdə Abdullah ibn Ömər Yezidə məktub yazıb ona beyət etdi”.*[542]

Səbt ibn Cövzi Zuhrinin belə dediyini yazır: *“Təəccüblüdür ki, Abdullah ibn Ömər də, Səd ibn Vəqqas da Əliyə beyət etməmişdilər. Lakin Yezid ibn Müaviyəyə beyət etdilər!”*[543]

Bilmirik, necə ola bilər ki, İbn Ömərin Yezidə beyəti mümkün (bəlkə də vacib) saysın, lakin Əliyə (ə) – ümmətin hidayətçisinə beyəti rəva görməsin?! Bu səhabələrin ədalətini və Əhli-Beytin (ə) onlardan razılığını iddia edən kəs sabah Uca Rəbbin qarşısında həmin suala cavab verməli olacaq!

### Altıncı məqam: İmam Əlinin (ə) Zübeyri və oğlunu danlaması

İbn Əsakir “Taruxu mədinəti Diməşq” əsərində səhih sənədlə rəvayət edir: *“İsmayıldan, o da Qeysdən nəql edir: “Əli dedi: “Nə qədər ki, oğlu*

[541] Səhih, Buxari, c. 9, kitab 88, hədis 227
[542] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 60
[543] Təzkiratul-xəvass, s. 61

*Abdullah atası Zübeyrin fikrini dəyişməmişdi o (Zübeyr), biz Əhli-Beytdən idi".*[544]

Bəlazuri səhih sənədlə Yunus ibn Yeziddən, o da Zuhridən rəvayət edir: *"Əli və əshabı Cəməldə idilər. Əli atına tərəf getdi, Zübeyri çağırdı, ikisi dayanıb söhbət etdilər. Əli dedi: "Səni bura gətirən səbəb nədir?" Dedi: "Səbəb budur ki, mən səni bu işə (xilafətə) layiq bilmirəm. Sən bu məsələdə bizdən üstün deyilsən".*

*Əli dedi: "Osmandan sonra bu işə layiq deyiləm?! Pis oğlun böyüyənədək səni Əbdülmüttəlibdən sayırdıq. O, səninlə bizim aramıza girdi".*

*Sonra Əli ona bəzi şeyləri xatırlatdı. Peyğəmbərin (s) onların yanından keçərkən "Ey Əli, bibin oğlu nə deyir? O, sənin haqqına zülm edib səninlə savaşa çıxacaq" buyurduğunu yadına saldı. Zübeyr "Səninlə savaşmayacağam" deyib üzünü çevirib getdi. Oğlunun yanına gəlib dedi: "Mən bu savaşda heç bir xeyir görmürəm!"*

*Oğlu dedi: "Xeyr, sən Əlinin bayraqlarını görüb qorxmuş və bu bayraqların altında ölüm olduğunu anlamısan".*

*Zübeyr: Mən onunla savaşmayacağıma and içmişəm.*

*Abdullah: Kölən Sərcəsi azad etməklə andından dönə bilərsən.*

*Zübeyr köləsini azad edib onlarla birgə ordunun səfində yer tutdu".*[545]

Hakim Nişapuri Əbu Hərb ibn Əbüləsvəd Deylidən rəvayət edir:

---

[544] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 18, s. 404

Rəvayətin sənədi belədir: "Əbu Talib Əli ibn Əbdürrəhman Əbülhəsən Əli ibn Həsən ibn Həsəndən, o da Əbu Muhəmməd ibn Nəhhasdan, o da Əbu Səid ibn Ərabidən, o da Əbu Rufaə Abdullah ibn Muhəmməd ibn Həbibdən, o da İbrahim ibn Səid Cövhəridən, o da İbrahim ibn Məhdidən, o da İsa ibn Yunusdan, o da İsmaildən, o da Qeysdən..."

İbrahim ibn Səid Cövhəri və ondan əvvəlki şəxslər "Səhih"in raviləridir. Ondan sonrakılar isə tanınmış siqə (etibarlı) ravilərdir". Həmçinin bax: Usudul-ğabə, İbn Əsir, c. 3, s. 162

[545] Ənsabul-əşrəf, Bəlazuri, s. 254

Rəvayətin sənədi belədir: "Əhməd ibn İbrahim Duraqi Vəhəb ibn Cərir ibn Hazimdən, o da Yunus ibn Yeziddən, o da Zuhridən". Bu rəvayətin raviləri "Səhih"in ravilərindəndir.

*"Zübeyrin Əlini axtardığını gördüm. Əli ona dedi: "Allahı sənə şahid tuturam, Peyğəmbərin (s) belə buyurduğunu eşitməmisən: "Sən onunla savaşacaqsan. Həmin vaxt ona zülm etmiş olacaqsan"? Zübeyr "Xatırlamıram" deyib çevrilib getdi".*[546]

Əbu Yəla, Hakim, Beyhəqi və Əbu Nəim səhih sənədlə qeyd edirlər: *"Əbu Cərv Mazəni deyir: "Əli ilə Zübeyrin dayanıb söhbət etdiklərini gördüm. Əli ona dedi: "Ey Zübeyr! Allahı sənə şahid tuturam! Peyğəmbərin (s) belə buyurduğunu eşitməmisən: "Sən mənimlə savaşacaqsan. Həmin vaxt mənə zülm etmiş olacaqsan"? Zübeyr "Bəli (eşitmişəm). Unutmuşdum, amma indi xatırladım" deyib çevrilib getdi".*[547]

Şübhə yoxdur ki, Zübeyrin Əliyə (ə) "...*mən səni bu işə (xilafətə) layiq bilmirəm. Sən bu məsələdə bizdən üstün deyilsən"* deməsi inad və Peyğəmbərin (s) sözünə qarşı çıxmaqdır. Çünki Peyğəmbər (s) müsəlmanlara və xüsusilə də səhabələrə Əlinin (ə) məqamını dəfələrlə elə bəyan etmişdi ki, heç kim bu barədə tərəddüd edə bilməzdi. Həmçinin Zübeyrin özünə də. Zübeyr heç bir təzyiqə məruz qalmadan və öz iradəsi ilə əvvəlcə Əliyə (ə) beyət etmişdi. Amma sonra bu beyətindən üz döndərdi. Bütün bunlar Zübeyrin İmam Əli ilə (ə) heç də iddia olunduğu kimi, Osmanın intiqamına görə savaşmadığına dəlalət edir. Əksinə bu savaş xilafət və rəhbərlik tamahından idi. Bunun digər dəlil isə Zübeyrin camaatı Osmana qarşı üsyana təşviq edənlərdən biri olmasıdır.

---

546 əl-Müstədrək, c. 3, s. 367. Orada deyir: *"Bu, Əbu Hərb ibn Əbüləsvəddən nəql edilən səhih hədisdir".*

547 Müsnəd, Əbu Yəla Mosuli, c. 2, s. 30, Hüseyn Səlim Əsədin təhqiqi ilə, II çap, "Darul-məmun lit-turas" nəşriyyatı; Müstədrək, Hakim Nişapuri, c. 3, s. 366. Sənədindəki şəxslər barəsində yalnız Əbdülməlik ibn Müslim barədə söz deyilə bilər. Yəhya ibn Muin, Mizzi, Zəhəbi, İbn Həcər, İbn Hibban və başqaları onu "siqə" (inanılan) şəxs biliblər. Mizzi deyir: *"Abbas Duri və Müfəzzəl ibn Ğəssan Ğilabi Yəhya ibn Muinə istinadən ona "siqə" deyirlər. Əbu Davud, Əbu Hatəm və Əbdürrəhman ibn Yusuf ibn Xərraş deyir: "Onda heç bir problem yoxdur".* (Təhzibul-kəmal, c. 18, s. 415)

Eləcə də, buradan aydın olur ki, Zübeyrin Əhli-Beytə (ə) məhəbbətinin ədavətə çevrilməsində oğlu Abdullahın böyük rolu olub. Nəticədə onlara qarşı hücum etməyə cürətlənib, Peyğəmbərin (s) *"Sən Əli ilə savaşacaqsan. Həmin vaxt ona zülm etmiş olacaqsan"* sözünü belə unudub. Möminlərin əmiri Əli (ə) bunu ona xatırladır, lakin oğlunun yanına qayıtdıqda etdiyi vəsvəsələrlə onu yenidən fikrindən döndərib döyüşə qaytarır. Sonra da nicat firqəsi olan Əli (ə) tərəfdarlarına qatılmaq əvəzinə meydandan qaçır.[548]

---

548 Abdullah ibn Zübeyrin şəxsiyyəti çoxlu nöqsan və qəribəliklərlə doludur. Bunlardan:

Adətən ata oğulun həyat yönünün və şəxsiyyətinin formalaşmasında əhəmiyyətli təsirə malik olur. Lakin burada tam əksini görürük. Atasının əvvəllər Peyğəmbərə (s) böyük dəstəyinə və müsəlmanlar arasında yüksək məqamına baxmayaraq oğlu onun zəmanəsinin İmamından üz çevirməsinə səbəb olur, savaş əsnasında düşüncəsində çaşqınlıq yaradır, müsəlmanlara qarşı çıxdığı savaşda İmam Əlinin (ə), yoxsa oğlunun sözünə qulaq asmaqda tərəddüddə qoyur.

- mütə nikahını qadağan edir, onun icazəli olduğunu söyləyən İbn Abbasa qarşı çıxaraq danlayır. Halbuki o özü mütə nikahından dünyaya gəlmişdi.

Tahavi deyir: *Saleh ibn Əbdürrəhman Səid ibn Mənsurdan, o da Hişamdan, o da Əbu Bişrdən, o da Səid ibn Cübeyrdən nəql edir ki, Abdullah ibn Zübeyrin xütbə dediyini eşitdi. O, xütbəsində İbn Abbasa etiraz edir, mütə nikahı barədə sözlərinə görə onu danlayırdı. İbn Abbas dedi: "Əgər doğru söylədiyini düşünürsənsə, o zaman anandan soruş". Abdullah anasından özünün mütədən dünyaya gəlib-gəlmədiyi barədə soruşduqda anası: "İbn Abbas düz deyir. Belə olub" – deyə cavab verdi. İbn Abbas dedi: "Əgər istəsəm, Qüreyşdən mütə nikahından doğulan şəxsləri adbaad sayaram".* (Şərhul-məanil-asar, Tahavi, c. 3, s. 24)

Məsudi yazır: *"İbn Əmmar Əli ibn Muhəmməd ibn Süleyman Nofəlidən, o da İbn Aişə Ətbidən nəql edir: "Zübeyrin oğlu xütbə söyləyərək deyirdi: "Nə olub bu camaata, mütə nikahı barədə fətva verirlər, Peyğəmbərin (s) davamçılarını, möminlərin anası Aişəni ləkələyirlər?! Nə olub bunlara, Allah gözlərini kor etdiyi kimi qəlblərini də kor edib?"*

*Bununla İbn Abbasa etiraz edirdi. İbn Abbas dedi: "Ey oğlan, sözünü mənə yönəltdin, indi dinlə. Ey Zübeyrin oğlu! Mütə nikahı barədə sözlərinə gəldikdə, bu barədə anandan soruş, o sənə xəbər verəcək. Aralarında ilk mütə nikahı baş verən şəxslər sənin ananla atan olub.*

*Möminlərin anası barədə sözünə gəldikdə, bizim sayəmizdə o, "möminlərin anası" adlandırılıb, bizim sayəmizdə o, hörmətlə qeyd olunub. Peyğəmbərin (s) tərəfdarları barədə isə: sənin atanı savaşda qarşımda gördüm. Mən hidayət imamının yanında idim. Əgər mənim dediyim kimidirsə, bu zaman o, döyüşdüyümüzü inkar etmiş olur. Əgər sənin dediyin kimidirsə, o zaman bizim qarşımızdan qaçdığını inkar edir".*

Məsudi bir çox yerdə Abdullah ibn Zübeyrin Əhli-Beytə (ə) mənfi münasibətinin olduğunu qeyd edir və İmam Əlinin (ə) *"Nə qədər ki, oğlu Abdullah atası Zübeyrin fikrini dəyişməmişdi o (Zübeyr), biz Əhli-Beytdən idi"* sözü ilə bunu açıq bəyan edir. Həmin sətirlərdən bir neçəsinə nəzər salaq:

*"Ömər ibn Şəbbə Nəmiri Musavir ibn Saibdən nəql edir: "Zübeyrin oğlu xütbə dediyi qırx cümə boyunca Peyğəmbərə (s) salavat söyləmədi. Deyirdi: "Məni salavat söyləməkdən çəkindirən bəzi adamların təkəbbürlə yuxarıdan baxmasıdır".*[549]

Həmçinin yazır: *"Səid ibn Cübeyr deyir: "Abdullah ibn Abbas Zübeyrin oğlunun yanına gəldi. Zübeyrin oğlu dedi: "Sən məni danlayır və xəsislikdə ittiham edirsən?" İbn Abbas dedi: "Bəli, Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Özü tox, qonşusu ac olan kəs müsəlman deyil". Zübeyrin oğlu cavabında dedi: "Mən sizin evə (Bəni Haşimə) olan nifrətimi qırx ildir gizlədirəm". Onların arasında uzun söhbət oldu".*[550]

Həmçinin Səid ibn Cübeyrdən nəql edir: *"Abdullah ibn Zübeyr xütbə söyləyir, xütbəsində Əlini (ə) pisləyirdi. Bu xəbər Muhəmməd ibn Hənəfiyyəyə çatdı. O, xütbə söylənən yerə gəldi. Onun üçün bir stul qoyuldu. Muhəmməd Abdullah ibn Zübeyrin xütbəsini yarıda kəsib dedi: "Ey ərəblər, simalar eybəcərləşir! Əlini ləkələyirlər, siz də oturub bunu dinləyirsiniz?! Əlinin bir düzgünlük oxu var ki, Allahın düşmənlərini qovduğu silahlardandır. Düşmənlərini küfrlərinə görə öldürür, bağırsaqlarını parçalayır. Bu onlara ağır gəldi, onu batil düşüncələri ilə vurmağa çalışırlar. Biz onun əmrinin tərəfdarları və yardımçılarıyıq. Əgər bir gün dövlət əlimizə keçsə, onların (düşmənlərin) sümüklərini parçalayacaq, üzlərindəki maskanı qoparacaq və*

---

*Söhbətdən sonra Zübeyrin oğlu anası Əsmanın yanına gəlib İbn Abbasın söylədiklərini ona xəbər verdi. Anası "Doğru deyib" cavabını verdi".* (Murucuz-zəhəb, Məsudi, c. 3, s. 59)

[549] Murucuz-zəhəb, Məsudi, c. 3, s. 59

[550] Murucuz-zəhəb, Məsudi, c. 3, s. 59. Bunu Beyhəqi "Şəbul-iman" əsərində səhih sənədlə qeyd edib (c. 7, s. 76, Muhəmməd Səid Bisyuni Zəğlulun təhqiqilə, Beyrut çapı)

*iylənmiş çürük bədənlərini həmin gün göstərəcəyik ki,* ***"Zülm edənlər isə hansı dönüşə dönəcəklərini (hansı inqilabla sarsılacaqlarını) mütləq biləcəklər!"***[551]

*Bundan sonra Zübeyrin oğlu xütbəsinə davam edib dedi: "Əllərindən (hakimiyyət) alınmışların danışmasına izn verdim. Hənəfiyyənin oğluna nə olub?" Muhəmməd ibn Hənəfiyyə dedi: "Ey rumlu qadının oğlu! Niyə də danışmayım? Məgər Muhəmməd peyğəmbərin (s) qızı Fatimə atamın həyat yoldaşı və qardaşlarımın anası deyilmi? Haşimin oğlu Əsədin qızı Fatimə nənəm deyilmi? Azibin oğlu Əmrin qızı Fatimə atamın nənəsi deyilmi? Ancaq, Allaha and olsun ki, əgər Xüveylidin qızı Xədicə Əsəd ibn Əbdülüzza qəbiləsindən olub onlara hörmət qazandırmasaydı, onları da parça-parça edər və bu barədə məni danlayanların danlağına səbr edərdim".*[552]

Bu, Abdullah ibn Zübeyrdir. Peyğəmbər (s) Əhli-Beytinə (ə) və Bəni-Haşimə olan nifrətindən qırx cümə boyunca xütbəsində Peyğəmbərə (s) salavat göndərməyi tərk edir. Həmçinin o, Əhli-Beytə (ə) qəlbində qırx il nifrət bəslədiyini bildirir, minbərindən Əlini (s) pisləyir. Və o, "uca" səhabələrdəndir!

**Yeddinci məqam: Əbu Musa Əşərini danlaması**

Təbəri və İbn Əsir rəvayət edirlər: *"Xəvariclər ortaya çıxdıqda Əbu Musa Əşəri Məkkəyə qaçdı. Əli İbn Abbası Bəsrəyə təyin etdi, özü isə Kufədə qalıb xütbə söylədi: "Ruzigar böyük bəlalar və ağır hadisələr yaratsa belə, həmd Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur. Muhəmməd Onun bəndəsi və elçisidir.*

*Həqiqətən də günah insana təəssüf gətirər, onu peşmançılıq izləyər. Sizə bu iki nəfər barədə göstəriş vermişdim. Bu hökumət barədə də sözlərim vardı. Əmrim sizə ağır gəldi. Siz sözümə əməl etmədiniz. Ey kaş, Qəsirin göstərişinə*

---

[551] Şuəra, 227

[552] Murucuz-zəhəb, Məsudi, c. 3, s. 59

*və sözünə əməl olunaydı. Mənimlə sizin hekayətimiz Həvazənin qardaşının (Dürəyd ibn Simə) dediyi kimidir:*

*Mun'əricul-livada öz fikrimi sizə dedim.*
*Mənim nəsihətimin faydasını sabahkı gün*
*Səhər günəş çıxana qədər bilmədiniz.*

*Bilin ki, sizin seçdiyiniz bu iki hakim Quranın hökmlərini kürəklərinin arxasına atdılar, Quranın öldürdüyün diriltdilər, onların hər ikisi Allahın hidayəti üzərində olmadan istəklərinə tabe oldular. Nə bir aşkar dəlil və nə də məlum sünnəyə uyğun hökm etdilər. Öz hökmlərində ixtilafa düçar oldular, heç biri də düzgün yol tapmadı. Allah da, Peyğəmbəri də və möminlərin salehi də onların hökmlərindən uzaqdır. Şama getmək üçün hazırlaşıb silahlanın və bazar ertəsi, inşallah, öz düşərgələrinizdə olun".*[553]

Bu xütbədən göründüyü kimi, İmam Əli (ə) Bəsrə hakimi olan Əbu Musa Əşərini İhsan Zahirin Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiası ilə heç cür bir araya sığmayan sifətlərlə vəsf etdi.

### Səkkizinci məqam: Müaviyəni və səhabədən olan tərəfdarlarını danlayıb, onları lənətləməsi

İmam Əli (ə) Müaviyəni və səhabələrdən olan tərəfdarlarını dinsizlik və insanların ən pisi kimi sifətlərlə vəsf edir. Buna Təbəri, İbn Əsir, Məsudi, İbn Xəldun və digərlərinin kitablarında nəql etdikləri rəvayətlər dəlalət edir. Şam ordusu Quran səhifələrini nizələrinə keçirdikləri zaman Möminlərin əmiri Əli (ə) söylədiyi xütbəsində buyurur: *"Ey Allah bəndələri, mən, Allahın Kitabının dəvətinə müsbət cavab verməyə daha çox layiqəm.*

*Ey Allah bəndələri, öz haqqınızı və sədaqətinizi tamamlayın, düşmənlərinizin üzərinə gedin. Müaviyə, Əmr (ibn As), İbn Əbu Muit, Həbib,*

---

[553] Tarix, Təbəri, c. 4, s. 57; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 338

*İbn Əbu Sorh və Zəhhak din və Quran əhli deyillər. Mən onları sizdən yaxşı tanıyıram. Onlarla həm uşaqlıqda, həm də böyüdükdən sonra tanışlığım olub. Uşaqlıq vaxtı ən pis uşaqlar, böyüdükdə də ən pis kəslər olublar.*

*Vay olsun sizə! Allaha and olsun ki, onlar bu səhifələri yalnız sizi aldatmaq, həvəsdən salmaq və hiylə etmək üçün qaldırıblar!"*

İmam Əlinin (ə) bu səhabələr haqqında söylədiklərinə diqqət yetirin! Məgər bu sözlərdən İmamın (ə) onlardan razı olduğu anlaşılır?! Məgər onları din və Quran əhli saymadığında, uşaqlıqda və böyüdükdən sonra da insanların ən pisi kimi görməsində açıq-aşkar narazılıq və danlaq yoxdur?!

Bütün bu sözlər Müaviyənin və tərəfdarları olan səhabələrin fasiqliyinə və dindən çıxdıqlarına aydın şəkildə şəhadət verir.

Bundan da artıq, sübut olunub ki, İmam (ə) namazlarında onlara qarğış edər və lənətləyərdi. İbn Şeybə "əl-Müsənnəf"də Əbdürrəhman ibn Müğfəldən rəvayət edir: *"Əli ilə sübh namazını qılırdım. Qunut tutub dedi: "İlahi, Müaviyəni, Əmr ibn Ası, Əbu Əvar Silmini, Abdullah ibn Qeysi və tərəfdarlarını cəzalandırmağı Sənə tapşırıram".*[554]

Həmçinin Təbərinin, Bəlazurinin, İbn Əsirin, Zəhəbinin, İbn Xəldunun hakimlik məsələsi ilə bağlı qeyd etdikləri rəvayət (Təbəridən nəql olunur): *"Əmr ibn As gəlib minbərə qalxdı, Allaha həmd və səna söyləyib dedi: "Bu şəxs sizin eşitdiklərinizi söylədi və öz yoldaşını rəhbərlikdən düşürdü. Mən də onun kimi, rəhbərindən imtina edir və Müaviyənin rəhbərliyini elan edirəm. O, Osman ibn Əffanın vəlisi, qanının qisasçısı və onun məqamına ən çox haqqı çatan şəxsdir".*

*Əbu Musa dedi: "Nə olub, Allah səni müvəffəq eləməsin! Xəyanət və günah edirsən! Sənin misalın elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxardıb ləhləyər, cummasan da".*

*Əmr ibn As dedi: "Sənin də məsəlin belində yük daşıyan ulağa bənzəyir".*

---

[554] əl-Musənnəf, İbn Əbu Şeybə Kufi, c. 2, s. 216, Səid Lihamın təhqiq və şərhi ilə. I çap, Cəmadil-axır, h.q.1459, Beyrut

*Bu zaman Şərih ibn Hani Əmrin üzərinə cumub ona bir qamçı zərbəsi endirdi. Bunu görən Əmrin oğulları Şərihin üzərinə atılıb onu qamçı ilə vurmağa başladılar. Camaat araya girib onları ayırdı.*

*Şərih bu hadisəsən sonra deyirdi: "Əmri qamçı ilə vurduğum qədər heç bir şeyə peşman olmamışam. Kaş ki, onu qılıncla vurardım".*

*Şam əhli Əbu Musanı dəstəklədilər.*

*O, miniyinə oturub yola düşdü. Bir müddət sonra Məkkəyə yetişdi.*

*İbn Abbas deyir: "Allah Əbu Musanın rəyini rüsvay etsin! Həmin fikirlərinə görə onu danladım və çəkinməsini əmr elədim. Lakin anlamadı".*

*Əbu Musa deyirdi: "İbn Abbas məni xain bir fasiqi çəkindirər kimi danladı. Ancaq mən onu sakitləşdirdim. Düşündüm ki, o, ümmətin seçdiyindən başqasını seçməyəcək.*

*(Camaat onları ayırdıqdan sonra) Əmr ibn As və Şam əhli Müaviyənin yanına getdilər, ona "xəlifə" deyib salamladılar. İbn Abbasla Şərih ibn Hani Əlinin yanına qayıtdılar.*

*Əli sübh namazlarında qunut tutar və deyərdi: "İlahi, Müaviyəyə, Əmr ibn Asa, Əbu Əvar Silmiyə, Həbibə, Əbdürrəhman ibn Xalidə, Zəhhak ibn Qeysə və Vəlidə lənət elə!"*

*Bu xəbər Müaviyəyə çatdıqda o da qunutlarında Əliyə, İbn Abbasa, Əştərə, Həsənə və Hüseynə lənət oxumağa başladı".*[555]

Diqqət yetirin ki, İmam Əli (ə) öz namazında Müaviyəyə və səhabədən olan tərəfdarlarına necə lənət oxuyur. Bunun müqabilində hansı ağıllı insan "Əhli-Beyt (ə) bütün səhabələrdən razı idi" iddia edə bilər. Halbuki, Əhli-Beyt nümayəndəsi bəzi səhabələrə lənət oxuyur! Bu İhsan Zahir nə qədər yalançıdır! Bu kəs Əhli-Beytə (ə) necə də iftira atır!

Həmçinin, İhsan Zahir bir səhabənin digərlərini, xüsusən də səhabələrin böyüklərindən olan Əhli-Beyti (ə), Peyğəmbərə (s) ən yaxın

---

[555] Tarix, Təbəri, c. 4, s. 52; Ənsabul-əşrəf, Bəlazuri, s. 351; əl-Kamilu fit-tarix, c. 3, s. 333; Tarix, İbn Xəldun, c. 2, s. 178

şəxsləri – Əlini, Həsəni, Hüseyni söyməyi və lənətləməyi necə mümkün və rəva bilir?! Bəlkə də öz təbii halıyla: “Onlar ictihad etdilər və xətaya düçar oldular. İctihadlarına görə mükafatları var” deyər!

**Doqquzuncu məqam: Əbu Süfyanı və oğlunu pisləməsi**

Buna Təbərinin və İbn Əsirin Möminlərin əmirindən (ə) nəql etdiyi sözlər dəlalət edir: *“Məni təəccübləndirən iki şey oldu: beyət etmiş iki nəfərin beyətdən imtinası; dində heç bir keçmişi, İslamda əvvəllər dürüstlüyü olmayan, tüləqa oğlu tüləqa Müaviyənin qarşı çıxması. O və atası məcbur qalaraq İslama daxil oldular. Hələ də Allaha, Peyğəmbərinə (s) və müsəlmanları qarşı ədavətdən əl çəkməyiblər. Onun sizə rəhbərliyi və sizin də onunla əlbir olub mənə qarşı çıxmanız çox təəccüblüdür. Halbuki onların gətirəcəyi ixtilafları sizə rəva görməyən və peyğəmbəriniz Muhəmmədin heç kimlə müqayisə olunmayan ailəsini tərk edirsiniz. Bilin ki, mən sizi Uca Allahın kitabına, Peyğəmbərinizin (s) sünnəsinə, batili məhv edib dini təlimlərin dirçəldilməsinə dəvət edirəm. Sizə bunları söyləyir, özüm və sizlər üçün Allahdan məğfirət diləyirəm”.*[556]

Bu sözlərində İmam Əli (ə) Müaviyəni və atası Əbu Süfyanı Allahın, Peyğəmbərin (s) və müsəlmanların düşməni olaraq vəsf edir. Burada onların təkcə fasiqliyinə deyil, həmçinin küfrlərinə də dəlalət var.

**Onuncu məqam: Bəni-Üməyyəni danlaması**

İmamın (ə) fikrinə əsasən, onlar Allahın nemətini küfrə dəyişənlər və ümməti ölüm vadisinə sövq edənlərdir. Hakim Nişapuri yazır: *“Əbu İshaqdan, o da Əmr Zi Mərdən Uca Allahın* ***“Sən Allahın nemətini küfrə dəyişənləri və ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi?”***[557]

---

[556] Tarix, Təbəri, c. 4, s. 5, “əl-Əlami” müəssisəsi, Beyrut, Livan; əl-Kamilu fit-tarix, c. 3, s. 291

[557] İbrahim, 28

*ayəsi barədə Əlinin (r) belə buyurduğunu nəql edir: "Bunlar Qüreyşin iki ən günahkar qəbiləsi olan Bəni-Üməyyə və Bəni-Müğeyrədir. Allah Bədr savaşında Bəni-Muğeyrənin kökünü kəsdi. Amma Bəni-Üməyyə bu günədək ləzzət içindədir". Bu, istinadı səhih olan hədisdir. Lakin Buxari və Müslim qeyd etməmişlər".*[558]

Həmçinin Təbəri İmam Əlidən (ə) səhih sənədlə[559], eləcə də Cəlaləddin Süyuti "əd-Durrul-mənsur"da, bir dəstə təfsir və hədis alimi öz əsərlərində bunu qeyd etmiş və demişlər: *"Bunu İbn Cərir, İbn Münzər, İbn Əbu Hatəm, eləcə də Təbərani "əl-Övsat"da, İbn Mərduveyh Hakim də Əli ibn Əbu Talibdən (r) nəql etmiş və səhih olduğunu bildirmişlər".*[560]

**On birinci məqam: Qədir-Xum hədisini gizləyən səhabələri danlaması**

Əhməd ibn Hənbəl öz "Müsnəd"ində Simak ibn Übeyd ibn Vəlid Əbəsidən nəql edir: *"Əbdürrəhman ibn Əbu Leylanın yanına gəldim. O, Rəhbədə olarkən Əlinin (r) belə söylədiyinə şahid olduğunu dedi: "Qədir-Xum günü Peyğəmbərin (s) sözlərini eşidən şəxslərə Allahı şahid tuturam! Ayağa qalxsınlar, onu görməyənlər isə qalxmasınlar". On iki nəfər ayağa qalxıb dedi: "Biz bunu görmüş və eşitmişik. Peyğəmbər onun (Əlinin) əlindən tutaraq buyurmuşdu: "İlahi, onun dostuna dost, düşməninə düşmən ol! Ona yardım edənə yardım et, tərk edəni tərk elə".*

*Qədir-Xumda iştirak edənlərdən yalnız üçü ayağa qalxmadı. (Əli) onlara bəddua etdi və bədduası onları tutdu".*[561]

Əbu Nəim İsfahani "Hilyətul-övliya" kitabında yazır: *"Ümeyrə ibn Səd deyir: "Əlini minbərdə gördüm. Peyğəmbərin (s) səhabələrinə Allahı şahid*

---

[558] əl-Müstədrək, Hakim Nuşapuri, c. 2, s. 352 və c. 7, s. 235. Yusif Əbdürrəhman Mərəşlinin təhqiqi ilə

[559] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 13, s. 288, Şeyx Xəlil Meyyisin təhqiqi ilə

[560] əd-Durrul-mənsur, Cəlaləddin Süyuti, c. 4, s. 84

[561] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 119

*tutur və and verirdi. Onların arasında Əbu Səid, Əbu Hüreyrə, Ənəs ibn Malik də vardı və minbərin ətrafında oturmuşdular. Əli minbərdə əyləşmiş, ətrafında isə səhabələrdən on iki nəfər vardı. Dedi: "Allahı sizə şahid tuturam, Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır" buyurduğunu eşitmisiniz?"*

*Onların hamısı ayağa qalxıb "Bəli, İlahi, buna şahidik" dedilər. Yalnız onlardan biri ayağa qalxmayaraq yerində oturmağa davam edirdi. Əli soruşdu: "Ayağa qalxmağa sənə nə mane oldu?"*

*Dedi: "Ey Möminlərin əmiri, yaşlanmışam və bu səbəbdən unutmuşam".*

*Əli dedi: "İlahi, əgər yalan deyirsə, ən gözəl bəlalarından birini ona göndər".*

*Ravi deyir: "O, ölənədək alnında bir ağ nöqtə görünürdü ki, hətta əmmaməsi belə onu örtə bilmirdi".*[562]

Bəlazuri yazır: *"Əbu Vail Şəqiq ibn Sələmə deyir: "Əli minbərdən dedi: "Qədir-Xum günü Peyğəmbərin (s) "İlahi, onun dostuna dost, düşməninə düşmən ol!" buyurduğunu eşidən şəxslərə Allahı şahid tuturam! Qoy ayağa qalxsınlar!"*

*Ənəs ibn Malik, Bərra ibn Azib və Cərir ibn Abdullah minbərin altında əyləşmişdilər. O, sözlərini bir də təkrarladı, lakin heç kim cavab vermədi. Buyurdu: "İlahi, bildiyi halda şahidliyi gizləyənləri bu dünyadan hamının tanıya biləcəyi bir əlamətlə apar".*

*Ravi deyir: "Ənəs bərəs xəstəliyinə tutuldu, Bərra kor oldu. Cərir isə mühacirlikdən sonra bədəviliyə qayıtdı, Sirraya (və ya Səraya) gedib anasının evində öldü".*[563]

Təbərani yazır: *"Zeyd ibn Ərqəm deyir: "Əli Rəhbədə ikən camaatı toplamış və Peyğəmbərin (s) sözlərini eşidənlərə Allahı şahid tuturdu. On altı nəfər qalxıb Peyğəmbərin (s) belə buyurduğuna şahidlik etdilər: "İlahi, mən*

---

[562] Hilyətul-övliya, c. 5, s. 26

[563] Ənsabul-əşrəf, Bəlazuri, s. 175, I çap, çap ili: 1394 h.q., 1974 m, Beyrut çapı

*kimin mövlasıyamsa Əli də onun mövlasıdır. İlahi, onun dostunu dost, düşmənini düşmən tut".*

*Zeyd ibn Ərqəm deyir: "Mən də şahidliyini gizlədənlərin arasında idim. Sonradan kor oldum. Belə ki, Əli (r) orada şahidliyi gizlədənlərə bəddua etmişdi".*[564]

Düşünmürəm ki, ağıllı bir şəxs bütün bunlardan sonra Əhli-Beytin (ə) səhabələrin hamısından razı olduğunu xəyal belə etməz. İmam Əli də (ə) özünün vilayətinə və Peyğəmbər (s) xəlifəsi olduğuna şahidlik edən "Qədir-Xum" hədisini gizləyən səhabələrə dünya və axirət zərərlərinin yetişməsi üçün bəddua edir. Əhli-Beyt (ə) bunlardan necə razı ola bilər?! Halbuki Uca Allah da Quranda buyurur: ***"Allah yanında şahidliyi gizlədən kəsdən daha zalım kim ola bilər?! Allah sizin nə etdiklərinizdən xəbərsiz deyil";***[565]***, "Şahidliyi*** (şahidi olduğunuz şeyi) ***gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir!",***[566] həmçinin: ***"Kitabda insanlara bəyan etdikdən sonra nazil etdiyimiz açıq-aşkar dəlilləri və hidayəti gizlədənlər Allahın lənətinə düçar olar və*** (bütün) ***lənət edə biləcək kimsələr də onlara lənət oxuyar!"***[567]

---

[564] əl-Möcamul-kəbir, c. 5, s. 171
[565] Bəqərə, 140
[566] Bəqərə, 283
[567] Bəqərə, 159

## İkinci bab: Əhli-Beyt (ə) və Əbu Bəkr ibn Əbu Qühafə

Burada bir neçə fəsil var:

**Birinci fəsil:** Əhli-Beytin (ə) Əbu Bəkrə münasibəti

**İkinci fəsil:** Əhli-Beytin (ə) Əbu Bəkrin xilafətindən razı olduqları iddiası

**Üçüncü fəsil:** Əlinin (ə) Əbu Bəkrin arxasında namaz qıldığı və hədiyyələrini qəbul etdiyi iddiası

**Dördüncü fəsil:** Qohum olmağı və ad qoymağı dəlil göstərməyin tənqidi

**Giriş**

İhsan Zahir iddia edir ki, Əhli-Beytin (ə) Əbu Bəkrlə münasibətlərində sevgi və məhəbbət hakim idi. Onlar Əbu Bəkrin xilafətindən razı idilər, onun imamlığı ilə namaz qılır və hədiyyələrini qəbul edirdilər. Sonra bu dostluq əlaqəsini onunla qohum olaraq daha da möhkəmləndirdilər. Qeyd edilən məsələlərə aydınlıq gətirmək üçün bir neçə fəsildə bəhs açacağıq:

**Birinci fəsil:** Əhli-Beytin (ə) Əbu Bəkrə münasibəti;

**İkinci fəsil:** Əhli-Beytin (ə) Əbu Bəkrin xilafətindən razı olduqları iddiası;

**Üçüncü fəsil:** Əlinin (ə) Əbu Bəkrin arxasında namaz qıldığı və hədiyyələrini qəbul etdiyi iddiası;

**Dördüncü fəsil:** Qohum olmağı və ad qoymağı dəlil göstərməyin tənqidi.

## Birinci fəsil: Əhli-Beytin (ə) Əbu Bəkrə münasibəti

### Ön söz

İhsan Zahir Əhli-Beytin (ə) Əbu Bəkrdən razı olduğunu iddia edir. Bunu isbat etmək üçün şiə kitablarında olduğunu iddia edərək bir neçə dəlil göstərir. Biz həmin dəlilləri sizə təqdim edəcək və müvafiq olaraq cavablarını da qeyd edəcəyik.

### Birinci: Peyğəmbərin (s) Əbu Bəkrdən razı olduğu iddiası

İhsan Zahir deyir: **“Peyğəmbər (s) Əbu Bəkrə qarşı çox diqqətli idi. Bədr savaşında Əbu Bəkr oğluna qarşı vuruşmaq istədikdə Peyğəmbər (s) bunu ona qadağan etdi və buyurdu: “Qılıncını dinc saxla, öz yerinə qayıt və öz varlığınla bizi sevindir”.**[568]

**Müzakirə**

**1** – Bu rəvayətin sənədi zəifdir. Belə ki, mürsəl hədisdir. Onu dəlil kimi göstərmək mümkün deyil.

**2** – Hədis şiə kitablarında nəql edilməyib. Bu səbəbdən də əsla şiələrə dəlil kimi göstərilə bilməz. Həmçinin bu “dəlil” İhsan Zahirin yalnız şiə kitablarından və şiə mənbələrindən dəlil göstərəcəyinə dair iddiasına da xilafdır.

**3** – Birinci iki bənddə qeyd etdiklərimizə göz yumsaq, rəvayətin məzmunu belə özlüyündə Əbu Bəkr üçün heç bir üstünlük daşımır və Peyğəmbərin (s) ondan razılığına dəlalət etmir. Əksinə, İhsan Zahirin tam mətnini qeyd etmədiyi bu rəvayətin sonunda Möminlərin əmiri Əlinin (ə)

---

[568] Şiə və Əhli-Beyt, s. 59-60

əzəmətli üstünlükləri bəyan olunur. İbn Əbu Nəcih deyir: *"Həmin gün bir carçı nida edərək dedi: "Zülfüqardan başqa qılınc, Əlidən başqa (üstün) gənc yoxdur!"*

*Əli (ə) Kufədə minbərdə ikən ondan* ***"Möminlər içərisində elələri də var ki, Allaha etdikləri əhdə sadiq olarlar. Onlardan kimisi (bu yolda) şəhid olmuş, kimisi də (şəhid olmasını) gözləyir..."***[569] *ayəsi barədə soruşuldu. O, buyurdu: "İlahi bağışla! Bu ayə mən, əmim Həmzə, əmim oğlu Übeydə ibn Haris ibn Əbdülmüttəlib barədə nazil olub. Übeydə ibn Haris Bədr savaşında şəhid oldu, əmim Həmzə də Ühüddə şəhadətə qovuşdu. Mənə gəldikdə isə, bunu buna boyayacaq (əli ilə başını və saqqalını göstərdi) bədbəxti gözləyirəm. Bu, həbibim Əbülqasimin (s) mənə verdiyi əhddir".*[570]

**4** – Bu rəvayəti dəlil kimi təqdim etmək İhsan Zahirin yeniliyi deyil. Bunu Cahiz "Usmaniyyə"sində öyünərək qeyd edib. Lakin iddiasına İskafi belə cavab verib: *"Bu rəvayəti Əbu Bəkrin üstünlüyünün dəlili kimi təqdim etməyin faydası yoxdur. Çünki İmamiyyə şiələrindən bunu eşidən şəxsin Əbu Bəkrin inkarına imanı artacaq. Peyğəmbərin (s) Əbu Bəkrə söylədiyi "geri qayıt" sözü onun oğlu ilə savaşmaq qüdrətinin olmadığına dəlildir. Atanın oğluna olan mərhəməti, şəfqəti məlumdur. Bu səbəbdən onun başqa şəxslərlə də mübarizəyə taqətinin olmaması əsas götürülə bilər. Peyğəmbərin (s) "öz varlığınla bizi sevindir" sözü onun döyüşə çıxacağı təqdirdə öldürülə biləcəyi barədə xəbərdarlıqdır. Peyğəmbər (s) Əbu Bəkri Cahizdən daha yaxşı tanıyırdı. İndi siz deyin, döyüşün içinə qılıncı ilə atılmış, qılınclarla üz-üzə gəlmiş, müşrik ordusunun başçılarını, atlı və piyadalarını qətlə yetirmiş Əli ilə (ə) onu necə müqayisə etmək olar?!"*[571]

Ardınca İbn Əbülhədid Cahizin söylədiklərinə şərh verərək deyir: *"Eləcə də, Cahizin iddia etdiyi kimi, guya Əbu Bəkrin Ühüd savaşında olduğu*

---

[569] Əhzab, 23

[570] Kəşful-ğammə, İrbəli, c. 1, s. 189-190

[571] Bax: Nəhcul-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 13, s. 294

*isbatlanıb. Məgər mümkündürmü ki, desin: "Əbu Bəkrin oradakı iştirakı Əlinin orada olduğu kimi sübuta yetib. Onlardan birinin digərinə üstünlüyü yoxdur". Halbuki həmin döyüşdə Əlinin (ə) fədakarlıqları hamıya məlumdur. O, Bəni Əbud-darın başçılarını öldürdü. Onlardan biri Təlhə ibn Əbu Təlhə idi ki, Peyğəmbər (s) yuxusunda bir qoçu təqib etdiyini görmüş, bunu düşmən qoşununun bayraqdarını öldürəcəkləri kimi yozmuşdu. O, həmin döyüşdə ilk qətlə yetirilən müşrik idi. Bu vaxt Peyğəmbər (s) təkbir söyləyib buyurmuşdu: "Bu, qoşunun qoçu idi".*

*Həmin döyüşdə Əli (ə) Peyğəmbəri (s) qorumuşdu. Lakin digərləri qaçmış və Peyğəmbəri (s) döyüş meydanında tək qoymuşdular. Qüreyş ordusunun hücumları qarşısında Peyğəmbər (s): "Ey Əli, məni müdafiə et!" deyir, Əli də onlara həmlə edərək hərən-hərən salır, başçılarını qətlə yetirirdi. Bu zaman müsəlman və müşriklər səmadan "Zülfüqar kimi qılınc, Əli kimi gənc yoxdur!" sədasını eşitdilər".*[572]

## İkinci: İmam Əlinin (ə) Əbu Bəkrdən razı olduğu iddiası

İhsan Zahir bir neçə rəvayəti qeyd edərək bunların, İmam Əlinin (ə) Əbu Bəkrdən razı olduğuna dəlalət etdiyini söyləyir. Həmin rəvayətlər aşağıdakılardır:

### Birinci rəvayət: İmam Əlinin (ə) Əbu Bəkrə beyət etməsi

İhsan Zahir "əl-Ğarat" kitabından nəql edir: **"Orada Peyğəmbərin (s) əmisi oğlu, kürəkəni, qızının əri və iki nəvəsinin atası Əli ibn Əbu Talib (r) Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkrə edilən beyəti xatırlayır, camaatın Əbu Bəkrə beyətə yönəldiyini və buna qaçaraq getdiklərini bildirir: "Həmin vaxt Əbu Bəkrin yanına gedib beyət**

[572] Nəhcul-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 13, s. 293

**etdim, təhlükəli hadisələrin qarşısını almağa səy göstərdim. Nəticədə batil puç olub aradan getdi. Kafirlər istəməsə də Allahın sözü ən üstün oldu. Əbu Bəkr xilafətin rəhbərliyinə keçdi. İş asanlaşdı, düzgün məcraya düşdü, bir-birinə yaxınlaşdılar və mötədil oldu. Nəsihətçi olaraq yoldaşlıq etdim, Allaha mütilik göstərilən şeylərdə ona itaət etdim".**[573]

**Bir neçə cəhətdən müzakirəsi mümkündür:**

**1** – "əl-Ğarat" etibardan düşmüş kitabdır. Çünki bizə mötəbər yollarla yetişməyib. Bunu "Peyğəmbərin (s) səhabələri mədh edən rəvayətləri" bəhsinin üçüncü rəvayətini müzakirə edərkən qeyd etdik. Beləliklə də, bir mənbə kimi şiəyə dəlil ola bilməz.

**2** – İmam Əliyə (ə) nisbət verilən bu sözlərdə Əbu Bəkr üçün heç bir tərif və mədh yoxdur. Yalnız "yaxınlaşdılar və mötədil oldu" sözlərindən başqa. Lakin bu iki kəlmə qısa deyilmiş icmali sözlərdir və İmam Əlinin (ə) Əbu Bəkri təriflədiyinə dəlalət etməz. Məsələn, nəyə yaxınlaşdılar? Nədə mötədil oldu? Halbuki İmam Əli (ə) xilafətin Əbu Bəkrin haqqı olmadığını açıq bəyan edib. İhsan Zahir burada da İmamın (ə) sözlərindən öz məqsədləri üçün yararlı olduğunu güman etdiyi hissəni kəsib təqdim etmiş, iddiasını puç edəcək hissələrini isə nəzərlərdən gizlətməyə çalışmışdır. Rəvayətin tam mətni belədir: *"Peyğəmbərin (s) dünya həyatındakı ömrü tamamlandıqda Uca Allah onun ruhunu aldı. Bu, yaxınları üçün xüsusi, müsəlmanlar üçün isə ümumi bir müsibət idi ki, bundan əvvəl heç vaxt belə bir şeylə qarşılaşmamışdılar. Peyğəmbər (s) həyatdan köçdükdən sonra müsəlmanlar xilafət məsələsində fikir ayrılığına düşdülər. Allaha and olsun ki, heç qəlbimdən keçməz və ağlıma da gəlməzdi ki, ərəblər Peyğəmbərdən (s) sonra xilafəti Əhli-Beytdən alacaq, məni bu işdən*

[573] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 48

*uzaqlaşdıracaqlar. Camaatın Əbu Bəkrə beyətə yönəldiyi və beyət etmək üçün qaçdıqları təəccübümü doğurdu. Mən əl saxladım. Həmin məqama Peyğəmbərdən (s) sonra xilafəti əlinə almış kəsdən özümü daha layiq bilirdim. Allah dilədiyi qədər bu işdən çəkindim. Camaatın arasında İslamdan dönmək barədə səslər yüksəldiyini gördüm. Onlar Allahın dini, Muhəmməd (s) və İbrahimin ümmətini aradan aparmaq istəyirdilər. Qorxdum ki, əgər İslama və əhlinə yardım etməsəm sonradan onlarda böyük yarıqlar və dağıntılar görəcəyəm. Nəticədə bu, az dünya günlərində bərqərar olacaq vilayət haqqımın aradan getməsindən daha böyük müsibətlər yaradacaq. Ardınca əldə edilənlər bir ilğım və ya bulud kimi yox olacaq. Həmin vaxt Əbu Bəkrin yanına gedib beyət etdim, təhlükəli hadisələrin qarşısını almaq üçün çalışdım. Nəticədə batil puç olub aradan getdi və Allahın sözü ən üstün oldu".*[574]

İhsan Zahirin təqdim etdiyi bu rəvayət əslində İmam Əlinin (ə) xilafət haqqını qəsb edən kəslərə qarşı dəlil kimi göstərilməlidir. Çünki İmam (ə) bu sözlərində öz məzlumluğunu bəyan etməkdədir. O, bu xilafətə Peyğəmbərin (s) göstərişinə əsasən haqq sahibidir. Necə ki, bu, onun sözlərindən də aydın başa düşülür: *"Həmin məqama Peyğəmbərdən (s) sonra xilafəti əlinə almış kəsdən özümü daha layiq bilirdim..."*

İhsan Zahirin rəvayətdən qeyd etmədiyi hissələr Peyğəmbərin (s) vəfatından sonra İslam ümmətinin başının üzərini almış təhlükələri, müsəlmanlar arasında xilafət mövzusunda olan ixtilafları özündə əks etdirir. Bu da İmamın (ə): *"Peyğəmbər (s) həyatdan köçdükdən sonra müsəlmanlar xilafət məsələsində fikir ayrılığına düşdülər..."* sözüdür.

Rəvayət tam həcmdə İhsan Zahirin iddialarına heç bir fayda vermir, əksinə dəlil olaraq əleyhinədir. Bu səbəbdən də həmin hissəni kəsərək nəql etmir. Çünki müsəlmanların ixtilafı Əbu Bəkrin xilafətə heç də onların təbii razılığı ilə yetişmədiyini göstərir. Əksinə, bunun müsəlmanlar arasında

---

[574] əl-Ğarat, İbrahim ibn Muhəmməd Səqəfi, c. 1, s. 306

münaqişə, qarşıdurma və mübahisələr yaratdığını, onların Əbu Bəkrin xilafəti məsələsində icma etmədiklərini təsdiqləyir. Bu məsələni Ömərin özü də etiraf edib: *"Əbu Bəkrə beyət bir ani qərarla baş verib bitdi. Bilin ki, bu, həqiqətən də belə oldu. Lakin Allah onun şərindən qorudu".*[575]

**3** – Rəvayət bir daha göstərir ki, Möminlərin əmiri Əli (ə) Əbu Bəkrə heç də rəğbətindən və ya hökumətinin düzgünlüyünə iman bəslədiyindən beyət etməyib. Əksinə, bu addımı İslamı qorumaq, Allahın və Muhəmmədin (s) dinini aradan getməkdən xilas etmək üçün atıb. Ali bir hədəfi müdafiə etmək üçün zülmə dözməyi seçdi. Bu isə daha əhəmiyyətlinin mühümdən üstün tutulmasıdır.

**4** – Rəvayətdə tarixdə isbat olunmuş məsələlərlə uyğunsuzluqlar var. Bunlardan: *"Camaatın Əbu Bəkrə beyətə yönəldiyi və beyət etmək üçün qaçdıqları təəccübümü doğurdu..."* Həqiqətdə camaat Əbu Bəkrə bu şəkildə beyət etməyib. Ona beyət edənlər Ömər, Əbu Übeydə və "Səhifə" əhli idi. Bu beyətdən sonra Ömər qılıncını yelləyərək camaatı beyətə məcbur etməyə başladı. Həmin vaxt da münaqişə və qarşıdurmalar yaşandı. Bəs camaatın Əbu Bəkrə yönəlib, ona tərəf qaçması haradadır?!

Görünən odur ki, rəvayətin bu hissəsi Osmanın qətlindən sonra camaatın İmam Əliyə (ə) etdikləri beyəti vəsf edən sözlərindən götürülüb: *"Canavardan qorxmuş qoyunlar çobanın ətrafına yığışdığı kimi hər tərəfdən mənim ətrafıma toplaşdıqları məni təəccübləndirdi..."*

**5** – Həmçinin rəvayətdəki "*...təhlükəli hadisələrin qarşısını almaq üçün çalışdım*" sözü də hadisələrə uyğun deyil. Tarix, rəvayət və xəbərlər Möminlərin əmirinin (ə) həmin hadisələrdə iştirak etmədiyini, qılınc qaldırmadığını və bir ox belə atmadığını qeyd edir.

---

[575] Bax: Səhih, Buxari, c. 8, s. 26, "Kitabul-muharibin min əhlil-kufri vər-riddə".

**İkinci rəvayət: İlk iki xəlifə gözəl rəftar etdilər, sünnəni aşmadılar**

İhsan Zahir deyir: **"Qeys ibn Səd ibn İbadə Ənsarini vali təyin edib onunla Misir əhlinə göndərdiyi məktubda (İmam Əli) yazır: "Rəhman və Rəhim olan Allahın adı ilə! Allahın qulu Möminlərin əmiri Əlidən bu məktubumun yetişdiyi hər bir müsəlmana salam olsun! Özündən başqa ilah olmayan Allaha həmd edirəm!**

**Uca Allah Öz gözəl yaradılışı, təqdiri və tədbiri ilə İslamı Özü, mələkləri və peyğəmbərləri üçün din seçmiş, onu elçiləri ilə bəndələrinə göndərmiş və qəbul edən bəndələrinə xas qılmışdır. Uca Allahın bu ümmətə ikram və fəziləti onlara Muhəmmədi (s) göndərməsidir. Peyğəmbər (s) onlara kitabı, hikməti, sünnəni və vacibləri öyrətdi, hidayət olmaları üçün ədəbləndirdi, parçalanmamaları üçün bir yerə topladı, paklanmaları üçün onları təmizlədi. Vəzifəsini yerinə yetirdikdən sonra Uca Allah onun ruhunu aldı. Allahın salavatı, salamı, rəhməti və rizvanı ona olsun! Həqiqətən, Allah həmdə layiq və şərəfi ucadır. Bundan sonra müsəlmanlar iki salehi, kitabın buyruqlarını yerinə yetirəni, gözəl rəftar edəni, sünnəni aşmayanı özlərinə xəlifə seçdilər. Sonra Allah o ikisinin canını alıb rəhmətinə qovuşdurdu".**[576]

**Müzakirə**

İhsan Zahirin təqdim etdiyi dəlilə bir neçə cəhətdən irad bildirmək mümkündür:

**1** – Bu rəvayət "əl-Ğarat" kitabında varid olub. Həmin kitabın bizə mötəbər yollarla yetişmədiyini əvvəldə qeyd etdik. Səbəb isə kitabı bizə çatdıran yolların hamısının "zəif" olmasıdır. Əvvəlki rəvayətə irad bildirdiyimiz təfsilatlı qeydləri burada təkrarlamağa lüzum görmürük.

---

[576] Şiə və Əhli-Beyt, s. 48-49

**2** – “əl-Ğarat” kitabının müəllifi bu rəvayəti Səhl ibn Sədə istinad edir. Lakin Səhllə hadisənin şahidi arasındakı ravilərin adları qeyd edilməyib. Bununla da rəvayət mürsəl olur. Mürsəl hədisin səlahiyyəti olmadığı üçün dəlil kimi göstərmək.

Lakin Təbəri bu rəvayəti başqa ravilərdən nəql edib: *“Hişam ibn Muhəmməd Kəlbi Əbu Mixnəfdən, o da Muhəmməd ibn Yusuf ibn Sabitdən, o da Səhl ibn Səddən nəql edir: Osman (r) qətlə yetirildikdən sonra Əli ibn Əbu Talib xilafətin rəhbərliyə keçdi, Qeys ibn Sədi çağırıb...”*[577]

Buna istinad etsək, o zaman İhsan Zahirin göstərdiyi dəlil şiə deyil, sünni mənbəyindən olacaq. Çünki rəvayət Təbərinin kitabında varid olub. Təbərinin “Tarix”i isə sünni kitabıdır. Bundan əlavə, sənədində Hişam ibn Muhəmməd ibn Saib Kəlbinin varlığı səbəbindən rəvayət zəifdir. O, rical alimləri tərəfindən ittiham olunmuş və inanılmayan şəxs kimi tanınmışdır. İbn Həcər “Lisanul-mizan” kitabında yazır: *“Əhməd ibn Hənbəl deyir: “Əgər seyr və nəsillərlə bağlı kitab müəllifləri olmasaydı, bir kəsin ondan rəvayət nəql edəcəyini güman etməzdim. Darəqutni və başqaları deyirlər: “Hədisləri tərk olunur...” Yəhya ibn Muin deyir: “İnanılan şəxs deyil, onun kimi bir kəsdən hədis nəql olunmaz”.*[578]

Həmçinin Muhəmməd ibn Yusuf, Nəcaşi öz “Rical”ında onun zəif olduğunu bildirir: *“Hədis eşidib, ömrünün sonlarında fikirlərini qarışdırırdı... Şeyxi gördüm, mənim və atamın dostu idi. Ondan çox sözlər eşitdim. Şeyxlərimiz onun “zəif” olduğunu bildirirdilər. Mən də ondan heç bir şey nəql etmədim və hədislərindən çəkindim”.*[579]

Hər iki firqənin rəyinə əsasən, rəvayətin sənədi zəifdir və onu dəlil kimi təqdim etmək düzgün deyil.

**3** – Rəvayətin mətninə nəzər saldıqda da onun saxta olduğunu görmək

---

[577] Tarix, Təbəri, c. 3, s. 550
[578] Lisanul-mizan, c. 6, s. 167
[579] Rical, Nəcaşi, s. 86

mümkündür. Çünki Əbu Bəkr və Öməri müsəlmanlar xəlifə seçmədilər. Əgər Əbu Bəkr barədə bu iddiaya göz yumsaq belə, Ömərin xilafəti barədə bunu iddia etmək qeyri-mümkündür. Çünki onu Əbu Bəkr özündən sonra xəlifə elan etmişdi.

"...*Kitabın buyruqlarını yerinə yetirən, gözəl rəftar edən, sünnəni aşmayan"* iddiasına gəldikdə, bu, Kitaba və digər mənbələrdə yazılan rəvayətlərə tamamilə ziddir. Belə ki, Əbu Bəkrin öz etdiyi əməllərə peşman olmuşdu, gah hökmləri yerinə yetirmir, gah onları bilmirdi. Bunlardan başqa, bacısını Əşəslə evləndirdi, Zəhranın (ə) evinin qapısını yandırdı və burada qeyd etmək istəmədiyimiz bir çox işlərə səbəb oldu... Amma dostu Ömər isə yeniliklər (bidətlər) gətirir və bundan az da olsa çəkinmirdi. Bütün bunlar məktubdakı sözlərin uydurma olduğuna dəlalət edir.

## Üçüncü rəvayət: Əbu Bəkr xilafətə ən çox haqq sahibidir

İhsan Zahir deyir: **"Bir sual qalır: Bəs nə üçün beyət etməkdə günlərlə gecikdi? Buna İbn Əbülhədid cavab verir: "Sonra Əbu Bəkr qalxıb camaata xütbə söylədi, onlardan üzr istəyib dedi: "Həqiqətən də mənə beyət bir ani qərarla oldu və Allah onun şərindən qorudu. Mən fitnə çıxacağından qorxdum. Allaha and içirəm ki, bir gün də olsun (xəlifəliyə) həris olmadım. Elə bir əzəmətli iş öhdəmə qoyuldu ki, buna nə gücüm, nə də taqətim vardı. İnsanlardan daha güclüsünün yerimdə olmasını dilədim".**

**Bu sözlərlə camaatdan üzr istədi və mühacirlər onun üzrünü qəbul etdilər. Əli və Zübeyr dedilər: "Bizi yalnız məşvərət etməməklə qəzəbləndirdin. Biz də Əbu Bəkri buna ən çox layiq şəxs görürük. O, Peyğəmbərin (s) mağara yoldaşı, aramızda ən yaşlısı, Peyğəmbər (s) həyatda ikən camaata namaz qıldırmasını əmr etdiyi şəxsdir".**[580]

---

[580] Şiə və Əhli-Beyt, s. 67

**Müzakirə**

Bu rəvayətə bir neçə cəhətdən irad bildirmək olar:

**1** – İbn Əbülhədid bu rəvayəti Əbu Bəkr Əhməd ibn Əbdüləzizdən nəql edir. O isə sünni alimidir. Buna onun hədis, elm və ədəb dərsi aldığı şeyxləri də şahidlik edir. Onların arasında nə sonradan, nə də əvvəldən şiə olanı yoxdur. İbn Əbülhədidin ondan nəql etdiyi rəvayət şiəyə dəlil sayılmaz. Bunu əvvəldə də qeyd etmişdik.

**2** – İbn Əbülhədidin özü də sünni alimidir və mötəzilidir. Mötəzilənin iki firqəsi var: bu firqələrdən biri Əbu Bəkri fəzilətli bilib hamıdan önə keçirir, digəri isə Əlini (ə) hamıdan üstün tutur. İbn Əbülhədid ikinci firqədəndir. Onun İmamiyyə şiəsi olduğunu iddia etməyin mənası yoxdur. O, sadəcə Əlini (ə) üstün bilən bir sünni idi. Onun barəsində kitabın girişində İhsan Zahirin bəhs üslubundan danışarkən söhbət açmışıq.

İhsan Zahirin İbn Əbülhədidi şiələrə nisbət verməsi və səbəbini izah etməməsi ya onun cahilliyinə və terminləri anlamadığına dəlildir, ya da adəti üzrə oxucunu aldatmağa yönəlmiş saxtakarlığıdır.

**3** – Rəvayətdə nəzərdən qaçmış qeydlər var. Həmin qeydlər Əlinin (ə) və Fatimənin (ə) Əbu Bəkrdən narazılıqlarına, Allah övliyalarının ehtiramına və Peyğəmbər (s) qızının evinə təcavüz olunduğuna işarə edir. Belə ki, evə hücum, İmam Əlinin (ə) və Zübeyrin qılıncının sındırılması, məcbur edilərək və güc tətbiq olunaraq Əbu Bəkrin yanına aparılmaları, beyətin onlarla məşvərət olunmadan baş verdiyi üçün onlara qəzəblənmələri sübuta yetmiş hadisələrdir. Ancaq İhsan Zahirin dəlil olaraq göstərdiyi *"...Biz də Əbu Bəkri buna ən çox layiq şəxs görürük. O, Peyğəmbərin (s) mağara yoldaşı, aramızda ən yaşlısı, Peyğəmbər (s) həyatda ikən camaata namaz qıldırmasını əmr etdiyi şəxsdir"* sözləri şiə və sünnilərin icmasına əsasən də batildir. Çünki doğruluğu isbat olunduğu təqdirdə mağarada yoldaşlığın, müsəlmanlara pişnamazlığın və aralarında Əbu Bəkrdən daha yaşlısı olduğu halda qocalığın xəlifəlik və fəzilət üçün

meyar olacağını kimsə iddia etməyib.

**Dördüncü rəvayət: Biz Əbu Bəkri xilafətə layiq bilirik**

İhsan Zahir deyir: “**Əli ibn Əbu Talib (r) buna bənzər sözləri Əbu Süfyan onu xilafəti geri almaq üçün təşviq edərkən də söyləmişdir. Bunu İbn Əbülhədid qeyd edir: “Əbu Süfyan Əlinin (ə) yanına gəlib dedi: “Bu işə (xilafətə) Qüreyşin ən zəlil tayfasını seçdiniz. Ancaq, Allaha and olsun ki, əgər istəsən, Əbu Füseylin üstünə atlı və piyadaları cəlb edərəm”. Əli (ə) dedi: “İslam və müsəlmanlar yuva qurarkən onlara heç bir şeylə əsla zərər vermədim. Sənin atlı və piyadalarına ehtiyacımız yoxdur. Əgər biz Əbu Bəkri xilafətə layiq bilməsəydik, xilafəti əsla tərk etməzdik”.**[581]

**Müzakirə**

Buna bir neçə cavab vermək olar:

**Birinci cavab: Əhli-sünnə rəvayətidir**

Rəvayət ibn Əbülhədidin vasitəsilə nəql olunur. O da bunu Əbu Bəkr Əhməd ibn Əbdüləzizdən rəvayət edir. Əvvəlki rəvayətə cavabda deyildiyi kimi, bunların hər ikisi sünni alimidir. Həmin cavabı burada təkrarlamaq istəmirik.

**İkinci cavab: Bu rəvayətə istinad və etimad etmək düzgün deyil**

Rəvayəti etibardan salacaq bir neçə amil var. Onlardan:

**1 – Mürsəl olması**

İhsan Zahirin İbn Əbülhədiddən nəql etdiyi bu rəvayətə etimad etmək

[581] Şiə və Əhli-Beyt, s. 49-50

olmaz. İbn Əbülhədid rəvayəti Cövhəridən[582] nəql edir. Cövhəri isə onu mürsəl olaraq nəql etmişdir. Rəvayət mürsəl olduğuna görə, onu dəlil kimi təqdim etmək olmaz.

**2 – Bu rəvayətin İbn Əbcərdən nəql edilən digər nüsxəsi də onu mürsəl olmaqdan çıxarmır**

**Əgər deyilsə:** Bu rəvayət həmçinin Əbdülməlik ibn Səid ibn Həyyan ibn Əbcərdə bitən ravi zənciri ilə də nəql edilib. Bunu "əl-Müsənnəf" kitabında Əbdürrəzzaq Sənani[583] və "İstiab" kitabında İbn Əbdülbərr[584] qeyd ediblər.

**Cavabında deyirik:** Bunu İhsan Zahir öz kitabında qeyd etməsə belə, İbn Əbcərdə bitən ravi zənciri ilə nəql olunun həmin hədisə etimad etmək mümkün deyil. Çünki İbn Əbu Əbcər öz hədislərini Şəbidən və digər[585] tabeinlərdən rəvayət edirdi. Bu səbəbdən Əbu Süfyanla İmam Əli (ə) arasında baş vermiş söhbətə şahid olan şəxsin kimliyi yenə də naməlum qalır. Çünki Əbu Əbcər hadisəyə şəxsən şahid olmayıb. Bəs belə olduqda necə *"Əbu Süfyan Əlinin (ə) yanına gəlib..."* deyə rəvayət edə bilər?!

**3 – Sənədinin zəifliyi**

**Əgər deyilsə:** Bu rəvayət sonu İbn Əbu Əbcərdə bitməyən başqa bir yolla da nəql edilib. Hakim Nişapuri "Müstədrək"də Mərv hakimi Abdullah ibn Hüseyndən, o da Haris ibn Əbu Üsamədən, o da Muhəmməd ibn Sabiqdən, o da Malik ibn Miğvəldən, o da Əbu Şəsa Kindidən, o da Mürrə Tayyibdən rəvayət edib.

**Cavabında deyərik:** Bunu İhsan Zahir kitabında qeyd etməyib. O, yalnız İbn Əbülhədid Mötəzilinin "Nəhcul-bəlağənin şərhi" kitabında nəql etdiyi rəvayətlə kifayətlənib. Lakin buna da göz yumsaq, "Müstədrək"dəki

---

582 Nəhcul-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 1, s. 40
583 Bax: əl-Müsənnəf, Əbdürrəzzaq Sənani, c. 5, s. 451
584 Bax: əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 974
585 Bax: Təhzibul-kəmal, Mizzi, c. 18, s. 313

rəvayət barədə deyə bilərik: Haris ibn Əbu Üsamə – İbn Cövzinin sözlərinə əsasən, zəif ravidir. İbn Cövzi bunu özünün "əz-Zuəfa vəl-mətrukin" kitabında qeyd edib. Orada deyir: *"Haris ibn Əbu Üsamə Bağdadi. Əzdi onun barəsində deyir: "Zəifdir, şeyxlərimizdən heç birinin ondan hədis rəvayət etdiyini görmədim".*[586]

Həmçinin İbn Muin də rəvayətin ravilərindən birinin – Muhəmməd ibn Sabiqin zəif olduğunu bildirib.[587]

Buna əsasən, rəvayətin sənədində iki zəif şəxs var ki, onların da zəif olduqlarını İbn Muin və İbn Cövzi kimi böyük rical alimləri qeyd edirlər.

**Nəticə:**

İhsan Zahirin qeyd etdiyi və dəlil olaraq göstərdiyi rəvayətə etimad etmək mümkün deyil. Həmçinin, həmin rəvayəti nəql edən Hakimin, İbn Əbdülbərrin də rəvayətləri belədir. Bir cəhətdən mürsəl (İbn Əbülhədidin nəql etdiyi rəvayət), digər cəhətdən də Hakim və İbn Əbdülbərrin qeyd etdikləri kimi, zəif olan rəvayətə necə etimad etmək olar?!

**Üçüncü cavab: Bir çox Quran ayələrinə və hədislərə zidd olması**

İhsan Zahirin İbn Əbülhədiddən nəql etdiyi rəvayəti bir çox ayə və hədislər inkar edir, Əbu Bəkrin Peyğəmbərdən (s) sonra xilafətə layiq olmadığını qeyd edir.

**Quran ayələri**

**Birinci: İmam təyin etmə ayəsi**

Hikmət sahibi Allahın ayələrinə müraciət edən şəxs imamət və ümmətə rəhbərlik məqamı üçün xüsusi şərtlərin qeyd edildiyini görəcək. Bunlardan biri həmin şəxsin özünə və başqalarına qarşı, Allaha təslim

---

[586] əz-Zuəfa vəl-mətrukin, İbn Cövzi, c. 1, s. 179

[587] Bax: Kitabu təqribit-təhzib, c. 2, s. 77

olmazdan əvvəl və sonra zülmkar olmamasıdır. Bu məna Uca Allahın ayəsində birbaşa qeyd edilir: ***“Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) “Səni insanlara imam (rəhbər, başçı) təyin edəcəyəm”, -dedi. (İbrahim isə:) “Nəslimdən necə?” -deyə soruşdu. (Allah onun cavabında:) “(Sənin nəslindən olan) zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar”, – buyurdu”.***[588]

Ayə, imamətin Allahın bir əhdi olduğunu bildirir, bu məqama həyatının bir anında – keçmişdə, hazırda və ya gələcəkdə zalım və ya müşrik olan kəsin nail olmayacağını bəyan edir.

Diqqət yetirilməli məqam budur ki, İbrahim (ə) məsum bir peyğəmbər olduğuna görə hazırda zalım olan və ya nəticədə zalım olacaq şəxs üçün əsla bu məqamı istəməzdi. Bu səbəbdən də o, həmin məqama şəni münasib olan, zülm etməyən və gələcəkdə də etməyəcək şəxsin təyin olunmasını diləyir.

Buna onun bütün müşrik və Allah düşmənlərinə qarşı apardığı qəti mübarizəsi də dəlalət edir. Çünki o, ulul-əzm peyğəmbərlərdəndir. Uca Allah onun barəsində buyurur: ***“İbrahimin öz atası üçün bağışlanma diləməsi isə ancaq ona verdiyi bir vədə görə idi. Atasının Allaha düşmən olması İbrahimə aydın olduqda o öz atasından uzaqlaşdı (onunla bütün əlaqələrini kəsdi). Həqiqətən, İbrahim (Allaha çox dua edərək) yalvarıb-yaxaran və həlim xasiyyətli bir zat idi”.***[589]

Uca Allah imamət və rəhbərlik məqamına ömrünün hətta bir anında belə zülm edən şəxsin layiq olmayacağını bəyan edir. Buna əsasən, imamət məqamı bütün həyatı boyu zülmdən qorunmuş şəxslərin haqqı olur.

Cəssas deyir: *“İbrahim (ə)* ***“Nəslimdən necə?”*** *sözü ilə Uca Allahdan övladlarından imamlar təyin etməsini dilədi. Çünki bu sual özündən əvvəlki*

---

[588] Bəqərə124
[589] Tövbə, 114

*cavaba bağlanır və: "Nəslimdən necə? İmam təyin edəcəksən?" mənasını daşıyır, bununla da nəslindən imamların olub-olmayacağını bilmək istəyir.*

*Uca Allah onun cavabında buyurur:* ***"Zalımlar mənim əhdimə (imamlığa) nail olmazlar".*** *Bu cavab özündə iki mənanı ehtiva edir: birinci, onun nəslindən imamların olacağı, ikinci isə onun nəslindən zalımların bu əhdə nail olmayacaqlarıdır. İki mənadan hər ikisinin iradə olunması da mümkündür. İbrahimin (ə) bu sualı nəslindən imamların olacağı və bunun ona bildirilməsi barədə idi. Beləliklə sualına cavab verilir. Əgər sualına müsbət cavab verməsəydi, Uca Allah o zaman: "Sənin nəslindən imamlar olmayacaq", və ya "Əhdimə nəslindən heç kəs nail olmayacaq" deyər və* ***"zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar"*** *buyurmazdı. Bu cavabda onun nəslindən imamların olacağı təsdiqlənir və* ***"zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar"*** *sözü ilə nəslindəki zalımların imam olmayacağı və onların rəhbər təyin edilməyəcəyi bildirilir. Süddinin Uca Allahın* ***"zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar"*** *sözü barədə "Bu, nübuvvətdir", Mücahidin isə "Uca Allah zalımın imam olmayacağını bildirmək istəyib" dediyi qeyd edilir".*[590]

Təbəri deyir: *"İbrahimin (ə)* ***"Nəslimdən necə?"*** *sualı* ***"Səni insanlara imam (rəhbər, başçı) təyin edəcəyəm"*** *sözünün qarşılığında söylənir. Məlumdur ki, əgər İbrahimin (ə) sualında məqsəd başqa olsaydı, o zaman həmin məqsəd cümlədə bəyan olunardı. Lakin bu sual əvvəlki sözün məcrasında qeyd edilir. Ona görə də əvvəlki sözün təkrarlanmasından imtina edilib və "Nəslimdən necə?" deyilməklə kifayətlənib. Məna isə budur: "Məni imam təyin etdiyin kimi, nəslimdən də insanlar üçün imam təyin edəcəksən?"*

***"Zalımlar mənim əhdimə (imamlığa) nail olmazlar"*** *sözünün izahına gəldikdə isə, Uca Allah zalım şəxsin xeyirxah insanları özünə tabe edəcək bir imam olmayacağını bildirir. Bu, İbrahimin (ə) sualının cavabıdır. Uca Allah onun nəslindən imamlar təyin edəcəyini bildirir, lakin onlardan zalımları*

---

[590] Əhkamul-Quran, Cəssas, c. 1, s. 84

*istisna edir. Belə kəslərə övliyalar üzərində rəhbərlik məqamı verilməz. İmamət yalnız Allahın dostları və itaət əhli üçündür, Allaha düşmən olan və küfr edənlər üçün deyil".*[591]

Uca Allah zülmü hər hansı bir zamanla qeyd etmədi. Həmçinin, zülmü mütləq mənada işlətdi. Mütləq məna isə ümumən bütün zülm növlərinə aiddir. İstər şəxs zülm edib sonradan tövbə etsin, istər hal-hazırda zülm etsin və istərsə də Allahın elmində gələcəkdə zülmkar şəxslərdən olsun.

**İkinci: Allaha, peyğəmbərə və əmr sahiblərinə itaət ayəsi**

Qeyri-məsum şəxsin imamət və rəhbərliyə layiq olmadığını bildirən digər Quran ayəsi isə budur: ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"***[592] Əmr sahibinə (ulul-əmrə) itaət əmri Allaha və rəsuluna itaətlə birgə qeyd edilir. Belə insan isə yalnız məsum şəxs ola bilər. Çünki məsum olmasa, onun bütün əmrlərinin düzgün və Allahın göstərişlərinə uyğun olduğu qətiləşməz. Uca Allah Öz göstərişlərinə zidd hökmlərə itaət etməyi bizə necə əmr edər?! Əbu Bəkrin məsum olduğunu isə heç kəs iddia etməyib, bununla da xilafətə layiq olmur.

Əmr sahibinin məsum olmasını təsdiqləyən digər bir dəlil Fəxri Razinin sözləridir: *"Bunun dəlili isə, ayədə Uca Allahın əmr sahibinə itaəti əmr formasında buyurmasıdır. İtaətini əmr yolu ilə Allahın vacib buyurduğu şəxsin isə qəti şəkildə xətadan qorunmuş olması lazımdır. Əgər xətadan məsum olmasa, xəta etdiyi təqdirdə belə Uca Allah ona tabe olmağı əmr etmiş olur. Bu isə həmin xətanı yerinə yetirmək əmridir. Xəta özlüyündə bir yanlış olduğu üçün (Allah tərəfindən də) qadağan edilib. Bu zaman əmrlə qadağa bir yerdə və bir feldə cəmləşmiş olacaq. Belə bir hökm isə qeyri-mümkündür. Uca Allahın əmr sahibinə itaəti əmr etdiyi sübuta yetib, həmçinin Allahın*

---

[591] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 1, s. 737

[592] Nisa, 59

*itaətini vacib buyurduğu şəxsin də xətalardan məsum olması isbat olunub. Bununla da ayədə qeyd edilən əmr sahibinin qəti olaraq məsum olması lazımdır”.*[593]

Qurani-Kərimdə qeyri-məsumun imamətə layiq olmadığını bildirən başqa ayələr də mövcuddur.

**Hədislərdən dəlillər**

Peyğəmbər (s) İmam Əlinin (ə) vilayətini bəyanını bir hədis, bir zaman və bir məkanla məhdudlaşdırmayıb. Bu barədə əlimizdə bir çox səhih hədis və rəvayətlər var. Onlardan bəzisi hər iki firqənin nəzərində mütəvatir hədis səviyyəsindədir. Həm kəlmələri və həm də dəlalətləri aşkar şəkildə İmam Əlinin (ə) vilayətini bəyan edir. Bəzilərini nümunə olaraq qeyd edək:

**Birinci: Mütəvatir “Qədir-Xum” hədisi**

Mütəvatir “Qədir-Xum” hədisi aydın şəkildə Peyğəmbərdən (s) sonra vilayətin yalnız İmam Əliyə (ə) məxsus olduğunu bəyan edir. Bunu Əhməd[594], İbn Şeybə[595], İbn Əbu Asim[596], İbn Macə[597], Tirmizi[598], Nəsai[599],

---

[593] ət-Təfsirul-kəbir (Məfatihul-ğeyb), Fəxr Razi, c. 10, s. 144

[594] Müsnəd, Əhməd ibn Hənbəl, s. 84, 118, 119, 152, 331; c. 4, s. 281, 368, 370, 372; c. 5, s. 347, 366, 370, 419

[595] əl-Musənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 496, “Fəzailu Əli”, hədis: 16, 29, 55, 69

[596] əl-Ahad vəl-məsani, İbn Əbu Asim, c. 4, s. 326, hədis 2357, 2358, 2359; Kitabus-sunnə, s. 552

[597] Sünən, İbn Macə, c. 1, s. 45; Fazlu Əli ibn Əbi Talib, hədis 121

[598] Sünən, Tirmizi, c. 5, s. 297; Mənaqibu Əli ibn Əbi Talib, hədis 3797

[599] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 45; Fəzailu Əli ibn Əbu Talib, hədis 1844, 1845, 1848, 1849; Zikru mənziləti Əli ibn Əbi Talib, hədis 8397, 8399; “Peyğəmbərin (s): “Mən kimin mövlasıyam Əli də onun mövlasıdır” sözü” babı, hədis 8464, 8465, 8466, 8467, 8468, 8469, 8470, 8471, 8472, 8473; ət-Tərğib fi muvalati Əli ibn Əbi Talib (r) vət-tərhib fil-muadatih, hədis 8478, 8479, 8480, 8481; ət-Tərğib fi hubbi Əli və zikru duain-Nəbi (s) limən əhəbbəhu və duahu əla mən əbğazəh, hədis 8483, 8484; Xəsaisu Əmiril-muminin, s. 50, 64, 94, 95, 96, 100, 104; Fəzailus-sahabə, s. 14, “Fəzailu Əli ibn Əbi Talib”.

Əbu Yəla Mosuli[600], Dulabi[601], İbn Hibban[602], Təbərani[603], Hakim[604] və digər böyük hədis alimləri qeyd etmişlər.

Əbu Həmid Ğəzzali hədisin mütəvatirliyini qeyd edərək deyir: *"Bütün böyük alimlər Peyğəmbərin (s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır", eləcə də Ömərin Əliyə: "Bəh-bəh, ey Möminlərin əmiri! Mənim, hər bir mömin kişi və qadının mövlası oldun" sözlərinin müvafiq olaraq hökm, təslimiyyət və razılıq olduğunu qeyd ediblər. Ardınca hakimiyyət sevgisi nəfslərə qalib gəldi, xilafət təməllərinə və əhdlərə hücum edildi, həvaye-nəfs bayraqları yelləndi, izdiham miniyini itirdi. Yenidən əvvəlki ixtilaflara qayıtdılar, xilafəti ucuz qiymətə alıb bellərinin arxasına atdılar".*[605]

### İkinci: "Səqaleyn" hədisi

Şiə və sünni firqələri arasında "Səqaleyn" hədisinin mütəvatirliyi məlumdur. Onun Peyğəmbər (s) tərəfindən söyləndiyinə və məna dəlalətinə heç bir şəkk yoxdur. Belə ki, bu hədis bir çox yollarla hər iki firqənin mötəbər hədis kitablarında qeyd edilib. Müslim bunu Zeyd ibn Ərqəmdən nəql edib: *"Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinə arasında yerləşən, Xum deyilən yerdə qalxıb aramızda dayanaraq xütbə söylədi. Allaha həmd-səna deyib, moizə etməyə başladı. Sonra buyurdu: "Ey camaat, mən də bir bəşərəm, Rəbbimin elçisinin (ölüm mələyinin) gələcəyi və mənim də müsbət cavab verəcəyim gün yaxındadır. Sizin aranızda iki ağır əmanət*

---

[600] Müsnəd, Əbu Yəla, c. 1, s. 428, hədis 567; c. 11, s. 307, hədis 6423

[601] əz-Zurriyyətut-tahirə, Muhəmməd ibn Əhməd Dulabi, s. 168

[602] Səhih, İbn Hibban, c. 15, s. 375

[603] əl-Möcamul-kəbir, Təbərani, c. 3, s. 179, hədis 3049, 352; c. 4, s. 17, 173, 174; c. 5, s. 166, 170, 171, 175, 191, 192, 193, 194, 195, 202, 204, 212; c. 12, s. 77; c. 19, s. 291; əl-Möcamul-övsat, c. 1, s. 111, c. 2, s. 24, 275, 324, 369; c. 6, s. 218; c. 7, s. 80; c. 8, s. 213; əl-Möcamus-sağir, c. 1, s. 65, 81; Müsnəduş-şamiyyin, c. 3, s. 222, hədis 2127

[604] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 109, 110, 112, 134, 371, 533

[605] Sirrul-aləmin, Əbu Həmid Ğəzzali, s. 21

*qoyuram: onlardan birincisi Allahın kitabıdır. Orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".*

*Sonra insanları Allahın kitabına rəğbətləndirib təşviq etdi. Ardınca dedi: "Və Əhli-Beytim! Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram!"*[606]

Həmçinin Tirmizi Zeyd ibn Ərqəmdən bir az fərqli kəlmələrlə nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda əmanət qoyuram. Əgər ondan yapışsanız məndən sonra azmayacaqsınız. Onlardan biri digərindən əzəmətlidir. Allahın kitabı – səmadan yerə uzanmış bir kəndirdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuzun başında yanıma varid olanadək əsla bir-birlərindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin!"*[607]

Əhməd ibn Hənbəl isə Zeyd ibn Sabitdən nəql edir: *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda iki xəlifə qoyuram: Allahın kitabı – göylə yer arasında uzanmış bir ipdir (və ya göylə yer asında olandır) və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma daxil olanadək bir-birindən ayrılmazlar".*[608]

Əbu Səid Xudridən: *"Mən sizin aranızda iki ağır əmanət qoyuram, biri digərindən böyükdür: Allahın kitabı – göydən yerə uzanmış bir ipdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuz başında yanıma daxil olanadək bir-birindən ayrılmazlar".*[609]

Həmçinin İbn Əbu Asim, Nəsai, Beyhəqi,[610] Təbərani, Hakim, Heysəmi[611]

---

[606] Səhih, Müslim, c. 7, s. 122 (123)

[607] Sünən, Muhəmməd ibn İsa Tirmizi", c. 5, s. 329

[608] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 182. Heysəmi "Məcməuz-zəvaid"də (c. 9, s. 162) deyir: *"İstinadı yaxşıdır (səhihlə həsən arasındadır)".*

[609] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 14

[610] əs-Sünənul-kubra, Beyhəqi, c. 7, s. 30

[611] Bax: Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 163. Bu barədə deyir: *"Bunu Əhməd rəvayət edib və istinadı yaxşıdır (səhihlə həsən arasındadır)".*

və digərləri də bu rəvayəti qeyd edirlər. Hətta Dəhləvi kimi şiəyə qarşı şiddətli təəssübü ilə tanınanlar da hədisin səhihliyini etiraf edirlər. O, özünün "Muxtəsərut-tuhfətil-isna əşəriyyə" kitabında yazır: *"Peyğəmbər (s) buyurur: "Mən sizin aranızda iki ağır əmanət qoyuram. Əgər onlardan yapışsanız, məndən sonra azmayacaqsınız. Biri digərindən əzəmətlidir: Allahın kitabı və itrətim olan Əhli-Beytim".*

*Bu həm şiə və həm də sünni firqələri arasında sübuta yetmiş hədisdir".*[612]

**Dördüncü cavab: İmam Əlinin (ə) sözlərinin beyətdən imtinasına zidd olması**

**"Əgər biz Əbu Bəkri xilafətə layiq bilməsəydik, xilafəti əsla tərk etməzdik"** sözünün İmam Əliyə (ə) məxsus olması qeyri-mümkündür. Çünki bu, Buxari və digərlərinin də baş verdiyini etiraf etdikləri hadisələrlə ziddiyyət təşkil edir. Onlar İmam Əlinin (ə) Əbu Bəkrə uzun müddət beyət etmədiyini qeyd ediblər. Buxari yazır: "*...Lakin o (Xanım Fatimə) vəfat etdikdən sonra camaat Əli ilə münasibətdən çəkindi. Əli Əbu Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi. Əbu Bəkrin yanına adam göndərib təkbaşına onun görüşünə gəlməsini istədi. Bunda məqsədi Ömərin onunla birlikdə gəlməməsi idi".*[613]

Bu rəvayətin müqabilində İhsan Zahirin İbn Əbülhədiddən nəql etdiyi rəvayətin heç bir mənası yoxdur. Belə ki, əgər İmam Əli (ə) Əbu Bəkri xilafətə layiq şəxs kimi görürdüsə, o zaman altı ay boyunca ona beyətdən imtina etməsinin mənası qalmır! Onun qeyd etdiyi rəvayət "Səhih"dəki rəvayəti inkar edir.

[612] Muxtəsərut-tuhfətil-isna əşəriyyə, Şah Əbdüləziz Ğulam Həkim Dəhləvi, Seyyid Mahmud Şükri Alusinin təhqiqilə.

[613] Səhih, Buxari, c. 5, s. 82

**Beşinci cavab: İmamın (ə) başqa sözlərinə zidd olması**

İmamın (ə) iddia olunan bu sözləri onun Əbu Süfyana söylədiyi sözlərlə ziddiyyət təşkil edir. Müaviyə İmam Əliyə (ə) göndərdiyi məşhur məktubunda yazır: *"Dünən (yaxın keçmişdə), Əbu Bəkrə beyət edilən gün, gecə ikən evinin əhlini ulağın üzərinə oturdub, oğulların Həsən və Hüseynin əllərindən tutaraq qapı-qapı gəzdiyini sənə xatırladım. Bədr əhlindən və öndə gedən səhabələrdən hər kəsin evinə gedib onları özünə tərəf dəvət etdin. Xanımınla onların qapılarını döydün, onları Peyğəmbərin yoldaşının yardımına çağırdın. Onlardan yalnız dörd və ya beş nəfəri sənə müsbət cavab verdi. Ömrümə and olsun ki, əgər sən haqlı olsaydın onların hamısı sənin dəvətini qəbul edərdilər. Lakin sən batil iddiada idin və onların bilmədiyi sözləri danışır, anlamadıqları şeyi tələb edirdin. (Digərlərini) unutsam da, səni təhrik və təşviq edən Əbu Süfyana "əgər qırx nəfər əzmkar yardımçım olsaydı bunlara qarşı qalxardım" sözünü unutmamışam. Müsəlmanların vəziyyəti bu gün də elədir və sənin xəlifələrə qarşı üsyanın da ilk və yeni bir şey deyil".*[614]

**Altıncı cavab: Özünün xilafətə daha layiq olduğu iddiasına zidd olması**

İbn Qüteybə yazır: *"Gecə olduqda Əli (k.v.) Peyğəmbərin (s) qızı Fatiməni ulağın üzərində oturdub yardım tələbi üçün ənsarın məclisinə apardı. Onlar artıq Əbu Bəkrə beyət etdiklərini dedilər: "Əgər həyat yoldaşın və Peyğəmbərin (s) əmisi oğlu Əbu Bəkrdən öncə təklif etsəydi, ona beyətdən imtina etməzdik". Əli (ə) dedi: "Deyirsiniz ki, Peyğəmbərin (s) dəfnini tərk edib, camaatın hakimiyyət üstündə mübarizəsinə qoşulardım?!"*

*Fatimə dedi: "Əbülhəsənin etdiyi məhz ona layiq və ondan gözlənilən əməldir. Elə bir iş tutdular ki, Allah buna görə onlardan hesab tələb*

---

[614] Nəhcul-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 2, s. 47

*edəcək".*[615]

Həmçinin İmam Əlinin (ə) sözü: *"İlahi, Qüreyşə və onlara kömək edənlərə qarşı (onlardan intiqam almağa) Səndən kömək istəyirəm. Çünki onlar mənim (Həzrət Peyğəmbərlə) qohumluq əlaqələrimi qırdılar (və məni təyin etdiyi xilafəti qəsb etdilər), mənim qabımı (məqam, dərəcə və abır hörmətimi) dağıtdılar və başqasından daha layiq olduğum haqqa görə mənimlə vuruşmaq üçün bir yerə toplaşdılar. Və dedilər: Bil ki, sənin onu əldə etməyin də haqdır, onun səndən alınması da! İndi istəyirsən qəm-qüssə ilə səbr et, istəyirsənsə də təəssüf və kədərlə öl. (Yəni, xilafətin qəsb edilməsinə razı olmasan səbr etmək və ya ölməkdən başqa bir çarən yoxdur.) Beləliklə, həmin zamanda əhli-beytimdən başqa bir dost, müdafiəçi və köməkçinin olmamasını gördüm, ölümün onları haqlamasına heyfim gəldi (Əhli-Beytimin məhv olmaması üçün dava-dalaşa razı olmadım). Buna görə də tikan batmış gözlərimi yumdum və boğazımda sümük qalmasına baxmayaraq, ağzımın suyunu uddum; qəzəbi yatırmaq üçün (çox acı bir bitki olan) əbucəhl qarpızından da acı olan və ürəyə böyük bıçaqlardan da çox ağrı verən şeyə səbr etdim".*[616]

Şeyx Təbərsi "İhticac"da deyir: *"Rəvayət olunur ki, Möminlərin əmiri (ə) Nəhrivan savaşından qayıtdıqdan sonra bir məclisdə əyləşmişdi. Söhbət əsnasında ondan soruşuldu: "Nə üçün Təlhə, Zübeyr və Müaviyə ilə savaşdığın kimi Əbu Bəkr və Ömərlə savaşmadın?"*

*Buyurdu: "Mən məzlum idim və öz haqqıma sahib deyildim".*

*Əşəs ibn Qeys ayağa qalxıb dedi: "Ey Möminlərin əmiri! Nə üçün qılıncını sıyırıb öz haqqını tələb etmədin?"*

*İmam (ə) buyurdu: "Ey Əşəs, sual soruşdun, indi cavabını dinlə, yadda saxla və ondakı dəlili anlamağa çalış. Mənim üçün altı peyğəmbərin (Allahın salam və salavatı onlara olsun!) nümunəsi var. Onlardan birincisi Nuhdur*

---

[615] əl-İmamətu vəs-siyasəh, İbn Quteybə

[616] Nəhcul-Bəlağə, Seyyid Rəzi, xütbə 218 (208)

*(ə). Rəbbinə belə dua etdi:* ***"Mən (öz qövmümün içində) məğlub oldum, buna görə də (onlardan) intiqam al!"***[617] *Əgər bir kəs onun bu sözü qorxmadığı*[618] *üçün söylədiyini desə, küfr etmiş olar. Belə olduqda vəsi daha üzrlüdür. İkincisi Lutdur (ə):* ***"Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim".***[619] *Əgər bir kəs onun bu sözü qorxmadığı üçün söylədiyini desə, küfr etmiş olar. Belə olduqda vəsi daha üzrlüdür. Üçüncüsü Xəlilullah İbrahimdir (ə):* ***"Mən sizi və sizin Allahdan başqa tapındığınız bütləri tərk edib bir kənara çəkilirəm..."***[620] *Əgər bir kəs onun bu sözü qorxmadığı üçün söylədiyini desə, küfr etmiş olar. Belə olduqda vəsi daha üzrlüdür. Dördüncüsü Musadır (ə):* ***"Buna görə də sizdən qorxub qaçdım"***[621]*..."*[622]

Həmçinin İmam Əlinin (ə) "Şiqşiqiyyə" kimi tanınan məşhur xütbəsindəki sözləri: *"Allaha and olsun ki, filankəs (Əbu Bəkr) mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi (elmdə və əməldə kamillik baxımından) olduğumu bildiyi halda xəlifəliyi köynək kimi əyninə geydi. Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz (ordu və tərəfdarsız) hücum edim (öz haqqımı tələb edim), yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin (fəsadın aradan qalxması üçün) ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa (xalqın azğınlığına) səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim. Mirasımın tarac*

---

[617] Qəmər, 10

[618] Burada qorxudan məqsəd adi insani qorxu deyil, bəlkə də təhlükə qarşısında ilahi vəzifənin tam və kamil yerinə yetirə bilmədiyi üçün dinin ziyan görməsi qorxusudur (tərc.)

[619] Hud, 80

[620] Məryəm, 48

[621] Şuəra, 21

[622] əl-İhticac, Şeyx Təbərsi, c. 1, s. 279

*olunduğunu görürdüm".*[623]

Süleym ibn Qeys deyir: *"Cəməl və Siffin müharibələrində Əlinin (ə) belə dediyini eşitdim: "Mən baxdım, qarşımda ya Allaha və Onun nazil etdiklərinə küfr və inkar, ya da Allah, yaxşılığı əmr etmək, pislikdən çəkindirmək yolunda cihaddan başqa yol olmadığını gördüm. Əgər yardımım varsa, Allaha küfr və inkarın qarşılığında, cəhənnəm odunun qandallarının əllərimizdən açılması üçün Allah yolunda cihadı, yaxşılığı əmr edib, pislikdən çəkindirməyi seçirəm.*

*Mən, Peyğəmbərin (s) vəfatından bəri hələ də məzlumam. Əgər bundan (bu gündən) öncə Kitab və sünnəti diriltmək üçün yardım tapsaydım – necə ki, bu gün tapmışam – əsla oturmazdım, savaşardım".*[624]

Bu və digər dəlillərdən aydın olur ki, Peyğəmbərin (s) vəfatından sonra o, özünün məzlumluğundan və xilafətinin qəsb olunmasından şikayət edir. Bütün bunlarla bərabər Əbu Bəkrin xilafətə layiq olduğunu necə söyləyər?! Ən azından bu iki dəlil bir-birlərinə ziddir. Lakin qeyd etdiyimiz sözlərin İmama (ə) məxsus olduğuna əminik.

**Yeddinci cavab: Daha fəzilətlinin (əfzəlin) fəzilətlidən üstün olması**

Bu sözlərin İmam Əli (ə) tərəfindən söylənməsi mümkün deyil. Çünki belə olan təqdirdə, daha fəzilətli şəxs mövcud olduğu halda rəhbərin fəzilətdə ondan aşağı şəxs olmasını tələb edir. Lakin elm, şücaət, ibadət və digər kamillik xüsusiyyətlərində ümmət arasında Əlidən (ə) fəzilətlisinin olmadığına şübhə yoxdur. Buna, inşallah, qarşıdakı bəhsdə Allahın, Peyğəmbərin (s) və səhabələrin sözləri şahidlik edəcək.

---

[623] Nəhcul-Bəlağə, Seyyid Rəzi, xütbə 3

[624] Kitabu Süleym ibn Qeys (Ali Muhəmmədin sirləri), Süleym ibn Qeys Hilali, hədis 53

O, İmam Əlinin (ə), İmam Həsən, Hüseyn, Zeynəlabidin və Baqirin (ə) xas səhabələrindən olub.

**Səkkizinci cavab: Əbu Bəkrin özünün də xilafətə layiq olmadığını etiraf etməsi**

Əbu Bəkrin belə söylədiyi səhih yolla nəql olunur: *"Ən yaxşınız olmadığım halda sizə rəhbər oldum. Siz məndən Peyğəmbərinizin (s) rəftarını gözləyirsiniz, amma mən belə deyiləm. Peyğəmbəriniz (s) vəhy ilə qorunurdu. Fəqət yanımda məni azdıran Şeytanım var. Əgər bir işi doğru etdiyimi görsəniz mənə yardım edin. Əgər qəzəbləndiyimi görsəniz məndən uzaqlaşın ki, sizin şer və müjdələrinizdən təsirlənməyim".*[625]

Əgər bu sözlərin təvazö və nəfsini kiçik saymaq səbəbindən deyildiyi söylənsə, bu, qeybdən verilən xəbər olar. Şəkk halında belə kəlmələr məcaza deyil, həqiqi mənalara şamil edilir.

**Doqquzuncu cavab: Sözündəki məqsəd layiq olmaq deyil, xəlifə olmaqdır**

Ərəbcə mətndə keçən "Əhliyyət" sözü ilə bəzən başqa mənalar da ifadə edilir.

**Bunun izahı:**

Müsəlmanların üzərini alan sərt küləklər dinin kökünü sarsıtmağa başlamışdı. Vəziyyət artıq ya dinin qorunması, ya da güc hesabına da olsa xilafəti geri almaq arasında seçim tələb edirdi. Şübhə yoxdur ki, xilafət başqasının əlinə keçsə belə, İmam Əli (ə) dinin qorunmasını özünün əsas məqsədi seçəcəkdi. "Xilafətə əhl olmaq" sözü də məhz həmin zaman kəsiyini ehtiva edir.

Buna işarə edən amillər İmam Əlinin (ə) Müaviyə qarşısındakı dəlilləridir. Buyurur: *"Sənin məktubun mənə çatdı. Orada mənim xəlifələrə həsəd etdiyimi və onlardan kənar gəzdiyimi yazırsan. Peyğəmbər (s) vəfat*

---

[625] Tarixul-uməm vəl-muluk, Təbəri, c. 2, s. 460; əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 6, s. 334; Təxricul-əhadis vəl-asar, Zeyləi, c. 1, s. 482; ət-Təbəqatul-kubra, İbn Səd, c. 3, s. 212; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 30, s. 303

*etdikdə müsəlmanlar ixtilafa düşdü. Qüreyşlilər "Başçı bizdən olmalıdır", Ənsar isə "yox, başçı bizdən olmalıdır" deyib iddia etdilər. Qüreyşlilər Peyğəmbərin (s) onlardan olduğunu önə çəkib, xilafətə daha çox haqq sahibi olduqlarını bildirdilər. Bundan sonra Ənsar geri çəkildi və hakimiyyəti qüreyşlilərə buraxdı. Muhəmməd (s) onlardan olduğuna görə qüreyşlilər buna haqq qazandılar. Biz Muhəmmədin (s) Əhli-Beytiyik, o zaman bu məsələdə hamıdan daha çox haqqa sahib bizik... Camaat Əbu Bəkrə beyət edərkən atan Əbu Süfyan yanıma gəlib dedi: "Bu xilafətə sən digərlərindən daha çox layiqsən. Müxaliflərinə qarşı səninlə əlbir olmağa hazıram. Əgər istəsən, Əbu Qühəfənin oğluna qarşı Mədinəni atlı və piyadalarla dolduraram".*

*Müsəlmanlar arasında təfriqə yaranacağından qorxduğum üçün mən bunu qəbul etmədim. Əgər atanın mənim üçün bildiyi haqqı sən də bilirsənsə, o zaman doğru yoldasan. Əgər inkar edirsənsə, ...ona görə də mən hazırda qarşındayam. Vəs-salam!"*[626]

İmamın (ə) "*Müsəlmanlar arasında təfriqə yaranacağından qorxduğum üçün mən bunu qəbul etmədim...*" sözü, Əbu Bəkrin xilafətə əhl olmasını söylədiyi fərz olunduqda, buna səbəb kimi göstərilə bilər. Bunda isə məqsəd iki seçim – Əbu Bəkrin xəlifəliyi və ya müsəlmanların təfriqəyə düçar olması arasında etdiyi seçimdir. Bu isə iki pisdən daha yüngülünü seçməkdir.

**Beşinci rəvayət: Uca Allah Peyğəmbərdən (s) sonra camaatı ən yaxşısının ətrafında topladı**

İhsan Zahir deyir: **"Eynilə bu rəvayətə oxşar digər bir rəvayəti şiələrin alimi Ələmul-Huda özünün "əş-Şafi" kitabında qeyd edir: "Möminlərin əmirindən (ə) "Xilafəti özündən sonra heç kimə vəsiyyət**

[626] əl-Futuh, Əhməd ibn Əsəm Kufi, c. 2, s. 588

**etməyəcəksən? deyə soruşulduqda buyurdu: "Peyğəmbər (s) özündən sonra vəsiyyət etdi ki, mən də vəsiyyət edim?! Əgər Allah camaat üçün xeyir diləsə, onları ən yaxşılarının ətrafına toplayacaq. Necə ki, bunu Peyğəmbərdən (s) sonra etmişdi".**[627]

**Müzakirə**

**1** – Bu rəvayəti Seyyid Mürtəza (Ələmul-Huda) "əş-Şafi" kitabında qeyd edir. Lakin öz kitabında qeyd etməsi onun doğruluğuna etiqad bəslədiyi demək deyil. Bu rəvayəti yalnız rədd etmək üçün kitabında zikr edir. Ancaq İhsan Zahir onu dəlil kimi təqdim edərək **"Bu rəvayət şiələrin kitablarında varid olub!!"** deyir. Oxucunu aldatmaq və çaşdırmaq üçün bu da onun saxtakarlıq üslublarından biridir.

Başqa yerdə deyir: **"Mən öz iddialarımı sübut etmək üçün yalnız şiə kitablarından dəlillər göstərəcəyəm".** Ancaq bu sözündən sonra mənbəyi sünni kitabları olan rəvayətlər nəql edir və bunların şiə kitablarında olduğunu söyləyir. Şiə kitablarında olan bu rəvayətləri şiə alimləri yalnız rədd etmək üçün öz kitablarında qeyd edirlər. Bu isə onun şiə əqidəsinə müxalif olduğunun növbəti dəlilidir. Lakin İhsan Zahir həmin rəvayəti şiənin əleyhinə dəlil göstərməyə çalışır. İhsan Zahirin etdiyi bu əməl sanki Quranda "Muhəmməd (s) Allahın rəsulu deyil" kimi ayə var iddiasına bənzəyir. Belə ki, Uca Allahın ayələrindən birində ***"O, peyğəmbər deyil"*** deyə buyurulur. Halbuki bu, ayənin axışına diqqət yetirilmədən cümlədən çıxarıldıqda belə məna verir. Ayə isə öz tam mənasında kafirlərin dilindən nəql edilir: ***"Kafirlər "O, peyğəmbər deyil" – deyirlər".***

Qısaca, bu rəvayət şiəyə qarşı dəlil göstərilə bilməz. Çünki sünnilərin öz rəvayətləridir və şiə kitablarından nəql edilmir.

**2** – Bu sözlərin İmam Əlinin (ə) söylədiyi qəti deyil. Çünki "Qədir-Xum", "Səqaleyn", "Mənzilət" və s. bu kimi bir çox mütəvatir və açıq mənalı

---

[627] Şiə və Əhli-Beyt, s. 51

hədislər bunun əleyhinə şahidlik edir. Uydurma olduğuna insanda yəqin yaradan amillərdən biri rəvayətin Əbu Bəkrin Əlidən (ə) fəzilətli olduğuna dəlalət etməsidir. Bu isə Əlinin (ə) Peyğəmbərdən (s) sonra bütün səhabələrdən ən üstün olduğuna dəlalət edən səhih və aydın mənalı hədisləri inkar edir.

Belə rəvayətlərdən bəzilərini kitabda artıq qeyd etmişik.

**Altıncı rəvayət: İki xəlifə hidayət imamları və İslamın şeyxləridir**

İhsan Zahir deyir: **"Bu, Əli ibn Əbu Talibdir. Peyğəmbərin (s) vəfatından sonra ümmətin ən saleh, ən yaxşı və Peyğəmbərdən (s) sonra məxluqların ən üstününün ətrafında necə toplandığı kimi, özündən sonra da tərəfdarlarının ən yaxşısının ətrafında cəm olmasını diləyir. Həmin şəxs Əbu Bəkr siddiqdir – hidayət imamı, İslamın şeyxi və qüreyşli xəlifə. Peyğəmbər (s) qızının həyat yoldaşı, Əhli-Beytin seyyidi Əli (r) də onun ardınca getmişdir. Necə ki, bunu Ələmul-Huda Seyyid Mürtəza öz kitabında deyir: "Cəfər ibn Muhəmməddən, o da atasından rəvayət edir ki, bir qüreyşli kişi Möminlərin əmirinin (ə) yanına gəlib dedi: "Bir az əvvəl söylədiyin xütbədə "İlahi, iki raşid xəlifəni islah etdiyin kimi bizi də islah et" dediyini eşitdim. Bu iki nəfər kimdir?**

**Buyurdu: "İki əzizim və əmim Əbu Bəkr və Ömərdir – hidayət imamları, İslamın şeyxləri, qüreyşin ağsaqqalları, Peyğəmbərdən (s) sonra itaət olunan şəxslər. Kim onlara tabe olsa günahdan qorunar, onların ardınca gedənlər siratul-müstəqimə hidayət olunarlar".**[628]

---

[628] Şiə və Əhli-Beyt, s. 51. Şeyx Tusinin "Təlxisuş-şafi" kitabından nəql edilərək, c. 2, s. 428

**Müzakirə**

Bu da özündən əvvəlki kimi əhli-sünnə rəvayətidir və şiələrin heç bir hədis kitablarında varid olmayıb. Seyyid Mürtəza bunu özünün "əş-Şafi" kitabında Qazi Əbdülcabbar Mötəzilinin sözü kimi nəql edib. Qazi Əbdülcabbar isə əhli-sünnə alimidir, hədis kitablarında olan bu və digər rəvayətləri öz kitabında qeyd edərək bununla Əbu Bəkrin xilafətinin düzgünlüyünü isbat etməyə çalışıb. Məlum olduğu kimi, Seyyid Mürtəza özünün "əş-Şafi" kitabını Qazi Əbdülcabbar Mötəzilinin iddialarına rəddiyyə olaraq qələmə alıb. Seyyid kitabında əvvəlcə Qazi Əbdülcabbarın fikirlərini qeyd edir, ardınca da onlara cavab verir. (Eynilə müəllifdən bu kitabda izlədiyimiz üslub kimi – Tərc.). İhsan Zahir kitabda Qazi Əbdülcabbardan nəql edilən hissəni götürmüş və oxucuda həmin sözlərin Seyyid Mürtəzaya məxsus olduğu təsəvvürünü yaratmaqla bunu şiə əleyhinə dəlil kimi göstərməyə cəhd etmişdir. Özünə necə də ziyanlı tədarük toplayıb! Necə də insanları axmaq zənn edib! Şeyx Tusinin qələmə aldığı "Təlxisuş-Şafi" kitabı isə adından da məlum olduğu kimi, ustad Seyyid Mürtəzanın kitabının xülasəsidir.

Bundan başqa, rəvayətdə yalan və uydurma əlamətləri aydın görünür. Hansı insaflı şəxs düşünə bilər ki, Əbu Bəkrə tabe olan şəxs günahdan qorunacaq. Halbuki əvvəlki hədisdə qeyd etdiyimiz kimi, Əbu Bəkr özü barəsində *"...Fəqət yanımda məni azdıran Şeytanım var. Əgər bir işi doğru etdiyimi görsəniz mənə yardım edin. Əgər qəzəbləndiyimi görsəniz məndən uzaqlaşın..."*[629] deyir.

İnsan nə qədər də insafsız olsa, Əli (ə) kimi bir şəxsiyyətin Əbu Bəkr və Ömərin ardınca getdiyini qəbul edə bilərmi? O, Allahın bütün pislik və çirkinlikləri uzaqlaşdırıb pak-pakizə qərar verdiyi Əhli-Beytdəndir (ə). Onlar Allahın kitabını bilməkdə insanların ən elmliləri, Allahın ən sevimli və ən yaxın məxluqları, Qurana bərabər şəxslər, yerlə səma arasında

---

[629] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 30, s. 304

uzadılmış Allahın qırılmaz ipi, nicat gəmisidirlər. Kim onlardan üz döndərsə qərq olar, çaşqınlıq və zəlalət vadilərində sərgərdan qalar. ***"De: "Allah (insanları) haqq yola yönəldir. Belə olduqda doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?"***[630]

Hədis mənbələrindəki rəvayətlər bütün müşkül və çətinliklərdə ümmətin İmam Əliyə (ə) ehtiyac duyduğunu bəyan edir. Halbuki onun nə xəlifələrə və nə də başqalarına ehtiyacı olmayıb. Hansı tabeçilikdən və ardınca getməkdən söhbət gedə bilər? Onların bəzilərindən İmam Əlinin (ə) digər səhabələrdən üstünlüyü barədə soruşulduqda deyiblər: Onun heç kimə ehtiyacı yox idi, lakin hamı ona möhtacdı.

**Xülasə:** Bu rəvayətləri şiənin əleyhinə dəlil göstərmək mümkün deyil. Bunların yalan olduqları qətidir. Rəvayətlərin məzmunu Qurana, sünnəyə, məntiqə və tarixə ziddir. Çünki Əbu Bəkrə, Ömərə və digər səhabələrə Əhli-Beytə (ə) tabe olmaq, onları izləmək və onlara müraciət etmək əmr edilmişdi, bunun əksi deyil. Lakin qeyd edilən əhli-sünnə rəvayətləri bunun əksini iddia edir.

### Yeddinci rəvayət: İlk iki xəlifə Peyğəmbərdən (s) sonra ümmətin ən yaxşılarıdır

**İmam Əlinin (ə) Əbu Bəkr və Ömərdən razılığına dəlil olan digər rəvayət Seyyid Mürtəzanın "əş-Şafi" əsərində qeyd etdiyi xütbədir. İmam Əli (ə) buyurur: "Həqiqətən də Peyğəmbərdən (s) sonra bu ümmətin ən yaxşıları Əbu Bəkr və Ömərdir. Nə üçün həmin şəxs bu hadisəni demir: Biz Peyğəmbərlə (s) birlikdə Hərra dağında olarkən**

[630] Yunus, 35

**dağ titrədi. Peyğəmbər (s) dağa buyurdu: "Yerində dur, sənin üzərində peyğəmbər, siddiq və şəhid dayanıb".[631]**

**Müzakirə**

**1** – Seyyid Mürtəzanın İmam Əlidən (ə) rəvayət etdiyi bu xütbədəki **"Həqiqətən də Peyğəmbərdən (s) sonra bu ümmətin ən yaxşıları Əbu Bəkr və Ömərdir"** sözləri müəllifə atılmış aşkar iftiradır. Belə ki, Seyyid həmin sətirlərdə Qazi Əbdülcabbarın sözlərini rədd etməkdədir. Bu səbəbdən əvvəlcə irad bildirəcəyi iddianı kitabında qeyd edir. Lakin İhsan Zahir Seyyidin Qazi Əbdülcabbardan nəql etdiyi parçanı götürərək Seyyid Mürtəzanın sözü kimi təqdim edib.

Halbuki həqiqət heç də belə deyil. Həmin sözlər "əl-Muğni fit-tovhidi vəl-ədl" kitabının müəllifi Qazi Əbdülcabbar ibn Əhməd ibn Əbdülcabbar Həmədaniyə məxsusdur. O, qələmə aldığı kitabın sonuncu fəslini imamət mövzusuna həsr edib, Seyyid Mürtəza da onun həmin fəsildəki batil fikirlərinə iradlarını qələmə aldığı "əş-Şafi" kitabında yazıb. İrad bildirilərkən əvvəlcə batil iddianı qeyd etmək, ardınca da öz dəlil və fikirlərini söyləmək təbii qəbul edilmiş faktdır.

Məsələnin tam aydınlaşması üçün Seyyid Mürtəzanın bu sözlərə verdiyi cavabı təqdim edirik: *"...Bu rəvayət həmin cəhətlərə ziddir. Onun əvvəli qeyd edilməmiş, kəsilmiş hissə dəlil kimi göstərilmişdir. Belə ki, Muaz ibn Hərs Əftas bunu Cəfər ibn Əbdürrəhman Bəlxidən nəql edib. Həmin şəxs isə Osmanidir. Yəni Osmanı Möminlərin əmiri Əlidən (ə) üstün bilirdi. Ardınca qeyd edilən digər raviyə gəldikdə, bu, Əbu Xəbbab Kəlbidir. O da həmçinin Osmanidir. Əbu Xəbbab bunu Şəbidən nəql edir. Şəbi isə Əhli-Beytə (ə) zidd rəyi ilə tanınır. O da Vəhəb ibn Əbu Cüheyfədən, o da Əmr ibn Şərhəbildən, Süveyd ibn Ğəflədən, Əbdürrəhman Həmədanidən və Əbu Cəfər Əşcəidən rəvayət edir. Onlar deyirlər: "Əlinin (ə) minbərdə belə dediyini eşitdik: "Bu nə*

[631] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 52

*yalandır danışırlar?! Guya "Peyğəmbərdən (s) sonra bu ümmətin ən yaxşısı Əbu Bəkr və Ömərdir".*

Əgər rəvayəti nəql edənlərin təəssüb və müxalifləkləri nəzərə alınmasa belə, girişdəki bu sözlər qeyd edilsə, bu kəsərək nəql etməyən kəslərin sözlərinə əhəmiyyət verilməz. Çünki rəvayət müqəddiməsi ilə nəql edildikdə orada İhsan Zahirin iddialarına heç bir dəlil olmayacaq. Əksinə, onun öz əleyhinə dəlilə çevriləcək. Rəvayətin kəsilmiş girişinə İmamın (ə) bunu söyləyən şəxsləri məzəmmət etdiyi anlaşılır. Xütbəsində isə bu yalanı söyləyənlərin düşüncəsini qınayır və sanki deyir: "Yalançıların etiqadına görə, Peyğəmbərdən (s) sonra bu ümmətin ən yaxşıları filan və filan kəslərdir". Bu, Uca Allahın Qurandakı sözünə bənzəyir: ***"Hələ səni əsla qaçıb canını qurtara bilməyəcəyin daha bir vədə (qiyamət günü) gözləyir. İndi tapınıb durduğun tanrına (bütünə) bax. Biz onu yandıracaq, sonra da (külünü) dənizə atacağıq!"***[632]

Ayədə Uca Allah ***"tanrına bax"*** buyurur, halbuki Özündən başqa ilahın olmadığı məlumdur və həmin "tanrı" da həqiqi deyil. Yalnız Samirinin etiqadına görə həmin büt tanrı idi. Allahın kitabında bu qəbildən nümunələr çoxdur. Uca Allah buyurur: ***"(Bu əzabı) bir dad görək! Sən ki çox qüvvətli, möhtərəm bir şəxs idin!"***[633] Yəni sən öz nəzərində və tayfanın arasında çox qüvvətli, möhtərəm idin".[634]

**2** – Kitabın bir çox yerində dəfələrlə təkrarlamışıq ki, qarşı tərəfə dəlil yalnız onun qəbul etdiyi, səhihliyi və raviləri məqbul olan mənbədən göstərilməlidir. Səhihliyinə etiqad bəslənilməyən dəlilləri təqdim etməyin dəyəri yoxdur. Barəsində müzakirə aparılan rəvayət heç bir şiə hədis mənbəyində nəql olunmayıb. Bu səbəbdən də dəlil sayıla bilməz.

---

[632] Taha, 98

[633] Duxan, 49

[634] "Bax: əş-Şafi fil-imaməti, Seyyid Mürtəza, c. 3, s. 112-113. Seyyid Əbdüzzəhra Hüseyninin və Seyyid Fazil Milaninin təhqiqi ilə; II çap, 2006-cı il (h.q.1426); "İmam Sadiq (ə)" müəssisəsinin nəşri

### Üçüncü: İmam Həsənin (ə) Əbu Bəkrdən razı olduğu iddiası

İhsan Zahir deyir: **"Bu sözləri İmam Əlinin oğlu Həsən deyir! Bəli, Həsən ibn Əli – şiələrin nəzərində (gümanlarına əsasən) Allahın itaətini vacib buyurduğu ikinci məsum imam. Siddiq barədə danışır, sözünü Peyğəmbərə (s) nisbət verərək: "Əbu Bəkrin mənə nisbəti qulaq (eşitmə üzvü) nisbətindədir".**[635]

**Müzakirə**

İhsan Zahir Şeyx Səduqun "Uyunu əxbarir-Rza (ə)" və "Məanil-əxbar" kitablarında varid olmuş bu rəvayəti yarımçıq və kəsilmiş halda nəql edir. Onun bir hissəsini qeyd edir, ancaq İmamın (ə) nə söyləmək istədiyini bəyan edən ən əhəmiyyətli hissəsini gizlədir.

Onun bu saxtakarlığını və oxucunu öz məqsədləri üçün necə qəflətə saldığını göstərmək üçün rəvayətin mətnini tam şəkildə təqdim edirik: *"Əbülqasim Əli ibn Əhməd ibn Muhəmməd ibn İmran Dəqqaq (r) Muhəmməd ibn Əbu Abdullah Kufidən, o da Səhl ibn Ziyad Adamidən, o da Əbdüləzim ibn Abdullah Həsənidən, o da ağam Əli ibn Muhəmməd ibn Əli Rzadan, o da atası Muhəmməd ibn Əlidən, o da atası Rzadan, o da ata-babalarından, o da Hüseyn ibn Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Əbu Bəkr mənə qulaq, Ömər göz, Osman isə qəlb nisbətindədir".*

*Sabahı gün Peyğəmbərin (s) yanına getdim. Yanında Möminlərin əmiri (ə), Əbu Bəkr, Ömər və Osman vardı. Dedim: "Atacan, səhabələrin barədə bu sözləri söylədiyini eşitdim. Bunun mənası nədir?" Peyğəmbər (s) buyurdu: "Bəli, söyləmişəm". Sonra onlara işarə edərək sözünə davam etdi: "Onlar qulaq, göz və qəlbdirlər. Qarşıda bu vəsinin (İmam Əliyə (ə) işarə edərək) haqqı barədə soruşulacaqlar.* ***"Çünki qulaq, göz və ürək – bunların hamısı***

[635] Şiə və Əhli-Beyt, s. 53

*(sahibinin etdiyi əməl, dediyi söz barəsində)* ***sorğu-sual olunacaqdır".***[636]

*Sonra buyurdu: "Rəbbimin izzətinə and olsun ki, ümmətim Qiyamət günü durdulacaq və onun vilayəti barədə soruşulacaq. Bu da Allahın sözüdür:* ***"Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"***[637]***".***[638]

Bax belə. Bununla bərabər rəvayətin sənədi Səhl ibn Ziyadın varlığı səbəbindən zəifdir. Nəcaşi onun barəsində deyir: *"Səhl ibn Ziyad Əbu Səid Adami Razi – hədisdə zəif şəxsdir və ona etimad olunmaz. Əhməd ibn Muhəmməd ibn İsa onun yalançılığına və ğüluvv (həddi aşan) etdiyinə şahidlik edib. Onu Qumdan Reyə köçürmüşdülər, orada da məskunlaşmışdı".*[639] Şeyx Tusi deyir: *"Səhl ibn Ziyad Adami Razi – künyəsi Əbu Səiddir, zəif ravidir".*[640]

**Nəticə:**

Bu rəvayət şiə ricalına əsasən sənəd baxımından zəifidir. Rəvayətin şiə kitabında qeyd edilməsi onun dəlil olmasına dəlalət etməz. Şiə hədis kitablarındakı rəvayətlərə münasibətimiz əhli-sünnənin öz "Səhih"lərinə qarşı göstərdikləri kor müqəddəslik və bütün rəvayətləri dəlil bilmək kimi deyil. Şiə kitablarında həm səhih, həm zəif, həm də əsla höccət sayıla bilməyəcək rəvayətlər mövcuddur.

Məzmun dəlaləti baxımından, rəvayətin bir hissəsinin kəsilib nəql edildiyi məlum oldu. Rəvayətdə tam fərqli məna açıqlanır. Bu mənanı açıqlayan hissəni İhsan Zahir kəsib kənara atmışdır. Rəvayətin tam mətnindən aydın olur ki, Peyğəmbər (s) Əbu Bəkrə, Ömərə və Osmana İmam Əlinin (ə) haqqını, vilayətini və imamətini aydın və qəti kəlmələrlə bildirir, onları göz, qulaq və qəlb kimi şahid tutur. Lakin onlar buna təslim

---

[636] İsra, 36
[637] Saffat, 24
[638] Uyunu əxbarir-Rza (ə), Şeyx Səduq, c. 2, s. 280
[639] Rical, Nəcaşi, s. 185
[640] Fehrist, Şeyx Tusi, s. 142

olmurlar: ***“Həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda inkar etdilər”.***[641] Bu isə onların əleyhinə dəlil olur. Necə ki, insanın qulağı, gözü və qəlbi Qiyamət günü özünə qarşı şahid olacaq. Onlar Peyğəmbərin (s) İmam Əli (ə) barədə söylədiklərini qulaqları ilə eşitdilər, Peyğəmbərin (s) Əlini (ə) necə özünə yaxınlaşdırdığını, digər səhabələrdən üstün tutduğunu gözləri ilə gördülər, qəlbləri ilə bunu anladılar, amma sonra xilafət haqqını inkar etdilər.

Bu, şiə kitabındakı rəvayətə əsasən belədir. Ancaq sünni hədis kitablarındakı buna bənzər olan rəvayətə gəldikdə, o zəifdir. Bunu əhli-sünnənin böyük alimləri də etiraf ediblər:

Məqdisi deyir: *“Əbu Bəkr və Ömərin İslamdakı yeri göz və qulaq kimidir” hədisinin raviləri arasında Vəlid ibn Fəzl*[642] *var. O, hədis uydururdu”.*[643]

İbn Hibban “əl-Məcruhin” kitabında deyir: *“Vəlid ibn Fəzl Ənzi: şeyxdir (və ya yaşlı adamdır), Abdullah ibn İdrisdən və İraq əhlindən inkar olunan hədislər nəql edib. Rəvayətlərini diqqətlə araşdıran şəxs onların uydurma olduğuna şəkk etməz. Yalnız onun vasitəsilə nəql edilmiş xəbəri-vahidləri dəlil götürmək icazəli deyil. O, İbn İdrisdən, atasından, Vəhəb ibn Münəbbihdən, İbn Abbasdan nəql edir: “Peyğəmbər (s) camaatı İslama dəvət etmək üçün şəhərlərə adamlar göndərirdi. Bir nəfər dedi: “Kaş Əbu Bəkri və Öməri göndərərdi”. Peyğəmbər (s) buyurdu: “Əbu Bəkr və Ömərə ehtiyac*

---

[641] Nəml, 14

[642] Vəlid ibn Fəzlin uydurduğu hədislər əhli-sünnə kitablarında çoxdur. Bunu onların alimləri də qeyd ediblər. Onlardan: *“Allah məni və səhabələrimi seçmiş, onları mənim kürəkənlərim və yardımçıların qərar vermişdir. Axır zamanda bir qövm gələcək ki, bunu inkar edəcəklər. Onlarla evlənməyin, onlardan qız almayın, onlarla birgə namaz qılmayın, onlar üçün dua etməyin. Onların üzərində lənət var”.* Həmçinin: *“Əmim oğlu Zübeyr ümmətimdən həvarimdir”.* Eləcə də Əmmar ibn Yasirdən nəql edir: *“Peyğəmbər (s) mənə buyurdu: Ey Əmmar, indicə Cəbrail yanıma gəlmişdi. Ondan Ömərin göylərdəki fəzilətləri barədə mənə danışmasını istədim. Dedi: “Əgər sənə Ömərin göylərdəki fəzilətləri barədə danışmağa başlasam Nuhun qövmü arasında qaldığı müddət buna yetməz. Halbuki Ömərin saleh əməlləri Əbu Bəkrin əməllərindən azdır”.* Və s. əhli-sünnə alimləri bunun və onun söylədiyi digər hədislərin uydurma olduğunu qeyd ediblər.

[643] Məriftut-təzkira, Məqdisi, c. 1, s. 119

*yoxdur. Onların İslamdakı yeri insandakı göz və qulaq kimidir". Bunu Bəsrədə Muhəmməd ibn Əli ibn Abbas Mərzəviyə söylədik və Həsən ibn Ərəfənin Vəlid ibn Fəzldən nəql etdiyini bildirdik".*[644] Onun bu rəvayəti uydurduğuna müxtəlif hədisləri misal çəkir.

İbn Əbdülbərr "əl-İstiab"da yazır: *"Müttəlib ibn Abdullah Əhməd ibn Həntəbdən, o da atasından, o da babasından nəql edir: "Peyğəmbər (s) Əbu Bəkr və Ömərə buyurdu: "Bu ikisinin mənə nisbəti başdakı gözlə qulaq kimidir".*

*Bu hədisin başqa sənədi yoxdur. Müğeyrə Əhməd ibn Əbdürrəhman – Xəzamidir, zəif ravidir. Bu şəxs rəy sahibi olan fəqih Məxzumi deyil. Belə ki, Məxzumi inanılan şəxs və "həsən" rəy sahibi idi".*[645]

İbn Həcər deyir: *"Əbu Ömər dedi... o (yəni Abdullah ibn Həntəb) Əbu Bəkr və Ömərin barəsində isbat olunmamış qarışıq fəzilətlər söyləyib".*[646]

İhsan Zahirin şiə kitabında olan rəvayəti kəsərək mənasını dəyişdiyi aydın oldu. Məqsəd oxucunu aldatmaqdır. Əhli-sünnə kitablarında olan rəvayət isə şiəyə dəlil ola bilməz, həmçinin onun uydurma olduğuna əhli-sünnənin böyük alimlərinin etirafları şahidlik etdi.

## Dördüncü: İmam Zeynəlabidinin (ə) Əbu Bəkrdən razı olduğu iddiası

İhsan Zahir deyir: **"Şiələrin dördüncü imamı Əli ibn Hüseyn ibn Əlidən nəql olunur ki, İraq əhlindən bir neçə nəfər onun yanına gəlmiş, Əbu Bəkr, Ömər və Osman (r) barədə xoş olmayan sözlər söyləmişlər. Onlar sözlərini bitirdikdə Əli ibn Hüseyn deyir: "Mənə söyləyin, *"Yurdlarından çıxarılaraq mal-dövlətlərindən məhrum***

---

644 Kitabul-məcruhin, İbn Hibban, c. 3, s. 82, Mahmud İbrahim Zayedin təhqiqi ilə

645 əl-İstiab, İbn Əbdülbərr, c. 1, s. 401

646 əl-İsabə, İbn Həcər, c. 4, s. 56

***edilmiş, Allahdan mərhəmət və riza diləyən, Allaha və Onun Peyğəmbərinə kömək edən yoxsul mühacirlərə məxsusdur. Onlar (imanlarında, sözlərində və işlərində) doğru olan kimsələrdir!"***[647] **ayəsinin barəsində söhbət açdığı şəxslərsiniz?**

**Onlar "Xeyr" deyə cavab verdilər.**

**Bəlkə siz *"Onlardan əvvəl (Mədinədə) yurd salmış və iman gətirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) hicrət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapıb səadətə (Cənnətə) qovuşanlardır!"*[648] ayəsində qeyd edilən şəxslərsiniz?**

**Onlar yenə də "Xeyr" cavabını verdilər.**

**İmam (ə) buyurdu: "Siz bu ayələrin vurğuladığı şəxslərdən olduğunuzu inkar etdiniz. Mən şəhadət verirəm ki, o zaman siz barələrində Allahın belə buyurduğu şəxslərdən də deyilsiniz: *"Onlardan (mühacirlərdən və ənsardan) sonra gələnlər (tabeinlər) belə deyərlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə (həsədə) yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətlisən, mərhəmətlisən!"*[649]**

**Qalxıb yanımdan gedin, Allah sizinlə bildiyi kimi rəftar eləsin!"[650]**

### Müzakirə

İhsan Zahir bu rəvayəti İrbəlinin "Kəşful-ğummə"[651] kitabından bəzi

---

[647] Həşr, 8

[648] Həşr, 9

[649] Həşr, 10

[650] Şiə və Əhli-Beyt, s. 54

[651] Bax: Kəşful-ğummə, İrbəli, c. 2, s. 291. Beyrut çapı

kəlmələrini təhrif etməklə nəql edib. Hər halda, gətirdiyi bu "dəlilə" aşağıdakı cavabları veririk:

**1** – Rəvayət sənədsizdir. Ravilər qeyd edilmədən birbaşa mürsəl olaraq İmamdan (ə) nəql edilir. Rəvayət əvvəldə *"İraq əhlindən bir neçə nəfər onun yanına gəldi..."* sözləri ilə başlayır. Heç bir ravisi olmayan mürsəl rəvayətə necə etimad etmək olar?! Bir rəvayətin şiə kitabında varid olması onun "səhih" olduğuna dəlalət etməz. Həmçinin rəvayət şiənin dörd əsas və mötəbər, eləcə də digər hədis kitablarında qeyd edilməyib.

Lakin sünni kitablarında buna rast gəlirik. İsfahani rəvayəti "Hilyətul-övliya" kitabında qeyd edib. Bunun sünni rəvayəti olması isə şiəyə dəlil olmadığının əlavə sübutudur. Həmin mənbələrdəki rəvayət də zəifdir. Sənədi belədir: *"Əhməd ibn Əbdülvahabdan, o da Muhəmməd ibn İshaq Sərracdan, o da Əbu Musəbdən, o da İbrahim ibn Qüdamədən (o, Muhəmməd ibn Hatibin oğludur), o da atasından və o da Əli ibn Hüseyndən nəql edir ki..."*[652]

Ravilərin arasında İbrahim ibn Qüdamə var. Zəhəbi onun barəsində deyir: *"İbrahim ibn Qüdamə Cəmhi, mədinəlidir, şəxsiyyəti bilinmir. Əğərr Əbu Hüreyrəyə yetişən sənədlə deyir: "Cüməyə getməzdən əvvəl dırnaqlarını qısaldır, bığlarını kəsirdi".*

*Bəzzar ondan Ətiq ibn Yaqubun nəql etdiyi rəvayəti qeyd edib. Həmin rəvayət isə inkar olunur. Bəzzar deyir: "İbrahim höccət şəxs deyil".*

*İbn Qəttan onun barəsində deyir: "Əlbəttə, İbrahim tanınan (məruf) şəxs deyil..."*[653]

**2** – Əgər bu rəvayətin səhihliyi fərz olunsa, rəvayətdən başa düşülən məzmun budur ki, İmam Zeynəlabidinin (ə) yanına gəlmiş iraqlılar qeyd edilən ayələrin şamil ola bilməyəcəyi şəxslərdir. Ancaq bu heç də Əbu

---

[652] Hilyətul-övliya, c. 3, s. 137

[653] Lisanul-mizan, Zəhəbi, c. 1, s. 92, II çap, 1971-ci il, Beyrut çapı

Bəkrin, Ömərin və Osmanın bu ayələrə müvafiq şəxslər olduğuna dəlalət etmir. Əksinə, orada ayələrin Əbu Bəkrə şamil olmadığına dəlil var. Hamıya məlum olduğu kimi, Əbu Bəkr heç də fəqir olmayıb. Buna əsasən, ayədəki ***"Peyğəmbərinə kömək edən yoxsul mühacirlərə məxsusdur"*** sözü ona necə şamil ola bilər?

**3** – İhsan Zahir İmamın (ə) yanına gəlmiş və üç xəlifəni pisləyən bu iraqlıların Əhli-Beyti daim nəzarətdə saxlayan, Əhli-Beyti (ə) minbərlərdən söyən zalım Əməvi hakimiyyətinin xəfiyyələri olmadığını haradan bilir? İmam Zeynəlabidin (ə) atası İmam Hüseyn (ə) Kərbəlada şəhid edildikdən sonra xüsusi nəzarət altında yaşayırdı. Xüsusilə də, Fironun Bəni-İsrailə etmədiyini müsəlmanların haqqına təcavüz etməklə, bir çox böyük günahlara əl atmaqla edən Əbdülməlikin və oğlu Vəlidin hakimiyyəti dövrlərində.

Əhli-sünnənin böyük alimlərindən olan Cəssas deyir: *"Ərəblərin və Ali Mərvan xanədanının arasında Əbdülməlikdən daha zalımı, daha kafiri və daha günahkarı olmayıb. Onun məmurları arasında da ən zalımı, ən kafiri və ən günahkarı Həccac idi. Yaxşılığı əmr etdiyinə və pislikdən çəkindirdiyinə görə insanların dilini ilk dəfə kəsən Əbdülməlik olmuşdur. O, minbərə qalxaraq demişdi: "Allaha and olsun, mən əsla (Osman kimi) aciz və (Müaviyə kimi hiyləgər) xəlifə deyiləm. Siz bizə bəzi şeyləri əmr edir, yalnız özünüz onlara əməl etməyi unudursunuz. Allaha and olsun, bundan sonra kim mənə Allaha qarşı təqvalı olmağı əmr eləsə, onun boynunu vurduracağam!"*[654]

Əhməd ibn Hənbəl öz "Müsnəd"ində yazır: *"Ömər ibn Xəttabdan (r): Peyğəmbər (s) zövcəsi Ümmü Sələmənin qardaşının oğlu dünyaya gəldi. Uşağın adını Vəlid qoydular. Peyğəmbər (s) buyurdu: "Ona öz fironlarınızın*

---

[654] Əhkamul-Quran, Cəssas, c. 1, s. 86, I çap, 1995-ci il, Beyrut çapı

*adını qoymusunuz ki, bu ümmətdə də "Vəlid" deyilən firon olsun. Həqiqətən də, onun şəri Fironun öz camaatına qarşı olan şərindən daha çox olacaq".*[655]

Hakim isə yazır: *"Əbu Hüreyrədən (r): Peyğəmbər (s) zövcəsi Ümmü Sələmənin qardaşının oğlu oldu. Uşağın adını Vəlid qoydular. Bunu Peyğəmbərə (s) xəbər verdikdə buyurdu: "Ona öz fironlarınızın adını qoymusunuz ki, bu ümmətdə də "Vəlid" deyilən adam olsun. Həqiqətən də, onun şəri Fironun öz camaatına qarşı olan şərindən daha çox olacaq".*

*Zühri deyir: "Bu, Vəlid ibn Yeziddir. Əks təqdirdə Vəlid ibn Əbdülməlikdir".*[656]

Sonra deyir: *"Bu, Buxari və Müslimin şərtlərinə əsasən səhih hədisdir. Lakin onu qeyd etməyiblər".*

Bəni-Üməyyə hakimiyyətinin terror və zülmünü yaşayan bir İmam (ə) Əbu Bəkri, Öməri və Osmanı danlamaqla onların əlinə necə dəlil verər. Onun yanına gəlmiş iraqlılar Əməvi hakimiyyətinin xəfiyyələri olmasa belə, əməlləri İmamı (ə) razı salmamış, İmam (ə) da onları hidayət etməyə və xətalarını göstərməyə başlamışdır. Hamının bildiyi kimi, İmam (ə) öz məclisindən əsla heç kəsi qovmazdı. Əksinə yanına gəlmiş azmışları hidayət edər, cahilləri öyrədər və özünə pislik edənləri bağışlayardı. Təbərinin onun barəsində nəql etdiyinə diqqət yetirək: *"Muhəmməd ibn Ümarədən, o da İsmail ibn Abandan, o da Səbbah ibn Yəhya Məriydən, o da Süddidən, o da Əbu Deyləmdən nəql edir: "Əli ibn Hüseyn (r) əsir olaraq (Şama) gətirildikdə Dəməşqin pilləkənlərində dayandırıldı. Şam əhlindən bir nəfər qalxıb dedi: "Sizi öldürüb kökünüzü kəsən, fitnənin buynuzlarını qıran Allaha həmd olsun!"*

*Əli ibn Hüseyn (r) ona dedi: "Sən Quran oxuyursanmı?"*

*Kişi "Bəli" dedi.*

*Əli ibn Hüseyn (r): Quranda "Ali Ha Mum"i oxumusanmı?*

---

655 Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 18. Beyrut çapı

656 əl-Müstədrək, Hakim Nişapuri, c. 4, s. 494

*Kişi: Quran oxumuşam, amma "Ali Ha Mim"i yox.*

*Əli ibn Hüseyn (r):* ***"De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara məhəbbətdən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm"***[657] *ayəsini oxumusanmı?*

*Kişi: Siz həmin şəxslərsiniz?*

*Əli ibn Hüseyn (r) "Bəli" deyə cavab verdi".*[658]

**4** – Əgər iraqlıların həmin üç nəfəri pisləməsi İmamın (ə) xoşuna gəlməsəydi bunu açıq bəyan edər, onlara: "Əbu Bəkrin, Ömərin və Osmanın barəsində filan-filan fəzilətlər qeyd olunub" – deyərdi. Lakin İmam (ə) bunu etmir. Əksinə, bir neçə ayəni zikr edərək iraqlı qonaqlara həmin ayələrin ünvanı olmadıqlarını söyləyir. Ardınca isə: "O üç şəxs həmin ayələrin ünvanıdır" – demir.

**Beşinci: İmam Baqirin (ə) Əbu Bəkrdən razı olduğu iddiası**

**Birinci rəvayət: İmam Baqirin (ə) ilk iki xəlifənin fəzilətini inkar etmir**

İhsan Zahir deyir: **"Təbərsi İmam Baqirdən (ə) rəvayət edir: "Mən Əbu Bəkrin və Ömərin fəzilətlərini inkar edən deyiləm. Lakin Əbu Bəkr Ömərdən əfzəldir".**[659]

**Müzakirə**

Cavabın aydın olması üçün Təbərsinin nəql etdiyi tam mətni təqdim

[657] Şura, 23

[658] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 25, s. 33. Beyrut çapı

[659] Şiə və Əhli-Beyt, s. 55

edirik. Müəllif özünün "əl-İhticac" kitabında yazır: *"Rəvayət olunur ki, Məmun öz qızı Ümmül-Fəzli Əbu Cəfərlə evləndirdikdən sonra bir məclisdə oturmuşdu. Yanında Əbu Cəfər (ə), Yəhya ibn Əksəm və bir çox şəxs vardı. Yəhya ibn Əksəm dedi: "Ey Peyğəmbər övladı! Rəvayət olunan bu xəbər barədə nə deyirsən? "Cəbrail (ə) Peyğəmbərin (s) yanına enib dedi: "Ey Muhəmməd, Uca Allah sənə salam söyləyir və buyurur: "Əbu Bəkrdən soruş ki, Məndən razıdır? Amma Mən ondan razıyam".*

*Əbu Cəfər (ə) buyurdu: "Əbu Bəkrin fəzilətini inkar edən deyiləm, lakin bunu iddia edənə Peyğəmbərin (s) Vida Həccindəki sözlərini nəql edən şəxsin rəvayəti ilə cavab verəcəyəm: (Peyğəmbər(s) buyurub:) "Mənim adımdan yalan söyləyənlər çoxalıb, məndən sonra da artacaqlar. Kim mənim adımdan bilərəkdən yalan söyləsə, Cəhənnəmdəki yerini hazır bilsin. Mənim adımdan sizə söylənən hədisləri Allahın kitabı və sünnəmlə tutuşdurun. Allahın kitabına və sünnəmə uyğun olanı götürün, müxalif olanı tərk edin".*

*(Sizin iddia etdiyiniz) bu rəvayət Allahın kitabına uyğun deyil. Uca Allah kitabında buyurur:* ***"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!"***[660] *Əbu Bəkrin razılığı məgər Allaha gizli idi ki, bu barədə özündən soruşur? Bu, ağılla da qəbuledilməzdir".*

*Yəhya ibn Əksəm dedi: "Rəvayət olunur ki, yer üzündə Əbu Bəkr və Ömər göylərdə Cəbrail və Mikail kimidirlər..."*[661]

**İndi isə deyirik:**

**1** – Aydın olduğu kimi, rəvayət İmam Cavaddan (ə) nəql olunub. Lakin İhsan Zahir onu İmam Baqirə (ə) nisbət verir. Bu isə bir daha onun cahilliyinə dəlildir. İmam Baqir (ə) Əməvi hakimiyyəti dövründə yaşayıb. Təbərsi isə söhbətin Məmunun xəlifəliyi dövründə baş verdiyini yazır.

660 Qaf, 16

661 əl-İhticac, c. 2, s. 249

Məmun Abbası xəlifələrindəndir. Söhbət Abbasi xəlifəsi Məmunun hüzurunda qazi Yəhya ibn Əksəmlə Əbu Cəfər Sani künyəli İmam Cavad (ə) arasında baş verir. Müqabil tərəfin məlumatları barədə cahilliyi bu səviyyədə olan kəs şiə əqidəsinə necə irad bildirə bilər?!

**2** – İhsan Zahir adəti üzrə rəvayətin özünə münasib gəlməyən hissəsini kəsib və başqa mənaya yönəldib. Təbərsinin "əl-İhticac"da nəql etdiyi bu rəvayət İmam Cavadla (ə) Yəhya ibn Əksəm arasındakı söhbətdən ibarətdir. Rəvayətdə Əbu Bəkr və Ömərin mədhinə dair Peyğəmbərə (s) istinad edilən uydurma hədislərin inkarından, Allahın kitabına, sünnəyə və ağıla müxalif olmasından söz açılır. Orada İmam Cavadın (ə) Əbu Bəkr və Ömərdən razı olduğuna dair yaxından-uzaqdan heç bir dəlil yoxdur. İmamın (ə) *"Mən Əbu Bəkrin fəzilətini inkar edən deyiləm"*, həmçinin *"Mən Ömərin fəzilətini inkar edən deyiləm"* sözləri onların fəzilətli olduğunu düşündüyü anlamını verməz. Əksinə, Yəhya ibn Əksəmə demək istəyir ki, indi söyləyəcəklərim Əbu Bəkri və Öməri tərifləyib və ya məzəmmət etmək üçün deyil, sadəcə o ikisinin fəzilətləri barədə Peyğəmbərə (s) nisbət verilən yalan hədisləri inkar etmək üçündür. Bu iki vəziyyət arasındakı fərq aydındır. Lakin bu fərqin İmam Baqirlə (ə) İmam Cavadı bir-birindən ayıra bilməyən İhsan Zahir üçün naməlum olması başa düşüləndir.

Başqa sözlə: İmam Cavadın (ə) Yəhya ibn Əksəmin söylədiyi uydurma rəvayətləri inkarından o ikisini məzəmmət etdiyi başa düşülə bilər. Bu sözləri ilə onlar barədə söylənən uydurma fəzilətləri rədd edərək buyurur: Mən Əbu Bəkr və Ömər barədə söylənən fəzilətləri deyil, onların fəzilətləri barədə Peyğəmbərə (s) istinad edilən hədisləri inkar edirəm. Bununla da İmam (ə): "Deməyin ki, onlara qarşı ədavətim olduğu üçün fəzilətlərini inkar edirəm, sadəcə hədis yalan olduğu üçün bu fəzilətləri qəbul etmirəm" demək istəyir, yalan olduğunu isə Allahın kitabına əsasən isbatlayır. Nəticədə onların fəzilət sahibi olub-olmadığına nəzər yetirmədən bu "fəzilət" hədislərinin uydurma olduğu anlaşılır.

Rəvayətin kəsilmiş hissəsindən bu mənanı başa düşmək mümkündürmü? Təbiidir ki, belə olduqda rəvayət öz məcrasında çıxır və iddia olunan mənaya yönəldilir. Biz mənaya xələl gətirmədən rəvayətlərdən müəyyən hissələrin qeyd edilməsinə, onların ixtisarına qarşı deyilik. Bunu ağıl da qəbul edir. Lakin biz mənanı dəyişən və məna əlamətlərini aradan aparan ixtisarlara qarşıyıq. Çünki bu nə elmi və nə də əxlaqi üslubdur.

**3** – Rəvayət İhsan Zahirin iddiasına ziddir. Çünki Əbu Bəkr və Ömər üçün iddia olunan fəzilətlərin sağlam bir mənşəyinin olması lazımdır. Halbuki onların fəziləti barədə olan rəvayətlər uydurmadır. İmam (ə) isə onların Kitaba, sünnəyə və ağıla müxalif olduğunu sübut edir. Həmçinin İmam (ə) bu yalan rəvayətləri inkar edərkən onların fəzilətini təsdiq edəcək bir ayə və ya rəvayət də olsa dilinə gətirmir. Buradan da anlaşılır ki, İmam Cavad (ə) Möminlərin əmiri Əlinin (ə) sünni və şiələrin hədis kitablarında zikr edilən saysız fəzilətləri müqabilində Əbu Bəkr və Ömər ondan üstün tutacaq heç bir fəzilətin mövcud olmadığını bəyan edir.

### İkinci rəvayət: Əbu Bəkr Siddiqdir

İhsan Zahir deyir: **"İmam Zeynəlabidinin Baqir ləqəbli oğlu Muhəmməd ibn Əli ibn Hüseyndən – şiələrin beşinci məsum imamından – qılıncın bəzədilməsi haqqında soruşuldu. Bunu Əli ibn İsa İrbəli "Kəşful-ğummə"də rəvayət edir. Əbu Abdullah Cofidən, o da Ürvə ibn Abdullahdan nəql edir: "Əbu Cəfər Muhəmməd ibn Əlidən (ə) qılıncın bəzədilməsi haqqında soruşdum. Buyurdu: "Bunun eybi yoxdur. Əbu Bəkr Siddiq də öz qılıncını bəzəyərdi". Dedim: "Siz Siddiq dediniz?" O, anidən yerindən qalxdı və üzünü qibləyə tutub dedi:**

**“Bəli, Siddiq!! Kim ona Siddiq deməsə, Allah onun nə dünyada, nə də axirətdə sözünü təsdiq etməz”.[662]**

**Müzakirə**

**1** – Sənəd baxımından bu rəvayət etibarsızdır. Çünki mürsəl hədisdir. “Kəşful-ğummə” kitabının müəllifi[663] hədisi Ürvə ibn Abdullahdan nəql edir. Hədisi İmam Baqirdən (ə) rəvayət edən şəxslə “Kəşful-ğummə” kitabının müəllifi arasında təxminən 550 il var. İmam Baqir (ə) hicri 114-cü ildə şəhadətə yetişmiş, müəllif İrbəli isə hicri 673-cü ildə vəfat etmişdir. İmamdan (ə) hədisi birbaşa nəql edən şəxs 120 yaşından artıq yaşamamışdır. Beləliklə “Kəşful-ğummə”də hədisi nəql edən ravi ilə İmam Baqirin (ə) arasında ən azı 370 il fasilə yaranır. İmamdan (ə) hədisi eşidən şəxslə rəvayət edən şəxs arasındakı ravilərin qeyd edilmədiyinə görə, bu hədisə etimad etmək mümkün deyil.

**2** – İrbəlidən başqa, bu rəvayəti heç bir şiə müəllifi kitablarında qeyd etməyib. Həmçinin şiənin mötəbər hədis kitablarında da ona rast gəlmirik. Belə vəziyyətdə rəvayət həm mürsəldir, həm də şiələr tərəfindən etimad görməyib. Bundan əlavə, İhsan Zahir həmin rəvayətin “Kəşful-ğummə”də olduğunu söyləsə də, əslində əhli-sünnə kitabına istinadən nəql edir. Bunu İbn Əsakir,[664] Zəhəbi[665] və digərləri qeyd etmişlər. Bu yolla isə şiəyə dəlil göstərmək düzgün deyil. Qarşı tərəfə dəlil yalnız özlərinin qəbul edib etimad göstərdikləri mənbələrdən olmalıdır. Lakin təəccüblüsü budur ki, İhsan Zahir bunu ənli-sünnə kitabından nəql etsə də, yenə də mürsəl nəql edir. Hətta öz kitablarında qeyd edilmiş sənədi də qeyd etmir. Bu isə növbəti saxtakarlıqdır.

---

[662] Şiə və Əhli-Beyt, s. 55
[663] Kəşful-ğummə, İbn Əbülfəth İrbəli, c. 1, II çap, 1885-ci il, Beyrut
[664] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 54, s. 283. Beyrut çapı
[665] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 4, s. 408. 1993-cü il çapı, Beyrut

**3** – Bu rəvayətin uydurma olmasının əlamətləri aydın görünür. Belə ki, bəndələrin namaz, oruc kimi əməllərinin, eləcə də Allaha, kitablarına, peyğəmbərlərinə imanın qəbul şərti Peyğəmbər (s) səhabələrindən birinin vəsfinin təsdiqinə bağlanır. Halbuki nə Peyğəmbərdən (s), nə də səhabələrdən əməl və imanın qəbul edilməsinin belə bir vəsfə sahib şəxsin təsdiqinə bağlandığı əsla eşidilməyib! Bundan əlavə, belə bir sözün İmam Baqir (ə) tərəfindən söylənməsi ağılla qəbul edilən deyil.

**Altıncı: İmam Sadiqin (ə) Əbu Bəkrdən razı olduğu iddiası**

**Birinci rəvayət: Peyğəmbərin (s) Əbu Bəkrə "Sən siddiqsən" deməsi**

İhsan Zahir deyir: **"O, bunu vəhy ilə danışan babası Peyğəmbər (s) söylədiyinə və Əbu Bəkri "Siddiq" adlandırdığına görə söylədi. Necə ki, şiə Bəhrani özünün "əl-Bürhan" təfsirində Əli ibn İbrahimdən, o da atasından, o da bəzi şəxslərdən, o da Əbu Abdullahdan (ə) nəql edir: "Peyğəmbər (s) mağarada olarkən Əbu Bəkrə dedi: "Sanki mən Cəfərin və yoldaşlarının dənizdə üzən gəmisini görür və ənsarın geniş ərazilərdə aram addımlarla gəzdiklərini seyr edirəm". Əbu Bəkr dedi: "Ey Peyğəmbər, sən onları görürsən?" Peyğəmbər (s) "bəli" deyə cavab verdikdə Əbu Bəkr "Mənə də onları göstər" dedi. Peyğəmbər (s) əlini onun gözlərinə sürtdükdə o da bunları gördü. Peyğəmbər (s) ona buyurdu: "Sən Siddiqsən!"**[666]

**Müzakirə**

**Birinci:** İhsan Zahirin Bəhranidən nəql etdiyi bu rəvayətin eyni və ya bənzəri həmin kitabda yoxdur. Bəhrani kitabında bunu qeyd edir: *"Əli ibn*

---

[666] Şiə və Əhli-Beyt, s. 55

*İbrahimdən, o da atasından, o da bəzi şəxslərdən, Əbu Abdullaha (ə) istinadən nəql edir: "Peyğəmbər (s) mağarada olarkən Əbu Bəkrə dedi: "Sanki mən Cəfərin və yoldaşlarının dənizdə üzən gəmisini görür və ənsarın geniş ərazilərdə aram addımlarla gəzdiklərini seyr edirəm". Əbu Bəkr dedi: "Ey Peyğəmbər, sən onları görürsən?" Peyğəmbər (s) "bəli" deyə cavab verdikdə Əbu Bəkr "Mənə də onları göstər" dedi. Peyğəmbər (s) əlini onun gözlərinə sürtdükdə o da bunları gördü".*

İhsan Zahir isə bu hədisə "**Peyğəmbər (s) ona buyurdu: "Sən Siddiqsən!"** sözlərini özündən əlavə edib.

Göründüyü kimi, Bəhraninin qeyd etdiyi rəvayətdə **"Sən Siddiqsən"** sözü yoxdur. İhsan Zahirin bu cür əlavələri heç də qəribə deyil. Çünki o, istədiyi rəvayətdən müəyyən sözləri pozur, istədiyini də əlavə edir. Ardınca da özünün yaratdığı yeni "rəvayəti" "bu, şiə kitabındakı dəlildir" deyərək təqdim edir. Rəvayətə artırdığı belə əlavələr açıq-aşkar iftira adlanır.

**İkinci:** Əgər İhsan Zahirin əlavə etdiyi bu hissənin rəvayətdə olduğu fərz edilsə belə, yenə də rəvayət etibarsızdır. Çünki sənədi zəifdir. Belə ki, hədis İmam Sadiqə (ə) "bəzi şəxslərdən" deyilərək istinad edilir. Bu isə hədisin sənədindəki ravilərin naməlum olması deməkdir.

Rəvayət *"Əli ibn İbrahimdən, atası İbrahim ibn Hişamdan və bəzi şəxslərdən"* deyilərək nəql edilir. Lakin həmin "bəzi şəxslərin" kim olduğu bilinmir. Onlar inanılan, yoxsa etibarsız şəxslərdir?!

Həmin bəzi məchul şəxslər rəvayəti İmama (ə) istinad edirlər. Demək İmamla (ə) ravi arasındakı əlaqə məhz həmin şəxslərdir. Bu vasitənin kimlər olduğu naməlumdur.

Buna əsasən, rəvayət elə bir həddə zəifdir ki, dəlil olaraq təqdim edilməyə layiq deyil. Vəziyyəti belə olan dəlilin qarşı tərəfə sübut kimi göstərilməsinin heç bir dəyəri yoxdur.

**İkinci rəvayət: Əbu Bəkr ölüm yatağında malının beşdə birini vəsiyyət etdi**

İhsan Zahir deyir: **"Kuleyni "əl-Furu"da uzun bir hədisi qeyd edir: "Əbu Bəkr ölüm yatağında ikən ona "Vəsiyyət et" deyildikdə buyurdu: "Beşdə birini vəsiyyət edirəm, beşdə bir miqdar da çoxdur. Allah beşdə birdən razı qalar". Bununla da malının beşdə birini vəsiyyət etdi. Uca Allah isə üçdə birini vəsiyyət etməyə izn vermişdi. Əgər Əbu Bəkr üçdə birinin daha çox faydalı olduğunu bilsəydi, onu vəsiyyət edərdi.**

**Ondan sonra sizin fəzilətli bildiyiniz şəxs Salman və Əbu Zərdir (Allah onlardan razı olsun!). Salman illik xərcini ödəyəcək miqdardan artıq malı olduğunu gördükdə onu qəbul edən şəxslərə paylayırdı. Ona deyilmişdi: "Ey Əba Abdullah, sən zahidliyinlə bunları edirsən (illik xərcini saxlayırsan), bu gün və ya sabah öləcəyini isə bilmirsən!"**

**O isə cavabında deyirdi: "Nə olub, yox olacağımdan qorxursunuz, amma əbədi yaşamağımı istəmirsiniz. Ey cahillər, məgər bilmirsiniz ki, nəfs, sahibinin məişəti üçün lazımı tədarükü olmadıqda onu tovlayır və azdırır. İnsanın tədarükü olduqda isə nəfsi də aramlaşır?!"**

**Amma Əbu Zərrə gəldikdə, onun dəvələri və qoyunları vardı. Onlardan süd sağar, bəzən də ailəsi ət yemək istədikdə və ya qonaq gəldikdə, yaxud da yaxınlarından birinin ehtiyacı olduğunu gördükdə onlardan kəsərdi. Onların ət iştahasını söndürəcək qədər dəvə və ya qoyun kəsər, aralarında bölər, özü də bir kəsə düşən paydan artığını götürməzdi. Onlardan daha zahid kim var? Peyğəmbər (s) onların barəsində xoş sözlər söyləyib".**

**Bu sözlərdən aydın olur ki, Siddiqin zahidlik məqamı ümmət arasında ən üstün dərəcədə idi. Ondan sonra isə Əbu Zərr və Salman**

**gəlir".**[667]

**Müzakirə**

İhsan Zahir İmamın (ə) **"Ondan sonra sizin fəzilətli bildiyiniz şəxs Salman və Əbu Zərdir (Allah onlardan razı olsun!)"** sözündən İmamın (ə) da nəzərində Əbu Bəkrin zöhd və fəzilətdə Salman və Əbu Zərdən üstün olduğunu zənn edib. Bu isə xəyal və səhvdən başqa bir şey deyil. Belə ki, söhbət İmamın (ə) Süfyan Sövriyə dəlil göstərməsi əsnasında baş verir. Süfyan Sövri əhli-sünnənin böyük alim və zahidlərindən idi. Kuleyni bu rəvayətin əvvəlində yazır: *"Əli ibn İbrahimdən, o da Harun ibn Müslimdən, o da Müsədə ibn Sədəqədən rəvayət edir: "Süfyan Sövri Əbu Abdullahın (ə) yanına gəldi. (İmamın) əynində ağappaq yumşaq parçadan bir libas vardı. Bunu gördükdə dedi: "Bu sənə (zahidliyinə) yaraşan libas deyil". O isə cavabında dedi: "Sözlərimi dinlə və yadda saxla..."*

İmam (ə) bu sözü ilə ona zöhd anlayışının etiqadı ilə uyuşmadığını bildirmək istəyir. Belə ki, Süfyan Sövrinin fikrinə görə, Əbu Bəkr zahidlik, şücaət və elm baxımından digərlərindən daha fəzilətli idi. Hətta Salman və Əbu Zərdən də əfzəl idi. Amma İmam (ə) bu sözləri ilə onun zahidliyinin heç də Süfyan Sövrinin düşündüyü səviyyədə olmadığını bəyan edir. Qeyd edildiyi kimi, əcəli yetişərkən o, malının beşdə birini vəsiyyət edir. Halbuki şəri dəlillərə əsasən üçdə birini vəsiyyət etmək daha əfzəl idi. Lakin o, bunu etmir.

İmamın (ə) söylədikləri Əbu Bəkrin fəzilətini iqrar etmək deyil. Əksinə, burada söylənilən sözlər qarşı tərəfin onun ən zahid səhabə olması rəyinə və fikrinə əsaslanır. Bu səbəbdən də İmam (ə) *"Ondan sonra **sizin** fəzilətli bildiyiniz şəxs..."* deyir, "Ondan sonra **bizim** fəzilətli bildiyimiz şəxs..." demir. Əgər belə desəydi, o zaman fəzilətinin təsdiqi olardı. Bu iki cümlə arasındakı fərq isə aşkardır.

---

[667] Şiə və Əhli-Beyt, s. 56-57

Başqa sözlə: İmam (ə) *"Ondan sonra sizin fəzilətli bildiyiniz şəxs..."* deməklə Əbu Bəkrin fəzilətli olduğu fikrinin onun libasına etiraz bildirən Süfyan Sövriyə məxsus olduğunu bəyan edir.

**Üçüncü rəvayət: Əbu Bəkr və Ömərin ədalətli və dürüst imam olduğu iddiası**

İhsan Zahir deyir: **"Sonra onların altıncı məsum imam zənn etdikləri "Sadiq" ləqəbli Əbu Abdullah Cəfərdən Əbu Bəkr və Ömər barədə soruşulur. Bunu şiə, ğulat, 1611-ci ildə (h.q.1019) qətlə yetirilmiş Qazi Nurullah Şuştəri rəvayət edir. Bir nəfər İmam Sadiqdən (ə) soruşur: "Ey Peyğəmbər övladı! Əbu Bəkr və Ömər barədə nə deyirsən? Buyurdu: "İki adil, dürüst və haqqa bağlı olan imam idilər. Belə də dünyadan köçdülər. Qiyamət günü Allahın rəhməti onlara olsun!"**[668]

**Müzakirə**

Rəvayətin mənbəyə müraciət edən şəxs onun İhsan Zahirin iddiasının tam əksinə olduğunu aydın görəcək. Çünki İmam (ə) **"İki adil, dürüst və haqqa bağlı olan imam idilər. Belə də dünyadan köçdülər. Qiyamət günü Allahın rəhməti onlara olsun!"** söylədikdən sonra öz sözünün təfsirinə başlayır. Oxucuya həmin mənbəyə müraciət etməyi tövsiyə edirik. Həmin mətnlə tanış olduqda İhsan Zahirin saxtakarlığının hansı həcmdə olduğunu aydın görəcəksiniz. Belə ki, İhsan Zahir onun iddialarına zidd olan hissəni kəsərək nəql etməyib.

*"Müxalif məzhəbdən bir nəfər İmam Sadiqdən (ə) soruşdu: "Ey Peyğəmbər övladı! Əbu Bəkr və Ömər haqqında fikrin nədir?"*

*İmam (ə) buyurdu: "Onlar iki imam, dürüst (qasit), adil, haqqın üzərində (əleyhində) olan və belə də dünyadan köçmüş şəxslərdir. Qiyamət günü*

---

[668] Şiə və Əhli-Beyt, s. 57

*Allahın rəhməti onların üzərinə (əleyhinə) olsun".*

*Camaat dağılıb getdikdən sonra şiələrindən biri soruşdu: "Ey Peyğəmbər övladı, Əbu Bəkr və Ömər haqqında söylədiklərin məni təəccübləndirdi".*

*İmam (ə) buyurdu: "Bəli, onlar Cəhənnəm əhlinin imamlarıdır. Necə ki, Uca Allah buyurur: **"Onları Cəhənnəm oduna dəvət edən imamlar etdik"** (əl-Qəsəs", 41). Dürüstə gəldikdə, (bu söz ərəb dilində "qasit" kimi də ifadə olunur. "Qasit" kəlməsinin isə "dürüst (ədalətli)" və "haqdan üz döndərmiş" kimi iki zidd mənası var – Tərc.) Uca Allah Quranda buyurur: **"Amma haqdan dönənlər, şübhəsiz, onlar Cəhənnəmin odunu olacaqlar"** ("əl-Cinn", 15). Adil (Adil kəlməsi ərəb dilində həmçinin "udul" (üz döndərmək, yayınmaq) kəlməsinin faili olaraq "üz döndərən, yayınan" mənasını verir – Tərc.) dedikdə isə, onların haqdan üz döndərdikləri nəzərdə tutulur. Uca Allah buyurur: **"Sonra Rəblərinə qarşı kafir olanlar üz döndərirlər"** ("əl-Ənam", 1). "Haqqın üzərində (əleyhində) olan" sözündə məqsəd isə özlərini Möminlərin əmiri Əlinin (ə) haqqından üstün tutmalarıdır. Belə ki, ona əziyyət vermiş, haqqını əlindən qəsb etmişdilər. "Belə də dünyadan köçmüşlər" dedikdə isə məqsəd bu haqqı qaytarmadan, Əliyə (ə) qarşı ədavətlərini qoruyaraq və peşmançılıq ifadə etmədən dünyadan köçdüklərini bildirməkdir. "Qiyamət günü Allahın rəhməti onların üzərinə (əleyhinə) olsun" sözündə məqsədimiz Peyğəmbərin (s) aləmlərə Allahın rəhməti olmasıdır ki, o da Qiyamət günü bu iki nəfərə qarşı qəzəblənəcək və onlardan intiqam alacaq".[669]*

## Dördüncü rəvayət: İmam Sadiqin (ə) onları özünə dost tutduğu iddiası

İhsan Zahir deyir: **"Seyyid Mürtəza "əş-Şafi" kitabında Cəfər ibn Muhəmməddən onun (İmam Sadiqin) Əbu Bəkr və Öməri özünə dost**

[669] İhqaqul-həqq, Şustəri, c. 1, s. 116

**bildiyini, qəbirlərinin yanına gəldiyini və Peyğəmbəri (s) salamladığı kimi onları da salamladığını rəvayət edir".**[670]

**Müzakirə**

**1** – Seyyid Mürtəzaya istinad etdiyi bu rəvayətin əsası yoxdur. Əvvəldə bir neçə yerdə qeyd etdiyimiz kimi, Seyyid Mürtəza Qazi Əbdülcabbarın sözlərini öncə nəql edir, ardınca isə onlara cavab verir.

**2** – Məlumdur ki, Qazi Əbdülcabbar da İmam Sadiqə (ə) istinad edilən bu rəvayəti əhli-sünnə mənbələrindən nəql edir. Qazi Əbdülcabbarın sözlərini təqdim edirik: *"Şeyximiz Əbu Əli deyir: Cəfər ibn Muhəmməddən Ömərin vurulması ilə bağlı nəql olunan rəvayətin əsli yoxdur. Əksinə, Cəfər ibn Muhəmməddən (ə) onun Əbu Bəkri və Öməri sevdiyi, qəbrinin yanına gələrək Peyğəmbərlə (s) birgə onları da salamladığı rəvayət olunub. Bu rəvayəti Əbbad ibn Süheyb,*[671] *Şöbə ibn Həccac, Mehdi ibn Hilal,*[672] *Dəravurdi və başqaları nəql ediblər".*[673]

İndi isə Seyyid Mürtəzanın Qazi Əbdülcabbara verdiyi cavabı təqdim edirik ki, oxucu Seyyidin həmin sözləri rədd etmək üçün nəql etdiyini görsün. Yazır: *"Əbu Əlinin Xanım Fatimənin (ə) Ömər tərəfindən vurulması ilə bağlı hədisin əsassız olması barədə sözünə, eləcə də İmam Sadiqin (ə) Əbu Bəkri və Öməri sevdiyi, atasının və babasının da onları sevdiyi iddiasına*

---

[670] Şiə və Əhli-Beyt, s. 57

[671] İbn Həcər "Lisanul-mizan"da deyir (c. 3, s. 230): *"Əbbad ibn Suheyb Bəsri, Hədisləri tərk olunan kəslərdəndir. Buxari, Nisai və başqaları deyirlər: Tərk olunmuşdur. İbn Hibban deyir: Qədəriyyə firqəsindən idi, bəzi hədislər nəql edirdi ki, əgər bu sənətə yeni başlayan şəxs belə onu eşitsə, uydurma olduğuna şəhadət verər".*

[672] İbn Həcər "Lisanul-mizan"da deyir (c. 6, s. 106): *"Mehdi ibn Hilal Əbu Abdullah Bəsri – Yaqub ibn Əta ibn Əbu Rəbbah və Yunus ibn Übeyddən, Həmçinin oğlu Muhəmməd, Həmədan ibn Ömər və bir dəstə şəxs ondan hədis nəql etmişlər. Yəhya ibn Səid və İbn Muin onu yalançı bilmişlər. Darəqutni deyir: Hədisləri tərk olunur. Həmçinin Yəhya ibn Muin deyir: Bidət sahibidir, hədis uydururdu. İbn Ədiy ondan bir neçə hədisi rəvayət etdikdən sonra deyir: Ondan rəvayət olunan bütün hədislərə etina olunmaz".*

[673] əş-Şafi fil-imaməti, c. 4, s. 111, II çap, h.q.1410-cu il

*gəldikdə: birincidə Əbu Əlinin bu rəvayətin etimada layiq olmadığını söyləyir. Bu rəvayəti Əbu Əli necə inkar etməsin?! Onun öz nəzərində üstün bildiyi şəxslər İmamətin yerində əyləşmiş, haqlarını qəsb etmişdilər. Halbuki İmamlar (ə) dində uğur qazanmış və dinə dəstək olmuş, onun hökmlərini icra etməkdə ən üstün şəxslər idilər. Əgər bidət dolu əqidəsini qəlbindən çıxarsaydı bu kimi rəvayətləri anlayardı. Yaxud da inkar etmək əvəzinə ən azı səhih olub-olmadığına şəkk edərdi.*

*Müxaliflərimiz onun iddialarına əsaslanıb elə qənaətə gəlirlər ki, sanki Əbu Abdullah Cəfər ibn Muhəmməd, atası və babası (Allahın salamı onlara olsun!) onların barəsində əsla pis söz söyləməmiş, onları danlayan və eyiblər nisbət verən şəxsləri bu işdən çəkindirmişdilər. Onların bu qənaətlərində Əbu Əli kimi kəslərə etimad edəcəklərini zənn etmirik. Çünki insanların düşüncələri onların ən yaxınlarından və dostlarından öyrənilməlidir, ittiham olunanlardan, düşmənlərdən və üz çevirmişlərdən deyil. Biz də və hər kəs də yaxşı bilir ki, bu Ağalara (ə) yaxın şəxslər onlardan Əbu Əlinin iddialarının ziddinə rəvayətlər nəql ediblər. Sözlərini Şöbə ibn Həccaca və filan-filan şəxslərə istinad da ediblər. İmamların (ə) o iki şəxs (Əbu Bəkr və Ömər) barədə sözləri isə: onların haqqına ilk zülm edənlər olması, camaatı onların boynuna mindirməsi, mallarını alması, qarşılarını kəsməsi və özləri daha layiq olduqları halda onların yerində əyləşməsidir. Bu və bundan əlavə bir çox zülmlər barədə sözləri məşhurdur. Qeyd etdiyimiz və etmədiyimiz şikayətlərin həcmi o qədər genişdir ki, bizim bu kitabımıza sığmaz. Əhli-Beytdən (ə) bu barədə nəql olunanlara nəzər salmaq istəyən şəxs Əbu İshaq İbrahim ibn Səid Səqəfinin "əl-Mərifət" kitabına müraciət etsin. O, Əhli-Beytin (ə) hər bir üzvündən aydın istinadlarla və heç bir artırma olmadan bu barədə rəvayətlər nəql edib".*[674]

Qazi Əbdülcabbarın sözlərindən və ona Seyyid Mürtəzanın cavabından məlum olur ki, İhsan Zahirin bu rəvayəti şiə mənbəyinə istinad etməsi

---

[674] əş-Şafi fil-İmaməti, c. 4, s. 115-116

yanlışdır. Məlum olduğu kimi, o, bu rəvayəti Qazi Əbdülcabbardan nəql edir ki, ardınca onun batil iddiasını rədd etsin. Bu, Seyyid Mürtəzanın qəbul etdiyi və ya dəlil kimi göstərdiyi rəvayət deyil.

**Yeddinci: İmam Həsən Əskəriyə (ə) nisbət verdiyi rəvayət**

İhsan Zahir deyir: **"Lakin biz yolu qısaltmaq məqsədilə onların sonuncu, on birinci məsum imamları olan, Həsən Əskəri ləqəbli Həsən ibn Əlinin sözlərinə nəzər salaq. O, hicrət hadisəsi barədə danışarkən deyir: "Peyğəmbər Əlidən (r) onun yatağına uzanmasını xahiş etdikdən sonra Əbu Bəkrə (r) dedi: "Ey Əbu Bəkr, mənimlə birlikdə olub, məndən tələb olunanların səndən də tələb edilməsinə, söylədiklərimə məni təşviq etməkdə ittiham olunmağına, cürbəcür əzab və əziyyətlərə mənimlə birgə daşımağa razısanmı?"**

**Əbu Bəkr dedi: "Ey Peyğəmbər! Əgər mən dünya durduqca yaşasam, ölüm və ya qurtuluş gəlməsə belə sənin məhəbbətin uğrunda ən şiddətli əzablara düçar olmağım mənə dünyada xoş yaşayıb və sənə müxalif olan bütün padşahların mülkünə sahib olmaqdan daha sevimlidir. Məgər özüm, malım və övladlarım sənə fəda deyilikmi?!"**

**Peyğəmbər (s) buyurdu: "Əlbəttə, əgər Allah sənin qəlbinə nəzər salıb sözlərinin qəlbindəkilərə uyğun olduğunu görərsə, səni mənim üçün göz və qulaq, bədənin başı və cismin ruhu kimi qərar verər".**[675]

**Müzakirə**

İmam Həsən Əskəriyə (ə) nisbət verilən təfsirdən nəql etdiyi bu rəvayət onun iddia etdiyinə ziddir. Çünki Əbu Bəkrin sözlərinin qarşılığında Peyğəmbər (s) buyurur: **"Əlbəttə, əgər Allah sənin qəlbinə nəzər salıb**

---

[675] Şiə və Əhli-Beyt, s. 57-58

**sözlərinin qəlbindəkilərə uyğun olduğunu görərsə, səni mənim üçün göz və qulaq, bədənin başı və cismin ruhu kimi qərar verər".** Bu, şərt cümləsidir. Sanki Peyğəmbər (s) ona demək istəyir ki, əgər düz deyirsənsə, o zaman sən mənə nisbətdə göz və qulaq, bədənin başı və cismin ruhusan. Bu isə aydın bir eyhamdır. Çünki Peyğəmbərə (s) onun qəlbindəki barədə məlumat verilmişdi, əgər qəlbindəkinin dilinin söylədiklərinə uyğun olduğunu görsəydi, bunu şərt deyil, təsdiq cümləsi ilə söyləyərdi.

Bu mənanı rəvayətin tam mətnində cərəyan edən, lakin İhsan Zahirin nəql etmədiyi hadisələr də təsdiqləyir. Belə ki, Peyğəmbər (s) Əbu Bəkrdən əvvəl Əlidən (ə) onun yerinə uzanmasını xahiş edir və o, razı olur. Peyğəmbər (s) onun razılığını təsdiqləyərək buyurur: *"Ey Əbəl-Həsən! Sənin verdiyin bu cavabı mənə Lövhi-məhvuza müvəkkil olan mələklər xəbər veriblər. Onlar həmçinin, mənə Allahın Cənnətdə sənin üçün hazırladığı, heç kimi eşitmədiyi, görmədiyi və ağlından keçirmədiyi savablar barədə də məlumat veriblər".*[676]

Göründüyü kimi, İmam Əli (ə) barədə şərt cümləsindən istifadə etmədi. Əksinə, sözünü təsdiqləmək üçün Lövhü-məhfuza məmur mələklərin bunu söylədiyini və qarşılığında Cənnətdə onun üçün hazırlanan mükafatlardan xəbər verdi. Lakin Əbu Bəkr barədə bu sözlərdən heç birini söyləmir, hətta onun sözlərini şərt cümləsi ilə sual altına alır. İmam Əliyə (ə) söylədiyi sözləri Əbu Bəkrə söylədikləri ilə müqayisə etmək isə mümkün deyil.

### Səkkizinci: İbn Abbasdan nəql etdiyi rəvayət

İhsan Zahir deyir: **"Bu, İbn Abbasdır, Siddiqi yad edir və deyir: "Allah Əbu Bəkrə rəhm eləsin, Allaha and olsun ki, o, fəqirlərə qarşı mərhəmətli, çox Quran oxuyan, insanları pisliklərdən çəkindirən, dinini bilən, Allahdan qorxan, qadağan olunmuşlardan çəkinən,**

---

[676] Təfsiru Həsən Əskəri, s. 467

**yaxşılığı əmr edən, gecələri ibadətdə keçirən və gündüzləri oruc tutan şəxs idi. Səhabələrdən təqvası, zahidliyi və iffəti ilə üstün idi”.**[677]

**Müzakirə**

**1** – İsbat olundu ki, ayəyə və səhih rəvayətlərə əsasən, Əhli-Beytdən (ə) məqsəd bütün Bəni-Haşim deyil, Peyğəmbərin (s) əbasının altına daxil etdiyi şəxslərdir. İbn Abbas isə, İmam Əlinin (ə) yanında böyük hörmətə sahib olsa da, Əhli-Beytdən (ə) sayılmır.

Burada İbn Abbasın sözlərini dəlil kimi təqdim etmək düzgün deyil. Çünki şiə əqidəsinə görə, Bəni-Haşim Əhli-Beyt ünvanından kənardır. Peyğəmbərin (s) bütün qohumlarını Əhli-Beyti kimi təqdim etmək isə yanlışlıqdan savayı bir şey deyil.

**2** – Bu rəvayət şiələrə dəlil ola bilməz. Çünki şiə mənbələrində nəql edilməyib. Onu şiələrdən yalnız “Nasixut-təvarix”in müəllifi öz kitabında nəql edib. Həmin kitabda rəvayəti qeyd etməkdə məqsədi isə mətndəki Möminlərin əmirini (ə) tərifləyən sözləri dəlil göstərməkdir. Hədisin əsl mənbəyi əhli-sünnə kitablarındadır. Onu Təbərani “əl-Möcamul-kəbir”də qeyd edib. Digərləri isə Təbəraninin nəql etdiyi yolla öz kitablarına salıblar. Bu hədis nə “Nasixut-təvarix” kitabına və nə də digər şiə müəlliflərinə nisbət verilə bilməz. Həmçinin bu rəvayət Təbəraninin qeyd etdiyi yolla da zəif rəvayətdir. Bunu Heysəmi “Məcməuz-zəvaid”də deyib: *“Bunu Təbərani rəvayət edib, ravilərin arasında tanımadığım şəxslər var”.*[678]

**3** – Bu rəvayət İhsan Zahirin üç xəlifənin İmam Əlidən (ə) üstün olduğuna dair əqidəsinə ziddir. Əgər rəvayəti qəbul edirsə, o zaman İmam Əlinin (ə) hamıdan fəzilətli olduğunu da etiraf etməlidir. Belə ki, Müaviyənin məktubunun cavabında İbn Abbas deyir: *“Allah Əbülhəsənə*

---

[677] Şiə və Əhli-Beyt, s. 53-54

[678] Məcməuz-zəvaid və mənbəuz-zəvaid, c. 9, s. 159

*mərhəmət göstərsin! Allaha and olsun ki, o, hidayət bayrağı, təqva mağarası, düşüncə məhəlli, mükəmməlik zirvəsi, zülmət gecələrin parlayan nuru, ən əzəmətli yola dəvət edən, keçmiş kitablarda olanları bilən, onları təvil edib və öyüdlərini çatdıran, hidayət təməllərinə bağlı, zülm və əziyyətdən çəkinən, məhvə aparan yollardan uzaq, iman gətirib təqvalı olmuşların ən yaxşısı, (xilafəti) köynək kimi geyinənlərin və üz döndərənlərin (həqiqətdə) ağası, həcc və səy edənlərin əfzəli, ədalətli və düzgün şəxslərin ən səxavətlisi, insanlar arasında peyğəmbərlərdən və Allahın nəbisi Mustafadan savayı hamıdan gözəl danışıqlı, iki qiblə sahibi idi. Hansı tövhid əhli onunla bərabər ola bilər?! Ən yaxşı xanımın əri, (Peyğəmbərin) iki nəvəsinin atasıdır. Gözlərim onun kimi bir şəxsi görmədi, Qiyamətədək və ondan sonra da görməyəcək. Onu lənətləyən kəsə Qiyamət gününədək Allahın və bəndələrinin lənəti olacaq".*[679]

### Doqquzuncu: Salman Farisiyə nisbət verilən rəvayət

İhsan Zahir deyir: **"Bu isə Salmandır. Peyğəmbərin (s) öz səhabələri barədə belə dediyini söyləyir: "Əbu Bəkr sizdən namaz və orucla üstün ola bilmədi, lakin qəlbində qərar tutan əzəmətli bir şeylə üstün oldu".**[680]

### Müzakirə

Bu, Salman Farisinin (r) sözü deyil. Həmçinin şiə mənbələrində də rəvayət edilməyib. Əksinə, bu, bəzi qeyri-mötəbər sünni kitablarında qeyd edilmiş uydurma bir hədisdir. Həqiqətdə isə həmin sözlər Əbu Bəkr Əyyaşiyə məxsusdur. Bunu Qari "əl-Mövzuat" kitabında İbn Qeyyimdən nəql edərək deyir: *"Siddiqin fəzilətləri barədə sünilərə nisbət verdiyi*

---

[679] əl-Möcamul-kəbir, Təbərani, c. 10, s. 238

[680] Şiə və Əhli-Beyt, s. 59

*uydurma hədislərindən: "Qiyamət günü Uca Allah insanlara ümumən, Əbu Bəkrə isə məxsusi şəkildə təcəlla edəcək"; "Allah qəlbimdə nəyi qərarlaşdırdısa, onu Əbu Bəkrin qəlbində də sabit etdi"; "Cənnətə müştaq olduğum zaman Əbu Bəkrin ağ saçlarını qoxlayıram"; "Mən və Əbu Bəkr bir-birimizlə eyniyik"; "Allah ruhları seçərkən Əbu Bəkrin də ruhunu seçmişdir"; Ömərdən nəql edir: "Peyğəmbərlə (ə) Əbu Bəkr söhbət edərkən mən onların arasında zənci kimi olurdum"; "Əgər Ömərin fəzilətləri barədə Nuhun yaşadığı ömür boyu danışsam, bitməz. Ömərin savabları Əbu Bəkrin savablarına nisbətdə azdır"; "Əbu Bəkr sizdən namaz və orucla üstün ola bilmədi, lakin qəlbində qərar tutan əzəmətli bir şeylə üstün oldu" – rəvayətləri Əbu Bəkr Əyyaşinin sözləridir".*[681]

İsmail ibn Muhəmməd Əcluni "Kəşful-xəfa"da deyir: *"əl-İhya"da bunu qeyd edib, onu nəql edən İraqi deyir: "Bunun raviləri tam qeyd edilib. Bu, Həkim Tirmizinin və Əbu Yəlanın nəzərində Aişədəndir, Əhməd ibn Mənidə Əbu Bəkrdən nəql edilir. Hər ikisində ravilərindən biri yoxdur. "ən-Nəvadir"də deyilir: "Bu, Bəkr ibn Abdullah Muzninin sözüdür".*[682]

Yalan hədisləri yayanların və İhsan Zahirin öyündüyü əsli olmayan bu rəvayətin uydurulmasının səbəbi, bəlkə də camaatın Əbu Bəkrin namaz və orucunun azlığı barədəki hədisləri eşitdikdə təəccübə gəlmələri olub. Ona görə də bu hədisi uydurub, "əhəmiyyətli olan namaz və oruc deyil, qəlbdə olandır" fikrini yaymaq istəyiblər. Necə ki, bu, İbrahim ibn Amir Übeydi Malikininin "Ümdətut-təhqiq" kitabında da qeyd olunur: *"Əbu Bəkr siddiq öldükdən sonra Ömər onun yerinə xəlifə oldu. Ömər Əbu Bəkrin yolunu izləyir və hərəkatlərində onun kimi olmağa çalışırdı. Tərəddüd etdiyi hər kiçik məsələdə Aişəyə və Əsmaya müraciət edirdi. (Bir dəfə) deyirdi: "Siddiq*

---

[681] əl-Mövzuatul-kubra, Qari, s. 132

[682] Kəşful-xəfa, Əcluni, c. 2, s. 190

*gecələr evdə yalnız qalanda nə edirdi?" Ona deyilmişdi: "Onun gecələr çox namaz qıldığını görməmişik..."*[683]

[683] Ümdətut-təhqiq, Übeydi Maliki, s. 135

## İkinci fəsil: Əbu Bəkrin xəlifəliyindən Əhli-Beytin (ə) razı olduğu iddiası

### Giriş

İhsan İlahi Zahir Əhli-Beytin (ə) Əbu Bəkrin xəlifəliyindən razı olduğunu iddia edir. Bu iddiasını isbatlamaq üçün bir neçə rəvayəti dəlil olaraq göstərir. Bunlar:

**Birinci rəvayət: Allah və Rəsuluna ən səmimi olanı xəlifə Siddiq, sonra isə onun xələfi xəlifə Faruq idi...**

İhsan Zahir deyir: **"(Möminlərin əmiri Əli) Şam əmiri Müaviyə ibn Əbu Süfyana yazdığı məktubda birinci xəlifə Siddiqin xəlifəliyini və fəzilətini təsdiqləyir, ölümündən sonra onun üçün bağışlanma və xeyir diləyir, Rəbbinin dərgahına getdiyindən (onlardan ayrıldığına görə) təəssüflənir. Məktubunda yazır: "Qeyd etdin ki, Allah müsəlmanlardan onun üçün yardımçılar seçdi, onları onunla (peyğəmbərlə) gücləndirdi. Onun yanındakı məqamları, sənin güman etdiyin qədərilə, İslamdakı fəzilətlərinə görə idi. Aralarından Allah və Rəsuluna ən səmimi olanı xəlifə Siddiq, sonra isə onun xələfi xəlifə Faruq idi...**

**Ömrümə and olsun, o ikisinin İslamdakı məqamı böyük və onlara üz verən müsibətin İslamdakı yarası dərindir. Allah onlara rəhm eləsin və etdikləri yaxşı əməllərinə görə mükafatlandırsın!"**[684]

---

[684] Şiə və Əhli-Beyt, s. 63. İbn Meysəm Bəhraninin "Nəhcul-Bəlağənin şərhi" kitabından nəql edilərək. s. 477, Tehran çapı

**Müzakirə**

**Birinci cavab: Məktubda Əbu Bəkrin xilafətinin qanuniliyi etiraf edilmir**

İmam Əlinin (ə) cavab xarakterli bu məktubu heç də özündən əvvəlki xəlifələrin hakimiyyətindən razılığına dəlalət etmir. Çünki Müaviyənin Möminlərin əmirinə (ə) göndərdiyi məktubda, eləcə də İmamın (ə) yazdığı cavabın tam mətnində onların xilafətindən razı olmadığı görünür. Belə ki, Müaviyə İmam Əliyə (ə) yazdığı məktubda deyir: *"Onların hamısına həsəd apardın, hamısına qarşı çıxdın. Bunu sənin kəc-kəc baxışlarından, acı sözlərindən, dərin nəfəs almağından və xəlifələrdən kənar gəzməyindən də anlayırdıq. Bütün bunlara baxmayaraq, səni dəvənin noxtasından tutub sürüdükləri kimi beyətə apardılar.*

*Öz bibin oğluna səndən çox heç kim həsəd eləmədi. Halbuki onun fəzilətinə və sənə olan yaxınlığına görə məhz sən bunu etməməliydin. Nəticədə qohumluq əlaqəsini kəsdin, yaxşılıqlarını pislik kimi yad etdin, ədavət apardın, içində saxladıqlarınla insanları ona qarşı qaldırdın, sonda camaat hər yerdən öz dəvələrini və atlarını onun üzərinə sürdü. Peyğəmbərin (s) hərəmində onun üzərinə qılınc sıyırdın. Sənin gözünün qarşısında qətlə yetirildi. Həmin vaxt onun çəkdiyi ağrılardan fəryadını eşidirdin. Lakin nə sözünlə və nə də əməlinlə onu müdafiə etmədin.*

*Ömrümə and olsun, ey Əbu Talibin oğlu, əgər onun haqqını müdafiə edib camaatı bundan çəkindirsəydin, tələb etdiklərinin pis şey olduğunu onlara bildirsəydin bizim tərəfimizdən bir nəfər də səndən uzaqlaşmazdı. Səni Osmana qarşı üsyankar və onu tərk etmiş şəxs kimi tanımazdıq.*

*Digər tərəfdən, sən Osman ibn Əffanın yoldaşlarının nəzərində qətldə şübhəli şəxssən. Onun qatilləri sənə pənah gətiriblər. Onlar bu gün sənin gücün, vuran əlin və yardımçılarındır. Mənə xəbər çatıb ki, sən Osmanın intiqamından əl çəkmiş və Osmandan uzaq olduğunu bildirmisən. Əgər doğru deyirsənsə, o zaman qatilləri bizə ver ki, intiqam alaq. Bunu etsən sənə tərəf*

*qaça-qaça gələn şəxslərin ilki biz olacağıq. Əks təqdirdə aramızda yalnız qılınc hökm edəcək..."*

Müaviyə bu sözləri ilə sadə və avam insanlarda təsir qoymağa çalışır, İmamın (ə) əvvəlki xəlifələri inkar etməkdə məqsədinin xilafəti ələ keçirmək olduğu zənnini yaratmağa səy göstərir. Guya, bu inkar onun xəlifələrə olan həsədindən irəli gəlirdi. Əgər Müaviyə bu işin batil və yanlış olduğunu düşünürdüsə, o zaman halbuki özü də hazırda İmama (ə) qarşı eyni mövqedə idi. Bütün bunlar avam camaatın fikrini yayındırmaq cəhdlərindən savayı bir şey deyildi.

Lakin həqiqətlər bu və ya digər şəkildə onun dilindən də zahir olurdu. Xüsusilə də Muhəmməd ibn Əbu Bəkr kimi haqqı bilən, buna yəqinliklə inam bəsləyən və haqq əhlini tanıyan, eləcə də batili ayırd edən, onu haqdan ayıran və batil əhlini tanıyan şəxslərlə yazışmalarında bu aydın görünür. Muhəmməd ibn Əbu Bəkrə yazdığı məktubunda Müaviyə yaranmış vəziyyətlə əlaqədar olaraq xilafətin necə Əbu Bəkrə, ondan sonra Ömərə və Osmana keçdiyini açıq bəyan edir. Çünki Muhəmməd ibn Əbu Bəkr haqqı bilirdi, batilə haqq donu geyindirməklə onu aldatmaq mümkün deyildi. Bu, həqiqət axtaran oxucular üçün xüsusi diqqət yetirilməli bir etirafdır. Müaviyə yazır: *"Müaviyə ibn Əbu Süfyandan atasına qarşı çıxmış Muhəmməd ibn Əbu Bəkrə! Hidayət ardınca gedən və təqva tədarük edənlərə salam olsun!*

*Sənin məktubun mənə çatdı. Allahı böyük ləyaqət, qüdrət və qüvvətlə yad etmisən. Onun Peyğəmbərinin xüsusiyyətlərini düzüb qoşduğun çoxlu sözlərlə, eləcə də öz atana olan əsassız nəzərlərinlə açıqlamış, kobud davranmısan.*

*Bu məktubda Əbu Talibin oğlunun üstünlüyünü, onun Allahın Peyğəmbəri ilə qohumluğunu, ona yardımlarını, vəfasını, qorxu və dəhşət zamanında yanında olduğunu açıqlamısan. Eləcə də mənə öz fəzilətlərini deyil, yalnız*

*onun fəzilətlərini sübut kimi təqdim etmisən. Allaha həmd və şükür edirəm ki, bu fəzilətləri sənə deyil, başqasına əta etmişdir.*

*Mən və sənin atan Peyğəmbər həyatda ikən Əbu Talibin oğlunun haqqını özümüzə vacib bilir və bizə olan üstünlüyünü açıq-aşkar görürdük. Peyğəmbər Allahın vədəsini yerinə yetirib, dinini qalib və dəlillərini möhkəm etdikdən sonra Uca Allah onun canını aldı, Öz yanına apardı. Sənin atan və dostu Ömər onun (Əli ibn Əbu Talibin) haqqını mənimsəyən, onun qarşı çıxan və bu işdə bir-birləri ilə əlbir olan ilk şəxslər idilər. Sonra bu iki nəfər onu özlərinə beyətə dəvət etdilər. O, bundan imtina etdikdə, onu ağır möhnətlərə salmaq üçün planlar qurdular. Nəhayət onlarla beyət etdi. Sonra onların (xəlifələrin) üçüncüsü, yəni Osman xilafət kürsüsündə əyləşib onların yolunu və üslubunu davam etdi. Sən və sənin dostların ona irad tutdunuz, hətta ən günahkar şəxslər belə ona qarşı çıxıb əleyhinə fitnələr yaratdılar. Axırda öz arzularına nail olub onu öldürdülər.*

*Ey Əbu Bəkrin oğlu! Sənə xəbərdarlıq edir və tutduğun işə görə tezliklə əzab-əziyyətlərə düçar olacağını bildirirəm. Bil və agah ol ki, səbri və dözümü dağlarla bərabər olan, kimsənin zorakılıqla məğlub etməyə qadir olmadığı şəxsin yolu ilə gedə bilməzsən. Daha artıq səbrə malik olan şəxslər də onun kimi ola bilməzlər.*

*Lakin sənin atan (Əbu Bəkr) zəmin yaradıb öz hakimiyyətinin təməlini qurdu və onu yüksəkliklərə ucaltdı.*

*Əgər bizim gördüyümüz işlər düzgündürsə, bunun təməlini qoyan sənin atan olmuşdur, yox, əgər əyri yol olub zülm sayılırsa, yenə də onun əsasını qoyan sənin atandır və biz də onunla (bu günahda) şərikik. Sənin atan bunu etməsəydi, biz Əli ibn Əbi Talibə qarşı çıxmaz və onun əmrinə təslim olardıq. Lakin sənin atanının bunları etdiyini görüb, biz də onun kimi davrandıq, yolunu davam etdirdik. Əgər irad tutmaq istəyirsənsə, ya öz atana irad tut,*

*ya da bu işdən əl çək. Azğınlığından üz döndərib tutduğu işlərdən tövbə edən və peşman olan şəxslərə salam olsun".*[685]

Bu məktubu oxuyan şəxs Əbu Bəkr və Ömərin əməllərinin həcmini, İmam Əlinin (ə) onlardan razı olub-olmadığını asanlıqla anlaya bilər.

Bu Müaviyədir, atasının əməllərindən Muhəmməd ibn Əbu Bəkrin (ə) razı olmadığını bildirir. Məktubuna *"...atasına qarşı çıxmış Muhəmməd ibn Əbu Bəkrə"* sözləri ilə başlayır. Ərəbcə mətndəki "əz-Zari" kəlməsi lüğətdə "eyib tutaraq inkar və ittiham edən" mənasını verir. Xəlil ibn Əhməd Fərahidi deyir: *"Yəzri fulanun əla sahibihi əmra" (filan şəxs öz dostuna bir işi eyib tutdu) – bu əməldən geri çəkilməsi üçün onu ayıblayır və danlayır. Məsdər olan "İzra" kəlməsi isə – insanlara qarşı diqqətsiz mənasını verir".*[686]

Cövhəri deyir: *"əz-Zari ələ-insan (insanı ayıblayan) – yəni onu əhəmiyyətsiz sayan və əməllərini inkar edən".*[687]

Muhəmməd ibn Əbu Bəkr öz atasının əməllərini inkar edirdi. O, atasının hərəkətlərini pisləyir və yanlış görürdü. Əgər Muhəmməd ibn Əbu Bəkrin atasına qarşı münasibəti belədirsə, o zaman İmam Əlinin (ə) münasibəti necə olar?! Bu məsələnin bir tərəfi.

Digər tərəfdən: Müaviyə fitnənin mənşə və təməlinin Əbu Bəkr tərəfindən qoyulduğunu bildirir. Bu, onun məktubunda da aşkar görünür: *"Əgər bizim gördüyümüz işlər düzgündürsə, bunun təməlini qoyan sənin atan olmuşdur, yox, əgər əyri yol olub zülm sayılırsa, yenə də onun əsasını qoyan sənin atandır və biz də onunla (bu günahda) şərikik. Sənin atan bunu etməsəydi, biz Əli ibn Əbi Talibə qarşı çıxmaz və onun əmrinə təslim olardıq. Lakin sənin atanının bunları etdiyini görüb, biz də onun kimi davrandıq, yolunu davam etdirdik. Əgər irad tutmaq istəyirsənsə, ya öz atana irad tut..."*

---

[685] Ənsabul-əşraf, Bəlazuri, s. 396-397
[686] Kitabul-eyn, Xəlil Fərahidi, c. 7, s. 381
[687] əs-Sihah, Cövhəri, c. 6, s. 2367

Buna əsasən, Müaviyə özünün dinə zidd rəftarına və müsəlmanların xəlifəsinin üzərinə müharibəyə qalxmasına Əbu Bəkrin əməllərini dəlil göstərməklə bəraət qazandırır. Onu Əliyə (ə) qarşı çıxmağa, haqqı olmayan şeyi mənimsəməyə cürətləndirən məhz Əbu Bəkrin hərəkətləridir. Necə ki, bu məktubun Məsudidən nəql edilən nüsxəsində Müaviyə Əbu Bəkrin hərəkətləri barədə məhz "mənimsəyən" kəlməsindən istifadə edir.

Bunlar Müaviyənin sözləri də olsa, ona bəraət qazandırmaz. Çünki onun da vəzifəsi haqqı araşdırmaq və onun ardınca getmək idi. Lakin məsələ budur ki, o, Əbu Bəkrin hərəkətlərini öz əməllərinə, batil işlərinə və peyğəmbərlər Ağasının (s) şəriətinə qarşı çıxmağa dəlil kimi istifadə edir. Necə ola bilər ki, Muhəmməd ibn Əbu Bəkr haqqı bilsin, onun ardınca getsin, atasına qarşı çıxsın, lakin Müaviyə bunları bilməsin?! Əksinə, o, bütün bunları gözəl bilirdi, ancaq bir-iki günlük fani dünya şövqü onu bilərək haqqa qarşı çıxmağa sövq elədi.

Hər halda – heç bir şəkk yeri qoymadan – məktub, aydın şəkildə Möminlərin əmiri Əlinin (ə) Əbu Bəkrin xilafətindən razı olmadığını bəyan edir.

Məgər İhsan Zahir Əbu Bəkrin xilafətinə Əlinin (ə) münasibəti barədə "Möminlərin dayısından"[688] çox bilirdi?!

**İkinci cavab: İmam (ə) Müaviyəni özünün də inam bəslədiyi məsələlərə tabe olmağa çağırır**

İmam (ə) yazışmasında Müaviyəyə onun etiqad bəslədiyi məsələlər əsasında xitab edir. Çünki onun əleyhinə dəlil göstərməkdədir. Bu dəlillər öz nəzərində batil və etiqadına zidd olsa belə rəqibin inam bəslədiyi məsələlərdən olmalıdır. Məqsəd isə nəticədə qarşı tərəfin haqqa boyun

---

688 Müaviyə Peyğəmbərin (s) zövcəsi, möminlərin anası Ümmü Həbibənin (Əbu Süfyanın qızı Rəmlənin) qardaşıdır. Buna görə də bəzi əhli-sünnə firqələri və sələfilər ona "Möminlərin dayısı" deyirlər.

əyməsidir. Müaviyənin xəlifələr barədə etiqadı belə idi. İmam (ə) da ona etiqad bəslədiyi məsələlərə uyğun rəftar etməyə çağırır.

İmam Əli (ə) Müaviyənin bu etiqadına özü inam bəsləmirdi, xilafətin qəsb edilmiş köynək kimi geyilməsinə razı deyildi. O (ə), haqq sahibi idi. Buna görə də cavab məktubunun sonunda İslamdakı mövqeyini, Peyğəmbər (s) yanındakı məqamını və Peyğəmbərdən (s) sonra rəhbərliyə ən layiqli şəxs olduğunu bəyan edir. Buyurur: *"Əgər ona (xilafətə) Muhəmmədə (s) görə layiq idilərsə, o zaman Muhəmmədə ən yaxın şəxslər bizik və xilafətə daha çox layiqik. Əks təqdirdə pay baxımından Ənsar ən əzəmətli ərəblərdir. Bilmirəm, səhabələr mənim haqqımın alınmasına razı oldular, yoxsa ənsar zülm etdi. Lakin haqqımın alındığını bildim. Allaha xatir onlardan uzaqlaşıb xilafəti tərk etdim".*[689]

İmamın (ə) cavabındakı **"sənin güman etdiyin qədərilə"** sözü Müaviyəni öz etiqad bəslədiyi məsələyə boyun əydirmək üçün söylənmiş daha bir dəlildir. Bununla İmam (ə) şamlı avam camaatın qarşısında da Müaviyənin saxta surətini bəyan edir və əleyhinə olan höccət tamamlayır. Müaviyə Möminlərin əmirinin (ə) birinci və ikinci xəlifələrə münasibətini tənqid edirsə və başqa bir tərəfdən onların xilafət haqlarının olmadığını deyirsə, o zaman qarşısındakı İmam Əli (ə) həm birinci, həm də ikinci cəhətdən qanuni haqq sahibidir. Lakin Müaviyənin bu üsula əl atması avam camaatın fikrində çaşqınlıq yaratmaqdan ötrü idi (haqqı bəyan edərək haqq cərgəsində dayanmaq deyildi). İmam (ə) onun hər iki iddiasının yolunu kəsir, Müaviyənin İslamdakı mövqeyini, birinci və ikinci barədəki ziddiyyətli fikirlərinin arasındakı fərqi göstərir.

**İkinci cavab:**

İmam Əlinin (ə) Müaviyəyə məktubunda Əbu Bəkri "Siddiq", Öməri isə "Faruq" kimi sifətlərlə vəsf etməsinin heç bir səhih əsası yoxdur. Bu

---

[689] Nəhcul-bəlağənin şərhi, İbn Meysəm Bəhrani, s. 489-490

məktubu qeyd edən mənbələrin heç birində İhsan Zahirin iddia etdiyi həmin vəsflərə rast gəlinmir. Məsələn, Bəlazurinin mətnində bu sözlər yoxdur: *"Qeyd etdin ki, şəni uca və ismi mübarək olan Allah möminlərdən onun üçün yardımçı seçdi və onun vasitəsilə dəstəklədi. Onların məqamı İslamdakı fəzilətlərinə görə idi. Onların ən fəzilətlisi <u>xəlifəsi (Əbu Bəkr) və ondan sonra xəlifəsinin xəlifəsi</u> (Ömər) idi".*[690]

Bu vəsf qeyd edilmədən məktubu İbn Hibban "əs-Siqat" kitabında da nəql edir. Hətta orada bu kəlmələrin əvəzində *"amma, xəlifələr barədə qeydinə gəldikdə, ömrümə and olsun ki..."* sözləri yer alıb.

**İkinci rəvayət: Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar**

İhsan Zahir deyir: **"Əli ibn Əbu Talib (r) öz xəlifəliyinin təsdiqi üçün Siddiqin (r) xilafətini dəlil göstərir. Bunları Şam əmiri Müaviyə ibn Əbu Süfyana (r) yazdığı cavabında qeyd edir: "Əbu Bəkr, Ömər və Osmanla beyət edənlər həmin yolla mənimlə beyət edərək əhd-peyman bağladılar. Odur ki, orada (beyətdə) olanların başqasını seçmək haqları yoxdur. Orda olmayanın da onu qəbul etməmək haqqı yoxdur. Məşvərət aparmaq mühacirlərin və ənsarın haqqıdır. Onlar toplaşaraq bir nəfəri xəlifə və imam adlandırsalar, Allahın razılığı da həmin işdə olar. Əgər kimsə (xəlifədə) eyib və nöqsan tapması səbəbindən və ya bidət nəticəsində onların əmrlərindən boyun qaçırsa, onu itaət etməyə vadar edərlər. Əgər onların göstərişlərini qəbul etməsə, onunla möminlərin yolundan başqa bir yolla getdiyi üçün vuruşarlar. Allah (da) onu üz tutduğu şeyin öhdəsinə**

[690] Ənsabul-əşraf, Bəlazuri, s. 28

**buraxar”.**[691]

**Müzakirə**

**Birinci cavab: Bu məktub Müaviyənin inandığı əsaslarla yazılıb**

Məktubun həqiqətən İmam Əlidən (ə) nəql olunduğu fərz edilsə, həmin sözlər xəlifəsinə qarşı mübarizəyə qalxmış və beyətdən boyun qaçırmış Müaviyənin qəbul etdiyi dəlillərə əsasən yazılıb. O, özünü müsəlmanların xəlifəsi sayır, lakin heç bir şəri dəlilə və ya özündən əvvəlkilərin rəftarına istinad edəcək dəlil göstərə bilmir. Sanki İmam (ə) deyir: Ey Müaviyə, sən Əbu Bəkrin, Ömərin və Osmanın xilafətinin düzgünlüyünü etiraf edirsən. Əgər onların xilafətinin düzgünlüyünün səbəbini onlara beyət edən şəxslərdə görürsənsə, həmin şəxslər mənə də beyət ediblər. Bəs nə üçün onların xəlifəliklərinin düzgünlüyünü təsdiq, mənim xəlifəliyimi isə inkar edirsən?!

**İkinci cavab: Rəvayətin dəlaləti İhsan Zahirin iddialarına ziddir**

Bu rəvayət xilafət məsələsində bütün mühacir və ənsarla məşvərət etməyin vacibliyini vurğulayır. Şübhə yoxdur ki, belə bir məşvərət keçirilmədən Əbu Bəkrə beyət edildi. Necə ki, bunu Buxari İbn Abbasın Ömər ibn Xəttabdan nəql etdiyi rəvayətdə qeyd edir: *“Mənə xəbər çatıb ki, filankəs deyib: “Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik. Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət həqiqətən də o cür olub. Amma, Allah onun şərindən qorudu. Sizlərdən heç kimin boynu Əbu Bəkrə əyildiyi kimi başqasına əyilmədi. Kim müsəlmanlarla məşvərət etmədən bir*

[691] Şiə və Əhli-Beyt, s. 61. Bu məktub barədə kitabın “Əhli-Beytin (ə) bütün səhabələrdən razı olduğu iddiasının dəlillərinin müzakirəsi” bəhsinin onuncu dəlilində söhbət açılıb.

*kəsə beyət etsə, o da, beyət edilən də aldadılmışdır. Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər".[692]*

İhsan Zahirin şiənin əleyhinə təqdim etməyə çalışdığı bu rəvayət həqiqətdə Əbu Bəkrin xilafətinin batilliyinə və qanuni olmadığına dəlildir. Çünki mühacir və ənsarla məşvərət edilmədən, icma olmadan baş verib. Əksinə, onun xəlifəliyinə Bəni-Haşim, Xalid ibn Səid ibn As kimi mühacir, ömrünün sonunadək Əbu Bəkrə beyət etməyən Səd ibn Übadə kimi ənsar qarşı çıxmışlar. İhsan Zahir bu rəvayəti Əbu Bəkrin xilafətinin düzgünlüyünə necə dəlil göstərə bilir? Halbuki rəvayət açıq-aydın şəkildə iddiasının əksinə dəlalət edir.

Eləcə də rəvayət Ömərin və Osmanın da xilafətinin batilliyinə dəlildir. Çünki onların xəlifəliyi mühacir və ənsarın icması ilə baş tutmayıb. Ömər Əbu Bəkrin təyinatı ilə xilafətin rəhbərliyinə keçib, Osman isə Ömərin altı mühacirdən ibarət Şurasının seçimi ilə xəlifə olub. Hətta Ömər səs çoxluğu ilə və ya Əbdürrəhman ibn Ovfun aralarında olduğu şəxslər tərəfindən seçilən şəxsin xəlifəliyini inkar edəni öldürməyə göstəriş vermişdi!

### Üçüncü cavab: Əhli-Beytə (ə) müraciətin zəruriliyi

Mühacir və ənsarın barəsində həmfikir olduqları məsələ həqiqətdə Əhli-Beytin (ə) istədiyi kimi nəticə verəcək. Çünki Əhli-Beytin (ə) ən üstün mühacirlər olması əsla ixtilaf mövzusu deyil. Bununla da İmam Əlinin (ə) mühacir və ənsarın icması barədə qeydi məhz Əhli-Beytin (ə) də aralarında olduğu qrupun verdiyi qərara tabe olmaqdır. Bu şərti qeyd etməsi ilə Müaviyədən onların qərarına boyun əyməyi tələb edir və qarşısına qəti dəlil qoyur. Mühacir və ənsarın icması, əlbəttə ki, Peyğəmbərin (s) "Qədir-Xum", "Səqaleyn" və bu kimi hədisləri ilə ümmət arasında xəlifə təyin etdiyi Əhli-Beytin (ə) hədəflərinə müvafiq olacaq.

---

[692] Səhih, Buxari, c. 8, s. 25-26, "Küfr əhli və mürtədlərlə müharibə kitabı".

Deməmk, bu hədis əvvəlki üç xəlifənin hakimiyyətinin düzgün olmadığına, eləcə də Əhli-Beytin (ə) rəyinin nəzərə alınmasının vacibliyinə dəlalət edir. Göründüyü kimi, hədis iddianın əksinə dəlildir.

**Dördüncü cavab**

Rəvayətin nəql edildiyi "Nəhcul-bəlağə"nin bəzi qədim nüsxələrində **"Allahın razılığı"** kəlməsi yoxdur. Onlarda həmin cümlə belə yazılıb: *"Onlar toplaşaraq bir nəfəri imam (rəhbər) adlandırsalar, razılıq da həmin işdə olar".* Yəni onların üzərində icma etdikləri şəxsdən razıdırlar. Bundan sonra öz razılıqları ilə seçdikləri şəxsə tabe olub ona yardım etməlidirlər. Cümlənin bu variantında ilahi hökm xarakteri sayılan Allahın razılığından söhbət getmir.

**Beşinci cavab**

Bir şəxsi xilafətə haqq sahibi bilməklə xilafəti təslim etmək arasında böyük fərq var. İmam Əli (ə), sözsüz ki, Allah tərəfindən təyin olunmuş imam və xəlifədir. İstər onun xəlifəliyi üçün uyğun şərait yaransın, istər yaranmasın. Lakin xilafətin təslim edilməsi ümumi bir kütlənin rəyinin varlığına bağlıdır ki, həmin kütlə buna hökm edir. Köməyinin olmaması səbəbindən Möminlərin əmiri (ə) Əbu Bəkr, Ömər və Osmanla savaşmadı. Ancaq həmin kütləvi yardım və imkanı tapdıqda nakisinlər, qasitinlər və mariqinlərlə müharibəyə qalxdı.

İmam Əli (ə) heç kimin ona beyətdən boyun qaçırmaması üçün həssaslıq göstərirdi. Bu səbəbdən də İmam Əlinin (ə) xəlifə seçilməsində formalaşmış şərtlərdən heç biri ilk üç xəlifənin seçimində yox idi. Ona beyətdən yalnız az sayda adam imtina etmişdi. Bütün bunlar İmamın (ə) öz xilafətini əvvəlki üç xəlifədə olduğu kimi zülm vasitəsilə bərqərar etmək istəmədiyini göstərir.

Deməkk, mühacir və ənsarın icması kütlə adından hökm verə bilən qurumun varlığına dəlalət edir. Yoxsa bir hakimin təyin olunması üçün bütün camaatın razılığının şərt olması ağıla müvafiq məsələ deyil.

Ona görə də İmam Əli (ə) deyirdi: “Əgər yanımda qırx nəfər köməkçim olsaydı Əbu Bəkrə beyət etməzdim”. Həmçinin deyir: “Əgər əmim Həmzə və qardaşım Cəfər həyatda olsaydılar, əsla bunlara beyət etməzdim”. Bu sözləri onun həqiqətən də imam, xəlifə və vəli olduğuna dəlalət edir. Lakin xilafət rəhbərliyini əldə etmək üçün həmin zamanda münasib şərait yaranmadı. Bütün bunlar İhsan Zahirin sözlərinin bir, Möminlərin əmirinin (ə) sözlərinin isə başqa məcrada olduğuna dəlalət edir.

**Üçüncü rəvayət: Camaatın seçimi beyətdən əvvəldir, beyətdən sonra isə seçim haqları yoxdur**

İhsan Zahir: **“(İmam Əli) Deyir: “Məndən əvvəlkilərə beyət etdiyinizə əsasən mənə də beyət etdiniz. Camaatın seçimi beyətdən əvvəldir, beyətdən sonra isə seçim haqları yoxdur”.**

**Bu, mənası açıq dəlildir. İmamət və xilafətin müsəlmanların bir şəxs üzərində ittifaqı və icması ilə təyin olunduğuna göz yummaq və ya irad bildirmək mümkün deyil. Xüsusilə də mühacir və ənsarın icması ilə həyata keçən ilk əsrdə. Onlar isə Əbu Bəkr və Ömər barəsində icma etmişdilər”.**[693]

**Müzakirə**

**Birinci cavab: İmam (ə) ona beyət etmiş müsəlmanlardan sözlərinin üzərində durmağı tələb edir**

[693] Şiə və Əhli-Beyt, s. 62

İmam (ə) ona beyət etmiş müsəlmanlardan sözlərinin üzərində durmağı tələb edir və etdikləri beyətdən irəli gələn itaətlə bağlı məsələləri onlara çatdırır. O, bu sözləri digər səhabələrini Zübeyr, Təlhə və digərləri kimi beyətlərini geri götürməkdən çəkindirmək üçün söyləyir. Təlhə İmama (ə) beyət edən ilk şəxs idi, lakin sonra beyətdən imtina edən ilk şəxs də o oldu. İmam Əli (ə) bu sözləri ilə deyir: Bu beyətin məsuliyyətini üzərindən atmaq beyətdən əvvəl mümkün idi. Çünki beyət – müəyyən insan kütləsinin xəlifəliyə layiq olan bir şəxsə itaətinin elanıdır. Əgər həmin şəxslə bərabər buna layiq başqa bir şəxs də olsaydı, o zaman itaətə hazır olduqlarını elan etməzdilər. Bunu necə edə bilər?! İtaət olunmayan şəxsin camaat üzərində heç bir səlahiyyəti yoxdur. Əgər camaat Allahın beyətini qadağan etdiyi (kafir bir şəxsə beyət kimi) bir şəxsə bütünlüklə beyət etsə, bu beyətin nə dəyəri olacaq? Belə bir beyətin həyatda baş verməsi mümkündür, lakin bu beyət həmin şəxsin hakimiyyətinə heç bir qanunilik qazandırmayacaq.

Əlbəttə, İmamın (ə) bu sözlərindən xəlifəliyin kimə və necə beyət edildiyi nəzərə alınmadan, yalnız mücərrəd beyət hadisəsi ilə reallaşdığını demək istədiyi düşünülməməlidir. Əsla, İmamın (ə) məqsədi bu deyil. Bu, İmam Əliyə (ə) tam uzaq bir düşüncədir.

Başqa sözlə, heç bir müsəlman İmam Əlinin (ə) xəlifəliyə layiq olduğuna şəkk etməz. O, özündə əqli və cismi kamillik xüsusiyyətlərini əks etdirən bir şəxsdir. Onun bu sifətləri, xüsusilə də fəzilətləri və məqamı barədə aydın və qəti şəri dəlillər mövcuddur.

Bəs necə ola bilər ki, o, İslam cəmiyyətində əmrlərinin nüfuz etməsi bacarığına sahib olmayan bir dəstə insan tərəfindən imam elan edilsin?!

Əlbəttə, camaatın əhəmiyyətli hissəsi onun vilayətini və özlərinin itaətini elan etmişdilər, bunun nəticəsində o, xəlifə seçilmişdi. Onun xəlifəliyə ləyaqəti heç də camaatın beyəti nəticəsində yaranmadı. Təbii ki, hakimiyyət və beyət məsələsi beyət edənlər olmasa reallaşmaz. Beyət

edənlərin varlığı İmamın (ə) hakimiyyət sükanının arxasına keçməsinin vacib şərtidir. Lakin bu da özlüyündə onun xəlifəliyə məhz həmin vaxt layiq olduğuna dəlalət etməz.

**İkinci cavab: Əbu Bəkrə beyətdə icmanın olmaması**

İhsan Zahir hansı icmadan bəhs edir? Halbuki Bəni-Haşim və Zübeyr Əbu Bəkrə beyətə ölüm hədələri və başları üzərində qılıncla gətiriliblər, Fatimənin (ə) evinin qapısını yandıracaqları ilə hədələyiblər. Buna dəlalət edən rəvayətləri əvvəldə qeyd etdik. Başa düşmürəm, məgər Əli (ə) mühacirlərdən deyilmi? Buxarinin təsdiqinə əsasən altı ay boyunca Əbu Bəkrə beyətdən imtina etmədimi?![694] Ən azından, həmin altı ay müddətində Əbu Bəkrin hakimiyyəti qanuni idi? Məgər ənsarın başçılarından olan Səd ibn Übadə beyət etmişdimi ki, ən azından, ənsarın icması ilə seçilib deyilsin?!

**Dördüncü rəvayət: Siz Osmana beyət etdiniz, mən də beyət etdim**

İhsan Zahir deyir: **"Tusi Əlidən rəvayət edir ki, Cəməldə məğlub edilmişlərlə bir araya gəldikdə onlara dedi: "Əbu Bəkrə beyət edib məni tərk etdiniz. Sonra mən sizin kimi Əbu Bəkrə beyət etdim... Ardınca Ömərə beyət etdiyiniz kimi mən də beyət etdim, beyətimə vəfalı oldum... Siz Osmana beyət etdiniz, mən də beyət etdim. Bundan sonra mən evimdə oturmuşdum, sizi çağırmadığım və məcbur etmədiyim halda yanıma gəldiniz, Əbu Bəkrə, Ömərə və Osmana beyət etdiyiniz kimi mənə də beyət etdiniz. Onlara etdiyiniz beyətlə mənə etdiyiniz beyət arasında fərq qoymağınıza haqqınız varmı?!"[695]**

---

[694] Səhih, Buxari, c. 5, s. 82. Nəql edilən həmin rəvayətdə *"Altı ay boyunca beyət etməmişdi"* deyilir.

[695] Şiə və Əhli-Beyt, s. 62-63

**Müzakirə**

İhsan Zahir Tusidən nəql etdiyi rəvayəti kəsərək mənasını dəyişmişdir. Qələmə aldığı "Şiə və Əhli-Beyt" kitabında onun bu üslubdan dəfələrlə istifadə etdiyini bildirmişik. Həmçinin qeyd etmişik ki, rəvayətin kəsilib təqdim edilməsi qadağan deyil, lakin bu, mənaya xələl gətirməməlidir. Məna dəyişikliyinə səbəb olsa, o zaman heç şübhəsiz ki, bu, saxtakarlıq və elmi əmanətə xəyanət sayılacaq. Tusinin "Əmali"də nəql etdiyi bu rəvayətin tam mətini sizə təqdim edirik ki, İhsan Zahirin saxtakarlıq və təhrifinin həcmi oxucuya aydın olsun:

*"Hişam ibn Müsahiqdən, o da atasından nəql edir: "Cəməl müharibəsində idim. Aralarında Mərvanın da olduğu döyüşdə məğlub olan qüreyşlilərlə bir yerə toplaşdıq. Bəziləri deyirdi: "Allaha and olsun ki, bu kişiyə (yəni Əliyə) zülm etmişik. Pis bir iş etmədiyi halda onun beyətindən imtina etdik. Ardınca bizə qələbə çaldı. Peyğəmbərdən (s) sonra rəftarında ondan kəramətlisini, bağışlamaqda ondan yaxşısını görmədik. Gəlin, yanına gedək, etdiyimiz əməllərə görə ondan üzr istəyək".*

*Onun yanına getdik. Bizimlə gələnlər sözlərini dedikdən sonra buyurdu: "Sakit olun, kifayətdir! Mən də sizlərdən biriyəm. Əgər doğru desəm məni təsdiqləyin, əgər sözlərim doğru olmasa inkar edin. Allahı sizə şahid tuturam, bilmirdiniz ki, Peyğəmbər (s) dünyadan köçəndə mən bütün insanlardan ona ən yaxını idim?*

*Dedilər: "İlahi, elədir!"*

*– Siz isə Əbu Bəkrə beyət edib məni tərk etdiniz. Mən də sizin kimi Əbu Bəkrə beyət etdim. Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Əbu Bəkr özündən sonra onu (xilafəti) Ömərə həvalə etdi. Siz yenə də Peyğəmbərə (s) bütün insanlardan daha yaxın olduğumu bilirdiniz. Ömərə beyət etdiyiniz kimi mən də beyət etdim. Etdiyim beyətə də vəfa göstərdim. O, qətlə yetiriləndə məni altı nəfərin altıncısı qərar verdi.*

*Məni Şuraya daxil etdiyi üçün iştirak etdim. (Şuranın aldığı qərara qarşı çıxaraq) Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Siz Osmana beyət edəndə mən də beyət etdim. Sonra siz Osmana qarşı etiraza qalxıb onu qətlə yetirdiniz. Mən o zaman evimdə oturmuşdum. Sizi çağırmadığım və məcbur etmədiyim halda yanıma gəldiniz, Əbu Bəkrə, Ömərə və Osmana beyət etdiyiniz kimi mənə də beyət etdiniz. Onlara etdiyiniz beyətlə mənə etdiyiniz beyət arasında fərq qoymağa haqqınız varmı?!*

– Ey Möminlərin əmiri! Saleh bəndənin dediyi kimi ol: ***"(Yusif) dedi: "Bu gün sizə (etdiklərimizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!"***[696]

*– Mən belə deyirəm: "Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir! Halbuki sizin aranızda elə adamlar var ki, mənə əli ilə beyət etsə, arxasını çevirdikdə beyətini pozacaq (Mərvanı nəzərdə tuturdu)".*[697]

Bu rəvayətdə İmam Əlinin (ə) Əbu Bəkr və Ömərə xilafətə haqq sahibi olduqlarına etiqad bəslədiyi üçün beyət etmədiyi aydın şəkildə ifadə olunur. Əksinə, müsəlmanların arasında ixtilaf və fitnə düşəcəyi qorxusundan, cəmiyyətdə qarşıdırma yaratmaq istəmədiyinə görə bunu edir. Çünki haqqını tələb etməyə qalxsaydı, o zaman bunun ziyanı qəsb olunmuş xilafət haqqının zərərindən daha böyük olacaqdı. Halbuki özü və elm əhli də onun Peyğəmbərə (s) ən yaxın şəxs olduğunu bilirdilər. Bu isə o deməkdir ki, İmam Əli (ə) heç vaxt başqasının xilafətə özündən çox haqqının olduğunu düşünmürdü. Onun beyətini pozanlara dəlil olaraq söylədiyi: *"Əbu Bəkrə, Ömərə və Osmana beyət etdiyiniz kimi mənə də beyət etdiniz. Onlara etdiyiniz beyətlə mənə etdiyiniz beyət arasında fərq qoymağa haqqınız varmı?!"* – sözü ilk üç xəlifənin rəhbərliyə layiq kəslər olduğuna

---

696 Yusuf, 92

697 əl-Əmali, Şeyx Tusi, s. 507

deyil, bunun ziddinə söylədiyi dəlildir. Rəvayətin mətnində də onların xilafətə heç bir haqları olmadıqları halda yiyələndiklərini aydın bəyan etdi.

Başqa sözlə: Əbu Bəkrin, Ömərin və Osmanın xilafətinin düzgün olduğuna dəlil kimi İhsan Zahirin nəql etdiyi bu rəvayət öz iddiasına ziddir. Çünki İmam Əlinin (ə) etdiyi beyətdə məqsədi, rəvayətdən də göründüyü kimi, yalnız müsəlmanların vəhdətinin qorunması və hərc-mərcliyə, fitnələrə şərait yaratmamaq səbəbindən idi. O, xəlifələri əsla xilafətə layiq şəxs hesab etmirdi ki, onlar Əhli-Beytin (ə) razılığını da əldə etsinlər. İmamın (ə) onlara beyəti İslam və müsəlmanların gələcəyi ilə bağlı atılmış mühüm addım idi. O, insanların yenidən cahiliyyə dövrünün hökmlərinə qaytarılmasından qorxurdu... İmam Əli (ə) Peyğəmbərə (s) ən yaxın və insanlar arasında ən üstün şəxs olduğunu açıq bəyan etdi. Cəməl müharibəsində məğlub olanlar da bunu etiraf edərək təsdiqlədilər. İmamın (ə) söylədikləri və qarşısındakı insanların da bunu iqrar etməsi Qədir-Xum və digər bu mövzuda olan hədislərdən doğur. İmam (ə) öz sözlərində üç əsas məsələni isbatlayır:

**Birinci:** O, Peyğəmbərə (s) ən yaxın və insanlar arasında xilafətə ən layiqli şəxs idi.

**İkinci:** İnsanlar onu tərk edib Peyğəmbər (s) yanında üstünlüyə sahib olmayan kəsə beyət etdilər.

**Üçüncü:** İmam Əli (ə) müsəlman ümmətinin sıralarındakı vəhdəti qorumaq üçün özündən əvvəlki xəlifələrə beyət etdi.

### Beşinci rəvayət: İmamın beyət barədə Üsamənin sualına müsbət cavab verməsi

İhsan Zahir deyir: **“Təbərsi də həmçinin Muhəmməd Baqirdən Əlinin Əbu Bəkrin xilafətini təsdiq və imamətini etiraf etdiyini, hakimiyyətinə beyət gətirdiyini nəql edir. Peyğəmbərin sevimlisi**

**Üsamə ibn Zeyd ordu ilə yola düşdükdə Allah rəsulunun (s) dünyadan köçdüyünü eşitdi. Məktub ona çatar-çatmaz ordu ilə birlikdə Mədinəyə qayıtdı. Camaatın Əbu Bəkrin ətrafında toplandığını gördükdə Əli ibn Əbu Talibin (ə) yanına gəlib dedi: "Nə baş verir?" İmam Əli (ə) buyurdu: "Gördüklərin baş verir". Üsamə onun beyət edib-etmədiyini soruşduqda, İmam "Bəli" deyə cavab verdi".[698]**

**Müzakirə**

İhsan Zahir adəti üzrə bu rəvayəti də təhrif edib və onun iddiasının əksini isbatlayan hissələri kəsib. Təbərsinin "əl-İhticac"da nəql etdiyi rəvayət belədir: *"İmam Baqirdən (ə) rəvayət olunur ki, Ömər ibn Xəttab Əbu Bəkrə dedi: "Üsamə ibn Zeydə yaz ki, sənin yanına gəlsin. Onun gəlişi bizdən rüsvayçılığı uzaqlaşdıracaq". Əbu Bəkr ona ünvanladığı məktubda yazdı: "Peyğəmbərin (s) xəlifəsi Əbu Bəkrdən Üsamə ibn Zeydə. Bax, məktubum sənə çatdıqda ətrafındakılarla bərabər yanıma gəl. Müsəlmanlar artıq məni yekdilliklə özlərinə əmir təyin ediblər. Onlardan geri qalma ki, asi olarsan və məndən xoşlamadığın münasibət görəsən. Vəssalam!"*

*Üsamə onun məktubunun cavabında yazdı: "Şama müharibəyə göndərilən Peyğəmbər (s) məmuru Üsamə ibn Zeyddən. Mənə səndən bir məktub gəlib ki, əvvəli də, sonu da naqisdir. Əvvəlində Peyğəmbərin (s) xəlifəsi olduğunu yazırsan. Ardınca isə müsəlmanların sənin barəndə icma etdiklərini, özlərinə əmir seçdiklərini və buna razı olduqlarını söyləyirsən. Bil ki, Allaha and olsun, mən və mənimlə birlikdə olan mühacir və müsəlman camaatı sənin xəlifəliyinə razı deyilik, səni əmir olaraq seçmirik. Bax, xilafəti öz əhlinə təhvil ver. Bil ki, onlar buna səndən daha çox haqq sahibidirlər. Peyğəmbərin (s) Qədir-Xum günü Əli barəsində söylədiklərini sən də bilirsən. Üzərindən uzun müddət keçməyib ki, unudasan. Öz vəziyyətinə nəzər yetir,*

[698] Şiə və Əhli-Beyt, s. 66

*qarşı çıxma ki, nəticədə Allaha, Peyğəmbərinə və səninlə dostunun üzərinə Peyğəmbərin (s) xəlifə təyin etdiyi şəxsə asi olarsan. Məni yola saldıqdan sonra Peyğəmbər (s) dünyadan köçdü. Sən və dostun isə iznsiz olaraq Mədinəyə geri qayıtdınız və itaətimdən çıxaraq asi oldunuz".*

*Əbu Bəkr bundan sonra beyəti boynundan atmaq istədi. Lakin Ömər ona dedi: "Bunu etmə, bu köynəyi (xilafəti) Allah sənə geyindirib, soyunma ki, peşman olarsan. Məktublarınla onun qarşısında inadkarlıq göstər, müsəlmanlar arasında təfriqə salmaması üçün filan-filan kəslərə Üsaməyə məktublar yazmalarını əmr elə".*

*Əbu Bəkr, həmçinin münafiqlərdən bir dəstə adam Üsaməyə məktub yazdılar. Məktubda onların seçimi ilə razılaşmasını, müsəlmanları fitnəyə salmaqdan çəkinməsini tələb etdilər. Müsəlmanların küfrdən yeni döndüklərini iddia etdilər.*

*Məktublar Üsaməyə çatdıqda o, yanındakılarla bərabər Mədinəyə qayıtdı. Camaatın Əbu Bəkrin ətrafında toplandığını gördükdə Əli ibn Əbu Talibin (ə) yanına gəlib dedi: "Nə baş verir?" İmam Əli (ə) buyurdu: "Gördüklərin baş verir".*

*Üsamə ondan beyət edib-etmədiyini soruşduqda, İmam "Bəli, ey Üsamə!" deyə cavab verdi.*

*Üsamə: İstəyərək, yoxsa məcbur edilərək?*

*İmam: Xeyr, məcbur edilərək.*

*Üsamə Əbu Bəkrin yanına getdi və dedi: "Salam olsun sənə, ey müsəlmanların xəlifəsi!" Əbu Bəkr onun salamını alıb dedi: "Salam olsun sənə ey başçı!"*[699]

Baxın, İhsan Zahir rəvayətin mətnindəki bu hissəni necə kəsərək nəql edir: *"Üsamə ondan beyət edib-etmədiyini soruşduqda, İmam "Bəli, ey Üsamə!" deyə cavab verdi.*

*Üsamə: İstəyərək, yoxsa məcbur edilərək?*

---

[699] əl-İhticac, Təbərsi, c. 1, s. 115

*İmam: Xeyr, məcbur ediləərək".*

Rəvayətin kəsilmiş bu hissəsi İhsan Zahirin isbat etməyə çalışdığı məsələnin ziddinədir. Ona görə də sonunu kəsərək oxucunu aldatmağa və İmam Əlinin (ə) Əbu Bəkrin xilafətindən razı olduğu təəssüratını yaratmağa çalışıb.

**Altıncı rəvayət: Əgər siz beyət etmisinizsə mən də razılığımı bildirib beyət edəcəyəm**

İhsan Zahir deyir: **"İbn Əbülhədid "Nəhcul-bəlağənin şərhi"ndə başqa bir rəvayəti də qeyd edir. Abdullah ibn Əbu Övfa Xəzaidən: Xalid ibn Səid ibn As Peyğəmbərin (s) məmurlarından idi. Mədinəyə gəldikdə camaat artıq Əbu Bəkrə beyət edirdi. O, Əbu Bəkrə beyətdən çəkindi və bir neçə gün kənarda durdu. Bəni-Haşimin yanına gəlib dedi: Siz dinin dəstəyi və sirlərinin xəzinəsisiniz, örtüyə ehtiyacı olmayan eyibsiz şəxslər və yonulmağa ehtiyac duymayan qüsursuz (əsa) dayaqsınız. Əgər siz qəbul etsəniz biz də qəbul edəcəyik, əgər qəzəblənsəniz biz də qəzəblənəcəyik. Deyin, siz bu adama beyət etmisiniz?**

**Dedilər: Bəli.**

**Dedi: Hamınızın razılığı ilə?**

**Dedilər: Bəli.**

**Dedi: Əgər siz beyət etmisinizsə mən də razılığımı bildirib beyət edəcəyəm. Ancaq, Allaha and olsun ki, siz pak meyvəli ağacın davamısınız.**

**Sonra gedib Əbu Bəkrə beyət etdi".**[700]

---

[700] Şiə və Əhli-Beyt, s. 67

**Müzakirə**

**Birinci cavab: Bu, şiə rəvayəti deyil**

Rəvayət sünni mənbələrindən nəql olunur və şiəyə dəlil kimi təqdim etmək düzgün deyil. Bunu yalnız sünni-mötəzili olan İbn Əbülhədid yenə də sünni olan Cövhərinin yolu ilə nəql edib. Rəvayətin eyni və ya bənzəri heç bir şiə kitabında nəql olunmur. Hətta başqa sünni kitablarında da qeyd edilməyib. Onu İbn Əbülhədiddən başqa heç bir sünni alimi də nəql etməyib.

**İkinci cavab: Rəvayət Əbu Bəkrə beyətdə hamının həmfikir olmadığına dəlalət edir**

Bu rəvayət Əbu Bəkrə beyətdə səhabələr arasında yekdil fikrin olmadığını göstərir. Səhabələrdən Xalid ibn Səid ibn As Əbu Bəkrin xilafətini ilk günlərdə təsdiq etmir və onu xəlifəliyə layiq bilmir. Yalnız Bəni-Haşimdən izn aldıqdan sonra ona beyət edir. Belə ki, onlar da Buxari və digər hədisşünasların etirafına əsasən, altı ay müddətində beyət etməkdən çəkinmişdilər. Bu müddətdən sonrakı beyətləri də Əbu Bəkri xilafətə layiq gördüklərinə görə deyil, yalnız müsəlmanların vəhdətini qorumaq naminə və camaatın yenidən cahiliyyə dövrünə qayıdacaqları, savaş və fitnələrə düşəcəkləri təhlükəsinə görə olub.

**Üçüncü cavab: Rəvayətdəki işarələr beyətin könül baş vermədiyini göstərir**

Rəvayət beyətdən imtina edən şəxslərə qarşı güc və təzyiq vasitəsindən istifadə edildiyini bir daha təsdiqləyir. Peyğəmbərin (s) Yəməndəki məmuru olan Xalid ibn Səid ibn Asın Əhli-Beytə müraciəti, onların İslamdakı məqamını və fəzilətlərini bəyan etməsi, Əbu Bəkr onu Şam sərhədlərinə göndərmək istəyərkən Ömərin qarşı çıxması, ona səhabələr

arasındakı uca məqamına yaraşmayan ittihamlarla töhmət vurması buna sübutdur. Halbuki Xalid ibn Səid ibn As İslamdakı ilk mühacirlərdəndir, Peyğəmbərlə (s) birlikdə bütün savaşlarda iştirak etmişdi. Necə ki, bunlar İhsan Zahirin İbn Əbülhədiddən nəql etdiyi, lakin mətnini bütövlükdə zikr etmədiyi hədisin sonunda da aydın qeyd olunur: *"Sonra o da Əbu Bəkrə beyət etdi. Yanına gəldikdə Əbu Bəkr ona əhəmiyyət vermədi. Ömər isə ona qarşı düşməncə münasibət göstərdi. Əbu Bəkr onu Şama göndərəcəyi orduya təyin etdikdə Ömər dedi: "Sən onu başçı təyin edirsən, amma o, sənə beyət etməkdən əvvəlcə imtina etmiş, Bəni-Haşimə bildiyin sözləri söyləmişdi. Yəməndən gümüş, həbəşlilər, qullar, zireh və nizələr gətirmişdi. Onu başçı təyin etməyinin yanlış olduğunu düşünürəm və (sənə) qarşı çıxmayacağına da əmin deyiləm".*

*Əbu Bəkr onu başçılıqdan çıxarıb əvəzinə Übeydə ibn Cərrahı, Yezid ibn Əbu Süfyanı və Şərhəbil ibn Həsənəni təyin etdi".*[701]

Göründüyü kimi, Ömər Xalid ibn Səid ibn Asa qarşı bir sıra mənfi fikirlər irəli sürür, ardınca da Əbu Bəkrə onu uzaqlaşdırmasını vəsvəsə edir. Əbu Bəkr də onun sözlərini yerinə yetirir. Onlardan bir neçəsini qeyd edək:

**1** – Əbu Bəkrə beyətdən çəkinməsi; Ömər ibn Xəttabın nəzərində onun bu əməli günah və cinayət sayılır. Belə olduqda, beyət etməyənlərin vəziyyəti necə olar?! Beyətdən imtina edərək Fatimənin (ə) evinə toplaşmış Əhli-Beyt üzvlərini (ə) və Zübeyri evlə birgə yandıracağına Ömərin and içdiyi barədə rəvayətləri əvvəldə bəzi mötəbər sünni kitablarından qeyd etdik.

**2** – Bəni-Haşimə söylədiyi **"...Siz dinin dəstəyi və sirlərinin xəzinəsisiniz, örtüyə ehtiyacı olmayan eyibsiz şəxslər və yonulmağa ehtiyac duymayan qüsursuz (əsasınız) dayaqsınız. Əgər siz qəbul etsəniz biz də qəbul edəcəyik, əgər qəzəblənsəniz biz də qəzəblənəcəyik..."** sözləri; Xalidin bu sözləri Peyğəmbərdən (s) sonra

---

[701] Nəhcul-bəlağənin şərhi, İbn Əbülhədid Mötəzili, c. 2, s. 59

xilafətə məhz Əhli-Beytin haqq sahibi olduğunun etirafıdır. Ömər bunu da günah olaraq görür. Çünki bu sözlər onların xilafətinin qanunsuzluğunu, onların başqasının haqqına qəsbkar və zülmkar yanaşdıqlarını bəyan edir.

**3** – Onun Yəməndən dirhəm, qul, zireh və nizələrlə qayıtması iddiası; bu, Ömərin onu xəyanətdə ittiham etməsidir. Halbuki Xalid ibn Səid İslamdakı ilk mühacirlərdəndir. O, Əbu Bəkrdən, Ömərdən və Osmandan əvvəl İslamı qəbul etmişdi.

**4** –Xalid ibn Səid ibn Asın bundan sonra qarşı çıxıb beyətini pozmayacağına Ömər əmin deyildi. Bu isə onun barəsində digər bir ittihamdır. Həmçinin Əbu Bəkrə beyətin heç də razılıq və könüllülük əsasında baş vermədiyinin, xilafətə haqq sahibi olmadığının növbəti etirafdır.

**Dördüncü cavab: Şiə rəvayəti tam fərqlidir**

Xalid ibn Səid ibn As Əbu Bəkrin xilafət kreslosuna əyləşməsinə aşkar şəkildə etiraz edən on iki nəfərdən biridir.

Bu mövzuda olan şiə rəvayətlərini və sünni alimi Cövhərinin Xalid ibn Səidin ciddi etirazdan sonra beyət etdiyi barədə rəvayəti (səhihliyinə göz yumaraq) cəm etsək görərik ki, Əhli-Beyt (ə) heç də öz haqqı barəsində susaraq onu Əbu Bəkrə təhvil verməyib. Bunu özü üçün aydınlaşdırdıqdan sonra Xalid müsəlmanlar arasında təfriqə yaranmaması və qarşıdurmanın yaşanmaması üçün beyətə “razılığını” bildirir. Bu fikri dəstəkləyən rəvayət “əl-İhticac”da da varid olub. Orada İmam Əli (ə) bu on iki nəfərə təqiyyə etmələrini və onlarla mübahisədən çəkinmələrini əmr edir.

Beləliklə, rəvayət Əhli-Beytin (ə) Əbu Bəkrin xilafətindən razı olduqları iddiasına nə sənəd və nə də dəlalət baxımından əsla təsdiq sayıla bilməz.

**İhsan Zahirin Kaşiful-ğitaya nisbət verdiklərinin müzakirəsi**

İhsan Zahir deyir: **"Bunu sonrakı dövrlərin alimi, şiələrin imamı Muhəmməd Hüseyn Al Kaşiful-ğita adlandırdıqları alimi aşağıdakı sözləri ilə təsdiq edir: "Peyğəmbər (s) bu dünyadan əbədiyyət yurduna köçdükdə səhabələr Əlinin xəlifəliyə münasib olmadığını düşündülər. Bu düşüncə ya onun yaşının azlığına, ya da Qüreyşin peyğəmbərlik və xilafəti Bəni-Haşimin əlində cəmləmək istəmədiyinə görə idi..."**

**Sonra deyir: "Ardınca Əli, birinci və ikinci xəlifənin tövhid kəlməsinin yayılması, ordunun təchizatı, fəthlərin genişləndirilməsi uğrunda səy və cəhdlərini, özbaşınalıq etmədiklərini və mənimsəmədiklərini görüb beyət etdi və sülh yaratdı".**[702]

**Müzakirə**

Kaşiful-ğitanın kitabındakı sözlərinin tam mətnini oxumayan şəxs həqiqətən də İmam Əlinin (ə) Əbu Bəkr və Ömərin xilafətindən razı olduğunu ifadə etdiyini düşünə bilər. Lakin kitabdakı mətnə müraciət etdikdə İhsan Zahirin iddiasının tam əksi ilə qarşılaşacaq. Orada İmam Əli (ə) buyurur: *"Şəriət sahibi (Peyğəmbər) bu toxumlar (xilafət vəsiyyəti) barədə əhd aldı. Bunu şiələrdən əlavə, əhli-sünnənin də məşhur hədis imamlarının və alimlərinin nəql etdikləri kəlmələrindəki pak və şirin su ilə suvardı. Onların əksəriyyəti "Səhih" kitablarda qeyd olunur. Peyğəmbər (s) buyurur: "Əlinin mənə nisbəti Harunun Musaya olan nisbətidir"* [703]*; "Səni*

---

[702] Şiə və Əhli-Beyt, s. 66-67

[703] Səhih, Buxari, c. 5, s. 24; Səhih, Müslim, c. 4, s. 2404; Sünən, Tirmizi, c. 5, s. 638, hədis 3731; Sünən, İbn Macə, c. 1, s. 42, hədis 115; Usudul-ğabə, c. 5, s. 8; ər-Riyazun-nəzirə, c. 3, s. 117; Tarixu Bağdad, c. 4, s. 204; Hilyətul-övliya, c. 7, s. 194; "Tarixu Diməşq" kitabında "Tərcumətul-imami Əli (ə)", c. 1, s. 124

*yalnız mömin sevər və münafiqdən başqası sənə nifrət bəsləməz"*[704]*; "Quş" hədisində "İlahi, ən çox sevdiyin bəndəni yanıma (bu quşu mənimlə birlikdə yeməyə) göndər"*[705]; *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və rəsulunu sevir, həmçinin Allah və rəsulu da onu sevir"*[706]; *"Sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və itrətim olan Əhli-Beytim"*[707]; *"Əli haqq ilə, haqq da Əli ilədir"*[708]. *Və eləcə də bir çox digər hədislər ki, məqsədimiz bu kitabda onları saymaq və sənədlərini isbat etmək deyil. Bu mövzuda şiə alimlərinin kitabları kifayət qədərdir. Gözəl alimimiz Seyyid Hamid Hüseyn Luknahuri "Əbəqatul-ənvar" adlandırdığı, hər bir cildi Buxarinin "Səhih"i qədər olan, həcmi on cildi aşan əsərində həmin hədislərin sənədlərinin səhihliyini əhli-sünnənin mötəbər yollarına və dəlillərinə əsasən isbatlamışdır. Bu, ondan əvvəlki və sonrakıların minlərlə kitabından yalnız biridir.*

*Sonra Peyğəmbər bu dünyadan axirət aləminə köçdükdə bir dəstə səhabə Əlini (ə) xilafətə haqq sahibi olaraq görmədilər. Bu, ya onun yaşının azlığı, ya da Qüreyşin peyğəmbərlik və xilafəti Bəni-Haşimin əlində cəmləməsini istəmədikləri üçün idi. Elə güman edirdilər ki, peyğəmbərlik və xilafət onların istəklərinə tabedir, kimdə istəsələr qərarlaşdıra bilərlər!! Yaxud da başqa səbəbdən idi. Burada mövzumuz onun səbəblərini araşdırmaq deyil. Lakin hər iki firqə onun əvvəldə beyətdən imtina etdiyi barədə həmfikirdirlər.*

---

[704] Bax: Səhih, Müslim, c. 1, s. 86, hədis 131; Səhih, Tirmizi, c. 5, s. 635, hədis 3717; Sünən, İbn Macə, c. 1, s. 42, hədis 114

[705] Sünən, Tirmizi, c. 5, s. 636, hədis 3721; Müstədrək, Hakim, c. 3, s. 130; ər-Riyazun-nəzirə, c. 3, s. 114; Hilyətul-övliya, c. 4, s. 339; "Tarixu Diməşq" kitabında "Tərcumətul-imami Əli (ə)", c. 2, s. 105

[706] Səhih, Buxari, c. 4, s. 65, 73; Sünən, Tirmizi, c. 5, s. 637, hədis 3724; Sünən, İbn Macə, c. 1, s. 45, hədis 121; Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 52; Sünən, Beyhəqi, c. 9, s. 131; Tarixul-kəbir, Buxari, c. 7, s. 263; əl-Müsənnəf, Əbdürrəzzaq, c. 5, səh287, hədis 9637

[707] Sünən, Tirmizi, c. 5, s. 622, hədis 3786, s. 663, hədis 3788; Müsnəd, Əhməd, c. 3, s. 17, c. 5, s. 181; Müstədrək, Hakim, c. 3, s. 109, 147; Usudul-ğabə, c. 2, s. 12

[708] Tarixu Bağdad, c. 14, s. 321; Müstədrək, Hakim, c. 3, s. 123; "Tarixu Diməşq" kitabında "Tərcumətul-imami Əli (ə)", c. 3, s. 117, hədis 1159

*Buxarinin "Səhih"ində "Xeybər qəzvəsi" babında deyilir ki, o, yalnız altı aydan sonra beyət etdi,*[709] *onun beyətinin ardınca Zübeyr, Əmmar, Miqdad kimi digər öndə gələn səhabələr də beyət etdilər*[710]*.*

*Hər kəs bilir ki, Əli (ə) xilafəti rəhbərlik sevgisinə və padşahlıq hərisliyinə görə tələb etmirdi. Onun İbn Abbasla Zi Qardakı söhbəti məşhurdur.*[711] *Məqsədi İslamın qüvvətlənməsi, ərazisinin genişlənməsi, haqqı bərqərar və batili məhv etmək idi.*

*Sonra onlara qarşı çıxmasının İslamda bərpaolunmaz təfriqələrə səbəb olacağını gördü. Eyni zamanda ona qarşı çıxan birinci və ikinci xəlifənin tövhid kəlməsinin yayılması, ordunun təchizatı, fəthlərin genişləndirilməsi uğrunda səy və cəhdlərini, özbaşınalıq etmədiklərini və mənimsəmədiklərini görüb beyət etdi, sülh yaratdı. İslamı qorumaq və camaatı əvvəlki cahiliyyətə qaytaracaq ixtilafların baş qaldırmaması üçün özünün haqqına göz yumdu".*[712]

Kaşiful-ğita sözünün əvvəlində İmam Əlinin (ə) xilafətə yeganə haqq sahibi olduğunu bəyan edir. İmamın (ə) xilafətinin şəxsən Peyğəmbər (s) tərəfindən səpilmiş və pak, şirin sözlərinin suyu ilə suvardığı bir əhd olduğunu, onu özündən sonra ümmətin idarəçiliyi üçün hazırladığını

---

709 Səhih, Buxari, c. 5, s. 177; Səhih, Müslim, "Kitabul-cihad vəs-seyr", c. 5, s. 152; əl-İmamətu vəs-siyasə, c. 1, s. 11; Murucuz-zəhəb, c. 2, s. 302; Tarix, Təbəri, c. 3, s. 208; əl-Kamilu fit-Tarix, c. 2, s. 327; Səvaiqul-muhriqə, s. 13

710 Onlardan: Əbu Zərr Ğəffari, Salman Farisi, Miqdad ibn Əmr, Əmmar ibn Yasir, Fərvə ibn Əmr, Xalid ibn Səid ibn As, Ubey ibn Kəb, Bərra ibn Azib, Qeys ibn Səd ibn İbadə, Xüzeymə ibn Sabit və başqaları. Müraciət edin: Murucuz-zəhəb, c. 2, s. 301; əl-Əqdul-fərid, c. 4, s. 259; Tarix, Təbəri, c. 3, s. 208; əl-Kamilu fit-tarix, c. 2, s. 325; Tarix, Yəqubi, c. 2, s. 103; Tarix, Əbülfida, c. 2, s. 63

711 Abdullah ibn Abbas deyir*: "Zi Qarda olarkən İmam Əlinin (ə) yanına gəldim, o, başmağını tikirdi. Mənə dedi: "Bu başmağın dəyəri nə qədərdir?" Dedim: "Bu başmağın heç bir dəyəri yoxdur". Buyurdu: "Allaha and olsun ki, haqqı bərqərar edib, batili dəf etmək imkanı olmasa, bu başmaq mənə sizə xəlifəlik etməkdən daha sevimlidir".* Bax: Nəhcul-bəlağənin şərhi, Şeyx Muhəmməd Əbduh, 1:76/32

712 Əsluş-şiəti və usuluhə, Şeyx Kaşiful-ğita, s. 191-193

söyləyir. Ardınca da buna əhli-sünnənin məşhur və ən mötəbər "Səhih" kitablarından beş hədisi nəql edərək dəlil göstərir.

Ardınca: *"Sonra Peyğəmbər bu dünyadan axirət aləminə köçdükdə bir dəstə səhabə Əlini (ə) xilafətə haqq sahibi olaraq görmədilər. Bu, ya onun yaşının azlığı, ya da Qüreyşin peyğəmbərlik və xilafəti Bəni-Haşimin əlində cəmləməsini istəmədikləri üçün idi"* – deyə buna qarşı çıxıldığını qeyd edir.

Bu sözləri isə özünün deyil, Peyğəmbərin (s) İslam ümməti üçün hazırlayıb təyin etdiyi xəlifəsini vəzifəsindən kənarlaşdıran həmin bir dəstə səhabənin əqidəsidir. Kaşiful-ğita özü bu əqidəyə etiqad bəsləmir. Bunun dəlili həmin sözlərdən sonra *"Elə güman edirdilər ki, peyğəmbərlik və xilafət onların istəklərinə tabedir, kimdə istəsələr qərarlaşdıra bilərlər!! Yaxud da başqa səbəbdən idi. Burada mövzumuz onun səbəblərini araşdırmaq deyil"* -deyir. Kaşiful-ğita onların fikirlərini *"Elə güman edirdilər ki..."* sözü ilə mücərrəd gümana bağlayır. Bilindiyi kimi, güman – həqiqətdə baş verənlərə müxalif olan əqidədir və heç bir dəlilə söykənmir.

İhsan Zahirin Kaşiful-Ğitanın bu sözlərindən Əbu Bəkrin xilafətindən İmam Əlinin (ə) razı olduğunu güman etməsi də həqiqətə uyğun deyil. Çünki müəllif orada İmam Əlinin (ə) o ikisinin xilafətindən razı olmadığını bəyan etməkdədir. Buna altı ay beyət etmədiyini, böyük səhabələrdən olan Zübeyr, Əmmar, Miqdad və s. bir dəstə tərəfdarının da onun kimi beyətdən çəkindiyini dəlil olaraq göstərir. Altı aydan sonra isə ziyanı ən az olanını seçməyə məcbur qalaraq beyət etdiyini yazır: *"Hər kəs bilir ki, Əli (ə) xilafəti rəhbərlik sevgisinə və padşahlıq hərisliyinə görə tələb etmirdi. Onun İbn Abbasla Zi Qardakı söhbəti məşhurdur. Məqsədi İslamın qüvvətlənməsi, ərazisinin genişlənməsi, haqqı bərqərar və batili məhv etmək idi. Sonra onlara qarşı çıxmasının İslamda bərpaolunmaz təfriqələrə səbəb olacağını gördü..."*

Bütün bunlarla rəğmən, İmam Əlinin (ə) Əbu Bəkrin xilafətindən razı olduğunu Kaşiful-ğıta harada etiraf edir?!

## Üçüncü fəsil: Möminlərin əmiri Əlinin (ə) Əbu Bəkrin arxasında namaz qıldığı və hədiyyələrini qəbul etdiyi iddiası

### Giriş

İhsan Zahir iddia edir ki, İmam Əli (ə) Əbu Bəkrin xilafətindən razı idi və bu razılığını əməli şəkildə göstərirdi. Onlarla birlikdə müamilə və hökm məsələlərində iştirak edir, hədiyyələr alır, ehtiyaclarını ona bildirir, arxasında namaz qılırdı. Belə ki, deyir: **“Möminlərin əmiri (ə) Siddiqin xilafətindən razı idi, gündəlik məsələlərdə və qərarların qəbulunda iştirak edir, ondan hədiyyələr alır, ehtiyaclarını ona bildirir və arxasında namaz qılırdı”.**[713]

### Müzakirə

**Birinci nöqtə: Əqidə və Əhli-Beytin (ə) nəzərində camaatla birgəyaşayış**

Həqiqətən də, Peyğəmbər (s) Əhli-Beytinin (ə) məqamına, xüsusilə də onun vəfatından sonra imamət və xilafətlə bağlı baş verən hadisələrə dərindən diqqət yetirən şəxs, bu hadisələrlə bağlı xüsusilə İmam Əlinin (ə) sözlərinə nəzər saldıqda onların müsəlmanlar üçün iki əsas məsələni izah etdiklərini görəcək:

**Birinci məsələ:** İmamət və xilafət mövzuda Allah qarşısındakı dini əqidələri ilə bağlı məsələlər;

**İkinci məsələ:** Müsəlmanların ixtilafı və xəlifələrin rəhbərliyi dövründə camaatla birgəyaşayış üslubu və formaları.

---

[713] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 68

Bu iki məsələyə qısaca toxunaq:

**Birinci məsələ:** Peyğəmbərin (s) vəfatından sonra Əhli-Beyt (ə) özlərinin Allahın əmri ilə ümmətə imam təyin olunduqlarını iki üslubla bəyan etdi:

**Birinci – nəzəri üslub:** Özlərinin sahib olduqları İmamət məqamını təsdiqləmələri, başqalarının bu məqama iddialarını inkar etmələri; Onlar öz imamətlərini təsdiq etmək üçün Qurani-Kərimdən "Vilayət", "Təthir", "Mübahələ", "Təbliğ" və s. ayələri, peyğəmbər sünnəsindən "Qədir Xum", "Səqaleyn", "Mövla" və s. hədisləri ümmətə dəlil göstərir, özlərindən başqasının imam ola bilməyəcəyini bəyan edirdilər. Müslimin "Səhih"ində Ömərin dilindən nəql etdiyi rəvayətdə də oxuyuruq ki, Əli (ə) ilk iki xəlifəni günahkar, namərd və xain kimi görürdü. Zuhridən, onun da Malik ibn Ovsdan nəql etdiyi uzun bir hədisdə "*yalançı, günahkar, namərd və xain kimi*" deyə qeyd olunur.[714]

Bu sözlərdən anlaşılır ki, Möminlərin əmiri Əlinin (ə) Əbu Bəkr haqqındakı rəyi elə Ömər barəsindəki rəyi kimidir və bu fikri dəyişməmiş, hər ikisinin xilafəti boyunca davam etmişdir.

Bunun dəlili isə Ömərin bu sözləridir: *"...Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin vəlisi oldum. Siz ikiniz də məni yalançı, günahkar, nadan və xain gördünüz".* Burada İmam (ə) yalnız birincini danlamır, Ömərdən nəql edilənə əsasən, mütləq mənada hər ikisi barədə danışır.

**İkinci – əməli (praktik) üslub:** İmam Əli (ə) Xanım Fatimə (ə) vəfat edənədək Əbu Bəkrə beyətdən aşkar surətdə imtina etdi. Necə ki, Buxari və Müslim bunu öz "Səhih"lərində qeyd edirlər: *"İbn Şihabdan, o da Ürvə ibn Zübeyrdən Aişənin belə söylədiyini xəbər verir: "...Fatimə həyatda ikən Əlinin camaatla münasibəti vardı. Lakin o vəfat etdikdən sonra camaat Əli*

[714] Səhih, Müslim, c. 5, s. 152

*ilə münasibətdən çəkindi. Əli Əbu Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi".*[715]

Bunu həmçinin Müslimin Zuhridən nəql etdiyi rəvayətindəki sözləri də təsdiqləyir: *"Bir nəfər ona dedi: "Əli Fatimə vəfat edənədək nə üçün Əbu Bəkrə beyət etmədi?" Dedi: "Nəinki o, Bəni-Haşimdən heç kəs ona beyət etməmişdi".*[716]

**İkinci məsələyə gəldikdə:** Əhli-Beyt (ə) müsəlmanlara birgəyaşayış nümunəsi qoydu, əqidə və düşüncədəki ziddiyyətlərin savaş abu-havası yaratmağa, qarşı tərəfi kənarlaşdırmağa səbəb olmayacağını göstərdi. Əksinə, burada hikmət və gözəl moizə ilə dəvət, sülh və asayiş halında birgəyaşayış kimi başqa bir yolu bəyan etdi. Burada da iki üslubla insanlara öz haqlarını izah etdilər:

**Birinci – nəzəri üslub:** Sözlərilə, müxaliflərinin arxasında namaz qılmaqla, xəstələrinə baş çəkməklə, cənazələrini müşayiət etməklə və s. bu kimi əməlləri ilə aralarında əqidə və fikir ixtilaflarının olmasına baxmayaraq müsəlmanlar arasında mehribanlıq və məhəbbətə səbəb olacaq işlər görürdü. Şeyx Kuleyni və Şeyx Səduq İmam Sadiqdən (ə) nəql edirlər: *"Onlarla birinci cərgədə namaz qılan şəxs sanki Peyğəmbərin (s) arxasında namaz qılmış kimidir".*[717] Həmçinin İmam Sadiq (ə) buyurur: *"Xəstələrinə baş çəkin, cənazələrini müşayiət edin və məscidlərində namaz qılın".*[718]

**İkinci – əməli üslub:** Bu, bir çox yerdə Əhli-Beytin (ə) qəzavət, məşvərət və fiqh kimi məsələlərdə müxalifləri ilə birgə iştirakdır. İhsan Zahir belə hadisələrdən bir neçəsini qeyd etdikdən sonra deyir: **"...Bu, Əlinin məşvərət və qəzavətlərdə iştirakına aydın dəlildir".**[719]

---

[715] Səhih, Buxari, c. 5, s. 82-83; Səhih, Müslim, c. 5, s. 154

[716] Bax: Fəthul-bari, İbn Həcər, s. 379

[717] əl-Kafi, Şeyx Kuleyni, c. 3, s. 380; Mən la yəhzuruhul-fəqih, Şeyx Səduq, c. 1, s. 382

[718] əl-Hidayə, Şeyx Səduq, s. 53; əl-Kafi, Şeyx Kuleyni, c. 2, s. 219, 635

[719] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 69

**Nəticə**

Əhli-Beyt (ə) müsəlmanlara iki məqamı bəyan etdi. Bunlardan biri fikir və əqidə ilə bağlı idi ki, bu da onların həqiqətdə müsəlmanlara imam olması, dövrün xəlifələrinin onların üzərində zorla hakimiyyət qurmasıdır. Onlar bu düşüncə və əqidəni Xanım Fatimənin (ə) vəfatınadək beyətdən imtina etməklə əməli şəkildə göstərdilər.

Digər məqam isə müsəlmanlar arasında birgəyaşayışdır ki, rəy və əqidədəki ixtilafların gündəlik yaşayışda insanlar arasındakı mehribanlıq və qarşılıqlı əlaqələrə maneə yaratmadığını göstərir.

İhsan Zahirin bu kimi hadisələri İmam Əlinin (ə) özündən əvvəlki xəlifələrdən razılığına dəlil göstərməsi düzgün deyil. Belə ki, Əhli-Beytin (ə) onlarla aralarında mövcud olan əqidə ixtilafı müsəlmanların bir-birlərinə qarşı mehribanlığına və gündəlik əlaqələrinə maneə yaratmamışdı.

**İkinci nöqtə: Əbu Bəkrin Möminlərin əmirinə (ə) hədiyyələri**

İhsan Zahir İmam Əlinin (ə) birinci xəlifədən razılığına qəzavət və məşvərətlərdə iştirakı dəlil göstərir, aralarında dostluq münasibətlərinin olduğunu iddia edir. Digər cəhətdən də Əbu Bəkrdən hədiyyə qəbul etməsini bu dostluğa sübut kimi irəli sürür. İddiasına şiə kitablarından rəvayətlər təqdim edir. Həmin iddialara iki cəhətdən cavab vermək olar:

**Birinci cəhət: Dəlillərin təqdimi və müzakirəsi**

**A. Cariyə Səhbanın hekayəsi**

İhsan Zahir deyir: “**Aralarındakı xoş münasibət, ülfət, məhəbbət və həmfikirlik səbəbindən Əhli-Beytin (ə) seyyidi, Peyğəmbərin (s) iki gül nəvəsinin atası Əli, onun hədiyyələrini qəbul edirdi. Bu isə aralarında məhəbbət və məşvərət olan sadə qardaşlıq nümunəsidir.**

**Necə ki, Eynut-təmr savaşında əsir götürülmüş (Səhba adlı) cariyəni hədiyyə olaraq Əbu Bəkrdən qəbul etdi, o qadından da Ömər və Rüqəyyə adında övladları dünyaya gəldi: "Ömər və Rüqəyyə Bəni-Təğlibdən olan əsir düşmüş Səhba adlı qadından idi. O, Əbu Bəkrin xilafəti dövründə Xalib ibn Vəlidin başçılıq etdiyi Eynut-təmr döyüşündə əsir düşmüşdü".[720]**

### Müzakirə

Səhbanın Ümmü Həbibə bint Rəbiə olduğu məlumdur. O, əsir götürülmüşdü. Deyilir ki, Xalid ibn Vəlid onu Eynut-təmrdə əsir almışdı. Sonra Möminlərin əmiri (ə) onunla evlənmiş, ondan Ömər və Rüqəyyə adlı iki övladı dünyaya gəlmişdi. Lakin sünni və şiə tarix, nəsəb və rical kitablarını[721] vərəqlədiyimizdə onu Əbu Bəkrin İmam Əliyə (ə) hədiyyə etdiyinə dair heç bir qeydə rast gəlmirik. İhsan Zahirin göstərdiyi İbn İnəbənin "Ümdətut-talib" əsərində isə, əksinə, həmin qadını İmam Əlinin (ə) pul müqabilində aldığı qeyd edilir. Orada yazılıb: *"əs-Səhba Təğlibi – o, Ümmü Həbibə bint İbad ibn Rəbiə ibn Yəhya ibn Əbd ibn Əlqəmədir. Yəmamə əsiridir. Xalid ibn Vəlid tərəfindən Eynut-təmr savaşında əsir götürüldüyü də deyilib. Onu Möminlərin əmiri Əli pulla almışdı".*[722]

İbn Əbülhədiddən nəql etdiyi hissədə isə Səhbanın Əbu Bəkrin xilafəti dövründə, Xalid ibn Vəlidin rəhbərliyi ilə baş tutan savaşda əsir düşmüş cariyə olduğu qeyd edilib. Lakin həmin mənbədə də onun Əbu Bəkr tərəfindən Möminlərin əmirinə (ə) hədiyyə edildiyi barədə heç bir söz yoxdur. *"Ömər və Rüqəyyə – onların anası Bəni-Təğlibdən olan əsir qadındır.*

---

[720] Şiə və Əhli-Beyt, s. 70

[721] Bax: Tarix, Təbəri, c. 4, s. 118; Tarixul-İslam, c. 6, s. 164; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 45, s. 304-307; Təhzibul-kəmal, Mizzi, c. 21, s. 467-480; Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 426-427; ət-Təbəqatul-kubra, c. 3, s. 20

[722] Ümdətut-talib, İbn İnəbə, s. 361

*Ona Səhba deyilirdi. Əbu Bəkrin xilafəti dövründə, Xalid ibn Vəlidin rəhbərliyi ilə baş vermiş savaşda əsir düşmüşdü".*[723]

Buna əsasən, nəzərimizdə mövcud olan güclü rəy İmam Əlinin (ə) Ümmü Rəbiəni pul müqabilində almasıdır. Necə ki, bunu "Ümdətut-talib" kitabının müəllifi də qeyd edib. Yaxud da o, İmam Əlinin (ə) xüms payına düşmüş cariyə olub. Çünki İmam Əli (ə) qənimətlərdə geniş bir paya sahib idi. Xalid və onun kimilər müsəlmanlara qarşı qılınc yellədikləri vaxtlarda İmam Əli (ə) cihadı, qurbanları, Allah yolundakı öncüllüyü ilə İslamın təməllərinin atılmasında və güclənməsində böyük zəhmətlər çəkirdi. Ona görə də Peyğəmbər (s) müsəlmanlara bu həqiqəti bəyan edir və Əlinin (ə) xümsdəki payının geniş olduğunu bildirirdi. Bunu Buxari öz "Səhih"ində Büreydəyə istinadən nəql etdiyi hədisdə də qeyd edir: *"Peyğəmbər (s) Əlini xümsü almaq üçün Xalidin yanına göndərdi... Əliyə nifrət edirdim. O artıq qüsl da almışdı. Mən Xalidə dedim: "Bir buna baxırsan?!"*

*Peyğəmbərin (s) yanına gəldikdə baş verənləri danışdım. Buyurdu: "Ey Büreydə, Əliyə nifrət edirsən?" "Bəli" deyə cavab verdim. Buyurdu: "Ona nifrət etmə, onun xümsdəki payı bundan daha çoxdur".*[724]

Belə olduqda, heç kimin İmam Əliyə (ə) hədiyyə və bənzəri şeylərlə minnət qoymağa haqqı yoxdur.

Əgər İhsan Zahirin iddia etdiyi kimi, Səhba hədiyyə olsaydı, o zaman ən azından tarix, nəsəb və ya rical alimləri bunu qeyd edərdilər!

Hətta hədiyyə olduğu fərz olunsa belə, bu hadisə zalımlardan hədiyyə və mükafatların qəbul edilməsinə bir dəlil olacaq.[725] Belə ki, xilafət bütünlükdə İmam Əlinin (ə), Fədək isə Fatimənin (ə) haqqıdır. Həmçinin xüms də onlara məxsusdur. Bütün bunları onların əlindən qəsb edərək

---

[723] Nəhcul-bəlağənin şərhi, İbn Əbülhədid, c. 9, s. 243

[724] Səhih, Buxari, c. 3, s. 97, hədis 4257

[725] "Vəsailuş-şiə"yə bax.

almışdılar. Məhrum edilmiş bu haqların müqabilində bir cariyənin hədiyyə olunması nədir ki?!

Qəsb etdiyini geri qaytarmamaqda israr edən şəxsdən haqqı bacardığın qədər geri almağın icazəli olduğu da nəzərə alınmalıdır.

**B. Cəfər ibn Qeysin qızı Xövlənin hekayəsi**

İhsan Zahir deyir: **"Həmçinin Siddiq Yəmamə döyüşündə əsir götürülmüş Cəfər ibn Qeysin qızı Xövləni ona hədiyyə etdi. Xövlə onun üçün Həsən və Hüseyndən sonra ən fəzilətli övladı olan Muhəmməd ibn Hənəfiyyəni doğdu".**[726]

**Müzakirə**

Burada bir neçə cəhətdən ixtilaf var:

**Birinci ixtilaf** əsir düşdüyü vaxt barədədir ki, bir dəstə şəxs onun Peyğəmbər (s) zamanında əsir götürüldüyünü qeyd edib. Necə ki, bu, Mədaininin rəvayətində də varid olub: *"Peyğəmbər (s) Əlini Yəmənə göndərdi. Orada Bəni-Zəbid (və ya Zübeyd) qəbiləsindən Xövləni əsir götürdü. Bəni-Zəbid tayfası Əmr ibn Mədi Kəb ilə birlikdə mürtəd olmuşdular. Sonra onun (İmam Əlinin) qənimət payı oldu. Bu, Peyğəmbərin (s) dövründə baş vermişdi. Peyğəmbər (s) ona buyurdu: "Əgər ondan oğlun olsa mənim adımı və künyəmi ona qoyarsan". Fatimənin vəfatından sonra onun oğlu oldu, adını Muhəmməd, künyəsini isə Əbülqasim qoydu".*[727]

Bir dəstə şəxs isə onun Əbu Bəkrin dövründə əsir götürüldüyünü yazır. İbn Kəsir deyir: *"Cəfər ibn Qeysin qızı Xövlə... Xalid onu Siddiqin xilafəti dövründə Bəni-Hənəfiyyə camaatının dindən döndüyü Riddə savaşında əsir*

[726] Şiə və Əhil-Beyt, s. 70

[727] Ənsabul-əşraf, s. 200-201

*götürmüşdü".*[728] İbn Həcər isə yazır: *"Cəfər ibn Qeysin qızı Xövlə – Bəni-Hənəfiyyədəndir. Tayfa başçılarından birinin qızı olduğu deyilir. Yəmamədə Riddə hadisəsində əsir götürülmüşdü".*[729]

**İkinci ixtilaf:** Onun Əbu Bəkrin xilafəti dövründə əsir götürüldüyünü deyənlər başqa bir məsələdə də ixtilafa düşmüşlər. Belə ki, onlardan bir dəstəsi Xövlənin əsir düşdükdən sonra Əbu Bəkrin xilafətinin ilk dövrlərində Möminlərin əmiri (ə) tərəfindən pul müqabilində aldığını qeyd etmişlər. Bu, Xərraş ibn İsmail İclinin rəvayətində bəyan olunur: *"Əsəd ibn Xüzeymə oğulları Bəni-Hənəfiyyəyə hücum etdi, həmin vaxt Cəfərin qızı Xövlə əsir götürüldü. Əbu Bəkrin xilafətinin ilk vaxtlarında onu Mədinəyə gətirdilər və Əliyə satdılar. Bu xəbər onun tayfasına çatdıqda Mədinəyə, Əlinin yanına gəlib xanımın onların yanındakı məqamı barədə xəbər verdilər. Əli onu azad etdi, sonra mehrini təyin edərək onunla evləndi. Ondan Muhəmməd adlı oğlu oldu. Əli Peyğəmbərə (s) demişdi: Əgər oğlum olsa, ona sənin adını və künyəni qoymağa icazə verirsənmi?" Peyğəmbər (s) də icazə vermişdi. Əli Hənəfiyyənin oğlunun adını Muhəmməd qoydu və ona Əbülqasim künyəsi verdi".*[730] Bəlazuri bu xəbərə üstünlük verərək deyir: *"Bu, Mədaininin xəbəri ilə də təsdiqlənir".*[731]

İbn Kəsir deyir: *"Cəfərin qızı Xövlə... Siddiqin xilafəti dövründə Riddə hadisəsində Xalid onu əsir götürdü. Sonra o, Əli ibn Əbu Talibin oldu..."*[732]

İbn Sədin "ət-Təbəqat"dakı Fəzl ibn Dükeyndən, onun da Həsən ibn Salihdən, onun da Abdullah ibn Həsəndən nəql etdiyi *"Əbu Bəkr*

---

[728] əl-Bidayətu vən-nihayə, c. 7, s. 368; Bax: əl-Vafi bil-vəfiyyat, Səfidi, c. 4, s. 75; Tarixul-İslam, c. 6, s. 181; əl-Muntəxəb min "Ziylil-muzil", Təbəri, s. 117-118; əl-Məarif, İbn Qüteybə, s. 210

[729] Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 315; bax: Təhzibul-kəmal, Mizzi, c. 26, s. 148; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 54, s. 325

[730] Ənsabul-əşraf, Bəlazuri, s. 200-201

[731] Ənsabul-əşraf, Bəlazuri, s. 200-201

[732] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 368; əl-Muntəxəb min "Ziylil-muzil", Təbəri, s. 117-118; əl-Məarif, İbn Qüteybə, s. 210

*Muhəmməd ibn Hənəfiyyənin anasını Əliyə verdi"* rəvayətinə gəldikdə, bu mürsəl rəvayətdir. Belə ki, Abdullah ibn Saleh Əbu Bəkrlə eyni dövrdə yaşamamışdı. O, kiçik tabeinlərdəndir.[733] Həmiçinin, bu rəvayətin məzmunu Əbu Bəkrin onu öz şəxsi pulu ilə alıb İmam Əliyə (ə) verdiyinə dəlalət etmir ki, ona hədiyyə adı da qoyulsun.

Eləcə də, Zəhəbinin rəvayəti "deyilib" sözünə nisbət verildiyi üçün zəif hesab edilir. "Deyilib" sözü ilə dəlilin olmadığı anlaşılır. Zəhəbi deyir: *"Deyilib ki, onu Əbu Bəkr Əliyə bəxşiş edib".*[734]

Bu ixtilafa İbn Əbülhədid Mötəzili də münasibət bildirib. O qeyd edib ki, təhqiqatçılar arasında ən aydın və sabit söz Xövlənin Əbu Bəkrin xilafətinin ilk illərində əsir götürüldüyü və Möminlərin əmirinin (ə) onu pul müqabilində almasıdır. Bəlazuri də "Ənsabul-əşrəf"ində bu fikrə üstünlük verir.[735]

---

[733] Bax: əl-İsabə, İbn Həcər, c. 5, s. 143; əs-Siqat, İbn Hibban, c. 7, s. 363

[734] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 4, s. 111

[735] Bax: "Nəhcul-bəlağənin şərhi", İbn Əbülhədid, c. 1, s. 234-235. Deyir: *"Cəfər ibn Qeysin qızı Xövlə... onun barəsində ixtilaf edilib. Bir dəstə şəxs onun Əbu Bəkrin xilafəti dövründə Xalid ibn Vəlidin başçılığı altında onun tayfası ilə bir çox ərəbin zəkatdan imtina etdiyi vaxt baş verən Riddə savaşında əsir götürüldüyünü deyir. Həmin vaxt Bəni-Hənəfiyyə də dindən dönmüş, Müseyləmə isə peyğəmbərlik iddiası irəli sürmüşdü. Əbu Bəkr də əsir düşmüş Xövləni qənimət payı olaraq Əliyə vermişdi. Bir dəstə də şəxs isə, onlardan biri də Əbülhəsən Əli ibn Muhəmməd ibn Seyf Mədaini onun Peyğəmbər (s) zamanında əsir düşüyünü söyləyiblər. Demişlər: "Peyğəmbər (s) Əlini Yəmənə göndərdi. Bəni-Zəbiddən Xövləni əsir götürdü. Onlar Əmr ibn Mədi Kəblə dindən dönmüşdülər. Zəbid tayfası da onu aralarındakı müharibə zamanı Bəni-Hənəfiyyədən əsir almışdı. Peyğəmbər (s) Xövləni Əliyə (ə) qənimət payı olaraq verdi və buyurdu: "Əgər sənə bir oğlan doğsa ona mənim adımı və künyəmi verərsən". Fatimənin (s.ə.) vəfatından sonra o Muhəmmədi doğdu. Əli (ə) künyəsini də Əbülqasim qoydu.*

*Sözlərinə üstünlük verilən bir dəstə təhqiqatçı isə deyir ki, Bəni-Əsəd Əbu Bəkrin xilafəti dövründə Bəni-Hənəfiyyə ilə vuruşdu. Həmin döyüşdə Cəfərin qızı Xövlə əsir götürüldü. Onu Mədinəyə gətirib Əliyə (ə) satdılar. Bu xəbər qövmünə yetişdikdə Mədinəyə, Əlinin (ə) yanına gəldilər. Onun tərif edib yanındakı uca məqamı barədə xəbər verdilər. Əli (ə) Xövləni azad etdi, ardınca mehriyə təyin edərək yenidən evləndi. Xövlə ondan Muhəmmədi dünyaya gətirdi. Künyəsi Əbülqasim idi.*

*Əhməd ibn Yəhya Bəlazuri də özünün məşhur "Tarixul-əşraf" kitabında bu rəyə üstünlük verib".*

**C. Pul hədiyyəsi**

Mötəbər hədis mənbələrində Möminlərin əmirinin (ə) Əbu Bəkrdən pul hədiyyəsi aldığı qeyd edilməyib. Həmçinin İhsan Zahir də onun pul hədiyyəsi aldığına az da olsa dəlalət edən rəvayət və ya dəlil göstərmir ki, onun məzmunu, sənədi və ya mövzusu ətrafında söhbət edək. Bu barədə yalnız Əbu Davudun İmam Əlidən (ə) nəql etdiyi rəvayəti[736] qeyd etmək olar. Lakin bu da heç bir cəhətdən İhsan Zahirin iddiasına uyğun deyil. Həmin rəvayətdə Peyğəmbər (s) həyatda ikən onların xüms paylarını özünün böldüyü və ilk iki xəlifənin də bu bölgüyə riayət etdiyi qeyd olunur. Burada Əbu Bəkrin İmam Əliyə (ə) pul hədiyyəsi verdiyinə və İmamın (ə) da onu qəbul etdiyinə dəlalət ola bilməz.

Hədiyyə, bir şəxsin özünə məxsus olan malından olmalıdır. Lakin xüms və qənimət hədiyyə mövzusundan kənardır. Çünki bunlar Allahın ən yaxın qohumlar üçün müəyyən etdiyi bir haqdır: ***"...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirindir (pulu qurtarıb yolda qalan yolçularındır)".***[737]

Yaqubinin "Tarix" və İbn Əbülhədidin "Nəhcul-bəlağənin şərhi" kitabları şiə mənbəyi deyil. O səbəbdən də qeyd edilən mövzuda dəlil göstərilə bilməz.

İhsan Zahirin bu hadisələrin şiə mənbələrində qeyd edildiyini

---

[736] Bax: Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 70-71. Deyir: *"Əbu Davudun kitabında Əlinin (r) belə dediyi nəql olunur: "Mən, Abbas, Fatimə və Zeyd ibn Harisə Peyğəmbərin (s) yanında toplaşmışdıq. Dedim: "Ey Peyğəmbər, əgər Allahın Kitabına əsasən, bu xümsdən haqqımız varsa, onu sən həyatda ikən bölüm ki, səndən sonra kimsə mənimlə bu barədə mübahisə etməsin".*

*Sonra sözünə davam elədi: "Peyğəmbər (s) həyatda ikən mən onu böldüm". Əbu Bəkrdə xilafəti dövründə mənə haqqımı verirdi. Ömərin həyatının son illərində ona çoxlu pul gətirildi. O da haqqımızı ayırıb bizə göndərdi. Mən dedim: "Bu il ona ehtiyacımız yoxdur, lakin müsəlmanlar ona möhtacdırlar. Onu qaytar". Onu Ömərə qaytardım".* "Kitabul-xərac", Müsnəd", Əhməd ibn Hənbəl, "Müsnədatu Əli".

[737] Ənfal, 41

söyləməsi həqiqətdən çox uzaqdır. Xüsusilə də İbn Əbülhədid, o, sünni-mötəzili şeyxlərindəndir. Şiə və sünni təhqiqatçılarının rəyinə əsasən, onun kitabları qarşı tərəfin əsas mənbələrindən sayılmadığı üçün dəlil kimi qəbul edilmir.

**İkinci cəhət: Əhli-Beytlə (ə) iki xəlifə arasında məhəbbətin olmadığının dəlilləri**

Belə bir məhəbbətin olmadığına, Fatimə (ə) həyatda olduğu müddətdə Əhli-Beytlə (ə) Əbu Bəkr arasında ciddi qarşıdurmanın mövcudluğuna səhih hədislər dəlalət edir. Xanım Fatimə (ə) Əbu Bəkrə qəzəbli və narazı halda dünyadan köçmüşdür. Hətta bu narazılıq o həddə idi ki, özünün dəfn və namaz kimi məsələlərində də iştiraklarına qadağa qoymuşdu. Bunu Buxari və Müslim öz "Səhih"lərində İbn Şihabdan, o da Ürvədən, o da Aişədən nəql edirlər: "...*Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Dəfnində Əbu Bəkrin iştirakına izn vermədi..."*[738]

Beyhəqi "Sünən"ində yazır: *"Fatimə (r) qəzəbləndi və bundan sonra Əbu Bəkrlə ölənədək danışmadı. Fatimə Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı".*[739]

Beyhəqi hədisin ardınca deyir: *"Buxari bunu "Səhih"də Əbdüləziz Üveysidən rəvayət edib, Müslim isə başqa bir cəhətlə İbrahim ibn Səddən nəql edib".*[740]

Onların arasındakı bu qarşıdurma iki əsas məsələ ətrafında dövr edirdi: bunlardan biri xilafət məqamı, digəri isə Peyğəmbərin (s) mirası ilə bağlı idi. Əhli-Beyt (ə) xilafətin yalnız onlara məxsus olduğunu düşünürdü.

---

[738] Səhih, Buxari, c. 5, s. 82-83; Səhih, Müslim, c. 5, s. 154
[739] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 301
[740] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 301

Həmçinin onlar Peyğəmbərin (s) mirasının haqq sahiblərindən biri idilər. Ancaq Əbu Bəkr hər iki məsələdə onlara qarşı çıxdı. Əlbəttə ki, Əhli-Beyt (ə) bu haqlarından imtina edib geri çəkilmədi. Necə ki, buna Müslimin "Səhih"indəki hədis də dəlalət edir. Orada Ömər İmam Əliyə (ə) və Abbasa deyir: *"...Əbu Bəkr dedi: "Peyğəmbər (s) buyurub: "Biz irs qoymuruq, qoyduqlarımız sədəqədir". (Ömər deyir:) Siz onu yalançı, günahkar, namərd və xain kimi gördünüz. Halbuki Allah bilir o, düzdanışan, dindar, düzgün inanclı və haqqa tabe olan idi. Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin canişini oldum. Siz ikiniz məni də yalançı, günahkar, namərd və xain olaraq gördünüz. Lakin Allah mənim düzdanışan, dindar, düzgün inanclı və haqqa tabe olan olduğumu bilir".*[741]

Bu sözlər Əhli-Beytin (ə) fikrinin əsla dəyişmədiyinə, mümkün olan bütün vasitələrlə öz haqlarını müdafiə etdiklərinə dəlalət edir.

Lakin Xanım Fatimənin (ə) vəfatından sonra beyət etməyin məsləhətə daha uyğun olması aralarında məhəbbətin yarandığına dəlalət etməz. Belə ki, qarşıdurmaya son qoymaqda başlıca məqsəd İslamı və ümmətin vəhdətini qorumaq idi. Xanımın (ə) vəfatından sonra camaatın Əhli-Beytlə (ə) münasibəti də soyumuşdu. *"..."...Fatimə həyatda ikən Əlinin camaatla münasibəti vardı. Lakin o vəfat etdikdən sonra camaat Əli ilə münasibətdən çəkindi. Əli Əbu Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi".*[742]

**Nəticə:** Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı əlaqələr ən aşağı səviyyədə zəif idi. Onların arasında mehribanlığın hakim olduğunu bildirən sözlər ədavətin olduğuna dəlalət edən ən səhih hədislər qarşısında olduqca gücsüz dəlillərdir. Belə vəziyyətdə mövzularda ixtilaf yaranır. Bu zaman birinci mövzu aralarında sevgi və razılığın olmamasına, ikinci mövzu isə əqidə və fikir ayrılığına baxmayaraq cəmiyyətdə birgəyaşayış üslubuna

---

[741] Səhih, Müslim, c. 5, s. 152

[742] Səhih, Buxari, c. 5, s. 82-83; Səhih, Müslim, c. 5, s. 154

şamil olur.

Bundan əlavə, əgər doğruluğu fərz olunsa belə, hədiyyə qəbul etmək İmamın (ə) Əbu Bəkrin xilafətindən razı olduğuna dəlalət etməz. Çünki hədiyyə qəbul etmək heç də razılıq sayılmır. Bu əməl Peyğəmbər (s) sünnəsinə əsaslanan bir əməldir. Möminlərin əmiri Əlinin (ə) Peyğəmbər (s) sünnəsini tərk etməsi mümkün deyil. Əhli-sünnə kitablarında da Peyğəmbərin (s) hədiyyə qəbul etdiyi və insanları da buna həvəsləndirdiyi barədə çoxlu hədislər mövcuddur. Peyğəmbərin (s) zövcəsi Aişədən rəvayət olunur: *"Peyğəmbər (s) hədiyyələri qəbul edir və əvəzində hədiyyə verirdi".*[743]

Səkuni Əbu Abdullah Sadiqdən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Mənə yağış suyu (və ya ətsiz davar ayağı) hədiyyə edilsə belə, onu qəbul edərəm".*[744]

İmamın (ə) Əbu Bəkrdən hədiyyə qəbul etdiyi fərz edilsə, bu, sünnəyə əməl etdiyinə görə baş vermiş olar və onun xilafətindən razılığına dəlalət etməz. Xüsusilə də İmam Əli (ə) Əbu Bəkrlə sülh bağlamışdı, ondan hədiyyəni qəbul etməməsi bu sülhün pozulduğu təsəvvürünü yaradardı.

Həmçinin, hədiyyə qəbul etmək insanı özünə cəzb edən amillərindən biridir. Şübhə yoxdur ki, Möminlərin əmiri (ə) ən azından qarşı tərəfi özünə cəzb etmək, dinin qorunması üçün özündən uzaqlaşdırmamaq istəyirdi. O, ümmətin ən elmlisi və düzgün qəzavət edəni... idi. İmamdan (ə) uzaqlaşmaq İslamın həqiqi məzmunundan uzaqlaşmaqdır ki, nəticədə rəy və ictihada əsaslanan əməllər artacaq, bu isə bir çox yerdə xətalara gətirib çıxaracaqdı. Belə ki, həmin dövrdə insanlar ictihad üçün kifayət qədər elmə sahib deyildilər. Bunu təsdiqləyən başqa bir amil, əhli-sünnənin nəzərində elmin imamət üçün şərt olmamasıdır.[745] Həmçinin bu fikri İbn Hibbanın

---

[743] Sünən, Əbu Davud, s. 151

[744] əl-Kafi, Şeyx Kuleyni, c. 5, s. 143

[745] Yəni imam hökmləri bilən və ya alim olmayan şəxs də ola bilər. Bu zaman onun yanında alimin olması labüddür (tərc.)

“Səhih”dəki sözləri də təsdiq edir: *“Əgər İslama meylləri artacaqsa, imam müşriklərin də hədiyəsini qəbul edə bilər”.*[746]

**Üçüncü nöqtə: Şiənin nəzərində İmamın (ə) Əbu Bəkrin arxasında namaz qıldığı isbat olmayıb**

Bəzi bəsit ağıla sahib kəslərin təsəvvür etdiyi kimi, İmamiyyə şiələri ilə digərləri arasındakı İmamət məqamı barədə mövcud olan ixtilaf heç də yalnız xilafət mövzusu ilə bağlı deyil. Onların arasındakı ən böyük ixtilaf İmamətin mənası ilə bağlıdır. İmamiyyə şiələrinin nəzərində İmamət məzhəbin əsas təməli, tövhid, ədalət, nübuvvət və məadla bərabər dinin üsulundandır. İmam peyğəmbər kimi Allah tərəfindən təyin olunur. İmam ilahi feyz vasitəsi və varlığın səbəbi, kamil insan və kamal nümunəsi, insanın Allaha yaxınlaşması və layiq olduğu kamala hidayətdə ehtiyac duyduğu məsum və alim şəxsdir. İmamət məfhumunun ən aşkar və bariz nümunəsi olan İmam Əlinin (ə) Əbu Bəkrin və ya hər hansı başqa bir şəxsin arxasında namaz qılması qeyd edilən xüsusiyyətlərlə bir yerə sığmaz. Bu səbəbdən də, əlbəttə, şiə alimlərindən heç biri bu fikri təsdiqləməyib.

Buna əsasən, İhsan Zahirin bəzi şiə alimlərinə nisbət verdiyi sözlər iftiradan başqa bir şey deyil. Bunu Şeyx Taifə Tusinin (r) sözləri üzərində etdiyi saxtakarlıqdan da anlamaq olur. Şeyx Tusinin sözlərini tam şəkildə sizə təqdim edirik: *“Əgər Möminlərin əmirinin (ə) namazında iqtida niyyəti etdiyi iddia olunsa, buna dəlil göstərilməlidir. Biz isə bunu qəbul etmirik, qəbul etdiyimiz yalnız zahirdir ki, bunda ixtilaf yoxdur. Əgər zahirən birinin arxasında namaz qıldığı iddia edilsə, bunu qəbul edirik. Lakin bu, onların qəsd etdikləri mənaya heç bir fayda vermir və bizim İmam (ə) barəsindəki rəyimizə də zidd dəlil ola bilməz”.*[747]

Hər bir anlayış sahibinə aydındır ki, bu cümlələrdə qəbul edilən yalnız

---

[746] Səhih, İbn Hibban, c. 10, s. 357

[747] Təlxisuş-şafi, Şeyx Tusi, s. 158

zahirən onlarla namaz qılmasıdır. Başqa sözlə: Şeyx Tusi (r) müxaliflərin dəlillərinin "kubra"[748] qəziyyəsində müzakirə aparır ki, onun puç edilməsi ilə "suğra"nın heç bir dəyəri qalmır.

Müxalifin dəlilinin xülasəsi budur: İmam Əli (ə) (Əbu Bəkrin və digərinin) arxasında namaz qılıb. Bir kəsin arxasında namaz qılan şəxs ondan (və ya xilafətindən, imamətindən) razı sayılır. Deməli İmam ondan və ya xilafətindən razıdır.

"Suğra" qəziyyə İmamın (ə) onun arxasında namaz qılması, "kubra" isə arxasında namaz qıldığı şəxsin pişnamazdan razılığıdır.

Şeyx Tusi də "kubra" barədə mübahisə edir və deyir: Pişnamazın arxasında namaz qılmaq bəzən həqiqi iqtida niyyətilə, bəzən də zahirən olur. Pişnamazdan razılığı ifadə edən iqtida həqiqi niyyətlə qılınan namazdır. Halbuki bu İmamın (ə) məsələsində həqiqi iqtidanın dəlillə isbatlanmağa ehtiyacı var. Biz zahirən bir şəxsin arxasında namaz qılındığını qəbul etsək, belə ki, bir şəxsin bir nəfərin arxasında namaz qıldığını görsək – zahirən onun namazda iqtida etdiyini söyləyəcəyik. Lakin bu bizim üçün onun razılığını müəyyən etməyəcək. Çünki bu, canının qorunması və ya bu kimi başqa səbəblərdən də baş verə bilər.

Sanki Tusi (r) demək istəyir: Əgər İmamın (ə) onların arxasında namaz qıldığı isbat olunsa belə, bu, "kubra" qəziyyə (pişnamaza iqtida niyyəti) isbat olunmadığı üçün fayda verməyəcək. Belə ki, həmin iqtida yalnız zahiridir və özü-özlüyündə razılığı bəyan etmir. Bəs İhsan Zahirin Şeyx Tusiyə (r) iftira atdığı **"İmamın (ə) onların arxasında namaz qıldığı qəbul edilən məsələdir"** mənası haradadır?!

İbn Əbülhədiddən nəql etdiyi dəlilə gəldikdə, o da heç bir fayda vermir. Çünki o, əvvəldə də qeyd edildiyi kimi Mötəzili şeyxlərindəndir. Əhli-sünnənin nəzərində bu cür fikirlərin olduğunu biz inkar etmirik. Lakin onun şiə alimlərindən olduğunu heç kim söyləməmişdir.

---

[748] Bunlar məntiq elminin terminlərindəndir (tərc.)

**Dördüncü nöqtə: İmam ümmətin ən düzgün qəzavət edəni və ən elmlisidir**

Səhih hədislərlə də sübuta yetib ki, Möminlərin əmiri Əli (ə) ümmətin ən düzgün qəzavət edənidir. Buna əsasən də ümmət arasında ən elmli şəxsdir. Çünki qəzavət etmək üçün elmin olması lazımdır. Buxarinin "Səhih"ində Ömər ibn Xəttabdan rəvayət edilir: *"Bizim ən düzgün qəzavət edənimiz Əlidir".*[749]

Müsəlmanlar arasında Peyğəmbərin (s) bu sözü də məşhurdur: *"Ümmətimin ən düzgün hökm verəni Əli ibn Əbu Talibdir".*[750]

İhsan Zahirin qeyd etdiklərindən və etmədiklərindən əlavə, Möminlərin əmirinə (ə) qəzavət üçün müraciət etmək xəstənin həkimə müraciəti kimidir ki, bu da ümmətin ən elmlisinə müraciət sayılır.

Müsəlmanların ən düzgün qəzavət edənə və aralarındakı ən elmli şəxsə müraciət etmələri təbii haldır. İmam (ə) da Allahın ona əta etdiyi bu fəzilətə xəsislik edən deyil. Eyni vaxtda, onun əvvəllər də səxavət və kəramət kimi fəzilətləri ümmətə məlum idi. Onların qəzavət mövzusunda xahişlərini, məsləhət istəklərini və ixtilaflarını həlli üçün səyləri və s. Əbu Bəkrə və Ömərə olan sevgisindən və razılığından irəli gəlmirdi. Onun hədəfi İslamın ali məsləhəti və müsəlmanlara göstərdiyi lütf idi.

Bu, ilk iki xəlifənin xilafəti dövründə müsəlmanlarının Möminlərin əmirinə (ə) müraciətinin səbəbidir. Lakin İmamın (ə) onlara müraciəti, ehtiyaclarını onlardan diləməsi və bu kimi şeylər bizim nəzdimizdə isbat olunmayıb. Bu barədə İhsan Zahir də nağıl sayılacaq sözlərindən başqa bir

---

[749] Səhih, Buxari, c. 5, s. 149, "Kitabut-təfsir".

[750] Fəthul-Bari, İbn Həcər, c. 8, s. 127; Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 113; əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 305; Kəşful-xəfa, Əcluni, c. 1, s. 162-163; Feyzul-qadir, Mənavi, c. 1, s. 285; Əhkamul-Quran, İbn Ərəbi, c. 4, s. 43, 45; Təfsir, Qurtubi, c. 15, s. 162-163; əl-Mustəsfa, Ğəzzali, s. 170; əl-Əhkam, Amədi, c. 4, s. 237; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 51, s. 300; əl-Covhərətu fi nəsəbil-imamil-Əli və alih, Bərri, s. 71; əl-Vafi bil-vafiyyat, Səfidi, c. 21, s. 179; Tarix, İbn Xəldun, c. 1, s. 197 və s. sünni mənbələri

dəlil göstərməyib. Dəlil olaraq İbn Əbülhədid Mötəziliyə nisbət verdiyi rəvayəti mövzuya calaşdırmağa cəhd edib. Onun Mötəzili şeyxlərindən olduğunu dəfələrlə təkrar etmişik. Bundan əlavə, ona nisbət verdiyi sözlər də İbn Əbülhədidin qələmə aldığı şərhdə yoxdur. Lakin İbn Kəsir "əl-Bidayətu vən-nihayə" kitabında buna yaxın kəlmələr işlədib. Orada deyir: *"Siddiq Üsamənin ordusunun arasına girdi, onun yanındakı əsgərlərin sayı az idi. Mədinədə ərəblərin çoxu tamaha düşdülər və ona hücum etmək istədilər. Siddiq şəhərin girişlərinə keşikçilər təyin etdi. Onlar əsgərlərlə birgə şəhərin ətrafında gecələyirdilər. Keşikçi başçıları Əli ibn Əbu Talib, Zübeyr ibn Əvvam, Təlhə ibn Abdullah, Səd ibn Əbu Vəqqas, Əbdürrəhman ibn Ovf, Abdullah ibn Məsud idilər. Ərəblər şəhərə tərəf irəliləməyə başladılar..."*[751]

Bəlkə də məsələ İhsan Zahir üçün qarışıq qalıb, yaxud da əvvəllər etdiyi kimi burada da saxtakarlığa cəhd göstərib. Rəvayət onun iddiasından uzaqdır və heç bir halda ona dəlaləti yoxdur. İddia bu idi ki, Möminlərin əmiri (ə) öz məsələlərində (ehtiyaclarında) iki xəlifəyə müraciət edir, onların əmrlərini yerinə yetirirdi. Yanlışlıqla İbn Əbülhədid Mötəziliyə nisbət verdiyi bu rəvayət isə, göründüyü kimi, mövzudan tamamilə uzaqdır.

[751] əl-Bidayətu vən-nihayə, c. 6, s. 342

## Dördüncü fəsil: Evlilik vasitəsilə qohumluğun və adqoymanın Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı əlaqənin möhkəmliyinə dəlil göstərilməsi

### İddiaya baxış

İhsan Zahir **"Peyğəmbər xanədanı ilə Siddiq arasındakı əlaqənin möhkəm və sarsılmaz"**[752] olduğunu iddia edir. Buna iki əsas məsələni dəlil göstərir: birincisi onların aralarında olan qohumluq əlaqələridir. Məsələn Peyğəmbərin (s) Əbu Bəkrin qızı Aişə ilə evlənməsi, Cəfər ibn Əbu Talibin (r) ölümündən sonra Əbu Bəkrin onun həyat yoldaşı Əsma bint Ümeysi alması, Əbu Bəkrin ölümündən sonra da İmam Əlinin (ə) onunla evlənməsi;[753] ikincisi isə Əhli-Beytin (ə) öz övladlarına "Əbu Bəkr" adını verməsidir.[754] Və digər dəlillər ki, onları qeyd etməklə öz iddiasını isbatlamağa çalışıb.

### Müzakirə

### Birinci: Qohumluğu dəlil göstərməyin tənqidi

Qohumluq əlaqələrini dəlil göstərmək iddianın isbatı üçün qüsurdur. Bəhsə girişdən əvvəl bu barədə aşağıdakıları qeyd etməliyik:

### Müqəddimə

Qohumluq əlaqələri ilə bağlı İslamın müxtəlif əsasları və meyarları var ki, hər iki dünyada səadət üçün zəmin yaradır. İslam bu məsələdə heç vaxt

---

[752] Şiə və Əhli-Beyt, s. 77
[753] Şiə və Əhli-Beyt, s. 77-79
[754] Şiə və Əhli-Beyt, s. 79-82

bəşəriyyətin nizam və qaydalarına uyğun olmayan qanun və hökmlərə əsaslanmayıb. Bu əsaslardan biri – insanların qohumları ilə əlaqəsini gücləndirməsi, yeni qohumluq bağlarının yaradılmasına təşviqi və dəstək verməlәridir. Lakin bunlar şəriət çərçivəsində, onun hədəf və məqsədlərinə uyğun olmalıdır. ***"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız ən təqvalınızdır".***[755] Bu ayə kürəkənlik kimi ictimai əlaqələrin yaradılmasını da ehtiva edir, bunu xalqların və qəbilələrin yaxınlaşması, bir-birlərini tanıması üçün meyar edir. Ardınca Uca Mövla müsəlmanların nəzərini mühüm bir məsələyə yönəldir ki, bu da insanı digərindən üstün edən bir xüsusiyyətdir. İnsan həmin xüsusiyyəti ilə Allah yanında şərəf və hörmət qazanır. Uca Allah buyurur: ***"Allah yanında ən hörmətli olanınız ən təqvalınızdır".*** Yəni, Allah yanında ən hörmətliniz nəsil, qohum və ya qəbilə baxımından deyil, Allahdan qorxanınız və ən təqvalınızdır.

Cəmiyyətdə cari olan kürəkənlik kimi əlaqənin və ictimai rabitənin öyrənilməsi çox şeyi aşkar edir. Görürük ki, heç də hər zaman bu əlaqələr İslam dininin dəvət etdiyi fərdi iman və təqva qəbilindən olan nizam və qaydalara əsasən formalaşmır. Halbuki cəmiyyət evliliyin məhz belə əsaslar üzərində formalaşmasını üstün bilir. Lakin bu meyar ictimai əlaqələrin yaradılmasında riayət edilməsi vacib olan sabit qayda şəklində deyil. Bu səbəbdən də ictimai əlaqələr, məsələn kürəkənlik əlaqələri qurularkən iki nəfərin arasında ruhi istək və qəlbi məhəbbət zəruri hal kimi götürülmür. Bir çox qohumluq əlaqələrinə nəzər saldığımızda onların müxtəlif səbəblərə görə formalaşdığının şahidi oluruq. Məsələn siyasi, iqtisadi, dini, ictimai və s. amillər bu əlaqələrin yaradılmasında əsas rol oynayır. Əgər biz bu əlaqələrin yaradılmasında yalnız təqvanı şərt kimi

---

[755] Hucurat, 13

irəli sürsək, o zaman insanların qohumluq əlaqələri yaratmasında çətinliklər yaranacaq. Nəticədə gələcək nəslin varlığı təhlükəyə düşəcək.

Bunu bir çox Quran ayələri də təsdiqləyir. Allaha yaxınlıq, məqam və səviyyə fərqliliklərinə rəğmən, fərdlər arasında nəsil və kürəkənlik əlaqələrinin yaradılmasında təqva kimi iman vəsfinin qəti şərt olmadığını görürük.

Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar var. Onlardan özünüzü gözləyin! Amma (tövbə edəcəkləri təqdirdə) onları əfv etsəniz, (təqsirlərindən) keçsəniz və bağışlasanız (daha yaxşı olar). Çünki Allah (günahları çox) bağışlayandır, rəhm edəndir!"***[756] Ata öz övladı və həyat yoldaşı ilə arasında məhəbbətin nə qədər də üstün səviyyədə olmasını diləsə də, bəzən onlar düşmənə də çevrilə bilirlər.

Uca Allah buyurur: ***"Nuh Rəbbinə (dua ilə) müraciət edib dedi: "Ey Rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlər hakimisən!" (Allah) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyil. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Sənə cahillərdən olmamağı tövsiyə edirəm".***[757]

Burada Nuh (ə) öz oğluna qarşı məhəbbətini, sevgisini və mərhəmətini ifadə edir. Lakin oğlu bunlara layiq deyil. Peyğəmbərlik əxlaqı Nuhdan (ə) belə rəftarı tələb edir. Bu səbəbdən Peyğəmbərimiz (s) də bütün insanların hidayət olmasına həris idi. Ancaq Uca Allah ona buyurdu: "***Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar".***[758]

Həmçinin Uca Allah buyurur: ***"Allah kafirlərə Nuhun həyat yoldaşı ilə***

---

[756] Təğabun, 14
[757] Hud, 45-46
[758] Qəsəs, 56

***Lutun həyat yoldaşını misal çəkdi. Onlar Bizim qullarımızdan iki saleh bəndənin kəbini altında idilər. Onlar ərlərinə xəyanət etdilər və (Nuhla Lut) onları Allahdan (Allahın əzabından) heç vəchlə qurtara bilmədilər. Onlara: "Girin cəhənnəmə ikiniz də girənlərlə birlikdə!" - deyildi".***[759]

Bu ayə hər iki qadını ərlərinə qarşı xəyanətlə vəsf edir. Halbuki onların ərləri Allahın ixlaslı bəndələri idilər. Yaradılan qohumluq əlaqəsini bir ibrət olaraq göstərir və kafirlər üçün nümunə gətirir, onların aqibətinin oda girmək olduğunu bildirir. Yalnız peyğəmbərlərin həyat yoldaşı olmaları əsla onlardan əzabı dəf etmir. Bundan əlavə, Uca Allah Lutun zövcəsinin həlakını qövmünə üz tutan əzabda qərar verir. ***"Biz onu (Lutu) və ailəsini (həmçinin ona iman gətirənləri) xilas etdik. Yalnız zövcəsinin onlarla birgə həlak olmasına hökm verdik".***[760]

Buna əsasən məlum olur ki, kürəkənlik əlaqələrini rəhbər tutaraq iki tərəf arasında möhkəm və sarsılmaz bağların olduğunu isbat etmək mümkün deyil. Eləcə də məsləhət təqvalılar arasında nikahın bağlanmasına hökm etsə də, bəzən təqvalı ilə azmış şəxs arasında da nikahı mümkün edir.

Bəli, əgər nəsil və kürəkənlik əlaqələri Allahın razılığını bəyan edən amillərdən olsaydı, o zaman Uca Allah dostu İbrahimə İmamət məqamı bəxş etdikdə nəslindən də imamlar qərar verməsi istəyini rədd etməzdi. Uca Allah bu mənsəbə bütün nəslinin nail olmayacağını bildirir, onlardan yalnız ədalətli və yaxşılığı əmr edənləri imam qərar verəcəyini bildirir: ***"Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə (bəzi əmrləri ilə) imtahana çəkdiyi zaman o, (Allahın əmrlərini) tamamilə yerinə yetirdi. (Belə olduqda Allah ona:) "Səni insanlara imam (dini rəhbər, başçı) təyin edəcəyəm", – dedi. (İbrahim isə:) "Nəslimdən necə?" – deyə***

---

[759] Təhrim, 10
[760] Əraf, 83

***soruşdu. (Allah onun cavabında:) “(Sənin nəslindən olan) zalımlar mənim əhdimə (imamlığıma) nail olmazlar”, – buyurdu”.***[761] Onlardan salehlərini Allah atalarından sonra imam etdi: ***“Biz ona (İbrahimə) İshaqı, üstəlik Yaqubu da bəxş edib onların hamısını saleh kimsələr etdik. Biz onları əmrimizlə (insanlara) doğru yolu göstərən imamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər”.***[762]

Bu hadisə bir az əvvəl qeyd etdiyimiz Nuhun (ə) oğlu ilə bağlı hadisənin əksidir. O, salehlərdən olmadığı üçün Uca Allah atasının istəyini qəbul etmədi. Onun ***“Ey Rəbbim! Oğlum (Kənan) mənim ailə üzvlərimdəndir”*** sözünə ***“Ey Nuh! O sənin ailəndən deyil. Çünki o (küfr etməklə) pis bir iş görmüşdür”***[763] cavabını verdi.

Bu, zahiri dəlil olan Quran ayələrindən yalnız bir neçəsidir. Ayələrdən də göründüyü kimi, nəsil və kürəkənlik səbəbindən qohumluq bağları Allahın əzabından heç nəyi dəf etmir.[764]

Buna əsasən, sevgi və razılıq başqa, evlilik vasitəsilə qohumluq isə başqa bir şeydir. Bütün səbəbi (sonradan yaranmış) qohumluqların razılıq, mehribanlıq və məhəbbətə əsaslanması zəruri deyil. Xüsusilə də, biz bu həyatda evliliklərinin ilk çağlarında aralarında ülfət və məhəbbət olan cütlüklərin bir müddətdən sonra münasibətlərinin nifrət, xəyanət və düşmənçiliyə çevrildiyini də görürük. Məsələn, İmam Həsənlə (ə) zövcəsi Cudə arasında ilk vaxtlarda mehribanlıq və ülfətin olduğu şübhəsizdir. Lakin ötən zaman ərzində Cudənin məqsədlərinin dəyişməsi, eləcə də atasının Müaviyənin vədlərindən qaynaqlanan tamahkarlığı bu münasibətləri məhəbbətdən ən mənfur əlaqəyə çevirdi. Nəticədə Cudə

---

[761] Bəqərə, 124

[762] Ənbiya, 72-73

[763] Hud, 45

[764] Bax: Tövbə, 24; Maidə, 27; Səba, 37; Mumtəhinə, 3; Nisa, 11

şəxsən İmam Həsəni (ə) zəhərləyərək qətlə yetirdi.[765] Halbuki İmam (ə) ondan ikrah və nifrət münasibəti hiss etməmişdi. İndi özünüz müqayisə edin!

Eləcə də, evlilik vasitəsilə qohumluq bir icmali feldir. Onun danışmağa dili və ifadə etməyə bir vasitəsi yoxdur. Evlilik ehtimalı və səbəbləri saysızdır. Xüsusi bir dəlil və ya tərəflərin səmimi etirafı olmadıqca bu əlaqəni hər hansı bir səbəblə əlaqələndirmək mümkün deyil. Bunu təsdiqləyən dəlillərdən biri Peyğəmbərin (s) yəhudi alim Həyyə ibn Əxtabın qızı Səfiyyə ilə evlənməsidir.

Belə ki, bəzən evlilik iki tayfa arasında xoş münasibətlərin yaranmasına rəvac vermək məqsədi daşıyır ki, bu da gah öz hədəfinə çatır, gah da çatmır. Evlilik vasitəsilə qohumluq nə əvvəl, nə də sonradan yeni qohumlar arasında xoş münasibətlərə dəlalət etməz. Necə ki, bunu bir çox rəhbər və məqam sahiblərinin evliliklərində müşahidə edirik. Onlar məqam və vəzifələrinin möhkəmləndirilməsi üçün evlilik əlaqələri qururlar. Halbuki həqiqətdə onların arasında heç bir məhəbbət olmur. Həmçinin bu, onların məramının mütləq həyata keçdiyini də labüd etməz.

### Evlilik qohumluğunun dəlil göstərilməsi

Müzakirəyə başlamazdan öncə, əvvəlki bəhsdə Əhli-Beytlə (ə) Əbu Bəkr arasında heç bir mehribanlığın mövcud olmadığının qəti dəlillərlə isbatlandığını xatırlamaq istəyirik. Mücərrəd evliliyin mehribanlığa dəlil olması Buxari və Müslimin "Səhih"lərində Fatimənin (ə) ondan qəzəbli və narazı halda dünyadan köçdüyünə dair qəti dəlillərinə ziddir: *"Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı".*[766] Həmçinin Müslimin öz "Səhih"ində Ömərdən nəql etdiyinə əsasən,

---

[765] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 13, s. 284; əl-Kamilu fit-tarix, c. 2, s. 15; Təhzibul-kəmal, c. 6, s. 253; Siyəru əlamin-nübəla, c. 3, s. 275; Təhzibut-təhzib, c. 2, s. 260; əl-Bidayətu vən-nihayə, c. 8, s. 47

[766] Səhih, Buxari, c. 5, s. 82; Səhih, Müslim, c. 5, s. 154

Möminlərin əmiri (ə) və əmisi Abbas onları “*...yalançı, günahkar, namərd və xain olaraq...”* görürdü.[767]

Həmçinin Əhmədin “Müsnəd”ində Aişədən rəvayət etdiyinə də müxalifdir: *“Peyğəmbər (s) Meymunənin evində xəstələndiyi zaman mənim evimdə xəstəlik yatağına uzanması üçün zövcələrindən icazə istədi və onlar da izn verdilər. Peyğəmbər Abbasın və başqa bir nəfərin yardımı ilə ayaqları yerlə süründüyü halda evdən çıxdı”. Übeydullah deyir ki, İbn Abbas ona dedi: “İkinci şəxsin kim olduğunu bilirsən? O, Əli ibn Əbu Talib idi. Lakin Aişənin ondan xoşu gəlmirdi”.*[768]

Evlilik qohumluğu fərdlər arasında məhəbbətə necə səbəb olur ki, Əbu Bəkrin qızı və Peyğəmbərin (s) zövcəsi olan Aişənin Əhli-Beytin (ə) seyyidi və bir çox rəvayətin də qeyd etdiyi kimi, insanlar arasında Peyğəmbərə (s) ən sevimli şəxs olan Möminlərin əmiri Əlidən (ə) xoşu gəlmir?!

Nəsil və evlilik səbəbindən mövcud olan qohumluq əlaqəsinin Əhli-Beytlə (ə) aralarında razılıq, sevgi və mehribanlığa meyar olmadığı aydınlaşdıqdan sonra İhsan Zahirin Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı qohumluq əlaqələri barədə göstərdiyi nümunələrin müzakirəsinə keçək.

### Birinci nümunə: Peyğəmbərin (s) Əbu Bəkrin qızı Aişə ilə evlənməsi

İhsan Zahir Peyğəmbərin (s) Əbu Bəkrin qızı ilə evlənməsini dəlil kimi təqdim edir, onun Peyğəmbərə (s) **“insanlar arasında ən sevimli şəxs”,**[769] **“Quranın da şahidliyinə əsasən, pak və pakizə”**[770] olduğunu iddia edir.

---

[767] Səhih, Müslim, c. 5, s. 152

[768] Müsnəd, Əhməd ibn Hənbəl, c. 20, s. 9173, hədis 23943. Təhqiq: Həmzə Zeyn. O deyir: *“Hədisin sənədi səhihdir”.*

[769] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 77

[770] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 77

**Müzakirə**

Peyğəmbərin (s) Əbu Bəkrin qızı Aişə ilə evləndiyinə heç bir şübhə yoxdur. İlk növbədə söhbət bu evliliyin Əhli-Beytin (ə) Əbu Bəkrdən razılığını və aralarındakı mehribanlığı isbatlayacaq dəlil olması barədədir. İkinci, Aişənin Peyğəmbər (s) üçün insanlar arasından ən sevimli şəxs olması iddiası, üçüncü isə Quranın Aişənin pak və pakizəliyinə şahidlik etməsidir.

**Birinci iddia: Peyğəmbərin (s) Aişə ilə evlənməsi Əhli-Beytin (ə) Əbu Bəkrdən razılığına dəlildir**

Bu iddianın puçluğu birinci və ikinci müzakirələrdən aydın oldu. Lakin burada Peyğəmbər (s) zövcələri ilə bağlı digər bir cavabı da əlavə edirik. Peyğəmbərin (s) bir qadınla evlənməsi Əhli-Beytin (ə) o qadının yaxınları ilə əlaqələrinin möhkəmlənməsinə və onlardan razılığına səbəb olurmu?

Peyğəmbərin (s) zövcələrindən biri Həyyə ibn Əxtabın qızı Səfiyyədir. O, yəhudi idi, Xeybərdə əsir götürülmüşdü və Peyğəmbər də (s) onu özü üçün seçdi. Ardınca azad edərək mehriyə təyin etdi və onunla evləndi. Buxari öz "Səhih"ində Ənəsdən nəql edir: *"...Əsirlər bir yerə toplandıqda Dəhiyyə Peyğəmbərin (s) yanına gələrək dedi: "Bu əsirlərdən mənə bir cariyə verin". Peyğəmbər (s) gedib bir cariyə seçməsini ona buyurdu. O da Həyyənin qızı Səfiyyəni seçdi.*

*Bu vaxt bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi: "Ey Peyğəmbər, Qüreyzə və Nəzir qəbilələrinin seyyidəsini Dəhiyyəyə verdin. Halbuki o, yalnız sizə layiq idi".*

*Peyğəmbər (s) Dəhiyyəni seçdiyi cariyə ilə birlikdə çağırmalarını buyurdu. Onlar gəldikdə Dəhiyyəyə əsirlər arasından başqa bir cariyə seçməsini tapşırdı, Səfiyyəni əsirlikdən azad edib onunla evləndi..."*[771]

[771] Səhih, Buxari, c. 1, s. 97

Məgər Peyğəmbərin (s) Xeybər əsiri yəhudi Həyyənin qızı Səfiyyə ilə evlənməsi Əhli-Beytin (ə) onun atasından razılığını ifadə edir? Halbuki bəzi rəvayətlərdə Həyyə ibn Əxtabın Cibt (büt) olduğu qeyd edilir. İbn Həcər deyir: *"Əli ibn Əbu Təlhədən, o da İbn Abbasdan: "Cibt – Həyyə ibn Əxtab, tağut isə Kəb ibn Əşrəfdir".*[772]

Bəzi rəvayətlərdə isə onun barəsində Quranın ***"Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satanların axirət nemətlərindən heç bir payı yoxdur. Allah qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz və onları (günahlarından) pak etməz (təmizə çıxarmaz). Onları şiddətli bir əzab gözləyir!"***[773] ayəsinin nazil olduğu deyilir. Bunu İbn Həcər də qeyd edib: *"Təbəri İkriməyə istinadən bu ayənin Tövratda Peyğəmbərin (s) şəninə olan ayələri gizlətdiyi üçün Həyyə ibn Əxtab, Kəb ibn Əşrəf və digər yəhudilər barəsində nazil olduğunu deyir".*[774]

**İkinci iddia: Aişə insanlar arasından Peyğəmbərə (s) ən sevimli şəxsdir**

Bu iddianın yanlışlığına şübhə yoxdur. Çünki iddianı əhli-sünnənin "Səhih"lərindəki səhih rəvayətlər inkar edir. Onlar Əlinin, Fatimənin, Həsən və Hüseynin (Allahın salamı olsun onlara!) məxluqlar arasında Allaha və Peyğəmbərinə (s) ən sevimli şəxslər olduğuna dəlalət edir.

İbn Həcərin "Fəthul-bari"də nəql etdiyi rəvayətdə deyilir: *"Əhməd, Əbu Davud və Nisai Numan ibn Bəşirdən səhih sənədlə nəql edirlər: "Əbu Bəkr Peyğəmbərin (s) evinə daxil olmaq üçün izn istəyərkən Aişənin yüksək səslə Peyğəmbərə (s) belə dediyini eşitdi: "Allaha and olsun ki, Əli sənə mənim atamdan daha sevimlidir". Bunu iki və ya üç dəfə təkrar etdi. Əbu Bəkr icazə*

---

[772] Fəthul-bari, İbn Həcər Əsqəlani, c. 8, s. 190
[773] Ali-İmran, 77
[774] Fəthul-bari, İbn Həcər Əsqəlani, c. 8, s. 160

*alıb evə daxil olduqda qızının üzərinə yeriyib dedi: "Ey filankəsin qızı! Bir daha Peyğəmbərin (s) üstünə səsini qaldırdığını eşitməyim".*[775]

Aişənin özü Əlinin (ə) Peyğəmbərə (s) Əbu Bəkrdən daha sevimli olduğunu iki və ya üç dəfə etiraf edir. Hətta heç kim tələb etmədiyi halda buna and da içir. Diqqət edilməlidir ki, o, burada Aişə Peyğəmbərə (s) etiraz edir, halbuki bu əməl Allahın sözünə əsasən haramdır: ***"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar".***[776]

Sanki bu hadisə səmimi hislərin ifadəsidir və rəvayətdən də göründüyü kimi, Aişə nəbi və rəsulların ən yaxşısının əsaslandığı ilahi meyarlara tabe olmur. Halbuki Peyğəmbər (s) sevgi, nifrət və fəzilət kimi hislərin bəyanında heç vaxt həvaye-nəfsindən danışmır.

İhsan Zahirin və digərlərinin də qəbul etdiyinə əsasən, Aişə Peyğəmbərə (s) atası Əbu Bəkrdən daha sevimli olmayıb. Aişənin Əlini (ə) atası Əbu Bəkrdən çox sevməsini Peyğəmbərə (s) irad bildirməsi İmam Əlinin (ə) onların hər ikisindən daha sevimli olduğunu bəyan edir. Həmçinin, Peyğəmbərin (s) yanında bədəninin və ruhunun bir parçası qızı Fatimə (ə) olduğu halda, Aişə necə onun üçün ən sevimli şəxs ola bilər?!

Buna dəlalət edən rəvayətlərdən birini Tirmizi nəql edir və "həsən" hədis olduğunu bildirir: *"İbn Büreydədən, o da atasından rəvayət edir ki, "Peyğəmbərə (s) qadınlardan ən sevimlisi Fatimə, kişilərdən isə Əli idi. İbrahim deyir: yəni Əhli-Beytindən".*[777]

---

[775] Fəthul-bari, İbn Həcər Əsqəlani, c. 7, s. 19

[776] Hucurat, 2

[777] Sünən, Tirmizi, c. 5, s. 360. Albani bu hədisi ravilər Abdullah ibn Əta və Cəfər Əhmər cəhətindən zəif elan etməyə çalışmışdır. (Həsən ibn Əli Səqqaf, Tənaquzatul-Albani, c. 2, s. 244) Bu isə olduqca təəccüb doğuran haldır. Çünki Abdullah ibn Əta Müslimin və digər dörd kitabın ravilərindəndir. Yəhya ibn Muin onun "siqə" (inanılan, etibarlı şəxs) olduğunu bildirmişdir (əd-Duri, Tarixu ibn Muin, c. 1, s. 223, Abdullah Əhməd Həsən, "Darul-qələm" nəşriyyatı, Beyrut). Tirmizi öz "Sünən"ində deyir:

Eynilə bu sənədlə Təbərani "əl-Möcamul-övsat"da[778] nəql edir. Hakim "Müstədrək"də deyir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməmişlər".*[779] Həmin hədis Aişənin Peyğəmbərə (s) ən sevimli şəxs olduğu iddiasını puça çıxarır.

Həmçinin Təbərani mötəbər sənədlə Əsma bint Ümeysdən nəql edir: *"...Sonra Fatiməni çağırdı, o, utandığından çiynindəki örtüyünü dartırdı, bu səbəbdən çöhrəsində tər damlaları da göründü. Allahın bildirmək istədiklərini ona söylədi. Sonra buyurdu: "Mən səni əhlimdən ən sevimli şəxslə evləndirməkdə əsla yanılmamışam..."*[780] Bunu Sənani "Müsənnəf"də[781] və digər hədis imamları da rəvayət ediblər.

İmam Əlinin (ə) Peyğəmbərə (s) Aişədən daha sevimli olduğuna dəlalət edən hədislərdən biri də demək olar ki, bütün hədis imamlarının kitablarında qeyd etdikləri "Qızardılmış quş" hədisidir. Bu hədis Möminlərin əmiri (ə), İbn Abbas, Ənəs ibn Malik, Səfinə kimi bir çox böyük səhabədən rəvayət olunub. Hədis o qədər geniş yayılıb ki, hətta səhihliyinə

---

*"Abdullah ibn Əta hədis əhlinin nəzdində "siqə"dir (inanılan şəxsdir)"* (Sünən, Tirmizi, c. 2, s. 89). Onun barəsində İbn Hibban "əs-Siqat" kitabından fikir bildirir (c. 7, s. 41). Zəhəbi deyir: *"O, doğru danışandır".* (əl-Kaşif, c. 1, s. 574)

Albani özü də sənədində Abdullah ibn Ətanın olduğu Abdullah ibn Büreydənin atasından nəql etdiyi başqa bir hədisin səhih olduğunu bildirib. Bu, onun "Səhih Sünəni ibn Macə" və "Səhihut-Tirmizi" kitablarında qeyd olunur.

Cəfər ibn Abdullaha gəldikdə, Albani özünün "İrvaul-ğalil" kitabında (c. 7, s. 270) onun "siqə" olduğunu bildirir və deyir: *"Cəfər Əhmərdən, Mütərrifdən, o da Həkəmdən... Deyirəm: Bu, Müslimin siqə ravilərinə istinad edilən hədisdir. Onlardan yalnız Cəfər Müslimin ravilərindən deyil. Cəfər – Ziyad Əhmərin oğludur və siqədir".*

Bundan əlavə, əhli-sünnənin Əhməd ibn Hənbəl, İbn Muin, Əbu Zərə, Əbu Davud, Osman ibn Əbu Şeybə və digərləri kimi böyük rical alimləri də Cəfər Əhmərin "siqə" (inanılan, etibarlı şəxs) olduğunu söyləmişlər. Bax: Tənaquzatul-Albani, c. 2, s. 247

[778] əl-Möcamul-övsat, Təbrani, c. 7, s. 199

[779] əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 155

[780] əl-Möcamul-kəbir, Təbərani, c. 24, s. 137. Heysəmi bu rəvayəti nəql etdikdən sonra eyni məzmunda ikinci rəvayəti də qeyd edir və deyir: *"Bunları Təbərani də nəql edir. Birinci rəvayətin raviləri "Səhih"in raviləridir".* (Məcməuz-zəvaid, c. 5, s. 485; c. 11, s. 228)

[781] əl-Müsənnəf, Sənani, c. 5, s. 485; c. 11, s. 227

qəti olaraq heç kəs şübhə edə bilməz. Zəhəbi "Təzkiratul-huffaz"da deyir: *"Qızardılmış quş" hədisinə gəldikdə, olduqca çox yollarla rəvayət edilib. Mən də onun barəsində bir kitab yazmışam. Həmin hədislərin məcmusu onun həqiqət olmasını vacib edir".*[782]

Təbəri, Hakim, Zəhəbi, İbn Mərduveyh, Əbu Nəim və başqa bir çox əhli-sünnə alimləri həmin hədis barədə xüsusi kitablar qələmə alıblar. Bu rəvayət mötəbər sənədlərlə və fərqli yollarla varid olub:

**1** – Hakim hədisin "səhih" olduğunu qeyd edərək deyir: *"Ənəs ibn Malikdən (r): "Peyğəmbərin (s) xidmətində idim. Onun üçün qızardılmış quş gətirildi. Peyğəmbər (s) onu qəbul edərək buyurdu: "İlahi, bu quşu yemək üçün məxluqlarından ən sevimlisini yanıma göndər". Mən dedim: "İlahi, o şəxs ənsardan olsun!" Bu zaman Əli (r) gəldi. Mən ona Peyğəmbərin (s) məşğul olduğunu söylədim. Sonra yenidən gəldi. Mən yenə Peyğəmbərin (s) məşğul olduğunu dedim. Üçüncü dəfə gəldikdə Peyğəmbər (s) onun üçün qapını açmağımı istədi. İçəri girdi, Peyğəmbər ondan niyə gecikdiyini soruşdu. Əli dedi: "Bununla üçüncü dəfədir ki, qapıya gəlirəm və Ənəs sənin məşğul olduğunu güman edərək məni geri qaytarır". Peyğəmbər (s) məndən bunun səbəbini soruşduqda dedim: "Ey Peyğəmbər, sənin duanı eşitdim, həmin şəxsin öz qövmümüzdən olmasını dilədim". Peyğəmbər (s) buyurdu: "Bu kişini öz qövmü sevir".*[783]

**2** – İbn Kəsir mötəbər sənədlə nəql edir və ardınca deyir: *"Bunu İbn Əbu Hatəm Əmmar ibn Xalid Vasitidən, İshaq Əzrəqdən, Əbdülməlik ibn Əbu Süleymandan və o da Ənəsdən rəvayət edib. Bu isə Hakimin sənədindən daha yaxşıdır".*[784]

---

[782] Təzkiratul-huffaz, c. 3, s. 1042

[783] Müstədrək, Hakim, c. 3, s. 141. Müəllif deyir: "Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin onu kitablarında qeyd etməyiblər". Bu hədisi Ənəsdən 30-dan artıq səhabə rəvayət edib. Həmçinin bu rəvayətin Əli, Əbu Səid Xudri və Səfinə tərəfindən də doğruluğu təsdiqlənib.

[784] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 388. Oradakı hədisdə Ənəsdən nəql edilir: *"Peyğəmbərə (s) qızardılmış quş və çörək hədiyyə olaraq gətirildi. Peyğəmbər (s)*

**3** – Həmçinin Təbərani mötəbər sənədlə Peyğəmbərin xidmətçilərindən olan Səfinədən nəql edir: *"Peyğəmbərə (s) bir neçə quş hədiyyə edilmişdi. Onlardan bir neçəsini hazırladım və səhər qarşısına gətirdim. Bunların haradan olduğunu soruşduqda dünən gətirildiklərini bildirdim. Buyurdu: "Məgər mən sizə sabah üçün yemək tədarük etməməyi söyləməmişəm? Hər günün öz ruzisi var". Sonra buyurdu: "İlahi, bu quşu mənimlə birlikdə yemək üçün ən sevimli məxluqunu yanıma göndər". Bundan sonra Əli (r) gəldi. Peyğəmbər (s) "İlahi, mənə də (sevimlidir)" deyə buyurdu".*[785]

Bu hədis Peyğəmbərdən (s) varid olan səhih və isbatlanmış hədislərdəndir. Onun barəsində ediləcək şəkk Əhli-Beytin (ə) fəzilətlərinə və uca məqamlarına dəlalət edən "Qədir-Xum", "Səqaleyn" və s. mötəbər hədislərə edilən şəkk kimidir. Belə bir şəkk isə yalnız əhli-sünnənin Əbu Bəkrin, Ömərin və Osmanın Əhli-Beytdən (ə) daha fəzilətli olmaları barədə nəzərlərindən qaynaqlanacaq.

İhsan Zahirə deyirik: İmam Əlinin (ə) Allah və Peyğəmbəri (s) üçün ən sevimli məxluq olduğuna dəlalət edən belə açıq mənalı hədisin qarşısında nə edəcəksən?! Bundan sonra Aişənin Peyğəmbər (s) üçün ən sevimli şəxs olduğunu necə iddia edəcəksən?!

Bütün bu rəvayətlər İhsan Zahirin Aişənin Peyğəmbər (s) üçün ən sevimli şəxs olduğu iddiasını inkar edir. Halbuki, Əhli-Beytin (ə), xüsusilə

---

*buyurdu: "İlahi, bu yeməyi mənimlə birgə yemək üçün ən sevimli məxluqunu yanıma göndər". Aişə həmin şəxsin öz, Həfsə də öz atasının olmasını Allahdan dilədi. Ənəs isə dedi: "İlahi həmin şəxs Səd ibn İbadə olsun". Ənəs bundan sonra qapının qarşısında ayaq səsləri eşitdi və dedi: "Peyğəmbər (s) məşğuldur". Həmin şəxs çevrilib getdi. Ardınca yenə də qapının qarşısında kiminsə olduğunu hiss etdi. Ora baxdıqda Əlini gördü. Peyğəmbərin məşğul olduğunu söylədikdə Əli dönüb getdi. Sonra qapının qarşısından mənə salam verən bir səs eşitdim. Peyğəmbər (s) də onun səsini eşitdi və buyurdu: "Bax, gör kimdir qapıda?" Qapıya çıxdıqda yenə də Əlini gördüm. Peyğəmbərin (s) yanına gəlib bunu xəbər verdikdə ona içəri daxil olması üçün izn verməmi söylədi. Əli içəri keçdi. Peyğəmbər (s) onu görüb buyurdu: "İlahi, onun dostu ilə dost ol!"*

[785] əl-Möcamul-kəbir, Təbərani, c. 7, s. 82. Heysəmi deyir: *"Bunu Bəzzar, Təbərani ixtisarla nəql ediblər. Təbəraninin rəvayətinin sənədindəki şəxslər "Səhih"in raviləridir. Yalnız Fitr ibn Xəlifədən savayı, o, "siqə"dir".* (Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 126)

də onların ağası İmam Əlinin (s) Peyğəmbər (s) üçün ən sevimli məxluq olduğuna dəlalət edən saysız rəvayətlər mövcuddur.

**Üçüncü iddia: Qurana əsasən pak və pakizə olması**[786]

Əgər İhsan İlahi Zahirin Quranın bəyanına əsasən, Aişənin pak və pakizə olduğunu qeyd etməsi (Əhli-Beyt (ə) barəsində "Təthir" ayəsində olduğu kimi) onun üçün mütləq məsumluğun isbatıdırsa, kitabın əvvəlində Qurani-Kərimin qadınları istisna etməklə yalnız Əhli-Beytin (ə) barəsində bu məfhuma şahidlik etdiyini sübuta yetirdik. Həmin bəhsi burada təkrarlamağa ehtiyac görmürük.

Lakin "Böhtan" ayəsində məqsəd fahişəliyə mürtəkib olmaqdan paklığı bildirməkdirsə, İmamiyyə şiələri Peyğəmbər (s) zövcəsi olması etibarilə Aişəni belə bir günahda ittiham etmirlər. Əgər bu ayə ilə onun bütün günahlardan qorunaraq məsum qərar verildiyi iddia edilirsə, bunu da heç bir İslam alimi təsdiq etmir. Bu ayə həmin mövzuya dəlalət etmir, həmçinin şiənin nəzərində də Aişə qeyd etdiyimiz günahla ittiham olunmur. O zaman, bu ayəni qeyd etməyin nə mənası var?!

Bütün bunlar həmin ayənin Aişə tərəfindən Mariya Qibtiyə atılan böhtandan bəraəti üçün nazil olduğuna göz yumduğumuzda deyiləcək.

**İkinci nümunə: Möminlərin əmiri Əlinin (ə) Əsma bint Ümeyslə evlənməsi**

Əsma İmam Əli (ə) ilə evlənməzdən əvvəl Əbu Bəkrlə evli idi və ondan Muhəmməd ibn Əbu Bəkr adlı oğlu dünyaya gəlmişdi. Əbu Bəkr öldükdən sonra İmam (ə) Əsma ilə evləndi və Muhəmmədin tərbiyəsini öz üzərinə götürdü, öz xilafəti dövründə onu Misirə vali təyin etdi. Əlavə olaraq qeyd edək ki, Əbu Bəkrlə evlənməzdən əvvəl Əsma bint Ümeys İmam Əlinin (ə)

---

[786] Şiə və Əhli-Beyt, İlahi İhsan Zahir, s. 77

şəhid qardaşı Cəfər-Təyyarın həyat yoldaşı idi. Möminlərin əmiri (ə) də onunla yalnız Fatimənin (ə) vəfatından sonra evlənib.

Qeyd edilən nümunədə Əhli-Beytin (ə) Əbu Bəkrə olan sevgi və mehribanlığına heç bir dəlil yoxdur. Əbu Bəkrin evləndiyi bir qadınla sonradan İmam Əlinin (ə) evlənməsi nə ürfə və nə ağıla əsasən, yaxından və ya uzaqdan Əbu Bəkrə sevgini isbatlaya bilməz.

Muhəmməd ibn Əbu Bəkri Misirə vali təyin etdiyini şiələr inkar etmirlər. Əksinə, bunu Əhli-Beytin (ə) müxlis şiələri rəvayət edirlər. Burada Əhli-Beytin (ə) Əbu Bəkrə qarşı sevgisinə dəlil ola biləcək nə var?!

İhsan Zahirin imamlarından olan İbn Teymiyyə və digərləri məgər Muhəmməd ibn Əbu Bəkri Möminlərin əmirinə (ə) yaxınlığı və onun şiəsi olduğu üçün tənə etmirlərmi? İbn Teymiyyə onun barəsində deyir: *“Mərvan fitnə salmaqda və pislikdə heç də Muhəmməd ibn Əbu Bəkrdən üstün deyil. Həmçinin elm və din cəhətdən də ondan məşhur deyil. “Səhih” kitabların müəllifləri Mərvandan hədislər nəql etmişlər, fətva əhli ilə birgə sözləri var, səhabəliyi barədə isə ixtilaf mövcuddur. Lakin Muhəmməd ibn Əbu Bəkrin camaat arasında bu cür məqamı yoxdur”.*[787]

İhsan Zahir etiqad məsələlərinin isbatında bu cür dəlillər təqdim etməklə oxucuda təəccüb və şübhələr yaradacağını düşünürmüş.

**Üçüncü nümunə: İmam Baqirin (ə) Əbu Bəkrin nəvəsi ilə evlənməsi**

İmam Baqirin (ə) evləndiyi qadın Muhəmməd ibn Əbu Bəkrin oğlu Qasimin qızı Fərvədir. Anası isə Əbu Bəkrin oğlu Əbdürrəhmanın qızı Əsmadır.

İlahi İhsan Zahir bunu dəlil kimi göstərməkdən utanmalı idi. İmam Əlinin (ə) tərəfdarlarından olan Muhəmməd ibn Əbu Bəkrin nəvəsinin İmam Baqirlə (ə) evlənməsi Əhli-Beytin (ə) Əbu Bəkrə məhəbbətini necə

---

[787] Minhacus-sünnə, İbn Teymiyyə, c. 6, s. 245

ifadə edə bilər? Bu dəlilə qiymət vermək üçün məsələni oxucunun özünə buraxırıq.

**Dördüncü nümunə: Muhəmməd ibn Əbu Bəkrin oğlu Qasim İmam Səccadın (ə) xalası oğlu idi**

Belə bir məsələnin doğruluğuna göz yumsaq, Əhli-Beytin (ə) Əbu Bəkrə olan sevgisini ifadə etməkdə bunun necə zəif və aciz dəlil olduğu əvvəlki cavabdan da məlum olacaq. Əlavə olaraq qeyd edək ki, Zübeyr ibn Əbdülmüttəlib İmam Əlinin (ə) bibisinin oğludur. Buna baxmayaraq onunla savaşmış, beyətini pozmuş və qarşı çıxmışdır. Kürəkənlik vasitəsilə qohumluq kənara dursun, heç nəsil baxımdan qohumluq belə onu bu işdən çəkindirməmişdi.

**İkinci: Adqoymanı dəlil göstərməyin tənqidi**

Bu iddia Əhli-Beytin (ə) öz övladlarına "Əbu Bəkr" adını qoymasından ibarətdir. İlahi İhsan Zahir bunu Əbu Bəkrə olan sevgi kimi təqdim etməyə çalışır.

**Müzakirə**

Əvvəlki məsələdə olduğu kimi, burada da adqoymanı dəlil kimi təqdim etmək faydasızdır. Bu, aşağıdakı cəhətlərdən aydın olacaq:

**Birinci: Adqoyma**

Bir şəxsə adqoyma gah bədahətən, heç bir hazırlıq görülmədən baş verir. Adqoymada buna tez-tez rast gəlmək olur. Gah da xoş bir əlamət və təbərrük niyyəti ilə qoyulur. Məsələn bir kəsin övladına "Muhəmməd" adını qoyması Peyğəmbərin (s) xoş əlaməti kimi qəbul edilir. Bəzən də adqoyma bir şəxsə olan məhəbbət, əlaqə, xatirə və ehtiramdan doğur. Məsələn, xatirəsini yaşatmaq üçün atanın övladına öz atasının adını

qoyması kimi. Başqa cəhətdən, bəzən insanlar heç bir şəxsi və ya amili nəzərə almadan, geniş yayıldığına və ya qulaqda xoş səsləndiyinə görə övladlarına bir adı verirlər. Gah da adın lüğət və mənasındakı gözəlliyinə görə qoyulur. Bəzən isə həsəd və paxıllıqdan qorxaraq olduqca gözəl şəxsə "Qəbihə", yaxud bunun əksi olaraq uğursuz şəxsə "Mufazə", kora "Bəsir" adları qoyulur. Eləcə də düşmənlərini qorxutmaq üçün uşaqlarına "Cavanşır", "Aslan" kimi adlar qoyulub. Adqoymada digər səbəblər də var.

Yalnız məsumların adları istisnadır. Onlar ilahi mənaları özlərində əks etdirirlər. Məsələn, "Muhəmməd" adı özündə İlahi həmdi, "Əli" ucalığı, "Fatimə" tərəfdarlarını oddan ayırmağı, "Həsən" və "Hüseyn" ilahi ehsan və gözəlliyi təcəssüm etdirir. Hər bir məsumun adı ilahi və rəbbanidir.

Belə olduqda deyirik: bəzi Haşimilərin və ya Əli (ə) övladlarının uşaqlarına müəyyən adları qoyması adlarını daşıdığı şəxslərlə aralarında məhəbbət və mehribanlıq əlaqəsinin varlığına dəlalət etməz. Ad bir kəsin şəxsi mülkiyyəti deyil, eyni adla həm ədalətli, həm də fasiq, həm xeyirxah və həm günahkar, həm alim və həm də cahil şəxs adlandırıla bilər. Bəzi ərəblər heç də adil və təqvalı olmayan insanların adları ilə adlandırılıblar. Bu zaman aralarında sevgi və mehribanlıq əlaqəsi olmayan şəxsin adından istifadəsi haram elan edilməyib və öz etibarını da cəmiyyətdə itirməyib. İmam Həsənin (ə) övladlarının arasında "Əmr" adını daşıyan şəxsi görürük. Onun (ə) övladlarının adlarını qeyd edərkən Şeyx Müfid deyir: *"Əmr ibn Həsən, İmam Həsənin oğulları Qasim və Abdullahın qardaşıdır. Anası övlad sahibi olan cariyədir".*[788] Halbuki bu adla Möminlərin əmirinin (ə) Əhzəb savaşında qətlə yetirdiyi müşrik Əmr ibn Vədd Amiri adlanırdı. Məgər İmam Həsən (ə) sadəcə övladlarından birinə "Əmr" adı qoyduğu üçün müşrik Əmir ibn Vədlə aralarında sevgi və mehribanlığın olduğunu iddia etmək doğrudurmu? Bəlkə də Haşimi babalarından olan Əmr Ula və ya başqa birinin adıdır? Həmçinin uşağın adını məhz İmam Həsənin (ə)

---

[788] əl-İrşad, Şeyx Müfid, c. 2, s. 20

qoyduğu da sübuta yetməyib. Bəlkə uşağa adı anası, babası, nənəsi və ya yaxın əqrəbalarından biri qoyub? Çünki məsum İmamın (ə) ad qoyması heç də zəruri məsələ deyil.

İmam Kazımın (ə) Übeydullah adlı oğlu olub. Halbuki həmin adla Əhli-Beytə (ə) olmazın zülmlərini verən Yezidin Kufədəki valisi Übeydullah ibn Ziyad adlanırdı. Məgər İmamın (ə) övladına bu adı qoyması Übeydullah ibn Ziyada olan sevgisindən və mehribanlığından irəli gəlirdi? Hansı ağıllı insan bu məntiqi qəbul edər?

Həmçinin övladlarından birinin adı Harun olub. O, Abbasi xəlifəsi Harunla adaşdır. Xəlifə Harunun İmama (ə) qarşı zülmkarlığı məlumdur. İmamı (ə) haqsız yerə uzun müddət həbsdə saxlamış və sonra zəhərlətmişdi. Sadəcə ad qoyulması mehribanlığa necə dəlil ola bilər? Axı nə üçün onun adı Harun peyğəmbərin (ə) adından götürülməsin?

Eləcə də, bir çox şiələr və İmam (ə) səhabələri öz övladlarına Yezid və Ömər adları qoymuşlar. Halbuki bu iki ad İmam Hüseynlə (ə) savaşanların adlarıdır: Yezid ibn Müaviyə, Ömər ibn Səd.

Demək, müəyyən şəxsin öz övladına başqa bir şəxsin daşıdığı adı qoyması həmin insanla aralarındakı sevgi və mehribanlığa dəlalət etməz. Xüsusilə də, əgər həmin ad ərəblər arasında geniş yayılmış addırsa.

**İkinci: Əbu Bəkr adının qoyulmadığı sübuta yetmiş faktdır**

İmamlardan (ə) heç biri övladlarına "Əbu Bəkr" adı qoymayıb. Bu onlarda künyə olub. "Bəkr" ərəblər arasında məşhur və tanınmış addır. Həmçinin bu, İmam Əlinin (ə) ana tərəfindən babalarından birinin adıdır: Bəkr ibn Həvazin.[789] Həmçinin Üsamə ibn Zeyd, Dəhiyyə Kəlbi[790] kimi bir çox səhabənin də babalarının adıdır. Səd ibn Bəkr oğulları ərəb tayfaları arasında tanınmış qəbilədir. Peyğəmbərin (s) süd anası Həlimə Sədiyyə də

789 Məqatilut-talibiyyin, Əbülfərəc İsfahani, s. 4

790 əl-İsabə, İbn Həcər, c. 2, s. 321

həmin qəbiləyə mənsub idi. "Bəkr" adı ərəbin arasında heç də nadir deyil. Eləcə də "Əbu Bəkr" künyəsi də yalnız Əbu Bəkrə aid deyil. Dediyimiz kimi, "Bəkr" adı ərəbdə geniş yayılmış addır, "Əbu Bəkr" isə ad deyil, künyədir.

Əbu Bəkrin həqiqi adı barədə müxtəlif fikirlər var. İbn Əsir "Usudul-ğabə"də Abdullah ibn Osman bölməsində yazır: *"Əbu Bəkr Siddiq – onun adı barədə müxtəlif fikirlər var. Adının Əbdülkəbə olduğu deyilib. Peyğəmbər (s) sonra ona Abdullah adını verib. Onu məhz yaxınlarının Abdullah adlandırdığı da deyilib. Həmçinin ona "Ətiq" də deyilib".*[791]

Cahiliyyə dövründə Əbu Bəkrin künyəsi "Əbülfəsil"[792] olub. Sonradan "Əbu Bəkr" künyəsini götürüb. Əbu Bəkrin xilafətin rəhbərliyinə keçdiyini duyanlar eşitdiklərini təsdiqləmək üçün "Əbülfəsil?" deyə soruşurlarmış. Həmçinin ona qarşı üsyana qalxmış mürtədlər də alçaltmaq məqsədilə "Əbülfəsil" deyirdilər. Məlum olur ki, Peyğəmbər (s) onun adını dəyişdiyi kimi, özü də künyəsini daha yaxşısı ilə əvəzləmişdir. Yaxud da xilafətə keçərkən "Əbülfəsil" künyəsindən imtina edərək artıq böyümüş mənasını verən "Bəkr"[793] künyəsini götürmüşdü.

Deməк, "Bəkr" adı və "Əbu Bəkr" künyəsi ərəblərə məxsus ad və künyədir ki, onu birinci xəlifə sonradan götürmüşdü. Əgər imam övladlarından birinin adı Əbülfəsil olsaydı, o zaman bunun Əbu Bəkrə görə qoyulduğu düşünülə bilərdi.

### Əbu Bəkr ibn Əli (ə) Muhəmməd Əsğərdir

Möminlərin əmirinin (ə) oğlu Əbu Bəkr Muhəmməd Əsğər kimi tanınıb. Bunu Şeyx Müfid "əl-İrşad" əsərində də qeyd edir: *"Muhəmməd Əsğər – künyəsi Əbu Bəkrdir. O və Abdullah qardaşları Hüseynlə (ə) birlikdə Kərbəlada şəhid oldular. Anaları Leyla bint Məsud Darəmiyyədir".*[794]

---

[791] Usudul-ğabə, İbn Əsir, c. 3, s. 315

[792] Fəsil – Süddən zorla ayrılmış dəvə balasına deyilir.

[793] Bəkr – orta yaşlı dəvə mənasındadır.

[794] əl-İrşad, Şeyx Müfid, c. 1, s. 354

**İmam Həsənin (ə) oğlu Əbu Bəkr Əmr ibn Həsəndir (ə)**

İmam Həsənin (ə) Əbu Bəkr adlı oğlu olsa da, həqiqətdə o ad deyil, sadəcə künyədir. Şeyx Müfid "əl-İrşad" kitabında İmam Həsənin (ə) övladlarını qeyd edərkən onların arasında Əbu Bəkr adında bir şəxsi zikr etməyib. Orada deyir: *"İmam Həsən ibn Əlinin (ə) on beş oğlan və qız övladı olub: "Zeyd ibn Həsən, bacıları Ümmül-Həsən və Ümmül-Hüseyndir. Anası Ümmü-Başir bint Əbu Məsud Əqəbə ibn Əmr ibn Sələbə Xəzrəciyyədir. Həsən ibn Həsən, anası Xövlə bint Mənzur Fəzariyyədir. Əmr ibn Həsən, qardaşları Qasim və Abdullahdır. Anaları övlad sahibi cariyədir. Əbdürrəhman ibn Həsən, anası övlad sahibi cariyədir. Əsrəm ləqəbli Hüseyn ibn Həsən, qardaşı Təlhə ibn Həsən, bacıları Fatimə bint Həsəndir. Anaları Ümmü İshaq bint Təlhə ibn Übeydullah Təmimidir. Abdullahla Fatimənin, Ümmü Sələmənin və Rüqəyyənin anaları fərqli qadınlardır".*[795]

Lakin İmam Hüseynlə (ə) birlikdə şəhid olanları qeyd edərkən Əmr ibn Həsənin əvəzinə Əbu Bəkri qeyd edir. Bu isə onun adının deyil, künyəsi Əbu Bəkr olduğuna dəlalət edir.[796] Yaqubi və İsfahaninin də qeyd etdiyi kimi, "Əbu Bəkr" ümumiyyətlə ad deyil, künyədir.

Nəticə olaraq, Əbu Bəkr Əmr ibn Həsənin künyəsidir. Bu künyəni ona başqaları da qoymuş ola bilər. Künyəni məhz İmamların (ə) verdiyi heç bir yolla sübuta yetməyib.

**İmam Hüseynin (ə) Əbu Bəkr adında oğlu olmayıb**

İmam Hüseynin (ə) bu ad və ya künyə ilə övladı ümumiyyətlə olmayıb. Onunla birlikdə Kərbəlada qətlə yetirilən övladları Əli Əkbər və südəmər Abdullahdır. İhsan Zahirin şiə olduğunu iddia etdiyi sünni tarixçisi Məsudinin qeydləri isə isbat olunmayıb. Bunu ondan başqa heç kəs söyləmir. Həmçinin Şeyx Müfid, Əbülfərəc İsfahani, İrbəli və ya başqaları

---

[795] əl-İrşad, Şeyx Müfid, c. 2, s. 20
[796] əl-İrşad, Şeyx Müfid, c. 2, s. 125

İmam Hüseynin (ə) Əbu Bəkr adında Kərbəlada şəhid olmuş oğlunun varlığını qeyd etməyiblər. Əgər bu ad və ya künyədə oğlu olsaydı, mütləq qeyd edərdilər və bu, onlardan gizli qalmazdı.

İrbəli "Kəşful-ğummə"də deyir: *"Doqquzuncu: övladları barədə Kəmaluddin ibn Təlhə deyir ki, onun on oğlan və qız övladı olub. Bunlardan altısı oğlan, dördü qız idi. Oğlanlar: Əli Əkbər, Əli Övsət – o, Zeynəlabidindir (ə), inşallah müvafiq fəsildə onun barəsində danışacağıq, Əli Əsğər, Muhəmməd, Abdullah və Cəfər. Əli Əkbər şəhid olanadək atasının gözləri önündə Kərbəlada döyüşdü. Əli Əsğər körpə idi və oxla öldürüldü. Abdullahın da atası ilə birlikdə şəhid olduğu deyilib. Qızları isə: Zeynəb, Səkinə, Fatimədir. Bu məşhur sözdür. İmamın (ə) dörd oğlunun və iki qızının olduğu da deyilib".*[797]

**İmam Həsənin (ə) oğlu Həsənin Əbu Bəkr adlı övladı olmayıb**

Həsən ibn Həsənə (ə) gəldikdə, onun da bu adda oğlu olmayıb. Əbülfərəc İsfahani deyir: *"Muhəmməd ibn Əli ibn Həmzə Ələvi isə Əbu Bəkr ibn Həsən ibn Həsən adlı bir şəxsin onlarla şəhid olduğunu qeyd edir. Ondan başqa heç kəsin belə bir şey söylədiyini eşitməmişəm. Elm və nəsəb əhlindən Həsən ibn Həsənin Əbu Bəkr künyəli bir övladının olduğu barədə bizə heç bir məlumat çatmayıb".*[798]

İsfahaninin sözlərindən aydın olur ki, o addan əlavə, belə bir künyəyə sahib övladının olduğunu da qəti inkar edir. İhsan Zahirin ona nisbət verdiyi sözlər səhih deyil. Bundan daha dəhşətlisi isə, onun İsfahanidən nəql etdiyi hissəni təhrif etməsidir. İsfahaninin sözlərini necə təhrif etdiyini göstərmək üçün "Şiə və Əhli-Beyt" kitabındakı mətni sizə təqdim edirik: **"Həmçinin, Həsən ibn Həsən ibn Əli – Əli ibn Əbu Talibin nəvəsidir. Övladlarından birinin adı Əbu Bəkrdir. İsfahaninin**

---

[797] Kəşful-ğummə, İrbəli, c. 2, s. 247

[798] Məqatilut-talibiyyin, Əbülfərəc İsfahani, s. 128

**Muhəmməd ibn Əli ibn Həmzə Ələvidən rəvayət etdiyinə əsasən, İbrahim ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Taliblə birgə qətlə yetirilənlərdən biri də Əbu Bəkr ibn Həsən ibn Həsəndir".**[799]

**İmam Kazımın (ə) Əbu Bəkr künyəli övladı yoxdur**

Həmçinin İmam Kazımın (ə) da bu adda və ya künyədə oğlu yoxdur. İhsan Zahirin İrbəlinin "Kəşful-ğummə" kitabına nisbət verdiyi sözlərin nə eyni və nə bənzəri həmin kitabda mövcud deyil. İrbəlinin İmam Kazımın (ə) övladları barədə yazdıqlarını sizə təqdim edirik: *"Musa vəfat etdikdə əlli beş yaşında idi. Bu hadisə 183-cü ildə olub. Anası Həmidə Bərbəriyyədir. Ona Əndəlusiyyə də deyilirdi. Övlad sahibi cariyədir. O, İshaqın və Fatimənin də anasıdır. Onun iyirmi oğlan və on səkkiz qız övladı olub.*

*Oğlanlarının adları: Əli Rza (ə) – imamdır, Zeyd, İbrahim, Əqil, Harun, Həsən, Hüseyn, Abdullah, İsmail, Übeydullah, Ömər, Əhməd, Cəfər, Yəhya, İshaq, Həmzə, Abbas, Əbdürrəhman, Qasim, Cəfər Əsğər. Ömərin əvəzinə Muhəmməd də deyilib.*

*Qızlarının adları: Xədicə, Ümmü Fərvə, Əsma, Əliyyə, Fatimə, Fatimə, Ümmü Külsüm, Ümmü Külsüm, Amənə, Zeynəb, Ümmü Abdullah, Zeynəb Suğra, Ümmül-Qasim, Həkimə, Əsma Suğra, Məhmudə, Əmamə və Meymunə".*[800]

**İmam Zeynəlabidinin (ə) künyəsi Əbu Bəkr olmayıb**

İmam Zeynəlabidinin (ə) künyəsinin Əbu Bəkr olması isbat edilməyib. İhsan Zahir dəlilləri təqdim edərkən adəti üzrə yenə də təhrifə əl ataraq İrbəlinin sözlərini dəyişib. Kitabında deyir: **"Hüseynin oğlu Zeynəlabidinin də künyəsi Əbu Bəkr olub".**[801]

---

[799] Şiə və Əhli-Beyt, s. 81
[800] Kəşful-ğummə, İrbəli, c. 3, s. 31
[801] Şiə və Əhli-Beyt, s. 81

Lakin İrbəli belə söz söyləməyib. Onun sözləri belədir: *"Onun məşhur künyəsi Əbülhəsəndir. Həmçinin ona Əbu Muhəmməd də deyilirdi. Əbu Bəkr deyildiyini də söyləyiblər".*[802]

Məlum olduğu kimi, "deyilib" ünvanı ilə zəif sözlər qeyd edilir. İhsan Zahir şiələrə belə "sübutları" dəlil olaraq göstərir?! Əlavə olaraq, bu sözün sahibi məlum deyil, həmçinin heç bir tarix kitabında İmam Zeynəlabidinin (ə) künyəsinin Əbu Bəkr olduğu qeyd edilməyib. Əgər bunun doğruluğu isbatlansa belə, bu, yalnız bir künyədir. Belə bir künyəyə sahib olmaq Əbu Bəkrə qarşı hansı sevgi və ya mehribanlığa dəlil ola bilər?!

**İmam Rzanın (ə) künyəsi Əbu Bəkr olmayıb**

İmam Rzanın (ə) künyəsinin Əbu Bəkr olduğu heç bir rəvayətdə, hətta zəif xəbərdə belə varid olmayıb. Eləcə də, bir kitabdan başqa heç bir sünni və şiə hədis və tarix kitablarında da qeyd edilməyib. İhsan Zahir də həmin mənbədən – İsfahaninin "Məqatilut-talibiyyin" kitabından – Yetimənin rəvayətini buna şahid gətirir, lakin onun da mətnini adəti üzrə təhrif edir. İsfahaninin qeyd etdiyi mətni sizə təqdim edirik: *"Künyəsi Əbülhəsəndir, Əbu Bəkr də deyilib. Anası övlad sahibi cariyədir. Əbülfərəc deyir: "Həsən ibn Əli Xəffaf İsa ibn Mehrandan, o da Əbu Salt Hərəvidən nəql edir: "Bir gün Məmun məndən bir məsələ barədə soruşdu. Mən Əbu Bəkrin onun barəsində filan-filan sözləri söylədiyini dedim. O məndən Əbu Bəkrin kim olduğunu soruşub dedi: "Bizim Əbu Bəkr, yoxsa sünnilərin Əbu Bəkri?" Mən bizim Əbu Bəkr olduğunu dedim. İsa Əbu Saltdan onların Əbu Bəkrinin kim olduğunu soruşdu. Əbu Salt cavabında dedi: "Əli ibn Musa Rza, künyəsi belədir".*[803]

Bu rəvayət zəifdir. Belə ki, şiə rical kitablarında İsa ibn Mehranı təsdiqləyəcək heç bir söz yoxdur. İsfahaninin rəvayəti nəql etdiyi şəxs Həsən ibn Əli Xəffafdır. O isə bizim kitablarda ravi kimi qeyd olunmayıb

---

[802] Kəşful-ğummə, İrbəli, c. 2, s. 286

[803] Məqatilut-talibiyyin, Əbülfərəc İsfahani, s. 375

(yəni məchuldur). Həmçinin, əgər bu doğru olsaydı, o zaman İmamın (ə) künyəsi məşhur olar, bununla tanınar, Əbu Saltla eyni dövrdə yaşayan İsaya gizli qalmazdı ki, o da kimliyini soruşsun.

Görünən odur ki, bu künyəni İmama (ə) Məmun və ya ətrafı vermişdi. Bir daha əlavə edək ki, künyənin nə ürfə və nə də ağla əsasən, bir şəxsdən razılığa dəlaləti ola bilməz.

**Aişə adının qoyulması əlamət və təbərrük məqsədi daşımır**

İmam Kazımın (ə) və İmam Hadinin (ə) Aişə adında qızlarının olduğu iddiasına gəldikdə, doğruluğu fərz olunsa, bunun Peyğəmbər (s) zövcəsi Aişədən əlamət və təbərrük niyyəti ilə verildiyinə dəlaləti olmayacaq. Çünki bu, ərəblərin qızlarına verdikləri geniş yayılmış addır və Peyğəmbərin (s) zövcəsi Aişənin inhisarında deyil. Səhabə Abdullah ibn Xeysəmə Ənsarinin anasının adı Aişə olub. İbn Səd "ət-Təbəqat"da deyir: *"Abdullah ibn Xeysəmə ibn Qeys ibn Seyfi ibn Saxr ibn Hiram ibn Rəbiə ibn Ədiyy ibn Ğanəm ibn Kəb ibn Sələmə. Anası Bəni-Sələmə tayfasından olan Aişə bint Zeyd ibn Sələbə ibn Əbiddir. Abdullah ibn Muhəmməd ibn Əmmar Ənsari onun Bədrdə şəhid olduğunu söyləyib..."*[804]

Abdullah ibn Mərvan ibn Həkəmin anasının adı Aişə olub. O, Müaviyə ibn Müğeyrə ibn Əbülasın qızıdır.[805] Səd ibn Əbu Vəqqasın bacısının adı da Aişədir. O, "Qədir-Xum" və İmam Əlinin (ə) fəzilətləri barədə bəzi rəvayətləri atasından nəql edib. Eləcə də bu adda səhabə də olub: Aişə bint Qüdamə ibn Məzğun.[806] Onun əmisi Osman ibn Məzğundur ki, İmam Əli (ə) öz övladlarından birinə məhz onun adını qoyduğunu bildirmişdi.[807] İhsan Zahir "Aişə" adının qoyulmasına Əhli-Beytin (ə) Əbu Bəkrə və ya onun

[804] ət-Təbəqat, İbn Səd, c. 3, s. 627

[805] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 9, s. 77

[806] əl-İsabə, İbn Həcər, c. 8, s. 237

[807] Əbülfərəc İsfahani deyir: "Osman ibn Əli (ə) – onun barəsində İmam Əlidən (ə) nəql olunur: *"Ona (din) qardaşım Osman ibn Məzğunun adını qoymuşam".*

qızına olan məhəbbətin səbəb olduğuna, Aişənin əlaməti sayıldığına haradan hökm edib? ***“Bu, ancaq onların xülyalarıdır. Onlara söylə: “Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!”***[808] Buna dəstək olaraq qeyd edilməlidir ki, İmamlar (ə) “Hümeyra”[809] adını qoymaqdan çəkindirmişlər. Məhz bu, Aişəyə məxsus edilən bir addır. Bu adı Əməvilər ona nuranilik və gözəllik qazandırmaq üçün yalandan uydurub, bununla məqamını qaldırmağa çalışıblar. Bu, yalan olduğu üçün də qadağan olunub.

**İmam Zeynəlabidinin (ə) “Aişə” adında qızı yoxdur**

İhsan Zahir İrbəliyə nisbət verdiyi sözlərlə İmam Zeynəlabidinin (ə) “Aişə” adlı qızı olduğunu ondan “nəql” edir. Verdiyi bu nisbət qəti olaraq doğru deyil. O, ya nə nəql etdiyini düşünə bilməyib, ya da oxucunu azdırmaq və qəflətə salmaq məqsədi güdüb. Deyir: **“Necə ki, babası Əli ibn Hüseyn öz qızlarından birinə Aişə adı vermişdi”.**[810]

Kitabın haşiyəsində mənbə olaraq “Kəşful-ğummə” kitabını göstərir. Halbuki İrbəli həmin kitabda əhli-sünnə alimlərindən belə nəql edir: *“Hafiz Əbdüləziz ibn Əxzər Cənabəzi deyir: “Əbülhəsən – ona Əbu Muhəmməd də deyilib, o, Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib ibn Əbdülmüttəlib ibn Haşim ibn Mənaf ibn Qüseydir. Bir dəstə kişi və qadın səhabədən hədis eşidib. Onlardan: əmisi Həsən (ə), atası Hüseyn (ə), Abdullah ibn Cəfər, Abdullah ibn Abbas, Cabir ibn Abdullah, Abdullah ibn Zübeyr, Misvər ibn Məxrəmə, Əbu Səid Saidi, Haris ibn Haşim, Üsamə ibn Zeyd, Bürеydə ibn Xəsib və başqaları. Qadın səhabələrdən isə: Fatimə (ə), Aişə, Ümmü Sələmə, Ümmü Əymən, Rəbi bint Məsud ibn Əfra, Dürrə bint Əbu Ləhəb və digərləri”.*[811]

Mətndən də göründüyü kimi, kəlmələrində heç bir qarışıqlıq olmadan İrbəli Hafiz Əbdüləziz ibn Əxzər Cənabizidən İmam Zeynəlabidinin (ə)

---

[808] Bəqərə, 111
[809] Kiçik ağ qız.
[810] Şiə və Əhli-Beyt, İlahi İhsan Zahir, s. 82
[811] Kəşful-ğummə, İrbəli, c. 2, s. 302

hədis eşitdiyi qadınları sadalayarkən Aişənin adını çəkir. Lakin qızlarından birinin adının Aişə olduğuna dair burada kiçik bir eyham belə yoxdur.

**Abdullah ibn Cəfərin Əbu Bəkr adlı oğlu yoxdur**

İhsan Zahirin **"Abdullah ibn Cəfər Təyyar ibn Əbu Talib öz övladlarından birinə Əbu Bəkr adını qoyub. Bunu İsfahani "Məqatil" kitabında qeyd edir"** iddiasına gəldikdə, bu da doğru deyil və İsfahaninin sözlərinə müxalifdir. O, kitabında deyir: *"Əbu Bəkr ibn Abdullah ibn Cəfər ibn Əbu Talib (ə) – onun adı məlum deyil, anası Xövsa bint Həfsə ibn Bəkr ibn Vaildir".*[812]

Sözlərindən aydın olduğu kimi, o, Əbu Bəkrin adının bilinmədiyini deyir. Bu isə Əbu Bəkrin ad deyil, künyə olduğuna dəlalət edir. "Bəkr" adı isə onun ana babasının adıdır – Bəkr ibn Vail.

**İmam Əlinin (ə) Fatimə (ə) ilə evlənməsinə Əbu Bəkrin yardım etməsi**

İmam Əlinin (ə) Əbu Bəkrin xilafətindən razı olduğuna dəlalət edən dəlilləri sadalayarkən, bu əlaqəni isbatlamaq üçün Əbu Bəkrin İmam Əlinin (ə) Fatimə (ə) ilə evlənməyə təşviq etdiyini, buna əməli şəkildə yardım göstərdiyini, evlilik üçün cehizlərini hazırladığını və bu işləri Peyğəmbərin (s) əmri ilə həyata keçirdiyini iddia edir: **"Siddiqin Əlinin boynunda bir minnəti vardı... Belə ki, onun Fatimə ilə evlənməsində vasitəçi olmuş və Peyğəmbərin (s) əmri ilə onun cehizlərinin hazırlanmasına yardım etmişdi... Hətta Siddiq və yoldaşı Peyğəmbərin (s) tələbi və istəyinə əsasən onların evliliyində şahid kimi iştirak da etmişlər".**[813] Bu əlaqələrin İmamın (ə) Xanım Fatimə (ə) ilə evliliyindən sonra daha da möhkəmləndiyini və Xanımın (ə) həyatının son anlarınadək davam

---

[812] Məqatilut-talibiyyin, Əbülfərəc İsfahani, s. 82

[813] Şiə və Əhli-Beyt, s. 72,73-75

etdiyini söyləyir.[814]

**Müzakirə**

Aydındır ki, İlahi İhsan Zahir Möminlərin əmirinin (ə) ilk xəlifələrlə aralarında dostluq və mehribanlıq əlaqələrinin şişirdilməsinə var gücü ilə səy göstərib. Bunu Əbu Bəkrin İmam Əlinin (ə) həyatının müxtəlif ictimai dövr və mərhələlərində yaxından iştirak etdiyini təsvir etməklə – evlilik üçün elçi düşməsi, evlilikdən sonra müəyyən xərcləri üzərinə götürməsi, Həsənlə (ə) bağlı anları və bunun Xanımın (ə) həyatının son anlarınadək davam etdiyini bildirməklə cəhd edir.

Dediklərinə bir neçə dəlil göstərir və bunların şiə mənbələrindən olduğunu iddia edir, bu dəlillərin İmamla (ə) ilk iki xəlifə arasındakı əlaqələrin möhkəmliyinə dəlil olduğunu bildirir. Qeyd etdiyi dəlilləri mərhələlər etibarilə sizə təqdim edirik:

[814] Deyir: **"Onların Həsən adlı övladları dünyaya gəldikdə Həsənin babasının mağara yoldaşı, atası Əlinin dostu, onların arasındakı evlilik xərclərini üzərinə götürmüş Əbu Bəkr uşağı boynunda daşıyır, onunla oynayırdı".** (Şiə və Əhli-Beyt, s. 75)

**Birinci: elçilik və evlilik mərhələsinin dəlilləri**

**1 – Şeyx Tusinin "Əmali" kitabındakı rəvayət**

Şeyx Taifə Tusinin (r)[815] rəvayətini burada[816] dəlil göstərmək iki cəhətdən yanlışdır:

**Birinci cəhət: rəvayət iddiadan daha xüsusidir**

Bu rəvayət Əbu Bəkr və Ömərin İmam Əliyə (ə) Fatiməni (ə) Peyğəmbərdən (s) istəməyi yalnız təklif etdiklərini bildirir. Halbuki iddia

---

[815] Şeyx Tusi "Əmali"də (s. 39-40) rəvayət edir: *"Zəhhak ibn Məzahim İmam Əlinin (ə) belə buyurduğunu eşitdi: "Əbu Bəkr və Ömər yanıma gəlib dedilər: "Niyə Peyğəmbərin (s) yanına gedib Fatiməni ondan istəmirsən?" Mən Peyğəmbərin (s) yanına getdim, məni gördükdə gülümsədi və buyurdu: "Səni buraya gətirən səbəb nədir, nəyəsə ehtiyacın var?" İmam (ə) deyir: "Ona olan yaxınlığımı, İslamdakı qabaqcıllığımı, cihadda yardımlarımı yad etdim". Buyurdu: "Ya Əli, doğru deyirsən, sən söylədiklərindən daha fəzilətlisən". Dedim: "Məni Fatimə ilə evləndir". Buyurdu: "Ya Əli, ona səndən əvvəl bəzi adamlar elçi düşüblər. Onların gəlişini qızıma söylədikdə bəyənmədiyini üzündən anlamışdım. Sənin istəyini də ona çatdıraram".*

*Fatimənin yanına daxil olduqda o, ayağa qalxdı, atasının örtüyünü çiynindən aldı və başmaqlarını cütlədi. Dəstəmaz alması üçün su gətirdi, ayaqlarını yudu. Sonra yerində əyləşdi. Peyğəmbər (s) "Ya Fatimə" deyə səsləndikdə "Buyur, istəyini söylə, ey Allahın elçisi" deyə cavab verdi. Buyurdu: "Əlinin mənə yaxınlığını, İslamdakı yerini və fəzilətlərini bilirsən. Mən Rəbbimdən səni ən yaxşı və ən çox sevdiyi məxluqu ilə evləndirməsini diləmişəm. Bu məsələ ilə bağlı sənin rəyini də öyrənmək istərdim". Fatimə (s.ə.) susdu, lakin üzünü çevirmədi. Peyğəmbər (s) onun üzündə ikrah görmədi. "Allahu Əkbər, onun susması razılığıdır!" deyərək ayağa qalxdı.*

*Bu zaman Cəbrail (ə) gəlib dedi: "Ey Muhəmməd, onu Əli ibn Əbu Taliblə evləndir. Həqiqətən də Allah, onların evlənməsinə razıdır". Peyğəmbər məni onunla evləndirdi. Sonra yanıma gəlib əlimdən tutub buyurdu: "Allahın adı ilə, ayağa qalx və de: "Allahın bərəkəti və istəyinə əsasən! Allahdan savayı heç bir qüvvət yoxdur! Allaha təvəkkül edirəm!" Sonra məni onun yanında oturdub dedi: "İlahi, bunlar sənin məxluqların arasında mənə ən sevimli şəxslərdir, Sən də onları sev, nəsillərini bərəkətli et, onlara qoruyucu keşikçilər təyin et! Mən onları və onların nəslini lənətlənmiş Şeytanın şərindən Sənə həvalə edirəm".*

[816] İlahi Zahir "Şiə və Əhli-Beyt" kitabında (s. 72) deyir: **"Siddiqin Əlinin boynunda bir minnəti vardı. Belə ki, onun Fatimə ilə evlənməsində vasitəçi olmuş və ona yardım etmişdi. Həmçinin Peyğəmbərin (s) istəyinə əsasən nikahında şahidlik də etmişdi. Bunu rəvayət edən onların ən böyük alim saydıqları Şeyx Taifə Əbu Cəfər Tusidir. O, bunu Zəhhak ibn Məzahimdən nəql edir: "İmam Əlinin (ə) belə buyurduğunu eşitdi:.."**

bundan daha böyükdür. Belə ki, iddia Əbu Bəkrin onların evliliklərində vasitəçi olduğundan, yardım etdiyindən, Peyğəmbərin (s) istəyinə əsasən nikahda şahidlik etdikləridir. Diqqət yetirin ki, bütün bunları İlahi Zahir rəvayətdəki *"Əbu Bəkr və Ömər yanıma gəlib dedilər: "Niyə Peyğəmbərin (s) yanına gedib Fatiməni ondan istəmirsən?"* sözdən uydurur.

**İkinci cəhət: Bu rəvayətdə ilk iki xəlifənin təklifindən başqa heç bir məsələ qeyd olunmur**

Bəlkə də bu rəvayətdə onların təklifinin qeyd edilməsi heç də İhsan Zahirin gümanlarına uyğun deyil. Təklifin yoxlama xarakteri daşıması da mümkündür. Necə ki, buna bir çox şiə rəvayətləri də işarə edir. Halbuki, İhsan Zahirin iddiası Möminlərin əmiri (ə) ilə onlar arasındakı sıx dostluq əlaqələrinin isbatıdır.

Başqa sözlə: Rəvayət Əbu Bəkrlə Ömərin İmam Əlinin (ə) yanına gələrək Peyğəmbərin (s) qızına elçi düşməsini təklif etdiklərinə dəlalət edir. Lakin rəvayət bu təklifin arxasındakı niyyət barədə susur. Şiə mənbələrində bir çox rəvayət var ki, onların bu təklifinin yoxlama xarakteri daşıdığını bildirir. Belə ki, bir çox ərəb Fatimə (ə) ilə evlənmək üçün atasının yanına gəlmiş, o isə bu evlilikdən qəti şəkildə imtina etmiş, məsələnin məxsusi olaraq Allahın əmrindən asılı iş olduğunu, bununla bağlı vəhy gözlədiyini bildirmişdi. Göründüyü kimi, ilk xəlifələr bu cavabla qane olmamış, böyük ehtimalla bu işin Möminlərin əmiri (ə) üçün hazırlandığını güman etmişdilər. Şübhələrini aradan qaldırmaq üçün İmam Əlinin (ə) yanına gələrək Peyğəmbərin (s) qızı üçün elçi getməsini ona təklif edirlər. Məqsəd isə şübhələrini yoxlamaq və ya təsdiq etməkdi.

Bu ehtimala əsasən, Əbu Bəkrlə Ömərin İmam Əliyə (ə) bu təklifləri ilə aralarındakı mehriban əlaqələri isbat etmək mümkün deyil. İddianı təsdiqləmək üçün mövzu ilə bağlı başqa rəvayətlərə də nəzər salmağa

ehtiyac duyulur. Halbuki çoxsaylı şiə rəvayətləri məhz onların şübhələrini yoxlamaq məqsədilə bu təklifi verdiklərini bəyan edir.

**Xülasə:** Rəvayət xüsusi, iddia isə ümumidir. Belə ki, rəvayətdə ilk xəlifələrin bu təkliflərindəki məqsədləri bəyan edilmir. Halbuki iddia onların Möminlərin əmiri (ə) ilə sıx mehriban əlaqələrini isbat etməkdən ibarətdir. Lakin rəvayət bu mövzuda susur. Əlimizdə olan çoxsaylı şiə rəvayətləri isə onların yalnız yoxlama məqsədilə bu təklifi verdiklərini qeyd edir.

### 2. Əllamə Məclisinin (r) "Cəlaul-uyun"dakı izahı

İhsan Zahir Əbu Bəkrin Möminlərin əmiri (ə) ilə Xanım Fatimənin (ə) evlənməsində vasitəçi olduğunu iddia etdikdən sonra buna növbəti dəlil kimi Əllamə Məclisinin "Cəlaul-uyun"dakı sözlərini göstərir.[817] Bu dəlilə bir neçə irad var:

**1** – Əllamə Məclisini ilk iki xəlifəni söyməkdə, lənətləməkdə, onlar barəsində yalnız pis sözlər danışmaqda[818] ittiham etmək aşkar iftira və dəlilikdir. Onun "Cəlaul-uyun" kitabının harasında ilk iki xəlifəni söydüyünü isə bəyan etmir. Əksinə, Məclisinin sözləri bunu təkzib edir. Belə ki, kitabında onlara qarşı heç də İhsan Zahirin ittiham etdiyi kimi münasibət göstərmir.[819]

**2** – İhsan Zahirin Əllamə Məclisiyə nisbət verdiyi rəvayət dəlil olaraq

---

[817] İlahi İhsan Zahir deyir: **"Məclisi... İmamla (ə) Fatimə (s.ə.) arasındakı evlilikdə Əbu Bəkrin vasitəçiliyini xatırladır, bunu geniş və aydın şəkildə bəyan edir:..."** (Şiə və Əhli-Beyt, s. 72)

[818] İhsan Zahir deyir: **"Peyğəmbərin (s) səhabələrini, xüsusilə Siddiqi və Faruqu yalnız söyüş, pislik, xəbis ləqəblər və "lənətlənmişlər", "üzüqaralar", "şeytanlar" kimi nalayiq misallarla yad edən Məclisi deyir:..."** (Şiə və Əhli-Beyt, s. 72)

[819] Əllamə Məclisi özünün "Cəlaul-uyun" kitabında Müvəffəq Xəvarəzmidən iki Məsumun (ə) evliliyi ilə bağlı iki rəvayət nəql edib. Onların hər ikisində də Əbu Bəkr və Ömərin adları qeyd edilir. Həmin mətndə rəvayətləri fars dilinə tərcümə etməkdən başqa barələrində heç bir söz deməyib. Bu ittihamlarına dəlil olaraq İhsan Zahir nəzər salmaq üçün bizə bir dənə də olsa mənbə təqdim etmir.

doğru deyil. Belə ki, həmin rəvayəti Məslisi özü də Müvəffəq Xəvarəzminin "əl-Mənaqib"[820] kitabında qeyd etdiyi uzun rəvayətdən iqtibas edib. Bu barədə qarşıda söhbət açacağıq. Xəvarəzmi sünni alimidir. Bu cəhətdən, İhsan Zahir nə qədər çalışsa da dəlili şiə mənbəyində deyil.

**3** – Əllamə Məclisinin "Cəlaul-uyun" kitabı Peyğəmbər (s) və Əhli-Beytinin (ə) həyatını qələmə alaraq fars dilində yazdığı əsərdir. Həmin kitabda bir çox məzhəblərdən fars dilinə tərcümə edərək rəvayətlər nəql edib. İhsan Zahirin həmin kitabdan[821] təqdim etdiyi dəlil isə kitabın ərəb dilinə tərcüməsindəndir və dəqiq tərcümə deyil. Orada elə bir aydın xəta var ki, tərcümə işlərindən xəbərdar olan şəxs əsla belə səhvə yol verməz.[822] Bundan dəhşətlisi isə odur ki, yanlış tərcüməni dəlil gətirərək şiənin üzərinə hücum edir.[823]

---

[820] "Əllamə Məclisi "Cəlaul-uyun" kitabının 113-cü səhifəsində deyir: *"Xəvarəzminin "Mənaqib"ində Möminlərin əmirindən, Ümmü Sələmədən, Salman Farisidən nəql olunur:.."*

[821] İlahi Zahir Əllamə Məclisinin "Cəlaul-uyun" kitabından tərcümə edərək deyir: **"Əli Əbu Bəkrdən bu sözləri eşitdikdə gözlərindən yaş axdı və dedi: "Yaralarım soyuldu, sakitliyim pozuldu və gizlətdiyim yuxularım həyəcana gəldi..."**

[822] Əllamə Məclisinin kitabında yazılıb: *"İki gözü də yaşardı. Dedi: "Ey Əbu Bəkr, sən məndə aram olanları həyəcanlandırdın, qəflətdə olduğum bir işə məni oyatdın, Allaha and olsun ki, Fatiməyə rəğbətim var. Mənim kimisi onun kimisindən imtina etməz. Lakin əlimdəki (maliyyə) imkanımın azlığı qarşımı kəsir".*

İhsan Zahir Məclisiyə nisbət verdiyi tərcüməsindəki cümlələrdə özündən kəlmələr uydurmuşdur.

[823] İlahi İhsan Zahir deyir: **"Bunlarda həya da yoxdur ki, bu cür alçaq sözlərdən və təhqiramiz kəlmələrdən ibarət xürafi hekayələr uydururlar, sonra da onları mübarək və müqəddəs şəxsiyyətlərə nisbət verirlər. Onlar buna son qoyacaqlar?"**

Bu sözlər Əllamə Məclisinin deyil, rəvayətin sünni mənbəyinə istinadən nəql edildiyini söyləmişik. Əllamə Məclisinin fars dilində qələmə aldığı "Cəlaul-uyun" kitabındakı sözləri olduqca mədənidir, lakin xəta İhsan Zahirin uydurma tərcüməsindən doğur. Bundan əlavə, Əllamə Məclisinin Möminlərin əmirinin (ə) barəsindəki fikri də heç kəsə gizli deyil.

### 3. Şeyx Tusinin “Əmali”dəki[824] ikinci “Zireh” rəvayəti

Şeyx Tusinin “Əmali”dəki rəvayətini Əbu Bəkrin Əlini (ə) Fatimə (ə) ilə evlənməyə təşviq etdiyinə, əməli şəkildə yardım göstərdiyinə və evlilik üçün lazımı təchizat hazırlamasına, bunu Peyğəmbərin (s) əmrinə əsasən etməsinə dəlil kimi göstərmək bir neçə cəhətdən batildir:

**Birinci cəhət: Rəvayət heç də ümumi iddiaya cavab vermir**

Rəvayət Möminlərin əmirinin (ə) öz zirehini Peyğəmbərin (ə) əmrinə əsasən satıb pulu ona verdiyinə dəlalət edir. Peyğəmbər (s) həmin pulu Bilala verərək Fatimə (ə) üçün ətir almasını istəyir. Ardınca həmin puldan bir hissəsini Əbu Bəkrə verərək Xanıma (ə) uyğun libas və ev əşyaları almasını buyurur. Lakin onun ardınca Əmmar ibn Yasiri və bir neçə səhabəni də göndərir. Halbuki, iddia rəvayətdəki mənadan daha genişdir. Bu iddia Əbu Bəkrin Əlini (ə) Fatimə (ə) ilə evlənməyə təşviq etməsi, əməli şəkildə yardım göstərməsi və evlilik üçün lazımı təchizat hazırlaması, bunu Peyğəmbərin (s) əmrinə əsasən etməsidir.

**İkinci: Möminlərin əmiri (ə) heç kəsdən pul yardımı almır**

İmam Əli (ə) Peyğəmbərin (s) göstərişinə əsasən evlilik xərclərini ödəmək üçün öz zirehini satır. Bu, məşhur rəydir.

Bəzi rəvayətlərdə isə Peyğəmbərin (s) bu istəyi yalnız Bilalla məhdudlaşıb. Peyğəmbər (s) onu çağırtdırır və pulu ona verərək ətir almasını xahiş edir. Orada Əbu Bəkri çağırmasından söhbət getmir. Bəlkə də Əbu Bəkr dəvətsiz olaraq orada imiş və Peyğəmbər də (s) onun uzun

---

[824] Şeyx Tusi “Əmali”də (s. 40-43) Yaqub ibn Şüeybdən, o da Əbu Abdullahdan (ə) rəvayət edir: *“... Əli (ə) dedi: “Peyğəmbər (s) mənə gedib zirehimi satmağı buyurdu. Mən onu satıb pulunu Peyğəmbərin (s) qarşısına qoydum. Onun nə qədər olduğunu soruşmadı və mən də bildirmədim. Bir neçəsini götürüb Bilalı çağırdı, pulu ona verib buyurdu: “Fatimə üçün məsləhət olan libas və ev əşyaları al”. Ardınca Əmmar ibn Yasiri və bir neçə səhabəni də göndərdi. Onlar bazara gedib əşyalar seçir, Əbu Bəkrə göstərir, o razılıq verdikdən sonra alırdılar...”*

müddət ticarətlə məşğul olduğunu nəzərə alaraq bu xahişi edir. Səhabələrin bir-birlərinə etdikləri ən sadə yardımlardan biridir bu. Rəvayətə əsasən, Əbu Bəkrin evlilikdəki rolu yalnız ticari məsələlər üçün bazara getmək, libas və ev əşyaları alarkən məsləhət verməkdən ibarətdir. Çünki o, bu məsələlərdən xəbərdar şəxs idi. Əbu Bəkr və Ömər çox vaxt bazarda olurdular və bu səbəbdən də alver mövzusunda səhabələr arasında məşhur idilər. Əbu Bəkr xəlifəliyə keçməzdən əvvəl parça satıcısı idi. Xilafətə keçdiyi ikinci gündə parça satmaq üçün bazara getmək istəmişdi. Lakin Ömər onun qarşısını kəsib hara getdiyini soruşur. O isə: *"Bəs ailəmi nə ilə dolandıracağam?"* deyə cavab verir. Onun üçün beytul-maldan pul ayırdılar. Buxari "Səhih"ində Ömərin bazar barədə belə dediyini nəql edir: *"Bazara getmək məni əyləndirir".*[825] Buxari və Müslimin "Səhih"lərində Übeyd ibn Ümeyrdən nəql etdiyi rəvayətdə buna görə bəzi hökmlərin onun barəsində sabit olmasından qorxaraq sözünə bəraət qazandırmağa çalışdığı nəql olunub.[826] Nəvəvi Ömərin bu sözü barədə deyir: *"Yəni bazarda alver və ticarət..."*[827]

Həmçinin Buxari "Səhih"ində Əbu Hüreyrədən rəvayət edir ki, digər səhabələrə nisbətdə Peyğəmbərdən (s) daha çox rəvayət nəql etdiyinə görə onu danlandıqda dedi: *"Həmin vaxt bizim mühacir qardaşlarımız bazarlarda əylənirdilər".*[828]

Beyhəqinin "əs-Sünənul-kubra"sında Cəbalədən və digərlərindən nəql olunur: *"Ömər ibn Xəttab Quran oxuyan bir oğlanın yanından keçirdi. Həmin vaxt bu ayəni oxuyurdu:* ***"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. (Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər). Onun övrətləri (möminlərin)***

---

[825] Səhih, Buxari, c. 3, s. 19
[826] Səhih, Buxari, c. 3, s. 7; c. 8, s. 157; Səhih, Müslim, c. 6, s. 179
[827] Şərhu Səhihi Müslim", c. 14, s. 134
[828] Səhih, Buxari, c. 1, s. 38; c. 3, s. 74, c. 8, s. 158; Səhih, Müslim, c. 7, s. 166-167.

***analarıdır...”***[829] *Ömər dedi: “Ey oğlan, bu ayəni sil”. Oğlan dedi: “Bu, Übeyin Quranıdır”. Ömər Übeyin yanına gedib məsələni soruşduqda o dedi: “Səni bazarlar əyləndirəndə, məni də Quran əyləndirirdi (maraqlandırırdı)”.*[830]

**Nəticə:** Möminlərin əmiri evlilik məsələsində heç kimdən pul yardımı almayıb. Xərclərini ödəmək üçün öz zirehini satıb. Evlilik üçün lazım olan vasitələrin – qabların, libasın və ətirin alınmasında bir neçə səhabə iştirak edib. Peyğəmbər (s) bu işlər üçün şəxsən Bilalı və Əmmar ibn Yasir kimi bəzi səhabələri dəvət edib. Lakin Peyğəmbərin (s) Bilalı çağırdı kimi Əbu Bəkri də dəvət etdiyini bildirən heç bir dəlil yoxdur. Əbu Bəkr ticarətdən məlumatlı və orada hazır olduğu üçün Peyğəmbər (s) ondan da bu işlərdə iştirak etməyi xahiş edib. Belə ki, Ömər və Əbu Bəkr vaxtlarının çox hissəsini bazarda keçirirdilər. Bu da onları nəticədə Peyğəmbər (s) sünnətini öyrənməkdən yayındırmışdı. Həmçinin Peyğəmbər (s) bu işi təkbaşına Əbu Bəkrə həvalə etməmişdi, bu məsələdə Bilal, Əmmar və digər səhabələr də yaxından iştirak etmişdilər. Bütün bunlar, bir daha dəlilin göstərilən iddiaya uyğun olmadığına işarə edir.

### 4. Xəvarəzminin “əl-Mənaqib”dəki rəvayəti

Müvəffəq Xəvarəzminin rəvayətində[831] Əbu Bəkrin Möminlərin əmirinin (ə) nikahında şahidlik etməsinə dair iddia bir neçə cəhətdən batildir:

**Birinci cəhət:** Müvəffəq Xəvarəzminin əhli-sünnədən olduğu şübhəsizdir. Onu həm şiə və həm də sünni alimləri sünni-hənəfilərdən

---

[829] Əhzab, 6

[830] əs-Sünənul-kubra, Beyhəqi, c. 7, s. 69

[831] Müvəffəq Xəvarəzmi “əl-Mənaqib”də (s. 342-347) Möminlərin əmirindən (ə) nəql edir: *“Peyğəmbərin (s) yanından sürətlə çıxdım, sevincimdən özümdə deyildim. Bu zaman Əbu Bəkr və Ömər qarşıma çıxdı. Mənə dedilər: “Ey Əbülhəsən, bu nə işıq saçmaqdır?” Dedim: “Peyğəmbər (s) məni qızı Fatimə ilə evləndirir və Allahın məni göylərdə onunla evləndirdiyini söylədi”.*

hesab etmişlər. Şeyx Cəfər Kaşiful-ğita deyir: *"Əhli-sünnə alimlərindən olan Əxtab Xəvarəzmi İbn Məsuddan rəvayət edir ki..."*[832]

Məşhur rəydir ki, Əxtab Xəvarəzmi kimi tanınan Hafiz Əbülmüəyyəd Müvəffəq ibn Əhməd ibn Muhəmməd Kubra Məkki Hənəfi hicrətin 484-cü ilində anadan olmuş və 528-ci ilində vəfat etmişdir. O, hənəfi alimlərindən idi. "Təbəqatul-hənəfiyyə"də onun tərcümeyi-halı qeyd edilir. Əbdülqadir Qüreyşi Hənəfi (vəfatı 775 h.q.) "əl-Cəvahirul-muziyyətu fi təbəqatil-hənəfiyyə"də yazır: *"Müvəffəq ibn Əhməd ibn Muhəmməd Məkki – Xətib Xəvarəzmidir. Nasir ibn Əbdüsseyyidin ustadı və "əl-Muğrib" kitabının müəllifidir. Künyəsi Əbülmüəyyəddir. 484-cü ildə anadan olub. Qufti onu "Əxbarun-nuhat" kitabında yad edir. Fəzilətli ədəbiyyatçı olub. Fiqh və ədəbiyyatı yaxşı bilirdi. Yazdığı kitabları Muhəmməd ibn Həsən Ömər ibn Muhəmməd ibn Əhməd Nəsəfidən rəvayət edib. 568-ci ildə ölüb. Ərəb dili elmini Zəməxşəridən öyrənmişdi".*[833]

Onun "Mənaqibu Əbu Hənifə" adlı kitabı var. Zirkili deyir: *"Müvəffəq ibn Əhməd Məkki Xəvarəzmi – Əbülmüəyyəd, "Mənaqibul-imamil-əzəm Əbi Hənifə" kitabının müəllifidir".*[834]

Onun tərcümeyi-halına bir çox sünni kitablarında da rast gəlmək olur. Bundan əlavə, kitabında adlarını sadalayıb hədis rəvayət etdiyi şeyxlərinin hamısı əhli-sünnədəndir.

İhsan Zahir Müvəffəq Xəvarəzmini şiə hesab etdiyinə heç bir dəlil göstərməyib. Məgər Əhli-Beytin (ə) üstün xüsusiyyətlərinə dair kitab qələmə alan hər kəs şiə olur? Halbuki Nisai, Təbəri, Hakim kimi digər böyük sünni alimləri də Əhli-Beytin (ə) fəzilətləri və üstün xüsusiyyətləri barədə kitablar yazıblar.

Onun sünni olduğunu təsdiqləyən digər bir amil rəvayətindəki fiqhi

---

[832] Kəşful-ğita, Şeyx Cəfər Kaşiful-ğita, c. 1, s. 13

[833] Təbəqatul-hənəfiyyə, Əbdülqadir Qüreyşi Hənəfi, c. 3, s. 523, rəqəm 1718

[834] əl-Əlam, Zirkili, c. 7, s. 333

hökmün əhli-sünnə məzhəbinə müvafiq olmasıdır. Belə ki, əhil-sünnənin fiqhinə əsasən, nikah zamanı şahidin iştirakı vacibdir və izdivacın rüknü sayılır. Həmin rəvayətdə də bunu vacib görüblər. Lakin şiənin nəzərində şahidlik izdivacda rükn və ya şərt sayılmır. Sadəcə müstəhəbb əməldir. Buna əsasən, Əbu Bəkrin və ya başqasının iştirakı Möminlərin əmiri (ə) evliliyində xüsusi bir məziyyət deyil.

**İkinci cəhət:** Rəvayət[835] Əbu Bəkr və Ömərin izdivacda xüsusi şahidliyini qeyd etmir. Rəvayətin mətni belədir: *"Peyğəmbər (s) minbərinə yaxın bir yerdə əyləşdi, camaat ətrafına toplanmağa başladı. Sonra minbərin pilləkəninə qalxdı, Allaha həmd və səna söyləyib buyurdu: "Ey müsəlman topluluğu! İndicə Cəbrail yanıma gəldi və Rəbbimdən mənə xəbər gətirdi. Rəbbim mələklərini Beytul-məmurun yanında bir yerə toplayaraq kənizi Fatimə bint Muhəmmədi qulu Əli ibn Əbu Taliblə evləndirdiyinə şahid tutub. Mənə də onları yer üzündə evləndirməyi əmr etdi. Mən də sizi buna şahid tuturam".*[836]

Burada Əbu Bəkrin xüsusilə qeyd edilməsinə heç bir işarə yoxdur. Əksinə, Peyğəmbər (s) həmin vaxt məsciddə hazır olan bütün müsəlmanları evliliyə şahid tutur. Onların sayının çox olduğunu Peyğəmbərin (s) *"Ey müsəlman topluluğu!..."* sözü də ifadə edir.

### 5 – "Kəşful-ğummə"də İrbəlinin rəvayəti

İhsan İlahi Zahirin İrbəlinin "Kəşful-ğummə"sindən Əbu Bəkr, Ömər və Osmanın Peyğəmbərin (s) sözünə əsasən[837] bu evlilikdə şahid olduğuna

---

835 Bax: əl-Mənaqib, Müvəffəq Xəvarəzmi, s. 342-348

836 əl-Mənaqib, Müvəffəq Xəvarəzmi, s. 342-348

837 İlahi İhsan Zahir deyir: **"İrbəli özünün "Kəşful-ğummə" kitabında şahidlik hadisəsinin üzərindən örtüyü qaldırır. Ənəsdən nəql edir: "Peyğəmbərin (s) yanında idim, həmin vaxt ona vəhy nazil olmağa başladı. Özünə gəldikdə mənə buyurdu: Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibindən mənə nə xəbər gətirdi?" Dedim: "Allah və rəsulu daha yaxşı bilər". Buyurdu: "Mənə Fatiməni Əli ilə evləndirməyimi əmr etdi. Get, Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Təlhəni, Zübeyri**

göstərdiyi dəlilə gəldikdə, burada onun heç bir faydası yoxdur. Belə ki, İrbəli "Kəşful-ğummə"də həmin rəvayəti Xəvarəzminin "Mənaqib"indən[838] nəql edir. Məclisi də "əl-Bihar"da onu İrbəlidən[839] nəql edib. Hər iki kitabdakı mənbə eynidir – Müvəffəq Xəvarəzminin "əl-Mənaqib" kitabı. Buna əsasən, əvvəldə də qeyd etdiyimiz kimi, bu, sünni rəvayətidir.

Burada Əbu Bəkrin xüsusi şahidliyinin olmadığı gizli deyil. Peyğəmbər (s) şahidlik üçün həmçinin Təlhəni, Zübeyri və ənsarı da dəvət edir. Əgər

---

**və bir o qədər də ənsardan adam çağır". Deyir: "Mən gedib onları çağırdım. Məclis başladıqda Peyğəmbər (s) Allaha həmd və səna söylədikdən sonra buyurdu: "Qızım Fatiməni 400 misqal gümüş müqabilində Əli ilə evləndirdiyimə sizi şahid tuturam".**

[838] İrbəli "Kəşful-ğummə"də (c. 1, s. 358-359) Müvəffəq Xəvarəzmidən, o da Ənəs ibn Malikdən nəql edir: *"Peyğəmbərin (s) yanında idim, həmin vaxt ona vəhy nazil olmağa başladı. Özünə gəldikdə mənə buyurdu: Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibindən mənə nə xəbər gətirdi?" Dedim: "Allah və rəsulu daha yaxşı bilər". Buyurdu: "Mənə Fatiməni Əli ilə evləndirməyi əmr etdi. Get, Əbu Bəkri, Öməri, Osmanı, Əlini, Təlhəni, Zübeyri və bir o qədər də ənsardan adam çağır". Deyir: "Mən gedib onları çağırdım. Məclis başladıqda Peyğəmbər (s) buyurdu: Nemətlərinin qarşılığında təriflənən, qüdrəti qarşılığında ibadət edilən, səltənətinin qarşısında mütilik göstərilən, əzabından qorxulan, yanında olan nemətlərə rəğbət bəslənilən, əmri yerdə və göydə nüfuz edən, məxluqları Öz qüdrətilə yaradan, Öz hökmlərinə əsasən seçib ayıran, dini ilə izzətli edən, peyğəmbəri Muhəmmədlə (s) onları möhtərəm qərar verən Allaha həmd olsun! Uca Allah evliliyi qohumluq, vacib əmr, bətnlər arasında münasibət qərar vermişdir. Uca Allah buyurur:* ***"İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsl qohum (qan qohumu) və sonradan (evliliklə) qohum edən Odur. Rəbbin (hər şeyə) qadirdir!"*** *Sizi şahid tuturam ki, qızım Fatiməni, əgər Əli razıdırsa, 400 misqal gümüş müqabilində onunla evləndirirəm".*

*Əli həmin vaxt orada deyildi, Peyğəmbər (s) onu bir işlə bağlı göndərmişdi. Sonra Peyğəmbər bir nimçədə xurma gətirilməsini tapşırdı və onu bizim qarşımıza qoydu. Biz ondan yeməyə başlamışkən Əli gəldi, Peyğəmbər (s) onu görüb gülümsədi və buyurdu: "Ya Əli, Allah mənə səni Fatimə ilə evləndirməyi əmr edib. Mən də onu səninlə 400 misqal gümüş mehriyə qarşılığında evləndirdim. Buna razısanmı?" Əli dedi: "Razıyam, ey Peyğəmbər!" Sonra Əli səcdəyə düşərək Allaha həmd-səna etdi. Peyğəmbər (s) buyurdu: "Allah sizdə çoxlu mehribanlıq və bərəkət qərar versin!" Ənəs deyir: "Allaha and olsun ki, onlar çox mehriban idilər".*

[839] Əllamə Məclisi deyir: "Kəşful-ğummə"də ondan (Xəvarəzmidən), o da Ənəsdən nəql edir: *"Peyğəmbərin (s) yanında idim, həmin vaxt ona vəhy nazil olmağa başladı. Özünə gəldikdə mənə buyurdu: Ey Ənəs, bilirsənmi Cəbrail Ərşin Sahibindən mənə nə xəbər gətirdi?..."* (Biharul-ənvar, c. 43, s. 119)

şahidlik sevgi və razılığa dəlildirsə, o zaman Təlhə və Zübeyr Möminlərin əmirinə (ə) qarşı savaşmamalı və qətlə yetirilməməli idilər. Nəticə isə budur ki, Təlhə və Zübeyrin Fatimə ilə Əlinin evliliyinə şahidlik etmələri onları savaşdan çəkindirmədi. Belə olduqda, Əbu Bəkr və Ömərin şahidliyi sevgi və razılığa, Əhli-Beytlə (ə) aralarındakı möhkəm əlaqələrə necə dəlil ola bilər?!

**Nəticə:** İhsan İlahi Zahirin Əllamə Məclisidən, İrbəlidən və Xəvarəzmidən gətirdiyi dəlil həqiqətdə Müvəffəq Xəvarəzminin "əl-Mənaqib"dəki iki rəvayətindən ibarətdir. Onlardan biri Ümmü Sələmədən, Salmandan və Möminlərin əmirindən (ə), digəri isə Ənəs ibn Malikdən idi. İrbəli və Məclisi bu rəvayəti Xəvarəzmidən nəql ediblər. Lakin İhsan Zahir burada yenə də saxtakarlıq edib, rəvayətləri İrbəli və Məclisiyə nisbət verib. Oxucuda bunların hər birinin müstəqil mənbədə qeyd olunan rəvayət olduğu təsəvvürünü yaratmağa çalışıb.

### İkinci: evlilikdən və Həsənin (ə) dünyaya gəlişindən sonrakı mərhələnin dəlilləri

Möminlərin əmiri (ə) ilə ilk iki xəlifə arasındakı qarşılıqlı ictimai münasibətlər dövrü uzun bir zaman kəsiyini əhatə etsə də, İhsan Zahir bunların yüksək səviyyədə olduğuna dair yalnız bir dəlil göstərir. O da Yaqubinin "Tarix"[840] kitabındandır. Göstərdiyi dəlildə isə saxtakarlıq və təhrifdən savayı iddiasına uyğun heç bir şey yoxdur. İhsan Zahirin Yaqubidən gətirdiyi dəlildə güman etdiyi kimi, Əbu Bəkrin İmam Həsəni (ə) boynunda daşıması, oynatması barədə heç bir qeydə rast gəlinmir.

[840] İhsan Zahir deyir (Şiə və Əhli-Beyt, s. 75): **"Onların Həsən adlı övladları dünyaya gəldikdə Həsənin babasının mağara yoldaşı, atası Əlinin dostu, onların arasındakı evlilik xərclərini üzərinə götürmüş Əbu Bəkr uşağı boynunda daşıyır, onunla oynayırdı. O, deyirdi: "Atama and olsun ki, atasından çox Peyğəmbərə (s) bənzəyir" (Tarix, Yəqubi, c. 2, s. 117). Bu sözünü Peyğəmbərin (s) qızı Fatimə də ondan iqtibas edərək söyləmişdi" (Bax: Tarix, Yəqubi, c. 2, s. 117)**

Deyir: *"Atama and olsun ki, atasından çox Peyğəmbərə (s) bənzəyir".* Məsələ bundadır ki, Yaqubi kitabda Peyğəmbərə (s) bənzəyənləri qeyd edir. Bu bənzəyənlərdən biri də İmam Həsəndir (ə). Mövzu ilə bağlı bir neçə dəlili nəql edir ki, bunlardan biri də Əbu Bəkrin həmin sözüdür. Lakin Əbu Bəkrə nisbət verilən bu sözün "deyilib" qeydi ilə zəif olduğunu bildirir: *"Deyilir ki, Əbu Bəkr Mədinə küçələrindən birində onunla rastlaşdıqda deyib: "Atama and olsun ki, atasından çox Peyğəmbərə (s) bənzəyir".*[841]

Göründüyü kimi, bu cümlələrdə İhsan Zahirin gümanlarına dəlalət edəcək bir şey yoxdur. Rəvayət onu Mədinə küçələrindən birində görüb bu sözləri söylədiyini bəyan edir.

Lakin İhsan Zahir bununla da kifayətlənməyib. Əbu Bəkrin bu sözünə əsaslanaraq Fatimənin də eyni sözləri təkrar etdiyini deyir. Sanki Fatimə (ə) bu sözləri Əbu Bəkrin fikrinə əsaslanaraq təsdiqləmişdir. Deyir: "**Bu sözünü Peyğəmbərin (s) qızı Fatimə də ondan iqtibas edərək söyləmişdi".**[842] Halbuki Yəqubi İmam Həsənin (ə) Peyğəmbərə (s) bənzədiyini məhz Fatimənin (ə) sözünə əsaslanaraq söyləyir, Əbu Bəkrin sözünü "deyilib" ünvanına nisbət versə də, Xanımın (ə) sözünün təsdiqi kimi gətirir. Deyir: *"Peyğəmbərə (s) bənzəyənlər: ...Həsən ibn Əli. Fatimə (ə) deyirdi: "Atama and olsun ki, öz atasından çox mənim atama bənzəyir". Deyilir ki, Əbu Bəkr Mədinə küçələrindən birində onunla rastlaşdıqda deyib: "Atama and olsun ki, atasından çox Peyğəmbərə (s) bənzəyir".*[843]

Bəli, bu rəvayət də həmçinin sünni rəvayətidir. Onu bir çox sünni hədis raviləri və alimləri qeyd ediblər. Bunlardan biri də Buxaridir ki, özünün "Səhih"ində nəql edib.[844]

---

[841] Tarix, Yəqubi, c. 2, s. 117
[842] Şiə və Əhli-Beyt, s. 75
[843] Tarix, Yəqubi, c. 2, s. 117
[844] Səhih, Buxari, c. 4, s. 164. "Peyğəmbərin (s) vəsfi" babı

**Üçüncü: sonuncu mərhələ (Fatimənin (ə) vəfatı) ilə bağlı dəlillər**

Bu zaman kəsiyi Peyğəmbərin (s) vəfatından Xanım Fatimənin (ə) şəhadətinə qədər dövrü əhatə edir. Həmin dövrün qısa müddət – altı ay davam etməsinə baxmayaraq Əhli-Beytin (ə) qəlbini sıxan ən çətin anlardır. Bu altı ay Fatimənin (ə) atasının vəfatından sonra yaşadığı müddətdir. Peyğəmbərin (s) ayrılığından insanların qəlbindəki soyumamış köz qızı Fatimənin (ə) haqqı tapdanmış və qabırğası sındırılmış halda rehləti ilə yenidən alovlanmağa başladı. Bu dövrdə bir dəstə insan Möminlərin əmirinin (ə) haqqını inkar etdilər, Peyğəmbər (s) xilafətinə əyləşib onun üzərində zorla hakim oldular və əhdlərini pozdular.

Həmin zamanlarda Əhli-Beytlə (ə) ilk xəlifələr arasında dərin fikir ayrılığının və qarşıdurmanın mövcudluğu bütün müsəlmanların nəzdində təsdiqini tapmış məsələdir. Hər hansı məlumatlı bir təhqiqatçının bunu inkar etməsi mümkün deyil. Çünki bu hadisələr müsəlmanların səhih və mötəbər[845] kitablarında da öz əksini tapmışdır. Bütün bunların qarşılığında İhsan Zahir həmin zaman kəsiyində Əhli-Beytlə (ə) ilk iki xəlifə arasında gözəl və mehriban əlaqələr olduğunu güman və iddia edir. Buna da iki məsələni dəlil olaraq göstərir ki, onları müzakirə etmək üçün burada qeyd edəcəyik.

---

[845] Buxari "Səhih"də Peyğəmbərin (s) zövcəsi Aişənin belə dediyini nəql edir: "*"Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkrin yanına adam göndərib payına düşən mirası, Mədinədəki payı, Fədəyi, Xeybər qənimətlərindən qalan xümsü istəmişdi. Əbu Bəkr isə onu verməkdən imtina etmişdi".* (Səhih, Buxari, c. 4, s. 42)

Həmçinin "Səhih"də Peyğəmbərin (s) zövcəsi Aişədən nəql olunur: "*Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə qəzəbləndi və üz döndərib ölənədək onunla danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn elədi. Əbu Bəkrə bu işdə izn verilmədi. Əli ona namaz qıldı. Fatimə həyatda ikən Əlinin camaatla münasibəti vardı. Lakin o vəfat etdikdən sonra onlarla münasibətdən çəkindi və Əbu Bəkrə beyət etmək üçün imkan axtarmağa başladı. Əvvəlki altı ayda o, Əbu Bəkrə beyət etməmişdi".* (Səhih, Buxari, c. 5, s. 82-83)

### 1. Fatimənin (ə) xəstəliyi zaman Əsmanın rəftarı

Əbu Bəkrlə Əhli-Beyt (ə) arasındakı əlaqənin möhkəmliyinə dəlil olaraq İhsan Zahir Fatimə (ə) xəstələnərkən Əsmanın ona baş çəkməsini, qayğısına qalmasını, vəfat etdikdə isə qüslündə və kəfənlənməsində iştirak etməsini göstərir.[846] Lakin bu dəlil faydasızdır. Fatimənin (ə) xəstəliyi zamanı Əsma bint Ümeysin onun yanında olması və vəfatından sonrakı məsələlərdə iştirakı heç kəsin inkar edə bilməyəcəyi faktdır. Həm şiə və həm də sünni mənbələrində səhih dəlillər bunu isbatlayır. Lakin bunun müzakirə etdiyimiz mövzu ilə əlaqəsi yoxdur. Onu həmin işlər üçün şəxsən Əbu Bəkr göndərsəydi, bu, dəlil ola bilərdi. Ancaq belə bir fakt nə tarixdə və nə də hədislərdə qeyd olunmur. İhsan Zahir çox arzulasa da, buna dəlil təqdim etməyib.

Tam əksinə, deyilir ki, xəstələnən zaman Əsma bint Ümeysi yardıma çağırmaq üçün Möminlərin əmirini (ə) məhz Fatimə (ə) özü göndərmişdi. Buradan da görünür ki, onların arasındakı münasibət heç də həmin dövrdə yaranmamışdı, qədim və möhkəm əsaslara malik idi, onun Cəfər ibn Əbu Taliblə evli olduğu zamanlardan başlamışdı. Əsma bint Ümeys Peyğəmbər xanədanında uzun illər yaşamış, həyat yoldaşı Cəfər ibn Əbu Taliblə Həbəşistana hicrət etmiş, ondan Abdullah, Ovn və Muhəmməd[847] adlı övladlar dünyaya gətirmişdi. Müxtəlif rəvayətlərə əsasən,[848] həyat yoldaşı Cəfər və övladları ilə birlikdə hicrətin altı və ya yeddinci ilində, Xeybər hadisələri ərəfəsində Mədinəyə qayıtmışdı. Cəfər ibn Əbu Talib hicrətin

---

[846] İlahi İhsan Zahir deyir: **“Onların arasındakı əlaqə o həddə möhkəm idi ki, Peyğəmbərin (s) qızı Fatimənin (r) ölümü ilə nəticələnən xəstəliyi zamanı nəfəsinin son anlarınadək Əbu Bəkrin zövcəsi Əsma bint Ümeys onun yanında idi. Vəfatından sonra isə onun qüslündə, kəfənlənməsində və son mənzilə yola salınmasında yaxından iştirak etmişdi”.** (Şiə və Əhli-Beyt, s. 75)

[847] Bax: əl-İstizkar, İbn Əbdülbərr, c. 8, s. 403; əl-İsabə, İbn Həcər, c. 8, s. 15; Tarixul-İslam, Zəhəbi, c. 4, s. 178

[848] Bax: əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 297; əl-İstizkar, c. 1, s. 75; Tarixul-İslam, c. 2, s. 446

səkkizinci ilində Mütə savaşında şəhid oldu.

Bunlara əsasən, Əsma heç də yalnız Xanımın (ə) xəstələndiyi dövrlərdə onun yanında olmayıb, həqiqətdə o da Əhli-Beytin bir nümayəndəsi idi. Onlardan yalnız Əbu Bəkrlə evli olduğu qısa müddətdə ayrı düşmüşdü. Bu ayrılığa baxmayaraq, aralarındakı sıx münasibətlər və məhəbbət davam edirdi. Oğlu Muhəmməd ibn Əbu Bəkri Möminlərin əmirinin (ə) vilayəti və məhəbbəti üzərində tərbiyə etməsi, nəticədə İmamın (ə) ən yaxşı köməkçilərindən birinə çevrilməsi buna ən yaxşı sübutdur.

Deməк, Xanımın (ə) son mübarək nəfəsinədək yanında olmasını vacib edəcək qədər aralarında xüsusi bir əlaqə və mehribanlıq olub. Bu səbəbdən də sonda onun sirrinin, əmanətlərinin və vəsiyyətinin əmanətdarına çevrilib. Necə ki, Beyhəqi özünün "əs-Sünənul-kubra", Dulabi "əz-Zurriyyətut-tahirətun-nəbəviyyə", İbn Əbdülbərr "əl-İstiab" əsərində Əsmadan nəql etdikləri rəvayətdə də qeyd edirlər: *"Fatimə (r) vəfat etdikdə Aişə gəlib içəri daxil oldu. Bunu görən Əsma dedi: "İçəri girmə!" O, gedib atası Əbu Bəkrə şikayət edib dedi: "Bu Xəsəməli*[849] *qadın mənimlə Peyğəmbər (s) qızının arasına girməyə çalışır, onun üçün gəlinlərə xas təxti-rəvan qurub". Əbu Bəkr gəlib qapının qarşısında dayanaraq dedi: "Ey Əsma, Peyğəmbərin (s) qızı Fatimə (ə) üçün gəlinlərə xas təxti-rəvan qurub xanımlarını yanına niyə buraxmırsan?" Buyurdu: "O, mənə yanına heç kəsi buraxmamağı hələ həyatda ikən tapşırıb. Həmçinin bu kəcavənin qurmağı da özü mənə vəsiyyət edib".*[850]

Dulabinin rəvayətində isə deyilir: *"Bu Xəsəməlli qadın bizimlə Peyğəmbər (s) qızının arasına girməyə çalışır..."*[851]

Rəvayətdən aydın olur ki, Fatimə (ə) ilə Əsma arasında xüsusi əlaqələr mövcud olub. Göründüyü kimi, o Xanımın (ə) göstərişinə əsasən,

[849] Yəməndə qəbilə adıdır.

[850] əs-Sünənul-kubra, Beyhəqi, c. 4, s. 34-35; əz-Zurriyyətut-tahirətun-nəbəviyyə, Muhəmməd ibn Əhməd Dulabi, s. 154; əl-İstiab, İbn Əbdülbərr, c. 4, s. 1897-1898

[851] əz-Zurriyyətut-tahirətun-nəbəviyyə, Muhəmməd ibn Əhməd Dulabi, s. 154

Peyğəmbərin (s) zövcələrinə Fatimənin (ə) nəşinin yanına daxil olmağa icazə vermir. Həmçinin bu xüsusi əlaqə Fatimənin (ə) dəfn üçün hazırlıq işlərini – qüsl, kəfən və s. məsələləri məhz Əsmanın yerinə yetirməsi ilə də bir daha təsdiqlənir. Bu işləri ümumən camaatın ixtiyarına qoymamış, məhz Əsmaya tapşırmışdı: *"O, mənə yanına heç kəsi buraxmamağı hələ həyatda ikən tapşırıb. Həmçinin bu kəcavənin qurmağı da özü mənə vəsiyyət edib".*

**Nəticə:** İlahi İhsan Zahir nə qədər təsəvvür yaratmağa çalışsa da, Fatimə (ə) ilə Əsma arasındakı əlaqə Xanımın (ə) həyatının son anlarında[852] yaranmamışdı ki, bu da Əbu Bəkrlə Əhli-Beyt (ə) arasındakı xoş əlaqələrin möhkəmliyinə dəlalət etsin. Onların arasındakı xoş münasibətlər uzun illər öncə – Cəfər Təyyar ibn Əbu Taliblə evliliyi zamanından başlayıb.

### 2. Əbu Bəkr Fatimənin (ə) vəziyyəti barədə soruşur

Əhli-Beytlə (ə) Əbu Bəkr arasındakı mehriban əlaqələrə, xəstələndiyi dövrlərdə daim İmam Əlidən (ə) Fatimənin (ə) halını xəbər almasına dəlil göstərdiyi ikinci rəvayət də yalnız boş bir iddiadan ibarətdir. Onun Süleym ibn Qeysdən nəql etdiyi rəvayət heç bir cəhətdən istəyinə cavab vermir. Əksinə, rəvayətin tam mətni öz əqidəsinin əleyhinədir. Mətnindəki mənaların aydın olmasını nəzərə alıb, həmin rəvayəti tam şəkildə möhtərəm oxucuya təqdim edirik ki, İhsan Zahirin iddiası ilə bu rəvayət arasında özü müqayisə aparsın: *"Əli (ə) məsciddə vacibi namazını qılırdı. Hər dəfə namaz qılarkən Əbu Bəkr və Ömər ona deyirdilər: "Peyğəmbərin qızı necədir?"*

*Xəstəliyi ağırlaşana qədər bu davam etdi. Sonra bir gün soruşub dedilər: "Bizimlə onun arasında olanları bilirsən. Mümkündürsə ondan bizim üçün izin istə ki, günahlarımıza görə üzr istəyək". Əli (ə) dedi: "Bu sizin*

---

[852] Və ya Əbu Bəkrlə evliliyi dövründə (tərc.)

*boynunuzdadır!"*

*Gəlib evin qapısının qarşısında oturdular. Əli (ə) Fatimənin (ə) yanına gedib dedi: "Ey azad qadın! Filan və filan kəslər qapıda gözləyirlər. Sənə salam vermək istəyirlər. Fikrin nədir?" Fatimə (ə) dedi: "Ev sənindir və azad qadın da zövcəndir! Necə münasib bilsən, elə et". Əli (ə) dedi: "Üstünü ört". Fatimə (ə) üstünü örtdü və üzünü divara çevirdi.*

*Əbu Bəkr və Ömər içəri girib salam verdilər və dedilər: "Bizdən razı ol, Allah da səndən razı olsun". Fatimə (ə) dedi: "Sizi buna nə məcbur etdi?" Dedilər: "Pis əməlimizi etiraf edir və bizi bağışlamağını diləyir, bizə qarşı hiss etdiyin nifrəti qəlbindən çıxarmağını istəyirik". Fatimə (ə) dedi: "Əgər doğru deyirsinizsə, sualıma cavab verin. Mənim və sizin bildiyiniz şeyi soruşacağam. Əgər doğru söyləsəniz, niyyətinizin həqiqi olduğunuzu biləcəyəm". Dedilər: "Hər nə istəyirsən, soruş". Fatimə (ə) dedi: "Sizə Allahı şahid tuturam! Peyğəmbərin (s) "Fatimə mənim bir parçamdır, onu incidən məni incitmişdir" (Və ya "Fatimə mənim bir parçamdır. Ona əziyyət edən mənə əziyyət etmişdir") dediyini eşitmisiniz?" Dedilər: "Bəli, eşitmişik". Fatimə (ə) əllərini səmaya tərəf qaldırıb dedi: "İlahi, bu ikisi mənə əziyyət etdilər. Mən bunları Sənə və peyğəmbərinə şikayət edirəm. Allaha and olsun, xeyr! Atam Peyğəmbərlə görüşüb etdiklərinizi ona xəbər verənə qədər sizdən razı olmayacağam. O sizin barənizdə hökm verəcək".*

*İbn Abbas deyir: "Bunu eşidən Əbu Bəkr ah-vah çəkib səsini qaldırdı və şiddətli narahatlıq keçirdi". Ömər dedi: "Bir qadının sözünə görə narahat olursan, ey Peyğəmbər xəlifəsi?!"*

*İbn Abbas deyir: "Fatimə (ə) atası Peyğəmbərin (s) vəfatından sonra cəmi qırx gecə yaşadı. Xəstəliyi ağırlaşdıqda Əlini (ə) çağırıb dedi: "Ey əmim oğlu! Mənim halımı görürsən. Sənə bacım Zeynəbin qızı ilə evlənməyini tövsiyə edirəm. Uşaqlarıma qarşı mənim kimi olacaq. Mənim üçün bir tabut hazırla. Mələklərin onu mənim üçün vəsf etdiklərini gördüm. Allah düşmənlərindən heç biri cənazəmə, dəfnimə və cənazə namazıma şahid olmasınlar".*

*İbn Abbas deyir: "Bu Möminlərin əmirinin (ə) sözüdür: "Bəzi şeylər var ki, onları tərk edə bilmərəm. Çünki Quran onunla Peyğəmbərin (s) qəlbinə nazil edilib. Bu iki əhd: dostum Peyğəmbərin (s) Nakisin, Qasitin və Mariqinlərlə döyüşmək barədə məndən aldığı əhd və Fatimənin (ə) Əmamə binti Zeynəblə evlənməyi vəsiyyət etməsidir".*

*İbn Abbas deyir: "Fatimə o gün vəfat etdi. Mədinə şəhərini kişi və qadınların ağlama səsləri bürüdü. Camaat Peyğəmbərin (s) vəfatında olduğu kimi çaşqın vəziyyətdə idilər. Əbu Bəkr və Ömər gəlib Əliyə təsəlli verdilər və dedilər: "Ey Əbülhəsən! Peyğəmbərin qızına namaz qılmaqda bizi qabaqlama".*

*Gecə olarkən Əli (ə) Abbası, Fəzli, Miqdadı, Salmanı, Əbu Zərri və Əmmarı çağırdı. Abbas önə keçib cənazə namazı qıldı və sonra onu dəfn etdilər.*

*Səhər ertədən Əbu Bəkr, Ömər və bir dəstə camaat gəldilər. Fatiməyə (ə) cənazə namazı qılmaq istəyirdilər. Miqdad dedi: "Dünən gecə Fatiməni dəfn etdik". Ömər üzünü Əbu Bəkrə tutub dedi: "Onların bunu edəcəklərini sənə demədimmi?" Abbas dedi: "Fatimə siz ikinizin ona cənazə namazı qılmamanızı vəsiyyət etdi".*

*Ömər dedi: "Ey Bəni-Haşim! Siz bizə olan köhnə həsədinizi əsla tərk etməyəcəksiniz. Bu sizin qəlbinizdə olan nifrətdir ki, heç vaxt aradan getməyəcək. Allaha and olsun, məzarını qazıyıb ona cənazə namazı qılmağı qərara aldım".*

*Əli (ə) dedi: "Ey Səhhakın oğlu! Əgər buna cəhd etsən səni sağ böyürün üstə çevirərəm. Allaha and olsun, əgər qılıncımı çəksəm sənin canını almadan qınına qoymaram. İstədiyini etməyə cəhd et görüm!" Ömərin cürəti bir anda yoxa çıxdı və susdu. Çünki Əlinin (ə) anda sadiq olduğunu bilirdi..."*[853]

Heç cürə anlaya bilmirik ki, İhsan İlahi Zahir bu rəvayəti necə dəlil göstərərək **"Şiələrin gümanlarının əksinə olaraq, Əbu Bəkrin Əhli-Beytlə (ə) daim xoş və yaxın əlaqələri vardı, Əlidən Peyğəmbərin (s)**

---

[853] Kitabu Suleym ibn Qeys (Ali-Muhəmmədin sirləri), s. 391-395

**qızının vəziyyətini tez-tez xəbər alırdı”** deyə iddia edə bilir?! Bu rəvayəti dəlil göstərib, ardınca da belə bir iddia irəli sürməsi ya onun möhtərəm oxucunu qəflətə salmaq cəhdi, ya da oxucunu yüngül saymasından irəli gəlir.